**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**TOHİD MƏMMƏDOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ CİNAYƏT POLİSİ TƏŞKİLATI VƏ ONUN "İNTERPOL" SİSTEMİNDƏ FƏALİYYƏTİ

**Bakı – "Elm və Təhsil" – 2020**

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu D.01.161 Dissertasiya Şurasının 30 noyabr 2016-cı il tarixli qərarı (38 saylı protokol) ilə çap olunur*

**İdeya müəllifi və layihənin rəhbəri** **Y.M.Mahmudov**
akademik, t.e.d., professor

**Elmi redaktor** **H.C.Əlibəyli**
t.e.d., professor

**Rəyçilər** **C.Ə.Bəhramov**
tarix üzrə fəlsəfə doktoru, dosent
**S.İ.Əliyeva**
tarix üzrə elmlər doktoru
**Ə.B.Ələkbərov**
tarix üzrə elmlər doktoru
**N.A.Məmmədli**
tarix üzrə fəlsəfə doktoru

**Məmmədov Tohid Dilən oğlu. Azərbaycan Respublikasının Beynəlxalq Cinayət Polisi Təşkilatı və onun "İnterpol" sistemində fəaliyyəti.** – Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2020. – 528 səh. + illüstrasiyalar

Monoqrafiya Azərbaycan Respublikasının Beynəlxalq Cinayət Polisi Təşkilatı – İnterpol sistemindəki fəaliyyətinə həsr olunmuşdur. Müəllifin əsas diqqət yetirdiyi məsələlər İnterpolun yaranmasının zəruriliyi və tarixi əsasları, struktur və vəzifələri, funksiya və əsas fəaliyyət metodları, digər beynəlxalq təşkilatlarla əməkdaşlığı, İnterpolun Azərbaycan Milli Mərkəzi Bürosunun yaranması və fəaliyyətinin əsas istiqamətləri, kadr təminatı, Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun beynəlxalq cinayətkarlığa qarşı mübarizəsidir.

Kitab tarix və hüquq ixtisası üzrə təhsil alan tələbələr, magistrlər, doktorant və müəllimlər üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-8384-6-6**

**© T.D.Məmmədov, 2020**

# ÖN SÖZ

Müasir dövrdə beynəlxalq münasibətlərin səciyyəvi xüsusiyyətlərindən biri də, başqa sahələrdə olduğu kimi, cinayətkarlıqla mübarizə sahəsində də dünya dövlətlərinin beynəlxalq əməkdaşlığıdır. Belə ki, kommunikasiya vasitələrinin inkişafı, sadələşmiş pasport rejimi bir neçə dövlətin ərazisində cinayətin törədilməsinə şərait yaradır. Həmçinin cinayətkarların cəzadan yaxa qurtarmaq, gizlənmək imkanları çoxalır. Bununla yanaşı, cinayətkarlıqla mübarizə işində inkişaf etmiş ölkələrin və bütün dünya dövlətlərinin təcrübəsindən istifadə olunması məqsədəuyğundur. Belə bir şəraitdə cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığın əvəzsiz rolu vardır. Bu əməkdaşlıq dünyanın beynəlxalq təşkilatları, beynəlxalq polis təşkilatları çərçivəsində ümumi, geniş əməkdaşlığın bir hissəsidir.

İnterpol ayrı-ayrı ölkələrin cinayət polis xidmətlərinin konkret cinayətlərin üstünün açılması, beynəlxalq cinayətlərin təhdidi, cinayətkarların axtarışı və tutulması üzrə birgə tədbirlərin əlaqələndirilməsi sahəsində praktiki əməkdaşlığın mexanizmi və vasitəçisi kimi çıxış edir. Bu əməkdaşlıq mexanizmində beynəlxalq əməkdaşlıqla mübarizə üzrə birgə polıs strategiyası və taktikasının işlənməsinin vahid mərkəzi kimi fəaliyyət göstərir.

Dövlətlərin İnterpol sistemində əməkdaşlığı sosial məsələlər üzrə dövlətlərin ümumi və geniş əməkdaşlığının bir hissəsidir.

Müasir dövrdə cinayətkarlıqla mübarizədə İnterpolun rolunun artması və bu təşkilat çərçivəsində əməkdaşlığı inkişaf etdirmək zərurəti müşahidə olunur. Dövlətlərə tövsiyə olunur ki, öz ərazilərində İnterpol çərçivəsində beynəlxalq əməkdaşlıq ideyalarının yaranmasına şərait yaratsınlar. Cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlıq, o cümlədən İnterpol səviyyəsində əməkdaşlıq müstəqillik qazanmış respublikamız üçün də xüsusi əhəmiyyət kəsb edir. İndi artıq xarici ölkələrlə əlaqələr genişlənmişdir və cinayət törətmiş şəxslərin cəzadan gizlənmək imkanları xeyli artmışdır.

Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyət göstərdiyi tarixə nəzər saldıqda görünür ki, bu təşkilat İnterpolun Baş katibi ilə müntəzəm əlaqə yaradır, ona üzv olan ölkələrlə cinayətkarlığa qarşı mübarizədə fəal rol oynayır. Azərbaycan Respublikası digər beynəlxalq təşkilatlar və qurumlarla yanaşı İnterpol çərçivəsində keçirilən tədbirlərdə və layihələrdə də fəal iştirak etmişdir. Bunun nəticəsi olaraq ölkəmiz artıq

bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Ölkəmizin beynəlxalq əlaqələrə yol tapması və xarici dövlətlərlə qarşılıqlı faydalı prinsip əsasında münasibətlərinin yaranması məqsədilə, tamhüquqlu üzv kimi, İnterpolla da əlaqələri siyasi əhəmiyyət baxımından aktuallıq kəsb edir.

Bu baxımdan Tohid Məmmədov tərəfindən Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyətində iştirak etməsi və onun tarixinin araşdırılması ilə bağlı monoqrafiyanın yazılması müsbət təşəbbüs sayılmaqla, təqdirəlayiq bir addım hesab olunmalıdır.

Əsərin strukturu məntiqi ardıcıllıqla qurulduğundan hadisələrin va burada araşdırılan məsələlərin bir-birinə uyğun bağlılığını izləmək imkanı yaranıb. Birinci fəslin birinci paraqrafında İnterpolun yaranması və fəaliyyətinin zərurililiyi qeyd olunmuşdur. Fəslin ikinci paraqrafında İnterpolun strukturu və vəzifələri, onun funksiyaları, əsas fəaliyyət metodları, ayrı-ayrı cinayətlərlə mübarizədə İnterpolun fəaliyyəti kimi məsələlər tarixi baxımdan araşdırılmışdır. Birinci fəslin üçüncü paraqrafında isə İnterpolun cinayətkarlığa qarşı mübarizə sahəsində dünyanın beynəlxalq təşkilatları ilə əməkdaşlığı hərtərəfli göstərilmişdir.

Əsərin ikinci fəsli "Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyəti" adlanır. Bu fəsildə müəllif tərəfindən İnterpolun Azərbaycan Milli Mərkəzi Bürosunun yaranması və fəaliyyətinin əsas istiqamətləri, kadr təminatı, həmçinin beynəlxalq cinayətkarlığa qarşı mübarizə məsələləri tarixşünaslıq baxımından araşdırılmış və təhlil edilmişdir.

Müəllif düzgün olaraq belə bir nəticəyə gəlir ki, Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu təşkilatın beynəlxalq cinayətkarlığa qarşı mübarizə istiqamətləri olan beynəlxalq terrorizm və narkotik vasitələrin qanunsuz dövriyyəsinə, mədəni sərvətlərin, avtonəqliyyat vasitələrinin oğurlanmasına, insan alverinə, kibercinayətkarlığa, mütəşəkkil və iqtisadi cinayətkarlığa və digərlərinə qarşı mübarizə ilə bağlı layihələrdə iştirak edir, dəyərli fikir mübadiləsi aparır, öz təkliflərini irəli sürür ki, bu da beynəlxalq cinayətkarlığa qarşı mübarizənin yüksək keyfiyyətindən, perspektivindən xəbər verir.

Kitabın yazılmasında imkan daxilində problemlərlə bağlı, mövcud ədəbiyyatdan və mənbələrdən istifadə etmişdir.

Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun cari arxivində olan MMB-nin rüblük, 6 və 9 aylıq, illik xidməti arayış hesabatları əlyazma şəklində müəllif tərəfindən götürülmüş və mənbə kimi istifadə olunmuşdur. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Polis Akademiyasının kitabxanalarında olan, İnterpolla bağlı arayış hesabatlardan, rus, qərb, habelə Azərbaycan alimlərinin əsərlərindən, AR DİN-in bülleten-

lərindən, əmr və göstərişlərindən, ayrı-ayrı müəlliflərin məqalələrindən, dövri mətbuatdan – qəzet və jurnallardan, eləcə də internet saytlarında yerləşdirilmiş materiallardan istifadə tədqiqatın əsasını təşkil etmişdir.

Mənbələrdən və ədəbiyyatdan düzgün istifadə olunması, bu prosesdə həm də müqayisəli metodun tətbiqi müəllifə əsərdə qoyulmuş problemlərlə əlaqədar maraqlı ümumiləşdirmələr aparmağa və obyektiv elmi nəticələr əldə etməyə imkan yaratmışdır.

Tohid Dilən oğlu Məmmədovun "Azərbaycan Respublikasının Beynəlxalq Cinayət Polisi Təşkilatı və onun "İnterpol" sistemində fəaliyyəti" adlı monoqrafiyasında Azərbaycan Respublikasinin İnterpol sistemində beynəlxalq cinayətkarlıqla mübarizə sahəsindəki fəaliyyəti ciddi araşdırılmış, çox maraqlı statistik materiallar üzə çıxarılmışdır. Burada olan "Əlavələr" bölməsində verilən materiallar da əsərin böyük zəhmət hesabına başa gəldiyindən xəbər verir.

***Həsən Əlibəyli***
***tarix elmləri doktoru, professor***

# GİRİŞ

Müasir beynəlxalq münasibətlər sistemində beynəlxalq sülh və təhlükəsizliyin, insan hüquqlarının, dövlətlərarası və beynəlxalq münasibətlərin pozulmasına səbəb olan bir sıra qlobal problemlərin, ilk növbədə beynəlxalq terrorizm, separatizm, insan alveri, dini ekstremizm, sürətlə silahlanma kimi problemlərin müzakirəsi və bu problemlərə qarşı mübarizə zərurəti getdikcə daha geniş xarakter almağa başlayıb. Bəzən eyni cinayət hadisəsi paralel olaraq bir neçə ölkədə baş verir. Odur ki, bu və digər cinayətləri törədən şəxs və şəxslərin yerinin müəyyənləşdirilməsi, saxlanılması və köçürülməsi üçün beynəlxalq əməkdaşlığa, başqa sözlə, cinayətkarlığa qarşı beynəlxalq əməkdaşlığa ciddi ehtiyac vardır. Onu da qeyd etmək lazımdır ki, cinayətkarlığın “beynəlmiləlləşməsi” onunla mübarizə tədbirlərinin dövlətlərin birgə səyi əsasında həyata keçirilməsini zəruri edir. Belə bir şəraitdə cinayətkarlıqla mübarizənin effektliyini artırmaq üçün müxtəlif ölkələrin hüquq-mühafizə orqanları arasında peşəkar əlaqələrin olması və onların genişləndirilməsi zəruridir. Bu isə cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq təşkilatların rolunun vacibliyini ön plana çəkir. Belə universal təşkilatlardan ən öncülü Beynəlxalq Cinayət Polisi Təşkilatı – İnterpoldur. İnterpol məhz bu zərurətdən meydana çıxmış və beynəlxalq münasibətlərin spesifik sahəsinə çevrilmişdir.

1993-cü il sentyabr ayının 20-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində keçirilmiş müşavirədə çıxış edən Ümummilli lider Heydər Əliyev demişdi: “Azərbaycanın iqtisadi, elmi, mədəni, intellektual potensialı ilə yanaşı, daxili işlər orqanları sistemi sahəsində də böyük potensialı vardır. Qeyd etdim ki, müstəqilliyi təmin etmək ucun bir necə dövlət atributu mövcuddur. Əgər onlardan biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi orqanları, polis orqanlarıdır”[1].

Ümummilli lider Heydər Əliyev İnterpolun gördüyü işlərə hər bir ölkənin ehtiyacı olduğunu, beynəlxalq cinayətkarlıqla mübarizə işinin daha da gücləndirilməsi məqsədilə Azərbaycanın İnterpolla əməkdaşlığının daha da genişlənməsinin vacibliyini vurğulamış, bir sıra sahələrdə İnterpolla sıx əlaqələr qurulmasına Azərbaycanın xüsusi əhəmiyyət verdiyini nəzərə çatdırmış, beynəlxalq terrorizmin qarşısını almaq üçün belə əməkdaşlığın çox fay-

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab (iyun 1993 – may 1994). Bakı: 1997, s.140.

dalı olduğunu bildirmişdir.[1]

Müasir dünya təcrübəsi göstərir ki, beynəlxalq münasibətlər sisteminin ənənəvi faktorları hesab olunan milli dövlətlərlə yanaşı, beynəlxalq təşkilatların rolu da getdikcə genişlənir. Onların beynəlxalq həyata mühüm və həlledici təsir göstərməsi müxtəlif tarixi mərhələlərdən keçərək, müasir dövrdə bu münasibətlərin institutlaşmasında, dövlətlərarası qarşılıqlı əlaqələrin və əməkdaşlığın yaranmasında ciddi faktora çevrilmişdir[2].

Müasir beynəlxalq hüquq başqa sahələrdə olduğu kimi, cinayətkarlıqla mübarizə sahəsində də dövlətlərin beynəlxalq əməkdaşlığını zəruri hesab edir. Belə ki, kommunikasiya vasitələrinin inkişafı, sadələşdirilmiş pasport rejimi bir neçə dövlətin ərazisində cinayətin törədilməsinə şərait yaradır, həmçinin cinayətkarın cəzadan yaxa qurtarmaq, gizlənmək imkanları çoxalır. Bununla yanaşı, cinayətkarlıqla mübarizə işində inkişaf etmiş ölkələrin və bütün dünya dövlətlərinin təcrübəsindən istifadə olunması məqsədəuyğundur. Belə bir şəraitdə cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığın əvəzsiz rolu vardır. Bu əməkdaşlıq qarşılıqlı hüquqi yardım, cinayətkarın maraqlı tərəfə verilməsi, müəyyən hərəkətlərin beynəlxalq cinayət qismində tanınması və s. nəzərdə tutulan ikitərəfli və çoxtərəfli sazişlər (cinayətkarın verilməsi haqqında 1957-ci il Avropa (Paris) konsepsiyası, saxta pul kəsməklə mübarizə üzrə 1929-cu il Cenevrə sazişi, Azərbaycan və dünya ölkələri, Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri arasında qarşılıqlı hüquqi yardım nəzərdə tutan saziş və s.) müvafiq ümumi və ya məhəlli beynəlxalq təşkilatlar (BMT cinayətkarlığın qarşısının alınması və onunla mübarizə üzrə komitə, Narkotik vasitələr üzrə komissiya, BMT-nin regional tədqiqat institutları və mərkəzləri) Avropa İttifaqı (Aİ), AŞ, (AŞ, İƏT), Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova (GUAM) və s. Ərəb Ölkələri Liqası (ƏÖL), Avropa Polis təşkilatı olan Avropol, ASEAN ölkələrinin polis təşkilatı olan ASEANPOL, Amerika dövlətləri təşkilatı çərçivəsində yaradılan CICAD təşkilatı, Şengen müqaviləsinə daxil olan ölkələrin polis təşkilatı (Şengen), Balkan ölkələri polis təşkilatı, Mülki Aviasiyaya qarşı törədilən qanunsuz hərəkətlər üzrə məsələlərdə hava nəqliyyatı Beynəlxalq Assosiasiyası, İnterpol və s. çərçivəsində aparılır.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası da öz daxili və xarici siyasət vasitələri ilə mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına yönəlmiş milli təhlükəsizlik siyasətinin formalaşdırılması və həyata keçirilməsinə çalışmışdır. Bu məqsədlə ölkəmiz 1992-cü ildə İnterpola üzv olaraq xarici dövlətlərin hüquq mühafizə orqanları ilə birbaşa əməkdaşlıq əlaqələrinin təməlini

[1] Kriminogen vəziyyətə qarşı birgə mübarizə çox vacibdir // Xalq qəzeti, 18 fevral, 1997, №34 (22430). Azər.TAC

[2] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005, s.184.

qoymuşdur. Ötən müddət ərzində Azərbaycan hökuməti, Daxili İşlər Nazirliyi ilə İnterpol arasında cinayətkarlıqla mübarizənin müxtəlif sahələri üzrə beynəlxalq əməkdaşlığın inkişaf dinamikasının, uğurların və çətinliklərin, gələcək perspektivlərinin monoqrafiya işi səviyyəsində araşdırılması xüsusi aktuallıq kəsb edir.

Mövzunu aktual edən mühüm cəhətlərdən biri də Azərbaycan Respublikasının digər nüfuzlu beynəlxalq təşkilatlarla yanaşı, tamhüquqlu üzv kimi İnterpol sistemində fəaliyyət tarixinin indiyədək milli tarixşünaslıqda işlənməməsidir. Belə ki, Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq İnterpolun yaranması və tarixi inkişafı, onun strukturu və vəzifələri, əsas fəaliyyət metodları, ayrı-ayrı cinayətlərlə mübarizədə Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyəti kimi məsələlərin tarixi aspektdən araşdırılmasına cəhd edilmişdir.

Dünyada cinayət təhdidləri artmışdır. Həmin təhdidlərin xarakteri dəyişməz qalsa da, formaları dəyişir. Əlbəttə, biz yeni çağırışlara, yeni təhdidlərə hazır olmalıyıq. Azərbaycan və İnterpol arasında əməkdaşlığın təhdidlərə necə cavab vermə səviyyəsinin araşdırılması, İnterpola üzv olan ölkələrin hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizə sahəsində təcrübələrinin öyrənilməsi tədqiqat işini aktuallaşdıran səbəblərdən biridir.

Baş verən cinayətin xarici elementlə mürəkkəbləşdiyi istənilən halda polisin köməyinə İnterpol çatır. İnterpol ayrı-ayrı ölkələrin cinayət polis xidmətlərinin konkret cinayətlərin üstünün açılması, beynəlxalq cinayətlərin təhqiqi, axtarışı və tutulması üzrə birgə tədbirlərin əlaqələndirilməsi sahəsində praktiki əməkdaşlıqlarının mexanizmi və vasitəçisi kimi çıxış edir. Bu əməkdaşlıq mexanizmində İnterpol, beynəlxalq cinayətkarlıqla mübarizə üzrə birgə polis strategiya və taktikasının işlənməsinin vahid ümumdünya mərkəzi kimi fəaliyyət göstərir.

Dövlətlərin İnterpol sistemində əməkdaşlığı sosial məsələlər üzrə dövlətlərin ümumi və geniş beynəlxalq əməkdaşlığının bir hissəsidir. Bu əməkdaşlığın başında BMT durur və cinayətkarlıqla mübarizə problemi ilə məşğul olan digər təşkilatlar bu problemlə onların fəaliyyətində əsas olan digər məsələlərlə yanaşı məşğul olur. Bu nöqteyi-nəzərdən, İnterpol beynəlxalq cinayətkarlığın qarşısının alınması və onunla mübarizədə bilavasitə praktik fəaliyyət göstərən unikal yeganə beynəlxalq təşkilatdır.

Təşkilat nizamnaməsinin 2-ci maddəsində göstərilir ki, onun əsas vəzifəsi dövlətlərdə fəaliyyət göstərən, qanunvericilik çərçivəsində və insan hüquqları bəyannaməsinə müvafiq olaraq, bütün cinayət polisi orqanlarının geniş, qarşılıqlı əməkdaşlığına kömək etməyə qadir olan institutlar yaratmaq və inkişaf etdirməkdir.

Azərbaycan İnterpolun üzvü kimi, təşkilat çərçivəsində əməkdaşlıqda iştirak edir və ona xüsusi əhəmiyyət verir. Ümummilli lider Heydər Əliyevin İnterpolun sabiq Baş katibi R.Gendalla görüşü zamanı İnterpolun gördü-

yü işlərə hər bir ölkənin ehtiyacı olduğu vurğulanmışdır. Prezident İlham Əliyevin məqsədyönlü və ardıcıl siyasəti nəticəsində bərqərar olmuş möhkəm dövlət intizamı, qanuna söykənən iş prinsipi, hüquq-mühafizə orqanlarının səmərəli fəaliyyəti, xalqın polisə olan etimad və dəstəyi ölkədə cinayətkarlıq və onun bütün təzahürləri ilə mübarizənin yüksək səviyyədə davam etməsinə, sabitliyin gələcəkdə də qorunmasına imkan verir. Azərbaycan Respublikasında İnterpolun MMB-si AŞ və İnterpolun Baş Katibliyi xətti ilə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılırlar. Respublikada beynəlxalq cinayətkarlığa qarşı mübarizə üzrə statistik göstəricilər, narkotik maddələrin və psixotrop vasitələrin qanunsuz dövriyyəsi, saxta pulların hazırlanması və dövriyyəyə buraxılması və s. barədə illik statistik məlumatlar hazırlanır və İnterpolun Baş katibliyinə göndərilir. Ümummilli lider Heydər Əliyevin və prezident İ.Əliyevin başçılığı altında Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığının bu spesifik sahədə əldə etdiyi tarixi təcrübənin öyrənilməsi baxımından da tədqiqat işi aktualdır.

İnterpolun və təşkilatın MMB-nin cinayətkarlığa qarşı mübarizə sahəsindəki fəaliyyəti çoxşaxəlidir və milli polis orqanlarının fəaliyyəti üçün geniş imkanlar açır. İnterpolun MMB-nin cinayətlərin qarşısının alınması və açılması ilə əlaqədar, müəyyən təcrübəyə və müsbət nəticələrə nail olunmuşdur. Bu fəaliyyətin gündən-günə təkmilləşməsi, daha yüksək nəticələr əldə edilməsi üçün əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi tələb olunur ki, bu da tədqiqat işinin elmi-siyasi cəhətdən aktual əhəmiyyət daşıdığını göstərir.

Həyatımız üçün ciddi təhlükə yaradan fəaliyyətlər arasında insan alveri özünü daha qabarıq göstərir. Dünyanın qloballaşmaqda olan bu bəlası bizdən də yan keçməyib. XXI əsrin ilk illərindən insan alverinə qarşı daha ciddi mübarizəyə başlanılıb. Artıq 2000-ci ildən başlayaraq insan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında beynəlxalq qətnamə və konvensiyalara qoşulmuşuq. Ayrıca, ölkədə bununla bağlı dövlət proqramları, eləcə də milli fəaliyyət planları həyata keçirilməkdədir. Tarixə nəzər salsaq, ildən-ilə insan alverinə qarşı mübarizənin ölkəmizdə gücləndiyini görərik. Bildiyimiz kimi, ölkəmizdə İnsan alverinə qarşı mübarizənin daha da qətiyyətli aparılması üçün ölkə prezidenti İlham Əliyev DİN-də "İnsan Alverinə Qarşı Mübarizə İdarəsi"nin yaradılması haqqında sərəncam imzalamışdır. Həmin İdarənin rəsmi hesabatında milli fəaliyyət planının (2009-2013-cü illər) uğurlu icrası müsbət nəticələr verərək, son beş il ərzində insan alveri cinayətləri 3,9 dəfə, insan qurbanlarının sayı isə 28,2 faiz azalmışdır. Bu səbəbdən problemin araşdırılması aktualdır.

Yuxarıda qeyd edilənlər İnterpolun yaranması və tarixi inkişafı, onun strukturu, ayrı-ayrı cinayət növləri ilə mübarizədə İnterpolun fəaliyyəti kimi

məsələlərin işıqlandırılmasının, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının İnterpolda rolunun və yerinin tədqiqinin aktual əhəmiyyət daşıdığını göstərir.

Tədqiqat obyekti kimi seçilən "Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyəti tarixindən" mövzusu tarixşünaslıqda xüsusi olaraq araşdırılmasa da, ayrı-ayrı tarixi əsərlərdə mövzuya bu və ya digər dərəcədə toxunulmuşdur.

Ə.İ.Əliyev "Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri"[1] əsərində müasir beynəlxalq hüquqda insan hüquqları məsələsinə toxunmuşdur. Bundan başqa, onun "İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi"[2] adlı əsərində İnterpolun fəaliyyəti barədə yazılmışdır.

N.A.Mehdiyev, İ.V.Abutalıbovun "Beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlığın əsas aspektləri"[3] adlı əsərində İnterpolun və Azərbaycan Respublikasında İnterpolun MMB-nin yalnız beynəlxalq terrorizmə qarşı mübarizə məsələsinə toxunulmuşdur.

N.A.Mehdiyevin "Cinayətkarlığa qarşı mübarizədə dövlətlərin Beynəlxalq əməkdaşlığının hüquqi formaları"[4] əsərində də, əsasən, beynəlxalq cinayətkarlığa qarşı mübarizədə İnterpolun beynəlxalq təşkilatlarla birgə əməkdaşlığı məsələsinə, həmçinin beynəlxalq axtarışda olan cinayətkarların tapılmasına və Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun (MMB) fəaliyyətinə toxunulmuşdur. Bundan başqa, müəllif müxtəlif elmi jurnallarda və müxtəlif konfrans materiallarında İnterpola, onun tarixinə dair məqalələr yazmışdır. Monoqrafiya işində əsasən rus və Qərb alimlərinin fikirlərinə xüsusi diqqət yetirilmiş və yeri gəldikdə onların subyektiv mülahizələri əks olunmuşdur.

V.S.Ovçinski "İnterpol sual-cavabda" kitabında[5] İnterpolun tarixinə, onun strukturuna ətraflı yer vermişdir.

K.S.Rodionovun və Y.M.Belsonun eyniadlı "İnterpol – Beynəlxalq Cinayət Polisi Təşkilatı"[6], həmçinin İ.M.Belsonun "İnterpol – cinayətkarlıqla mübarizədə"[7] əsərlərində İnterpolun tarixi və onun fəaliyyət sahələri ət-

---

[1] Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı: 2007.

[2] Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Bakı: 2009.

[3] Mehdiyev N.A., Abutalıbov İ.B. Beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlığın əsas aspektləri. Bakı: 2007.

[4] Мехтиев Н.А. Правовые формы международного сотрудничества государств в борьбе с уголовной преступностью. Баку: 2004.

[5] Овчинский В. С. Интерпол в вопросах и ответах. Москва: 2008, с. 368.

[6] Родионов К.С. Международная организация уголовной полиции (Интерпол). Москва: 1979.

[7] Бельсон Р.М. Международная организация уголовной полиции – Интерпол. Учеб. пособие. Москва: 1981; yenə onun. Интерпол в борьбе с уголовной преступностью.

raflı işıqlandırılmışdır. V.Samarinin 2003-cü ildə Petroqradda nəşr olunmuş kitabında[1] İnterpolun fəaliyyətindən, onun strukturu və yaranma tarixindən geniş bəhs olunur.

B.D.Çarisevanın "Saxta pullar"[2] əsərində saxta pullara qarşı İnterpolun mübarizəsindən söz açılır. N.Qasımovun "İnterpol sistemində beynəlxalq axtarışın təşkili və taktikası"[3], S.P.Antipovun "Rusiya daxili işlər orqanlarının ekstradisiya ilə bağlı fəaliyyəti"[4], V.Q.Levitanov və V.Samarinin "İnterpolun Milli Mərkəzi Bürosu"[5] əsərində İnterpolun üzvü olan dövlətlərin MMB-nin fəaliyyətindən bəhs olunur. A.Q.Volevodzun "Beynəlxalq hüquq-mühafizə təşkilatları"[6] əsərində İnterpolun digər beynəlxalq təşkilatlar və Beynəlxalq Polis Təşkilatları ilə əlaqələrindən danışılır.

Bundan başqa, Qərb alimlərinin əsərlərindən də istifadə olunmuşdur. F.Bresnerin "İnterpol"[7] əsərində İnterpolun tarixindən, onun inkişaf və fəaliyyət istiqamətindən bəhs olunur. Y.Jeskenin əsərlərində[8] İnterpolun kriminalistik fəaliyyətinə dair tarixi faktlar öz əksini tapmışdır.

Qərb alimi J.Nepotenin yazdığı "Beynəlxalq polis təşkilatı"[9] əsərində İnterpolun tarixi fəaliyyəti və istiqamətləri geniş işıqlandırılıb. Bundan başqa Qərb alimi F.Beesusannanın 1985-ci ildə Londonda nəşr olunmuş əsərində[10] İnterpolun tarixi fəaliyyətindən bəhs olunur.

Yuxarıda adları qeyd olunan yerli, rus və Qərb alimlərinin əsərlərindən monoqrafiyanın yazılmasında istifadə olunmuş və istinad edilmişdir. Tədqiqat işində müəlliflərin subyektiv mülahizələri öz əksini tapmışdır.

Monoqrafiyanın yazılmasında problemə dair internet saytlarındakı materiallara da müraciət olunmuşdur.

Tədqiqat işi mənbəşünaslıq bazasına söykənir. Bu bazanın əsasını Azərbaycan Respublikasının Konstitusiyası, Qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası

---

Москва: 1989.

[1] Самарин В.И. Интерпол. Международная организация уголовной полиции. Санкт-Петербург: 2003.

[2] Царицева В.Д. Фальшивые деньги (Фальшивомонетичество). Москва: 2002.

[3] Гасымов Н.Г. Организация и тактика международного розыска в системе Интерпола. Москва: 1997.

[4] Антипов С.П. Участие органов внутренних дел России в розыске лиц, подлежащих экстрадиции. Москва: 1997, с. 250.

[5] Левитанов В.Г., В.Самарин. Национальное Центральное бюро Интерпола. Минск: 2002.

[6] Волеводз А.Г. Международные правоохранительные организации. Москва: 2011.

[7] Бреснер Ф., Фонер М. Интерпол. Москва: 1998.

[8] Jeschke Y. İnterpol Wachrichten-kriminalistik. Hamburg: 1972, Heft 1; Jesckhe Y. Interpol zwischen 1933-1945// Kriminalistik. Hamburq: 1971, heft 3.

[9] Nepote Jean. International Police Cooperation // ICPR, 1973, №267.

[10] Beesusanna F. Lood Drugq-a.Zosing Batt Le // U.S.newsand World Report-1985,march 25.

Nazirlər Kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, dövlətlərarası müqavilələr, İnterpolun nizamnaməsi, Azərbaycan Respublikasının polis haqqında, əməliyyat-axtarış fəaliyyəti haqqında qanunları, Daxili İşlər Nazirliyinin (DİN) əmr və göstərişləri, DİN-in və İnterpolun MMB-nin Əsasnaməsi və Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxiv materialları təşkil edir.

Monoqrafiyanın yazılmasına güclü təsir edən və onun üçün faktiki baza rolunu oynayan əsas mənbə Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxividir.

MMB-nin fəaliyyət göstərdiyi tarixi dövrdən indiyə qədər olan rüblük, 6 aylıq, 9 aylıq və illik hesabat arayışları əlyazma şəklində tərəfimizdən əldə edilərək hərtərəfli araşdırılmış və monoqrafiya işinin yazılmasında əhəmiyyətli mənbə bazası rolunu oynamışdır.

Monoqrafiya işinin yazılmasında bir sıra qəzet və jurnal materiallarından da istifadə olunmuşdur. Tədqiq olunan problemə dair materiallar "Azərbaycan", "Respublika", "Mübariz keşikdə", "Exo", "Bakı" qəzetlərində, həmçinin "Qanun", "Hüquq, dövlət və qanun" jurnallarında bu və ya digər dərəcədə işıqlandırılır.

Əsas məqsədlərdən biri Azərbaycan Respublikasının İnterpol sistemindəki fəaliyyəti, yeri və rolunun öyrənilməsidir. Tədqiqat işində İnterpolun fəaliyyəti tarixi də hərtərəfli araşdırılmışdır.

1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən Azərbaycan dünyaya inteqrasiya etmək üçün beynəlxalq təşkilatlara üzv oldu. İnterpolun üzvlüyünə də qəbul olunan Azərbaycan digər ölkələrlə əməkdaşlıq etməyə başladı. 90-cı illərdən etibarən Azərbaycan cinayətkarlığa qarşı mübarizədə öz tarixi yerini tutdu.

Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasının İnterpol sistemində rolunu müəyyən etmək, onun tarixini yazıb bu sahədə buraxılmış elmi-tarixi boşluğu doldurmaqdan ibarətdir. Mövzunun aktuallığını və həmin problemin müstəqil surətdə tədqiq edilib öyrənilmədiyini, bu gün tarix elmi qarşısında qoyulan yeni tələbləri nəzərə alaraq, bir çox məsələlərə xüsusi fikir verilmiş, tədqiqat məqsədilə aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində əlaqələri tədqiq etmək;
- Azərbaycan Respublikasında İnterpolun MMB-nin strukturu, kadr təminatı və peşə fəaliyyətini tarixi baxımdan araşdırmaq;
- Azərbaycan Respublikasında İnterpolun MMB-nin İnterpola üzv olan digər ölkələrlə cinayətkarlığa qarşı mübarizəsini tədqiq etmək;
- Azərbaycan Respublikasında İnterpolun MMB-nin İnterpolun Baş katibliyi ilə cinayətkarlıqla mübarizə sahəsində əlaqələrini araşdırmaq;
- Azərbaycan Respublikasında İnterpolun hüquq-mühafizə orqanları

ilə və Daxili İşlər orqanları ilə olan əlaqəsini araşdırmaq;

- Azərbaycan Respublikasında İnterpolun digər beynəlxalq təşkilatlar və beynəlxalq polis təşkilatları ilə əlaqəsini təhlil etmək və tarixi baxımdan araşdırmaq;
- Azərbaycan Respublikasının İnterpola üzv olmayan ölkələrlə əlaqəsini araşdırmaq.

Monoqrafiya yazılarkən tarix elmində tətbiq olunan ümumi metodlardan istifadə edilmiş, müqayisəli və sistemli təhlil metodları əsasında dərin ümumiləşdirmələr aparılmış və mühüm elmi nəticələr əldə edilmişdir.

Tətbiq edilən dialektik metodlar əsasında cinayətkarlığa qarşı beynəlxalq mübarizənin tarixi araşdırılmış, müstəqil Azərbaycan Respublikası ilə İnterpol, İnterpola üzv olan ölkələr ilə beynəlxalq təşkilatlar arasında ikitərəfli və çoxtərəfli əlaqələri öyrənməyə imkan yaratmışdır.

Tədqiqatın mənbəşünaslıq bazasını təşkil edən qaynaqlar üzərində işləyərkən induktiv (problematik) metoddan da istifadə olunmuşdur. İkitərəfli əlaqələrin təhlilində statistik, analiz, sintez, tarixi təsvir və müqayisəli metodların təhlilinə geniş yer verilmişdir.

Tədqiqatın elmi yeniliyi onun məqsəd və vəzifələri nəzərə alınmaqla müəyyən edilir. Bunlar aşağıdakılardan ibarətdir:

- İlk dəfə olaraq Azərbaycanın İnterpol sistemində tarixi araşdırılır;
- Azərbaycan artıq müstəqil dövlət kimi, İnterpolun üzvü olan ölkələrlə, İnterpol çərçivəsində beynəlxalq cinayətkarlığa qarşı mübarizə aparır;
- Azərbaycanın beynəlxalq cinayətkarlığa qarşı mübarizəsi fəaliyyəti tarixi baxımdan araşdırılır;
- Azərbaycan Respublikasında İnterpolun MMB-nin strukturu, kadr təminatı və peşə fəaliyyəti öyrənilir;
- Azərbaycan Respublikasında İnterpolun MMB-nin hüquq-mühafizə orqanlarının və DİO-ları ilə əlaqələri tarixi baxımdan araşdırılır;
- MMB-nin kadr təminatı, peşə fəaliyyəti və onun beynəlxalq təşkilatlarla, MMB-nin İnterpol üzvü olan dövlətlərlə əlaqəsi araşdırılır.
- Azərbaycan Respublikasının İnterpola üzv olmayan ölkələrlə əlaqəsi araşdırılır.

Bütün bunlar bizdə bu monoqrafiyanın Azərbaycan Respublikasının beynəlxalq cinayətkarlıqla mübarizəsinin kompleks şəkildə öyrənilməsi sahəsində elmi dəyər kəsb edəcəyinə ümid yaradır.

# I FƏSİL

## İNTERPOL: DÜNƏNİ, BU GÜNÜ VƏ SABAHI

### 1.1. İnterpolun meydana gəlməsinin hüquqi-tarixi aspektləri

Müasir dövrdə beynəlxalq münasibətlərin genişlənməsi və dərinləşməsi, habelə elmi-texniki tərəqqinin sürətlə inkişafına baxmayaraq, mənfi ünsürlü meyillərin, o cümlədən cinayətkarlığın artması da xüsusi vurğulanmışdır. Onu da qeyd etmək lazımdır ki, cinayətkarlığın "beynəlmiləlləşməsi" onunla mübarizə tədbirlərinin dövlətlərin birgə səyi əsasında həyata keçirilməsini zəruri edir. Bu isə cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq təşkilatların rolunun vacibliyini də ön plana çəkir. Belə universal təşkilatlardan ən öncülü beynəlxalq cinayət polisi təşkilatı – İnterpoldur.

İnterpolun müasir dövrdə müstəsna rola və fəaliyyətə malik olmasında onun keçdiyi tarixi şərait və bu beynəlxalq təşkilatın yaranmasını şərtləndirən amillərin nəzərdən keçirilməsi zəruri əhəmiyyət kəsb edir.[1]

Cinayətkarlıqla mübarizə problemi bəşəriyyəti həmişə düşündürmüş və narahat etmişdir. Bu mübarizə əsrlər boyu bütün ölkələrdə özəl xarakter daşımışdır. Hər bir cəmiyyət ona xas olan cinayətlərlə, cinayətin sosial strukturuna və müəyyən inkişaf mərhələsində cəmiyyətin sosial-iqtisadi proseslərinə uyğun olan cinayətkarlıq strukturuna malikdir.

Hər bir dövrün özünəməxsus cinayətləri vardır. Məsələn, elmi-texniki tərəqqinin və sənayeləşmənin müasir mərhələsinin cinayətləri və cinayətkarlığı hər bir ölkədə dövrünün və sosial-iqtisadi şəraitin əlamətlərini daşıyır. Təkcə müasir cinayətlərin törədilmə texnikasının mükəmməlliyi deyil, həmçinin müasir cinayətkarlığın miqyası, onun mütəşəkkilliyinin artması cəmiyyətin inkişafının digər mexaniki səviyyəsinin və onun digər təşkilati strukturunun ifadəsidir.

---

[1] Aslanov E.Z. İnterpolun yaranması və inkişafı: tarixi şərait və mövcud zərurət // femida.az, 10 may 15 th. 2012//4 comments, s.1.

Dünyanın bütün ölkələrində bugünkü cinayətkarlığın aydın nişanəsi bir çox hüquqa zidd amillərin beynəlxalq səviyyədə təşkil olunması və peşəkar formada törədilməsidir.[1]

"Beynəlxalq cinayətkarlıq", "beynəlxalq cinayətkar" terminləri bir çox ölkələrin alimlərinin leksikonunda möhkəmlənmişdir. Hələ Homerin "Odisseya" əsərində qətl törətdikdən sonra vətənini tərk edərkən cəzadan və ölümdən qaçan adamların adı çəkilmişdir. Hamburqun polis muzeyində e.ə. 145-ci ilə aid olan sənəddə oğurluq etmiş və İsgəndəriyyəyə qaçmış qulun axtarışı və gətirilməsində köməklə bağlı xahiş idi. Sənəddə bu gün də cinayətkarların axtarışında istifadə olunan məlumatlar öz əksini tapmışdır: adı, soyadı, doğulduğu yer, yaşı, xarici görünüşünün tam təhlili. Bununla belə, daha çox gözə çarpan əlamətlər qeyd olunurdu: çapıq, çənədə çökək və s.

Beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığı özündə əks etdirən ilk yazılı müqavilə hələ eramızdan əvvəl 1296-cı ildə Misir fironu II Ramzeslə xetlər çarı Xattişin arasında bağlanmış müqavilə olmuşdur. Həmin müqavilədə deyilir ki: "Əgər kimsə Misirdən qaçıb xetlər ölkəsinə gələrsə, onda xetlər onu tutub saxlayacaq və Ramzesin ölkəsinə qaytaracaqdır". Beynəlxalq hüququn bu xüsusiyyətdə, bizə məlum olan ilk müqaviləsi kimi, Ramzeslə Xattişin arasında bağlanmış bu müqavilə böyük əhəmiyyətə malikdir.

Rus alimi D.N.Nikolski yunan şəhər dövlətləri arasında bağlanmış müqavilələrdə cinayətkarların verilməsi hallarının olduğunu göstərirdi. O, hətta Roma İmperiyasından Yunanıstana qaçmış qulların geri verilməsi faktını da qeyd edirdi. Bununla yanaşı, qeyd etmək lazımdır ki, o dövrdə dövlətlərin rəqabəti və qeyri-məhdud inkişafları şəraitində cinayətkarların verilməsi institutu təkmilləşdirilməmiş qalırdı.

Feodalizm dövründə cinayətkarlığa qarşı mübarizə bir qədər də təkmilləşdi. Bu dövrdə cinayətkarların verilməsi Bizansda, Fransada, İngiltərədə tətbiq olunmağa başlandı. Həmin dövrdə katolik kilsəsi öz məqsədləri üçün daha çox kafirlərə qarşı bu institutdan geniş istifadə edirdi. Bu dövrdə cinayətkarlıqla mübarizədə əməkdaşlıq sahəsində, eyni zamanda bir neçə dövlətin mənafeyinə toxunan müqavilələrin hüquqi koordinasiya forması və sığınacaq hüququ institutu da formalaşmağa başladı.

Cinayət törətmiş və cəzadan yayınmaq üçün xaricə qaçmış şəxslər barəsində qeydlər və məlumatlara bir çox tarixi sənədlərdə rast gəlinir. Bu şəxslərin bəziləri üçün yerdəyişmə həyat tərzinə, digərlərinə – daimi məşğuliyyətə və hətta sənətə, peşəyə çevrilir. Bəzən bu hüquq pozan cinayətkarları "qastrolçu" adlandırırdılar. Demək olar ki, əksər hallarda törədilən cinayət-

[1] Бороди С.В., Лячов У.Г. Международное сотрудничество государств в Борбе с преступностью. Ленинград: 1978, с. 27.

lər cəzasız qalırdı. XIX əsrin II yarısında məşhur rus alimi, Peterburq Universitetinin professoru A.Ştiqlis yazırdı: "Beynəlxalq ünsiyyət anlayışının inkişafı ilə bu cür cəzasızlıq nəinki cinayət törətdiyi ölkə üçün, hətta bəşəriyyət, xüsusilə də cinayətkarın olduğu dövlət üçün zərərlidir. Məhz bundan cinayətkarların verilməsinin vacibliyi haqqında anlayış yaranmış və tədricən bu anlayış hamı tərəfindən qəbul olunmuş anlayışa çevrilmişdir". [1]

Cinayətkarlıqla mübarizə tarixi göstərir ki, yalnız XVIII əsrdən başlayaraq ayrı-ayrı ölkələrdə cinayətkarlığa qarşı mübarizə məqsədi ilə yaradılan xüsusi xidmət orqanları onlara verilən müəyyən səlahiyyətlər çərçivəsində cinayətlərin qarşısının alınması istiqamətində ardıcıl fəaliyyət göstərməyə başlamışdır.

Müasir dövrün ilk beynəlxalq əməkdaşlığı ilk dəfə 1815-ci ildə dünya dövlətlərinin iştirakı ilə qara dərili qulların satışının qadağan edilməsi haqqında Vyana konqresində qərar qəbul edilməsilə başladı. Vyanada keçirilən konqresin davamı olaraq, 1841-ci ildə dünya dövlətlərinin iştirakı ilə Amerikaya qara dərili qulların daşınmasının qadağan edilməsi haqqında Almaniyanın Berlin şəhərində müqavilə imzalandı. Bundan başqa, 1885-ci ildə Berlində və 1890-cı ildə Brüsseldə keçirilən konfransda qul satışının qadağan edilməsi barədə beynəlxalq tarixi sənədlər qəbul edildi.

Yuxarıda qeyd etdiyimiz beynəlxalq hüquqi sənədlərdə qul satışının cinayət olduğu və buna qarşı məsuliyyət tədbirinin zəruriliyi qeyd edilmişdir. Bunun davamı olaraq 1926-cı ildə Dünya dövlətlərinin iştirakı ilə keçirilən beynəlxalq konvensiyada və 1953-cü ildə Birləşmiş Millətlər Təşkilatında bu, bir daha təsdiqləndi.[2]

Müasir dövrdə Beynəlxalq münasibətlərin genişlənməsi və dərinləşməsinə, habelə elmi-texniki tərəqqinin sürətli inkişafına baxmayaraq, mənfi ünsürlü meyillərin, o cümlədən cinayətkarlığın artımı da xüsusi vurğulanmalıdır. Onu da qeyd etmək lazımdır ki, cinayətkarlığın "beynəlmiləlləşməsi", onunla mübarizə tədbirlərinin dövlətlərin birgə səyi əsasında həyata keçirilməsini zəruri edir. Bu isə mübarizə sahəsində beynəlxalq təşkilatların vacibliyini ön plana çəkir. Belə universal təşkilatlardan ən öncülü Beynəlxalq Cinayət Polisi Təşkilatı – İnterpoldur. İnterpolun müasir dövrdə müstəsna rola və fəaliyyətə malik olmasında onun keçdiyi tarixi şərait və bu beynəlxalq təşkilatın yaranmasını şərtləndirən amillərin nəzərdən keçirilməsi zəruri əhəmiyyət kəsb edir.

---

[1] Шиваева Е.А., Поточный М. Правовые вопросы структуры деятельности международных организаций. Москва: 1980, с. 11.

[2] Тихиня В.Г., Серокурова С.А. Формы сотрудничества государств в борьбе с международной преступностью (на материалах Республики Беларусь) // Юридический журнал. – 2009. – №3, с.11.

İnterpolun tarixinə diqqət yetirməzdən öncə, cinayətkarlıqla mübarizə sahəsində ilk beynəlxalq təşkilatların yaradılmasını qeyd etmək lazımdır.

Cinayətkarlıqla mübarizə tarixi göstərir ki, yalnız XVIII əsrin sonundan başlayaraq ayrı-ayrı ölkələrdə cinayətkarlığa qarşı mübarizə məqsədi ilə yaradılan xüsusi xidmət orqanları onlara verilən müəyyən səlahiyyətlər çərçivəsində cinayətlərin qarşısının alınması istiqamətində ardıcıl fəaliyyət göstərməyə başlamışdır. Cinayətkarın və cinayətkar qrupların həbs edilməsi və mövcud qanunlar əsasında cəzalandırma prosesi tezliklə öz müəyyən nəticələrini verdi. Beləliklə, ilk beynəlxalq polis təşkilatının yaranması XIX əsrin II yarısına təsadüf edir ki, bu da ekspertiza qurumu qismində müstəqil fəaliyyət göstərməsi üçün ümumi polis orqanlarının müvafiq dövlətin siyasi hakimiyyət mərkəzlərindən birmənalı olaraq ayrılması imkanını özündə ifadə edir. Nümunə qismində Alman dövlətlərinin Polis ittifaqını göstərmək olar. Bu ittifaq 1851-1866-cı illərdə mövcud olan və beynəlxalq səviyyədə, o cümlədən ABŞ-da fəaliyyət göstərən inqilab və müxalifətçi hərəkat iştirakçılarının təqib olunmasına yönəldilmişdir. Polis ittifaqı çərçivəsində keçirilən ilk görüşlər sayəsində və həftəlik nəşrlərin yerlərə göndərilərək paylanması yolu ilə siyasi cinayətkarlar və təşkilatlar barədə fikir mübadiləsi həyata keçirilirdi.

Beləliklə, XIX əsrin II yarısında cinayət mühakimə icraatı sferasında hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyətinin bütün əsas elementləri formalaşmışdır. Həmin elementlərə aşağıdakılar aiddir:

- cinayət təqibi və hökmün icrası üçün cinayətkarın verilməsi;
- istintaq hərəkətləri və məhkəmə iclaslarında şəxsən iştirak etmək üçün şahidlərin və cinayət mühakimə icraatının digər iştirakçılarının çağırılması;
- əşyaların üzərində həbs qoyulması və onların verilməsi;
- sübutların əldə olunmasında və istintaq hərəkətlərinin həyata keçirilməsində qarşılıqlı hüquqi yardımın göstərilməsi;
- istiqamətverici və qeydiyyat xarakterli məlumat mübadiləsi, axtarışda olan şəxsin həbs olunması və tutulması üçün beynəlxalq polis təşkilatları çərçivəsində operativ əməkdaşlığın formalaşması.

Kapitalizmin təşəkkül tapması ilə əlaqədar olaraq cəmiyyətdə cinayətkarlığın səviyyəsi də artmağa başladı. İlk əvvəl bu, bir çox ölkələrdə milli cinayətkarlığın inkişafı ilə əlaqədar idi. Və bundan da beynəlxalq cinayətkarlıq yaranıb inkişaf edirdi.

Bununla belə, XIX əsrin ortalarından dəmir yollarının çəkilməsi, buxar mühərriklərinin kəşfi və əməli tətbiqi nəticəsində nəqliyyatın inkişafı, ölkələr arasında sərhədlərin şəffaflığı, pasport və viza rejiminin olmaması və s. bu kimi amillər müxtəlif adamların, o cümlədən cinayətkarların tez və ra-

hat şəkildə bir ölkədən başqa bir ölkəyə keçməsinə, orada sığınacaq tapmasına, hətta lazım gələrsə, üçüncü bir ölkəyə keçməsinə şərait yaradırdı.

Bu imkanlardan bəhrələnən cinayətkarlar müxtəlif quldurluq, saxta pul hazırlama, qaçaqmalçılıq, dələduzluq, xəzinə talançılığı kimi cinayətləri törətməklə müxtəlif geyimlərdə, saxta sənədlərlə sərhədləri keçərək digər ölkələrdə gizlənirdilər ki, bu da qaçaqmalçılıq, narkotik vasitələrin qeyri-qanuni satışı, terrorçuluq, saxta pul hazırlanması, insan alveri, xüsusilə qadınların alveri kimi cinayətlərin geniş yayılmasına gətirirdi.[1]

1893-cü ildə Berlin Universitetinin Kriminologiya kafedrasının müdiri, məşhur Alman kriminalisti Frans Fon List cinayətlərin beynəlmiləlləşməsini qeyd etmişdir. O, yazırdı: "Cinayətkarlar bir ölkədən digərinə sərbəst gedərək Yer üzündə birləşməyə başladılar. Polis əksər hallarda öz dövlətinin sərhədlərində onların izini itirir və bu dövlətin hüdudlarından kənarda onlar ədalət məhkəməsi üçün əlçatmaz olurlar".[2]

Başqa ölkədə gizlənən cinayətkarların cəzalandırılması məqsədi ilə, maraqlı ölkə diplomatik kanallarla cinayətkarların olduğu ölkə ilə onun həbs olunması və verilməsi barədə danışıqlara başlayır. Tərəflər arasında cinayətkarların verilməsi barədə müqavilə olduqda məsələ adi qaydada həll olunurdu. Lakin belə müqavilələr çox az idi və əksəriyyəti ümumi sərhədə malik olan ölkələri əlaqələndirirdi.

Bu müqavilələr şübhəli şəxs barədə informasiya lazım olduğu halda köməyə çatmırdı. Bağlanan müqavilələr bunu nəzərdə tutmurdu. Bu cür hallarda polis orqanlarının rəhbərləri digər ölkələrin rəhbərləri ilə əlaqə yaratmaq xahişi ilə müraciət edirdilər. Lakin belə xahişlər çox vaxt diqqətdən kənar qalırdı. Hər bir ölkənin polis və hüquq-mühafizə orqanlarının fəaliyyəti yalnız bu ölkənin hüquq qanunvericiliyi ilə tənzimləndiyindən ölkəni tərk etmiş peşəkar cinayətkarların tutulması və geri verilməsi (ekstradisiya) kimi problemləri meydana çıxardı. Cinayətkarların verilməsi diplomatik kanallardan istifadə etməklə həyata keçirilirdi. Lakin bu problemin həyata keçirilməsi xeyli vaxt aparan rəsmiliyə malik idi. Bu da cinayətkarlıqla mübarizədə səylərin effektliyini azaldırdı.

XIX əsrin sonlarında artıq elə hallar məlum idi ki, cinayətkarlar cəzadan qaçmaq məqsədilə ad və soyadlarını, zahiri görkəmlərini dəyişdirirdilər. Mövcud olan identifikasiya (eyniləşdirmə) metodlarından heç biri digərinə görə üstünlüyə malik deyildi. Belə bir şəraitdə ayrı-ayrı ölkələrin hüquq-mühafizə orqanları tərəfindən beynəlxalq cinayətkarlığın yaranması prosesi müzakirə olunmağa başlandı və hüquqşünaslar bu cür cinayətlərə qarşı mü-

---

[1] Карпеец И.И. Преступление Международного характера. Москва: 1979, с. 15-16.

[2] Пржевальский В.В. Франс Лист и его основные воззрения на преступление и наказание. Ленинград: 1895, с.34.

barizə aparmaq üçün müxtəlif ölkələrin polis xidmətlərinin nümayəndələrinin və hüquqşünaslarının toplantılarında ayrı-ayrı cinayət növləri ilə mübarizə sahəsində beynəlxalq polis mərkəzlərinin yaradılması təklifi müzakirə edilməyə başladı.

XIX əsrin axırlarında cinayətkarlıqla mübarizədə əməkdaşlığın elmi informasiya ittifaqında inkişafı müşahidə olunmuşdur. Bu dövrdə əməkdaşlığın yeni forması inkişaf etməyə, köhnə forması isə təkmilləşməyə başladı. Belə ki, 1872-ci ildə cinayətkarlıqla mübarizədə əməkdaşlıq aparan beynəlxalq cinayət və penitensiar komissiya yaradıldı və bu komissiya 1946-cı ilə kimi fəaliyyət göstərdi, həmçinin həmin vaxtdan öz funksiyasını BMT-yə verdi.

1888-ci ildən alman kriminalisti Frans Fon Listin təşəbbüsü ilə Beynəlxalq Kriminalistik Cəmiyyət yaradıldı və həmin cəmiyyətdə beynəlxalq cinayətkarlığın öyrənilməsi, aradan qaldırılması və bu məqsədlə beynəlxalq tədbirlərin keçirilməsi təklif olundu. 1889-cu ildə Cinayət Hüququ Beynəlxalq İttifaqın təsis iclası keçirildi. İclasın iştirakçıları beynəlxalq cinayətkarlığın meydana gəlməsini təsdiq edirdilər və onu məhv etmək məqsədilə müxtəlif ölkələrin polis xidmətlərini birgə fəaliyyətə çağırırdılar.

XX əsrin əvvəllərində beynəlxalq polis mərkəzinin və ya dünya dövlətlərinin polis orqanlarının fəaliyyətini əlaqələndirən xüsusi beynəlxalq qurumun yaradılması ideyası beynəlxalq səviyyədə əsas müzakirə obyekti kimi özünü büruzə vermişdir. Məsələn, müxtəlif dövlətlərdən olan alimləri və işçiləri birləşdirən Beynəlxalq Qeyri Hökumət Təşkilatı yaradıldı.

1905-ci ildə Hamburq şəhərində keçirilən Kriminalistik birliyin X Beynəlxalq Assambleyasında əsas diqqət almandilli ölkələrin kriminalistlərinin beynəlxalq cinayətkarlığa qarşı mübarizə qüvvələrinin birləşməsinə yönəlmişdir. Eyni zamanda həmin tədbirdə ayrı-ayrı növ cinayətlərlə mübarizə üzrə beynəlxalq polis mərkəzlərinin yaradılmasına dair təkliflər səslənməyə başlanmışdır.

Beynəlxalq cinayətkarlıqla mübarizə problemləri bir çox konfrans və konqreslərdə müzakirə olunmuşdur. Belə tədbirlər 1905-ci ildə Buenos-Ayresdə, 1909-cu ildə Madriddə, 1912-ci ildə San-Paulada və 1913-cü ildə Vaşinqtonda keçirildi. 1909-cu ilin may-oktyabr aylarında Drezden şəhərində Fotoşəkillərin Beynəlxalq sərgisi keçirildi. Sərgidə Drezden və Hamburq polisinin, Rusiyanın jandarmeriya məktəbinin, Vyana polisinin, Moskva, Varşava və Sankt-Peterburq şəhərlərinin kriminal polisinin və Vaşinqton ədalət departamentinin əməkdaşları iştirak etmişlər.

Amerika qitəsindəki hadisələr də müvafiq şəkildə inkişaf edirdi və 1910-cu ildə Buenos-Ayresdə "Ümumdünya polis ittifaqı"nı təsis etmək haqqında çağırışlar səsləndi.

Bavariya hökumətinin nümayəndəsi Heyendel kriminal polis qüvvələrinin əməkdaşlığını təşkil etməyə cəhd göstərdi. Onun bu cəhdi beynəlxalq səviyyədə həyata keçirilməsə də bir çox hadisələrin təməlini qoydu.

Belə ki, 1912-ci ildə Alman torpaqlarının polis qüvvələrinin konfransı keçirildi.[1]

Onu da qeyd etmək lazımdır ki, zaman keçdikcə cinayətkarlıqla beynəlxalq mübarizə sahəsində həyata keçirilən tədbirlər daha da təkmilləşdirilməyə başladı. Məsələn, XX əsrin əvvəllərində Berlin və Parisdə həbs olunmuş şəxsin şəxsiyyətinin təsdiq olunması zamanı bütün yoxlamalar əsas etibarı ilə telefonla həyata keçirilirdi. 1920-ci ildə isə ABŞ və Avropa ölkələrinin təcrübəsində "Modus Operandi sistemi" əsasında mövcud olan kriminalistik uçot fəal şəkildə tətbiq edilirdi. Hətta bunu yüksək qiymətləndirən bəzi müəlliflərin fikrincə, ayrı-ayrı ölkələr arasında belə kataloqlar mübadiləsinin həyata keçirilməsi yolu ilə bir ölkədən digərinə keçən beynəlxalq cinayətkarlarla uğurlu mübarizəyə nail olurdu. Bununla belə, cinayətkarlıqla mübarizə sahəsində dövlətlərin səylərinin birləşdirilməsi, həyata keçirilən tədbirlərin vahid beynəlxalq qurumu çərçivəsində yerinə yetirilməsi zərurəti meydana çıxmaqda idi. Eyni zamanda, cinayətkarlıqla mübarizə üzrə beynəlxalq mərkəzin yaradılması ideyası da bir sıra Avropa dövlətləri tərəfindən dəstəklənməkdə idi. Hətta müxtəlif dövlətlərin cinayət polis orqanları arasında bilavasitə münasibətlər meydana çıxmağa başlamışdır. Lakin qeyd etmək lazımdır ki, cinayətkarların verilməsi məsələsi çıxdığı təqdirdə, diplomatik həll üsullarından istifadə olunması məcburiyyəti də zəruri idi. Həmin üsuldan istifadə edərkən xaricdə gizlənmiş cinayətkarların cəzalanmasında marağı olan dövlət onun həbs olunması və verilməsi ilə əlaqədar diplomatik kanallar vasitəsilə cinayətkarların olduğu ölkə ilə danışıqlara başlayır, tərəflər arasında cinayətkarların verilməsi barədə müqavilə olduqda məsələ adi qaydada həll edilirdi. Lakin bu istiqamətdə azlıq təşkil edən müqavilələrin əksəriyyəti, adətən, ümumi sərhəddə malik olan ölkələrin qarşılıqlı fəaliyyətini əlaqələndirirdi. Bundan əlavə, həmin müqavilələr cinayətkarın dərhal təqib olunması, həmçinin şübhəli şəxs barədə məlumat lazım olduğu halda, onun təqdim olunması üçün heç bir hüquqi əhəmiyyət kəsb etmir. Çünki qüvvədə olan müqavilələrdə qeyd olunan müddəalar birbaşa olaraq nəzərdə tutulmurdu. Belə hallarda ayrı-ayrı polis orqanları rəhbərləri öz xarici həmkarları ilə birbaşa əlaqələr quraraq bir çox rəsmi hallarda xarakterizə olunan diplomatik kanallardan yan keçməyə səy göstərirdilər. Onlar digər ölkələrin polis orqanlarına və onların rəhbərlərinə axtarışla və sairlə bağlı xahişlə müraciət

[1] Бельсон Я.М. Международная организация уголовной полиции (Интерпол): учеб. пособие. – Москва: 1981, с. 14.

edirdilər. Əksər hallarda bu müraciət onların öz aralarından olmasına baxmayaraq, belə xahişlər çox vaxt diqqətdən kənarda qalırdı. Bu halların sayının artması dövlətlərin cinayətkarlıqla mübarizədə daimi əməkdaşlığının təşkili və ümumi prinsipləri, habelə birgə siyasətin işlənib hazırlanması istiqamətində sahəvi təşkilati mexanizmin yaradılması zərurəti meydana çıxmaqda idi.

Ayrı-ayrı müəlliflərin fikrincə, diplomatik kanallardan istifadə müəyyən dərəcədə qarşılıqlı fəaliyyətə mane olduğu və onun səmərəliliyini azaltdığı zaman, xarici dövlətlərin polis orqanları ilə birbaşa qeyri-rəsmi əlaqələrin müəyyən olunmasına gətirib çıxartdı.

Nəhayət, Monako knyazı I Albert dünya ölkələrinin aparıcı hüquqşünaslarını və polis zabitlərini öz ölkəsinə dəvət edərək, beynəlxalq cinayətkarlıqla mübarizə problemlərini müzakirə etmək məqsədilə, geniş bir toplantı keçirmək üçün təşəbbüs göstərdi. Və 1914-cü ilin aprel ayının 14-də ölkəni təmsil edən 188 (o cümlədən 3 qadın) nümayəndənin iştirak etdiyi I Beynəlxalq Kriminal Polis Konqresinin 6 gün davam edən iclasında çox maraqlı müzakirələr aparıldı. Bu günlər ərzində həbsetmə proseduru, eyniləşdirmənin metodologiyası, mərkəzləşdirilmiş beynəlxalq kriminalistik uçotla bağlı məsələlər müzakirə olunarkən cinayətkarların beynəlxalq axtarışının sürətləndirilməsi və sadələşdirilməsi kimi problemlər də diqqət mərkəzində idi. Bu zaman eyniləşdirmə ilə bağlı, o cümlədən daktiloskopiya və astrometriya ilə bağlı məsələlərin müzakirəsi də meydana çıxmışdır. Konqresdə cinayətlərin qeydiyyatlarının standart üsulu qismində daktiloskopiyadan istifadə etmək tövsiyə olunmuşdur. Konqres iştirakçılarının polis orqanlarının beynəlxalq əməkdaşlığında diplomatik kanallardan imtina və müxtəlif ölkələrin polis idarələri arasında birbaşa əlaqələrin qurulmasının zəruriliyi haqqında prinsipial fikir izləri konqresin qərarlarında öz əksini tapdı. Konqres iştirakçıları belə hesab edirdilər ki, polis orqanlarının əməkdaşlığı qarşılıqlı şəkildə cinayət axtarış xarakterli informasiyanın verilməsi, identifikasiyası və digər texniki xidmətlərin yaradılması ilə kifayətlənməlidir. Lakin onda hələ beynəlxalq polis mərkəzlərinin yaradılması və müxtəlif ölkələrin polis orqanları arasında digər istiqamətlərdə qarşılıqlı əlaqənin qurulması təklifi dəstəklənmədi. Növbəti – II konqresin 1916-cı ilin avqust ayında Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilməsi qərara alındı.

3 ay sonra – 1914-cü il avqustun 1-də Birinci Dünya müharibəsi başladı və konqresin qərarı uzun müddət unuduldu. Lakin bununla yanaşı, əksər müəlliflər belə hesab edirlər ki, İnterpolun tarixi Monakodakı konqresdən başladı.

Birinci Dünya müharibəsi başa çatdıqdan sonra cinayətkarlıqla beynəlxalq mübarizə problemi daha kəskin xarakter aldı. Bir tərəfdən müharibə-

nin təsiri altında insanların mənəviyyatında və əxlaqında dəyişiklik, digər tərəfdən isə cinayətkarlığın səviyyəsində, xüsusilə narkomaniya və alkoqolizmin baş verməsində artım müşahidə olunmağa başladı.

Kriminoloq A.A.Qertsenzonun qeydlərinə görə, 1918-ci ildə Avropanın 9 ölkəsində 3.2 milyon, 1920-ci ildə 4.3, 1923-cü ildə isə 4.7 milyon cinayət hadisəsi qeydə alınmışdır.[1]

Beynəlxalq cinayətkarlıq daim inkişaf edən, artan təhlükəyə çevrilmişdir. Beynəlxalq cinayətkarlığın artmasına yeni hərəkət vasitələrinin geniş şəkildə yayılması da şərait yaradırdı. Belə ki, İtaliya, xüsusən onun liman şəhərləri gəmilərin transatlantik keçidi üçün əsas məntəqələr sayılırdılar. Bu da peşəkar cinayətkarlar, o cümlədən insan alveri ilə məşğul olan şəxslər tərəfindən istifadə olunan geniş qanunsuz miqrasiya axını üçün şərait yaradırdı.

Bu cür şəraitlə barışa bilməyən peşəkar polis işçiləri vəziyyətdən çıxış yolları axtarmağa başladılar.

XX əsrin 20-ci illərində bir sıra dövlətlər hərbi hissələr hesabına polisin sayını artırdılar və onların sənaye rayonlarında maksimal konsentrasiyası üçün polis bölmələrinin predislokasiyasını həyata keçirdilər. Lakin beynəlxalq cinayətkarlığın artmasına qarşı yalnız belə köhnə metodlarla dayanmaq olmazdı. Beynəlxalq cinayətkarlığa qarşı beynəlxalq vasitələr lazım idi. Cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq mərkəzin yaradılması ilə bağlı müxtəlif məsələlərin müzakirəsi zamanı onun təşkilatı baxımından Millətlər Cəmiyyəti yanında Beynəlxalq Büro və ayrıca beynəlxalq təşkilat formasında olması təklif olundu.

Nəhayət, 1921-1922-ci illərdə Avstriyanın kansleri olmuş, 1923-cü ildən isə bu ölkənin və onun paytaxtı Vyananın polis təşkilatının rəhbəri vəzifəsində çalışan peşəkar polis işçisi İohan Şober ümumdünya polis konqresinin çağırılmasının təşəbbüsçüsü oldu. O, beynəlxalq polis təşkilatının yaradılması istiqamətində I konqresin işini davam etdirməyi qərara aldı. Bu məqsədlə İohan Şober Sovet İttifaqından başqa bütün və kifayət qədər böyük şəhərlərin polis rəhbərlərinə 300-dən çox dəvət məktubu göndərdi. 20 ölkəni təmsil edən, 138 nümayəndənin iştirak etdiyi Birinci Beynəlxalq Polis Konqresi 1923-cü il sentyabr ayının 3-də Vyana şəhərində öz işinə başladı. Konqresin gündəliyində duran əsas məsələlər cinayətkarlıqla mübarizədə müxtəlif ölkələrin cinayət-polis xidmətlərinin beynəlxalq əməkdaşlığının təşkili, dövlətdaxili və beynəlxalq səviyyədə daimi, etibarlı, hüquqi və təşkilati bazanın ona tabe edilməsi haqqında məsələlər idi.

[1] Торвалд Ю. Сто лет криминалистики: пути развития, криминалистики. Москва: 1974, с.44.

Beş gün davam edən müzakirələrdən sonra 1923-cü il 7 sentyabr tarixində Beynəlxalq Cinayət Polisi Komissiyası təsis edildi və onun iqamətgahı Vyana şəhəri oldu. Məhz bu gündən də İnterpolun həqiqi tarixi başladı. Burada Avstraliyadan başqa bütün qitələr təmsil olundu.

Konqresdə Avstriya, Belçika, Çexoslovakiya, Fransa, Almaniya, Danimarka, Latviya, Polşa, Rumıniya, İsveçrə, Türkiyə və ABŞ-dan olan kriminalist, kriminoloq və diplomatlar iştirak edirdilər.

İ.Şober komissiyanın prezidenti seçildi. Onun bu vəzifəyə seçilməsi təkcə konqresin çağırılması barədə onun tərəfindən irəli sürülən təşəbbüsün qarşılığı deyildi, həm də o, Avstriya polisinin cinayətkarlıqla bağlı uzun illər ərzində topladığı zəngin kartotekaları beynəlxalq polis əməkdaşlığının sərəncamına verəcəkdi. Ümidlər həyata keçirildi. Avstriyanın DİN-i beynəlxalq təşkilatın öz divarları arasında, yanaşı olaraq, onun fəaliyyəti və heyətin məvacibləri ilə bağlı xərcləri öz üzərinə götürdü.[1]

Komissiya 4 ildə bir dəfə çağırılması nəzərdə tutulan ümumdünya polis konqresinin köməkçi orqanı kimi təsis olunmuşdur və fəaliyyətinin əvvəllərində müstəqil beynəlxalq təşkilat deyildi.

1924-cü ilin may ayında Avstriyanın Vyana şəhərində kriminal polisinin beynəlxalq komissiyası 5 əsas məsələdən ibarət olan qətnaməni qəbul etdi, bu da gələcək illərdə sözü gedəcək beynəlxalq təşkilatın fəaliyyət istiqamətlərini müəyyən etdi:

- beynəlxalq cinayətlər barədə faktların toplanması üzrə məlumat bölmələrinin yaradılması;
- sübut etmə sistemi və cinayətkarların beynəlxalq axtarış sisteminin işlənib hazırlanması;
- şəxslərin eyniləşdirilməsi üzrə bölmələrin təşkili;
- beynəlxalq polis qəzetlərinin nəşri;
- saxta banknotların və sənədlərin qarşısının alınması və aşkar olunması üzrə birgə proqramların yaradılması.

Komissiyanın yaradılması hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyətinin inkişaf tarixində yeni mərhələ sayılır. Çünki əvvəlki dövrlərdən fərqli olaraq, polis orqanları xaricdə olan həmkarları ilə onları maraqlandıran məsələlərə dair rəsmi və sistematik əsaslarla vasitəçi olmadan məlumat mübadiləsi həyata keçirmək imkanı əldə etmiş oldular. Bir faktı da qeyd etmək lazımdır ki, təsis olunduğu və fəaliyyət göstərdiyi dövr ərzində Beynəlxalq Cinayət Polisi Komissiyası Avropa dövlətlərinin hüquq-mühafizə orqanlarının mərkəzləşdirilməsi, eləcə də kriminalistik uçotunun önündə ge-

[1] Дайчман И. Интерпол всемирная система борьбы с преступностью. Москва: 2003, с. 36-39.

dirdi. Hətta bəzi müəlliflərin fikrincə, belə mərkəzləşdirmə bir tərəfdən inqilabi fəaliyyətə qarşı müqavimətin zəruriliyi ilə əlaqədar olduğu halda, digər tərəfdən polis xidmətinin əməkdaşları dərk edirdilər ki, hər il cinayətkar aləm daha da genişlənərək ümumdövlət, əksər hallarda isə beynəlxalq əhəmiyyətli mənfi təzahür forması əldə edirdi. Məsələn, XX əsrin əvvəllərində Berlin və Parisdə həbs olunanların şəxsiyyətinin təsdiq olunması zamanı bütün yoxlamalar əsas etibarilə telefonla həyata keçirilirdi. 1920-ci illərdə isə ABŞ və Avropa ölkələrinin təcrübəsində “modus operandi sistemi” əsasında mövcud olan kriminalistik uçot fəal şəkildə tətbiq edildi. Hətta bunu yüksək qiymətləndirən bəzi müəlliflərin fikrincə, ayrı-ayrı ölkələr arasında belə kataloqlar mübadiləsinin həyata keçirilməsi yolu ilə bir ölkədən digərinə keçən beynəlxalq cinayətkarlıqla uğurlu mübarizəyə nail olunurdu.

1924-cü ilin noyabr ayında İnterpolun xahişi ilə Vyana polisi, ayda 2 dəfə olmaqla, alman, fransız, ingilis və italyan dillərində çap olunan “Beynəlxalq ictimai təhlükəsizlik” (“İnternationale effentiliche Sicherheit”) polis icmalının nəşrinə başladı. Qısa bir müddət ərzində bu icmal komissiyanın rəsmi çap orqanına çevrildi. Burada komissiyanın rəsmi məlumatları, işçilərin məqalələri dərc olunurdu.

1924-cü ildə yalnız 2 xidmət sahəsi təsis edilmişdi: “beynəlxalq cinayətkarlar” haqqında informasiya və “gizlənən cinayətkarların beynəlxalq axtarışı”. Bunlar Vyananın polisay direksiyasında Avstriya polisinin ən zəngin kartotekaları bazasında fəaliyyət göstərməyə başladılar. Burada Mərkəzi və Cənubi Avropa ölkələrinin cinayətkarları haqqında məlumatlar toplanmışdı. Axtarış xidməti konkret ölkədən gizlənən cinayətkarların qeydinə və onların axtarışı barədə digər ölkələrə xəbərdarlıq işinə baxırdı.[1]

1926-cı ildə Avstriyanın Vyana şəhərində Beynəlxalq Cinayət Polisi Komissiyasının 2-ci sessiyası baş tutdu. Burada 21 qətnamə qəbul olundu. Bu qətnamələr əsasən beynəlxalq cinayətkarlığa aid məlumatların təsis edilməsinə, polis qüvvələri arasında teleqraf əlaqələrinə məxsus olan qaydaların tətbiq edilməsinə, pornoqrafik kino və ədəbiyyata qarşı tədbirlər görülməsinə aid idi.

Eyni zamanda bu sessiyada Belçika nümayəndəsi cənab Keffenin növbəti konqresin Berlin şəhərində keçirilməsi təklifi bəyənildi.

1926-cı il sentyabr ayının 17-dən 30-na kimi keçirilən Beynəlxalq Cinayət Polisi Komissiyasının Berlin konqresində 445 nəfər iştirak etmişdir. Konqres əsasən ekstradisiya mövzusuna həsr olunmuşdur. 1930-cu ilin sentyabr ayında İnterpol tərəfindən ekstradisiyanın həyata keçirilmə prinsipləri hazırlandı. 1930-cu ildən komissiya müstəqil fəaliyyət göstərməyə başladı.

---

[1] Родионов К.С. Миф и действительность. Москва: 1982, с. 23-25.

Komissiya qarşısında aşağıdakı məsələlər qoyuldu:

- ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən təhlükəsizlik orqanları arasında qarşılıqlı xidməti yardımın göstərilməsi, təcrübənin formalaşmasına şərait yaratmaq;
- cinayətkarlıqla mübarizə aparmaq üçün nəzərdə tutulmuş bütün institutların yaradılmasını və müvəffəqiyyətlə fəaliyyət göstərməsini təmin etmək.

Komissiyada rəsmi və qeyri-rəsmi üzvlər təmsil olunurdu. Rəsmi üzvlər Vyana konqresində öz ölkəsini rəsmi olaraq təmsil edən bütün iştirakçılar idi. Qeyri-rəsmi üzvlər təşkilata əhəmiyyətli dərəcədə kömək göstərə biləcək görkəmli alim-kriminalistlərin arasından seçilirdi. Səsvermə hüququndan yalnız rəsmi üzvlər istifadə edə bilərdilər. İlk əvvəl komissiyanın 28 üzvü var idi. 1925-ci ilin siyahısında artıq 20 ölkədən 37 üzv var idi. 1932-ci ildə komissiyada 30 ölkədən 57 rəsmi, 4 fövqəladə üzv və 1938-ci ildə komissiyanın tərkibində artıq 34 ölkə var idi. Nizamnamə komissiya ilə əlaqə saxlamaq üçün müxbirlər institutunu da nəzərdə tuturdu və təşkilatda təşkil olunan dövlətlərlə yanaşı, digər dövlətlərlə də müxbir əlaqələrinə yol verirdi.

Beynəlxalq Cinayət Polisi Komissiyasının bütün fəaliyyətinə prezident rəhbərlik edirdi. İlk əvvəl onun fəaliyyət müddəti nizamnamədə qeyd olunmamışdı. Komissiya yarandığı gündən bu vəzifəni İohan Şober tuturdu. 1932-ci ildə onun ölümündən sonra nizamnaməyə dəyişikliklər edildi və bu dəyişikliyə müvafiq olaraq komissiyanın prezidenti beş il müddətinə seçilməyə başladı.

Prezidentdən başqa, Vyana konqresinin iştirakçıları 4 vitse-prezident seçdilər. Prezident və vitse-prezidentlər rəyasət heyətini təşkil edirdilər. Prezidentin yanında inzibati komitə yaradılmışdı. 1930-cu ildən komissiyanın saxlanılması, fəaliyyət göstərməsi üçün vəsait illik ödənişlər şəklində üzv dövlətlər tərəfindən daxil olmağa başladı.

Beynəlxalq Cinayət Polisi Komissiyasının təsis edilməsi ayrı-ayrı ölkələrin polis orqanlarının beynəlxalq əməkdaşlığının yaranmasına doğru ilk addım idi.[1]

Belə əməkdaşlığın aşağıdakı sxem üzrə qurulması nəzərdə tutulmuşdur: yerli polis orqanlarının, milli polis mərkəzlərinin nümunəsi üzrə yalnız beynəlxalq miqyasda fəaliyyət göstərən beynəlxalq polis bürosu. Bu sxemin ilk hissəsi mövcud idi, qalan iki hissə yaradılmalı idi.

Konqres iştirakçıları hər bir ölkədə polis mərkəzləri təsis etməyi təklif

---

[1] Roy Alain. Interpol. Casos perseguidos y descubiertos por la Policía Criminal Intenacional. Volumen I. Hardcover: 1971, s.4.

etdilər və bu mərkəz həm beynəlxalq polis bürosu ilə, həm də digər ölkələrin analoji mərkəzləri ilə əlaqə saxlamaq üçün idi. Lakin milli mərkəzlərin yaradılması çox uzaq idi. Bu zaman hər bir ölkə bu mərkəzin təşkilati strukturu, hüquqi statusu, funksiyaları, səlahiyyətləri ilə bağlı məsələni bir cür həll edirdi. Qeyd edək ki, söhbət polis idarəsində spesifik funksiyalara malik olan yeni bölmənin yaradılmasından gedir, həmçinin beynəlxalq cinayət polisi daimi fəaliyyət göstərən işçi aparatı kimi dərhal formalaşmışdır. İlk əvvəl 1924-cü ildə yalnız iki xidmət sahəsi təsis olundu: beynəlxalq cinayətkarlar haqqında informasiya və gizlənən cinayətkarların beynəlxalq axtarışı. Onlar Vyananın polisay direksiyasında Avstriya polisinin ən zəngin kartotekaları sayəsində fəaliyyət göstərməyə başladılar.

Həmçinin, ümumi arxivdən haqqında Avstriya polisi tərəfindən yığılan məlumatlardan başqa, polis tərəfindən saxlanıldığı və məsuliyyətə cəlb olunduğu, hər hansı bir ölkədə informasiyası olan cinayətkarların kartoçkaları alındı. Məhz bu kartoçkalar ilk vaxtlar komissiyanın yeni yaranmış xidmətlərin – sorğu-informasiya fondunun əsasını təşkil edirdi.[1]

Axtarış xidməti konkret, ölkədən gizlənən cinayətkarların uçotunu və onların axtarışı barədə, digər ölkələrə xəbərdarlıq işinə başladı. Belə xəbərdarlıq 1924-cü ildən başlayaraq ayda iki dəfə buraxılan "Beynəlxalq ictimai təhlükəsizlik" bülleteninin səhifələrində verilirdi.

Tezliklə bu bülleten komissiyanın rəsmi çap orqanına çevrildi.

Uçot sistemi hər bir məşhur beynəlxalq cinayətkar haqqında dünya ölkələrindən gələn məlumatı bir yerdə cəmləmək məqsədini güdürdü. Ona görə də uçotda olanların sayı artdı və 30-cu illərin əvvəllərində 100 min nəfəri ötüb keçdi.

Vyana konqresinin qərarı ilə təşkil olunmuş daha bir xidmət sahəsi – "Pul nişanlarının saxtalaşdırılması ilə mübarizə" üzrə mərkəz xüsusi yer tuturdu. Bütün bu adı çəkilən xidmətlər polis bülleteninin redaksiyası ilə birgə 1926-cı ildən müstəqil fəaliyyət göstərməyə başlayan (Avstriya Daxili İşlər Nazirliyinin bölməsi kimi yox) Beynəlxalq Polis Bürosunu təşkil edirdi. Onun işinə baş katib başçılıq edirdi.

Komissiyanın öz fəaliyyət sferasını genişləndirməsi daxil olan material axınının çoxalması və onların işlənib hazırlanması zərurəti ilə əlaqədar olaraq, Beynəlxalq Polis Bürosu bir sıra dəyişikliklərə məruz qaldı. 30-cu illərdə onun tərkibində daha iki xidmət sahəsi təsis olundu: identifikasiya və polis radio əlaqəsi.

1930-cu ildən komissiyanın saxlanılması, təşkilatı strukturunun formalaşdırılması baş verdi və müxtəlif ölkələrin polis orqanlarının komissiya

[1] Roy Alain. İnterpol, s. 24.

çərçivəsində əməkdaşlığının istiqamət və formaları özünü büruzə verdi. Hələ ki, əməkdaşlıq beynəlxalq cinayətkarlar haqqında komissiyanın 30-cu illərdəki fəaliyyəti onun ayrıca ibrətamiz səhifəsini təşkil edir. [1]

1935-ci ildən başlayaraq, Beynəlxalq Cinayət Polisi Komissiyasının fəaliyyətində yeni bir dövr kimi xarakterizə oluna bilər, bu da mənfi istiqamətdə inkişaf etmişdir. Daha dəqiq desək, həmin dövrdən XX əsrin 40-cı illərinin ortalarına qədər bu beynəlxalq qurum faşistlərin tam nəzarəti altında fəaliyyət göstərmişdir. Hətta BCPK və Beynəlxalq Büronun idarəetmə mərkəzi Vyana şəhərindən Berlinə köçürülməklə gestaponun 4-cü şöbəsinə çevrilmişdir. Tədqiqatçılar "üçüncü reyx" dövründə Beynəlxalq Cinayət Polisi Komissiyasının fəaliyyətini sükutla ötüb keçirlər. O dövr komissiya arxivinin çox kiçik hissəsi qalmışdır. 70-ci illərdə ayrı-ayrı sənədlərin məzmunu açıqlanmışdır və onun müəyyən üsulları aşkara çıxarılmışdır. Hansı ki, bunların köməyi ilə nasistlər bu beynəlxalq təşkilatı özlərinə tabe etməyə nail olmuşlar.

Yuxarıda qeyd edildiyi kimi, Beynəlxalq Cinayət Komissiyasının ilk prezidenti Vyananın polisay prezidenti İ.Şober oldu. İ.Şoberin fəaliyyət müddətinin başa çatması ilə hər iki vəzifədə onu Brandi əvəz etdi. Lakin 1932-ci ildə Brandi Avstriyanın polisay prezidenti vəzifəsindən istefaya getdi və yalnız komissiyanın prezidenti olaraq qaldı. Beləliklə, bundan sonra onun göstərişləri Avstriya polisinin işçiləri üçün qüvvəyə malik deyildi.

Lakin bu, bütövlükdə Avstriya personalından ibarət olan komissiyanın mərkəzi xidmətlərinin fəaliyyətinə mənfi təsir edirdi. Buna görə, 1934-cü ildə komissiya üzvləri Beynəlxalq Cinayət Polisi Komissiyasının Prezidenti vəzifəsini yalnız Avstriyanın Polisay Prezidentinin tutması haqqında qərar qəbul etdilər. Belə bir qərar komissiyanı Avstriyadan asılı vəziyyətdə qoydu və tezliklə onun fəaliyyətində mənfi rol oynamağa başladı.[2]

Almaniyada faşistlərin hakimiyyətə gəlişindən sonra komissiyada alman nümayəndələrini gizli dövlət polisi-gestaponun nümayəndəsi əvəz etdi. Belə bir əvəzetmə nizamnaməyə zidd idi. 1938-ci ildə faşist Almaniyası Avstriyanı özünə birləşdirdi. Bundan dərhal sonra Avstriyanın polisay Prezidenti vəzifədən çıxarıldı və onun yerinə Avstriya SS qüvvələrinin Ober füreri, faşist Ştanhoyzl təyin olundu. Beləliklə, Beynəlxalq Cinayət Polisi Komissiyasının "özündən asılı olmayan səbəblər üzündən" yeni prezidenti gestapo ilə öz fəaliyyətini həyata keçirmək üçün təşkilatda bələdçi əldə etdi.

Hələ 1936-cı ildə Alman təhlükəsizlik polisinin rəhbəri, SS qubernfüreri Heydrix Hitlerin razılığı ilə komissiyaya rəhbərlik etməyi bir məqsəd

---

[1] Roy Alain. İnterpol, s.33.

[2] Jeschke Y. İnterpol Wachrichten-kriminalistik. Hamburg: 1972. Heft 25.

kimi qarşıya qoydu. Avstriyanın Almaniyaya birləşməsi bu məqsədə nail olmasına yol açdı və artıq bir neçə gündən sonra Heydrix komissiya üzvlərinə göndəriş hazırladı. Göndərişdə deyilirdi ki, "federal komissiya qanuna müvafiq olaraq, 13 mart 1938-ci ildə Avstriya Alman reyxinə daxil oldu. Bunun nəticəsində Avstriya polisi Alman polisinin bir hissəsi oldu. Alman polisinə isə təhlükəsizlik polisinin rəhbəri, SS qrupenfüreri Heydrix başçılıq etdi. Reyxin bütün ərazilərində, Avstriya daxil olmaqla, polis işlərinə rəhbərlik edən Heydrix Beynəlxalq Cinayət Polisi Komissiyasının işlərinə də rəhbərlik etməlidir. Bu vaxta qədər Avstriyada yerləşən komissiya bundan sonra Almaniyada yerləşəcək və onun mənzil qərargahı Berlinə köçürüləcəkdir".

Lakin taktik fikirlər üzrə göndəriş göndərilmədi. Heydrix başqa cür hərəkət etmək qərarına gəldi. Təşkilatın özündə onun köhnə etibarlı müttəfiqi Oskar Dresler var idi. Onun köməyi ilə Heydrix tez bir müddətdə komissiyanı faşist nəzarəti altına almağa müvəffəq oldu. Güman etməyə əsas var ki, mənzil qərargahının Vyanadan Berlinə köçürülməsi, bu barədə rəsmi elan olunana qədər məhz Dresslerin köməyi ilə həyata keçirilmişdi.

1940-cı ilin iyun ayında Ştaynhoyzlun ölümündən sonra komissiya üzvlərinə məktub göndərildi. Üzv dövlətlərə bildirdilər ki, "Komissiya qətnaməsinin təsvirinə müvafiq olaraq, Alman Təhlükəsizlik Xidmətinin başçısı Beynəlxalq Cinayət Polisi Komissiyasının prezidenti funksiyalarını öz üzərinə götürməlidir. Avstriya Almaniyanın tərkib hissəsi olduğundan hesab edilir ki, bu qətnamə üçüncü reyxin təhlükəsizlik polisinin başçısına aiddir. [1]

Məktubda 15 ölkə (komissiyada 27 səsə malik idilər) razılıqla cavab verdi. Lakin qərarın qəbul edilməsi üçün zəruri olan ⅔ səs çoxluğu əldə olunmadı. Belə olduqda Heydrix birtərəfli qaydada qərara aldı ki, "cavabları ilə tamamlamaq mümkün olan" dövlətlərin mövqeyi nəzərə alınmasın.

Belə bir üsulla Heydrix dövlətlərin yekdil razılığına əsasən komissiyanın prezidenti olmağa müvəffəq oldu. 29 avqust 1940-cı ildə Alman mətbuatında beynəlxalq cinayət polisi komissiyasının yeni prezidentinin seçilməsi haqqında məlumat dərc olundu. 1941-ci ildə Heydrix Çexiya və Moraviyanın proteksanı təyin olundu və onun yerini başqa bir gestapoçu – Kaltemruner tutdu.

1943-cü ildə komissiyanın üzvlüyündə yalnız Almaniya və ABŞ idi. Beləliklə, beynəlxalq cinayətkarların kartotekası faşistlərin əlinə keçdi. "İnterpol" jurnalının məlumatına görə, həmin dövrdə bir sıra Avropa ölkəsinin cinayət polisi tərəfindən axtarışda olan cinayətkarlardan ibarət olan fransız-faşist təşkilatı "Milice" yaradılmışdı. Gestapo bu cinayətkarlardan bir çoxu-

[1] Jeschke Y. İnterpol Wachrichten-kriminalistik, s. 118.

nun axtarışını həyata keçirir və onlara ultimatum formasında faşistlərlə əməkdaşlıq etmək təklif olunurdu. Faşistlər onlardan agent, provokator və s. kimi istifadə edirdilər.

Bununla belə, faşistlərin komissiya ilə bağlı planlarının məğzi tamamilə başqa idi. Hitlerçilərə komissiya dünya ağalığına nail olmaq planının həyata keçirilməsi üçün lazım idi.

İnterpolun köməyi ilə onlar digər ölkələrə sahib olmaq istəyirdilər. Nümunə qismində həmin dövrdə keçirilən "Breynxard" əməliyyatını göstərmək olar. Belə ki, İngiltərə iqtisadiyyatının tamamilə çökdürülməsi və məhv edilməsi üçün kifayət sayda saxta funt sterlinqlərin hazırlanması nəzərdə tutulmuşdu. Heydrixin təşəbbüsü ilə Orenburqun həbs düşərgəsinin yeraltı məntəqəsində çoxlu sayda saxta ingilis pulu çap edilirdi. Nəticədə 630 milyon funt sterlinq, 100000 saxta banknotlar, 41 ədəd hazırlanmış külçə 1963-cü ildə aşkar olunaraq dövriyyədən çıxarılmışdı. Bu planlar həyata keçmədi: bir ildən sonra faşizm darmadağın oldu. 1944-cü ildə gestaponun iqamətgahına bomba düşdü və bu idarə komissiyanın Vanxeydəki mənzil qərargahına köçdü. Artıq son olaraq fəaliyyətini dayandırdı.

Onu da qeyd etmək lazımdır ki, XX əsrin 40-cı illərinin ortalarına qədər bu beynəlxalq qurum faşistlərin tam nəzarəti altında fəaliyyət göstərmişdir. Hətta BCBK və Beynəlxalq Büronun idarəetmə mərkəzi Vyana şəhərindən Berlinə köçürülməklə gestaponun dördüncü şöbəsinə çevrilmişdir. Həmçinin, faşist Almaniyası dövründə komissiyanın kartotekasından əsas etibarı ilə siyasi məqsədlər naminə, eləcə də II Dünya müharibəsinin iştirakçısı olan başqa dövlətlərə qarşı istifadə etməyə başlanmışdır. Deyildiyi kimi, siyasi fəaliyyətlə məşğul olmasının qadağan olunmasına dair müddəaların təşkilatın nizamnaməsinə daxil edilməsi də II Dünya müharibəsi dövründə onun siyasi məqsədlə istifadə olunmasının nəticəsidir.[1]

İkinci Dünya müharibəsi başa çatdıqdan, demək olar ki, dərhal sonra bir sıra ölkələrin polis idarəsinin rəhbərləri Beynəlxalq Cinayət Polisi Komissiyasını bərpa etmək üçün kollektiv səylər göstərməyə başladılar. Müharibəyə qədər komissiyada Belçikanı təmsil edən F.Luvaj 1946-cı ildə bir sıra ölkələrin polis idarələrinə məktub göndərdi. Bu məktubda o, polis idarələrinin rəhbərlərinin cinayətkarlıqla birgə mübarizəyə başlamağa çağırırdı.

Komissiyanın bərpa edilməsi işində F.Luvajın köməkçiləri məşhur İsveç kriminalisti Q.Şoderman, İngilis-Şotland polisinin məsul rəhbəri R.M.Xau, fransız Milli Təhlükəsizlik Xidmətinin rəhbəri A.Dyuklo və Bern polisinin prezidenti V.Miller oldu. Konqres 1946-cı ilin payızında Brüsseldə oldu.

---

[1] Aslanov E.Z. İnterpolun yaranması və inkişafı: tarixi şərait və mövcud zərurət // femida.az, 10 may 15 th. 2012//4 comments, s 5.

Dünyanın 17 ölkəsinin polis idarəsi öz nümayəndələrini Brüsselə göndərdi. Konqres iştirakçıları Beynəlxalq Cinayət Polisi Komissiyasını bərpa etmək fikrində idilər. Bu dəfə təşkilatın daimi olma yeri, yəni mənzil qərargahı Paris seçildi.

Dünyanın 19 ölkəsi Beynəlxalq Cinayət Polisi Komissiyasında fəaliyyətlərini bərpa etdilər. Həmin ölkələr aşağıdakılardır: Belçika, Çili, Danimarka, Misir, Fransa, Yunanıstan, Hollandiya, İran, Lüksemburq, Norveç, Polşa, Portuqaliya, İsveç, İsveçrə, Çexoslovakiya, Amerika Birləşmiş Ştatları, Yuqoslaviya.

Fransa dövlətinin Daxili İşlər Nazirliyi komissiyaya xüsusi bina verməklə yanaşı katibliyin personalının saxlanması üzrə xərclərin bir hissəsini öz üzərinə götürdü, komissiyanın mənzil qərargahında işləmək üçün işçilər ayırdı. Həmçinin Baş katibliyin işçi xidmətini, 5 nəfər tərkibdə icra orqanını yaratdı: Prezident, Baş katib, 3 üzv. Prezident və Baş katib artıq seçkili oldu. İlk prezident vəzifəsinə F.Lubaj seçildi.

Tezliklə komissiya 1923-cü il nizamnaməsinin əvəzinə öz fəaliyyətinin məqsədləri, vəzifələri və prinsipləri haqqında müvəqqəti nizamnamə qəbul etdi (1946). Bu nizamnaməyə təşkilatın hərbi xarakterli işlərdə iştirak etməməsi haqqında maddə daxil edildi. 1951-ci ildə keçirilən Baş Assambleyanın XX sessiyasında qeyd olunmuşdur ki. 1946-cı ildə təşkilatda iştirakçı dövlətlərin sayı 18-dən 37-yə çatmışdır.[1]

Gündəlik fəaliyyətində komissiya 2 sənədə əsaslanırdı: Beynəlxalq Cinayət Polisi Komissiyasının yarandığı dövrdə, yəni 1923-cü ildə qəbul edilmiş nizamnaməsinə və 1946-cı ildəki müvəqqəti nizamnaməsinə. Artıq onların hər ikisi öz mahiyyətini itirmişdir. Zaman onların bəzi müddəalarını köhnəltmişdir, digərləri isə müharibədən sonrakı dünyanın inkişafı ilə ziddiyyət təşkil edirdi. 1923-cü il Nizamnaməsinə gəldikdə isə, o, komissiyanın təsis sənədi rolunu yerinə yetirirdi. Lakin artıq klassik beynəlxalq hüquq nöqteyi-nəzərindən bu nizamnamə təsis aktı anlayışına uyğun deyildi. Buna görə də, 1954-cü ildə komissiyanın 24-cü sessiyasında yeni nizamnamə işləyib hazırlamaq haqqında qərar qəbul edildi və onun hazırlığı xüsusi ekspertlər komitəsinə həvalə olundu. Tezliklə yeni nizamnamənin layihəsi hazır oldu. Təşkilatın fəaliyyəti üçün vacib olan belə bir sənədin – nizamnamənin qəbul edilməsi proseduraması 13 iyun 1956-cı ildə Beynəlxalq Cinayət Polisi Komissiyasının yaradıldığı Vyana şəhərində Beynəlxalq Cinayət Polisi Komissiyasının sessiyasında həyata keçirildi. Onun qəbul edilməsi ilə İnterpol tarixində yeni bir dövr başlandı.

Müharibədən sonrakı illərdə Beynəlxalq Cinayət Polisi Komissiyası-

[1] Родионов К.С. Интерпол: миф и действительность. Москва: 1986, с. 40-41.

nın fəaliyyətinin aktiv şəkildə genişlənməsi müvafiq olaraq cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıqda onun xüsusi rolu və yeri müşahidə olunurdu. Lakin onun "komissiya" adlanması müəyyən ziddiyyət təşkil edirdi. Beynəlxalq praktikada "komissiya" termini ilə hər hansı bir digər birliyin tərkibində fəaliyyət göstərən və ona tabe olan orqanın və ya təşkilatın adlandırılması qəbul olunmuşdur.[1]

Artıq 1956-cı il üçün təşkilatın əvvəlki kimi "komissiya" adlandırılması onun bu vaxta qədər əldə etdiyi beynəlxalq statusuna, kompetensiyasına və dövlətlərlə xüsusilə də onun mənzil qərargahının yerləşdiyi Fransa ilə qarşılıqlı münasibətlərinin xarakterinə uyğun gəlmirdi.

Yeni nizamnamənin 1-ci maddəsində təşkilatın yeni adı "Beynəlxalq Cinayət Polisi Təşkilatı" İnterpol adlandırıldı. "İnterpol" termini isə ilk dəfə 1907-ci ildə işlədilmişdir. Onu ilk dəfə 1948-ci ildə Baş Assambleyanın Praqadakı sessiyasında təşkilata münasibətdə italyan nümayəndəsi D.Dozi işlətdi. Təşkilatın qısaldılmış adı fonetika nöqteyi-nəzərindən bütün dillərə uyğunluq təşkil etdi. Əlbəttə, bu belə çoxdilli təşkilat üçün az əhəmiyyət kəsb etmirdi.

Əvvəlki nizamnamə sənədləri təşkilatda üzvlük məsələsinin həllini bir məqsəd kimi qarşıya qoymurdu. Bu qeyri-müəyyənlik uzun müddət İnterpolun qeyri-hökumətlərarası təşkilatlar sırasına aid edilməsinə səbəb oldu. Yeni nizamnamədə təşkilatda üzvlük haqqında maddə aşağıdakı kimi oldu (4-cü maddə): "İstənilən dövlət funksiyaları təşkilatın fəaliyyətinə uyğun gələn istənilən rəsmi polis orqanına təşkilatda üzv kimi çıxış etmək səlahiyyəti verə bilər. Təşkilatda üzvlüyə qəbul olunmaq haqqında xahiş müvafiq hökumət orqanı tərəfindən Baş katibə göndərilir. Üzvlüyə qəbul olunmaq haqqında qərar Baş Assambleya tərəfindən ⅔ səs çoxluğu ilə təsdiq olunur".

1956-cı il nizamnaməsi qəbul olunana qədər və ondan sonra neçə illər ərzində İnterpol beynəlxalq hüquq doktrinasında nəzərdə tutulan həqiqi beynəlxalq təşkilat deyildi, daha doğrusu hesab olunmurdu. O, BMT-də beynəlxalq qeyri-hökumətlərarası təşkilat kimi qeydə alınmışdı. 1956-cı ildə yeni nizamnamənin mətnin işlənib hazırlanarkən müəlliflər ona İnterpolun kompetensiyasi ilə bağlı elə müddəalar daxil etdilər ki, bu, sonralar, daha dəqiq desək, 1982-ci ildə İnterpolun beynəlxalq hökumətlərarası təşkilat kimi yüksək statusunun tanınması üçün kifayət oldu.

50-ci illərin ikinci yarısı bütün beynəlxalq təşkilatların, o cümlədən İnterpolun sürətli inkişaf dövrüdür. Müstəmləkəçilik sisteminin dağılması ilə çoxlu sayda yeni dövlətlər meydana çıxdı və onlar öz siyasi müstəqilliklərini beynəlxalq ünsiyyətdə – beynəlxalq müqavilələr bağlamaq və beynəl-

[1] Овчинский В.С. Интерпол в вопросах и ответах. Москва: 2001, с.19.

xalq təşkilatlara üzv olmaqla realizə etməyə başladılar. Belə təşkilatlar içərisində İnterpol da var idi.

İnkişaf etməkdə olan ölkələr idarə-polis problemlərini İnterpola daxil olmaqla həll etmək ümidində idilər. Bu problemlərdən aşağıdakıları qeyd etmək olar:

- Polis aparatının, onun ayrı-ayrı xidmətlərinin daha təkmil şəkildə yenidən qurulmasının zəruriliyi;
- Cinayətkarlıqla səmərəli mübarizə metodlarını mənimsəmək;
- Polis kadrlarının təlim sisteminin yeni tələblərə və yeni şəraitə uyğunlaşdırılması və s.

Yarandığı vaxtdan İnterpolun fəaliyyəti beynəlxalq cinayətkarlıqla mübarizəyə məqsədlənmişdir. O, beynəlxalq cinayətkarlar haqqında informasiyanı yaratmağa böyük diqqət yetirirdi. Lakin getdikcə çox tez-tez İnterpolun sessiyalarında, ümumiyyətlə cinayətkarlıqla mübarizə üzrə beynəlxalq əməkdaşlığın qurulması və genişləndirilməsi ilə bağlı çağırışlar səslənməyə başladı.[1]

Belə fəaliyyət özündə aşağıdakıları birləşdirir:

- Konkret növ cinayətlərə qarşı polis orqanlarının birgə praktiki hərəkətləri;
- Kriminologiya, kriminalistika sahəsində birgə elmi tədqiqatlar;
- Təcrübə və mütəxəssis mübadiləsi və s.

Bu, təşkilatın xarakterinin əhəmiyyətli şəkildə dəyişməsini, cinayətkarlıqla mübarizədə onun rolunun artmasını vəd edirdi.

Müharibədən sonrakı illərdə İnterpolun fəaliyyətinin genişlənməsi və digər beynəlxalq təşkilatlar arasında onun nüfuzunun artması müşahidə olunurdu.

İnterpolun mənzil qərargahı dəfələrlə dəyişmişdir. 1923-cü ildə Avstriyanın Vyana şəhərində, İkinci Dünya müharibəsi dövründə alman faşizminə xidmət etdiyinə görə Berlin şəhərində, müharibədən sonra – 1946-cı ildə Fransanın paytaxtı Paris şəhərində, 1989-cu ildən isə Fransanın Lion şəhərində yerləşir.

Müharibədən sonra İnterpol öz işinə Fransa Daxili İşlər Nazirliyi tərəfindən verilmiş çox böyük olmayan bir binada başlamışdır. Bir qədər sonra İnterpol Paris yaxınlığında Sen-Kluda öz mənzil qərargahının binasını tikdi və 1967-ci ildə ora köçdü. Lakin bu bina dar oldu. Yeni xidmətlərin yerləşdirilməsi üçün yer çatmadı, həmçinin binada müasir elektron hesablama texnikasının yerləşdirilməsi üçün də yer yox idi. Bütün bu tələblərə cavab verə

[1] Галинская А.Н. Проблемы сотрудничества государств в борьбе с преступностью. Москва: 1978, с.45.

biləcək yeni bina tikməklə bağlı qərar qəbul olundu.

Bu qərarı Parisdə realizə etmək mümkün olmadı. Buna maliyyə çətinlikləri imkan vermədi. Parisdə yeni binanın tikilişi böyük xərclər tələb edirdi. Buna görə də qərara alındı ki, təşkilatın mənzil qərargahı Parisdən Liona, Fransanın cənub-şərqinə keçirilsin. Lion Parislə bərabər digər yerlərlə də yaxşı əlaqə xətlərinə malik idi. Tezliklə burada İnterpol üçün ultra müasir binalar kompleksi tikildi. 1 iyun 1989-cu ildə İnterpolun mənzil qərargahı yeni binada işə başladı.

İnterpolun nizamnaməsi qəbul edildikdən sonra 57 dövlət: Argentina, Avstraliya, Belçika, Braziliya, Birma, Kamboca, Kanada, Seylon adaları, Çili, Kolumbiya, Kosta-Rika, Kuba, Dominikan Respublikası, Misir, Şimali İslandiya, Finlandiya, Fransa, Almaniya Federativ Respublikası, Böyük Britaniya, Yunanıstan, Qvatemala, Hindistan, İndoneziya, Livan, Liviya, Lüksemburq, Meksika, Monako, Niderland, Yeni Zelandiya, Pakistan, Filippin, Portuqaliya, Cənubi Afrika Respublikası, Səudiyyə Ərəbistanı, İsveç, İsveçrə, Suriya, Tailand, Türkiyə, Amerika Birləşmiş Ştatları, Uruqvay, Venesuela, Yuqoslaviya onun tərkibinə daxil olmuşdu.

Böyük bir dövlət olan ABŞ ilk vaxtlar İnterpolun xidmətindən zəif istifadə edirdi, lakin sonrakı dövrlərdə ABŞ-ın İnterpolla əlaqəsi daha intensiv xarakter aldı.

İtaliya, Afrika və Okeaniyanın ərazisində olan dövlətlər müstəmləkə asılılığından azad olduqdan sonra, müstəqilliyə nail olmuş dövlətlər İnterpolun üzvlüyünə qəbul olunmağa başladılar. İnterpolun Nizamnaməsi qəbul olunduqdan sonra üzvlərin sayı 100-ə çatdı.

1971-ci ildə İnterpolun Baş Assambleyasının Ottava şəhərində keçirilən sessiyasında Əlcəzair və Zambiya dövlətləri də üzv oldular. Bununla üzvlərin sayı 111 nəfərə çatdı.

Ümumiyyətlə, 1946-cı il 17 dövlət, 1960-cı ildə 66 dövlət, 1971-ci ildə 111 dövlət, 1980-ci ildə 130 dövlət, 1990-cı ildə 150 dövlət, 2000-ci ildə 179 dövlət İnterpolun üzvlüyünə qəbul olunmuş və beynəlxalq cinayətkarlığa qarşı fəal mübarizə aparmışlar.[1]

Müharibədən sonrakı illərdə İnterpolun üzvləri olan dövlətlərin sayı demək olar ki, 6 dəfə artdı. İnterpolun tərkibinə müstəmləkəçilik sistemindən azad olmuş gənc müstəqil dövlətlər və eyni zamanda sosializm sisteminə daxil olan ölkələr: Macarıstan, Yuqoslaviya, Bolqarıstan, Rumıniya və Çin Xalq Respublikası daxil olmağa başladılar.

Qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsindən sonra cinayətkarlığın tüğyan etməsi dünya dövlətlərinin, eyni zamanda sosializm sistemi-

[1] Michael F. Interpol: Issuesin worldorime and International criminal justice and publicsalaty. 1989, p.71-72.

nə daxil olan ölkələrin İnterpolun üzvlüyünə qəbulunu zəruri edən amillərdəndir. 1946-cı ildə Belçikanın Brüssel şəhərində keçirilən sessiyasında Çexoslovakiyanın Daxili İşlər Nazirliyinin nümayəndələri iştirak edirdilər. Artıq 40-cı illərin axırlarında Bolqarıstan, Macarıstan və Rumıniya, lakin bəzi Avropa dövlətlərinin təzyiqi və sosializm sisteminə daxil olan ölkələrin ciddi buraxılış sistemi siyasi ideologiyanın müxtəlifliyi həmin ölkələrin İnterpol sistemindən çıxmasına vadar etdi və 1951-ci il tarixində Bolqarıstan, 1952-ci ildə Macarıstan, Polşa, Çexoslovakiya, ancaq sosializm sisteminə daxil olan ölkələrdə Yuqoslaviya İnterpolun tərkibində öz fəaliyyətlərini davam etdirdi.

Qeyd etmək lazımdır ki, Yuqoslaviya İnterpol sistemində 1923-cü ildən, İnterpolun yaranma tarixindən fəaliyyətə başlamışdır. ancaq alman faşizmi dövründən başqa, Yuqoslaviyanın bütün tarixi dövrlərində İnterpol sistemində aktiv fəaliyyət göstərmişdir. Bunun səbəbi çoxdur. Belə ki, narkotik cinayətkarlıq olan narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə əlaqədar olan Yaxın və Uzaq Şərq və Avropaya gedən nəqliyyat dəhlizlərinin oradan keçməsi, Yuqoslaviyada beynəlxalq aeroport və beynəlxalq dəniz limanının olması beynəlxalq cinayətlərin təhlükəli növlərini törədən cinayətkarlar üçün münbit şərait yaradırdı. Ona görə də Yuqoslaviya polisi İnterpolun bütün proqramlarının yerinə yetirilməsində, beynəlxalq cinayətkarlığa qarşı mübarizə təşkilatı olan İnterpolun bütün tədbirlərində, eyni zamanda başqa dövlətlər tərəfindən axtarışda olan cinayətkarların tutulmasında yaxından iştirak etmişdir.

1959-cu ildə Kuba da inqilabın qələbəsindən sonra İnterpolla əlaqəsini dayandırdı. Lakin 14 il keçdikdən sonra, 1977-ci ildə İnterpolun Baş Assambleyasının Panamada keçirilən 47-ci sessiyasında iştirak etmişdir.

Ötən əsrin 60-cı və 70-ci illərində kapitalist və sosialist ölkələri arasında ticarət, iqtisadi əlaqələrin və viza rejiminin aradan qalxması və bütün bu kimi amillər, beynəlxalq cinayətkarlıq olan narkomaniya, qanunsuz valyuta əməliyyatı, qaçaqmalçılıq və s., bu qəbildən olan ağır cinayətkarlığın baş alıb getməsi sosialist dövlətlərinin polis, milis işçilərinin işini çətinləşdirirdi.

Macarıstan Respublikasının əvvəlki dövrlərdə direktoru olmuş Biro Şandorun dediyinə görə, Macarıstan Respublikasında hər il 2,5-3 min cinayət qeydə alınırdı. Həmin cinayətləri törədənlərin 2,5%-i xarici ölkələrin vətəndaşları idilər.

1972-ci ilin dekabr ayında Rumıniya hökuməti İnterpola daxil olması barədə ərizə ilə müraciət etdi və 1973-cü ildə keçirilən İnterpolun Baş Assambleyasının sessiyasında İnterpolun üzvlüyünə qəbul olundu.

1981-ci ilin payızında Macarıstan Respublikası İnterpolun üzvlüyünə

qəbul olundu. Həmin dövrdə Macarıstan Respublikasının MMB-nin rəisi öz müsahibəsində bildirir ki, aşağıdakı səbəblərdən Macarıstan hökuməti İnterpola daxil oldu:

- Beynəlxalq cinayətkarlıqla mübarizədə dünya dövlətlərinin İnterpolun üzvü olan ölkələrin birgə səyləri ilə mübarizəni asanlaşdırır;
- Cinayətkarların yerinin müəyyən edilməsi üçün dünya dövlətləri ilə olan əlaqə effektiv şərait yaradır;
- Cinayətkarların ekstradisiyası zamanı dünya dövlətləri ilə əlaqə bu sahədə işi asanlaşdırır.[1]

1984-cü ilin sentyabr ayında İnterpolun Baş Assambleyasının Lüksemburqda keçirilən 53-cü sessiyasında Çin Xalq Respublikası hökumətinin rəsmi müraciətinə əsasən, ÇXR İnterpolun üzvlüyünə qəbul olundu və həmin dövrdən etibarən Çin Xalq Respublikasının nümayəndələri İnterpol tərkibində aktiv fəaliyyət göstərməyə başladılar. Çinin nümayəndəsi Tsu-Entao 1986-cı ildə İnterpolun icraiyyə komitəsinin üzvlüyünə daxil oldu və 1987-ci ildə Asiya regionu üzrə vitse-prezident seçildi.

Çin Xalq Respublikasının İnterpol sistemində aktiv fəaliyyəti İnterpolun üzvləri olan başqa sosialist dövlətlərinin işini canlandırdı. Belə ki, Yuqoslaviya dövlətinin nümayəndəsi Babiç əvvəl İnterpolun icraiyyə komitəsinin üzvü, 1986-cı ildən isə Avropa üzrə İnterpolun vitse-prezidenti seçildi. İnterpol tarixində bu dövrə qədər olmadığı halda, eyni dövrdə sosializm sisteminə daxil olan ölkələrdən 2 nəfər İnterpolun icraiyyə komitəsinin vitse-prezidenti seçildi.

1989-cu ilin dekabr ayında İnterpolun Baş Assambleyasının 58-ci sessiyasında rəsmi qaydada müraciət etdi və İnterpolun üzvlüyünə qəbul olundu. Həmin dövrdə fəaliyyət göstərən Bolqarıstanın “Rabotniçesko delo» yazırdı indiki dövrdə sərhədlərin açılması cinayətkarlar üçün də əlverişli şərait yaratmışdır. Ona görə də Bolqarıstan dövlətinin öz vətəndaşlarının hüquqlarını cinayətkar qəsdlərdən qorumaq üçün İnterpolun üzvlüyünə daxil olması beynəlxalq cinayətkarlığa qarşı mübarizə üçün əlverişli şərait yaradır.[2]

Sosializm sisteminə daxil olan Sovet Sosialist Respublikalar İttifaqı marksizm-leninizm ideologiyasına xidmət etdiyinə görə, İnterpolun yaranması tarixi olan 1923-cü ildə, 1956-cı il tarixində Vyana şəhərində keçirilən yubiley tədbirində və İnterpolun başqa tədbirlərində iştirak etmək üçün dəvət olunsa da, həmin tədbirlərin heç birində SSRİ nümayəndələri iştirak etməmişlər.[3]

---

[1] Бреслер Ф. Интерпол. Москва: 1996, с.11.
[2] Штиглиц А.Н. Исследование о выдаче преступников. Санкт-Петербург: 1982, с, 203.
[3] Самарин В.И. Интерпол – международная организация уголовной полиции. Санкт-Петербург: 2004, с. 46.

(buradan)SSRİ hökumətinin başçısı, avantürist M.S.Qorbaçovun apardığı yenidənqurma siyasətindən sonra SSRİ ərazisində cinayətkarlıq tüğyan etməyə başladı. Yaranmış vəziyyətdən çıxış yolu axtarmağa başladılar. 1990-cı il sentyabrın 27-də İnterpolun Kanadanın Ottava şəhərində keçirilən 59-cu sessiyasında SSRİ Daxili İşlər naziri Bakatinin başçılığı ilə nümayəndə heyəti iştirak etdi və SSRİ İnterpolun üzvlüyünə qəbul edildi. SSRİ nümayəndə heyətinin tərkibində SSRİ Milli Mərkəzi Bürosunun yaradıcılarından biri – general-polkovnik Truşin də iştirak etmişdir.

Sessiyada İnterpolun Baş katibi R.E.Kendal çıxış edərək, SSRİ ərazisində və başqa sosialist ölkələrində beynəlxalq cinayətkarlığın artdığını qeyd etmişdir. O, daha sonra demişdir: “Mən belə hesab edirəm ki, Sovet İttifaqı ilə birgə əməkdaşlıq cinayətkarlıqla mübarizədə, xüsusilə mütəşəkkil cinayətkarlıq, terrorizm, narkotik cinayətkarlığa qarşı dünyanın bütün ölkələri ilə birgə mübarizə səmərə verməlidir”.

Bir faktı qeyd etmək yerinə düşərdi ki, 1989-cu ildə Sovet İttifaqı ərazisində 110 min cinayət qeydə alınmışdır.[1]

7 aprel 1990-cı ildə, həmin dövrlərdə tərkibində olduğumuz SSRİ Nazirlər Soveti İnterpolun tərkibinə daxil olması haqqında 338 saylı qərar qəbul etdi. 1 yanvar 1991-ci ildən isə SSRİ Daxili İşlər Nazirliyinin strukturunda İnterpolun MMB-si fəaliyyətə başladı. SSRİ hökuməti süquta uğradıqdan sonra Rusiya Federasiyası hökuməti SSRİ-nin varisi kimi səlahiyyəti öz üzərinə götürdü və hal-hazırda fəaliyyətdədir.

Rusiya Federasiyasının müxtəlif regionlarında 70-dən artıq filialları dünya ölkələrinin MMB-ləri ilə əlaqəli şəkildə fəaliyyət göstərirlər.[2]

Keçmiş SSRİ-nin tərkibində olan bütün respublikalar İnterpolun üzvüdürlər. O cümlədən müstəqil Azərbaycan Respublikası 1992-ci ildə Seneqalın Dakar şəhərində keçirilən 61-ci sessiyasında bu təşkilata daxil olmuşdur.

2013-cü ilin məlumatına görə, İnterpolun 190 üzvü vardır. 2020-ci ildə isə onların sayı artıb 194 olmuşdur.

Bir beynəlxalq təşkilat kimi, İnterpolun özünün emblemi, gerbi, mavi və ağ rəngdə işlənilmiş bayrağı var. Emblemdə Yer kürəsi, əfsanəvi ədliyyə ilahəsi Femidanın tərəzisi və ədalət mühakiməsinin cəzalandırıcı qılıncı əks olunub. Yer kürəsi zeytun ağacının budağı ilə haşiyələnib. Bu, sülh, razılıq və əməkdaşlıq rəmzidir. Bayraqda, emblemdə Cinayət Polisi Təşkilatının tam adının ilk hərfləri (müvafiq olaraq fransız və ingilis dilində) iri şriftlə – OİPC-İCPO əks olunmuşdur.

---

[1] Родионов К.С. Вчера, сегодня, завтра. Москва: 1990, с.76-77.

[2] Волеводз, А. Г. Международная организация уголовной полиции – Интерпол: правовые основы организации и деятельности // Международные правоохранительные организации: учеб. пособие. Москва: 2011. С. 51–68.

## 1.2. İnterpolun strukturu, vəzifələri, funksiyaları və başlıca fəaliyyət metodları

İnterpol əsas icraedici və nadir quruluşu, hüquqi bazası, texniki təchizatı sayəsində beynəlxalq polis əməkdaşlığını səmərəli surətdə əlaqələndirən beynəlxalq təşkilatdır.

Öz qüvvələri sayəsində İnterpol istintaq aparılması, müxtəlif ölkələrdə müxtəlif cinayətlərin açılması ilə məşğul ola bilmir. Belə bir fəaliyyət mümkün deyil. Konkret cinayətlərin açılmasında, müxtəlif dövlətlərin cinayət polisi xidmətlərinin təcrübə əməkdaşlığında və onlar tərəfindən həyata keçirilən səylərin əlaqələndirilməsində vasitəçi mexanizmi olan İnterpol ümumi polis strategiyasının və beynəlxalq cinayətkarlıqla mübarizə taktikasının işlənib hazırlanması üzrə vahid dünya mərkəzi kimi fəaliyyət göstərir.[1]

İnterpolun inkişafının strateji planında qeyd edilmişdir ki, cinayət fəaliyyətinin bütün sahələri ümumdünya polis informasiyasının mübadilə sistemi və müəyyən məlumatların təqdim edilmə formaları ilə əhatə olunmalıdır.

Dünyada olan bütün Milli Mərkəzi Büroların bir-biri ilə elektron poçt sisteminin köməyi ilə əlaqə yaratmaq məqsədi ilə İnterpolun Baş Katibliyi müasir kommunikasiya ilə təchiz edilib. Beynəlxalq cinayətlər və cinayətkarlıq haqqında məlumatlar çoxsaylı məlumat bazasında saxlanılır. Bu məlumat bazaları İnterpolun mənzil qərargahında – Fransanın Lion şəhərində bir yerə toplanılır. Uyğunluğu üzə çıxarmaq və naməlum olan əlaqələri müəyyən etmək məqsədi ilə bütün daxil olan məlumatlar çarpaz yoxlamalara məruz qalır.

Kriminogen vəziyyətin gərginliyi və terror təhlükəsinin artdığı müasir şəraitdə məlumatların ötürülməsi, izlənilməsi və verilməsinin operativliyi hüquq qaydasının təmin olunmasının vacib şərtidir.

Qeyd olunan məsələlərin həlli ən müasir texnologiyaların tətbiqini həyata keçirmədən, o cümlədən təkcə bir dövlətin deyil, həm də beynəlxalq səviyyədə bir neçə dövlətin hüquq-mühafizə orqanlarının strukturlarını birləşdirən vahid məlumat məkanı yaratmadan qeyri-mümkündür. Məhz bu baxımdan, İnterpolun Qlobal Polis Kommunikasiya Sistemi hüquq-mühafizə orqanlarının beynəlxalq əməkdaşlığı üçün təkmilləşdirilmiş xidmət vasitəsidir.

Qlobal telekommunikasiya sisteminin səhifəsi, İnterpolun Baş Katibliyinin polis xidmətləri və məlumat bazasına daxil olmaq üçün xüsusi istiqa-

---

[1] Quliyev Z.Z. İnterpolun qlobal telekominikasiya sisteminin cinayətkarlıqla mübarizədə hüquq-mübarizə orqanları üçün yaratdığı imkanlar // Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin məlumat bülleteni, 2012, №2, s. 29.

mət sayılmalıdır. Müvafiq sistem 7 gün 24 saat rejimində fəaliyyət göstərir. Hal-hazırda sistem İnterpolun 190 üzv dövlətində hüquq-mühafizə orqanları əməkdaşlarının fəaliyyətini əlaqələndirməklə cinayət törətmiş şəxslər və cinayətkar fəaliyyət barədə zəruri məlumat mübadiləsinin həyata keçirilməsini təmin edir.[1]

Qeyd edildiyi kimi, İnterpolun əsas sənədi 1956-cı ildə Beynəlxalq Cinayət Polisi Komissiyası (müəl.: İnterpol 1956-cı ilədək bu cür adlanırdı) tərəfindən qəbul edilmiş nizamnaməsidir. Təşkilatın təsis olunması ilə bağlı rəsmi müqavilənin qəbul olunması bəzən yanlış olaraq İnterpola qeyri-hökumət təşkilatı kimi baxılmasına səbəb olur. Lakin nizamnamənin özünün bəzi maddələri bu fikirlə ziddiyyət təşkil edir. Məsələn, nizamnamənin 4-cü maddəsinə müvafiq olaraq, təşkilatın üzvləri dövlətlər deyil, rəsmi polis orqanlarıdır. Lakin həmin maddədə həmçinin qeyd olunur ki, üzv olmaq üçün ərizə müvafiq hökumət orqanı tərəfindən təqdim olunmalıdır. Digər bir maddə; 45-ci maddədə qeyd olunur ki, polis orqanları öz ölkələrini təmsil edir.

Nizamnamənin 32-ci maddəsinə əsasən, hər bir ölkə Milli Mərkəzi Büro qismində (MMB) fəaliyyət göstərəcək orqanları təyin etməlidir.

Qeyd olunduğu kimi, İnterpolun mənzil qərargahı Fransanın Lion şəhərində yerləşir. Buraya Avropa, Aralıq dənizi ölkələri, Şimali Amerika və Yaxın Şərqin regional mərkəzləri daxildir. İnterpolun digər mərkəzləri Nayrobidə (Şərqi Afrika üçün), Abidcan (Qərbi Afrika üçün), Buenos-Ayresdə (Cənubi Afrika üçün), Tokioda (Asiya üçün) və Puerto-Rikoda (Mərkəzi Amerika və Karib hövzəsi ölkələri üçün) yerləşir.

İnterpolun əsas sənədi 1956-cı ildə Cinayət Polisinin Beynəlxalq Komissiyası Baş Assambleyası tərəfindən qəbul edilən nizamnaməsidir. Təşkilatın əsasını qoyan rəsmi müqavilənin olmaması bəzi insanları İnterpolu hökumət təşkilatının olmaması kimi qəbul etməyə vadar edir.

Lakin nizamnamənin özünün bəzi maddələri bu fikrə ziddiyyət təşkil edir. Məsələn, 4-cü maddəyə müvafiq olaraq, təşkilatın üzvləri dövlətlər deyil, rəsmi polis orqanlarıdır, lakin həmin maddədə həmçinin qeyd olunur ki, üzv olmaq üçün ərizə müvafiq hökumət orqanı tərəfindən təqdim olunmalıdır.

Bundan başqa 7-ci maddədə hər bir ölkənin yalnız bir səlahiyyətli hökumət idarəsi adını daşıyan nümayəndəsinin olmasını nəzərdə tutur.

İnterpolun ümumi qaydalarının 7-ci maddəsinə görə, üzvləri Baş Assambleyaya çağıran bildirişlər təşkilatçı ölkə tərəfindən diplomatik kanallarla başqa ölkəyə göndərilir.

Nizamnamənin 13-cü maddəsinə görə hər ölkədən yalnız bir núma-

[1] Babayev H.A. İnterpolun fəaliyyətinin hüquqi və təşkilati aspektləri // Hüquq və qanun, 2002, №1, s.42-44.

yəndənin Baş Assambleyada səs vermək səlahiyyəti vardır. Ümumi qaydanın 18-ci maddəsində bu daha aydın göstərilir, çünki hər bir təmsil edən ölkənin yalnız bir səsi vardır.

Digər bir maddədə 45-ci maddədə qeyd olunur ki, polis orqanları öz ölkəsini təmsil edir.

İnterpolun qeyri-hökumətlərarası təşkilat olması fikri ilə ziddiyyət təşkil edən müddəalar digər maddələrdə də öz əksini tapmışdır. İnterpol hökumətlərarası təşkilat kimi, beynəlxalq hüquqa müvafiq olaraq, hüquq və imtiyazlara malik olan hüquqi şəxsdir və müxtəlif ölkələrin qanunlarına deyil, beynəlxalq hüquqa tabedir.

Beləliklə, İnterpolun nizamnamə və ümumi qaydalarının çoxsaylı müddəalarından aydın olur ki, hər bir dövlətin məhz səlahiyyətli hökumət idarəsi Baş Assambleyada nümayəndələrin başçılarını təyin edir. Bu vəziyyət İnterpolun hökumətlərarası xarakter daşıdığını aydın göstərir.

1971-ci ildə İnterpol və BMT-nin İqtisadi və Sosial şurası arasında əməkdaşlıq haqqında xüsusi sazişin bağlanmasından sonra 1982-ci ildə isə İnterpol BMT-də Beynəlxalq Hökumətlərarası Təşkilat statusu almış və BMT tərəfindən tanınmışdır.

1996-cı il oktyabrın 15-də BMT-nin Baş Assambleyasının qəbul edilmiş qətnaməsində təsdiq edilmişdir. Bu qətnamənin ardınca 1997-ci il iyul ayının 8-də MBT-nin mənzil qərargahı Nyu-York şəhərində İnterpolun Prezidenti və BMT-nin Baş katibi arasında "İnterpol və BMT-nin əməkdaşlığı" sazişi imzalanmışdır. 1997-ci ildə Dehli şəhərində Baş Assambleyanın 66-cı sessiyasında qəbul edilmiş qətnamənin təsdiqindən sonra bu saziş qüvvəyə mindi.

Hökumətlərarası statusuna görə, İnterpol öz üzv dövlətlərinin qanunlarına tabe olmur və öz fəaliyyəti, əməkdaşlarının fəaliyyəti üçün o, imtiyaz və toxunulmazlıq hüququndan istifadə edə bilər. Təşkilatın əsas məqsədləri nizamnamənin 2-ci maddəsində qeyd olunur. Nizamnamədə də göstərildiyi kimi, İnterpolun əsas funksiyası:

a) Ümumdünya İnsan Hüquqları Bəyannaməsi ruhunda və ölkələrin qüvvədə olan qanunvericiliyi çərçivəsində bütün cinayət polis orqanlarının geniş qarşılığını təmin və inkişaf etdirmək;

b) Ümumi cinayətkarlığın qarşısını almaq, onunla mübarizəyə müvəffəqiyyətlə yardım göstərə bilən təşkilatlar yaratmaq və inkişaf etdirmək.

Xüsusilə vurğulamaq lazımdır ki, İnterpolun hər cür siyasi, hərbi, dini və irqi xarakterli cinayətlərə qarışması və ya bu sahədə fəaliyyət göstərməsi qəti qadağandır.[1]

İnterpolun əsas vəzifəsi iştirakçı ölkələrin hüquq-mühafizə təşkilatları-

[1] Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun Nizamnaməsi. Bakı: 1951, s.51. Maddə 3.

nın ümumi cinayətkarlığa qarşı mübarizəsidir. Digər vəzifəsi isə beynəlxalq axtarışlara koordinatorluq, insan alverinə qarşı mübarizə, narkotik, terror, saxta pul və qiymətli kağızların qanunsuz dövriyyəsinə qarşı mübarizə və s. daxildir.[1]

İnterpolun strukturunu Baş Assambleya, İcraiyyə Komitəsi, Baş Katiblik, Milli Mərkəzi Büro, Məşvərətçilər təşkil edir.

İnterpol strukturuna görə BMT-nin ixtisaslaşmış təsisatlarını xatırladır. Nizamnamənin 5-ci maddəsinə görə, İnterpol Ali orqan olan Baş Assambleya daha məhdud səlahiyyətli və daha məhdud tərkibli inzibati orqan olan İcraiyyə Komitəsinə malikdir. İcraiyyə Komitəsinə prezident başçılıq edir. Təşkilatın daimi fəaliyyət göstərən işçi aparatı Baş Katiblikdir və onun başında Baş katib durur.

Bununla yanaşı, İnterpol sistemində digər beynəlxalq təşkilatların strukturunda oxşarı olmayan orqan – Milli Mərkəzi Bürolar fəaliyyət göstərir.

MMB-lər iştirakçı dövlətlərin polis sistemində fəaliyyət göstərsələr də, eyni zamanda İnterpolun struktur vahidləri hesab olunurlar.

Baş Katiblik, onun işçiləri və bütün MMB-lər üzv dövlətlərin polis orqanlarının İnterpol sistemində gündəlik, operativ əməkdaşlığın mexanizmini təşkil edir. Məhz MMB-nin Baş Katiblik əlaqələri İnterpol sistemində əməkdaşlığın əsasını təşkil edir.

İnterpolun nizamnaməsinin 34-cü maddəsinə müvafiq olaraq, İnterpol ayrı-ayrı elmi-tədqiqat işi tələb edən məsələləri müşavirlərə həvalə edə bilər.

Nizamnamənin 35-ci maddəsində göstərilir ki, müşavirlər yalnız məsləhətçi funksiyasını icra edirlər.[2]

İnterpolun bu struktur hissələrinin hər biri üzərində ətraflı duraq:

1) Baş Assambleya.

Baş Assambleya Beynəlxalq Cinayət Polisi Təşkilatının ali orqanıdır. O, bütün üzv dövlətlərin nümayəndələrindən ibarətdir. İnterpola üzv olan hər bir dövlət Baş Assambleyaya nümayəndə heyəti göndərir. Onun kəmiyyət tərkibi haqqında heç nə nəzərdə tutulmayıb.

Nizamnaməyə müvafiq olaraq, üzv dövlətlər nümayəndə heyətinin tərkibinə daxil edilməlidirlər: yüksək rütbəli cinayət polisi məmurlarını, milli miqyasda təşkilatın fəaliyyəti ilə bağlı olan xidmətçiləri və müəyyən məsələlər üzrə mütəxəssislər.

Baş Assambleyanın sessiyasında İnterpola daxil olmayan dövlətlərdən müşahidəçilər və beynəlxalq təşkilatın nümayəndələri iştirak edə bilərlər.

---

[1] Məlikov Ə. Beynəlxalq polis təşkilatı // Mübariz keşikdə, 2012, 12 yanvar, №7 (3038).

[2] International Criminal Police Review // Polis, 1978, №323, p.285.

Baş Assambleya plenar məşvərətçi, İcraiyyə Komitəsi ilə məhdudlaşdırılmış məsləhətçi orqandır.

Strategiyanın tərifinə görə, onun səlahiyyətləri normativ, seçkili nəzarət funksiyalarından həyata keçirilir. Bu funksiyalar təşkilatın nizamnaməsinin 8-ci maddəsinə görə, aşağıdakı kimi sadalanır:

a) Bu nizamnamədə göstərilən bütün vəzifələri yerinə yetirmək;
b) Fəaliyyət prinsipini müəyyən etmək və təşkilatın bu nizamnaməsinin 2-ci maddəsində göstərilən məsələlərin yerinə yetirilməsinə görə göstərilməli olan ümumi tədbirləri işləyib hazırlamaq;
c) Baş Katibliyin növbəti il üçün təşkil etdiyi ümumi iş planını nəzərdən keçirmək;
d) Tətbiqinin zəruri sayıldığı digər qaydaları müəyyən etmək;
e) Nizamnamədə nəzərdə tutulmuş funksiyaları yerinə yetirəcək şəxsləri seçmək;
f) Təşkilatın səlahiyyətinə aid məsələlər üzrə qərarlar qəbul etmək və onun üzvlərinə tövsiyələr vermək;
g) Təşkilatın maliyyə siyasətini müəyyən etmək;
h) Digər təşkilatlarla razılaşmaları nəzərdən keçirmək və təsdiq etmək.

Təşkilatın üzvləri Baş Assambleyanın qərarlarını yerinə yetirmək üçün səlahiyyətləri çərçivəsində və öhdəliklərinə uyğun olaraq bütün mümkün tədbirləri həyata keçirirlər.

Nizamnamənin 10-cu maddəsində göstərilir ki, Baş Assambleyanın sessiyaları hər il keçirilir. İcraiyyə Komitəsinin və təşkilatın üzvləri çoxluğun xahişi ilə fövqəladə sessiyalar keçirə bilər.

Baş Assambleya öz sessiyalarının gedişində konkret məsələləri öyrənmək üçün xüsusi komitələr yarada bilər. Nizamnamənin 12-ci maddəsində göstərilir ki, hər bir sessiyanın yekun iclasında Baş Assambleya növbəti sessiyanın keçiriləcəyini müəyyən edir. Baş katiblə məsləhətləşmələr keçirildikdən sonra dəvət edən ölkə ilə təşkilatın prezidenti arasında razılaşma əsasında növbəti sessiyanın keçiriləcəyi vaxt müəyyən olunur.

Baş Assambleyanın səs hüququna hər bir ölkənin yalnız bir nümayəndəsi malikdir. Nizamnamənin 14-cü maddəsində qeyd edilir ki, qəbul edilməsi üçün nizamnaməyə əsasən, ⅔ səs çoxluğu tələb edilən hallar istisna olmaqla, qərarlar adi səs çoxluğu ilə qəbul olunur.

Baş Assambleya üzv dövlətlərin nümayəndələrindən ibarətdir. Təşkilat qeyri-adi xarakter daşıdığına görə, onun üzvlərinin nümayəndə heyətinə polisin yaşlı vəzifəli şəxslərini və gündəlik məsələlər üzrə mütəxəssisləri daxil etmək lazımdır.

Bu və ya başqa beynəlxalq təşkilatların üzvləri olmayan ölkələrin polis orqanlarını Baş Assambleyanın sessiyasına müşahidəçi kimi dəvət etmək

olar. Baş Assambleyanın fəaliyyəti təşkilat nizamnaməsinin müxtəlif müddəaları və ümumi qaydaların 2-38-ci maddələrinə kimi olan müddəaları əsasında qaydaya salınır.

Bundan başqa, Baş Assambleyanın 1997-ci ildə Antalya şəhərində keçirilən 65-ci sessiyasında üsullar üzrə qayda külliyyatı qəbul edilmişdir. Bu üsullar üzrə qanunlar nizamnamə və ümumi qaydalarda saxlanılan Baş Assambleya sayəsində bütün şərhləri özünə daxil edir. Eyni zamanda qaydalarda yeni müddəalar göstərilir, başqaları isə izah edilir.[1]

Baş Assambleya hər il növbəti sessiyada görüşür. Üzv olan müxtəlif dövlətlər hər sessiyanın sonunda Baş Assambleyanı öz ərazisində görüşməyə dəvət edə bilər. Assambleya növbəti ildə keçiriləcək görüş yerini bu dövlətlərin içərisindən seçir. Dəqiq vaxt Baş katiblə məsləhətləşdikdən sonra təşkilatın prezidenti və təşkilatçı ölkə ilə birgə müəyyən edilir. Sessiyadan 4 ay əvvəl üzv dövlətlər diplomatik kanallarla iştirakçı dövlətlərdən rəsmi dəvətnamələr alırlar. Eyni zamanda Baş Assambleya İcraiyyə Komitəsinin və əksəriyyəti üzv olan dövlətlərin tələbi ilə müəyyən sualları müzakirə etmək üçün növbədənkənar sessiyada görüşə bilər. Belə sessiyalar təşkilatın mənzil-qərargahında keçirilir.

İcraiyyə Komitəsi Baş Assambleyanın sessiyasından əvvəl bəndləri təcililik və birincilik qaydalılığı ilə yerləşdirərək bütünlüklə gündəlik məsələləri tərtib edir. O, qabaqcadan gündəliyi və üzvləri tərəfindən təklif olunan əlavə bəndləri nəzərə alır. Bu gündəlik təcili bəndləri əlavə edən Baş Assambleya tərəfindən təsdiq edilir.

Təşkilatın prezidenti Baş Assambleyanın sessiyasına sədrlik edir.

Baş Assambleyanın katibliyi debatların yekun hesabatını protokol şəklində tərtib edən Baş katib tərəfindən təmin edilir. Baş Assambleya vacib bildiyi komitələri təşkil edə və gündəliyin müxtəlif bəndləri ilə əlaqədar olan işi onlar arasında bölüşdürə bilər. Hər komitə Baş Assambleyanın iclasında görülmüş işlər haqqında təyin edilmiş sədr və məruzəçi tərəfindən hesabat verir.

Hər il İcraiyyə Komitəsi tərəfindən qəbul edilmiş gündəliyə əsasən aşağıdakı komitələr təşkil edir:

- Milli Mərkəzi Büro başçılarının görüşü;
- Hər kontinent üçün kontinental görüş;
- Maliyyə Komitəsi;
- Narkotiklər üzrə Komitə;
- İqtisadi və maliyyə cinayətləri üzrə Komitə;

[1] Овчинский Б.С. Интерпол в вопросах и ответах: учебное пособие. Москва: 2001, с. 21-22.

- Kompüterləşmə və telekommunikasiya üzrə Komitə.

Əgər Baş Assambleya tərəfindən qəbul edilən qərarlar təşkilatın nizamnaməsinə və ya ümumi qaydalara dəyişikliklər gətirirsə, bu zaman qərar layihəsini öyrənmək və öz qərarını vermək üçün xüsusi komitə yaradılır.[1]

Seçkilər keçirilən zaman Baş Assambleya 3 başçı nümayəndədən başçısından İcraiyyə Komitəsini təşkil edir. Baş Assambleya 2 cür qətnamə qəbul edir:

- Təşkilatın fəaliyyəti ilə bağlı olan qətnamələr;
- Beynəlxalq hüquq-mühafizə fəaliyyətinin müxtəlif aspektləri ilə bağlı olan qətnamələr.

Qətnamələr nadir hallarda təşkilatın üzvlüyünə vaciblik xarakteri daşıyır. Lakin onlar təşkilatın bütün orqanlarına, xüsusilə də Baş Katibliyə öhdəçilik qoyurlar.

Qətnamələr yalnız real məqsədləri istifadə etməlidirlər. Əgər hər hansı məqsədlər təşkil olunursa, o zaman bu məqsədlərə nail olma vasitələrini təyin etmək və qətnamənin kimə ünvanlandığını bilmək lazımdır.

İnterpolun İcraiyyə Komitəsi təşkilat tərəfindən seçilən məşvərətçi orqandır. Təşkilatın nizamnaməsinin 22-ci maddəsinə görə İcraiyyə Komitəsi:

- Baş Assambleya tərəfindən qəbul edilən qərarların yerinə yetirilməsinə nəzarət edir;
- Baş Assambleyanın gündəlik məsələlərini hazırlayır, vacib saydığı iş və layihə planını Baş Assambleya tərəfindən baxılmasına təqdim edir;
- Baş Katibliyin işinə və idarəyə nəzarət edir;
- Assambleya tərəfindən tapşırılmış bütün vəzifələri yerinə yetirir;
- İcraiyyə Komitəsi təşkilatın nizamnaməsində dəyişikliklərin salınmasını təklif edə bilən Baş Katiblikdə saxlanılan poçt məlumatlarının məhv edilməsi barədə qaydaları qəbul edir və yenidən yoxlayır;
- İcraiyyə Komitəsi Baş Assambleya tərəfindən Baş katib vəzifəsinə seçilən namizədləri irəli sürür.

İK təşkilatın fəaliyyətini Baş Assambleyanın və İcraiyyə Komitəsinin qaydalarına uyğunluğunu təmin edir və Baş katiblə daimi əlaqə saxlayır. İcraiyyə Komitəsi 13 üzvdən ibarətdir: 1)Təşkilatın prezidenti; 2) 3 vitse-prezident; 3) 9 nümayəndə.

İcraiyyə Komitəsinin üzvləri müxtəlif ölkələrdən, prezident və vitse-prezidentləri isə müxtəlif qitələrdən olmalıdır.[2]

---

[1] Бельсон Я.М. Международная организация уголовной полиции (Интерпол). Москва: 1981, с. 24-25.

[2] Родионов К.С. Международная организация уголовной полиции (Интерпол). Москва: 1972, с.33-34.

Əgər prezident vəzifəsinə seçilməzdən əvvəl o, İcraiyyə Komitəsinin üzvü olmayıbsa və həmin qitə üçün heç bir baş vəzifə yoxdursa, o zaman müvəqqəti olaraq İcraiyyə Komitəsi 14 üzvdən ibarət ola bilər. Sonra 4 vitse-prezident elə seçilir ki, bütün qitələr prezidentlik səviyyəsində təqdim olunur. Şərait imkan verən kimi, bu müvəqqəti vaxt bitirilməlidir.

İcraiyyə Komitəsinin üzvləri hər növbəti sessiyanın sonunda yaranaraq, Baş Assambleya tərəfindən yalnız nümayəndələr Baş İcraiyyə Komitəsinin üzvləri tərəfindən seçilir. Nümayəndələr Baş Assambleyanın sessiyalarında təşkilatın üzv dövlətlərinin təmsilçiləridirlər. Əgər onlar qoyulan tələblərə cavab verə bilmirsə, o zaman onların səlahiyyətləri avtomatik olaraq bitir.

İcraiyyə Komitəsinin üzvlərinin ölümü, istefası və səlahiyyətləri bitən zaman vakansiyaları doldurmaq üçün seçkilər keçirilir. Səsvermə gizli seçki bülleteni ilə həyata keçirilir. Əgər bu da nəticə verməzsə, onda püşkatma tətbiq edilir. Prezidentin seçilməsi üçün ⅔ səs çoxluğu tələb olunur. Əgər bu səs çoxluğu 2-ci səsvermədən sonra alınmayıbsa, onda sadəcə çoxluq kifayət edir.

Təşkilatın maliyyə öhdəliklərini yerinə yetirməyən üzv dövlətlərin nümayəndələri İcraiyyə Komitəsinin seçkilərində iştirak etmirlər.

Prezident 4 ilə, vitse-prezident isə 3 ilə seçilirlər. İcraiyyə Komitəsinin nümayəndələri kimi onlar həmin vəzifələrə təcili olaraq yenidən seçilməyə aid deyillər. İcraiyyə Komitəsinin üzvləri aşağıdakı hallarda öz səlahiyyətlərini itirirlər: əgər istefaya gedərsə, vəfat edər və ya təşkilatın nümayəndəliyindən çıxarsa. Yeni seçilmiş üzvün səlahiyyət müddəti ondan əvvəl olan üzvün səlahiyyət müddəti qədərdir. İcraiyyə Komitəsinin üzvləri öz vəzifələrində səlahiyyətləri bitən ildə keçirilən Baş Assambleyanın sessiyasının sonuna kimi qalırlar. Təşkilatın prezidentinin çağırışı ilə, İcraiyyə Komitəsi ən azı ildə bir dəfə görüşməlidir. Praktiki olaraq İcraiyyə Komitəsi ildə 3 dəfə görüşür. Ümumi qayda olaraq, birinci iki sessiya təşkilatın mənzil qərargahında keçirilir. Üçüncü sessiya təşkilatçı dövlətlərdə keçirilən Baş Assambleyanın sessiyasından əvvəl keçirilir. İcraiyyə Komitəsinin iclasları 1994-cü il tarixində qəbul olunmuş üsul qaydalara uyğun olaraq keçirilir. Bu qaydalar müzakirə zamanı əməl edilən üsulları təyin edir.[1]

**İnterpolun arxivi üzərində nəzarətin aparılması fikri İnterpol ilə Fransa hökuməti arasında bağlanmış mənzil qərargahın 8-ci maddəsinə xülasə edilmişdir**. Bu maddə 1982-ci il noyabrın 3-də imzalanmış və 1984-cü il fevralın 4-də qüvvəyə minmişdir. Bu prinsipin yerinə yetirilmə qaydası mənzil qərargahı sazişinin hər iki tərəf ilə İnterpolun arxivi üzərində daxili

[1] Nepote J. International Police Cooperation // ICPR, 1973, №267, s.28.

yoxlama nəzarəti şurası təşkilat tərəfindən yaradılması təklifi verən və onun vəzifələrini qeyd edən məktubların dəyişməsi zamanı təyin edilir.

İnterpol bu öhdəlikləri yerinə yetirdi və bu beynəlxalq polis əməkdaşlığı və İnterpolun arxivi üzərində daxili yoxlama qaydalarını qəbul etdi. Bu qaydalar Baş Assambleya tərəfindən təsdiqləndi (1982-ci il, Torremolinos) və bu günə kimi “Beynəlxalq polis əməkdaşlığı qaydaları” adlanır. Onların əsas məqsədi polis məlumatlarının düzgün istifadə edilməməyinin və insan hüquqlarının pozulmasının qarşısını almaqdır.

Şura 5 üzvdən ibarətdir. 3 nəfər ya onların məlumatın qorunması məsələlərində ədalət və bacarıq nümayiş etdirdikləri əsasında və ya ədalət məhkəməsində rəhbər vəzifələri tutduqlarına görə təyin edilirlər. Bir nəfər İnterpol, biri Fransa hökuməti, üçüncü şuranın sədri olaraq həm İnterpol, həm də Fransa hökuməti tərəfindən seçilirlər). Onların hər birinin müavinləri olur.

- İnterpolun İcraiyyə Komitəsi öz üzvlərindən birini və müavinini təyin edir.
- Şuranın sədri məlumatın elektron düzəlişi üzrə ekspert və onun müavinini 5 namizədin siyahısından seçərək, İnterpolun müzakirələrinə təqdim edir. Şuranın üzvləri öz vəzifələrini 3 il ərzində tuturlar.

Şuranın əsas vəzifəsi ondan ibarətdir ki, nəzarət etdiyi arxivdə saxlanılan şəxsi məlumat:

- Təşkilatın nizamnaməsinin maddələri və təşkilatın müvafiq orqanlarının izahına əsasən alınsın və düzəldilsin;
- Müəyyən məqsədlə qeydə alınan və bu məqsədə uyğun olmayaraq istifadə edilməsin;
- Dəqiq olsun;
- Təşkilat tərəfindən müəyyən edilmiş şərt əsasında məhdudiyyət müddətində saxlanılsın.

Nəzarətin ümumi məsələlərini yerinə yetirmək üçün Şura daxili qaydaları və İnterpolun nizama salınmış maddələrini göstərən müxtəlif sənədlərə üz tutur. Şura aşağıdakı sənədləri özünə daxil edir:

1. Axtarış sisteminin qaydaları;
2. Beynəlxalq polis əməkdaşlığı qaydaları;
3. Baş Katiblikdə saxlanılan polis məlumatlarının məhvetmə qaydaları;
4. Baş Assambleya tərəfindən qəbul edilmiş qətnamələri;
5. İcraiyyə Komitəsi tərəfindən qəbul edilən nəticələr;
6. Baş Katib tərəfindən buraxılmış İnterpolun kriminal arxivinin təşkili məsələlərinə aid göstərişlər.

Şura məlumatların müdafiə və məxfiliyinə işlədilən şəxsi inzibati təcrübəni təsdiq edir. Həmçinin daxili qaydaların və təşkilatın nizama salınmış maddələrinin hazırlanmasında məsləhətçi rolunu oynayır.

Ümumi nəzarət üzrə vacib saydığı müxtəlif bəndləri müzakirə etmək, sorğular üzrə yoxlamalar aparmaq məqsədi ilə ildə 3 dəfə Şura iki günlük sessiyalara toplanır.

1996-cı il tarixində özünün 31-ci sessiyasında Şura şəxsi üsul və qaydalarını qəbul etdi. Bu qaydalar Beynəlxalq Polis əməkdaşlığının maddələrini tamamlayır. Üsul və qaydalar 1996-cı il 18 oktyabr tarixində qüvvəyə minmişdir.

Seçmə yoxlamalar aparmaq üçün Şura Baş Katibliyin departamentinə müraciət edir və ya müəyyən tiplərin bir nüsxə faylını təqdim etməyi xahiş edir. Eyni zamanda bu qayda mənzil qərargahdan kənarda yerləşən Baş Katibliyin departamentində saxlanılan məlumatlara qarşı da istifadə olunur. Çünki 1991-ci il tarixində Punta-del-Esta şəhərində Baş Assambleya tərəfindən qəbul olunmuş qətnaməyə əsasən, bu məlumatlar İnterpolun mənzil qərargahında mərkəzi sistemdə qeyd olunmuşdur.

Seçmə yoxlamalar eyni zamanda təşkilatın vəzifəli şəxsləri tərəfindən istifadə olunan və bütün şəxsi mikrokompüterə yazılan polis məlumatı üzrə də keçirilir.

Vətəndaşlar və dövlətin daimi rezidentləri təşkilatın üzvləri Baş Katiblikdə saxlanılan faylların siyahısını tələb edə bilər və onlarda olan şəxsi məlumatların, məktubların dəyişdirilməsini 5-ci maddədə qeyd olunan tələbə uyğun olmasını Şura tərəfindən yoxlamağı xahiş edə bilərlər. Lakin beynəlxalq polis əməkdaşlığı qaydalarının 23-cü maddəsinə əsasən Şura, MMB-nin razılığı ilə, ərizəçiyə ona aid olan təşkilatda saxlanılan şəxsi məlumatı bildirə bilər.

Şura yoxladığı məlumatın dəyişdirilməsini və çıxarılmasını xahiş edə bilər. Lakin beynəlxalq polis əməkdaşlığı qaydalarının 24.3 maddələrinə görə: "25.1 maddəyə əsasən İcraiyyə Komitəsindən məlumatın dəyişdirməsini tələb etməzdən əvvəl Şura Baş katibi və ya onun təmsilçisini dinləməli və hər hansı maraqlanan dövlətin MMB-si ilə məsləhətləşməlidir". Adətən məlumatın dəyişdirilməsi və çıxarılması Baş katib tərəfindən həyata keçirilir. Şura İcraiyyə Komitəsinin yoxlamalarının nəticələrini bildirir və bütün lazımi dəyişikliklər təşkilatın müvafiq orqanları tərəfindən icra olunur.

Əsasən Şuranın yoxlama nəticələri elan olunur. Nəzarət Şurası ya öz görüşlərinin birində və ya illik hesabat tərtib edərkən press-remizləri dərc edir. Bu press-remizlərə heç bir şəxsi xarakter daşıyan məlumatları daxil etmirlər. 1995-ci il tarixində İnterpol Baş Assambleyasının Pekin şəhərində keçirilən 64-cü sessiyasında Şura tərəfindən ictimaiyyətin maraqlanan nümayəndələrinə və beynəlxalq cəmiyyətin üzvlərinə illik hesabatı göndərmək icazəsini verən qətnamə imzaladı. Baş Katiblik Şuranı lazım olan məlumatla, mərkəzi qərargahda saxlanılan arxivlərin siyahısı ilə təmin etməlidir. Baş

Katiblik Şuraya kömək edərkən onun lazımi fayla girişini təmin edir və müstəqilliyini təmin edən lazımi tədbirlər görür. [1]

**İnterpolun strukturuna daxil olan Baş Katiblik daimi inzibati icra orqanı kimi çıxış edir**. O, Baş Assambleya və İcraiyyə Komitəsi tərəfindən qəbul olunmuş məsələlərin, qətnamələrin və məsləhətlərin həyata keçirilməsi ilə məşğul olur, beynəlxalq cinayətkarlığa qarşı mübarizədə fəaliyyəti əlaqələndirir, cinayət və cinayətkarlıq haqqında məlumatların yığımı və analizini həyata keçirir, İnterpolun üzv dövlətlərinin MMB və beynəlxalq idarələrlə əlaqə saxlamaq üçün gündəlik iş aparır. Baş Katibliyə Baş Assambleya tərəfindən 5 il müddətinə seçilmiş Baş Katiblik rəhbərlik edir. İnzibati və maliyyə məsələləri üzrə Baş Assambleya və İcraiyyə Komitəsinə hesabat verir.

Baş Katibliyin heyəti beynəlxalq statusu olan 268 işçidən ibarətdir. Bundan başqa, İnterpolun Baş Katibliyinin strukturunda regional bürolardan 73 nəfər polis zabiti fəaliyyət göstərir. Quruluşca Baş Katiblik İcraiyyə və dörd idarədən ibarətdir.

1986-1987-ci illərdə Baş Katibliyin strukturu əhəmiyyətli dərəcədə dəyişmişdir. Şöbələrin sayı artmışdır. Bəzi şöbələrdə dəyişiklik edilmişdir, heyətin sayına görə çox böyük olmayan və şöbələrə daxil olmayan xidmətlər yaradılmışdır. Onlardan birini xüsusilə qeyd etmək lazımdır. İnterpolun Baş Assambleyasının Vaşinqtonda keçirilən 54-cü sessiyasında qəbul edilən qətnaməyə müvafiq olaraq, 1986-cı ilin noyabr ayında Baş Katibliyin tərkibində Avropa Katibliyi yaradıldı. Bu, cinayətkarlıqla mübarizədə Avropa qitəsindəki regional problemlərin həll edilməsi üçün nəzərdə tutulmuşdu.[2]

Avropa Katibliyi 1987-ci il yanvarın 1-dən fəaliyyət göstərməyə başladı. Son vaxtlara qədər Katiblikdə 4 şöbə fəaliyyət göstərirdi: inzibati, polis, elmi tədqiqat və texniki təminat.

İnzibati şöbə İnterpolun kargüzarlıq və sənəd işlərini həyata keçirirdi. Daxil olan informasiyanı işlək dilə çevirir, kadr, maliyyə və inzibati təsərrüfat fəaliyyətinə nəzarət edir, mənzil qərargahın binasının və onun əməkdaşlarının təhlükəsizliyini təmin edir, beynəlxalq görüş və konfransları planlaşdırır.

Polis şöbəsi Baş Katibliyin strukturunda əsas yer tuturdu. Şöbə beynəlxalq cinayətkarlıqla mübarizədə üzv dövlətlərin polis orqanları ilə əməkdaşlığında və bu əməkdaşlığın koordinasiyasına görə məsuliyyət daşıyırdı. Şöbə özü 3 yarımşöbədən və mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə qruplardan ibarətdir. 1-ci yarımşöbədə mülkiyyət əleyhinə və silah ticarəti ilə bağlı cinayətlər, şəxsiyyət əleyhinə cinayətlər haqqında, beynəlxalq terro-

[1] Бельсон Я.М. Интерпол в борьбе с уголовной преступностью. Москва: 1989, с.32.
[2] ICPO-Interpol. General information Lyons: general reference Department, 1995, p.13.

rizm haqqında informasiya cəmlənir və işlənib hazırlanır. 2-ci yarımşöbəyə maliyyə və iqtisadi cinayətlər haqqında informasiya cəmlənir və işlənib hazırlanır. 3-cü yarımşöbədə isə narkotik vasitələrin qeyri-qanuni yayılması haqqında informasiyanın yığımı və analizi ilə məşğul olunur.

Mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə qrup (FOPAK) cinayətkarlığın analizi üzrə xidməti formalaşmanın ilkin mərhələsi kimi nəzərdə tutulmuşdur.

Elmi-tədqiqat şöbəsi polis üçün maraq kəsb edən problemlər, həmçinin İnterpolun özünün fəaliyyəti haqqında məlumatların, məruzələrin və sənəd layihələrinin hazırlanması ilə məşğul olur: görüşləri təşkil edir, İnterpolun nümayəndələrinin digər beynəlxalq təşkilatların keçirdiyi müşavirələrdə iştirak etməsi üçün icazə alır, İnterpolun nəşr olunan "Cinayət polisinin beynəlxalq icmalı" ("İnternational criminal policeteview") jurnalının nəşr edilməsini həyata keçirir və s.

Texniki-təminat şöbəsi 1987-ci ilin martında yaradılmışdır. Burada telekommunikasiya xidməti, EHM-ə daxil olan informasiyanın avtomatik emalı xidməti və eləcə də, kriminalistika və cinayət-axtarış uçotunun aparılması, beynəlxalq cinayətkarların axtarışı və xəbərdarlıq xarakterli məlumatların hazırlanmasına görə cavabdeh olan cinayət qeydiyyatı yarımşöbələri təşkil edilmişdir[1]

İnterpolun Baş Katibliyinin strukturu müasir dövrün tələblərinə uyğun olaraq daha da təkmilləşmişdir.

İnterpolun Baş Katibliyi nə deməkdir?

Baş Assambleya və İcra Komitəsi tərəfindən qəbul edilən qərarların, sərəncam və rəylərin həyata keçirilməsi, beynəlxalq cinayətkarlığa qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsi, cinayət və cinayətkarlıq haqqında məlumatın toplanması və analizi, MMB-nun ölkələrlə – İnterpolun üzvləri və beynəlxalq idarələrlə gündəlik işin aparılması ilə məşğul olan Baş Katiblik İnterpolun daimi inzibati idarəedici orqanı kimi çıxış edir. Yuxarıda deyildiyi kimi, Baş Katiblik Baş Assambleya və İcraedici Komitəyə tabedir. Baş Katibliyin işçi heyəti hal-hazırda 489 nəfər qulluqçudan ibarətdir. Baş Katibliyin tərkibinə rəsmi olaraq ərazi bürosunun 73 əməkdaşı daxildir.

Baş Katibliyin strukturu daha da təkmilləşərək 2001-ci ildən bu qaydadadır. **Baş Katibliyin tərkibi İcraedici Direktorluqdan və 4 idarədən ibarətdir**. Daimi olaraq idarə səlahiyyətində BMT yanında Baş Katiblik nümayəndələri fəaliyyət göstərir. Göstərilən şöbələrin rəisləri İnterpolun Baş Katibliyinin birbaşa tabeliyindədirlər. İctimaiyyətlə və İnterpolun Baş Katibliyinin fəaliyyətinin təmin olunması ilə Baş Katibliyin kabineti məşğul

[1] Bresler F. İnterpol. London: 1992, p.58.

olur. Hansı ki, müstəqil idarə hüququna malikdir. Baş Katibliyin sessiyaya hazırlığı, İnterpolun xətti ilə təşkil olunan başqa müşavirə, simpozium və kurslar, həmçinin İnterpolun fəaliyyəti haqqında müxtəlif hesabatların hazırlanması ilə yanaşı, idarə ümumi inzibati məsələlərin həlli ilə də məşğul olur.

Büdcənin hazırlanması və onun həyata keçirilməsinə nəzarət Təşkilatların Büdcələrinin Formalaşması və Maliyyə Direktorluğuna tapşırılır.

Polis xidməti İcraedici Direktorluğun tərkibinə 4 Direktorluq daxildir, hansı ki, onlar BMT ölkələrinin – Beynəlxalq cinayət polisi Təşkilatı İnterpolun iştirakçılarının qarşılıqlı informasiya mübadiləsi, İnterpolun I-24/7 telekommunikasiya şəbəkəsinin işə salınması və inkişafı kimi məsələlərə cavabdehdirlər.

**Birinci Direktorluq** İnterpolun I-24/7 telekommunikasiya şəbəkəsinin işə salınması və inkişafı, MMB tərəfindən İnterpolun telekommunikasiya şəbəkəsinə daxil olması və Baş Katibliyin məlumatlar bazasına məsələlərinə cavabdehdir.

**İkinci Direktorluq** Baş Katibliyin Əməliyyat xidməti və icrasına köməklə məşğul olur. Direktorluğun tərkibinə bu bölmələr daxildir:

1. İnterpolun beynəlxalq axtarış və xəbərdarlığı haqqında bölmə. Hansı ki, xəbərdarlıq və təlimləri qurub, nəşr edib yaymaqla məşğul olur.
2. Barmaq izlərinin eyniləşdirilməsi şöbəsi alınmış barmaq izləri və şəkilləri emal edir və onları məlumatlar bazasına daxil edir.
3. MMB-nun razılığı əsasında arxivlərdən informasiyanın avtomatik axtarışı şöbəsi göndərilən informasiyanı verilənlər bazasına daxil edir və yenidən MMB-nin razılığı əsasında onu Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun iştirakçısı olan başqa ölkələrə təqdim edir. Quraşdırılmış müasir avadanlıq öz növbəsində MMB-nin, müxtəlif I-14/7 sisteminin köməyi ilə, avtomatik qaydada birbaşa Baş Katibliyin məlumatlar bazasına müraciət etməyə imkan verir.

İnterpolun Baş Katibliyinin İkinci Direktorluğun himayəsi tərkibində Hakim-Əlaqələndirici Mərkəz yaradılmışdır.

Göstərilən bölmə subdirektor hüququna malikdir, polis məlumatlarının qeydə alınması və işlənib hazırlanması, MMB-nin Beynəlxalq Polis Əməkdaşlığı və məlumatlar bazasına icazəsiz daxil olmanın müdafiəsi qaydalarına uyğun olaraq, sorğulara operativ (əməli) surətdə cavab verilməsi, əks-səda salmış cinayətlər haqqında CMİ-nin monitorinqinin keçirilməsi və lazım gələrsə qəza yerinə İnterpolun Baş Katibliyinin və Beynəlxalq Cinayət Polisi Təşkilatına üzv olan ölkələrin mütəxəssislərindən ibarət olan Dərhal Reaksiya Komandasının göndərilməsi ilə məşğul olur. Bölmə gecə-gündüz qaydasını polis məlumatlarının qeydə alınmasını və emal olunmasını və

MMB-nin Beynəlxalq Polis Əməkdaşlığı və məlumatlar bazasına icazəsiz daxil olmanın müdafiəsi qaydalarına uyğun olaraq, sorğulara operativ (əməli) surətdə cavab verilməsini təmin edir.

**Üçüncü Direktorluq** müxtəlif növlü cinayət və kriminal analizlərlə məşğul olur. Onun tərkibinə aşağıdakı subdirektorluqlar daxildir:

- Narkotiklərin qanunsuz dövriyyəsi və mütəşəkkil cinayətkarlıq mühitindəki məsələlərdə qarşılıqlı fəaliyyət;
- Yüksək texnologiya və maliyyə mühitindəki cinayətkarlıqla mübarizə;
- Terrorist yönümlü və ictimai təhlükəsizlik mühitindəki cinayətlər;
- Rüşvətxorluğa qarşı subdirektorluq;
- Analitik subdirektorluq.

**Dördüncü Direktorluq** subregional büronun fəaliyyətinin təmini və xidməti ilə bağlı məsələlərə cavabdehdir. Hal-hazırda subregional büroların sayı artaraq, Beynəlxalq Cinayət Polisi təşkilatı İnterpolun Baş Katibliyi tərəfindən altı belə büro yaradılmışdır:

- Mərkəzi Amerikanın, Salvador, San Salvadorun subbürosu;
- Şərqi Afrika, Keniya, Nayrobi subbürosu;
- Cənubi Amerika, Argentina, Buenos-Ayres subbürosu;
- Qərbi Afrika, Kot-d'İvuar, Abidjan subbürosu;
- Cənubi Afrika, Zimbabve, Xarare subbürosu;
- Cənub-Şərqi Asiya, Tailand, Banqkok subbürosu.

Həmçinin keçmiş SSRİ ərazisində MDB ölkələri üzrə İnterpolun Subregional Bürosunun yaradılması məsələsinin öyrənilməsi, araşdırılması davam edir.

**Hüquqi iş üzrə direktorluq** baş cinayət axtarışı hüququ, cinayətkarlığın qarşısını alma, göstəriş və qaydaların öyrənilməsi, əmr və sərəncamların planı, müqavilələrin hazırlanması fəaliyyətini həyata keçirir.

İnformasiya sistemləri və texnologiyaları direktorluğu İnterpolun fəaliyyətində telekommunikasiya və kompüter texnologiyalarının öyrənilməsi və tətbiq edilməsi üzrə ixtisaslaşır. Baş Katiblik və MMB arasında informasiya mübadiləsi zamanı onları tez, etibarlı və müdafiəli şəkildə məlumatla təmin etmək onun əsas tapşırıqlarından biridir.

İnterpolun telekommunikasiya sistemi ucanatlı quruluşa malikdir:

Birinci dərəcə MMB-yə təqdim olunub.

İkinci – ərazi stansiyalarına, hansı ki, öz əraziləri üçün məlumatların toplanılıb, örtülməsi ilə məşğuldur.

Üçüncü dərəcədə isə Baş Katiblikdə yerləşən özünəməxsus server kimi, məlumatların mərkəzi bankı çıxış edir.[1]

---

[1] Овчинский В.С. Интерпол в вопросах и ответах. Москва: 2015, с.32-34.

**Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpola daxil olan təşkilat strukturlarından biri də İnterpolun Milli Mərkəzi Bürosudur**.

İnterpolun nizamnaməsinin 31-ci maddəsində deyilir ki, təşkilat qarşısına qoyulmuş vəzifələri yerinə yetirərkən onun fəaliyyətində vicdanla iştirak etmək üçün öz ölkəsinin qanunvericiliyi çərçivəsində bütün imkanlardan istifadə edən üzvlərin daimi və fəal əməkdaşlığına əsaslanır. İnterpolun nizamnaməsinin 32-ci maddəsinə görə, beynəlxalq cinayətkarlığa qarşı mühafizədə əməkdaşlığı təmin etmək üçün hər bir dövlət Milli Mərkəzi Büro (MMB) adlanan orqanı müəyyən edir. MMB aşağıda göstərilənlərlə əlaqəni həyata keçirir:

1) öz dövlətinin müxtəlif müəssisələri ilə;
2) başqa dövlətin MMB-ləri ilə;
3) təşkilatın Baş Katibliyi ilə.

İnterpolun MMB-nin fəaliyyətinin təşkili və hüquqi statusunun xüsusiyyətləri bir çox faktlardan asılıdır: Milli qanunvericilikdən, Milli ərazi bölmədən, beynəlxalq saziş və konvensiyalarda iştirakdan, polis orqanlarının maliyyə və kadr imkanlarından və s.

Aidiyyəti olmayan ölkələrin MMB-yə və zəruri hallarda Baş Katibliyə xarici ölkə vətəndaşları tərəfindən ölkəmizdə törədilən cinayətlər barədə cinayət törətməkdə şübhəli bilinən, cinayət məsuliyyətinə cəlb edilən və barəsində həbs qəti imkan tədbirləri seçilən xarici vətəndaşlar barədə məlumat göndərilir.

Beynəlxalq polis əməkdaşlığı prosesində şəxslər, faktlar və sənədlər barədə əldə edilmiş məlumatlar əsasında məlumat bazası yaradılır, İnterpol çərçivəsində Beynəlxalq əməkdaşlığın tələb və təklifi ilə Respublika hüquq-mühafizə orqanlarını məlumatlandırır.

İnterpolun Baş Katibliyindən təşkilatın üzvü olan ölkələrin MMB-də olan cinayətkarlıqla mübarizə məsələləri üzrə zəruri qanunverici və normativ aktları, bu sahədə beynəlxalq əməkdaşlığı tənzimləyən, beynəlxalq hüquqi, o cümlədən polisin fəaliyyəti barədə sənədləri tələb edir, bu cür məlumatların kitabxanasını yaradır.

MMB cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın problemləri üzrə xülasələr, məruzələr hazırlayır. MMB vasitəsi ilə əldə edilən məlumatlar yalnız hüquq-mühafizə orqanları üçün nəzərdə tutulduğundan maraqlı şəxslərin həmin məlumatlarla tanış olması məsələsi qüvvədə olan qanunvericiliklə tənzimlənir.

MMB-yə göndərilən və alınan məlumatlar yalnız MMB-nin və məlumat verən orqanın razılığı ilə kütləvi informasiya vasitələrinə verilə bilər.[1]

[1] Левитанов В.Г., Самарин В.И. Национальное центральное бюро Интерпола в Республике Беларусь // Юстиция Беларуси. 2002. №2. с.33.

**İnterpolun təşkilati qurumlarından biri də müşavirlərdir**. Müşavirlər İnterpolun nəzdində ayrı-ayrı elmi məsələlər üzrə yalnız məsləhətçi funksiyasını yerinə yetirirlər. İnterpolun nizamnaməsinin 34-cü maddəsinə müvafiq olaraq İnterpol ayrı-ayrı məsələlərin elmi tədqiqatını müşavirlərə tapşıra bilər. Belə məsələlərin dairəsi olduqca genişdir: narkotik vasitələrin qeyri-qanuni yayılması ilə mübarizə problemləri, yetkinlik yaşına çatmayanların cinayətkarlığı, insan alverinə qarşı mübarizə, terrorizm, əməliyyat-axtarış fəaliyyəti ilə bağlı, uşaq pornoqrafiyası, kiber cinayətkarlığa qarşı mübarizə və s. Elmi-tədqiqat aparmağa razı olan mütəxəssis Baş Assambleya tərəfindən 3 il müddətinə müşavir vəzifəsinə təyin olunur. Müşavirin vaxtından əvvəl vəzifəsindən uzaqlaşması da Baş Assambleyanın qərarı əsasında olmalıdır. Müşavirlər Baş Assambleyanın sessiyasında müşahidəçi qismində iştirak edə bilər. Prezidentin dəvətiylə onlar gündəlikdəki məsələlərin müzakirəsində iştirak edə bilərlər.[1]

Qeyd edək ki, İnterpolun resursları aşağıdakılardan formalaşır:

a) təşkilatın üzvlərinin pul ödəmələrindən;

b) qəbul olunması İcraiyyə Komitəsi tərəfindən bəyənilmiş bağışlamalar, subsidiyalar, dotasiyalar, ianələr və digər mənbələrdən.

Baş Assambleya təşkilat üzvlərinin maliyyə iştirakı prinsiplərini və Baş Katib tərəfindən təqdim olunan smeta əsasında təşkilatın ilk maksimal xərclərini müəyyən edir.

Təşkilatın büdcə layihəsi Baş Katib tərəfindən tərtib olunur və İcraiyyə Komitəsinin tədqiqinə verilir. O, Baş Assambleya tərəfindən qəbul olunduqdan sonra qüvvəyə minir.

**Beynəlxalq polis əməkdaşlığının qanunlarına müvafiq olaraq Baş Katiblik ona üzv olmayan dövlətin rəsmi idarələrindən cinayət axtarışı qanunçuluğunun yerinə yetirilməsinə aid polis informasiyasını MMB-yə verə bilər.**

İnformasiya üzv olmayan dövlətin rəsmi idarələrinə cinayət axtarışı İnterpol üzv olmayan dövlətlərlə qarşılıqlı əlaqələri necə qurur?

Baş Katiblik xüsusi təşəbbüsü ilə üzv olmayan hər hansı bir dövlətlə əməkdaşlıq edə bilməz.

Baş Katiblik polis məlumatlarına MMB-nin xahişi əsasında üzv olmayan dövlətə sorğu göndərə bilər.

Belə hallarda sorğu diplomatik kanallar vasitəsi ilə ötürülür. Əgər üzv olmayan dövlətin mənzil qərargahı, ölkəsində diplomatik nümayəndəliyi yoxdursa, onda sorğu adətən üzv olmayan dövlətin xarici işlər nazirliyinə göndərilir.

[1] Галенская Л.Н. Международная борьба с преступностью. Москва: 1972, с.45.

Öncə diplomatik tapşırıqların həllindən sonra Baş Katiblik əməliyyatı sürətləndirmək üçün sorğunun bir üzünü alan idarəyə göndərə bilər. Diplomatik tapşırıqlar göstərilən bölmələr cinayət qanunçuluğuna riayət olunmasının təmininə aid rəsmi idarələr olmalıdır.

Milli qanunçuluq MMB-yə İnterpolun üzvü olmayan dövlətlərlə birbaşa əlaqə yaratmaq səlahiyyəti verə bilər.

Bu əməkdaşlıq növü İnterpoldan kənar əməkdaşlıq sistemində həyata keçirilir və təşkilat ilə üzv olmayan dövlət arasında əməkdaşlıq kimi baxılmır.

Nəticə etibarı ilə belə əlaqələr zamanı üzv olmayan dövlətlərlə MMB İnterpolun MMB kimi fəaliyyət göstərmir.

Belə hallar baş verə bilər ki, üzv olmayan dövlət və üzv olan dövlət razılaşma əldə edirlər və MMB dövlətlərarası üzv olmayan dövlət və Baş Katiblik arasında vasitəçi kimi fəaliyyət göstərə bilər. Belə hallarda təşkilatlar və üzv olmayan dövlətlərarası əməkdaşlıq yönümündə yuxarıda göstərilən qaydalar tətbiq olunur.

Qanunçuluğuna cavabdeh olan diplomatik kanallar vasitəsi ilə ötürülür.

**Cinayətkarlıqla beynəlxalq mübarizədə İnterpolun rolu**

İnterpol çərçivəsində cinayətkarlıqla mübarizədə müxtəlif ölkələrin polis orqanlarının əməkdaşlığı və onların hərəkətlərinin koordinasiyası mexanizmi formalaşmışdır. Polis orqanlarının İnterpol sistemində əlaqələri sosial məsələlər üzrə ümumi və geniş beynəlxalq əməkdaşlığın bir hissəsidir.[1] Bu sosial məsələlər içərisində həm milli, həm də beynəlxalq səviyyədə cinayətkarlıqla mübarizənin daha effektiv forma və metodlarının axtarışı əhəmiyyətli yer tutur.

Cinayətkarlığın qarşısının alınması və onunla mübarizə işində praktik fəaliyyət göstərən yeganə təşkilat İnterpoldur. İnterpolun əsas vəzifəsi, dövlətlərdə fəaliyyət göstərən qanunvericilik çərçivəsində və insan hüquqları bəyannaməsinə müvafiq olaraq, bütün cinayət polisi orqanlarının geniş, qarşılıqlı əməkdaşlığına kömək etmək və cinayətkarlığın qarşısının alınması üçün onunla mübarizəyə kömək etməyə qadir olan institutlar yaratmaq və inkişaf etdirməkdir. (İnterpolun Nizamnaməsinin 2-ci maddəsi).

İnterpol ilk növbədə öz üzərinə cinayət polisi orqanlarının birbaşa qarşılıqlı əməkdaşlığına kömək etmək vəzifəsini götürmüşdür. “Birbaşa qarşılıqlı əməkdaşlıq” anlayışının məzmunu hələ 1923-cü ildə Vyanada təsis konqresində müəyyənləşdirilmişdir. Bu anlayış altında “polis orqanlarının

[1] Hochenbichler E. 45 jahre Interpol // Kriminalistik. 1968. №10, s.4.

qarşılıqlı yardım göstərməsi məqsədilə, diplomatik xidmətlərin iştirakı olmadan həyata keçirilən, bilavasitə hökumətlərarası əlaqələr" başa düşülür.[1]

İkinci əməkdaşlıq – qarşılıqlı əməkdaşlıq üzrə tərəfdaşlardan və Baş Katiblikdən gələn bütün xahişlərin yerinə yetirilməsinin vacibliyi ruhunda olmalıdır.

Ücüncü-qarşılıqlı əməkdaşlıq üzrə tərəfdaşlardan və Baş Katiblikdən gələn bütün xahişlərin yerinə yetirilməsinin vacibliyi ruhunda olmalıdır.

Dördüncüsü, dövlətlərin İnterpolda əməkdaşlığı yalnız milli səviyyədə möhkəm təşkilati və hüquqi əsasa malik olmalıdır.

Alman kriminalisti V.Zifafın qeyd etdiyi kimi "polisin göz yummamalı olduğu ağır, real faktor çevrilən beynəlxalq planda təşkil olunan cinayətlərdir.[2] Təşkilatın sənədlərində belə cinayətlər və onları törədən şəxslər "beynəlxalq cinayətlər" və "beynəlxalq cinayətkarlar" adlanır.

İnterpolda beynəlxalq cinayətlərin siyahısı yoxdur. Ümumiyyətlə belə bir siyahı yoxdur. Onların böyük hissəsi "konvensiyon cinayət"lərdir.

"Konvensiyon cinayətlər" bütün ictimaiyyət üçün təhlükəli olan narkotik vasitələr haqqında 1961-ci il Vahid konvensiya saxta pullarla mübarizə haqqında 1929-cu il Cenevrə konvensiyası və s. bu kimi çoxtərəfli konvensiyalarda möhkəmləndirilmiş cinayətlərdir.

İnterpolun Baş katibi olmuş A.Boslan beynəlxalq cinayətlərə aşağıdakıları aid etmişdir:

1) Mahiyyətinə görə beynəlxalq əhəmiyyət kəsb edən cinayətlər; məsələn, narkotik vasitələrin ticarəti, kontrabanda və s.;
2) Nəticələri törədildiyi dövlətin hüquqlarından kənarda üzə çıxan cinayətlər; məsələn, saxta ABŞ dolları Fransada hazırlanır və izlənilir, ziyan isə ABŞ pul dövriyyəsinə dəyir;
3) Həmçinin "beynəlxalq cinayət kimi bir-biri ilə heç bir əlaqəsi olmayan, eyni növə məxsus olan, uzun müddət ərzində müxtəlif ölkələrdə tez-tez təkrarlanaraq", "ümumi beynəlxalq problem" yaradan cinayətlər qiymətləndirilir. Məsələn, hava gəmisinin ələ keçirilməsi və s.;
4) Konkret cinayətkarların və onların ortaqlarının davranışı milli cinayəti beynəlxalq cinayətə çevirə bilər. Bu o zaman olur ki, cinayət törədən şəxs və şəxslər qrupu digər ölkələrdə bu cür və ya başqa cinayət törətmişdir;
5) Nəhayət, cəzadan yayınmaq üçün digər ölkələrdə gizlənən şəxslər tərəfindən edilən cinayətlər beynəlxalq cinayətlər kimi qiymətlən-

[1] Hepote J. International police cooperation // ICPR-1973, s.43.
[2] Srelaff W. Interpol-Europol // Kriminalistik.1974, s.315.

dirilir. Burada da beynəlxalq element meydana çıxır, belə ki, cinayətkarların axtarışı, həbs olunması və maraqlı dövlətlərə verilməsi haqqında məsələ yalnız hökumətlərarası və ya idarələrarası danışıqlar yolu ilə həll edilə bilər.

Göründüyü kimi, beynəlxalq cinayət və beynəlxalq cinayətkarlığın dəqiq kriteriləri yoxdur. Konkret cinayətlərin və cinayətkarların beynəlxalq kateqoriyalara aid edilməsi cinayətin törədilməsinin konkret faktiki hallarından və şərtlərindən və ya zəruri nəticələrin meydana çıxmasından və yaxud da cinayətkarın şəxsiyyətinin xarakteristikasından asılıdır.

İnterpolun beynəlxalq cinayətkarlığa qarşı mübarizədə əsas fəaliyyət metodlarından biri də İnterpolda qeydiyyat mərkəzləridir.

Artıq İnterpolun yaranmasından indiyə qədər olan uzun tarixi dövrdə cinayətkarlıqla mübarizə praktikasında cinayət axtarışı və digər kriminalistika məlumatının toplanmasına və qorunub saxlanmasına mühüm əhəmiyyət verilir. Bunun köməyi ilə cinayətin açılması və istintaqı prosesində fərdi eyniləşdirmələr və yoxlamalar aparmaqla obyektiv şəkildə qrup mənsubiyyətini müəyyən etmək mümkündür (cinayətkarların zahiri əlamətlərinin qeydi, onların foto-şəkilləri, cinayət qeydiyyatı xidməti, daha dəqiq desək, kriminalistika əhəmiyyəti olan bəzi kateqoriya, obyektlər üçün isə hüquqi və kriminoloji əhəmiyyəti olan obyektlərin sistemləşdirilməsi uçotu olmadan keçinə bilməz. Cinayət qeydiyyatının sisteminin belə qeydiyyatının müxtəlif növlərinin məcmusu təşkil edir.

Hər bir ölkədə kriminalistlər qeydə alınan obyektlərin təşkilatı və sistemləşdirilməsi haqqında məsələləri müxtəlif cür həll edirlər. Qeydiyyat obyektlərinin təsnifat sistemlərindəki fərqlər şübhəli şəxs haqqında məlumatların yoxlanmasında ciddi maneələr törədir və ya çətinliklər meydana çıxarırdı.

1914-cü ildə Monakoda I Beynəlxalq polis konqresi nümayəndələri Beynəlxalq İdentifikasiya Bürosunun yaradılmasını, cinayət qeydiyyatının təsvir edilməsinin vahid üsullarını və bu üsulların vahid təsnifat sisteminin qəbul edilməsini məqsədəuyğun hesab edirlər.[1]

**Beynəlxalq cinayət qeydiyyatı xidmətinin** yaradılmasında 3 məqsəd güdülürdü:

1. Beynəlxalq cinayətkarlar və onların törətdiyi cinayətlər haqqında bütün məlumatları bir yerə cəmləşdirmək;
2. Belə məlumatların daima əldə olunmasına nail olmaq;
3. Cinayətkarlıqla beynəlxalq mübarizədə onlardan bacardıqca geniş istifadə etmək.

[1] Heindi R. Det international polize koqress inWien. Lepziq:1964, s.52.

Belə məqsədlərin müəyyənləşdirilməsi ilə təşkilat bir sıra çətinliklərlə qarşılaşdı. Onlardan biri bu idi ki, İnterpolun "kolleksiya"sını ayrı-ayrı ölkələrin kartotekalarının toplusuna çevirən kriminalist uçotunun ikiləşməsindən necə yaxa qurtarmaq olar? Bu onun fondlarının həddindən artıq çoxalmasına gətirib çıxaran əməliyyat işini çətinləşdirər, sorğulara cavab verilməsi vaxtını uzadardı. Buna görə də, MMB-yə tövsiyə olundu ki, təşkilatın Baş Katibliyi üçün yalnız iki və daha artıq ölkənin maraqlarına toxunan cinayətlər haqqında, başqa ölkədə olarkən təhlükəli cinayətlər etmiş təhlükəli xaricilər haqqında, xaricdə gizlənən cinayətkarlar haqqında və s. məlumatları seçsinlər. Bundan başqa, İnterpol öz üzərinə ayrı-ayrı ölkələrdən daxil olan bütün materialları unifikasiya etmək, yəni "bir dilə çevirmək" vəzifəsini götürdü.

Cinayət qeydiyyatı cinayətkarlıqla mübarizədə İnterpolun daha effektli vasitəsinə çevrildi. Bütün əldə olunan məlumatlar İnterpolun Baş katibi tərəfindən, həmin obyektlərin təsnifatı sisteminə və onun identifikasion əlamətlərinə görə, ümumi və xüsusi əlamətlərə bölünmüşdür. İdentifikasion əlamətlərə aid edilir: demoqrafik məlumatlar, obyektin xarici görkəmini əks etdirən əlamətlər (insanın zahiri əlamətləri) və s. İdentifikasion əlamətlər müxtəlif üsullarla təsvir edilir: yazı, fotoqrafiya, daktiloskopiya. Çox vaxt bu üsullar kombinə edilir.

**Ümumi qeydiyyat obyektləri** beynəlxalq cinayətkarlar və beynəlxalq elementli cinayətlər haqqında məlumatlardır. **Xüsusi qeydiyyat obyektləri** iki kartotekada cəmləşdirilir: daktiloskopik və şəxslərin xarici əlamətlərinə görə qeydə alınması (fototəsvir və ya sifətin cizgilərinin çəkilməsi, barmaq izləri).

Obyektlərin hər bir növünə uyğun kartotekası var:

Bütün məlum beynəlxalq cinayətkarların, o cümlədən axtarışda olanların, həmçinin cinayətkar fəaliyyətdə şübhəli şəxslərin əlifba kartotekası.

1989-cu ilin sonunda qeydiyyatda 4 milyona yaxın cinayətkar var idi. Bütün kartotekalar əlifba və fonetik qaydada yerləşdirilib. Hər bir aktiv fəaliyyət göstərən cinayətkar üçün kartotekada ayrıca dosye açılır. Aktiv fəaliyyət göstərən cinayətkarlar o cinayətkarlardır ki, mütəmadi olaraq onların şübhəli hərəkətləri, əlaqələri, hər hansı bir ölkədən digərinə getməsi haqqında məlumatlar daxil olur.

İnterpolun qeydiyyatında 300 mindən çox aktiv fəaliyyətli cinayətkarlar vardır. İnterpolda ümumi qeydiyyat obyektlərinin aşağıdakı kartotekası vardır:

- "S kartotekası" adlandırılan kartotekalar. Buraya cinayətkarların zahiri görkəmi haqqında məlumatlar daxil edilir;
- İki hissədən ibarət olan sənədlər və adlar kartotekası;
- Cinayət əməlləri kartotekası, o da öz növbəsində hər bir müəyyən

növ cinayət əməllərinə və ya eyni cinsli cinayət əməlləri qrupuna uyğun gələn bir neçə kartotekalardan ibarətdir;

- Oğurluq, silah kontrabandası, şəxsiyyət əleyhinə cinayətlər və s.

Baş Katiblik MMB-ləri öz kartotekalarında olan təzə məlumatlarla təchiz edir.

Baş Assambleyanın 1970-ci il tarixində Brüssel şəhərində keçirilən 39-cu sessiyasında İnterpolun cinayətkar qeydiyyat sisteminə elektron hesablayıcı texnikanın daxil edilməsi haqqında qərar qəbul etdi. 1982-ci ildə Baş Assambleyanın 51-ci sessiyasında xüsusi olaraq hazırlanmış Beynəlxalq polis kooperasiyalaşması və İnterpol arxivinə nəzarət qaydaları bəyənildi. Bir il sonra Baş Assambleyanın Kanadada keçirilən 52-ci sessiyasında İnterpolun arxivlərinə nəzarət üzrə xüsusi komitə yaradıldı.

Cinayətkarların İnterpol tərəfindən əlaqələndirilən beynəlxalq axtarışı cinayətin baş verdiyi dövlətin ərazi hüdudlarından kənarda keçirilən əməliyyat axtarışıdır. Belə axtarışda bir neçə, çox vaxt isə iki ölkə iştirak edir. Axtarışı bu ölkənin hər birinin cinayət polisi öz dövlətinin ərazisində öz milli qanunlarına və təşkilatlarına riayət etməklə həyata keçirir. Belə axtarışın həyata keçirilməsində İnterpolun rolu böyükdür. Gizlənən cinayətkarların beynəlxalq axtarışının təşkilatı və prosedura təşkili, həmçinin ümumi tanınması məhz İnterpol sistemində baş verdi.

İnterpol sistemində cinayət törətmiş, itkin düşmüş şəxslərin axtarılması, onların yerlərinin müəyyən edilməsi, İnterpolun üzvü olan ölkələrin təhlükəli cinayətkarlar haqqında xəbərdarlığı, yüksək qiymətə malik olan oğurlanmış xüsusi mülkiyyətin axtarışı, həmçinin cinayətin törədilməsinin təsviri, cinayətkarın "dəsti-xətti"ni təyin etmək üçün istiqamətləndirmə sistemi istifadə olunur.

İnterpolun üzvü olan hər bir ölkə təşkilata daxil olmuş bütün ölkələrdə yayılan, istiqamətləndirmələrin buraxılması (nəşri) üçün "istehlakçı" olduğu kimi, həmçinin "təşəbbüsçüsü" də ola bilər.

Hal-hazırda istiqamətləndirmənin 8 növü tətbiq edilir:

**"A" seriyalı – qırmızı istiqamətləndirmələr**.

Burada cinayət törətmiş şəxslər haqqında, qarşısını almaq məqsədilə onların həbs edilməsi və gələcəkdə cinayət törətdiyi ölkəyə təslim (təhvil) edilməsi üçün məlumat verilir.

**"B" seriyalı" – göy istiqamətləndirmələr**.

Cinayətkar şəxslər, onların olduqları yer haqqında məlumat yığmaq məqsədilə buraxılır (nəşr edilir).

**"C" seriyalı – yaşıl istiqamətləndirmələr.**

Burada törətdiyi cinayətin bir neçə ölkənin maraqlarına toxuna bilən şəxslər haqqında məlumat verilir.

**"D" seriyalı – qara istiqamətləndirmələr.** Naməlum meyitlərin_eyniləşdirilməsi üçün buraxılır (nəşr edilir).

**"E" seriyalı istiqamətləndirmələr** – böyük mədəni və ya kommersiya əmlakın oğurlanması və yaxud şübhəli şəraitdə tapılması barədə

**"F" seriyalı – sarı istiqamətləndirmələr.**

İtkin düşmüş və yaxud ruhi xəstə olduqları halda, özləri haqda eyniləşdirici məlumat verə bilməyən şəxslər haqqında məlumat buraxılır (nəşr edilir).

**"MO" seriyalı – çəhrayı istiqamətləndirmələr.**

Burada "Modus operandi", yəni cinayətin törədilmə üsulu, cinayətkarın "dəsti-xətti" təsvir olunur.

**Narıncı istiqamətləndirmə.** Bu sənəd maskalanmış silah, poçt bombaları və digər əşyalardan istifadə etməklə mümkün təhlükə barədə polis orqanlarını, ictimai və digər beynəlxalq təşkilatları xəbərdar etmək məqsədilə nəşr olunur.

Hər bir istiqamətləndirmədə, istiqamətləndirmə şəklində hərfi məna verilir; nömrə, ay və il nəşri. Məsələn, A-190/4-1993 bildirir ki, bu, 190 altında qırmızı istiqamətləndirmədir, hansı ki, 1993-cü ilin aprel ayında buraxılmışdır. Bundan əlavə, Baş Katiblikdə hər ay mövcud olan istiqamətləndirmələrə dəyişikliklər və əlavələr, həmçinin istiqamətləndirmələrin ləğvi haqqında (məsələn, axtarışda olan şəxsin həbsi səbəblə) bülletenlər nəşr olunur.

Azərbaycanda İnterpolun MMB-sinə bu və ya digər seriyalı istiqamətləndirmələrin buraxılması sorğusunu göndərmək məqsədilə lazımdır: ilk növbədə sorğu İnterpolun Nizamnaməsinin 3-cü maddəsinə zidd olmamalıdır. Hansı ki, təşkilatlara qəti surətdə hərbi, dini, siyasi və irqi xarakterli fəaliyyətə müdaxilə edilməsini qadağan edir. Hər bir istiqamətləndirmə üçün başqa tələblər 1-8-ci əlavələrdə şərh olunmuşdur.

İnterpolun MMB-dən Baş Katibliyin istiqamətləndirmələrini alarkən,

a) Alınan istiqamətləndirməni müvafiq qeydlərlə yoxlamaq;
b) İstiqamətləndirməni bölmələr üzrə göndərmək;
c) İstiqamətləndirmədəki müvafiq qeyd sisteminə uyğun olaraq informasiya daxil etmək;
d) Müvafiq qeydə əsasən daktokarta tətbiq etmək;
e) Axtarışda olan şəxs və əşyalar haqqında əhalinin geniş xəbərdarlığı üçün lazımi ölçü götürmək (məsələn plakat, bülleten şəklində);
f) Ölkə miqyasında axtarışın təşkili üçün ölçü götürmək;

Yuxarıda qeyd etdiyimiz istiqamətləndirmələrin təsvirini ayrı-ayrılıqda geniş şərh etmək yerinə düşərdi.[1]

---

[1] Гасымов Н. Организация и тактика международного розыска в системе интерпола. Москва: 1970, с.75-76.

İnterpolun Baş Katibliyində mövcud olan informasiya, onun cinayətkar və cinayət haqqında məlumatın yayılması mühitində olan imkanları respublikanın hüquq-mühafizə orqanlarının tez-tez qarşılaşdıqları beynəlxalq cinayətkarlıqla mübarizədə böyük əhəmiyyətə malikdir. Beynəlxalq əməkdaşlığın imkanlarından bacarıqla istifadə Azərbaycan hüquq-mühafizə orqanlarının fəaliyyətini keyfiyyətcə yeni dərəcəyə qalxmağa və cinayətkarlığa qarşı mübarizədə beynəlxalq birliyin tamhüquqlu üzvü olmağa imkan verər.

**Əlavə 1.**

**“A” seriyalı qırmızı axtarış, cinayətkarın həbsi və təslimi məqsədilə,** istiqamətləndirmənin nəşri üçün göndərilən sorğu aşağıda göstərilən şərtlərə görə mümkündür:

a) cinayətkar ümumi cinayət subyektdir;

b) axtarılan şəxs haqqında həbsetmə qətnaməsi mövcuddur;

c) cinayətkarın təslimi onun həbsi zamanı diplomatik kanallardan və ya ən azından müəyyən ölkələrdən tələb olunacaq.

Əgər axtarılan şəxs haqqında qırmızı istiqamətləndirmə buraxılıbsa, o isə istiqamətləndirmənin buraxılması “təşəbbüsçüsü” olan ölkədə həbs olunubsa və yaxud həbs edilməsi haqqında qətnamənin ləğvi haqqında İnterpolun MMB-ni təcili xəbərdar etmək lazımdır.

“A” seriyalı istiqamətləndirmənin buraxılması üçün cinayətkar haqqında aşağıdakı informasiya lazımdır:

O, ruhi xəstə, silahlanmış, infeksion xəstə, sui-qəsdə, zorakılığa meylli, narkotik istifadəçisi və s. bir şəxsdirsə,

1. Soyadı
2. Doğum soyadı/keçmiş soyadı
3. Adı
4. Cinsi
5. Doğum tarixi (gün, ay, il)
6. Doğulduğu yer (ölkə, şəhər, rayon, kənd)
7. Atasını soyadı və adı
8. Anasının qız soyadı və adı
9. Eyniləşdirmənin nəticələri – cinayətkar eyniləşdirilib və ya eyniləşdirilməyib
10. Vətəndaşlığı, milliyyəti
11. Vətəndaşlığın müəyyən edilməsinin nəticələri – müəyyən edilmişdir /müəyyən edilməmişdir
12. Şəxsin təsviri: boyu, bədən quruluşu, çəkisi, saçı, gözləri
13. Səciyyəvi xüsusiyyətləri: geyimi, adəti, yerişi, tərzi, danışığı
14. Başqa ad altında tanınmasını – qondarma adlar, ləqəblər və s. tari-

xi göstərilməklə, qondarma adla doğulduğu yer, həmçinin başqa real subyektin eyniləşdirmə məlumatlarını göstərmək.

15. Eyniləşdirmə sənədləri: şəxsiyyət pasport, vəsiqəsi və s. nömrəsi, kim tərəfindən və nə vaxt verilməsi haqqında
16. 2 ədəd şəkil (şəklin tarixini göstərmək)
17. Əgər əl izləri varsa, 2 nüsxə
18. Məşğuliyyət növü (cinayətkarın bacarıq və peşə hazırlığını göstərmək)
19. Ən çox getdiyi ölkə və yerlər
20. Hansı dildə danışır və hansı dilləri bilir
21. Əlavə məlumatlar (kriminal keçmişi və başqa faydalı məlumatlar)
22. İşin məzmunu (cinayətin əhəmiyyətli detalları, tarixi, yeri, cinayətin törədilmə üsulu, cinayətdə rolu, vurulan ziyan)
23. Cinayət yoldaşı /əlbir olduğu şəxs: soyadı, adı, tarixi və doğulduğu yer
24. İstiqamətləndirmənin buraxılmasının səbəb və məqsədləri:

a) "qərara görə axtarılır N____ (tarix), (ali qərar orqanının adı), qərarın icra müddəti;

b) Hansı cinayətə görə (qısa təsviri);

v) Əgər artıq ittiham olunubsa: a) hansı müddətə b) cəzanın hansı müddətdə çəkilməsi gözlənilir.

25. Ekstradisiya (cinayətkarın təslimi) tələb olunacaq:

a) bütün ölkələrdən, başqa

b) hər hansı ölkələrdən

c) növbəti ölkələrdən

**Əlavə 2.**

**"B" seriyalı – göy istiqamətləndirmənin buraxılmasının məqsədi** İnterpolun üzvü olan polis xidmətini müvafiq MMB vasitəsilə müəyyən kriminal xarakterli informasiya ilə təmin etməkdir.

"B" seriyalı istiqamətləndirmənin buraxılması sorğusu üçün aşağıdakı meyarlar labüddür. Belə ki, informasiya birbaşa əlaqəli olmalıdır:

a) müəyyən olunmamış cinayətkarlar və yaxud onların keçdiyi kriminal qeydlərlə

b) şəxslərin yerinin müəyyən olunması, hansı ki:

- beynəlxalq cinayətkar kimi eyniləşdirilib və yaxud eyniləşdirilməyib;
- ümum cinayət qanunvericiliyinə görə tələb oluna bilən axtarışda olan şəxslərin

c) hər hansı bir şəxsin (şahidin, şübhəli şəxsin, cinayətkarın, əlbir olduğu şəxsin) eyniləşdirilməsi və yaxud yerinin müəyyən olunması

Cinayətkarlara qarşı "B" seriyalı istiqamətləndirmələr qırmızı istiqa-

mətləndirmədəki informasiyanın olmadığı halda buraxılır.

"B" seriyalı istiqamətləndirmələrin buraxılması üçün 1-23 "A" seriyalı istiqamətləndirmədəki məlumat vacibdir. 24-cü bənddə isə göstərmək lazımdır:

24. İstiqamətləndirmənin məqsədi:

- Şəxsiyyət və onun kriminal fəaliyyəti haqqında məlumatın alınması
- Onun yerinin təyini və təqibinin müəyyənləşdirilməsi
- Digərləri (göstərmək).

**Əlavə 3.**

**"C" seriyalı – "yaşıl" istiqamətləndirmənin məqsədi** bir neçə ölkələrin marağına toxuna və ya həmin ölkələrin ərazisində ola biləcək cinayət törətmiş və yaxud törədə biləcək şəxslər haqqında İnterpolun üzvü olan ölkələri xəbərdarlıq etməkdir.

İnterpol o şəxsləri beynəlxalq cinayətkar sayır ki:

a) müxtəlif ölkələrdə fəaliyyətdə olan və öz ölkəsində peşəkar cinayətkar kimi tanınan;

b) ən azından daha iki ölkədə tanınan.

Praktik olaraq "C" seriyalı istiqamətləndirmələrin nəşri, yuxarıda göstərilən müəyyənliyə görə, hamı haqqında deyil, daha çox təhlükəli beynəlxalq cinayətkarlar haqqında buraxılır.

Yaşıl istiqamətləndirmə ancaq cinayətkarın ölümü və yaxud başqa xüsusi vəziyyətlər zamanı təxirə salınır.

"C" seriyalı istiqamətləndirmə, aşağıda göstərilən bir və ya daha çox səbəblərə görə, beynəlxalq cinayətkar olması haqqında şübhə edilən hər hansı bir şəxs haqqında nəşr oluna bilər:

a) şəxs ən azı üç ölkədə ittiham olunubsa (azyaşlılara qarşı cinayət hallarını istisna etməklə);

b) o, heç olmasa bir dəfə ittiham olunmuş və həmçinin ona qarşı daha iki ölkədə nüfuzdan salan ləkələyici material mövcuddur hansı ki, həmin dəlillər həmin şəxsin kriminal hərəkatla əlaqəsi olmasına əsas verir;

c) ən azından bir ölkədə o şəxs haqqında nüfuzdan salan material mövcuddur, bir şərt daxilində ki, nəzərdə tutulan cinayət əsas verir ki, onun beynəlxalq cinayətkar hərəkatı ilə müəyyən mənada əlaqəsi vardır;

d) bu şəxs haqqında kriminal məlumat mövcuddur, hansı ki, ehtimal olunur ki, bu şəxs, ən azından bir ölkədə cinayətkar təşkilatlar tərəfindən törədilən ağır cinayətlərdə iştirak edib.

Əgər istintaq günahın sübutu üçün tutarlı dəlil taparsa, onda hesab olunur ki, həmin şəxsə qarşı nüfuzdan salan və ya kriminal məlumat mövcuddur.

Hər hansı bir şəxs üçün "C" seriyalı istiqamətləndirmə nəşrinin sorğusu üçün vacibdir:

a) ittihamın ağırlıq dərəcəsini və cinayətin törədilmə üsullarını müəyyənləşdirmək;

b) bu şəxsin beynəlxalq cinayətkar qrupların üzvü olmasını müəyyənləşdirmək;

c) müəyyənləşdirilmiş formanı doldurmaq;

d) nəşr olunmuş istiqamətləndirməyə əlavə olaraq edilən dəyişikliklər barəsində İnterpolun MMB-yə vaxtında xəbər vermək.

"C" seriyalı istiqamətləndirmənin nəşri üçün məlumat göstərilən uyğun formanı doldurmaq lazımdır:

1-21 Qırmızı istiqamətləndirmənin bütün bəndləri ilə eynidirsə

22. Kriminal xarakterli fəaliyyət və cinayətin törədilmə üsulları.
23. Cinayət yoldaşı (əlbir olduğu şəxs) soyadı, adı, atasının adı, doğum tarixi, İnterpolun onlara verilən istiqamətləndirməsi.
24. Yuxarıda göstərilən informasiyanı İnterpolun üzvü olan ölkələrə yaymaq və yaxud İnterpolun Baş Katibliyinin verilənlər bankına daxil etmək.

**Əlavə 4.**

**"D" seriyalı" – qara istiqamətləndirmənin məqsədi:** naməlum meyitlərin tanınması üçün informasiyanı yaymaq:

a) naməlum (tanınmamış) meyitlər haqqında;

b) ölənlər haqqında (hansı ki, qondarma şəxsi məlumatlardan istifadə etmişlər).

Bu istiqamətləndirmənin nəşri üçün vacibdir:

a) vacib formanı doldurmaq;

b) meyitin 2 nüsxə fotoşəkilini və əgər mümkünsə barmaq izlərini əlavə etmək;

c) fərqləndirən xüsusiyyətlərini, xüsusi əlamətlərini vermək və əgər mümkünsə odontoqram (dişlərinin quruluşunu) təqdim etmək, 8-ci əlavədə verilən doldurulma qaydasını yerinə yetirmək;

d) həlak olana məxsus olan əşya və ya geyimin ticarət işarəsi, etiket və yazılarına xüsusi diqqət yetirməklə onu təsvir etmək;

e) artıq nəşr olunan istiqamətləndirməyə əlavə və dəyişiklik oluna biləcək bütün dəlillər haqqında İnterpolun MMB-ni vaxtında xəbərdar etmək;

f) İnterpolun MMB-nu meyitin tanınması barədə dərhal xəbərdar etmək.

"Qara" istiqamətləndirmənin nəşri üçün formanı doldurarkən aşağıdakı məlumatlar göstərilməlidir:

1. Tanınmamış meyiti aşkar edərkən mümkün olduğu qədər vəziyyəti,

tarixi, yeri, ölümün mümkün səbəbləri (olduqca ətraflı);
2. Ölümünün təxmini vaxtı;
3. Cinsi;
4. Təxmini yaşı;
5. Müayinə vaxtı aşkar olunan eyniləşdirmə məlumatları;
6. Bu və ya digər ölkələrə məxsus olan dini, etnik, milli, vətəndaşlıq xüsusiyyətlərini göstərən məlumat;
7. Təsviri (mümkün qədər geniş):
- boyu;
- bədən quruluşu/çəkisi;
- saçları;
- gözləri:
- odontoqrama əsasən dişlərinin quruluşu;
- fərqləndirici xüsusiyyətləri, xüsusi əlamətləri (çapıq, döymə, fiziki çatışmazlıq, bu və ya digər bədən üzvlərinin olmamağı, eynəyi);
- rentgen müayinəsi – aparılıb / aparılmayıb, nəticəsi;
- qan qrupu.
8. Geyimi: materialın forması, vəziyyəti, üstündəki şəkli, istehlakçının etiketi, kimyəvi təmizləmə yarlığı;
9. Zinət məmulatları: təsviri, hazırlanma tarixi, üzərindəki yazılar;
10. Başqa şəxsi əmlakı (yükü daxil etməklə);
11. Başqa məlumat (meyitin tanınması üçün 1-11-ci bəndlərə daxil olmayan bütün faydalı məlumatlar);
12. İstiqamətləndirmənin nəşrinə hansı təşkilat sorğu göndərir.

***Əlavə5.***

**"E" seriyalı istiqamətləndirmənin məqsədi:** qanunsuz əldə olunmasına əsas verən şəraitdə tapılan oğurlanmış əşya və ya mülk haqqında informasiya yaymaqdır.

Bu cür əşyalar mədəni dəyərlərə (sərvətlər) aid olan əşyalar ola bilər.

"E" seriyalı istiqamətləndirmənin nəşri o vaxt tələb oluna bilər ki, əgər:

a) oğurlanmış mülk əhəmiyyətli dərəcədə nadir və ya kommersiya dəyərinə malikdir;
b) o, təsvirinə, şəklinə və yaxud eyniləşdirmə və ya başqa markasına görə tanına bilər;
c) keyfiyyətli şəkillər mövcuddur;
d) iş açıq-aşkar və ya təxmini beynəlxalq "rəng"ə malikdir.

"E" seriyalı istiqamətləndirmənin nəşri sorğusu üçün vacibdir:

a) uyğun formanı doldurmaq (əşyanın təfsilatı ilə təsviri);

b) əvvəl təqdim edilmiş informasiyaya edilən əlavə və dəyişikliklər haqqında İnterpolun MMB-ni vaxtaşırı xəbərdar etmək;

c) dəyər (sərvət) aşkarlanan zaman dərhal İnterpolun MMB-ni xəbərdar etmək;

d) nəşr olunmuş istiqamətləndirmələrin hər 5 ildən bir tutuşdurub yoxlanmasını aparmaq.

"E" seriyalı istiqamətləndirmənin nəşri üçün aşağıda göstərilən məlumatı əks etdirən formanı doldurmaq lazımdır:

1.1. Oğurlanmanın və yaxud aşkarlanmanın tarixi (gün, ay, il);

1.2.Yeri (ölkə, şəhər, rayon, kənd, ünvan);

1.3. Dəyərin (sərvətin) olduğu yer (saray, məscid, muzey, xüsusi ev);

1.4. Qanuni sahibi;

1.5. Vəziyyət (şərait), oğurlanma üsulu, təhlükəsizlik sistemi, siqnalizasiya, mühafizə;

2.1. Mədəni dəyərin (sərvətin) adı;

2.2. Müəllif;

2.3. Aid olduğu tarix /dövr;

2.4. Hazırlanma üsulu və texnikası:

A) xalçalar: əl, maşın və yaxud qarışıq tipli işlər

B) saxsı: gips, rəngli, əl işi, şəkil ilə bəzənmiş, dulusçuluq məhsulu olan

C) saatlar:

a) mexaniki: çarx kəfgirli, adi kəfgirli

b) mexaniki olmayan: şam, qum, günəş və su

Ç) sikkə, medal: külçə, əl və ya qəlibçilik işi

D) sənədlər/kitablar: audio kasetlər, rəqəmsal disklər, qrammofon yazısı, maqnit lentlər, şəkillər, çap, slaydlar, video kasetlər

E) rəsm (şəkillər): qırmızı və qara karandaş, kömür, sulu boya, çin tuşu, mineral və bitki məşəli rənglər, qələm, karandaş, qamış, gümüş karandaş, akvarel, qurğuşun əhənglə rəsmlər

Ə) çəkili tikmələr: ingilis şəbəkəsi, döşəmə, monoqram, rəngarəng, qabarıq

H) mina: yarımşəffaf naxış, oyuq-oyuq mina, rənglənmiş limuzin, şəffaf

İ) qravüra: mis üzərində qravüra, intalyo, linokat, litoqrafiya, seriqrafiya, ağac üzərində qravüra

J) ev avadanlığı: qravüralı, mozaik, qara minalı məmulat, rənglənmiş, parket, rəngarəng, sikkə

K) şüşə məmulatı: şişirdilmiş, tökülmüş, qravüralı, aşındırılmış (turşu ilə), qarışıq (tökülmüş və şişirdilmiş)

L) zərgərlik məmulatı qızıl/gümüş: oyma, qəlib, çərçivə, qravüralı, döyülmüş, qalvanik, dəzgahda hazırlanmış

İkonalar: tempera, mozaika

Şəbəkə: dolama, iynə ilə iş

Musiqi alətləri: zərb, simli, nəfəs, klavişli

İncəsənət əsəri: kollaj, tempra, mum, boya, freska, sulu boya, qarışıq, yağlı, pastel, akvarel

Filateliya (marka kolleksiyası): qabaqcadan ödənilmiş markalar, qarışıq, ofsetlənmiş, dərilməmiş, dərilmiş, foto qravüralı

Heykəltəraşlıq/heykəl:

a) qabarıq: hündür qabarıq, qabartma, orta qabarıq, oyuq

b) heykəllər: kəsilmiş/sındırılmış, tökülmüş, dekorlanmış, rəngarəng, yonulmuş, bişirilmiş

Qobelen (divar xalçası): əla əriş, pis əriş, makrame

Odlu silah: əsas döyüş, çaxmaq daşlı, qapalı, pistonlu, təbilli

İrsi silah: oymalı, tökülmüş, döyülüb hazırlanmış, minalanmış,

Digərləri: (göstərmək).

2.5. İstifadə olunmuş material (əşyanın hazırlanması zamanı):

**Təbii mənşə:** heyvani lif, sümük, kətan, karda, mərcan, pambıq, naxışlı ipək parça, qumaş, fil sümüyü, parusin (qalın kətan parça), sədəf, kağız, papirus, perqament, dürr, qatran, balıqqulağı, ipək, dəri, sintetik lif, sap, bitki mənşəli lif, məxmər, mum, ağac, yun və başqaları (göstərmək).

**Qeyri-təbii mənşə:** alümin, bürünc, tunc, sellüloz, saxsı, gil, mis, büllur, dulusçuluq məmulatı, minalı, qızıl, rezin, dəmir, qurğuşun, kaşı, qurğuşunla qalayın xəlitəsi, plastik, çini, daş-qaş, surğuc, gümüş, qızıl suyu, rəngli şüşə, polad, daş, daş kəsəkli gil, naxışlı gips, bişirilmiş gil, qalay, ağ dəmir, süxur, digərləri: (göstərmək).

2.6. Görünüşü/forması:

a) düzbucaqlı formada

b) kvadrat

c) dairəvi

d) oval

e) yanlış.

2.7. Çərçivəsiz ölçülər (santimetrlə): əgər bir neçə ölçüdürsə, hamısını göstərmək.

2.7.1. Axtarışda olan əşyanın geniş təsviri.

2.8. Təsviri:

**Fəaliyyət:** kənd təsərrüfatı (heyvandarlıq/bağçılıq), ölüm, fəlakət (yanğın, gəmi qəzası), idarəetmə/sürmə, əyləncə, balıqçılıq, ovçuluq, suda təmizlik (heyvanlar üçün), dini ayinlər (dua), peşəkar fəaliyyət (diş həkimi, həkim), romans, seans, yuxu, çəkmə (papiros), gəzinti, hərbi hərəkat (suda, quruda, səmada döyüş), digərləri (göstərmək).

**Heyvanların növü/quruluşu:** mələk/kupidon, quş, uşaq, İsa, geyimli, it, ev heyvanı, cod tük, qrup, şlyapa/tac/duvaq, at, xəyali fiqur və ya məxluq, kişi, hərbi fiqur, çılpaq, portret, müqəddəs, bakirə qız və ya uşaq, vəhşi heyvan, qadın.

**Detallar:** təyyarə, memarlıq detalı, səbət, kitab/qəzet, bitki/yarpaq budaq, boşqab/böyük butulka, bıçaq məmulatı, qapı, parça (pərdə, bəzək, salfet, süfrə), hasar, gül, meyvə/tərəvəz, mebel/xalça, işıqlandırıcı qurğular (şamdanlar/lampalar), ət/balıq, güzgü, musiqi aləti, dini ləvazimat, gəmi/qayıq, alət/cihaz, ağac, nəqliyyat vasitəsi (avtomobil, velosiped, kərəci).

**Əhatə:** hava limanı/liman, körpü, bulud, tarla/çəmənlik/otlaq, alov, meşə, ev, bazar, ay, dağ/təpə, yağış, yol/istiqamət/cığır, qaya, otaq, avadanlıq, qar, ulduz, günəş, şəhər, su (kanal, göl, gölməçə, çay, dəniz), digərləri (göstərmək).

2.9. İmza (avtoqraf):

Yerləşdiyi yeri göstərmək, aydındır ya yox, geniş detallar vermək.

2.10. Yazı və ya qeydlər: yerini göstərmək, tam detallarla təsvir etmək.

2.11. İnventar (avadanlıq siyahısı) və ya kataloq nömrəsi.

2.12. Dəyəri:

Nəzərdə tutulmuş və ya mükafat verilmişdir: yox/hə (məbləği).

2.13. Şəkil əlavə olunur: yox/hə.

Davamı olaraq əvvəlki bəndləri əhatə etməyən bütün məqamlara geniş mətndə (məzmunda) toxunmaq.

**Qeyd:** məlumat forması ancaq bir əşyanın təsviri üçün istifadə olunur, onların çox olduğu halda hər biri üçün belə forma doldurulur və geniş təsviri verilir.

**Əlavə 6.**

**"F" seriyalı – sarı istiqamətləndirmə** itkin düşən şəxsin yerini müəyyən etmək məqsədilə onun ailəsinin xahişi əsasında nəşr oluna bilər.

Sarı istiqamətləndirmənin nəşrinin vacib olduğu halda:

a) müvafiq formanı doldurmaq;

b) artıq nəşr olunmuş istiqamətləndirməyə ediləcək əlavə və dəyişikliklər haqqında İnterpolun Yoxdur-ni xəbərdar etmək;

c) itkin düşmüş şəxsin aşkarı zaman İnterpolun MMB-nu xəbərdar etmək.

Sarı istiqamətləndirmənin nəşri üçün aşağıda göstərilən forma doldurulmalıdır, hansı , orada aşağıdakı məlumatlar öz əksini tapır:

Yoxdur) istiqamətləndirmə kim haqqında nəşr edilib:

- itkin düşən haqqında,
- özünü eyniləşdirə bilməyən şəxs haqqında.

b) əgər məlumdursa, göstərmək:
- ruhi xəstədir,
- silahlıdır,
- yoluxucu xəstədir,
- özünə qəsd etməyə meyillidir,
- narkotik istifadəçisidir,
- təhlükəlidir,
- digərləri (göstərmək).

1-11Yoxdur bəndlər qırmızı istiqamətləndirmənin bəndlərinə uyğundur.

12. Daha geniş (ətraflı) təsvir:
- boyu,
- bədən quruluşu/çəkisi,
- gözləri,
- saçları,
- dişləri (yaxşı, pis, hansıları yoxdur, adi rəngin dəyişikliyi, əyriliyi, böyük, kiçik, əgər süni dişsə təsvir etmək: aşağı, yuxarı və ya müəyyən dişlər qoymadırsa),
- odontoqram əlavə olunur: hə/yox,
- xüsusi əlamətlər (çapıq, döymə, çatışmayan cəhətlər),
- rentgen müayinəsinin nəticəsi varmı hə/yox,
- qan analizi.

13-20 bəndlər qırmızı istiqamətləndirmənin eyniadlı bəndlərinə uyğundur.

21. Geyimi (geyimin növü, rəngi, materialın rəsmi, geyimin vəziyyəti, istehsalçının etiketi, kimyəvi təmizləmə və camaşırxana etiketi).
22. Zərgərlik məmulatı.
23. Yükünü daxil etməklə başqa şəxsi əşyalar.
24. Ailə vəziyyəti – həyat yoldaşının soyadı, Yoxdur atasının Yoxdur nikahın qeyd olunma yeri və tarixi.
25. İtmə şəraiti (özünü eyniləşdirə bilməyən şəxslər üçün): tarixi, yeri, bu işə bu və ya digər aidiyyəti olan şəxslər, istifadə edilən avtomobillər, əvvəllər də itmişdirmi...
26. Əlavə məlumatlar.
27. İstiqamətləndirmənin məqsədi:

27.1. İtkin düşmüş şəxslər üçün:

“İstiqamətləndirmənin nəşri sorğusu şəxsin yerini müəyyən etmək məqsədilə verilmişdir” – əgər, tapılarsa xahiş edirik:

a) onun dəqiq ünvanını müəyyən etmək;

b) onu sığınacağa yerləşdirmək və ölkənin yaxın diplomatik nümayəndələri ilə əlaqə yaratmaq;

c) vacibdirsə, başqa hərəkətlərini (fəaliyyətini) göstərmək.

27.2.Özünü eyniləşdirə bilməyən şəxslər üçün hansı orqan tərəfindən istiqamətləndirmənin nəşri sorğusunun verildiyini göstərmək.

**Əlavə 7.**

**"MO" seriyalı istiqamətləndirmənin məqsədi:**

a) cinayətin başvermə tərzini, cinayətkar tərəfindən gizlədilib saxlanılmanın (məsələn, narkotik maddələrin daşınması zamanı) müəyyən üsulları haqqında hüquq-mühafizə orqanlarını xəbərdar etməkdir;

b) dünyanın müxtəlif yerlərində cinayətkarın istifadə etdiyi uyğun gələn metodlar haqqındakı məlumatları mərkəzləşdirmək və bu məlumatları hüquq-mühafizə orqanları arasında yaymaqdır.

"MO" seriyalı istiqamətləndirmənin nəşri üçün aşağıdakı məlumatları göstərmək vacibdir:

A) Məzmun;

B) Müəyyən texniki terminlərin müəyyənləşdirilməsi;

C) Cinayətin başvermə üsulunun təsviri;

D) Ölkəni (ölkələri) cinayətin bu üsulla baş verməsi yer almışdır;

E) Vacib olarsa, göstərilən məlumatı təsvir edən şəkilləri əlavə etmək.

**Əlavə 8.**

**Narıncı istiqamətləndirmə** – bu sənəd maskalanmış silah, poçt bombaları və digər əşyalardan istifadə etməklə mümkün təhlükə barədə polis orqanlarını, ictimai və digər beynəlxalq təşkilatları xəbərdar etmək məqsədilə nəşr olunur.[1] İnterpolun həyata keçirdiyi axtarış obyektindən asılı olaraq 4 növə təsnif edilir:

- Cinayətkarların həbs edilməsi və ekstradisiyası;
- Cinayətkarların və şübhəli şəxslərin davranışına nəzarət etmək məqsədilə onların axtarışı;
- Xəbərsiz itkin düşmüş şəxslərin axtarışı;
- Oğurlanmış şəxslərin axtarışı.

Cinayətkarların həbs edilməsi və ekstradisiyası məqsədilə onların axtarışı cinayətkarların verilməsi üzrə dövlətlərin beynəlxalq əməkdaşlığının tərkib hissəsidir. İnterpolun axtarış fəaliyyətinin əsas həcmi onun payına düşür.

Ekstradisiya məsələlərində hər bir dövlət öz siyasətini müstəqil və ya beynəlxalq müqavilələrlə müəyyən edir. Dövlətlərin ekstradisiya praktikalarında polis köməkçi rol oynayır. O, verilməli olan subyektin, yəni polisin

[1] Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kitabxanası. İnterpolun və onun Azərbaycan Milli Mərkəzi Bürosunun fəaliyyəti ilə bağlı bəzi normativ aktlar, sorğular və icmal arayışlar və istiqamətləndirmələrin məcmuəsi. Bakı: 2003, s.21-31.

payına ən mürəkkəb işin təhlükəli hissəsi düşür. Cinayətkarların verilməsinin özü isə, Neptunun qeyd etdiyi kimi, polis səyinin məntiqi yekunudur.[1] Öz mövcudluğunun ilk illərindən İnterpol bütün dövlətlərin iştirakı ilə cinayətkarların verilməsi haqqında vahid universal saziş bağlamaq ideyasını dəstəkləyirdi. 1957-ci ildə cinayətkarların verilməsi haqqında konvensiyanın işlənib hazırlanmasında İnterpolun mütəxəssisləri də iştirak edirdilər. Elə həmin ildə, İnterpolun Baş Assambleyası özünün 29-cu sessiyasında xüsusi qətnamə ilə təşkilatın bütün üzvlərinə ekstradisiya haqqında ikitərəfli və çoxtərəfli müqavilələlilər bağlamağı tövsiyə etdi. İnterpolun Baş Katibliyi ekstradisiya haqqında işlərdə təşkilatın iştirakı üzrə hərəkətlər planı işləyib hazırlamışdır.

İnterpolun praktikasında axtarışın iki növü məlumdur: adi və təcili. Hər ikisinin hazırlanması üçün şərt 3 sənədin olmasıdır:

1) Axtarılan şəxsin həbsi haqda order;
2) Azadlıqdan məhrumetmə növündə cəza təyin edilməsi haqqında məhkəmənin hökmü;
3) Hüquqi qüvvəsinə görə ona bərabər olan digər sənəd.

İnterpolun materiallarında hüquqi qüvvəsinə görə ona bərabər olan digər sənədlərin mahiyyəti açıqlanmır.

Adi axtarış aşağıdakı mərhələlərdən ibarətdir:

1) Axtarışın təşəbbüskarı polis orqanı, prokurorluq və ya məhkəmə öz ölkəsinin MMB-nə xaricə qaçmış və olduğu ölkə məlum olan cinayətkarın axtarışına başlamaq xahişi ilə müraciət edir. Xaricdə axtarılan şəxs barəsində məlumatlar əlavə edilir: onun xarici görkəminin təsviri, əlamətləri, şəxsi sənədləri, fotoşəkilləri və barmaq izləri (əgər mövcuddursa).
2) MMB bu xahişin İnterpolun nizamnaməsinin 3-cü maddəsinə uyğunluğunu yoxlayır. Bu maddə İnterpolun siyasi, hərbi, irqi və dini xarakterli işlərdə iştirakını qadağan edir). Bundan sonra rəsmi xahiş İnterpolun Baş Katibliyinə göndərilir.
3) Baş Katiblik axtarışın və həbs haqqında xahişin nizamnamənin 3-cü maddəsinə zidd olmamasına şəhadət verdikdən sonra, İnterpola daxil olan bütün və ya bir sıra ölkələrin MMB-lərinə göndərir. "Qırmızı göndəriş" almış hər bir MMB xahişdə əks edilmiş halları öz ölkəsinin cinayət qanunvericiliyi baxımından və öz ərazisində axtarış elan edilməsinin mümkünlüyü haqqında məsələni həll edir;

[1] Антипов С.П. Участие органов внутренних дел России в розыске лиц, род, лежащих экстрадиции. Москва: 1997, s.48.

4) Hər bir ölkədə mərkəzdən alınmış bülleten əsasında yerli polis orqanları axtarış əməliyyatları həyata keçirir;
5) Əgər axtarılan şəxs aşkar edilərsə, polis öz ölkəsinin qanunlarını rəhbər tutaraq onu tutub saxlayır. Cinayətkarın tutulmasından sonra polis yaxın yerli məhkəmə qarşısında onun sonradan verilməsi üçün həbs olunması haqqında məsələ qaldırır. Əgər yerli məhkəmə cinayətkarın ibtidai həbsi haqqında polisin xahişini təmin etməkdən imtina edərsə, İnterpolun Baş Katibliyi polisi onun yerdəyişmələri və hərəkətlərini izləməyi və polisə və ya axtarışın təşəbbüskarlarına radio və teleqramla xəbər verməyi tövsiyə edir. İcra edilmiş həbs haqqında polis dərhal öz ölkəsinin MMB-nə xəbər verir.
6) MMB öz növbəsində Baş Katibliyə və axtarışın təşəbbüskarı olan ölkənin MMB-nə cinayətkarın həbsi haqqında məlumat verir.
7) Axtarışı elan etmək üçün MMB öz ölkəsinin maraqlı orqanlarına cinayətkarın həbsi haqqında dərhal xəbər verir. Onlar təcili surətdə cinayətkarın tutulub saxlanıldığı ölkəyə onun verilməsi haqqında xahişlə müraciət edirlər.
8) Beynəlxalq son polis tədbiri bildirişdir, yəni axtarışın təşəbbüskarı olan MMB İnterpolun Baş Katibliyinə cinayətkarın həbsə alınması haqqında xəbər verir.

Təcili axtarış adidən onunla fərqlənir ki, İnterpolun radio cəbhəsində olan MMB-lər fövqəladə hallarda Baş Katibliyi "nəzərə almadan", özləri qaçmış cinayətkarın axtarışı haqqında xahişi göndərirlər. Hər bir konkret iş üzrə təcili axtarışa məhdud sayda ölkə cəlb edilir. Təcili axtarış əksər hallarda o vaxt elan edilir ki, onun təşəbbüskarlarına cinayətkarın olduğu və ya müvəqqəti qaldığı ölkə və ya region məlum olur.

Üç ay müddətində müvəffəqiyyət qazanmış axtarış adi axtarışla və yazılı olmayan xahişlə İnterpolun "qırmızı göstərişi" ilə əvəz edilir.

İnterpol çərçivəsində bəzən qarışıq axtarış da elan edilir. Bu halda təşəbbüskar "verilmə" haqqında müqavilənin olduğu ölkəyə cinayətkarın həbs edilməsi və verilməsi məqsədilə axtarılması haqqında xahiş ilə müraciət edir.

## Beynəlxalq Cinayət Polis Təşkilatı İnterpolun cinayətin ayrı-ayrı növləri ilə mübarizəsi

### 1. Terrorçuluq.

Terrorçuluq müasir dünyanın ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif miqyaslar alan təzahürlərindən biridir. Terror aktları çoxsaylı insan tələfatı ilə nəticələnir, böyük insan kütləsinə psixoloji təsir göstərir, yenidən bərpası mümkün olmayan maddi və mənəvi dəyərləri məhv edir. Həmçinin dövlətlərarası nifaq salır, müharibələrə, sosial və milli

qurumlar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur.

Terrora bir vasitə kimi əl atanlar, əsasən, cəmiyyətdə qanunçuluğu şübhə altına almağa başlayanlar, bununla da öz məqsədlərinə çatmaq üçün terroru çıxış yolu kimi görən ayrı-ayrı qruplardır.

Müxtəlif cinayətkar qruplaşmalar terror aktlarını, rəqiblərini qorxutmaq və ya məhv etmək, öz cinayətkar fəaliyyətlərini həyata keçirmək, daha əlverişli şərait əldə etmək üçün dövlət hakimiyyətinə təzyiq göstərmək məqsədi ilə törədirlər. Terror aktının qurbanı hər kəs ola bilər, hətta terror aktına səbəb olmuş münaqişəyə heç bir aidiyyəti olmayan şəxslər də terrorla rastlaşa bilər.

Terrorçuluğun səviyyəsi və onun konkret təzahür formaları bir tərəfdən cəmiyyətin əxlaqi dəyərlərini, digər tərəfdən isə dövlətin terrorçuluğa qarşı gördüyü tədbirlərin effektivliyinin dərəcəsini göstərir.

Terror aktları ildən-ilə daha mütəşəkkil formada təşkil edilir, daha qəddar olur. Ən başlıcası, müasir texnikadan, silahlardan istifadə olunur. Terrorçu təşkilatların fəaliyyətini göstərmək üçün firmalar, şirkətlər, banklar və fondlar sistemi fəaliyyət göstərir.

Aydındır ki, bu təhlükəli problemlə mübarizə üçün dövlətlərin öz güclərini yüksək səviyyədə koordinə etməsi, beynəlxalq təşkilatlar şəbəkəsi yaratmaq lazımdır. Həmçinin, terrorçuluqla mübarizə ilə bağlı effektli fəaliyyətin həyata keçirilməsi üçün onun vahid beynəlxalq hüquqi anlayışlarının, cinayətin bu növünün dəqiq hüquqi xarakteristikasının hazırlanması vacibdir. Dünyanın aparıcı dövlətlərinin terrorçuluğa qarşı mübarizə ilə bağlı qəbul etdiyi qanunların özü də terrorçuluğun nə dərəcədə təhlükəli, qorxulu bir hadisə olmasını göstərir.

ABŞ-da 2001-ci il 11 sentyabr hadisələrindən sonra hamıya aydın oldu ki, hətta ən güclü dövlət belə özünü terror təhlükəsindən qoruya bilməz. Dünyanın ən güclü dövləti olan ABŞ-ın xüsusi xidməti və ordusu terror aktlarının qarşısını ala bilmədi. Terrorçu qrupların səciyyəvi xüsusiyyəti onun fantastikliyində, xüsusiləşməsində və modernləşməsindədir. Terrorun sərhədi yoxdur.

Terrorla mübarizəyə bütün inkişaf etmiş dövlətlər tərəfindən ümumi dövlət məsələsi kimi baxılır. Bu sahədə ən önəmli vacib tədbirlərə hüquqi bazanın təkmilləşdirilməsi, xüsusi orqanlararası əməkdaşlığın gücləndirilməsi, terrorçuluğu dəstəkləyən ölkələrə maksimum təzyiq göstərilməsi problemi ilə məşğul olan işçilərin hazırlıq dərəcəsinin və texniki təminatının artırılması aiddir.[1]

Müasir dünya gündən-günə artan, beynəlxalq xarakter daşıyan və bə-

[1] Mehdiyev N.A., Abutalıbov İ.B. Beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlığın əsas aspektləri. Bakı: 2007, s. 54.

şəriyyət üçün ciddi təhlükəyə çevrilən terror aksiyasının şahidinə çevrilmişdir. Adamların girov götürülməsi, təyyarələrin ələ keçirilməsi, minlərlə insanların məhv edilməsi ilə nəticələnən, ictimai yerlərdə partlayışların törədilməsi, dövlət və ictimai xadimlərin öldürülməsi və s. kimi cinayətlər son dövrlərdə "terrorizm" kimi təşəkkül tapmış təzahürlərin mövcudluğunu təsdiqləyir.

Hələ qədimdən mövcud olmasına baxmayaraq, elmi-texniki və kommunikasiya vasitələrinin inkişafından asılı olaraq, son dövrlərdə terrorçuluğun daha ciddi nəticələrlə əlaqədar olan beynəlxalq əhəmiyyətli qlobal problemləri özündə birləşdirir. Onu da qeyd etmək lazımdır ki, bir çox hallarda müxtəlif motivli (siyasi, dini, kriminal və s.) terror cinayətləri kəsişir, paralel çıxış edir və ya biri digərini tamamlayır. Belə ki, siyasi və kriminal terror təzahürləri bir yerdə çıxış etməklə, bir-birini tamamlayır. Siyasi motivlə törədilən terror aktları müxtəlif cinayətkar qrupların üzvləri tərəfindən icra edilərək, həm də tamah məqsədi daşıyır (bu qrupun əsas gəlir mənbəyini təşkil edir).

Terrorun artıq bu səviyyəyə çatması, onun transmilli cinayət kimi təşəkkül tapması ona qarşı mübarizədə beynəlxalq əməkdaşlığın səviyyəsinin yüksəldilməsini və beynəlxalq qüvvələrin düşünülmüş vəhdətini tələb edir. Bu mübarizədə Azərbaycan Respublikası da özünün layiqli yerini tutur. Bununla əlaqədar, ulu öndərimiz Heydər Əliyev qeyd etmişdir: "Terrorçuluğun bütün təzahür formalarını pisləyən Azərbaycan həmişə terrorçuluğa qarşı mübarizə aparmış, bu istiqamətdə dünyanın bütün dövlətləri və qanunları ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Biz bu gün daha artıq əməkdaşlıq və qətiyyətlə belə əməkdaşlığa hazır olduğumuzu bildiririk".[1]

Artıq ənənəvi təşəkkül tapmış "habitual criminal – adi cinayətkar" adlandırılan şəxslər müasir zamanda transformasiyaya uğrayaraq daha mobil, qorxmayan, savadlı və əlbəttə ki, dövlət sərhədlərinin hüdudları ilə kifayətlənməyən mütəşəkkil qüvvəyə çevrilmişlər.[2] Əlbəttə ki, cinayətkarlığın bu cür mütəşəkkil xarakter daşıması və beynəlxalq səviyyədə fəaliyyəti öz növbəsində ona qarşı beynəlxalq mübarizənin forma və metodlarını da şərtləndirir. Bu mübarizədə isə Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpol özünəməxsus yer tutur.

Məlum olduğu kimi, İnterpol çərçivəsində bir çox transmilli cinayətlərə qarşı mübarizə müxtəlif dövlətlərin polis orqanlarını, daima fəaliyyət göstərən kooperasiya və koordinasiya mexanizmi təşəkkül tapmışdır. Lakin polis orqanlarının İnterpol sistemində əlaqələri cinayətkarlığa qarşı mübarizə-

---

[1] Əliyev B.Ə. Terrorizmə qarşı mübarizədə İnterpolun rolu // Qanun, 2001, №11-12.
[2] Alper B., Boren Y. Crime International Agenda Lexington Mass. 1975, s. 73.

də (həm milli, həm də beynəlxalq səviyyədə) dövlətlərin beynəlxalq əməkdaşlığının bir formasıdır. Bu baxımdan İnterpolun terrorçuluq cinayətlərinə qarşı mübarizədə rolu və bununla əlaqədar mövcud aspektlərin təhlili diqqəti cəlb edir.

İnterpol çərçivəsində terrorçuluqla mübarizə həmişə çətin olmuşdur. Belə ki, son dövrədək terrorçuluğun “siyasi” təbiətinə görə, İnterpol çərçivəsində bu növ cinayətlərə qarşı mübarizə demək olar ki, aparılmırdı. Çünki Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun nizamnaməsinin 3-cü maddəsi bunu qadağan edirdi. Təşkilata dini, siyasi, hərbi və ya irqi xarakterli hər hansı bir hərəkətlər etmək və ya müdaxilələrə yol vermək qəti qadağan olunur. Terrorizm isə elə cinayətdir ki, yaranmış şəraitdə İnterpolun iştirakı nizamnamənin 3-cü maddəsi çərçivəsində həll edilməlidir. Çünki terrorizmin motivasiyası əksər hallarda siyasi, dini, etnik və ya hərbi qarşıdurma zəminində yaranır. Bu da öz növbəsində müvafiq terrorizm təzahürlərinin motivlərini formalaşdırır. Təsdiq olunan istisna hallar, ancaq “təmiz kriminal xarakterli” terrorizm təzahürləri təşkil edir ki, onlar törədilən digər transmilli cinayətləri (narkobiznes və ya saxta pul hazırlama) müşayiət etdikdə İnterpolun yurisdiksiyasına aid olunmurdu.

İnterpolun çərçivəsində terrorizmə qarşı yeni yanaşma 1984-cü ildə Lüksemburqda, İnterpolun Baş Məclisində yeni ”Əsas istiqamətlər” adlı proqram təsdiq olunduqdan sonra başlandı. Bu sənəd öz milli əraziləri hüdudlarından kənarda fəaliyyət göstərən terrorçulara qarşı mübarizədə İnterpola müdaxilə etmək imkanı yaratdı. 1987-ci ilin yanvar ayında isə İnterpolun Baş Məclisi tərəfindən xüsusi antiterror qrupu (TE – qrup) yaradıldı.[1]

Terrorizmə qarşı mübarizədə İnterpolun artmaqda olan rolu, əsasən, terrorçuların ekstradisiyası ilə şərtlənir. Bu baxımdan, terrorizmə qarşı mübarizədə İnterpolun rolu əsasən terror hərəkətləri ilə əlaqədar olan şəxslərin ekstradisiyası imkanları çərçivəsində baxıla bilər. Lakin təhlil etdiyimiz problem üzrə, bildiyimiz kimi, özünün fəaliyyətində İnterpol ilk növbədə BMT-nin beynəlxalq terrorizmə qarşı mübarizə məsələləri ilə əsas qərarları, o cümlədən beynəlxalq konvensiyaları rəhbər tutur.

XXI əsrdə beynəlxalq cinayətlərin sülh əleyhinə, insanlıq əleyhinə mübarizə növlərinin sırasına, uzun illər ərzində beynəlxalq xarakterli cinayətlər kimi, qiymətləndirilən əməllər – narkotik vasitələrin qanunsuz dövriyyəsi, korrupsiya, transmilli mütəşəkkil cinayətkarlıq, terrorçuluq da əlavə olunmaqla, bəşəriyyətə, beynəlxalq birliyə ciddi ziyan vurur. Müasir dövrdə dinindən, dilindən, coğrafi mövqeyindən, ərazisinin böyük-kiçikliyindən, əhalisinin sayından, iqtisadi qüdrətindən asılı olmayaraq, istənilən dövlət terror “dağıntısının”, terrorçuluğun vurduğu maddi və mənəvi ziyanın təhlü-

[1] Бреслер Ф. Интерпол. Москва: 1996, с.78.

kəsini daim öz üzərində hiss etməkdədir. Hətta bununla bağlı elmi araşdırmalarda müxtəlif fikirlər səslənməkdədir. Bununla belə, istənilən halda onun ayrı təzahür formaları hüquqa zidd, ictimai təhlükəli əməl kimi qiymətləndirilməlidir.[1]

Bəzi rus alimlərinin (M.Krenko) fikrincə, "heç bir qanuni mübarizə terrorçuluq aktının həyata keçirilməsinə bəraət ola bilməz". Eyni zamanda hesab edilir ki, terrorçuluq hadisəyə qeyri-ixtiyari reaksiya deyil, öncədən planlaşdırılmış və müxtəlifliyi özündə ifadə edən hərəkətdir. Bu sahədə digər tədqiqatçı M.İ.Kastenko isə göstərir ki, "terror aktları, metodları və təcrübəsi BMT-nin məqsəd və prinsiplərinin ciddi şəkildə pozulması, beynəlxalq sülh və təhlükə yaratması, dövlətlər arasında dostluq münasibətlərini təhdid altında qoyması, eləcə də insan hüquqları, əsas azadlıqları və cəmiyyətin demokratik əsaslarının məhvi ilə xarakterizə olunur". M.S.Beqlovaya görə isə, "terrorçuluq terrorçuların maraqları naminə hər hansı qərarın qəbulu və ondan imtina məqsədilə əhalinin və ya sosial qrupun qorxudulmasına yönəlmiş ümumtəhlükəli hərəkətin törədilməsidir".

Bir sıra Qərb alimləri həmin elementlərə isə qurbanların beynəlxalq, regional və ikitərəfli səviyyədə effektiv tədbirlərin işlənib, hazırlanmasının zəruriliyi öz əksini tapmışdır.

Eyni zamanda həmin sənəddə dövlətlər tərəfindən verilmə (təslim etmə) haqqında beynəlxalq müqavilələrin işlənib hazırlanması və səmərəli şəkildə həyata keçirilməsinə səy göstərməsinə dair müddəa da təsbit olunmuşdur.

Bununla yanaşı, müxtəlif beynəlxalq təşkilatlar tərəfindən terrorçuluqla, eləcə də onun müxtəlif aspektləri ilə mübarizəyə yönəlmiş çoxsaylı beynəlxalq hüquqi sənədlər qəbul edilmişdir. Nümunə qismində BMT-nin 1997-ci il "Bomba terrorçuluğu ilə mübarizə haqqında" beynəlxalq konvensiyası, "Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə haqqında" 1999-cu il konvensiyası, "Terrorçuluqla mübarizə haqqında" 2001-ci il Şanxay konvensiyası, "Terrorçuluqla mübarizə haqqında" 1998-ci il Ərəb konvensiyası, İslam Konfransı Təşkilatı tərəfindən qəbul edilmiş "Beynəlxalq terrorçuluqla mübarizə haqqında" 1999-cu il konvensiyası, "Terrorçuluğun qarşısının alınması və onunla mübarizə üzrə" Afrika İttifaqı Təşkilatının 1999-cu il konvensiyası da təsbit olunmuşdur.[2]

MDB çərçivəsində cinayətkarlıqla mübarizənin bir qolunu terrorizmlə

---

[1] Aslanov E.Z. İnterpol və BMT-nin Təhlükəsizlik Şurası tərəfindən birgə nəşr olunan xüsusi istiqamətləndirmələr // Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumat bülleteni, №4, 2010, s.43.

[2] Əliyev Ə. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: 2007, s.70-71.

mübarizə təşkil edir. Belə ki, 2001-ci ildə yaranmış MDB Antiterror mərkəzi, MDB-nin ixtisaslaşmış orqanı kimi, daimi əsasda fəaliyyət göstərir.

Cinayətkarlıqla beynəlxalq mübarizə sayəsində MDB çərçivəsində bir sıra beynəlxalq sənədlər qəbul edilmişdir. Məsələn, iqtisadi sahədə cinayətlərlə mübarizədə əməkdaşlıq haqqında saziş (Moskva, 12 aprel, 1996-cı il), MDB-yə üzv dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıq və digər növ cinayətlərlə mübarizə üzrə birgə tədbirlər haqqında qərar (Moskva, 12 mart, 1993-cü il) . MDB-yə üzv dövlətlərin cinayətkarlıqla mübarizə üzrə 25 noyabr 1998-ci il sazişi, MDB-yə üzv dövlətlərin terrorizmlə mübarizə üzrə əməkdaşlıq haqqında 4 iyun 1999-cu il müqaviləsi, "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 7 oktyabr, 2002-ci il Kişinyov konvensiyası (Minsk konvensiyasını əvəz etmişdir), MDB-yə üzv dövlətlərin ərazisində birgə antiterror tədbirlərinin təşkili və aparılması qaydası haqqında əsasnamənin təsdiq edilməsi haqqında 7 oktyabr 2002-ci il protokolu və s.[1]

Müasir dövrdə terrorçuluqla mübarizəyə yönəlmiş çoxsaylı beynəlxalq mübarizə mexanizmlərinin mövcudluğuna baxmayaraq, həmin sənədlərdə təsbit olunmuş öhdəliklərin icra olunması, həmçinin terrorçuluqda təqsirləndirilən şəxslər barəsində zəruri tədbirlərin görülməsi kimi məsələlər mühüm əhəmiyyət kəsb edir. Bu sahədə İnterpolun fəaliyyəti də xüsusi qeyd edilmişdir. Bunun üçün təşkilatın fəaliyyətində ilk növbədə terrorçuluqla mübarizəyə yönəlmiş norma yaradıcılıq fəaliyyətinə diqqət yetirilməsi daha məqsədə müvafiq olardı.

BMT-dən fərqli olaraq, İnterpol beynəlxalq terrorizmlə mübarizəni təcrübi yollarla (cinayətkarlar barədə informasiyanın verilməsi, cinayətkarların ekstradisiyası və s.) aparır. Belə ki, XX əsrin 80-ci illərindən başlayaraq, İnterpol çərçivəsində terrorçuluq və onun doğurduğu nəticələrə dair bir sıra sənədlər qəbul edilmişdir. Lakin o, belə aktlarla bu və ya digər dərəcədə məşğul olmamışdır. Yuxarıda qeyd edildiyi kimi, 1984-cü ildə İnterpol çərçivəsində yeni yanaşma 1984-cü il Lüksemburqda İnterpolun Baş Assambleyasının növbəti sessiyasında "Əsas istiqamətlər" adlı proqram tətbiq olunduqdan sonra başlandı. 1977-ci ildə "Terrorizmin qarşısının alınması haqqında" Konvensiyasının II maddəsinin əsas kimi götürülməsi qeyd edilmişdir. İnterpol beynəlxalq terrorizmlə mübarizədə BMT-nin qərarlarını da əsas götürür. Əsas prinsiplər BMT-nin cinayətkarlığın qarşısının alınması və hüquq pozuntuları ilə mübarizə üzrə VIII konqresində (1990, Havana) ifadə edilmişdir. Orada qeyd edilir ki, terrorizmin qarşısının alınması üçün beynəlxalq, regional və ikitərəfli səviyyədə effektiv tədbirlər hazırlanmalıdır.

[1] Əliyev Ə. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri, s.167.

1970-ci ildən başlayaraq terrorizm aktlarının sayı artdıqca İnterpol terrorizmlə mübarizədə üsullar tapmağa məcbur oldu. 1980-ci ildə Baş Assambleya tərəfindən qəbul olunan qətnamədə beynəlxalq terrorizmlə mübarizənin İnterpol vasitəsilə aparılması yolları müəyyən edilir. İnterpolun nizamnaməsinin 3-cü maddəsi bu mübarizədə bəzi maneələr yaradır. 1983-cü ildə İnterpolun Baş Assambleyasının 52-ci sessiyasında "Terrorizm" adlı qətnamə qəbul edilir. Həmin qətnamə nizamnamənin 3-cü maddəsinə riayət etməklə, terrorizmlə mübarizədə əməkdaşlığın gücləndirilməsi qeyd edilir. İnterpolun fəaliyyətində nizamnamənin 3-cü maddəsi xüsusi rol oynadığından, 1984-cü ildə Baş Assambleya tərəfindən "Nizamnamənin 3-cü maddəsinin tətbiqi haqqında" xüsusi qətnamə qəbul edilir. Həmin qətnamədən müəyyən olunur ki, İnterpol terrorizmlə yalnız həmin aktlar müvafiq dövlətin cinayət qanunvericiliyində ictimai təhlükəli əməl kimi göstərildikdə mübarizə apara bilər.[1]

V.S.Ovçinski qeyd edirdi ki, terrorizm elə cinayətlərə aiddir ki, burada mövqelər tez-tez siyasi, ideoloji, sosial, milli, dini, etnik və s. xarakterli olur və buna görə də, 3-cü maddə ilə bağlı problemlər ortaya çıxır.[2]

Beynəlxalq polis təşkilatı İnterpolun Baş Assambleyasının 55-ci sessiyasında sabiq Baş katibi R.Kendal çıxışında qeyd edirdi ki, "İnterpol beynəlxalq terrorizmlə ancaq polis səviyyəsində maraqlanır". O, beynəlxalq mübarizə üzrə komissiyada çıxış edərək bildirmişdir ki, İnterpol çərçivəsində beynəlxalq terrorizmlə mübarizə aparılması yolunda heç bir maneə yoxdur. Belə ki, günahsız insanların ölümü və ya əmlakının zorakılıqla məhv edilməsi ağır cinayətdir. Terror aktlarının siyasi şərhi ilə siyasətçilər məşğul olmalıdırlar. İnterpol isə yalnız mübarizənin texniki tərəfi ilə maraqlanmalıdır. R.Kendal həmçinin qeyd etmişdir ki, "İnterpol heç vaxt beynəlxalq terrorizm anlayışının müəyyən edilməsinə cəhd göstərməmişdir. İnterpol bu kimi aktları cinayət hesab edir və həmin aktlara beynəlxalq elementin olmasını müəyyən edir, çünki bu təşkilat yalnız beynəlxalq elementli cinayətlərlə məşğul olur. Buna görə də, İnterpol bütün terrorizm aktları barədə ətraflı məlumatlandırılmalıdır. Bu məqsədlə İnterpol xəbər verilməsinin xüsusi formasını hazırlamışdır".[3]

Yuxarıda qeyd edildiyi kimi, İnterpolun Baş Assambleyası tərəfindən 1984-cü il və 1994-cü il tarixlərində, terrorizmlə mübarizə aparılmasının qə-

---

[1] Ляхов Е.Г., Попов А.В., Терроризм Национальный региональный и международный контроль. Москва-Ростов-на-Дону: 1999. с.324.

[2] Овчинский В.С. Интерпол против терроризма: Сборник международных документов. Москва: 2008, с.324.

[3] Мехтиев Н.Г. Правовые формы международного сотрудничества государств в борьбе с уголовной преступностью. Баку: 2004, с.159-160.

bul edilmiş prinsiplərinə əsasən, əgər terror fəaliyyətinin törədilməsində heç bir siyasi xadim və ya təşkilat fəaliyyəti öz üzərinə götürmüşsə, 3-cü maddədə İnterpol qarşısında heç bir maneə yaratmır. Qeyd ediləcək hüquq pozuntularına münasibətdə nə Baş Katiblik, nə də MMB-lər terrorizmlə mübarizəyə müdaxilə edə bilməzlər: təbiətinə görə siyasi olan pozuntulara, qadağan olunmuş təşkilatda iştirakla bağlı pozuntulara, dövlətdaxili təhlükəsizliyə yönəlmiş pozuntulara və s. görə İnterpolun terrorist fəaliyyəti ilə bağlı vəziyyətlərə müdaxilə etməsi üçün mütləq MMB-nin məlumatlarında terroristlər tərəfindən cinayət xarakterli olması göstərilməlidir. Bununla belə, 3-cü maddədə hətta bu maddənin təsiri altına düşən terrorist aktlarının qarşısının alınması haqqında faktiki informasiyanın yayılmasına maneə yaratmır. Həmçinin 3-cü maddədə üzv dövlətlərə insanların həyatı və onların şəxsi azadlıqlarına ciddi qəsd edən cinayət əməli törətmiş və artıq həmin əmələ görə axtarışda olan terroristlərin axtarışına qadağa qoyulmur. İnterpolun nizamnaməsinin 3-cü maddəsi aşağıdakı hallara aid edilir:

- Həyat əleyhinə və ya insanların fiziki təhlükəsizliyinə yönələn ciddi qəsdlərə;
- Mülkiyyət əleyhinə yönəlmiş ciddi qəsdlərə;
- Mülki aviasiya əleyhinə yönəlmiş qeyri-qanuni hərəkətlərə.

Qeyd olunan prinsiplərdə göstərilir ki, hətta müəyyən dövlətlərin cinayət məcəlləsində cinayət kimi nəzərdə tutulan, lakin təbiətinə görə siyasi, hərbi, dini və ya irqi olan ictimai-təhlükəli əməllərlə mübarizədə İnterpol iştirak edə bilməz. (Məsələn, hakimiyyətin təhqir edilməsi, hərbi qüvvələrdə fərarilik etmək, qadağan edilmiş dini etiqadların yayılması, irqi assosiasiyalara üzv olma və s.). İnterpol tərəfindən 1986-cı ildə qəbul edilmiş "Beynəlxalq terrorizmlə mübarizə üzrə rəhbər başlanğıclarda" mübarizənin bu sahədə 3 əsasa söykəndiyini göstərir:

a) Ancaq dövlət cinayətin siyasi xarakterli olmasını müəyyən edə bilər;
b) Terrorizmin qarşısının alınmasının İnterpol əməkdaşlıq çərçivəsində həyata keçirilməsində heç bir məhdudiyyət qoyulmur;
c) Terrorizmlə mübarizənin təşkilində əsas cinayətkarların məqsədi ilə, qurbanları arasında səbəb-nəticə əlaqələrinin olması və ya olmaması və müvafiq olaraq terror aktlarının törədildiyi yerdir.

İnterpolun dövlətləri ondan bu sahədə koordinasiya vasitəsi kimi istifadə etməyə çağırır. Beynəlxalq terrorizm aktının son illər artım sürəti bunu tələb edir. İnterpolun fəaliyyət mexanizminə diqqət yetirsək görərik ki, cinayətkarlıqla mübarizə aparan heç bir təşkilat onda olan informasiya bazasına malik deyildir. İnterpolun keçən əsrin əvvəllərindən yığılan informasiya toplusu əvəzinə məlumat bazasıdır. Məhz bu sahədə informasiya mübadiləsinin

İnterpol vasitəsi ilə aparılması beynəlxalq terrorizmlə mübarizəni gücləndirmiş olur. Müasir dövrdə bu tendensiya güclənməkdədir.

İnterpolun Baş Assambleyası tərəfindən 1998-ci ildə Qahirə şəhərində keçirilən 67-ci sessiyada qəbul edilən terrorizmlə mübarizə üzrə rəhbər prinsiplərə uyğun olaraq, beynəlxalq əhəmiyyətli terror aktları barədə Baş Katibliyə və üzv dövlətlərin MMB-inə məlumat yerləşdirilmişdir. Bu, aşağıdakı hallara aid edilir:

- Terror təşkilatlarının məqsədi bir neçə dövlətə aid olduqda;
- Cinayət bir dövlətdə bitdikdə;
- Cinayət icraçılarının maddi-texniki təminatı xarici mənbələrdən qidalandıqda, yəni cinayət bir dövlətdə planlaşdırılıb, başqa bir dövlətdə icra edildikdə;
- Cinayətin qurbanları müxtəlif dövlətlərin vətəndaşları və ya beynəlxalq təşkilatda fəaliyyət göstərən insanlar olduqda;
- Cinayətin vurduğu zərər ayrı-ayrı dövlətlərə və ya beynəlxalq təşkilatlara və ya xaricilərin iştirak etdiyi müəssisəyə dəydikdə;
- Cinayətin törədilməsində iştirakı olan bir və ya bir neçə şəxs törədilən yerin (dövlətin) vətəndaşı olmadıqda.[1]

Göründüyü kimi, İnterpol yalnız birdən çox dövlətin mənafeyinə zərər vuran terrorizm aktları ilə, ümumiyyətlə, beynəlxalq terrorizmin ayrı-ayrı formaları ilə mübarizə aparır. Ola bilsin ki, törədilən cinayət ancaq bir dövlətə ziyan vursun, lakin bu kimi hallarda da "beynəlxalq element" olmalıdır (məsələn, terrorizm aktlarının xarici dövlət vətəndaşı tərəfindən təşkil edilməsi və ya törədilməsi). İnterpolun beynəlxalq terrorizmlə mübarizə tarixinə nəzər yetirsək, onun bu kimi cinayətlərlə daha fəal məşğul olduğunun şahidi olarıq. Bəzi istisnalar olmaqla, artıq İnterpolun nizamnaməsinin 3-cü maddəsinin beynəlxalq terrorizmlə mübarizədə İnterpolun beynəlxalq terrorizmin ayrı-ayrı formalarına sırf ictimai-təhlükəli əməl kimi yanaşır (siyasi cinayət kimi deyil). Digər bir səbəb isə kütləvi və sistematik xarakter olmuşdur.

Müasir dövrümüzdə İnterpol ayrı-ayrı üzv dövlətlərə beynəlxalq terrorizm aktları törətmiş şəxslərin axtarışında və tutulub müvafiq dövlətlərə verilməsində əhəmiyyətli rol oynayır. Digər beynəlxalq təşkilatlar da terrorizmlə mübarizədə öz töhfəsini verməyə çalışır. Bu sahədə öz əməyini əsirgəməyən digər bir regional təşkilat Avropa Şurasıdır. Belə ki, Avropa Şurası çərçivəsində "Terroizmin qarşısının alınması haqqında" Avropa konvensiyası qəbul edilmişdir. Konvensiyaya yalnız Avropa Şurasına üzv olmuş dövlətlər qoşula bilər.

[1] Овчинский В.С. Интерпол. Москва: 2001, с.120-231.

Avropanın regional təşkilatlarından olan ATƏT-in keçirdiyi görüşlərdə "Beynəlxalq terrorizmə bir tövsiyə xarakterli müddəalar" hazırlanır və həmin müddəalar yekun sənədlərində öz əksini tapır. Helsinki, Madrid, Vyana görüşlərinin yekun sənədlərində "Beynəlxalq terrorizm"ə aid siyasi müddəalar vardır. 1989-cu il Vyana görüşünün yekun sənədlərində dövlətlərin beynəlxalq terrorizmlə mübarizədə aşağıdakı öhdəlikləri göstərilir:

- Diplomatik və konsul nümayəndələrinin əleyhinə yönəldilmiş terror aktlarının qarşısını almaq üçün effektiv tədbirlər görmək;
- Bu sahədə mövcud beynəlxalq konvensiyalara üzv olmaq məsələsinə baxmaq;
- Terroristlərin tələblərinə cavab olaraq, möhkəm siyasət həyata keçirmək.[1]

ATƏT-in İstanbul görüşünün yekun sənədlərində də beynəlxalq terrorizmə dair müddəalar vardır. Orada deyilir ki, beynəlxalq terrorizm, ekstremizm, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qanunsuz ticarəti daha təhlükəli xarakter alır. Terrorizm onun bütün forma və təzahürləri motivindən asılı olmayaraq qəbuledilməz olduğu göstərilir. Dövlətin bu sahədə öz səylərini daha da gücləndirməsi və terroristlərə heç bir sığınacaq hüququnun verilməməsini diqqətə çatdırır. Yekun sənədin "Polis funksiyaları ilə əlaqədar olan fəaliyyət" adlı hissəsi terrorizmlə mübarizə tədbirlərinin gücləndirilməsini diqqətə çatdırır.

Regional səviyyədə terrorizm məsələsi ilə, həmçinin regional təhlükəsizlik təşkilatları (Amerika Dövlətləri Təşkilatı, Afrika Birliyi Təşkilatı) məşğul olur. Universal səviyyədə isə BMT ilə yanaşı, onun bir sıra ixtisaslaşmış təşkilatları – Mülkü Aviasiya Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik Beynəlxalq cinayət polisi təşkilatı İnterpolla qarşılıqlı əməkdaşlıq şəraitində birgə mübarizə aparırlar.

Yuxarıda göstərildiyi kimi, qeyd olunan ictimai əməllə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın yeni mərhələsi sayılan, 2001-ci ilin sentyabr ayının 11-də ABŞ-da baş vermiş terror hadisəsi İnterpolun fəaliyyətinə də öz təsirini göstərmişdir. Belə ki, İnterpolun Baş Assambleyasının 28 sentyabr 2001-ci il tarixli "11 sentyabr 2001-ci il terror hücumu barədə" qətnaməsində, terrorçu fəaliyyətlə əlaqədar, şübhəli maliyyə əməliyyatları üzərində davamlı nəzarət sisteminin yaradılmasına dair üzv dövlətlərə yönəlmiş tövsiyə xarakterli normaların tətbiq olunması bunun davamı kimi qiymətləndirilə bilər.

Terrorçuluqla mübarizə sahəsində İnterpolun fəaliyyəti təkcə norma yaradıcılıq istiqamətində deyil, həm də konkret praktik tədbirlərin həyata

[1] ОБСЕ. Стамбульский документ. Стамбул: 1999, с.13.

keçirilməsində də özünü büruzə verir. BMT Təhlükəsizlik Şurasının 1267 saylı qətnaməsinə əsasən, yaradılmış "Əl-Qaidə" və "Taliban"a qarşı Sanksiyalar Komitəsi ilə əməkdaşlıq kontekstində, eləcə də terrorçuluqla mübarizə sahəsində BMT TŞ-nın dəstəyi ilə, 2005-ci ildə İnterpolun və BMT-nin TŞ tərəfindən birgə xüsusi istiqamətləndirmələr yaradılmışdır.

İstiqamətlər barədə yuxarıdakı paraqraflarda ətraflı qeyd edilmişdir. Lakin terrorizm cinayəti ilə bağlı istiqamətləndirmələri bir daha qeyd etmək yerinə düşərdi. Belə ki, həmin istiqamətləndirmələr Sanksiyalar Komitəsi tərəfindən hazırlanmış, ümumiləşdirilmiş, siyahıda qeyd olunmuş fiziki və hüquqi şəxslərə münasibətdə nəşr olunur.

İnterpol və BMT-nin TŞ tərəfindən birgə nəşr olunan xüsusi istiqamətləndirmələrin mahiyyəti və məzmununun müəyyən edilməsi üçün ilk növbədə BMT tərəfindən qəbul olunmuş, eləcə də analoji münasibətləri tənzimləyə bilən və oxşar məsələləri özündə əks etdirə bilən beynəlxalq sənədlərə diqqət yetirmək daha məqsədəuyğun olardı.

1267 (1999), 1333 (2000), 1390 (2002), 1455 (2003), 1526 (2004), 1617 (2005), 1735 (2006) və 1822 (2008) saylı qətnamələrə uyğun olaraq BMT TŞ harada olmasından asılı olmayaraq "Əl-Qaidə" və "Taliban" la əlaqəsi olan fərdlər və təsisatlara sanksiyalar müəyyən edir. Həmin şəxslərin adları, doğum tarixi və yeri, vətəndaşlıqları, vəzifələri, müəssisənin adı, ünvanı, həmçinin onlar barəsində digər məlumatlar BMT-nin TŞ-nın Sanksiyalar Komitəsi tərəfindən müəyyənləşdirilən və tətbiq olunan ümumiləşdirilmiş siyahıda öz əksini tapır. Eyni zamanda həmin qətnamələrin bəziləri (məsələn, BMT TŞ 2000-ci il tarixli 1333 saylı qətnaməsi) bütün dövlətlər tərəfindən əlavə tədbirlərin görülməsi ilə bağlı müddəaları özündə birləşdirir.

Sənəddə dövlətin öz ərazisində "Taliban" hərəkatının bütün bölmələrinin təxirə salınmadan və tam şəkildə "Ariana" əfqan aviaşirkətinin bütün hissələrini təcili bağlamağa dair öhdəlik qismində çıxış edən normalar təsbit olunmuşdur.

Ümumilikdə, BMT nizamnaməsinin VII fəslinə əsasən qəbul olunan həmin qətnamələrdə iştirakçı dövlətlər tərəfindən Komitənin siyahısında qeyd olunan şəxs və təsisatlara qarşı aşağıdakı tədbirlərin görülməsinə dair müddəalar mövcuddur:

- Qeyd olunan şəxs və təsisatların pul vəsaitləri, digər maliyyə aktivləri və ya iqtisadi resursların təxirəsalınmaz şəkildə dondurulması ("assets freze");
- Həmin şəxslərin iştirakçı dövlətlərin ərazisinə daxil olması və ya tranzit keçidinin qarşısının alınması ("travel ban");
- İştirakçı dövlətlərin ərazisindən və ya onların vətəndaşları tərəfindən bilavasitə və ya dolayısı ilə silahların və onlarla bağlı bütün növ materialların, ehtiyat hissələrinin təminatı, satışı və ya ötürülməsi, eləcə

də texniki məsləhət və yardımların göstərilməsi, həmçinin hərbi fəaliyyətlə bağlı təlimlərin keçirilməsinin qarşısının alınması (“arms embarqo”).

BMT-nin yuxarıda göstərilmiş qətnamələrinin müddəalarına əsasən, nəşr olunan müvafiq xüsusi istiqamətləndirmə ilə İnterpolun üzv dövlətlərinə yayılmaqla iki əsas və prinsipial funksiyanı yerinə yetirir:

- BMT sanksiyalarının subyekti sayılan, eləcə də hesabları dondurmalı, səfərlərinə qadağa qoyulmalı və onlarla silah satışına embarqo qoymalı olan şəxslərə qarşı milli hüquq-mühafizə orqanlarını ayıq-sayıq olmağa, həmçinin bu məsələni daim nəzarətdə saxlamağa çağırmaq;
- Sanksiyalar Komitəsi tərəfindən hazırlanmış ümumiləşdirilmiş siyahıda mövcud olan məlumatların düzgünlüyünün təmin olunması.

Onu da qeyd etmək yerinə düşərdi ki, BMT TŞ-nın Sanksiyalar Komitəsi tərəfindən, həmin ümumiləşdirilmiş siyahıya müvafiq olaraq, hər il əlavə və düzəlişlər edilir. Bu da diplomatik kanallar vasitəsi ilə üzv dövlətlərə göndərilməklə aidiyyəti dövlət qurumları tərəfindən zəruri tədbirlərin görülməsinə geniş imkanlar açır.

Beləliklə, İnterpol və BMT-nin TŞ tərəfindən birgə nəşr olunan xüsusi istiqamətləndirmələrin mahiyyəti və bununla bağlı təşkilatın üzv-dövlətlərindən tələb olunan fəaliyyət aşağıdakı amillərlə bilavasitə bağlıdır:

1. Hesabların dondurulması;
2. Səfərlərə qadağa qoyulması;
3. Silah satışına embarqo qoyulması.

Bununla belə, qeyd etmək lazımdır ki, müvafiq istiqamətləndirmə heç də ayrıca və mütəşəkkil şəkildə qiymətləndirilməməlidir. Çünki İnterpol və BMT-nin TŞ tərəfindən birgə xüsusi istiqamətləndirmələr nəşr olunan fərdlər barəsində eyni zamanda qırmızı istiqamətləndirmə, bəzi hallarda isə göy və yaşıl istiqamətləndirmələr nəşr olunur. Həmçinin təhlükəli materiallar, ictimai təhlükəsizliyə qarşı yönəlmiş cinayətkar əməllər və fəaliyyəti barədə nəşr olunan narıncı istiqamətin də müvafiq istiqamətləndirmə ilə qarşılıqlı əlaqəsi qeyd olunmalıdır. Yəni İnterpol və BMT-nin TŞ tərəfindən birgə nəşr olunan xüsusi istiqamətləndirmələr Beynəlxalq cinayət polisi təşkilatı İnterpolun Baş Katibliyi tərəfindən nəşr olunan digər istiqamətləndirmələrə (xüsusilə qırmızı istiqamətləndirmələrə) əlavə qismində qiymətləndirməklə, dövlətdən konkret tədbirlərin görülməsini (hesabların dondurulması, səfərlərə qadağa qoyulması, silah satışına embarqo qoyulması) tələb edir. Müvafiq şəxslərin həbs olunması, ekstradisiyası, habelə şəxsin şəxsiyyəti və qanunsuz fəaliyyətinə dair məlumatların əldə olunması və s. barədə sorğuların göndərilməsi və icrası isə Baş Katiblik tərəfindən nəşr olunan digər istiqa-

mətləndirmələr əsasında həyata keçirilir.[1]

Dünyada terrorçu şəbəkə qurumlarının sayının artması və çoxsaylı ağır terror hadisələrinin törədilməsi bütün dünya dövlətlərini narahat etməyə başlamışdır. Ona görə də dünyada terrorizmlə bağlı ən əsas rayonlarda regional layihələr yaradılmış və fəaliyyət göstərir.

Terrorla bağlı yaradılmış layihələr aşağıdakılardır:

1) Al-Qatdah layihəsi (Yaxın Şərq və Şimali Afrika üçün);
2) Amazon layihəsi (Mərkəzi və Cənubi Amerika regionu üçün);
3) Saolon ağac (Şərqi, Qərbi və Cənubi Afrika regionu üçün);
4) Kalkan layihəsi (Mərkəzi və Cənubi Asiya regionu üçün);
5) Nekus layihəsi (Avropa regionu üçün);
6) Sakit layihəsi (Cənubi-Şərqi Asiya və Sakit Okean adaları regionu üçün).

İnterpolun təşəbbüsü ilə terrorizmə qarşı mübarizə məqsədi ilə, Fusion Tagk Forse (FTF) qrupu 2002-ci il tarixində yaradılmış, onun tərkibinə İnterpolun üzvü olan dövlətlərin MMB-dən 240 mütəxəssis cəlb olunmuşdur. FTF qrupunun qarşısında duran məsələlər aşağıdakılardır:

1) Fəal terror qrupları və onların üzvlərini müəyyənləşdirmək;
2)Terrorçu qruplaşmalar barədə olan əməliyyat və kəşfiyyat xarakterli məlumatları İnterpolun üzvü olan dövlətlərə bildirmək və fikir mübadiləsi aparmaq;
3) İnterpola üzv olan dünya dövlətlərinin MMB-ləri arasında terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədi ilə imkanlarını daha da genişləndirmək;
4) İnterpolun üzv olan dövlətlərin regional və qlobal səylərini daha da artırmaq, həmçinin bu məqsədlə "Əl-Qaidə" "Taliban" və Yuqoslaviya üçün beynəlxalq cinayət tribunalı barədə olan terroristlərin siyahısını dəqiqləşdirmək üçün dünyanın beynəlxalq təşkilatları və BMT ilə müqayisə etmək.[2]

Dünyada beynəlxalq terrorizmə qarşı mübarizədə böyük rol oynayan "Kalkan" layihəsinin mənası "şit" deməkdir. 2004-cü il tarixdə İnterpolun Baş Assambleyasının 73-cü sessiyasında Qazaxıstan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyinin təşəbbüsü ilə, BMT-nin qərarı ilə yaradılmış bu layihə ilə ilk dəfə həmin tədbirdə Qazaxıstan DİN-nin rəhbərliyi İnterpolun BMT-nin mütəxəssislərinin iştirakı ilə keçirilmişdir. "Kalkan" layihəsi üzrə keçirilən toplantı Beynəlxalq təşkilat olan BMT-nin Təhlükəsizlik Şu-

[1] Aslanov E.Z. İnterpol və BMT-nin Təhlükəsizlik Şurası tərəfindən birgə nəşr olunan xüsusi istiqamətləndirmələr // Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumat bülleteni, 2010, №4, s.49-50.

[2] http://www.interpol.Inf/crime.areas/Terrorism/Fusion.Tasion-Task.Tase

rasının beynəlxalq terrorizmə qarşı olan xüsusi toplantısıdır.[1]

1 mart 2005-ci il tarixdə Qazaxıstanın Alma-ata şəhərində "Kalkan" layihəsi üzrə müşavirə keçirildi. Bu müşavirədə Azərbaycan, Əfqanıstan, Hindistan, İran, Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, ABŞ, Yunanıstan, Pakistan, Tacikistan, Türkmənistan, Türkiyə, Özbəkistan və Fransa dövlətlərinin DİN-nin və İnterpolun MMB-nin nümayəndələri iştirak edirdilər. Tədbir narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan təşkilatlar tərəfindən terrorçu təşkilatların maliyyələşdirilməsi məsələsinə, dini radikalizm və xarici ölkələrdə olan havadarları tərəfindən onların dəstəklənməsi məsələsinə həsr edilmişdir.[2]

Bir faktı da qeyd etmək yerinə düşərdi ki, beynəlxalq terrorizmin maliyyələşdirilməsi ilə əlaqədar 9 dekabr 1989-cu il tarixdə Nyu-York şəhərində terrorizmin maliyyələşdirilməsi ilə bağlı beynəlxalq konvensiya qəbul edilmişdir. Bundan başqa, BMT-nin TŞ tərəfindən 2001-ci il tarixli 1373 saylı aktda və bununla bağlı başqa hüquqi sənədlərdə ağır cinayətlərin və terrorçuluğun maliyyələşdirilməsi öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, beynəlxalq terrorizm və narkotiklərin qanunsuz dövriyyəsi bir-birləri ilə sıx bağlı olan cinayətlərdir. Onların hər ikisi beynəlxalq ictimaiyyəti hər zaman narahat edib və edir. Bu baxımdan, dünya dövlətlərinin narkotiklərin qanunsuz dövriyyəsi və terrorizmə qarşı birgə əməkdaşlığı böyük əhəmiyyət kəsb edir.

Terrorizmin Mərkəzi Asiya regionunda geniş vüsət almasının özünəməxsus xüsusiyyətləri mövcuddur. Bu, regionda ekstremist təşkilatların mövcud olması, narkotiklərin qanunsuz dövriyyəsi və terrorizmlə bağlıdır. Regionda terrorizm və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əsas yolu dünyanın beynəlxalq təşkilatları, polis qüvvələri və bu işdə marağı olan müəssisə və təşkilatlarla əlaqə yaratmaq, mübarizə aparmaqdan ibarətdir.

1 fevral 2006-cı il tarixdə "Kalkan" layihəsi Azərbaycan Respublikasının Bakı şəhərində keçirilmişdir. İnterpolun Baş Katibliyinin İctimai Təhlükəsizlik və Terrorçuluq üzrə Subdirektorluğunun Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə birgə təşəbbüsü, o cümlədən İnterpolun bir sıra üzv dövlətlərinin rəhbərləri və nümayəndələrinin iştirakı ilə keçirilən tədbir iki gün davam etmişdir. Tədbirin keçirilməsində əsas məqsəd üzv dövlətlərin arasında terrorçuluğa, insan alverinə, mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizəni, axtarışda olan cinayətkarların yerinin müəyyənləşdirilməsi və hərbi sahədə informasiya mübadiləsini genişləndirmək və möhkəmləndirməkdir.

---

[1] http://mvd.ru/news . 21 mart 2004.

[2] http://www.izvestia 2005

Tədbirdə İnterpolun Baş Katibliyinin İctimai Təhlükəsizlik və Terrorçuluq Direktorluğunun, habelə 25 dövlətin terrorçuluqla mübarizə orqanlarının və İnterpolun Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları iştirak etmişlər.[1]

İnterpolun "Kalkan" layihəsi üzrə beynəlxalq terrorizmə qarşı mübarizə məqsədilə 3-cü görüşü 23.07.2007-ci tarixdə Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilmişdir. Həmin tədbirdə Avropa, Asiya, Amerika Birləşmiş Ştatları daxil olmaqla, dünyanın 27 ölkəsinin hüquq-mühafizə orqanlarından 60 nəfər nümayəndə heyəti və İnterpolun nümayəndələri iştirak etmişdir.

Tədbirdə beynəlxalq qlobal terrorizmə qarşı mübarizə məsələsinə baxıldı. Bundan başqa, İraq, Əfqanıstan, Pakistan nümayəndə heyəti ilə görüşən Gürcüstan nümayəndə heyəti onlarla fikir mübadiləsi apardı. Bu beynəlxalq tədbirdə Azərbaycan Respublikasının MMB-nin əməkdaşları da iştirak etmişlər.

Terrorizmlə mübarizə məqsədi ilə yaradılan "Kalkan" layihəsi üzrə 4-cü görüş 20-21 may 2008-ci il tarixində İranın Tehran şəhərində keçirildi. Bu tədbirdə İnterpolun Baş katibi Ronald Nobl, həmçinin dünyanın 186 dövlətindən nümayəndələr iştirak edirdi. Burada beynəlxalq terrorizm ələlxüsus Əfqanıstanda fəaliyyət göstərən "Əl-Qaida" və "Taliban" terrorçularına qarşı İnterpolun üzvü olan ölkələrin birgə əməkdaşlığının böyük əhəmiyyəti vurğulandı. Tədbirdə Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir.[2]

"Kalkan" layihəsi üzrə növbəti görüş 16 iyun 2010-cu il tarixdə Moskvada Demodedovada yerləşən MDB dövlətlərinin antiterror mərkəzində keçirilmişdir. Dünyanın 141 dövlətindən mütəxəssislər iştirak edən bu tədbirdə əsas məsələ dini radikalizmə və Tacikistanda, Əfqanıstanda və Mərkəzi Asiya regionunda fəaliyyət göstərən terrorist qruplaşmalarına qarşı mübarizənin birgə əməkdaşlığına həsr edilmişdir. Bu tədbirdə də Azərbaycan nümayəndələri iştirak etmişdir.[3]

"Kalkan" layihəsinin növbəti görüşü 28/06/2011-ci il tarixdə Düşənbə şəhərində, ATƏT-in Sərhəd İdarəçiliyi Mərkəzində "Asiya plyus", yəni "regionda terrorizm" adı ilə keçirildi. Bu tədbir beynəlxalq terrorizmə, o cümlədən Əfqanıstan və Pakistanda, Mərkəzi və Cənubi Asiyada dini ekstremizmə qarşı birgə əməkdaşlığın vacibliyi məsələsinə həsr olunmuşdur. Bu tədbirdə Mərkəzi və Cənubi Asiyadan 30 ekspert iştirak edirdi.[4]

"Kalkan" layihəsinin növbəti mərhələsi 28 may 2012-ci il tarixdə Qa-

---

[1] www.trend-az 2006.
[2] www.İnterpol.inf.../SG Kalkan İran 2008 052
[3] http://www.cisat.org
[4] http://www.toptj/com/news

zaxıstanın Alma-ata şəhərində keçirildi. Bu tədbirdə 13 dövlət – Azərbaycan, Türkiyə, İraq, Çin, Qırğızıstan, Əfqanıstan, Rusiya Federasiyası, Özbəkistan, Gürcüstan, Pakistan, Tacikistan, İran iştirak etmişdir. Görüşdə əsas məsələ terrorizmin maliyyələşdirilməsinə, narkotiklərin qanunsuz dövriyyəsi, dini radikalizmə qarşı əməkdaşlığın vacibliyinə həsr edilmişdir.

Göstərilən tədbirdə iştirakçılara beynəlxalq terrorizmə qarşı mübarizə məqsədi daşıyan "Qlobal şit" tədbiri, qanunsuz partlayıcı maddələrin hazırlanması, narkotiklərin qanunsuz dövriyyəsi, "Opujen" proyekti ilə əlaqədar fiziki və hüquqi şəxslər tərəfindən beynəlxalq terrorizmin maliyyələşdirilməsi, "Belinik" layihəsi üzrə muzdurlar tərəfindən terrorizmin İraq və Əfqanıstanda dəstəklənməsi, həmçinin "Xamas" layihəsi üzrə xarici ölkə vətəndaşlarının Əfqanıstan və Pakistanda terror fəaliyyətləri ilə bağlı məlumatlar müzakirə edilmişdir.[1]

Beynəlxalq terrorizmə qarşı mübarizə məqsədi ilə, "Kalkan" layihəsindən başqa, digər layihələri də qeyd etmək yerinə düşər:

1. "Hamax" layihəsi 2008-ci ildə, ABŞ-da İnterpolun MMB-si və İnterpolun Baş Katibliyinin təşəbbüsü ilə, Əfqanıstan və Pakistanda yaşayan xarici ölkə vətəndaşlarından terrorçular barəsində məlumat almaq məqsədi ilə yaradılmışdır.
2. "Benlig" layihəsi İraq və Əfqanıstanda Koalisiya qüvvələrinə qarşı döyüşən, xarici ölkələrin vətəndaşları olan muzdurlar haqqında məlumat almaq məqsədilə, İnterpolun Baş Katibliyi və ABŞ-ın MMB-nin təşəbbüsü ilə yaradılmışdır.
3. İnterpolun "Heyger" layihəsi Rusiya Federasiyasının Rostov vilayəti, Rusiyanın MMB-si filialının təşəbbüsü və İnterpolun Baş Katibliyi tərəfindən reaktiv maddələrin oğurlanmasına qarşı yaradılmışdır.
4. İnterpolun "Bada" adlı layihəsi İnterpolun Baş Katibliyinin təşəbbüsü ilə dəniz quldurluğu – "Piratçılığa" qarşı mübarizə məqsədilə yaradılmışdır.
5. "Milenium" layihəsi Beynəlxalq cinayət polisi təşkilatı İnterpolun Baş Katibliyinin və RSFSR MMB-nin təşəbbüsü ilə 1996-cı ildə, keçmiş SSRİ ərazisində Şərqi Avropa regionunda transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədilə yaradılmışdır.
6. "İnvekus" layihəsi İnterpolun Baş Katibliyinin təşəbbüsü ilə, avtomobil oğurluğu ilə mübarizə məqsədilə yaradılmışdır. Bu layihənin əsas məqsədi Mərkəzi Asiya regionunda və qonşu ölkələrdə avtomobil oğurluğu və qaçaqmalçılığına qarşı mübarizə məqsədi daşı-

[1] http://mvd/ru/news

yır. Terrorizmə qarşı mübarizə aparmaq məqsədilə yaradılan "Kalkan" haqqında məlumat mübadiləsi üçün, avtomobil istehsalçıları və hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyətini təmin etməkdən ibarətdir.

7. İnterpolun "Nekus" layihəsi Avropa ərazisində terror təşkilatlarına və onların üzvlərinə qarşı mübarizə məqsədilə yaradılmışdır. Məqsəd layihəyə daxil olan dövlətlərlə beynəlxalq terrorizmə qarşı birgə əməkdaşlıq yaratmaqdan ibarətdir.[1]

Nəticə olaraq bir faktı da qeyd etmək lazımdır: 2006-cı il tarixdə Bakı şəhərində İnterpolun təşəbbüsü ilə keçirilən "Kalkan" layihəsi üzrə tədbirdə İnterpolun Baş Katibliyinin İctimai Təhlükəsizlik və Terrorçuluq üzrə subdirektoru San Mişel Libitan bildirmişdir ki, bütün dünyada "Kalkan" kimi regional layihələrin işə düşməsi İnterpolun ümumdünya səviyyəsində daha faydalı olduğunu göstərir. Əgər 2001-ci ildə İnterpolun məlumat bazasında terrorçuluqla məşğul olan və ya bunda şübhəli bilinən 1500 şəxs haqqında məlumat var idisə, hazırda isə "Kalkan" və digər regional layihələr nəticəsində bu rəqəm 10 mindən çox təşkil edir. Həbslərə gəldikdə isə, əgər 2000-ci ildə İnterpolun yaydığı məlumatlara görə terrorçuluqla bağlı bütün dünyada 1200 nəfər həbs edilmişsə, 2005-ci ilin sonunda belə şəxslərin sayı 4 min nəfər idi.

26-27 iyun 2013-cü il tarixdə Türkiyə Respublikasının İstanbul şəhərində, İnterpolun beynəlxalq terrorizmə qarşı mübarizə layihəsi olan "Kalkan" layihəsi üzrə, növbəti görüş keçirildi. Bu beynəlxalq tədbirdə 32 dövlət iştirak edirdi. Tacikistan, Əfqanıstan, İran, Azərbaycan, Rusiya Federasiyası, Qırğızıstan, ABŞ, Böyük Britaniya, İspaniya, Türkiyə, İtaliya, Niderland, İsveçrə, Braziliya, Hindistan, Səudiyyə Ərəbistanı və s. dövlətlərin MMB-ləri tədbirdə iştirak edirdi.[2]

"Kalkan" layihəsi üzrə növbəti görüş 16-18 sentyabr 2015-ci ildə Türkiyənin İstanbul şəhərində keçirildi. Tədbirdə İnterpolun üzvü olan 35 dövlətdən 90 nümayəndə iştirak edirdi. Burada 4 məsələ müzakirə edildi: 1-ci məsələ axtarışda olan terroristlərin axtarışı, İnterpolun üzvü olan dövlətlərin əməliyyat axtarış fəaliyyətləri 2-ci məsələ polis orqanlarında qabaqcıl forma və metodların əməliyyat fəaliyyətində tətbiqi; 3-cü məsələ beynəlxalq terrorist cinayətkarların hansı forma və metodlardan istifadə etmələri; 4-cü məsələ İnterpolun üzvü olan dövlətlərin MMB-dən terroristlər barəsində olan məlumat mübadiləsi.[3]

---

[1] http://|www.Omsk.net_proyekty_sekretar_atar_ata_interpola

[2] http://www.facebook/com\permalink/php?storjtbid=4810319186450358id4595709107911368substorl-index=0

[3] https://www.fasebook.com\permalink.php?storjfbid=4810319186450357&id=459570910

İnterpolun Baş Assambleyasının 7 noyabr 2014-cü il tarixdə Monakoda keçirilən 83-cü sessiyasında İnterpolun Baş katibi vəzifəsinə alman nümayəndəsi Yurgen Ştok 5 il müddətinə seçilərək, 14 il İnterpolun Baş katibi vəzifəsini icra edən ABŞ nümayəndəsi Ronald Noblu əvəz etmişdir.

İnterpolun Baş katibi Y.Ştok "Foks" xəbər jurnalına verdiyi müsahibəsində qeyd etmişdir ki, terrorizmə qarşı mübarizədə qlobal informasiya şəbəkəsinin yaradılması qaçılmazdır. "Terrorun indiki qədər hələ heç vaxt görünməmiş qlobal ölçüyə gəlib çatması tələb edir ki, İnterpola üzv olan 190 ölkə İnformasiyaları yerləşdikləri qitənin hüdudlarını aşaraq intensiv şəkildə öz aralarında paylaşsınlar" – deyən Yurgen Ştok bildirib ki, "belə olan halda, terrorçuların hərəkət marşrutu və saxta pasportlar barədə məlumatları vaxtında əldə etmək xeyli asanlaşacaq". O, ayrı-ayrı dövlətlərin qlobal miqyas almış bu təhlükəyə qarşı təkbaşına mübarizə aparmaq gücündə olmadığını da qeyd edib.

Üzv dövlətləri İnterpolun mövcud məlumat bankından daha çox istifadə etməyə çağıran Y.Ştok bir sıra ölkələrin bu sahədə əməkdaşlığa ehtiyatla yanaşdığını vurğulayıb. Bəzi dövlətlərin milli qanunvericiliyi və təhlükəsizlik orqanları həssas məlumatların paylanmasına qoyduğu veto, eyni zamanda bir sıra ölkələrin təhlükəsizlik orqanlarının öz "ekskluziv" birliklərini digər ölkələrlə bölüşməkdə maraqlı olmaması vəziyyəti mürəkkəbləşdirir.

Hüquq-mühafizə və təhlükəsizlik orqanları arasında regional və ikitərəfli əməkdaşlığın terrora qarşı mübarizədə yetərli olmadığına diqqət çəkən İnterpol rəhbəri mümkün qədər çox dövlətin iştirakı ilə qlobal informasiya şəbəkəsinin yaradılmasının zəruriliyini qeyd edib.

Bir tarixi faktı da qeyd etmək lazımdır ki, İnterpolun siyahısında erməni faşistlərinin terror təşkilatlarının adı qeyd olunmamışdır. İnterpolla bağlı nə qərb müəlliflərinin, nə də rus müəlliflərinin əsərlərində erməni terror təşkilatlarının adlarına rast gəlinmir. Bütün bunlar bu sahəyə də ikili standartlardan yanaşılmanın bariz nümunəsidir. Ona görə də, bunları nəzərə alaraq, erməni terror təşkilatlarının siyahısını qeyd etmək vacibdir.[1]

*Dünyanın müxtəlif məntəqələrində qanlı aksiyalar törətmiş erməni ter-ror təşkilatlarından biri 1885-ci ildə yaranmış "Armenakan" partiyasıdır.

Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədən bu partiya İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıqda olub.

*"Hnçak" partiyası 1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas

91136&substori-index=0

[1] Seyran Ohanyan, Serj Sarkisyan və Robert Koçaryan Xocalı soyqırımına görə cavab verməlidirlər // Azərbaycan, 2 aprel 2016.

məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaqdır. Partiyanın proqramının 4-cü bəndində göstərilir: "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".

*"Daşnaksütyun" – erməni federativ inqilab partiyası: 1890-cı ildə Tiflisdə yaradılıb. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra "Daşnaksütyun" "türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdir. "Daşnaksütyun" partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur: 1973-cü ildə fəaliyyətə başlamış "Erməni "soyqırımının" intiqamçıları" qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib; Məxfi terror qrupu DRO və onun bölmələri: DRO-8, DRO-88, DRO-888, DRO-8888. Daşnakların bu istiqamətdə fəaliyyəti davam edir.

*"Erməni gizli azadlıq ordusu" (ASOA): 1975-ci ildə Beyrutda yaradılıb. Mənzil-qərargahı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü vardır. Təşkilat fəaliyyətinin ilk 6 ilində dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

*"Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA): 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. ASALA əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın "Əbu Nidal", "Qara sentyabr" kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri ASALA-nın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A.Akopyan 01.08.80-ci ildə "Nyu-York Tayms" qəzetinə verdiyi müsahibədə bildirmişdir: "Bizim düşmənimiz türk rejimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir".

ASALA 1980-ci ilin aprelində birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini Livanda rəsmiləşdirmişlər. Beyrut şəhərində 28.08.1993-cü ildə açıqlanan bəyanatında ASALA "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir.

*"Geqaron": 2001-ci ilin fevralında ASALA tərəfindən yaradılmışdır.

Məqsəd Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.

*"Erməni azadlıq hərəkatı" (AOD): 1991-ci ildə Fransada yaradılıb. Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir.

*"Erməni azadlıq cəbhəsi": 1979-cu ildə yaradılan bu terror təşkilatı ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

*"Orli qrupu": 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

*"Erməni soyqırımı ədalət komandosları": 1972-ci ildə Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı yaradılıb. "Erməni soyqırımı ədalət komandosları"nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

*"Erməni birliyi": 1988-ci ildə Moskvada yaradılmışdır. "ASALA" ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir, Dağlıq Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir.

*"Demokratik cəbhə": ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

*"Apostol": 2001-ci il aprel ayının 29-da, əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan, Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir[1]

“National İnterest” məcmuəsi Vaşinqton üçün dünyanın ən təhlükəli 5 terrorçu qrupunun siyahısını hazırlayıb.

**Birinci yerdə İslam Dövləti təşkilatıdır.** CİA-in ehtimalına görə, onun 31 min döyüşçüsü var. Bu təşkilatın o birilərdən əsas fərqi odur ki, hətta Əl-Qaidanın edə bilmədiyini edir, yəni torpaq tutur, Ərəb dünyasının ortasında xilafət elan edir. İD bunu ən zorakı şəkildə edir. Zorakılıqla bütün mümkün müqavimətin kökünü kəsmək istəyir.

**İkinci yerdə Boko Haramdır.** Nigeriyanın şimal-şərqindən olan bu cihadçı qrup 2011-ci ilin mayından bu günə kimi 6742 adam öldürüb. 2009-cu ildə Abubakr Shekau onun yeni lideri olandan Boko Haram Nigeriya hökumətinə qarşı yalnız bir taktika seçib, o da terrordur.

[1] http://www.bizimyol.Info/news/43830.html

Bu təşkilat nəinki 300 məktəbli qızı qaçırıb, hətta bəzi məktəblərdə şagirdləri diri-diri yandırıblar. Nigeriya ordusu Boko Harama qarşı mübarizəsində bu təşkilata “simpatiyası” olanları da cəzalandırır. Bu vaxt bir çox günahsız adamlar əziyyət çəkir. Bu səbəbdən ABŞ Nigeriya ordusuna bəzi hərbi yardımları dayandırıb.

**Üçüncü yerdə İslam İnqilabi Qvardiyası Korpusudur və ya Qüds qüvvəsidir.** İnqilabi Qvardiyanın xaricdəki əməliyyat bölməsini ABŞ hökuməti “Beynəlxalq terrorçu qruplar” sırasına salmayıb. Ancaq İranın İnqilabi Qvardiyasının bu çox məxfi bölməsi çox effektiv işləyir. O, regionda terrorçu qruplarla əlaqə saxlayır, dəstək verir. Məhz bu səbəbdən Qüds qüvvəsi çox təhlükəlidir.

CİA-in keçmiş əməliyyatçısı “New Yorker” jurnalına bildirib ki, Qüds qüvvəsinin komandiri “Süleymani hazırda Yaxın Şərqdə ən qüdrətli əməliyyatçıdır, onun adını isə heç kim eşitməyib”.

**Haqqani şəbəkəsi siyahıda dördüncüdür.** Əfqanıstanda Amerika qoşunları əleyhinə ən güclü partizan hücumlarını məhz bu qrup təşkil edir. Ən yüksək səviyyədə və ən yaxşı təşkil olunmuş hücumlar Kabildə olur. Əfqanıstanın güclü təhlükəsizlik tədbirlərinə baxmayaraq, hücum təşkil edə bilən bu qrupun gücü təkcə hücumda deyil, həm də aradan çıxmaq bacarığındadır. Bu qrupun ən böyük təhlükəsi isə Talibanın daha geniş hücumlarına şərait yaratmasındadır. Haqqaninin Əfqanıstanın şərqindəki tayfalarla da sıx əlaqəsi var.

Beşinci yerdə Kataib Hizbollahdır. Üzünü qara yaylıqla bağlayıb, gecəyarı gedib adamları tutub-gətirən və işgəncədən sonra başlarına güllə vuranlar kimlərdir? Bu, İD yaraqlıları deyil. Bu, Kataib Hezbollahdır. Kataib Hezbollah 2006-cı ildə İraqda gözətçilik edən ABŞ patrullarını öldürmək üçün yaradılıb. Bağdadın ən qorunan yeri Yaşıl Zonadır. Kataib Hezbollah öz hücumlarını birbaşa Yaşıl Zonada edirdi. İraq Ordusu ağlagəlməz şəkildə dağılandan sonra Kataib Hezbollah daha da güclənib.[1]

**Dünyanın ən varlı terror təşkilatları:**

*İŞİD terrorçu qruplaşması dünyada ən zəngin terror təşkilatıdır.

“Forbes” jurnalının İsrail versiyası İŞİD-in illik gəlirinin təxminən 2 milyard dollar olduğunu açıqlayıb. Jurnalın məlumatına görə, İŞİD terrorçu qruplaşmasının əsas gəlir mənbəyini onlar tərəfindən nəzarət edilən İraqda və Suriyada neft məhsullarının qara bazarda satışı təşkil edir. Neftin barelini

[1] Dünyanın ən varlı terror təşkilatları // http://www.qafqazinfo.az/dunya-6/en-tehlukeli-terror96191\.

25-30 dollara satan İŞİD neft satışından günə 2 milyon dollar qazanır.

İŞİD üçün daha bir gəlirli mənbə İraq və Suriyada arxeoloji abidələrin mənimsənilməsidir. Onları Qərb ölkələrində gizli hərraclarda vasitəçilərlə satdırırlar.

*Dünyanın ən zəngin terror təşkilatlarının reytinqinin qalan iştirakçılarına gəlincə, ikinci yerdə Fələstinin "Həmas" hərəkatı yer alıb.

"Həmas"ın illik gəliri, əsasən Fars körfəzi ölkələri tərəfindən, həmçinin xeyriyyə təşkilatları və fondlar vasitəsilə, sponsor dəstəyinin hesabına formalaşdırılan bir milyard dollar təşkil edir.

*Üçüncü yerdə 600 milyon dollar gəlirlə Kolumbiyanın FARC təşkilatı durur.[1]

Nüfuzlu "Forbes" jurnalı "Dünyanın ən zəngin terror təşkilatları" reytinqini açıqlayıb.

Reytinqə İraq və Suriya ərazilərinin bir qismini ələ keçirmiş "İraq və Şam İslam Dövləti" (İŞİD) terror qruplaşması başçılıq edir. İŞİD-in ildə təqribən 2 milyard dollar gəlir əldə etdiyi deyilir. İŞİD terrorçularının əsas gəlir mənbəyi neftdir. Terror qruplaşması sutkada 30 min barrel neft satır.

Reytinqdə 2-ci yeri Fələstindəki HƏMAS hərəkatı tutur.

Hərəkatın lideri Xalid Məşal dünyanın ən varlı müsəlmanlarından biridir.

Kolumbiyadakı "İnqilabçı Silahlı Qüvvələr" (FARC) 600 milyon dollarlıq varidatla reytinqdə 3-cü yerdədir. Sonrakı yerlərdə "Hizbullah" (500 milyon dollar), "Taliban" (400 milyon dollar), "Əl Qaida" (150 milyon dollar), "İrlandiya Respublika Ordusu" (90 milyon dollar) durur.[2]

"Forbes" jurnalı dünyanın ən varlı terror təşkilatlarının siyahısını açıqlayıb. Statistikaya görə, ilk "10-luq"da İslam mənşəli 8 terror təşkilatı var.

İlk pillədə İraq və Suriyada fəaliyyət göstərən İŞİD-dir. Bu təşkilatın illik gəliri 2 milyard dollardır. İŞİD bu qədər pulu neft satışından qazanır. Gündə təxminən 30 min barel neft satır.

İkinci pillədə illik 1 milyon gəliri olan Fələstinin "Həmas" təşkilatı yer alıb. Bu təşkilat gəlirinin böyük hissəsini Körfəz ölkələrindəki mənbələrdən qazanır. Bəzi Körfəz ölkələri "Həmas"a ayrıca maddi yardım edirlər.

"Forbes"ə görə, təşkilatın lideri Halid Meşal dünyanın ən varlı müsəlmanlarından biridir. Onun Qətər və Misirdəki banklarda milyonlarla dollarının olduğu bildirilir.

---

[1] Dünyanın ən varlı terror təşkilatları // http://www.qafqazinfo.az/dunya-6/en-tehlukeli-terror96191\.

[2] Kolumbiya, Suriya, İraq, İrlandiya, İŞİD, Dövlət, Respublika, Taliban, Terror, https://www.google.az/webhp?sourceid=chrome-instant

Üçüncü pillədə Kolumbiyanın FARC terror təşkilatı yer alıb. Gəliri 600 milyon dollardır.

İranın dəstək verdiyi "Hizbullah" isə dünyanın ən zəngin 4-cü terror təşkilatıdır. Bu təşkilatın illik gəliri 500 min dolları əhatə edir.

Beşinci pillədə 400 milyon dollar gəliri olan Taliban, altıncı yerdə isə 150 milyon dollar gəliri olan "əl-Qaidə" qərarlaşıb.

İrlandiya mənşəli İRA 9-cu yerdədir. Bu təşkilatın 90 milyon dollar pulu var.

Nəticə olaraq demək lazımdır ki, dünyada terrorun qarşısını almaq üçün İnterpolun üzvü olan və üzvü olmayan bütün dövlətlər terrorizmə qarşı birgə mübarizə aparmalıdırlar. Dünyada terrorizmə qarşı mübarizədə ikili standartlara son qoyulmalıdır.

## Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun narkotiklərin qeyri-qanunu ticarətinə qarşı mübarizəsi

Müxtəlif narkotiklərlə qaçaqmalçılıq ticarəti hələ xeyli əvvəl beynəlxalq cinayət sırasına çıxmışdır. Məlumdur ki, heç bir ölkə kütləvi narkotik ticarətinə son qoya bilməz. Bunun üçün müxtəlif ölkələrin səylərinin əlaqələndirilməsi tələb olunur. BMT məhz bu məqsədlə İqtisadi və Sosial Şuranın tərkibində "Narkotik vasitələri üzrə hökumətlərarası komissiya" yaratmışdır. Komissiya narkotik problemi ilə bu və ya digər planda məşğul olur. Ümumdünya Səhiyyə Təşkilatı narkomaniya və onun ağır nəticələri ilə mülahizənin tibbi aspektləri: BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO) – tiryək, hind çətənəsi, kokain plantasiyasının, digər kənd təsərrüfatı mədəni bitkiləri ilə əvəzlənməsi və s.

BMT-nin təşəbbüsü ilə, üzvləri qismində 100-dən artıq dövlətin çıxış etdiyi, "Narkotik vasitələr haqqında" 1961-ci il tarixli vahid konvensiyası və 1971-ci il tarixli "Psixotron əşyalar haqqında" konvensiyası qəbul olunmuşdur. 1988-ci ilin dekabr ayında BMT çərçivəsində "Narkotik vasitələr və psixotrop əşyaların qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə haqqında" konvensiya qəbul olunmuşdur. Bu konvensiyanın icra olunmasında İnterpol fəal iştirak edir.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə İnterpolun diqqət yönəltdiyi əsas layihələrdən biridir. Narkotik maddələrin qanunsuz yayılmasına qarşı yönəlmiş tədbirlərin keçirilməsində İnterpolun özünün Baş Katibliyinin tərkibində kiçik bir qrup olan, 1974-cü ildən bölməyə, 1988-ci ildən şöbəyə, hal-hazırda isə Baş Katiblikdə yaradılmış 3-cü direktorluğun tərkibində "Narkotiklərin qanunsuz dövriyyəsi və mütəşəkkil cina-

yətkarlıq məsələlərində qarşılıqlı fəaliyyət" adlı subdirektorluq fəaliyyət göstərir.

Subdirektorluğun əməkdaşları narkotik maddələrlə ticarət halları haqqında informasiyanın kompleks hesabatını aparır. Söhbət elə cinayətlərdən gedir ki, burada "beynəlxalq elementlər" var və narkotik maddələrin miqdarı müəyyən hüdudu keçir. İnterpolun illik hesabatları beynəlxalq miqyasda qanunsuz narkotik ticarətinin xarakter və həcmi haqqında məlumatları ehtiva edir. Bunlar yalnız qeydə alınmış həbs materiallarına, cinayət, cinayətkarlardan müsadirə edilən narkotiklərə əsaslanır.

İnterpolun Baş Katibliyinin tərkibində 2005-ci ildən, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı məlumat əldə etmək məqsədilə, qrup yaradılmışdır.

2005-ci ildən fəaliyyət göstərən, narkotiklərə qarşı mübarizə aparan İnterpol əməkdaşlarının əsas nəticələri aşağıdakılardır:

- 2003-cü ildə fəaliyyətə başlayan I-24/7 informasiya-kommunikasiya sisteminin köməyi ilə İnterpolun üzvü olan MMB-lərə təcili surətdə ötürülür;
- İnterpolun bütün dünyada fəaliyyət göstərən regional bürolarından narkotik ticarəti barədə əldə edilmiş məlumatlar barədə hesabatlar tələb olunur;
- İnterpolun tərkibində narkotik cinayətkarlıq üzrə və İnterpolun MMB-nin bu növ cinayətkarlıq üzrə fəaliyyət göstərən zabitlərindən əməliyyat məlumatları almaq.

İnterpol, həmçinin, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı, BMT-nin narkotiklər üzrə ixtisaslaşmış qrupları ilə, beynəlxalq təşkilatlarla və digər regional təşkilatlarla qarşılıqlı fəaliyyət göstərərək mübarizə aparır.[1]

İnterpolun Baş Assambleyasının bütün sessiyalarında ayrı-ayrı dövlətlərdə narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə və bu mübarizədə beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunur, bununla bağlı qətnamələr və fəaliyyət proqramları qəbul edilir. Baş Assambleyanın 1999-cu il noyabr ayında Koreyanın paytaxtı Seul şəhərində keçirilən sonuncu sessiyasında da bu problem geniş müzakirə edilmiş, dövlətlərə bəzi tövsiyələr verilmiş və qətnamə qəbul olunmuşdur (AG № /68/PV/4).

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə İnterpolun özünün Baş Katibliyi və milli xidmətləri (Milli Mərkəzi Büroları) də mühüm rol oynayır. Baş Katibliyin tərkibində, yuxarıda deyildiyi kimi, yarımşöbələr fəaliyyət göstərir. Hal-hazırda həmin funksiyanı yerinə yetirən İnterpolun Baş Katibliyinin tərkibində narkotiklərin qanunsuz dövriyyəsi və

[1] Овчинский В.С. Интерпол в вопросах и ответах, с. 174-175.

mütəşəkkil cinayətkarlıq məsələlərini subdirektorluğun əməkdaşları yerinə yetirirlər. Onlar narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı hallar barədə informasiyanın hesabatını aparırlar, bu məlumatlar ümumiləşdirilir və statistik hesabat şəklində çap olunur. Sonra isə Baş Assambleyanın növbəti sessiyasında məlumat əldə etmək üçün üzv dövlətlərə, həmçinin BMT-nin narkotik vasitələr üzrə komissiyasına təqdim edilir. Hesabatda il ərzində bu sahədə baş verən dəyişikliklər haqqında, həmçinin üzv dövlətlərin İnterpolun narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə iştirak fəallığı barədə məlumatlar da verilir. Həmçinin narkotik bitkilərin kütləvi yetişdirildiyi və ya təbii surətdə inkişaf etdiyi yerlər göstərilən xəritələr hazırlayır və onları daima yeniləyir. İnterpolun Baş Katibliyi müntəzəm olaraq narkotik vasitələrin yeni daşınma üsulları və marşrutları barədə ölkələri xəbərdar edir, eyni zamanda bu vasitələrin daşınmasında dəfələrlə iştirak etmiş şəxslər barədə onlara məlumatlar verir.

İnterpolun nəşr etdiyi xülasələrdə narkotik vasitələr üzrə keçmiş yarımşöbənin və hal-hazırda fəaliyyət göstərən subdirektorluğun fəaliyyəti dörd istiqamət üzrə müəyyənləşdirilir:

1. Əməliyyatda iştirak narkotik vasitə alverçilərinin konkret qrupunun fəaliyyəti barədə məlumat verilməsi və həmin fəaliyyətin qarşısını alınmasına yönələn real iş əsasında üzv dövlətlərin sorğularına cavab verilməsidir;
2. Kəşfiyyat (İntelligence) narkotik vasitə alverçilərinin, kuryerlərin, topdan və pərakəndə satıcıların, cinayətkar birliklərin iştirakçılarının tutulması, eləcə də narkotik və psixotrop maddələrin müsadirəsi, onların ənənəvi becərilmə və istehsal etmə yerlərindən aparılmasının yeni marşrutlarının və bu zaman istifadə olunan müxtəlif üsulların və s. aşkar edilməsinə dair ayrı-ayrı ölkələrdən daxil olan məlumatların hərtərəfli təhlilidir;
3. Mövcud problemi müxtəlif istiqamətlərdə tədqiq edən, narkomanizmlə mübarizə aparan digər beynəlxalq və regional təşkilatlarla əlaqələrin saxlanması.

İnterpolun Baş Katibliyində narkotik bitkilərin narkotik vasitələrin kütləvi istehsal olunduğu yerlərin işarələndirildiyi Atlaslar tərtib edilmişdir. Baş verən hər bir dəyişiklik dərhal burada öz əksini tapır. Bu Atlaslarda narkotik vasitələrin tranzit daşınması yolları əks olunur. Ənənəvi tranzit yolları (Yaxın Şərqdən, Türkiyədən Avropaya gedən yollar) ilə yanaşı, yeni meydana çıxan marşrutlar da qeydə alınır. Texnikanın son nailiyyətlərindən və çoxəsrlik təcrübədən istifadə, narkotik vasitə alverçilərinin hiyləgərlikləri, ölçüsü və həcminə görə, çox kiçik olan narkotik yüklərinin ustalıqla düşünülmüş gizlədilmə üsulları, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə müba-

rizəni çətinləşdirir. Narkotiklərin ötürülməsinin ən qeyri-adi gözlənilməz üsulları ilə rastlaşan İnterpol bu yenilikləri daim tədqiq edir, üzv ölkələri meydana çıxan yeni üsullar barədə məlumatlandırır. Interpolun Baş Katibliyi narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində törədilmiş qeyri-adi cinayət işlərinin açılması zamanı götürülmüş maraqlı eksponatları toplayır.

İnterpolun üzvü olan dövlətlərdə fəaliyyət göstərən MMB öz aralarında da operativ əməkdaşlıq həyata keçirir. Məhz MMB-lər arasında aparılan operativ məlumat mübadiləsi narkotik vasitələrlə regional və ya qlobal miqyasda həyata keçirilən qeyri-qanuni əməliyyatın aşkar edilməsinə, qarşısının alınmasına və bu əməliyyatları həyata keçirən şəxslərin yaxalanmasına şərait yaradır.[1]

Yuxarıda qeyd edildiyi kimi, İnterpol BMT-nin narkotik vasitələr üzrə komissiyası və narkotik vasitələr üzərində nəzarət üzrə beynəlxalq komitəsi ilə əməkdaşlıq edir, BMT-nin narkotik vasitələrə nəzarət üzrə beynəlxalq proqramının (YUNDKP) həyata keçirilməsində fəallıq göstərir. 1966-cı ildən başlayaraq, İnterpol BMT-nin narkotik vasitələr üzrə komissiyasına müsadirə edilmiş narkotik vasitələrin hər bir növü üzrə onların həcmi və buna aidiyyəti olan şəxslər barədə məlumatlar verir. Bu məlumatları BMT öz illik hesabatlarına daxil edir. İnterpolun Baş katibi narkotik vasitələrin hazırlandığı laboratoriyalar, onların hazırlanma üsulları, yeni meydana çıxan narkotik vasitə növləri barəsində üzv ölkələri mütəmadi olaraq məlumatlandırır və öz növbəsində həmin ölkələrdəki MMB-lərin vasitəçiliyi ilə onların ərazilərində narkotiklərin qanunsuz dövriyyəsi sahəsində edilən cinayətlərlə mübarizə tədbirləri, bu sahədə tətbiq edilən qanunvericilik və narkomanların müalicə üsulları barədə sorğular göndərilir. İnterpolun narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə iştirakının əsaslandığı əsas sənədlərdən biri olan, 1988-ci il tarixli konvensiyada göstərilir ki, onu imzalayan dövlətlər, narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə əlaqədar, cinayətlərin istintaqında, cinayətin təqibində və məhkəmə araşdırmalarında bir-birinə qarşılıqlı hüquqi yardım göstərməlidirlər. Konvensiyaya müvafiq olaraq, qarşılıqlı hüquqi yardım aşağıdakı məqsədlər üçün edilir:

- Sübutların və ya ifadələrin toplanması;
- Məhkəmə araşdırması materialları ilə tanış olmaq;
- Həbs etmə və axtarışın keçirilməsi;
- Predmetlərin və hadisə yerlərinin müayinəsi;

[1] Бельсон Р.М. Международная организация уголовной полиции – Интерпол. Учеб. Пособие, с.42-43.

- Məlumatların və sübutedici predmetlərin verilməsi;
- Bank, maliyyə, firma və ya kommersiya sənədləri də daxil olmaqla, müvafiq sənəd və materialların əslinin və ya etibarlı surətlərinin verilməsi;
- Sübut etmə məqsədləri üçün gəlirlərin, mülkiyyətdə olan əmlakların, vasitələrin, digər əşyaların müəyyən və aşkar edilməsi.

Konvensiyaya əsasən, İnterpol vasitəsi ilə hüquqi yardımın göstərilməsi barədə xahişlərin və ona aid olan istənilən məlumatların ötürülməsi fövqəladə hallarda həyata keçirilir. [1]

Yeri gəlmişkən, narkomaniyaya qarşı mübarizə məqsədi ilə İnterpolun narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizəsi barədə bir neçə faktı və bununla bağlı İnterpolun həyata keçirdiyi layihələri qeyd etmək yerinə düşərdi.

İnterpolun məlumatına görə, son illərdə Yer kürəsinin 150 milyon nəfərindən hərəsi azı bir dəfə marixuananın, 38 milyona yaxın adam isə sintetik narkotik maddələrin dadına baxır. Beş milyondan çox 12-17 yaşlı amerikalı yeniyetmə bir saat, on milyon yetkinlik yaşına çatmamış amerikalı (ABŞ əhalisinin bu yaş kateqoriyasından olan 40%-i) bir gün ərzində marixuana tapıb ala bilər. Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin apardığı tədqiqatlara görə isə, ümumiyyətlə, dünyada 17 milyon nəfər heroin, 15 milyon nəfər kokain, 162 min nəfər marixuana, 200 min nəfər isə sintetik narkotik vasitələr qəbul edir. Əgər nəzərə alsaq ki, cəmi 8 il əvvəl narkotiklərin qanunsuz dövriyyəsi dünya üzrə 300 milyard, Rusiya Federasiyası DİN-nin rəsmi məlumatına görə isə, təkcə Rusiyada 9,5 milyon manat, təqribən 1,5 ABŞ dolları təşkil etmişdir, onda narkotiklərin qanunsuz dövriyyəsinin sürəti və miqyası haqqında müəyyən təşəbbüs əldə etmək olar. [2]

5 iyul 2013-cü ildə İnterpolun yerli polislə birgə Mərkəzi Amerika ölkələri və Karib adalarında keçirdiyi xüsusi əməliyyat zamanı 822 milyon ABŞ dolları məbləğində, 30 tondan artıq narkotik maddə müsadirə edilmişdir. Bu sahədə Avropa İqtisadi Polisinə istinadən "Assoşieyted Press" agentliyi xəbər verir.

Məlumata görə, reydlər zamanı 142 nəfər həbs, qanunsuz yüklərin daşınması üçün nəzərdə tutulmuş 15 qayıq müsadirə olunmuşdur. Kokain, heroin və marixuanadan əlavə, polislər 8 ton rakursa, 42 silah və 170 min dollar müsadirə etmişlər. Əməliyyatda regionun 34 ölkəsindən olan polis əməkdaşları iştirak etmişlər. Rəhbərliyi isə İnterpol və Avropol həyata keçirmiş-

---

[1] Məmmədova M. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə İnterpolun fəaliyyəti // Hüquqi dövlət və qanun. 2001, s. 38.

[2] Nağıyev R. Narkomaniya və narkotiklərin yayılmasının başlıca səbəb və amilləri // Hüquqi dövlət və qanun, s.13.

dir. BMT-nin verdiyi xəbərə görə, narkotiklər Avropaya əsasən dəniz yolları ilə gətirilir. Dünyada satılan kokainin əsas hissəsi Kolumbiyada istehsal olunur.[1]

2008-ci il dekabrın 8-də Qazaxıstanın Alma-ata şəhərində narkomaniya ilə bağlı, İnterpolun iştirakı ilə, 5-ci görüş keçirildi. Bu görüşdə Avstriya, Pakistan, Kanada, ABŞ, Almaniya, Azərbaycanda İnterpolun MMB-nin əməkdaşları iştirak etmişlər. Burada narkotiklərin qanunsuz dövriyyəsinə qarşı (YARİKS) Beynəlxalq Araşdırmalar Mərkəzi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni gücləndirmək məqsədilə, dövlətlər arasında informasiya mübadiləsini genişləndirməyi tövsiyə etmişdir.

Bundan başqa “Narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə” – “Nomak” adlı layihə narkotik vasitələrin və psixotrop vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məqsədilə yaradılan, İnterpolun ən mühüm layihələrindən biridir. Bu layihə ilə bağlı bir faktı qeyd edək: 26 və 27 avqust 2008-ci ildə İran İslam Respublikasının Tehran şəhərində, İnterpolun narkomaniyaya qarşı mübarizə ilə əlaqədar keçirilən konfransda beynəlxalq “Nomak” layihəsinin iştirakçısı olan dövlətlərin nümayəndələri və İnterpolun Baş katibliyinin əməkdaşları iştirak etmişlər, Tədbirə Asiya, Yaxın Şərq, Avropa regionunun İnterpol əməkdaşları da qatılmışlar.

“Namok” layihəsi ilə bağlı Tehran konfransının əsas məqsədi aşağıdakılar olmuşdur:

- İnterpolun MMB-nın üzvü olan dövlətlərin nəzərinə narkomaniya və heroin alverinə qarşı mübarizənin daha da gücləndirilməsini çatdırmaq;
- Narkomaniya və heroin alverinə qarşı informasiya müharibəsini aparmaq;
- İnterpolun üzvü olan dövlətlər arasında narkomaniya və heroin cinayətkarlığına qarşı apardıqları əməliyyatlar barədə ümumi koordinasiya yaratmaq.

Konfransın iştirakçıları öz ölkələrində narkotik maddələrlə bağlı vəziyyət barədə məruzələr təqdim etdilər. Məruzələrin əsas mövzuları:

-Kokain və digər narkotik maddələrin külli miqdarda reallaşdırılması;
- Cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması və Əfqanıstan və digər qonşu ölkələrdən gələn maddi gəlirlərin monitorinqi;
- Mərkəzi Asiya regionunda heroinin qanunsuz istehsal və daşınması əldə edilməsi yollarını müəyyən etmək;
- Məlumat mübadiləsi mexanizmini və beynəlxalq cinayət anlayışlarını həyata keçirmə problemləri;

[1] Mərkəzi Amerikada 800 milyon dollarlıq narkotik müsadirə edildi // Azərbaycan, 2013, 5 iyul, №144 (6419).

- Mərkəzi Asiyada heroin istehsalı və dövriyyəsinin yeni istiqamətlərini müəyyən etmək olmuşdur.

Nəticə olaraq, İnterpolun "Nomak" layihəsinin əsas məqsədi Mərkəzi Asiya regionunda, narkomaniya və heroin alverinə qarşı mübarizə məqsədilə, beynəlxalq əməkdaşlığı, daşınan narkotik maddələrin şimal marşrutu olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Rusiya, Özbəkistan, həmçinin Əfqanıstan və qonşu İran və Pakistan marşrutları üzrə mübarizəni gücləndirməkdən ibarətdir.[1]

İnterpolun böyük layihələrindən biri də 2009-cu ildə Qərbi Afrikada yaradılan "WhiteriW" layihəsidir.

Qərbi Afrikada, İnterpolun Baş Katibliyinin təşəbbüsü ilə Cənubi Amerika və Cənubi Afrikada kokain alverinə qarşı mübarizə məqsədilə, "CoCaf" layihəsi yaradılmışdır.

Bundan başqa, Beynəlxalq Araşdırmalar Mərkəzinin verdiyi məlumata görə, əsas diqqət ABŞ-ın, AFR-in, Finlandiyanın və İnterpolun təqdim etdiyi materiallara yönəlmişdir.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı yaradılan bu mərkəzdə qeyd edilmişdir ki, mərkəzdə Əfqanıstanın Kabil şəhəri "YARİKS" üzrə təşkilatlar arasında əlaqələndirici funksiyanı yerinə yetirir. Kollektiv təhlükəsizlik məqsədilə, Azərbaycan, Türkiyə, Türkmənistan və Özbəkistan da 22 mart 2009-cu ildən bu layihənin iştirakçılarıdırlar.

"YARİKS" layihəsinin əsas məqsədi yuxarıda göstərilən beynəlxalq təşkilatlar və dövlətlər arasında narkotiklərin dövriyyəsinə və onu həyata keçirən cinayətkarlara qarşı mübarizə aparmaqdan ibarətdir. [2]

17-19 sentyabr 2012-ci il tarixdə İordaniya Krallığında Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun 21-ci Asiya regional konfransı keçirildi. 43 dövlətin iştirakı ilə keçirilən həmin konfransda, Azərbaycan Respublikasında İnterpolun MMB-nin nümayəndələri də daxil olmaqla, Beynəlxalq təşkilatlar olan YNP, BMT, Beynəlxalq Gömrük Təşkilatı (Asianpol), Asiya Polis Təşkilatı nümayəndələri də iştirak edirdilər.

İnterpolun sabiq Baş katibi Ronald Nobl qeyd etmişdir ki, Asiya regionunda dünya əhalisinin yarıdan çoxu yerləşir, təəssüf ki, cinayətkarların və onların qeyri-qanuni fəaliyyəti üçün Asiya qitəsində münbit şərait vardır.

Konfransda "Transmilli cinayətkarlığa qarşı mübarizə" layihəsində, Asiya regionunda olan xüsusiyyətlər nəzərə alınaraq, xüsusi diqqət transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində İnterpolun səmərəliliyinin artırılması üçün ən münasib yolları, terrorizm və onun maliyyələşdirilməsi, və

---

[1] http://WWW.caricc.orq\indeex.php\ru\qlavnaya
[2] http://news.qazeta.KZ

narkotik alverinə qarşı mübarizə aspektləri müzakirə edilmişdir. İştirakçılar regional polis əməkdaşlığı platformalarını Ərəb universiteti və Asianpolla əməkdaşlığı inkişaf etdirmək barədə İnterpolun Baş katibinin səylərini dəstəklədilər.[1]

Nəticə olaraq qeyd etmək lazımdır ki, beynəlxalq cinayətlər arasında narkomaniya artıq birinci yerdədir. Bu cinayət artıq saxta pulları geridə qoymuşdur. Hətta on illər bundan əvvəl Amerika sosioloqları və həkimləri narkomaniya barədə narahatlıqlarını bildirmişdilər.

Dünyanın mötəbər təşkilatı olan BMT-nin 1985-ci ilin məlumatına görə, 48 milyon adam tibb müəssisələrində narkoman kimi qeydə alınmışdır. 1987-ci ildə BMT-nin Vyana şəhərində keçirdiyi konfransda AFR-də 1986-cı ildə 5084 narkoman qeydə alınmışdır ki, əhali arasında bu xəstəliyə mübtəla olanların 29,7%-ni təşkil edir. [2]

## Saxta pul əskinaslarının qanunsuz hazırlanması və satışına qarşı mübarizədə İnterpolun rolu

Pul nişanlarının saxtalaşdırılması hallarına hələ qədim zamanlardan rast gəlinib. Lakin bunlar primitiv şəkildə olub. XIX xüsusilə XX əsrlərdə dövlət saxtapulçuluğu vüsət alıb. Belə ki, dövlət saxtapulçuluğu ayrı-ayrı ölkələrin öz siyasi rəqiblərinə qarşı iqtisadi mübarizəsi üsullarına çevrilir. Belə saxtakarlığın predmetini digər dövlətlərin pul nişanları təşkil edir. Bu praktika dövlətləri zərərçəkən dövlət üçün iqtisadi böhran yaradan belə hallara qarşı mübarizə üsul və vasitələrinin aşkarlanmasına məcbur edir.

20-ci əsrin ikinci yarısında baş verən belə bir hal məşhurdur. Onda Fransada külli sayda saxta banknotlar aşkar olunurdu. Sonralar məlum oldu ki, onlar gizlicə Almaniyada kansler Q.Ştrezmanın xeyir-duası ilə çap olunub. Saxtakarlıq elə fantastik səviyyədə idi ki, bununla Fransaya böyük iqtisadi ziyan dəyirdi.

Bu iş Fransanı vadar edirdi ki, pul nişanlarının saxtalaşdırılması ilə mübarizə və çoxtərəfli saziş bağlanması haqqında təkliflə Millətlər Cəmiyyətinə müraciət etsin. Mətnin işlənməsində Beynəlxalq cinayət polisi komissiyasının katiblik əməkdaşları iştirak etdilər.

“Pul nişanlarının saxtalaşdırılması ilə mübarizə haqqında” Cenevrə konvensiyası 20 aprel 1929-cu ildə qəbul olundu. Konvensiya saxtapulçuluqla mübarizədə dövlətlərin beynəlxalq əməkdaşlığının siyasəti və praktikasını müəyyən etdi və İnterpolun (o zaman Beynəlxalq cinayət polisi komissiyasının) dövlətlərin beynəlxalq birliyi adından çıxış edən Daimi İşçi Orqan adlandırıldı.

[1] Интерпол-mvd.ru
[2] Die polizzeeli. Keln: 1988, s.190.

Bir faktı da qeyd edək. Yuxarıdakı paraqraflarda qeyd edildiyi kimi, 1935-ci ildən başlayaraq, beynəlxalq cinayət polisi komissiyasının fəaliyyətində yeni bir dövr kimi xarakterizə oluna bilər ki, bu da mənfi istiqamətdə inkişaf etmişdir. Daha dəqiq ifadə etsək, həmin dövrdən XX əsrin 40-cı illərinin ortalarına qədər bu, beynəlxalq qurum faşistlərin tam nəzarəti altında fəaliyyət göstərmişdir. Hətta Vyana şəhərindən Berlinə köçürülməklə gestaponun şöbəsinə çevrilmişdir. Faşist Almaniyası dövründə komissiyanın kartotekasından əsas etibarı ilə siyasi məqsədlər naminə, eləcə də Dünya müharibəsinin iştirakçısı olan başqa dövlətlərə qarşı istifadə edilmişdir. Nümunə qismində, həmin dövrdə keçirilən "Bernxard" əməliyyatını göstərmək olar. Belə ki, İngiltərə iqtisadiyyatının tamamilə çökdürülməsi və məhv edilməsi üçün 630 milyon funt sterlinq, 100 min saxta banknotlar, 46 ədəd hazırlanmış klişe 1963-cü ildə aşkar olunaraq dövriyyədən çıxarılmışdır.[1]

1950-ci il Haaqada keçirilən saxta pul əskinasları məsələləri haqqında III Beynəlxalq Konfrans xüsusi müqavilədə İnterpolun rolunu, bu mühitdə fəaliyyət göstərən vahid ixtisaslaşdırılmış beynəlxalq təşkilat kimi, təsdiq etmişdir. İnterpol mütəmadi olaraq (hər 5 ildən bir) emissiya banklarının nümayəndələri və mərkəzi hökumətin maraqlı şəxslərinin iştirakı ilə konfrans çağırır, saxta pul əskinaslarına qarşı hadisələrin tam hesabatını aparır (bu cür məlumatlar yeni saxtalaşdırmanı tanımaq və üzv dövlətlərə bu haqda xəbərdarlıq göndərmək üçün çox vacibdir).

Saxtakarlıqla mübarizədə İnterpolun fəaliyyətini bir neçə istiqamətdə göstərmək olar:

- Saxtakarlıq hallarının, saxta pul və qiymətli kağızların hazırlanmasının qeydə alınması;
- Dünya ölkələrinin pul sistemində dəyişikliklər haqqında informasiyanın formalaşması və yayılması;
- Qorunma tədbirlərinin işlənməsi məqsədiylə cinayətkarların tətbiq etdikləri saxtalaşdırma üsullarını öyrənmək;
- Milli və beynəlxalq planda saxtakarlıqla mübarizənin hüquqi tənzimi məsələləri üzrə tövsiyələrin işlənməsi;
- Pul əskinaslarının saxtalaşdırılması ilə mübarizədə polisin iş təcrübəsinin ümumiləşdirilməsi və səmərəli metodlarının yayılması;
- Saxta pul nişanlarının yayılmasına qarşı mübarizə sferasında çalışan polis işçilərinin professional səviyyəsinin yüksəldilməsi.

Hər bir qeydə alınmış saxta pul əskinasları haqqında İnterpola üzv

[1] Международная конвенция по борьбе с подделкой денежных знаков от 20.04.1929 // Собрание законов и распоряжений Рабоче-крестьянского Правительства СССР. N6, от 29 марта 1932, с.15.

olan dövlətlərin MMB-nə xəbər verilir. Söhbət yalnız o hallardan gedir ki, orada xarici element mövcuddur. Bir dövlətin ərazisində digər dövlətin pulu kəsilir və ya satılır. Fakt yenidirsə, informasiya G formalı yaşıl blankda göndərilir. İnterpol MMB-dən xahiş edir ki, faktın təsdiqindən başqa, saxta pul əskinaslarının iki-üç nümunəsini də göndərsin. İnterpolun Baş Assambleyasının "Kolleksiya"sında olan analoji saxtakarlıqla müqayisə aparılır.

İnterpolun Parisdəki keçmiş mənzil-qərargahında İnterpolun muzeyi təchiz olunmuşdur. Burada saxta banknotlar, ən müasir və mahir saxta pul kəsənlərin zərərsizləşdirilməsi zamanı müsadirə edilmiş alət və qurğular nümayiş etdirilir.[1]

Saxta pul əskinaslarına qarşı beynəlxalq mübarizə təcrübələri əsasında, İnterpol milli pul vahidlərinin müdafiəsi üçün zəmanətin mükəmməlliyinin tərtibi, müxtəlif ölkələrin polislərinin saxta pul əskinaslarının və başqa ödəniş vasitələrinin açılma dəlillərinin ümumiləşdirilməsi və onların istehsal olunduğu emalatxanaların hazırlanması və satışını tədqiq edərək, ifşası və əşya-dəlil kimi isə tikilməsi ilə məşğuldur.

İnterpolda 10 mindən çox saxta pul əskinasları qeydə alınmışdır. İnterpol mütəxəssisləri 80-ci illərdən başlayaraq dünyada saxta pul kəsilməsinin aşağı düşdüyünü qeyd ediblər. Belə ki, 1979-cu ildə İnterpol 7073 saxtapulçuluq halları haqqında, 1982-ci ildə 6574, 1996-cı ildə 4759 məlumat alıb, yəni 8 ildə enmə 32.8% təşkil edib.

İnterpolun saxtapulçuluqla mübarizə ilə bağlı konkret situasiyada necə hərəkət etdiyini belə bir misalda görmək olar. 1968-ci ildə İnterpolun təxmini məlumatına görə, 100-dən çox saxtapulçular qrupu aşkar olundu. Cinayətkarlar Amerika dollarını və yol çeklərini dünyanın müxtəlif ölkələrinin 26 ən məşhur banklarının siqnaturası ilə saxtalaşdırmışdılar. Təşkilatın mərkəzi Latın Amerikası idi. Formal olaraq isə, İtaliyada yerləşirdi. Saxta dollar və çeklər Avropa, Asiya. Afrikaya gedən satıcı "turistlər" vasitəsilə yayılırdı. Müxtəlif dövrlərdə qrupun üzvlərinə qarşı Argentina, Belçika, İngiltərə, Hindistan, İspaniya, Livan, Meksika, Nigeriya və s. ölkələrin polisləri mübarizə aparırdılar. Lakin onları tam məhv etmək olmadı. Hərəkətlər İnterpolun Baş Katibliyi tərəfindən əlaqələndirildikdən sonra uğur qazandı.

İnterpol ayrı-ayrı ölkələrin polis orqanlarının saxtalaşdırılma faktının aşkar edilməsi üzrə iş təcrübəsini ümumiləşdirdi. 1965-ci ildə İnterpol tədris filmi çəkdi. Burada saxta pul nişanlarının aşkar edilməsi zamanı işin təşkili üzrə polisə metodik tövsiyələr əks olunub, İnterpol mütəxəssisləri bu növ cinayətlərə qarşı mübarizədə müxtəlif ölkələrin polis orqanlarına praktik kömək göstərir.

---

[1] Самарин Б. Интерпол международная организация уголовной полиции. Санкт-Петербург: 2004, с.74.

"Saxtalaşdırma" axınının qarşısının necə alınması məsələsi hər il İnterpolun Baş Assambleyasının sessiyasına daxil edilir və beynəlxalq konfranslarda səsləndirilir. Axırıncı dəfə İnterpolun himayəsi altında 2006-cı ilin mart ayında Madriddə belə bir konfrans keçirildi. Bu beynəlxalq konfransda saxta pul əskinaslarına qarşı mübarizə məsələlərində, İnterpolun Baş Katibliyi yanında mövcud məlumat bankına əlavə olaraq, rəngli kserokopiya maşınlarının eyniləşdirilməsi, mərkəzi məlumat bankının yaradılması qərarı qəbul olunmuşdur.

İnterpolun Baş Katibliyinin tərkibinə ixtisaslaşdırılmış 12 nəfərdən ibarət iki qrup daxildir. Birinci qrup araşdırmaların aparılması, müvafiq sənədlərin hazırlanması və saxta pulla bağlı məsələlərlə, ikinci qrup bülletenlərin hazırlanması və nəşri ilə məşğul olur. İnterpolun əməkdaşlarının fəaliyyətinin yüksəldilməsi və səmərəliyinin artırılması məqsədi ilə, məlumat bazası olan xüsusi kompüter proqramı işlənilib hazırlanmışdır, hansı ki, 40 mindən çox saxta pul əskinaslarının və maliyyə sənədlərinin üzə çıxarılması hadisələrini saxlayır və bunun nəticəsində saxta pulun növünün və əldə olan analoqlar vasitəsilə müqayisəsinin təyinini əsaslı dərəcədə sadələşdirir; saxta pul əskinaslarının müəyyən ərazidə yayılmasına aid məlumatların alınması; əldə olan dəlillərin illər üzrə müqayisəsi.

Saxta pul əskinaslarının aşkarı və müsadirəsi zamanı ölkələrin hüquq-mühafizə orqanları İnterpola müəyyən olunmuş formada radiorabitə və telefaks kanalları vasitəsilə məlumat göndərirlər. Sonrakı mərhələdə Baş Katibliyə daha geniş informasiya göndərilir, hansı ki, katibliyin əməkdaşları qiymətli kağızların saxtalaşdırılmasının yeni metodları haqqında məlumatı işləyib hazırlayaraq, milli xidmətlərə göndərirlər; bu və ya digər ölkələrin hüquq-mühafizə orqanlarına tutulub, təhvil verilməsi üçün yeni cinayətkarlar haqqında məlumatlar; İnterpolun üzvü olan tərəflərə göndərilən məlumatlar həmişə yenilənir, əlavə və düzəlişlər hər ay göndərilir.

İnterpolda saxta pul əskinaslarının eyniləşdirilməsi üçün müəyyən qayda mövcuddur. Belə hesab olunur ki, əgər onlar bir çap formasının istifadəsinə görə eyni xarakterə malikdirlərsə, onda iki və daha çox saxta pul əskinasını bir növə daxil etmək olar. Saxtalaşmanın növünün təyini zamanı onun artıq tanınmış analoqlara aid olduğunu və ya ilk dəfə hazırlandığını müəyyən etmək asandır. Belə eyniləşdirmə milli xidmətlərə saxta əskinasların məişətdə yayılma dərəcəsini, onların yayılma kanallarını, mənşəyini və s. müəyyən etməyə imkan verir.

Orta hesabla hər ay Baş Katiblik saxta pul əskinaslarının ekspertizasının aparılması üçün iştirakçı ölkələrdən çox ərizə alır, laboratoriya mütəxəssisləri isə hər il əskinas və bank çeklərinin mənbəyini, onların saxta olmasını tədqiq etmək üçün 700-800-dən çox tədqiqatlar aparırlar. II Dünya müha-

ribəsindən sonra İnterpol tərəfindən 10 mindən çox pul saxtalaşdırılması qeydə alınmışdır.[1]

Bu cür təhlükəli iqtisadi cinayətlə mübarizənin vacib olduğunu dərk edərək, bir çox illər ərzində İnterpolun Baş Katibliyi məlumat buraxılışı çap edir. Hansı ki, əsas vəzifəsi dünya pul sistemində saxta əskinas və başqa ödəmə vasitələrinin dövriyyəsinin qarşısını almaqdır.

1911-ci ildən "Couterfeits and Forgeries" nəşri İnterpolun himayəsi altında bütün dünyada yayılır və saxta əskinaslara qarşı mübarizəyə xidmət göstərir. İnterpol fəaliyyət göstərdiyi dövrdən İnterpolun himayəsi altında fəaliyyət göstərir. Nəşrin aktuallığı bu 90 il ərzində azalmamışdır. 2000-ci ilin oktyabrında Baş Katibliyin rəsmi nəşriyyatçısı Kessing Reference Systems B.V. Hollandiya nəşr evi Moskvada müəssisə yaradır. Əsas məqsəd MDB ölkələri və Rusiya bazarlarını "Dünya ölkələrinin valyutaları" seriyasından rus dilində məlumat nəşri və həmçinin "Nəqliyyat vasitələrinin sənəd qeydiyyatı" və "Pasportların məlumat kitabları" kimi rus versiyalı İnterpolun başqa nəşrlərinin istehsalı və təchizi olmuşdur.

Bu gün İnterpol saxta pul əskinaslarına qarşı mübarizədə iki əsas istiqamət cızır: beynəlxalq dövriyyəni saxta pul əskinasları ilə təchiz edən mərkəzlərin ləğvi və saxta pul əskinaslarının istehsalı və satışı ilə məşğul olan şəxslərin üzə çıxarılması.

İnterpolun Baş Katibliyinin fikrinə görə saxta pul əskinaslarına qarşı mübarizənin təşkili zamanı polisin rəssamlıq emalatxanaları kağız və boya istehsal edən assosiasiyalarla mütəmadi əlaqələrin yaradılması vacibdir: pul hazırlama texnikasını yaxşı bilən polislərə etibar etmək, müstəntiqlər üçün mütəmadi olaraq mühazirələr oxumaq; əhalini süni pulların xüsusiyyətləri haqqında mümkün qədər tez məlumatlandırmaq; İnterpolun müəyyən ölkələrdəki təşkilatları ilə sıx əlaqə saxlamaq.[2]

İnterpola daxil olmaq bizim ölkə üçün beynəlxalq cinayətkarlığa qarşı mübarizəyə fəal qoşulmağa imkan yaratdı. Bütün dünyanın milli polis xidmətləri İnterpol sistemində birləşərək, cinayətlər haqqında səmərəli xəbərdarlıq və operativ surətdə açılması, cinayətkarların axtarılması və üzə çıxarılması işini apara bilər.[3]

İnterpol səviyyəsində əməkdaşlıq, birinci növbədə cinayətkarlığa qarşı mübarizədə beynəlxalq cəmiyyətin imkan və təcrübəsinin daha fəal və hərtərəfli istifadəsi yolu ilə səmərəliyin artırılması, ikinci növbədə isə cinayət-

[1] Современные тенденции боьрбы с фальшивомонетничеством // http://www/kesiinq.ru

[2] Дайчман Р. Интерпол всемирная система борьбы с преступностью. . Москва: 2003. с.129.

[3] Родионов К.С. Интерпол: год нашего участия // Международная жизнь, 1991, №1275, с. 28.

karlığın qarşısının alınması, xəbərdarlığı və istintaqı zamanı xarici ölkələrin hüquq-mühafizə sistemləri ilə fəal qarşılıqlı əlaqədir. Bu qayda ilə İnterpola daxil olmaq sözsüz ki, vacib bir ölçü kimi baxıla bilər.

Saxta pul əskinaslarının beynəlxalq dərəcədə yayılması dünyanın müxtəlif regionlarında məhdud müharibə, etnik və milli-dini ixtilafların iştirakçıları tərəfindən müdafiə edilir. Saxta pul əskinaslarının fəallaşması dövlətin süqutuna xidmət edir. 1993-cü ilin axırlarında Rusiya ərazisində saxta ABŞ dollarının satışına görə Livan milli-dini qruplaşmanın bir qrup nümayəndəsi tutulub saxlanılmışdır. Onlar Skandinaviya ölkələrinə keçmək üçün Rusiya və Ukraynada fəal surətdə kök salır və qanuniləşirlər.[1]

İnterpola daxil olan ölkələrin MMB-ləri pul əskinaslarının saxtalaşdırılmasına qarşı mübarizənin səmərəliyinin artırılmasına vacib məsələlərdən biri kimi baxır. Onun həllində İnterpolun MMB-si üzərinə böyük vəzifə düşür.

### İncəsənət əsərlərinin və əntiq əşyaların oğurlanması

**İncəsənət əsərləri** dedikdə, məzmunu və forması bədii sənəti əks etdirən və konkret müəlliflər stili xüsusiyyətlərinin özündə ehtiva edən predmetlər nəzərdə tutulur. Çünki onlar fərdilikdən məhrumdurlar. Bu əlamət incəsənət əsərlərini digər bədii predmetdən fərqləndirir. Əntiq əşyalara elə bədii-sənət, məişət predmetləri aid edilir ki, unikallıq əlamətinə görə, çox vaxt kolleksiya obyekti olur. Məhz gözəllik və unikallıq əlamətinə görə bu predmetlər uzun bir dövr yaşayır. Əntiq əşyaların dəyərini artıran mühüm əlamətlərdən biri də yaş əlamətləridir.

Beynəlxalq elementli cinayətlər arasında incəsənət əsərləri və əntiq əşyaların oğurluğu və satışı narkotik ticarətdən sonra Qərbdə ikinci yerə çıxmışdır. İnsan dühasının yaratdığı sərvətləri görmək arzusu ilə yanaşı, bəzilərində onlara sahiblənmək, onları ictimai deyil, şəxsi varidat etmək arzusu olur. Böyük gəlir gətirdiyi üçün onların oğurlanması və yenidən satışı cinayətkarlar üçün çox əlverişlidir. Mədəni dəyərlərin oğurlanması bütün dünya polisi üçün mühüm problemlərdən birini təşkil edir. Incəsənət əsərlərinin və digər dəyərlərin oğurluğu hətta özəl kolleksiyalardan edilsə də, ölkənin bədii sərvətlərinə ziyan vurur. Bu oğurluq hallarının yüksəlməsi, daimi beynəlxalq əməkdaşlığın müəyyən edilməsi və qorunması tələbatını yaradır. Bunlara mədəni dəyərlərin oğurlanması və "daimi qeydiyyat"da olduğu ölkədən çıxarılmasının qarşısının alınması üçün tövsiyələr hazırlayan YUNESKO başçılıq edir. YUNESKO-nun səyi nəticəsində çoxlu ölkələr tərəfindən mədəni dəyərlərin qanunsuz aparılması, gətirilməsi və mülkiyyət hüququna ve-

[1] Ларичева В.Д. Фальшивые деньги (фальшивомонетничество). Москва: 2002, s.58.

rilməsinin qadağası və qarşısının alınmasına yönələn tədbirlər haqqında beynəlxalq konvensiya hazırlanmış və imzalanmışdır.

Mədəni dəyərlərin oğurlanması və qanunsuz surətdə xaricə daşınması ilə mübarizə, onların xaricdə axtarışı sayəsində müxtəlif ölkələrin polislərinin qarşılıqlı əlaqələrinə praktik olaraq İnterpol başçılıq edir.[1]

Bu sahədə Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpol, YUNESKO Beynəlxalq Muzeylər Şurası, müxtəlif ölkələrin gömrük xidmətləri ilə əməkdaşlıq şəraitində işləyir. İnterpol bu təşkilatların incəsənət əsərlərinin oğurluğu və qaçaqmalçılığı ilə mübarizə məsələləri ilə bağlı keçirdikləri müxtəlif konfranslarda, seminarlarda, müşavirələrdə iştirak edir. İnterpol öz üzvləri olan dövlətlərin Milli Mərkəzi Bürolarını muzeylərdə qoruyucu siqnal sistemlərinin müəyyən edilməsinə, muzeylərin dövlət və özəl kolleksiyalarının mühafizəsinin gücləndirilməsinə çağırır. İncəsənət əsərlərinin oğurlanması və qaçaqmalçılığı ilə mübarizənin səmərəli metodu kimi, İnterpol üzv dövlətlərə saxladığı yerdən, yəni dövlət kolleksiyalarında, muzey və şəxsi kolleksiyalarda olmasından asılı olmayaraq, bütün mövcud ədəbi və tarixi sərvətlərin tam qeydiyyatını aparmaq və onların kataloqunu tərtib etməyi təklif edir. Eyni zamanda İnterpol bütün ölkələri incəsənət əsərlərinin alqı-satqısı şərtlərini şərtləşdirməyə, əldə edilən və ya satılan predmetlərə sertifikat qaydalarının tətbiqinə çağırır. Bu predmetlərin qeyri-leqal satışı və ya əldə edilməsini daha da riskli edir.

İnterpol tövsiyə edir ki, daim incəsənət əsərləri və əntiq əşyaların satışı ilə məşğul olan adamlar nəzarət altında saxlanılsın, onların həyata keçirdikləri alqı-satqı əməliyyatları qeydə alınsın.[2]

İnterpol bütün üzv dövlətlərə tövsiyə edir ki, bu tip cinayətlərlə mübarizə aparmaq üçün polis və gömrük qüvvələrinin tərkibində xüsusi xidmət təsis etsinlər. Belə tövsiyələrdən biri də İnterpolun Baş Assambleyasının Nitsa şəhərində 1981-ci ildə keçirilən 50-ci sessiyasında səslənir. Sessiyada qeyd edilib ki, artıq bir sıra ölkələrdə (İtaliya, Fransa, İngiltərə və s.) belə xidmətlər yaradılıb və incəsənət predmetlərinin oğurlanmasına qarşı aktiv surətdə mübarizə aparılır. Bunlardan birincisi 1961-ci ildə Böyük Britaniyada İspan rəssamı Fransisko Qoyyanın "Velinqton Hersoqunun portreti" adlı əsərinin London Milli Qalereyasından oğurlanması zamanı yaradılıb.

Beynəlxalq cinayət polisi təşkilatı İnterpol özü də oğurlanmış və axtarılan incəsənət əsərlərinin fotokartotekasını aparır. Milli Mərkəzi Büroların fotokartotekalarında olduğu kimi, burada da predmet və oğurlanma şəraiti geniş təsvir olunur.

---

[1] Rudzek T. Krodzieze dobr kulturu w police // Problemu krimnalistiki, 1980 q., s.9.

[2] Raquidean S., Martinez H. Levoldesdart // Revue la police Nationale (Paris). 1984, №376, s.38.

Bununla bağlı, ilk növbədə BMT-nin "Cinayətkarlıqla mübarizə və cinayətkarlarla rəftar" üzrə 8-ci konqresində (1990-cı il, Havana) qəbul edilmiş "Xalqların daşınan və böyük dəyərlərə malik olan mədəni sərvətlərinə qəsd edən cinayətlərlə mübarizə haqqında" müqaviləsinə diqqət yetirmək lazımdır.

Müqavilədə qeyd olunmuşdur ki, dini və dünyəvi səviyyələrə görə. arxeologiya, müxtəlif tarixi inkişaf dövrlərinə mənsub olma baxımından, həmçinin tarix, incəsənət və elmi nöqteyi-nəzərdən malik olmasına görə, ixracı üzərində nəzarət qoyulan və müxtəlifkateqoriyalara aid olan predmetlər mədəni sərvətlər hesab olunur. Həmçinin müqaviləyə müvafiq olaraq, hər bir iştirakçı dövlət digər dövlətdə oğurlanmış və ya digər dövlətdən qanunsuz olaraq çıxarılmış qiymətli mədəni sərvətlərin ölkəyə gətirilməsini və ölkədən çıxarılmasını qadağan edən zəruri tədbirlər həyata keçirməlidir.

Tarixi, elmi, bədii və mədəni dəyərə malik olan predmetlərin oğurlanması ilə bağlı cinayətlərin açılması və istintaqı prosesində hüquq-mühafizə orqanları İnterpol kanalları vasitəsiylə aşağıdakı göstərilən məlumatları alırlar:

- beynəlxalq axtarışda olan mədəni sərvətlərin (qiymətli incəsənət əsərləri) haqqında məlumat;
- xarici dövlətlərdə mədəni sərvətlərin (qiymətli incəsənət əsərlərinin) ticarəti ilə məşğul olan firmalar, şirkətlər. təşkilatlar, mağazalar və onların hüquqi ünvanları barədə məlumat;
- konkret incəsənət əsərlərinin auksionlara çıxarılması barədə məlumat; ölkə ərazisində oğurlanmış qiymətli mədəni sərvətlərin, incəsənət əsərlərinin qanunsuz ölkədən çıxarılması şübhə olunarsa və buna kifayət qədər əsas vardırsa, həmçinin konkret qiymətli incəsənət əsərlərinin hansı dövlətə və kimə məxsus olmasını müəyyən etmək lazım gələrsə, şübhəli hallarda hər hansı bir qiymətli incəsənət əsəri aşkar olunarsa, bu hallarda hər bir predmetlə bağlı müvafiq formada İnterpolun MMB-nə məlumat verilir.

Axtarışda olan bu cür qiymətli predmetlər aşkar olunarkən, müvafiq axtarışın ləğv olunması haqqında istiqamətləndirici göndərilməlidir və burada bu məlumatlar göstərilməlidir:

- müvafiq predmetlərin aşkar olunma tarixi, yeri və halları, onun gizlədilmə üsulları;
- bu predmet kimdə aşkar olunmuşsa, bu şəxsin soyadı, adı və atasının adı;
- bu şəxsə qarşı ittihamın irəli sürülməsi haqqında və ya cinayətdə onun rolu barədə məlumat (təşkilatçısı, vasitəçi, icraçı);
- cinayətdə iştirak etmiş şəxslər (bu şəxslərlə əlbir olmuş şəxslər) və onların məhkumluğu haqqında məlumat.

Həmçinin müvafiq istiqamətləndiriciyə bu şəxsin fotoşəkli və əl-barmaq izləri də əlavə olunur.[1]

Kriminogen vəziyyətin gərginliyi və terror təhlükəsinin artdığı müasir şəraitdə məlumatların ötürülməsi, izlənilməsi və verilməsinin operativ hüquqi qaydasının təmin olunması işin vacib şərtidir.

Yuxarıda qeyd olunan məsələlərin həlli ən müasir texnologiyaların tətbiqini həyata keçirmədən, o cümlədən təkcə bir dövlətin deyil, həm də beynəlxalq səviyyədə bir neçə dövlətin hüquq-mühafizə orqanlarının strukturlarını birləşdirən vahid məlumat məkanı yaratmadan qeyri-mümkündür. Məhz bu baxımdan, İnterpolun qlobal polis-kommunikasiya sistemi hüquq-mühafizə orqanlarının beynəlxalq əməkdaşlığı üçün təkmilləşdirilmiş xidmət vasitəsidir.

Qlobal telekommunikasiya sisteminin səhifəsi İnterpolun Baş Katibliyinin polis xidmətləri və məlumat bazasına daxil olmaq üçün xüsusi istiqamət sayılmalıdır. Müvafiq sistem 7 gün 24 saat fəaliyyət göstərir. Hal-hazırda bu sistem, İnterpolun 190 dövlətində hüquq-mühafizə orqanları əməkdaşlarının fəaliyyətini əlaqələndirməklə, cinayət törətmiş şəxslər və cinayətkar fəaliyyət barədə zəruri məlumat mübadiləsinin həyata keçirilməsini təmin edir.

Qlobal telekommunikasiya sistemindən istifadə edən MMB-lər məlumat bazasından başqa beynəlxalq cinayətlərlə yanaşı, oğurlanmış incəsənət əsərlərinin və mədəni sərvətlərin tapılması üçün imkan əldə edir.

Oğurlanmış incəsənət əsərləri ilə bağlı, məlumat bazasında dünyanın istənilən məkanında oğurlanmış incəsənət əsəri və mədəni irsə dair məlumatlar İnterpolun üzv dövlətləri tərəfindən verilmiş informasiya əsasında saxlanılır və zərurət olduğu təqdirdə yerləşdirilir.[2]

Yuxarıda qeyd edildiyi kimi, cinayətin digər növləri ilə yanaşı, mədəni sərvətlərin və incəsənət əsərlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə də İnterpol müəyyən rola malikdir. Mədəni sərvətlərin və incəsənət əsərlərinin qanunsuz dövriyyəsi, o cümlədən oğurlanmış faktların sayı bütün dünya üzrə artmaqdadır. Bu vəziyyətdə İnterpol belə hesab edir ki, mədəni sərvətlərin və incəsənət əsərlərinin qanunsuz dövriyyəsi ilə mübarizənin effektivliyi üçün ilk növbədə bu faktlara, habelə oğurlanmış mədəni sərvətlərin və incəsənət əsərlərinin təsvirinə dair məlumatlar mümkün qədər geniş yayımlanmaqdadır. Ona görə də, oğurlanmış mədəni sərvətlər və incəsənət əsərləri üzrə İnterpolun Baş Katibliyində, yuxarıda qeyd olunduğu kimi, məlumat

[1] Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu (1 sentyabr 2001-ci ilədək olan vəziyyətə görə). Bakı: Elm, 2001, s.5-6.

[2] Quliyev Z.Z. İnterpolun qlobal telekominikasiya sisteminin cinayətkarlıqla mübarizədə hüquq-mübarizə orqanları ücün yaratdığı imkanlar // Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin məlumat bülleteni, 2012, №2, s. 29.

bazası fəaliyyət göstərir. Üzv dövlətlərdə oğurlanmış mədəni sərvətlər və incəsənət əsərləri barədə məlumatlar bu bazaya daxil edilir. Eyni zamanda oğurlanmış mədəni sərvətlər və incəsənət əsərlərinə dair Baş Katiblik tərəfindən beynəlxalq istiqamətləndirmələr nəşr olunur və disk şəklində bütün üzv dövlətlərə yayımlanır. İnterpolun ilk belə istiqamətləndirməsi – "E" seriyalı istiqamətləndirmələr 1947-ci ildə maraqlı tərəfin sorğusu əsasında nəşr olunmuşdur.

"E" seriyalı istiqamətləndirmələri almış MMB-lər:

1) oğurlanmış və ya şübhəli şəraitdə aşkar olunmuş mədəni sərvətlər haqqında məlumatları öz məlumatlar bazasına daxil edir;
2) axtarışda olan predmetlərin və ya onun hər hansı bir hissələrinin, detallarının aşkar olunduğu bütün hallarda dərhal Baş Katibliyi və sorğu etmiş MMB-ləri məlumatlandırır.

Hal-hazırda İnterpolun Baş Katibliyi tərəfindən xüsusi dəyərə malik olan oğurlanmış incəsənət əsərləriylə bağlı, "Xüsusi axtarışda olan incəsənət əsərləri" adı altında ildə iki dəfə xüsusi elanlar da nəşr edilir və hər bir elanda axtarışda olan 6 incəsənət əsəri barədə tam məlumat verilir. Bu elanlar bütün MMB-lərə göndərilir, MMB-lər isə öz növbəsində onları bütün aidiyyəti təşkilatlara çatdırırlar. Mətbuatda və digər kütləvi-informasiya vasitələrində bu elanların yayılmasına xüsusi diqqət yetirilir.

İnterpolun Baş Assambleyanın 1995-ci il oktyabr ayında Pekin şəhərində keçirilən 64-cü sessiyasında təşkilatın üzv dövlətlərinin ünvanına bu sahə üzrə müxtəlif tövsiyələrlə çıxış etmişlər. Onlardan bir neçəsini qeyd etmək yerinə düşərdi:

- xarici ölkələrdə oğurlanmış mədəni sərvətlərin qaytarılması, həmçinin digər ölkələrdən aşkar olunan oğurlanmış mədəni sərvətlərin qəbul edilməsi ilə bağlı, digər ölkələrin qanunvericiliyi nəzərə alınaraq, daha münasib qanunvericiliyin qəbul edilməsinə maksimum səy göstərmək;
- oğurlanmış mədəni sərvətlərin qaytarılması üzrə beynəlxalq qaydaların təkmilləşdirilməsi ilə bağlı digər beynəlxalq institutlar tərəfindən həyata keçirilən səyləri dəstəkləmək;
- cinayət yolu ilə əldə olunmuş və hər hansı bir ölkədə aşkar edilmiş qiymətli əntiq əşyaların sahibinə qaytarılmasında İnterpolun rolu kifayət qədər böyükdür.

MMB-lərin istiqamətləndirmələrinin yayılma texnikası tədricən təkmilləşərək, əvvəlki vərəq şəklindən fərqlənərək, qeyd olunduğu kimi, disk şəklində yayımlanır. Həmin disklərdə ən son vaxtlarda oğurlanmış mədəni sərvətlər və incəsənət əsərlərinə polis və ya digər hüquq-mühafizə orqanları tərəfindən aparılan araşdırmalar və axtarışlar zamanı aşkar olunaraq mənbə-

yi və sahibi məlum olmayan mədəni sərvətlər və incəsənət əsərlərinə dair məlumatlar, habelə bu sərvətlərin və əsərlərin fotoşəkilləri toplanır. Mədəni sərvətlərin və incəsənət əsərlərinin aşkar olunması hallarında ilk növbədə yerli hüquq-mühafizə orqanlarına məlumat verilməlidir[1].

Yuxarıdakılara əsasən, qeyd etmək lazımdır ki, yerli hüquq-mühafizə orqanları tərəfindən bu predmetlərin ölkə ərazisində axtarışı təşkil olunur və xüsusi qeydiyyatlara daxil edilir. Mənbəyi məlum olmayan predmetlər aşkar edildikdə işə, yerli orqanlar ilk növbədə bu predmetləri müvafiq qeydiyyatlardan yoxlamalı və onların ölkə ərazisində oğurlanıb-oğurlanmamasını müəyyənləşdirməlidir. Bu predmetin və onların sahiblərinin ölkə ərazisində axtarışı heç bir nəticə vermədikdə, yerli qurumlar onların İnterpol kanalları ilə beynəlxalq axtarışının təşkili üçün, İnterpolun MMB-lərinə müraciət etməlidir.

Bir məsələni də qeyd etmək lazımdır ki, incəsənət əsərlərinin oğurlanması ilə mübarizəylə bağlı, bütün məsələlərin öyrənilməsi üçün İnterpol xüsusi komissiya yaradıb. O, Baş Assambleyaya məlumatları və tövsiyə layihələrini hazırlayır, həmçinin bu məsələləri üzv dövlətlərin regional konfransının müzakirəsinə çıxarır. 1977-ci ildə komissiyanın qərarı ilə təşkilatın mənzil-qərargahında baxılan problem üzrə kollokvium oldu. Kollokvium incəsənət əsərlərinin oğurlanmasının nəticələrinə xüsusi diqqət yetirildi. Bu sferada fəaliyyət göstərən cinayətkar professionallarla təsadüfi oğrular arasında fərq qoymaq tövsiyə edildi. Kollokviumda, həmçinin, oğurlanmış əsərlərin praktik qaytarılması məsələləri də müzakirə olunmuşdu.

**İnterpolun fəaliyyət sahələrindən biri də hava nəqliyyatı uçuşları təhlükəsizliyinə qarşı cinayətlərdir.**

Hələ 1923-cü ildə Mülki Aviasiya yenicə yarananda ingilis alim-kriminoloqu Bezil Tomson demişdir ki, pis əllərdə təyyarə təhlükəli cinayətlərin törədilməsi üçün, həmçinin, cinayətkarın onu gözləyən qaçması üçün istifadə oluna bilər. Bu növ cinayətlərlə mübarizə İnterpolun fəaliyyətində yeni istiqamətdir.

Qeyd olunduğu kimi, İnterpol beynəlxalq terrorizmə qarşı mübarizədə özünün əsas fəaliyyətini hava gəmisinin girov götürülməsinin və partladılmasının xəbərdar edilməsi məsələləri üzərində qurur. Bu işdə TE qrupu fəal iştirak edir. Belə ki, ancaq 1980-cı ildə (dünyada terror aktivliyinin yüksəldiyi dövrdə) TE qrupu İnterpolun üzv dövlətlərinə, hava terrorizmi və xarici ölkə səfirliklərinə basqınla əlaqədar, 18 xəbərdarlıq göndərmişdir.[2]

---

[1] Qurbanov R.A. Məqalənin adı Xüsusi, tarixi, elmi, bədii və ya mədəni dəyəri olan əşyaların oğurlanmasına qarşı mübarizədə İnterpolun rolu // Azərbaycan Respublikası Daxili İşlər Nazirliyini məlumat bülleteni, 2011, №2, s.56-57.

[2] Əliyev B. Terrorizmə qarşı mübarizədə İnterpolun rolu // Qanun, 2001, №91-92, s.30.

Hazırlanan terror aksiyası haqqında məlumat alan TE qrupu bu informasiyanı yoxlayır, sonra isə aidiyyəti üzrə İnterpolun MMB-ni və hava gəmisində təhlükəsizliyə cavabdeh olan iki beynəlxalq təşkilatı: LATA (Mülki Aviasiyanın Beynəlxalq Assosiasiyası) və ICAO-nu (Aviasiyanın Beynəlxalq Təşkilatı) xəbərdar edir.

1963-cü ildə İCAO çərçivəsində, hava gəmisinin bortunda cinayətlər və digər hərəkətlər haqqında, Tokio konvensiyasının bağlanmasından dərhal sonra, Baş Assambleyanın sessiyasında İnterpol qərara alır ki, hələlik yalnız aviakompaniyanın təyyarənin partlayışı barədə xəbərdar edilən anonim telefon zəngini öyrənsin.

Baş Assambleyanın 1967-ci il Kioto sessiyasında narahatlıqla qeyd olunmuşdur ki, saat mexanizmi ilə işləyən partlayıcı qurğuların təyyarəyə qoyulması faktı olur. Elə bu sessiyada mülki aviasiyanın təhlükəsizliyi ilə bağlı, daha bir ciddi problem qoyulur. Bir sıra ölkələr İnterpola ekstremist qruplar və ayrı-ayrı cinayətkarlar tərəfindən uçuş həyata keçirən təyyarələrin ələ keçirilməsi haqqında məsələnin müzakirəsi xahişi ilə müraciət edirlər.

Maraqlı dövlətlərin inadkarlığı sayəsində qətnamə layihəsi səsə qoyulur. Bu layihəyə görə, Baş Katiblikdə təklif edilirdi ki, təyyarənin silahlı surətdə ələ keçirilməsi ilə bağlı bütün halların öyrənilməsi tapşırılsın. Lakin qətnaməyə 59 iştirakçıdan 14 nəfəri səs verir. Bundan sonra iki dəfə: 1968-ci ildə Tehranda və 1969-cu ildə Meksikada təyyarənin ələ keçirilməsi ilə preventiv mübarizə tədbirləri haqqında məruzələr Baş Assambleyanın müzakirəsinə çıxarıldı. Lakin hər iki halda məruzələr sadəcə baxılmaqla qəbul edildi.

1971-ci ildə İCAO-nun Monrealda keçirilən fövqəladə sessiyasında mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş cinayətlər hüquqi qaydada cəzalandırılmalı cinayətkarlara aid edildi. Onlara qarşı mübarizənin əsas istiqaməti kimi isə, onların qarşısının alınması qoyuldu. Sessiyada İnterpolun Baş katibi Neptonun "Beynəlxalq hava nəqliyyatının qanunsuz müdaxiləsindən müdafiəsi" adlı məruzəsi əsasında, İCAO-nun İnterpolla daimi əməkdaşlığı haqqında qətnamə qəbul olundu. Həmin ilin sentyabrında İnterpolun Baş Assambleyası İCAO ilə əməkdaşlıq haqqında qarşılıqlı qətnamə qəbul etdi. Burada deyilirdi ki, İnterpolun bütün xidmətləri təyyarənin qanunsuz ələ keçirilməsində şübhələnilən şəxslərə qarşı istifadə olunacaq. Xüsusi olaraq qeyd edilirdi ki, bu zaman İnterpolun siyasi xarakterli işlərə qarışması haqqında İnterpolun nizamnaməsinin 3-cü maddəsinin tələbləri gözlənilməlidir.

Bunu etməyən ölkələr İCAO-ya daxil olmaq və hava nəqliyyatının təhlükəsizliyinə qarşı yönəlmiş cinayətlərlə mübarizə haqqında konvensiyalara qoyulmaq tövsiyə olunur.[1]

[1] Alper B., Boren Y. Crime International Agenda Lexington Mass. 1975, s.13.

Bu konvensiyaların içərisində ikisi daha əhəmiyyətlidir: hava gəmisinin qanunsuz ələ keçirilməsi ilə mübarizə haqqında 1970-ci il Haaqa konvensiyası və milli aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qanunsuz aktlarla mübarizə haqqında 1971-ci il Monreal konvensiyası.

İnterpol tərəfindən görülən praktiki tədbirlərə, polisin məlumatlarına görə, təyyarənin ələ keçirilməsinə cəhd etmiş və ya bunu planlaşdırmış şəxslərin kartotekalarının aparılması aid edilə bilər. Müasir dövrdə İnterpol mülki aviasiyanın təhlükəsizliyinə qarşı cinayət törətmiş şəxslərin verilməsi məqsədilə axtarış aparır, bu tip işlər üzrə hüquqi və ya digər yardımlar göstərir.

İnterpolun Baş Katibliyi ayrı-ayrı ölkələrin polisləri tərəfindən mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş cinayətkarların qarşısının alınması məqsədilə həyata keçirilən tədbirləri öyrənir. Mülki aviasiyanın uçuşlarının təhlükəsizliyi ilə bağlı bütün problemlərin daha dərindən öyrənilməsi üçün İnterpol üzv dövlətlərə tövsiyə edir ki, onlar əlavə olaraq regional konfranslarda baxsınlar. Belə müzakirələr müntəzəm keçirilir. 1978-ci ildə İnterpol mülki aviasiyaya qarşı aksiyanın qarşısının alınması məsələləri üzrə kollokvium keçirib.

İnterpolun Baş Assambleyasının sessiyasında təşkilatın rəhbərləri tribunalardan bütün ölkələri baxılan bu kateqoriyalı işlərdə öz aktivliyini daha da artırmağa çağırır.

## İnterpolun insan alverinə qarşı mübarizəsi

İnsan alveri sosial hüquqi baxımdan ciddi problemdir və bu problemin təhlükəsinin ölçüsü hər zaman diqqətə səbəb olmuşdur. Aparılan araşdırmalar, hökumət, qeyri-hökumət, həmçinin beynəlxalq təşkilatların hesabatlarında insan alverinin mövcudiyyəti barədə kifayət qədər məlumat təqdim edilməsi göstərilən problemin ciddiliyinin yüksək olmasına dəlalət edir. İnsan alveri probleminin qiymətləndirilməsi üzrə əsas vasitələr olan mövcud regional, beynəlxalq statistikalar və göstəricilərlə gizli təbiəti, latent cinayət xarakterliliyi, mürəkkəb tərkibliyi ilə seçilən cinayətin qiymətləndirilməsi bir o qədər də etibarlı deyildir. Bəzi dövlətlərdə insan alverinə qarşı mübarizəni tənzimləyən zəruri qanunvericilik sisteminin olması və ya insan alverini yalnız cinsi istismar formasında tanıyan, ölkə daxilində vətəndaşların insan alverinə məruz qalması cinayət əməli kimi ehtiva məhdud qanunvericiliyin həmin dövlətlərdə problemin ciddiliyinin dəyərləndirilməsini əlavə olaraq xeyli çətinləşdirir və beləliklə zəruri qiymətləndirmənin sistemləşdirilməsinə əngəl törədir. Bundan başqa, ayrı-ayrı ölkələrdə insan alverinə qarşı mübarizədə siyasi iradənin lazımi qədər olmaması, cinayət təqibinin həyata

keçirilməsində təcrübəsizlik, korrupsiya hallarının mövcudluğu və s. arzuolunmaz hallar insan alveri qurbanlarının müəyyən edilməsi və insan alverçilərinin cəzalandırılması işinin effektini minimuma endirir.

Beynəlxalq araşdırmalar göstərir ki, qurbanların insan alverinə məruz qalması ilə bağlı bəzi hallarda şikayət etməmələri və onların iştirak etdikləri tədbirlərdə hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etmək niyyətində olmamaları da problemin düzgün ölçülməsinə təsir edən amillərdəndir. Belə cinayətlərdə zərər çəkənin təqsirlərindən gördükləri istismar qorxusu rəsmi və səlahiyyətli qurumların onlara kömək etməyəcəkləri və ya edə bilməyəcəkləri inamı, doğma ailələrinin onlardan imtina etməsi, öz ölkəsində məşğuliyyətinin olmaması kimi hallar bir çox qurbanların səlahiyyətli qurumlarla əməkdaşlığı rədd etməsinə səbəb olur. Təcrübədə bəzi hallarda qurbanlar özlərini istismar olunmuş hesab etmir. Bu kimi neqativ fikirlər əslində qurbanların insan alverçisindən ciddi asılılığının bariz nümunəsidir. Hökumət və ya qeyri-hökumət və beynəlxalq təşkilatlar insan alverinə qarşı mübarizə işi üzrə tez-tez hesabatlar hazırlayaraq geniş kütlənin diqqətinə təqdim edirlər. Bu məlumatlar hətta eyni coğrafi məkanla bağlı olduğu və ya konkret tip üzrə hazırlandığı halda belə, bir-biri ilə uzlaşmır və ya uyğunluq təşkil etmir. Buna səbəb hər bir qurumun təyinatı üzrə mübarizə funksiyasının istiqamətlərinin bir-birindən fərqləndirilməsidir. Hüquq-mühafizə orqanları insan alveri əməllərinin ifşa edilməsi, insan alveri qurbanlarının müəyyən edilməsi və s. məqsədlərlə bu kimi əməllərin baş verə biləcəyi yerlərdə reyd və ya monitorinq keçirilməsi hesabatlarda həmin tədbirlərin nəticələrinə dair məlumatları qeyd edir. Qeyri-hökumət və ya beynəlxalq təşkilatlar isə yardım etdikləri reabilitasiya, reinteqrasiya və ya reabilitasiya prosesində iştirak etdikləri qurbanlarla əlaqədar hesabatlarına müvafiq məlumatlar daxil edirlər. Nəticədə sadə rəqəm olan qurbanların sayı üzrə statistikalar bir-biri ilə uyğunluq təşkil etmir. Belə uyğunsuzluğa əlavə misal olaraq potensial qurbanlarla bağlı yerinə yetirilən tədbirlər nəticəsində formalaşmış hesabatı göstərsək, onda qeyri-dəqiq olan insan alveri probleminin həcminin kolleziyalı məlumatlarla ölçülməsinin özünün real problem olduğu qənaətinə gələ bilərik. Bu halın aradan qaldırılmasının optimal üsullarından biri insan alverinə qarşı mübarizə fəaliyyəti üzrə müvafiq formada razılaşdırılmış qaydada konkret istiqamətlərin kriteriyalarının qəbul edilməsi və icraya yönəldilmişdir.

İnsan alveri qurbanlarının sayı barəsində müxtəlif regionlar üzrə ayrı-ayrı hesabatlarda göstərilən böyük rəqəmli məlumatlar əksər hallarda ehtimallar olur və belə məlumatların formalaşma metodologiyası izah edilməməklə qeyri-müəyyənlik yaradır. ABŞ Dövlət Departamentinin BMT-nin narkotiklər və cinayətkarlıq üzrə idarəsinin, eləcə də insan alverinə qarşı

mübarizə fəaliyyəti üzrə seçilən digər qurumların insan alverinə dair hesabatlarında qurbanların sayının 12 milyondan çox olmasının ehtimal olunduğu göstərilir. Qeyd etmək lazımdır ki, bu rəqəmə təkcə cinsi və əmək istismarına məruz qalanlar deyil, insan alverinin bütün formaları üzrə cinayətin qurbanı olan şəxslər daxil edilir. İfşa edilmiş cinayət əməllərinə dair rəsmi beynəlmiləl statistikalar isə bu rəqəmdən 10 dəfələrlə aşağıdır. ABŞ Dövlət Departamentinin hesabatlarına əsasən, hər il ABŞ-a 14500-17500 insan alveri qurbanı daxil olur. Bunun 3500-5500 nəfəri Avropa və Asiya ölkələrindən, təxminən bir o qədəri Cənubi Amerika ölkələrindən, 5000-7000 nəfəri xüsusən Şərqi, Cənubi Asiya ölkələrindən və Okeaniya adalarından, 2000-7000 nəfəri Afrika ölkələrindən, 2000-dək qurbanın da Yaxın Şərq ölkələrindən olduğu göstərilir.[1]

Yuxarıda qeyd edilənlərə əsasən, insan alverinə qarşı beynəlxalq mübarizənin tarixi barədə qısa şərh vermək yerinə düşərdi.

100 ildən artıq vaxt ərzində insan alverinə qarşı beynəlxalq səviyyədə mübarizə aparılmışdır. Hələ 18 may 2004-cü il tarixdə ağ dərili qadınların qula çevrilməsinə qarşı beynəlxalq müqavilə bağlanmışdır. 1921-ci ildə azyaşlı uşaq və qadınların alverinə qarşı, beynəlxalq konvensiya imzalanmışdır. 1926-cı ildə insanların əməyinin istismarı və onların qula çevrilməsinin qarşısının alınması məqsədilə beynəlxalq konvensiya imzalanmışdır. 11 oktyabr 1933-cü ildə yetkinlik yaşına çatmış qadınların alverinə qarşı beynəlxalq konvensiya imzalandı ki, bu da cinayətlərə qarşı heç bir güzəşt olmadığını bir daha sübut edir.

1945-ci ildə dünyanın mötəbər təşkilatı olan BMT-nin yaradılmasından sonra, insan hüquqlarının müdafiəsinə dair, müxtəlif qətnamələr qəbul edildi. 1948-ci ildə BMT-nin ümumdünya insan hüquqları bəyannaməsində göstərilir ki, heç bir kəs qula çevrilə və insan alverinin qurbanı ola bilməz.

1949-cu ildə qadın alveri və fahişəliyin qarşısının alınması məqsədilə, beynəlxalq konvensiya imzalandı. Xronoloji ardıcıllıqla insan alverinə qarşı beynəlxalq konvensiyaları nəzərdən keçirək.

1949-cu ilin dekabr ayında, 1950-ci il 25 iyun, 1957-ci il 18 dekabr, 1979-cu il 3 sentyabr, 1981-ci il 12-15 dekabr, 2000-ci il 30 iyul, 2011-ci il iyun tarixlərində qəbul edilmiş beynəlxalq konvensiyalar və keçirilən beynəlxalq konfranslar insan alverinin hər cür formasına qarşı dünyanın bütün beynəlxalq təşkilatlarının və bütün dünya dövlətlərinin bu ağır cinayətə qarşı mübarizəyə çağırışıdır.[2]

---

[1] Qurbanov İ.Z. İnsan alveri probleminin qiymətləndirilməsi // Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumat bülleteni, 2012, №2, s.71-73.

[2] Шестакова К. Международная молодежная конференция Совета Безопасности. Доклад эксперта борьбы с торговлей людьми. Тюменский Государственный Универси-

İnterpolun fəaliyyət sahəsi olan, insan alverinə qarşı mübarizə məqsədilə, İnterpolun Baş Assambleyasının sessiyalarında, konfranslarında İnterpola üzv olan dövlətlərlə birgə qərarlar qəbul edilmişdir. İnterpolun Baş Katibliyində bu neqativ cinayətə qarşı xüsusi zabitlər qrupu yaradılmışdır.

İnterpolun beynəlxalq cinayətkarlığın təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizəsinə dair bir neçə faktı qeyd etmək yerinə düşərdi.

İnterpolun Baş Katibliyində 1-24/7 Qlobal Kommunikasiya sistemi fəaliyyət göstərir ki, həmin sistem vasitəsi ilə beynəlxalq cinayətkarlıq, eyni zamanda onun təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizə məqsədilə, İnterpola daxil olan ölkələr, beynəlxalq təşkilatlar və beynəlxalq polis təşkilatları həmin bazaya qoşularaq, insan alveri qurbanlarının qeydiyyatı aparılaraq müvafiq tədbirlər görülür.

Ümumiyyətlə, İnterpol transmilli mütəşəkkil cinayətkarlığa, onun ən təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizədə böyük rol oynayır .

2009-cu il yanvarın 2-19-da Fransanın Lion şəhərində insan alverinə qarşı mübarizə ilə bağlı İnterpol xətti ilə 1-ci beynəlxalq seminar keçirilmişdi. Seminarda İnterpolun əməkdaşları, İnterpolun üzvü olan ölkələrin beynəlxalq təşkilatlar və beynəlxalq polis təşkilatları, hüquq-mühafizə orqanlarından nümayəndələr iştirak etmişlər.[1] 2011-ci il iyunun 8-9-da Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat SUAM-ın insan alveri və qeyri-qanuni miqrasiya üzrə mühafizə üzrə Alt işçi qrupunun növbəti iclası keçirilmiş və bu tədbirə İnterpolun nümayəndələri də dəvət olunmuşdur. Həmin tədbirdə SUAM-ın üzvü olan ölkələrin hüquq-mühafizə orqanları və İnterpolun MMB-nin əməkdaşları iştirak etmişlər. [2]

2013-cü il mayın 13-14-də ABŞ-ın Nyu-York şəhərində BMT-nin mənzil-qərargahında insan alverinə qarşı mübarizə üzrə Qlobal Fəaliyyət Planının (QFP) icrası sahəsində əldə olunmuş tərəqqinin dəyərləndirilməsi məsələlərinə həsr olunmuş görüş keçirildi. Azərbaycan Respublikası DİN-nin yüksək vəzifəli şəxsləri həmin tədbirdə iştirak etdilər. İclasda çıxış edən BMT-nin Baş katibi Pan Gimun QFP-nin 3 illik fəaliyyətinə toxunmuş, bu istiqamətdə bəzi müsbət dəyişikliklərin əldə edildiyini, üzv dövlətlərin böyük əksəriyyətində müvafiq qanunvericiliyin olduğunu, insan alverçilərinə qarşı məhkəmələrin artdığını diqqətə çatdırmışdır. Həmin tədbirdə BMT-nin Baş Assambleyasının Prezidenti Vuk Yeremiç, BMT-nin Narkotiklər və Ci-

---

тет, с. 8-9.

[1] MMB-nun cari arxivi. 2009-cu ilin 9 aylıq xidməti fəaliyyətinə dair arayış, 20 səhifədə, s.8.

[2] MMB-nun cari arxivi. 2011-ci ilin 9 aylıq xidməti fəaliyyətinə dair arayış, 25 səhifədə, s.13, əlyazma ilə.

nayətkarlıq üzrə Ofisinin icraçı direktoru Yuri Fedotov, insan alverinə qarşı mübarizə üzrə BMT-nin xoşməramlı səfiri Sorvino və digər rəsmi şəxslər çıxış edərək, QFP-nin icrası və bu sahədə milli səviyyədə görülmüş işlərdən, eyni zamanda problemlərdən və qarşıda duran vəzifələrdən danışmışlar. Tədbirdə İnterpolun Baş Katibliyinin insan alverinə qarşı mübarizə sahəsində çalışan mütəxəssisləri və Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları iştirak etmişlər .[1]

Nəticə olaraq qeyd etmək lazımdır ki, İnterpolun BMT, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatlar, beynəlxalq polis təşkilatları, İnterpolun üzvü olan və olmayan dövlətlərlə qarşılıqlı əlaqə şəraitində hal-hazırda insan alverinə qarşı uğurla mübarizə aparılır.

**İnterpolun fəaliyyət istiqamətlərindən birini də yüksək texnologiyalar sahəsindəki cinayətlərlə mübarizə təşkil edir.**

Bunun bir növü olan kibercinayətlərlə mübarizə barədə aşağıdakıları qeyd edək.

**Kibercinayət** (kompüter istifadə etməklə) onun bütün formalarında sürətlə inkişaf edən cinayət formalarından biridir. Cinayətkarların artan böyük bir hissəsi kompüter məlumat və sistemlərinə hücuma keçərək, "şəxsiyyətin oğurlanması", uşaqlar üzərində cinsi zorakılıq təsvirləri olan fotoların yayılması və internet auksionlarında dələduzluq etməklə müxtəlif növ cinayətləri törətmək üçün müasir texnologiyaların təqdim etdikləri sürət, əlverişlilik və anonimlikdən istifadə edirlər.

İnternetin qlobal xarakter daşıması dünyanın hər hansı bir yerində hər hansı bir qanuna zidd hərəkəti törətməyə imkan verir. İnternetin terrorçular tərəfindən istifadəsi, xüsusilə də radikalizmin qızışdırılması və cəlb edilmədə milli və beynəlxalq təhlükəsizliyə ciddi təhlükə göstərir.

İnterpol I-24/7 qlobal polis rabitə sistemi vasitəsilə kibercinayətlər haqqında məlumatları yığaraq, qoruyaraq və analiz edərək öz 186 üzv ölkələri arasında paylaşır. İnterpolun kibercinayətlər üzrə proqramının başqa aspektləri təyin edilmişdir:

- Kibercinayətlər üzrə istintaqın aparılmasında gecə-gündüz mümkün olan əlaqəli şəxslərin siyahısından istifadə edərək üzv ölkələr arasında operativ əməkdaşlığın yüngülləşdirilməsi;
- Kibercinayətlərin törədilməsi metodlarına dair ərazi işçi qrup və təlim bölmələri vasitəsilə üzv dövlətlər arasında məlumat (informasiya) mübadiləsinin artırılması;
- İstintaq xidmətlərinin və məlumat bazasının istifadəsilə kiberhücum

[1] Azərbaycan Respublikası DİN-nin mətbuat xidməti. Nyu-Yorkda insan alverinə qarşı mübarizə üzrə yüksək səviyyəli görüş keçirilmişdir // «Mübariz keşikdə» qəz., 2013, №19 (3134).

və kibercinayətlərin istintaqı zamanı üzv ölkələrlə qarşılıqlı fəaliyyət göstərmək;
- Başqa beynəlxalq təşkilatlar və xüsusi şəxslərlə strateji partnyorluq münasibətlərini inkişaf etdirmək.[1]

İnterpol kibercinayətlərlə operativ (əməli) mübarizədə üzv ölkələrlə birgə bir neçə iş proqramı yaratmışdır.

2005-ci ildən "Qoldfiş" əməliyyatı keçirilir. Buraya 25 ölkənin hüquq-mühafizə orqanları qoşulmuşlar. Əməliyyatın məqsədi internet vasitəsilə bank hesablarından dələduzluq yolu ilə pul vasitələrinə yiyələnməklə və sonradan "Vestern Yunion" və "Veb Mani" ödəmə sistemlərindən istifadə etməklə qanunniləşdirilən cinayətlərə qarşı hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi və birgə ölçülərin işlənilib hazırlanmasından ibarətdir. Baş Katibliklə 17 kommersiya və bank qurumlarının nümayəndələri əməkdaşlıq edirlər.

**İnterpolun işçi qrupları**

**İnformasiya-texnologiya (İT) cinayətləri üzrə**

Belə qruplar İT-cinayətlərin son törədilmə metodlarına uyğun olaraq strateji, texnoloji və informasiya istiqamətlərinin işlənilib hazırlanması məqsədilə yaradılmışdır. Belə işçi qruplar Asiya və Sakit okean ərazisinin Cənub ölkələri, Amerika qitəsi ölkələri, Afrika, Avropa, Yaxın və Orta Şərq və həmçinin Şimali Afrika ərazisində mövcuddur.

İşçi qrupun fəaliyyət istiqamətləri sırasına daxildir:
- Onların ərazisində kibercinayətlərin törədilməsində ən son meyl (istiqamət) üzrə informasiya mübadiləsi;
- Mütəmadi görüşlər vasitəsilə üzv ölkələrlə əməli (operativ) əməkdaşlığın möhkəmləndirilməsi;
- Ərazi hüquq-mühafizə agentlikləri üçün materialların hazırlanması;
- İnformasiya və sənədlərə daxil olmaq üçün etibarlı veb-portalın təqdim olunması.

İnterpolun informasiya-texnologiya cinayətləri üzrə işçi qrupları informasiya-texnologiya cinayətləri üzrə təlim dərsliyi hazırlamışlar ki, orada da istintaqın aparılması, vasitə və metodları geniş təsvir olunur və sadalanır. Dərs vəsaiti İnterpolun müdafiə olunan veb-səhifəsində və kompakt-diskində mövcuddur.

TOPSİ əməliyyatı (standartların tətbiqi əsasında təlim və operativ fəaliyyətlərin proqramı) maarifləndirmə və cinayətlərin qarşısının alınması mə-

[1] Антипов С.П. Участие Интерпола в борьбе с кибертерроризмом // Российский следователь. Москва: 2007, с.148.

sələlərinə xüsusi məna verərək, üzv ölkələrin istintaq işində köməyin gücləndirilməsinə istiqamətlənir. TOPSİ əməliyyatı İnterpolun işçi qruplarını standartların hazırlanması və qarşılıqlı razılaşma əsasında ən yaxşı praktiki nailiyyətlərin tətbiqi, məlumatlandırmanın səviyyəsinin və effektivliyinin yüksəldilməsi, strateji nəticələrin hazırlanmasında vasitəçi kimi istifadə etməyə çalışır.

Layihə əsas etibarilə İnterpolun üzv ölkələrinin əməkdaşlarına "Xaytek" istintaqı üzrə cinayətlərin və kompüterlərdən qanuni istifadə qaydalarının öyrənilməsi, "öyrənəni öyrət" seminarının işində iştirak etmək imkanını vermək üçün təsis edilmişdir.

İnterpol hər il bütün dünya hüquq-mühafizə orqanları arasında sistemləşdirilmiş, geniş və müasir biliklərin yayılmasına zəruri kömək edən bir neçə təlim seminarları keçirmişdir.

Kibercinayətlərin istintaqı zamanı polisin məlumatların rəqəmsal təsdiqini alması vacibdir və kiberhücum müxtəlif ədliyyələrin işinə çevrilərkən bir-birləri ilə sərhəd vasitəsi ilə qarşılıqlı fəaliyyət göstərə bilərlər.

İnterpol üzv ölkələr arasında operativ əlaqələrin mümkün qədər tez yüngülləşdirilməsi üçün kompüter cinayətləri üzrə milli bölmələrdə işləyən nominasiyalı müstəntiqlərin 2007-ci ildə "Əsas milli informasiya məntəqələri" adlı şəbəkəsini yaratdı.

Belə əlaqələr hər həftə 7 sutka müddətində hər gün 24 saat ərzində mümkündür. Bu kömək üçün tələb olunan hər hansı bir informasiya və ya xahişi almaq imkanı yaradır. NCRPS yaradılması erkən xəbərdarlıq sistemi təşkilatı üçün vacib zəmin yaradır.[1]

İnterpol kibercinayətlərin istintaqı işləri üzrə bilik və təcrübələrin mübadiləsi üçün hər iki ildən bir kibercinayətlər üzrə beynəlxalq konfranslar keçirir. İnterpolun üzv ölkələrinin polislərinin xidmət göstərdiyi konfrans, kibercinayətkarlıq üzrə beynəlxalq konfransda kibercinayətlərlə mübarizədə istifadə olunan müasir texnologiyalar haqqında məlumat və müzakirəsi üçün hüquq-mühafizə orqanları, xüsusi sənaye bölmələrinin və elm dünyasının ekspertlərini bir yerə toplayır.

Kibercinayətlərlə bağlı bir neçə faktı qeyd edək.

Texnologiyanın inkişafı, yeni reallıqlar heç də həmişə mütərəqqi addımlarla nəticələnmir. Bu baxımdan, kommunikasiya, kompüter texnologiyalarının inkişafı, mobil telefon şəbəkələrinin genişlənməsi cinayət əməllərinin törədilməsi üçün də münbit şərait yaradır. Belə təhlükə və problemlərlə üzləşən ölkələr birgə mübarizə üsulları axtarırlar ki, onların da ən səmərəlisi

[1] Повышев В. Борьба с киберпреступностью и кибертерроризмом. Доклад эксперта // Международная Молодёжная Конференция, 2012 // http://sartraccc.ru/Pub_inter/cybercrim.pdf

Avropa Şurasının qəbul etdiyi "Kibercinayətkarlıq haqqında konvensiya" və "Kompüter informasiyaları sahəsində cinayətkarlıq barədə konvensiyaya əlavə protokolu"dur. Bu sahəyə Avropa Şurasına daxil olmayan ölkələr də böyük maraq göstərirlər. Məsələn, kompüter texnologiyalarının inkişaf etdiyi ABŞ bu problemlərlə üzləşən dövlətlərdəndir və mübarizənin beynəlxalq mexanizminin yaradılmasına çalışır. Yaponiya da bu sənədi imzalayıb.

İnternetdə virus yayan zərərli proqramların sayı əvvəlki illərlə müqayisədə bir neçə dəfə artıb. Kredit kartlarının oğurlanması da bütün dünyada hər il rekord rəqəmlərlə yenilənir. Fırıldaqçıların əsas hədəfi olan ABŞ və Böyük Britaniyada bu cəhdlər 532,2 milyon funt-sterlinqin oğurlanması ilə nəticələnib ki, bu da 2006-cı il ilə müqayisədə 25% çoxdur. Kibercinayətkarlıq ilk növbədə kompüter sistemlərindən istifadə edərək cinayət əməllərinin törədilməsini əhatə edir. Kibercinayətlərin spesifik xüsusiyyətləri ondan ibarətdir ki, prosesdə zaman və məkan baxımından fərqli olan müxtəlif ölkələrin nümayəndələri iştirak edirlər, bəzən isə iştirakçılar prosesə bilməyərəkdən cəlb edilirlər. Bu tip cinayətlər sırasına kompüter şəbəkəsinin yüklənməsi də daxildir. Belə ki, elektron poçtun xeyli hissəsini spam tutanda istifadəçi öz vəsaitlərini mənasız yerə sərf etmiş olur. Buna qarşı mübarizə çox mürəkkəbdir. Ona görə də beynəlxalq ictimaiyyət birgə tədbirlər görməlidir.

Cinayətkarlıq həmişə vəsaitlərin əldə edilməsi ilə bağlı olmur. Kibercinayət əməlləri pozuculuq fəaliyyəti ilə bağlıdır. Belə ki, milli münaqişələr, müharibələr virtual məkana çevrilir və münaqişədə olan tərəflər qarşılıqlı olaraq bir-birinə ziyan vurmağa çalışır.

İstifadəçilərin ünvanlarına yönələn spamların sayı da artmaqdadır.

Kompüter cinayətinin qrupları yalnız bu sahədə ixtisaslaşmış sindikatlar deyil. Onlar təşkil olunmuş transmilli qruplardır və belə bir cinayət əməlindən daha çox bəhrələndiklərini gördükdə bu sahə üzrə mütəxəssisləri cəlb edərək yararlanmağa çalışırlar. Bu tip cinayətlərin inkişafı yalnız kompüter sistemində olan boşluqlar, təhlükəsizliyin zəifliyi ilə əlaqədardır.[1]

Hüquq-mühafizə orqanları, telekommunikasiya xidməti göstərən operatorlar, bu sahədə siyasəti müəyyənləşdirən dövlət orqanları əlaqəli şəkildə işləməlidirlər.

Bu gün kiber təhlükəsizlik, onlayn təhlükəsizlik və şəbəkənin etibarlığı üçün həlledici təminat məsələləri qlobal gündəlikdə duran ən mühüm prioritet istiqamətlərdən biri kimi qiymətləndirilir. İnterpol digər Beynəlxalq Cinayət Polis Təşkilatları ilə BMT-nin ixtisaslaşmış İnformasiya-kommunikasiya Texnologiyaları İttifaqı (BTİ) və İnterpolun üzvü olan dövlətlərlə əməkdaşlıq şəraitində mübarizə aparır. Son dövrlər telekommunikasiya şəbəkəsindən istifadə etməklə müxtəlif hüquqazidd əməllərin törədilməsi hal-

[1] Natiq C. Kibercinayət və ona qarşı mübarizə // Azərbaycan, 2010, 1 aprel, №11 (2982).

larının getdikcə çoxalması müşahidə olunur. Əslində aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi daşıyan və qanunvericiliyə görə dələduzluq sayılan belə hüquqazidd əməllərin törədilməsi üsullarından biri də elektron əlaqələrin bağlanması barədə internet şəbəkəsində qəsdən həqiqətə uyğun olmayan məlumatların yerləşdirilməsidir.

Əsas etibarı ilə ayrı-ayrı dövlətlərin vətəndaşları tərəfindən internet saytlarından bahalı avtomobillərin, müxtəlif növ texnikaların, məişət əşyalarının və s. alqı-satqısına, habelə işə düzəldilmə və təhsilə göndərilmədə vasitəçiliyə dair elanlar yayılır, elektron lotereya oyunlarında mükafat fondu olan müsabiqələrdə böyük məbləğdə pul uduşlarının olması, müvafiq mükafatın rəsmiləşdirilməsi üçün uduşun müəyyən hissələrinin təqdim olunan bank hesabına köçürməyin zəruriliyi kimi sadəlövh insanları aldatmağa hesablanmış məlumatlar daha geniş xarakter almaqdadır.[1]

Kibercinayətkarlıqla bağlı daha bir neçə faktı qeyd edək. 70-ci illərdə internet ABŞ-da fəaliyyətə başladığı dövrlərdən kibercinayətkarlıq da mövcud olmuşdur. 1973-cü ildə Nyu-York şəhərində yerləşən sitibankın kassiri öz hesabına öz xidməti kompüterindən 2 milyon dollar keçirməyə nail olmuşdur. 1989-cu ildə amerikalı tələbə Pentaqona məxsus 600 EHM-i sıradan çıxarmışdır. 2010-cu ildə İran İslam Respublikasının Uran istehsal mərkəzində virus nəticəsində sadiq arsenalına külli miqdarda ziyan dəymişdir. Belə misalların sayı müxtəlifdir.

Amerika tədqiqatçısı Ştinger qeyd edir ki, kibercinayətkarlığa qarşı mübarizə 24/07/1971-ci il konvensiyasında və həmin konvensiyaya əlavə Berlin konvensiyasında öz əksini tapmışdır. İnterpol 1991-ci ildən həmin konvensiya əsasında işçi qrupu yaratdı və bu növ cinayətkarlığa qarşı mübarizəyə başladı.

**İnternet vasitəsilə uşaqlara qarşı cinayətlərlə mübarizə də İnterpolun fəaliyyət sahələrindən biridir**.

İnternetin yayılması və onun təmin edə biləcəyi anonimlik və həmçinin yüksək sürətli əlaqə və rəqəmsal kameralar kimi texniki nailiyyətlər ayrı-ayrı insanların uşaqlara qarşı cinsi maraqlarını, onların fəallıqlarının yazılmasını, faylların yüklənilməsini və bu yönümlü insanların təsvirlərinin mübadiləsi işini yüngülləşdirmişdir.

İnternetdə uşaq cinsi istismarı müxtəlif çeşiddə göstərilir – müxtəlif vəziyyətdə şəkillərdən qəddar cinsi cinayətlər videoyazısına kimi. Deyəsən, qurbanın bu əzabı faktiki zorakılıq hərəkətinin bitməsindən sonra da davam edir. Belə ki, internetin təsviri sonsuza qədər bir neçə dəfə göstərmək imkanı vardır. Prodüserlərin əksəriyyəti iki geniş qruplara aiddirlər: uşaqlara

[1] DİN-nin mətbuat xidmətindən // Mübariz keşikdə, 2009, 19 aprel, №11 (2935).

cinsi marağı olan şəxslərə və belə təsvirlərin kommersiya istehsalında böyük gəlirlərlə cəlb olunan mütəşəkkil cinayətkar qruplara.

Bir halda ki, İnternet kompütərə qanunsuz təsvirin yüklənməsində sərhədə malik deyildir, təbii ki, özündə beynəlxalq kriminal hərəkət göstərir. Təsviri kompüterin köməyi və İnternet əlaqəsi vasitəsilə asan şəkildə almaq, onları başqa ölkəyə yükləmək, Yer kürəsinin hər hansı bir yerində olan insana ötürmək çox asandır. Bütün dünyadakı müxtəlif qanunlar və polis sistemləri uşaqların istismarı haqqında internet vasitəsilə məlumatların toplanması, saxlanılması, analizi və yayılması üçün mərkəzi təşkilatın mövcudluğunun vacib olması haqda məsələ qaldırırlar.

İnterpolun hüquq-mühafizə təşkilatları kommunasındakı nadir yer tutması bu növ cinayətlərə qarşı daha effektiv mübarizə üçün ona mənbə və şəbəkələr təqdim edir. Bu məsələnin həllində Təşkilatın ən əsas vasitələrindən biri uşaqlarla qəddar rəftar təsvirləri olan İnterpolun Məlumatlar Bazasıdır (ICAID).[1]

2001-ci ildə yaradılan baza Təşkilatın üzv ölkələrindən alınan yüz minlərlə uşaqlarla qəddar cinsi rəftar təsvirlərini saxlayır, hansı ki, yeni qurbanların tanınması üçün hüquq-mühafizə təşkilatlarına kömək edərək informasiyanın birgə istifadəsini yüngülləşdirir.

ICAID zorakılığın törədilmə yeri üzrə eyni seriyadan olan eyni bir yerdə zorakılıq formalarını və ya qurbanların müxtəlif təsvirlərinin tanınması və müqayisəsi imkanına malik olan kompüter proqramından istifadə edir. Baş vermiş hadisənin ölkəsi müəyyən olunandan sonra təsvir müvafiq ölkənin polisinə göndərilməlidir. ICAID proqramı, həmçinin, İnterpola yeni təsvirlərin aşkarlanmasından sonra, bunun üçün istifadə olunan həyəcan siqnalı vasitəsilə hökumətə xəbərdarlıq mexanizmindən istifadə edərək, istintaq aparılan ölkənin hökumətinə kömək göstərmək imkanı verir.

Beynəlxalq istintaqa başlamaq üçün şəxsin tanınması, onun milliyyəti və təsvirin nə vaxt olunduğunu müəyyən etmək vacibdir. ICAID-dan istifadə edərək müstəntiqlər bir neçə yüz qurbanları eyniləşdirmək və azad etmək imkanını əldə etdilər. Məlumatlar bazası "Səkkizlər qrupu" və 3 milyon insanın təqdirini qazanaraq, onunla işləmək və inkişaf etdirmək üçün İnterpola kömək edir.

Ölkələrin pedofiliya haqqında xəbərdarlıq haqqında Yaşıl xəbərdarlığın nəşr etmələrini genişləndirərək, İnterpolun bir çox üzv ölkələri ilə birgə əməliyyatların aparılmasını əlaqələndirərək və regional səviyyədə istintaqa kömək edərək Interpol İnternetdə uşaq istismarına qarşı mübarizəyə vahid yanaşmanın tərəfdarıdır. Həmçinin İnterpolun yardımının başqa vacib yolla-

[1] Овчинский В.С. Интерпол в вопросах и ответах: учебное пособие, с.188-189.

rı da mövcuddur. Uşaqlara qarşı cinsi cinayətlərin istintaqının yaxşılaşdırılması və yüngülləşdirilməsi üçün hökumət və qeyri-hökumət təşkilatları və xüsusi sənaye, uşaqlara qarşı cinayətləri asan yerləşdirə bilən təlim kursları tərəfindən köməyi daxil edərək, hüquq-mühafizə təşkilatlarının müstəntiqlərindən ibarət işçi qrupu yaradıldı. Kurslara ən yaxşı praktiki nailiyyətlərin və qurbanın şəxsiyyətinin müəyyənləşdirilməsinin öyrədilməsi daxildir. Hansı ki, bu, ekspertlərə zorakılığın qurbanlarının eyniləşdirilməsi və strateji məsələlərdə birgə razılaşmaya imkan verir.

Gizli yerli klublar, azad əldə olun bilən jurnallar, veb-saytlardakı videolar, kompüter klubları mətbuatın və texnologiyaların inkişafı ilə yanaşı olaraq, maraqla illər boyu uşaq cinsi təsvirlərini dövr etdirirdilər. Video və internet texnologiyalarının səviyyəsinin yüksəlməsi uşaqlar üzərində cinsi zorakılıq təsvirlərinin sorğu üzrə video axını, veb-kamera sessiyaları və hətta virtual cinsi zorakılıq kimi təsvirlərin istehsalı üçün cinayətkarlara bu cür yolların böyük bir hissəsindən istifadə imkanı yaratdı.

İnterpol uşaqların müdafiəsi üçün mühafizə metodları, valideynlərin tərbiyəsi, zorakıların və qurbanların eyniləşdirilməsi məsələləri üzrə strategiyaların işlənib hazırlanmasında internet xidmətinin provayderləri, hökumət və qeyri-hökumət təşkilatları və başqa beynəlxalq qruplarla işləməyi davam etdirir və hökuməti texnoloji dəyişiklikləri əks etdirən mövcud qanunların təkmilləşdirilməsi işi üzrə həvəsləndirir.[1]

2002-ci ildən Şəbəkədə uşaq pornoqrafiyasının yayılmasının qarşısının alınması üzrə İnterpol “Artus” adlı xüsusi layihəsini həyata keçirir. Əməliyyatın fəal mərhələsinin başlanğıcını 2001-ci ilin noyabrında xüsusi internet-çatı yaradan Almaniyanın siyasi cinayət Federal idarələrinin həbsi qoydu. Bu çat İnternetdə uşaq pornoqrafiyasına aid video və foto materialların, çat müştərilərinin bu materiallar haqqında müzakirələrinin yerləşdirilməsi məqsədi ilə yaradılmışdır.

Alman polis əməkdaşları İnterpolun Baş Katibliyinin “Oğurlanma və zorla qaçırılma üzrə mübarizə” Direktorluğuna 5 başqa dövlətlərin ərazisində yerləşən, pornoqrafik tərkibli materialların yayılmasında 45 şəxsin müəyyən edilməsi və tutulmasına yönəldilmiş kompleks operativ-axtarış tədbirlərinin keçirilməsi xahişi ilə müraciət etməyə məcbur oldular.

Əməliyyatın gedişi işçi qaydasında aşağıdakı konkret məsələ və tapşırıqların həllini nəzərdə tuturdu:

- İnternet fiqurantları və onlarla əlaqədə şübhəli bilinən şəxslərin bir-birlərini xəbərdarlıq etmək imkanlarının qarşısını almaq məqsədilə şəbəkəyə daxil olma imkanlarını müvəqqəti bloklaşdırmaq; Bu tapşı-

[1] http://www.civilidentitikation/info/mnenie_protiv_detskoqo_porno/htm

rıq əməliyyatın İspaniyada keçirilən mərhələsi zamanı həll olunmuşdur, belə ki, bu ölkənin milli qanunvericiliyində lazım gələrsə belə ölçünün götürülməsi qadağan olunmamışdır.

- Şübhəli şəxsin zənn etmədiyi halda onların gecə vaxtları və istirahət günlərində tutulub saxlanılması üçün orderlərin həyata keçirilməsi; Bu tapşırıq əməliyyatın ABŞ-da keçirilən mərhələsində yerinə yetirilmişdir.
- Şübhəli şəxsin tutulması zamanı istifadə etdikləri onların üzərindən götürülmüş çata daxil olmaq məqsədilə pornoqrafik materialların ötürülməsi üçün istifadə olunan proqramlar yazılmış sərt kompüter diskləri kimi əşya-dəlillərin təsdiqlənməsi məqsədilə məhkəmə və prokurorluq təşkilatları ilə mütəmadi əlaqə (bu və ya digər ölkənin cinayət-prosessual qanunlarından uyğun olaraq).
- Qarışıq və eyni cinsli cinayət növləri üzrə qaldırılmış cinayət işləri materiallarının cari operativ analizi.
- Ədalət məhkəməsinə göndərilməyə mane olunmağa görə cinayət məsuliyyətinə cəlb edilmə; Belə ki, bu cinayət işi cinayətin tərkib əlamətlərinə görə, kompüterə daxil olmaq üçün parolun verilməsindən boyun qaçıran və həmçinin İnternetə daxil olmağı təsdiqləyən proqram təminatını məhv etmək üçün sübhəli şəxslərlə fəal məsləhətləşən və yaxud cinayət məsuliyyətindən qaçmaq üçün polisdən gizlənən və yalan ifadə verən bir sıra şəxslər üçün qaldırılmışdır.

Əməliyyat iştirakçılarının bütün qüvvələrinin işinin pozulmaması məqsədilə, funksiya və borclarının dəqiq bölgüsü üçün, layihə çərçivəsində hər hansı bir birgə və yaxud müstəqil tədbirlərin keçirilmə tarixinə dair məlumat İnterpolun Komanda və Əlaqələndirmə Mərkəzinə göndərilir. [1] .

Hazırda dünyanın qloballaşma dövründə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə əlaqədar, seksual xarakterli uşaq pornoqrafiyası saytlarda yer alır ki, bu da bu cür cinayətlərə səbəb olur. Ona görə də, bu cür ağır beynəlxalq cinayətkarlığa qarşı mübarizə aparmaq məqsədilə İnterpolda bu sahə üzrə əməkdaşlar fəaliyyət göstərir. İnterpolun Baş Assambleyasının sessiyasında, konfranslarında uşaqların cinsi zorakılığı və pornoqrafiyasının yayılmasına qarşı məsələlər öz əksini tapır.

Hal-hazırda təhlükəli cinayətlərdən sayılan uşaq pornoqrafiyası internet saytlarında yayılmaqdadır. Bu da təəssüf ki, uşaq və gəncləri fahişəliyə cəlb edir, hətta cəmiyyətdə başqa insanlara da mənəvi təsir edir.

Uşaqların cinsi istismarı ilə bağlı cinayətlər aşağıdakılardır:

- Uşaq pornoqrafiyası;

[1] http://www.pravda.ru/society/how/defendriqhts/24-11-2011/1099833-Interpol-0

- Cinsi əlaqəyə yetkinlik yaşına çatmayanların cəlb edilməsi;
- Uşaq cinsi turizmi;
- Uşaq layihələri.

ABŞ-ın hüquq-mühafizə orqanlarının apardıqları statistikaya görə, cinsi zorakılığa məruz qalmış hər 5 uşaqdan biri internetdə yayımlanan uşaq pornoqrafiyasından bəhrələnməyin nəticəsində baş vermişdir. Bu cinayətlərin törədənlərin 70%-i qurbanların yaxın qohumları və ya dostlarıdır.[1] Dünyada uşaq pornoqrafiyasının yayılmasının və uşaq fahişəliyinin qarşısının alınması İnterpolun əsas diqqət yetirdiyi fəaliyyət sahələrindən biridir.

19 sentyabr 2005-ci il tarixində AFR-in Berlin şəhərində İnterpolun Baş Assambleyasının 74-cü sessiyası keçirildi. Həmin sessiyada dünyanın 182 ölkəsindən 600 nəfər hüquq-mühafizə və ekspert nümayəndələri iştirak edirdi. Sessiyanın gündəliyində əsas məsələ uşaq pornoqrafiyasının internetdə yayılmasına qarşı mübarizə idi. Sessiyada AFR Daxili İşlər naziri Otto Silli çıxış etdi və bildirdi ki, bu cür cinayətkarlığa qarşı mübarizə etmək üçün İnterpolun və hüquq-mühafizə orqanlarının üzərinə böyük vəzifələr düşür, ona görə də qüvvələri birləşdirmək, birgə mübarizə aparmaq lazımdır.[2]

Bundan başqa, 2008-ci ilin oktyabr ayında Rusiya Federasiyasının Moskva şəhərində İnterpolun Baş Assambleyasının 77-ci sessiyası keçirildi. Həmin sessiyada dünyanın 155 ölkəsindən və 23 beynəlxalq təşkilatından 700 nəfərə qədər nümayəndə iştirak edirdi. Sessiyada cinayətkarlığın, terrorizm, kibercinayətkarlıq və onun təhlükəli növlərindən biri olan uşaq pornoqrafiyası və fahişəliyin qarşısını almaq yolları müzakirə edildi və fikir mübadiləsi aparıldı.

Həmin tarixi sessiyada İnterpolun Baş katibi Ronald Nobl çıxış edərək bildirdi ki, İnterpolda yeni 1-27/7 telekommunikasiya sistemi yaradılmış və həmin üzv dövlətlər bu sistemə qoşulmuşlar ki, bu da beynəlxalq cinayətkarlıq, eyni zamanda uşaq pornoqrafiyasının qarşısının alınmasında böyük əhəmiyyətə malikdir.[3]

Bir faktı da qeyd etmək yerinə düşərdi ki, uşaq pornoqrafiyasının internetdə yayılmasının qarşısını almaq üçün dünyanın əksər ölkəsində qanunvericilik yoxdur. Uşaq pornoqrafiyasının yayılmasına qarşı yaradılmış Maliyyə Koalisiyasının icraçı direktoru Katerin Komminks BMT-nin Braziliyada keçirilən 12-ci konqresindəki çıxışında qeyd etmişdir ki, dünyanın 196 ölkəsində uşaq pornoqrafiyası ilə bağlı heç bir qanun yoxdur. O, milli dövlətləri bu sahədə qanunlar qəbul etməyə çağırmış və İnterpolla əməkdaşlıq etməyin vacib olduğunu qeyd etmişdir.

---

[1] http://arhanqe/85.int.ua/pubi/21-1-0-1
[2] http://www/crime-resarch.ru/news/19.09.2005/22.2
[3] http://old.nationaldense.ru/283/308/index.shtI?id=2256

1990-cı ildə uşaq pornoqrafiyasının yayılmasına və uşaq fahişəliyinə qarşı mübarizə aparmaq məqsədilə yaradılmış bu qurum böyük biznes mərkəzləri və kredit kompaniyaları olan American Express, Visa, Master Card və başqalarını özündə birləşdirən ABŞ və Avropa ölkələrinin nümayəndələrini özündə birləşdirir.[1]

4-7 iyun 2012-ci il tarixində Fransanın Lion şəhərində İnterpolun Baş Katibliyinin "Uşaqlar əleyhinə cinayətlərlə mübarizə" üzrə işçi qrupunun 30-cu iclası keçirildi və orada İnterpolun üzvü olan bütün ölkələr iştirak etmiş, bu təhlükəli cinayətin qarşısını almaq üçün maraqlı fikirlər səslənmiş və qərarlar qəbul edilmişdir.[2]

Uşaq pornoqrafiyasını özündə əks etdirən saytların və eləcə də təsvirlərin həmin saytlara daxil edilmə mənbələrinin aşkarlanması üçün İnterpolun Baş Katibliyi tərəfindən həyata keçirilən "SLEDYEHAMMER" əməliyyatı, uşaq pornoqrafiyasını özündə əks etdirən saytlara daxil olmaq üçün istifadə olunan "WEPAY" elektron sisteminin araşdırılması üzrə İnterpolun Baş Katibliyi və Belarus Respublikası tərəfindən keçirilən "TOR №AOO" əməliyyatı ilə bağlı müvafiq məlumat 2008-ci il tarixdə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinə təqdim edilmişdir.[3]

Nəticə olaraq göstərə bilərəm ki, hal-hazırda dünyada beynəlxalq cinayətkarlıq olan uşaq pornoqrafiyasının yayılmasının və onun qarşısının alınması məqsədiylə, İnterpolun üzvü olan və hətta üzv olmayan dövlətlər belə, bu cür cinayətlərə qarşı mübarizə aparmaq üçün qüvvələri daha da sıx birləşdirmək zəruridir.

**İnterpolun fəaliyyət sahələrindən biri də mütəşəkkil cinayətkarlığa qarşı mübarizədir**.

Son illər dünyada mütəşəkkil cinayətkarlıq geniş vüsət almışdır. Bu sosial təhlükə artıq bütün bəşəriyyəti bürüməkdədir. Təbii ki, ayrı-ayrılıqda heç bir ölkə, heç bir dövlət bu təhlükəni aradan qaldıra bilməz.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizə aparan İnterpolun fəaliyyətini qeyd edək.

İnterpol mütəşəkkil cinayətkarlığa qarşı mübarizə apararkən dünyanın beynəlxalq təşkilatı olan BMT ilə sıx əlaqədə fəaliyyət göstərir. Bir halda ki, İnterpol BMT ilə sıx əlaqədə olduğundan, onda mütəşəkkil cinayətlərə qarşı mübarizə anlayışının əsasına BMT tərəfindən istifadə olunan yanaşmalar qoyulmuşdur. Xüsusilə mütəşəkkil cinayətlər haqqında xəbərdarlıq və onunla mübarizədə cinayətkarlığın qarşısının alınması və hüquq pozucusu ilə rəftar haqqında BMT-nin VIII Konqresində qəbul olunan rəhbər prinsiplərdə

---

[1] http://www.unmuİtimedia-orq/radio/rusian/arehives/68762/

[2] MMB-nun cari arxivi. MMB-nun 9 aylıq xidməti fəaliyyətinə dair arayış, s.13.

[3] MMB-nun cari arxivi. MMB-nun xidməti fəaliyyətinə dair arayış. 2008, s.11 (əlyazma).

mövcud istiqamətlərdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi üzrə aşağıdakı tədbirlər məsləhət görülmüşdür:

1. Üzv-dövlətlərin uyğun idarələri arasında informasiya mübadiləsi əsas məna daşıyır, hansı ki, onu inkişaf etdirərək, gücləndirmək lazımdır;
2. Texniki əməkdaşlığı onun müxtəlif formalarında möhkəmləndirmək, yeni nailiyyətlər, təcrübə mübadiləsi məqsədiylə məsləhət xidmətlərini genişləndirmək və həmçinin ehtiyacı olan ölkələrə kömək göstərmək;
3. Pasport və nəqliyyat nəzarəti sahəsində müasir texniki vasitələrdən istifadə etmək lazımdır və həmçinin beynəlxalq oğurluq və ya ötürülmə, qanunsuz beynəlxalq təchiz üçün istifadə olunan avtomobil, gəmi, təyyarə və başqa nəqliyyat vasitələrinin axtarışı və aşkarlanması üçün qüvvələrin genişləndirilməsi;
4. Hüquq-mühafizə orqanlarının fəaliyyəti, maliyyə sənədləri və hüquq pozucusu haqqında informasiyanın məxfiliyin qorunması qaydası ilə saxlayan məlumatlar (verilənlər) bazasını yaratmaq və genişləndirmək;
5. Birinci növbədə məhkəmə tədqiqatı materiallarının verilməsi və hökmün icra olunması, qanunsuz mülkiyyətin müsadirəsi və həmçinin çıxarılmasında qarşılıqlı yardıma diqqət ayırmaq;
6. Beynəlxalq mütəşəkkil cinayətkarlıq zəminində məlumatların uzlaşdırılmış analizinin və toplanmasının aparılmasına yardım göstərmək lazımdır və dövlətdaxili qeyri-sabitliklə bağlı və cinayətkarlığın başqa formaları və həmçinin cinayətkarlığın qarşısının alınması və onunla mübarizə səbəblərinin axtarılması.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlıq təşkilatı üzrə keyfiyyətcə yeni tapşırıqlar BMT-nın transmilli mütəşəkkil cinayətkarlığa (2000-ci il) və rüşvətxorluğa (2003-cü il) qarşı beynəlxalq sazişində formalaşdırılmışdır.[1] Beynəlxalq sazişdə nəzərdə tutulur ki, rüşvətxorluq və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə üzrə İnterpol beynəlxalq əməkdaşlıq təşkilatında onların icraedici subyektidir.

İnterpol üçün transmilli mütəşəkkil cinayətkarlığa qarşı BMT-nın beynəlxalq sazişində nəzərdə tutulan bir sıra məlumatlar əsas məna daşıyır, hansı ki, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlıq məqsədiylə informasiya mübadiləsinə daxil etmək lazımdır:

- Mütəşəkkil cinayətkar qrupların eyniləşdirici məlumatları, xasiyyəti, üzv tərkibi, quruluşu, yerləşdiyi yer və fəaliyyəti;

---

[1] Годунов И.В. Противодействие организованной преступности: учебное пособие для юридических и экономических направлений и специальностей вузов. Москва: 2003. с.306-307.

- Beynəlxalq və həmçinin başqa mütəşəkkil cinayətkar qruplarla əlaqə;
- Mütəşəkkil cinayətkar qrupların törətdiyi və ya törədə biləcəyi cinayətlər;
- Mütəşəkkil cinayətkar qrupların işlətdikləri konkret vasitə və metodlar, lazım olan hallarda marşrut və nəqliyyat vasitələrinin və həmçinin saxta şəxsiyyət vəsiqələrinin istifadəsi, dəyişdirilmiş və ya saxta sənədlərin və yaxud onların fəaliyyətlərini ört-basdır edən başqa vasitələri daxil etməklə;
- Belə cinayətlərin törədilməsi nəticəsində əldə olunan gəlir və əmlakların bir yerdən başqa yerə köçürülməsi;
- Bu cür cinayətlərin törədilməsi zamanı istifadə və təxsis edilən mülklərin, qurğuların və başqa vasitələrin yerinin dəyişdirilməsi;
- Hüquq-mühafizə orqanlarının işində istifadə olunan müasir avadanlıq və metodlar və həmçinin nəzarətdə olan təchizin və casusluq əməliyyatlarının elektron müşahidəsi;
- Kompüter, telekommunikasiya şəbəkələri və müasir texnologiyanın başqa vasitələrinin istifadəsi ilə törədilən cinayətlərin transmilli mütəşəkkil cinayətlərə qarşı mübarizə metodları;
- Şahid və zərərçəkənlərin müdafiəsi zamanı istifadə olunan metodlar.

Əlavə məlumat BMT-nın transmilli cinayətlərə qarşı beynəlxalq sazişinə əlavə olaraq 3 protokolun tərkibindədir:

- İnsan alveri və xüsusilə də qadın və uşaqlarla ticarətin qarşısının alınması və xəbərdarlığı;
- Hava, dəniz və quruda mühacirlərin qanunsuz daşınmasına qarşı;
- Odlu silahların, onların tərkib hissələrinin və komponentlərinin və həmçinin onların ehtiyat hissələrinin qanunsuz dövriyyəsi və hazırlanmasına qarşı. [1]

**Beynəlxalq Cinayət Polisi təşkilatı İnterpolun əsas fəaliyyət sahələrindən biri də insan hüquqlarının müdafiəsidir**

İnsan hüquqları – onun genezisi, sosial kökləri, məqsəd və rolu bəşəriyyətin tarixi, sosioloji-mədəni inkişafı prosesində mühüm problemlərdən biri olmuşdur. Uzun illər boyu siyasi, hüquqi, etik, dini və fəlsəfi fikir diqqət mərkəzində olmuşdur.

Müasir dünyada insan hüquqları xalqların milli mədəniyyətinin ayrılmaz hissəsinə, bəşəriyyətin mənəvi, hüquqi və siyasi ideyalarının ali təzahürünə çevrilib. İnsan hüquqlarını qorumaq və onlara hörmət etmək hər bir dövlətin əsas məsuliyyətidir. İnsan haqlarına hörmət etmək xalqlar, dövlət-

[1] Ялышев С.А., Самошина О.А. Интерпол в борьбе с организованной преступностью // Вестник криминалистики. 2004. №3(11).-С. 55-59.

lər arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsinə şərait yaradır.

Fərqli din, mədəni köklərə malik ölkələrdə birgə yaşamaq üçün düzgün inteqrasiya tapılması vacibdir. Bunun üçün hər bir xalqın fundamental dəyərlərinə və insan hüquqlarına hörmətlə yanaşmalı, qeyri-tolerantlığın qarşısı alınmalıdır. Bu, bütün dövlətlər üçün siyasi zərurət, mənəvi tələb, qanuni öhdəlik olmalıdır.

İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiə məsələləri XX əsrin ortalarında daha da inkişaf etməyə başlamışdır. Bunu BMT Nizamnaməsinin 1948-ci il tarixli “Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt”ın və s. qəbulu da sübut edir.[1]

İnterpolun Nizamnaməsinin 2-ci maddəsinin tətbiqində İnterpol “İnsan hüquqları ümumi bəyannaməsi ruhunda” fəaliyyət göstərir. Bu mövqe birincisi, İnterpolun üzərinə öz fəaliyyətini həyata keçirərkən insan hüquqlarının yerinə yetirilməsinin təmini və ona hörmətin genişləndirilməsi məsuliyyətini qoyur. İkincisi isə, beynəlxalq polis əməkdaşlığı sistemində insan hüquqlarının qiymətləndirilməsini daxil edir, hansı ki, hər şeydən əvvəl bu ondan ibarətdir ki, bir tərəfdən təqdim olunmuş polis məlumatları təşkilatın üzvü olan başqa dövlətlərə də mümkün olsun.

Bu yönümdə İnterpolun arxivlərə daxili nəzarət və beynəlxalq polis əməkdaşlığı qaydaları polis məlumatlarının emalı zamanı insan hüquqlarının yerinə yetirilməsinə tam ölçüdə münasibət göstərir. Qaydalarda deyilir ki, onların əsas məqsədi “yanlış istifadədən və xüsusilə insan şəxsiyyətinə toxuna bilən hər hansı bir təhlükədən qaçmaq məqsədilə İnterpolun polis əməkdaşlığı sisteminə daxil edilmiş emal və ötürülən polis məlumatlarının müdafiəsi”dir.

Baş Katiblikdə saxlanılan nominal məlumatları idarə edən müxtəlif sənədlərin bu tələbə uyğun olmasına nəzarət etməsi üçün məhz bu tələbi yerinə yetirməsi qaydalarına müvafiq olaraq Müşahidəçi Şurası yaradıldı.

İnterpol öz fəaliyyətinin müxtəlif sahələrində insan hüquqlarının yerinə yetirilməsinin təmininə istiqamətlənmiş bir neçə təşəbbüslə çıxış etmişdir.

Hələ 1949-cu il Bern şəhərində İnterpolun Baş Assambleyasının 18-ci sessiyasında qətnamə qəbul edilmişdir. Hansı ki, orada öz polis funksiyalarını yerinə yetirərkən etdikləri insan ləyaqətini tapdalayan bütün zorakılıq hərəkəti və qeyri-humanist münasibətlərin ədalət məhkəməsinə verilməsindən danışılır. Qətnamə, həmçinin, polis kadrları hazırlayan bütün məktəblərdə insan hüquqlarının tanınmasını, cinayət qanunçuluğunu pozmaqda şübhəli bilinən və ya hər hansı bir insanın ədalətli və humanist münasibətinin xüsusi əhəmiyyət verilməsini məsləhət görmüşdür.

---

[1] Əliyev İ.Ş. İnsan hüquqarı sahəsində beynəlxalq müqavilələr // Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumat bülleteni. 2012, №2, s. 102.

1994-cü ildə Romada keçirilən İnterpolun Baş Assambleyasının 63-cü sessiyasında qəbul edilmiş qətnamədə polis kolleclərində insan hüquqları haqqında təlimin keçirilməsinin təmini üçün götürülən ölçülərin genişləndirilməsi təşkilatın üzvlərinə məsləhət görülmüşdür. Nəticədə bu qətnamənin yerinə yetirilməsi ilə bağlı bütün nailiyyətlər haqqında Baş Katibliyi məlumatlandırmaq xahişi ilə, üzv ölkələrə təmimnamələr göndərilmişdir.[1]

Xüsusilə qeyd etmək lazımdır ki, İnterpol BMT-nin İnsan Hüquqları Komissiyası ilə sıx əməkdaşlıq şəraitində işləyir. Komissiya İnterpola qəbul etdiyi sənədlər haqqında məsləhətlər verir.

Həmçinin bir sıra beynəlxalq normativ aktlar qəbul edilmişdir, hansı ki, orada insan hüquqları Ümumi deklarasiyasına və insan hüquqlarının pozulması tərkibli beynəlxalq cinayət hüququnun əsaslarının formalaşmasına praktiki məna verilməsinə çağırılmışdır. Beynəlxalq Cinayət Polisi təşkilatı İnterpol Nizamnamənin 2-ci maddəsinin yerinə yetirilməsinə görə, bu cür sənədlərdə ifadə edilən normalar üzrə hərəkət edir və həmişə üzv dövlətlərə bu beynəlxalq normativ aktları təsdiq etmələrini məsləhət görür.

İnsan hüquqlarının ən vacib qarantlarından biri İnterpolun Nizamnaməsinin 3-cü maddəsidir. Hansı ki, orada təşkilatın siyasi, hərbi, dini və irqi işlərə qarışmasını qadağan edən qanunlar möhkəmləndirilir. İnterpolun Baş Assambleyasının 75-ci sessiyasında İnterpolun müstəqilliyini və siyasi neytrallığını təsdiq edən xüsusi bəyanat qəbul edilmişdir. Bununla yanaşı, İnterpolda işgəncədə müqəssir bilinən şəxslərin ekstradisiyasından imtinanın bəraət qazanması üçün siyasi əsaslar istifadə olunmur.

İnsan alveri və başqalarının fahişəlikdə istismarı konvensiyasında (beynəlxalq saziş) nəzərdə tutulur ki, başqa insanın fahişəlikdə istismarı, saxlanması və idarəsi və ya dərk olunaraq maliyyələşdirilməsi və ya fahişəxananın maliyyələşdirilməsində iştirak və bilərəkdən evin və ya yerin fahişəlik məqsədilə kirayə verilməsi dövlətlərarası tərəflərin qanun pozuntusu kimi baxılacaqdır. İnterpol siyasi motivli qanun pozucusunun ekstradisiyasından imtina etmir.

Əlavə konvensiya köləlik barəsində köləliyin ləğvi, iş alveri və həmçinin köləlik kimi institut və praktikaların, kölələrin bir ölkədən başqa bir ölkəyə gətirilməsi hərəkətləri və ya buna yardım göstərilmə dövlətlər arası tərəflərin qanunlarına görə hüquq pozuntusu kimi sayılacaqdır. Hər il Baş Katiblik MMB-dan onlara məlum olan hər hansı bir köləlik hadisəsi haqqında xəbər verməsini xahiş edir. Bu məlumat əsasında insan hüquqları mərkəzinə BMT yekun hesabat göndərir.[2]

---

[1] Калужина М.А. Информационное обеспечение организации противодействия торговле людьми по каналам интерпола // http://center-bereg.ru/h1409.html

[2] Овчинский В.С. Интерпол в вопросах и ответах…, с.48-49.

İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi İkinci Dünya müharibəsindən sonra daha da sürətlə inkişaf etməyə başlamışdır. Bu sahədə dövlətlərin əməkdaşlıqlarının əsas əlaqələndirmə mərkəzi isə, yuxarıda deyildiyi kimi, BMT-dir. Belə ki, BMT iqtisadi, sosial və səhiyyə sahəsində problemlərin beynəlxalq həlli, mədəniyyət və təhsil sferasında beynəlxalq əməkdaşlıq, irqinə, cinsinə, dininə görə ayrı-seçkiliyə yol vermədən hamı üçün əsas insan hüquq və azadlıqlarına əməl və hörmət edilməsinə yardım etmişdir.

**İnterpolun fəaliyyət istiqamətlərindən biri də beynəlxalq cinayətkarlığın təhlükəli növlərindən biri olan korrupsiyadır**.

İnterpolun iştirakı ilə 1999-cu ilin fevral ayının 24-26-da Vaşinqtonda ABŞ-ın vitse-prezidenti Albert Qorun, sədrliyi ilə ədliyyə, hüquq-mühafizə orqanlarında korrupsiya ilə mübarizəyə həsr edilmiş ümumdünya forumu keçirilmişdir. Forumda 90 dövlətin nümayəndəsi, BMT, ATƏT, Avropa Komissiyası, Avropa Şurası, Gömrük təşkilatı, İnterpol və digər nüfuzlu beynəlxalq təşkilatlar təmsil edilmişdir.

Forumu ABŞ-ın Dövlət katibi Madlen Olbrayt açmışdır. Sonra ABŞ-ın vitse-prezidenti Albert Qor iştirakçıları salamlamış, forumun əhəmiyyətindən danışmışdır. Qeyd olunmuşdur ki, korrupsiya ayrılıqda heç bir ölkənin problemi deyil, bütövlükdə ümumbəşəri problemdir və bu sahədə bütün ölkələrin səylərinin birləşməsini tələb edir. Forumda 30-a yaxın ölkənin nümayəndə heyətlərinin başçıları, beynəlxalq təşkilatların və korrupsiyaya qarşı mübarizə üzrə beynəlxalq ekspertlər çıxış etmişlər. [1]

- İnterpolun Baş Katibliyi tərkibində bu cinayətkarlığa qarşı qrup yaradılmışdır. 24-28 sentyabr 2001-ci ildə Budapeşt şəhərində İnterpolun Baş Assambleyasının 70-ci sessiyasında korrupsiyaya qarşı mübarizə məqsədilə qətnamə mətni qəbul edilmişdir.

## 1.3. İnterpol beynəlxalq təşkilatlar çərçivəsində

İnterpol bütün fəaliyyət sahələrində dünyanın bir neçə beynəlxalq təşkilatları ilə münasibətlər saxlayır. Dünyanın mötəbər təşkilatı olan BMT və onun ixtisaslaşmış sahələri ilə İnterpol sıx münasibətlər qurur.

Cinayətkarlıqla mübarizə beynəlxalq əməkdaşlığın mühüm sahəsi hesab olunur. Bütövlükdə beynəlxalq cinayətkarlığın artması cinayətkarlıqla mübarizəyə, xüsusilə də onun qarşısının alınmasına çoxsaylı beynəlxalq təşkilatların yaranmasına səbəb olmuşdur. Qeyd olunan təşkilatlar arasında öz

[1] Korrupsiyaya qarşı mübarizəyə həsr olunmuşdur // Mübariz keşikdə, 1999, 4 mart, №(2421). Azər.Tac.

rəsmi statistikasına görə dünya dövlətlərinin və beynəlxalq təşkilatların fəaliyyətinin əlaqələndirilməsinin vahid universal mexanizmi və mərkəzi sayılan BMT xüsusi yer tutur. BMT cinayətkarlıqla mübarizədə dövlətlərin və beynəlxalq təşkilatların fəaliyyətini əlaqələndirən ümumtanınmış mərkəz hesab edilməklə yanaşı, həm də müvafiq sferada əməkdaşlığın vahid standart və normalarının müəyyən olunması, məcəlləşdirilmiş konvensiyaların, nümunəvi müqavilələrin və digər beynəlxalq hüquqi aktların qəbul edilməsi yolu ilə bu sahəyə öz töhfəsini bəxş etmişdir.

BMT Təhlükəsizlik Şurası sülh və təhlükəsizlik əleyhinə törədilən cinayətlərə, məsələn təcavüzlə əlaqədar dövlətlərdən daxil olan şikayətlərə baxır, eləcə də daha təhlükəli terror aktları ilə mübarizə məsələlərini müzakirə edir. Bununla yanaşı, BMT katibliyində BMT-nin Baş katibliyinə və katibliyə öz məsləhətlərini hazırlayan, cinayətkarlığın qarşısının alınması və cinayət mühakiməsi üzrə xüsusi bölmə fəaliyyət göstərir. Beynəlxalq hüquq komissiyası isə yüzlərlə beynəlxalq sənədləri, xüsusilə daha təhlükəli beynəlxalq cinayətlərlə mübarizədə mühüm rol oynayan sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayət məcəlləsinin layihəsi, o cümlədən beynəlxalq cinayət məcəlləsinin statusunu hazırlamışdır. BMT-nin əsas orqanlarından olan BMT-nin beynəlxalq məhkəməsində dövlətlər konkret işə baxılması çərçivəsində beynəlxalq cinayətlərlə mübarizə məsələlərini qoyur və həll edirlər. cinayətkarlıqla mübarizə üzrə dövlətlərin əməkdaşlıq layihəsinin əlaqələndirilməsi BMT-nin İqtisadi və Sosial Şurası çərçivəsində bir neçə köməkçi orqan fəaliyyət göstərir. Məsələn, Beynəlxalq Terrorizm üzrə Komissiya, Cinayətkarlığın qarşısının alınması və onunla mübarizə üzrə Komitə. Hal-hazırda bu komitə Cinayət mühakiməsi üzrə Komissiya il əvəz edilmişdir.[1]

Cinayətkarlığın qarşısının alınması və onunla mübarizə üzrə Komitənin əsas xidməti cinayətkarlığın qarşısının alınması və cinayətkarlıqla davranış üzrə BMT konqreslərinin keçirilməsidir. Burada cinayətkarlıqla mübarizədə dövlətlərin beynəlxalq əməkdaşlığının prinsipləri məsələləri nəzərdən keçirilmiş və bu barədə mühüm tövsiyələr qəbul edilmişdir. Dövri olaraq 5 ildə bir dəfə keçirilən həmin konqreslərin keçirilməsindən əvvəl regional hazırlıq konfransları təşkil olunur. Həmin konqreslərə üzv dövlətlərin cinayətkarlıqla mübarizə üzrə mütəxəssisləri ilə yanaşı, BMT-nin ixtisaslaşmış və digər beynəlxalq təşkilatların nümayəndələri də iştirak edirlər.

Onu da qeyd etmək lazımdır ki, BMT çərçivəsində keçirilən həmin konqresdə üzv dövlətlərin cinayətkarlıqla mübarizə üzrə mütəxəssisləri ilə yanaşı, insan hüquqlarının müdafiəsinin müxtəlif aspektləri (xüsusilə yetkinlik yaşına çatmamışlar və qadınlarla əlaqədar) ilə bağlı məsələlərə də

[1] Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı: 2009, s.162-163.

diqqət yetirilmişdir. Məsələn, 1955-ci ildə Cenevrədə keçirilən 1-ci konqresdə həbs edilmiş şəxslərlə rəftara dair minimal standart qaydalar qəbul edilmişdir.

1960-cı ildə Londonda keçirilən 2-ci konqresdə azadlığa buraxılmış şəxslərin cəmiyyət daxilində həyata keçirilməsi ilə bağlı məsələləri göstərmək olar. Belə ki, məhkum edilmiş şəxslərin azadlığa buraxılmasından sonra sosial reabilitasiyası cinayət qanunvericiliyi məqsədlərindən biri hesab edilməsinə baxmayaraq, həm də konkret şəxsə münasibətdə hüquq və azadlıqların bərqərar edilməsi problemi ilə birbaşa olaraq əlaqədardır. Bundan əlavə, 1975-ci ildə Cenevrədə keçirilən V konqresdə isə, 1979-cu ildə BMT tərəfindən qəbul edilmiş “Hüquq qaydalarının qorunmasına dair vəzifəli şəxslərin davranış qaydaları” məsələləri işlənib hazırlanmışdır.

1985-ci ildə Milanda keçirilən VII konqresdə “Yetkinlik yaşına çatmayanlarla münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə dair” BMT-nin minimal standart qaydaları (Pekin qaydaları), azadlıqdan məhrum etmə cəzası ilə bağlı olmayan tədbirlərə münasibətdə BMT-nin minimal standart qaydaları (Tokio qaydaları), məhkum olunmuş əcnəbilərin verilməsi haqqında nümunəvi saziş, eləcə də məhkum olunmuş əcnəbilərlə rəftarla bağlı çoxsaylı tövsiyələr və s. qəbul edilmişdir. Yetkinlik yaşına çatmayan şəxslərlə bağlı həyata keçirilən ədalət mühakiməsinin prinsiplərini özündə təsbit edən Pekin qaydalarında aşağıdakı müvafiq rəhbər başlanğıclar öz əksini tapmışdır: yetkinlik yaşına çatmayan şəxsin azadlığının məhdudlaşdırılmasının, minimum səviyyə nəzərə alınmaqla, həyata keçirilməsi; yetkinlik yaşına çatmayan şəxslərlə bağlı işə baxılarkən müəyyən amillərin nəzərə alınması; müvafiq şəxslər tərəfindən törədilmiş hər hansı cinayətə görə ölüm hökmü çıxarılmaması; yetkinlik yaşına çatmayan şəxslərin cismani cəzaya məruz qalmaması və s.

1990-cı il tarixdə Havanada keçirilən IX konqresdə qəbul olunan “Şəxslər və cinayətkarlıqla mübarizə istiqamətində insan hüquqlarının qorunması” meyarını özündə ifadə edir. Məsələn, cinayətkarların verilməsi və cinayət işləri üzrə hüquqi yardım haqqında nümunəvi müqavilə, şərti məhkum olmuş və ya şərti azadlığa buraxılmış hüquq pozucuları üzərində nəzarət haqqında nümunəvi müqavilə, ədalət məhkəməsini həyata keçirən şəxslərin roluna dair rəhbər prinsiplər, azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT qaydaları, yetkinlik yaşına çatmayan şəxslər arasında cinayətkarlığın qarşısının alınması barədə BMT-nin rəhbər prinsipləri, həbs edilmiş şəxslərlə rəftar edilməsi haqqında əsas prinsiplər, hüquqşünasların roluna dair əsas prinsiplər və s.

2000-ci ildə Vyanada keçirilən X konqres aşağıdakı məsələləri müzakirə etməklə, nəinki Beynəlxalq Cinayət Hüququnu və onun ayrı-ayrı insti-

tutlarını inkişaf etdirdi, eləcə də cinayətkarlıqla beynəlxalq mübarizənin həyata keçirilməsi sahəsində insan hüquqlarının qorunması işinə öz dəyərli töhfəsini bəxş etdi: qanunçuluğun gücləndirilməsi və cinayət işi üzrə ədalət mühakiməsinin möhkəmləndirilməsi; transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq; XXI əsrdə yeni çağırışlar; cinayətkarlığın qarşısının səmərəli şəkildə alınması; hüquqpozucular və cinayətin qurbanları; ədalət mühakiməsinin həyata keçirilməsi prosesində dəqiqlik və ədalətlilik.

Müvafiq tədbirdə qəbul olunan "Cinayətkarlıq və ədalət mühakiməsi; XXI əsrin çağırışına cavab" adlı bəyannamədə terrorçuluğun müxtəlif forma və təzahürlərinin həyata keçirilməsinə kömək edən cinayətkar fəaliyyətin qarşısının alınması, həmçinin belə hərəkətlərlə mübarizə üzrə BMT-nin səmərəli, həlledici və təxirəsalınmaz tədbirlər görmək imkanına malik olması xüsusilə vurğulanmışdır.

2005-ci ildə Tailandda keçirilmiş XI konqresdə müzakirə olunan məsələlər, habelə BMT-nin Baş katibinin məruzəsi bilavasitə hüququn aliliyi, demokratiya və insan hüquqlarının möhkəmləndirməsi problemlərinin həllinə yönəldilmişdir.[1]

İnterpol BMT-nin bütün konqreslərinin qəbul etdiyi hüquqi sənədlərin icra edilməsində yaxından iştirak edir. BMT ilə əməkdaşlıq haqqında razılaşma, yuxarıdakı paraqrafda qeyd olunduğu kimi, İnterpolun prezidenti və BMT-nin Baş katibi tərəfindən 1997-ci ildə BMT-nin Nyu-Yorkdakı qərargahında imzalanmışdır. Razılaşma İnterpolun Baş Assambleyasının Hindistanın Dehli şəhərində keçirilən 66-cı sessiyasında qəbul etdiyi sərəncam əsasında qüvvəyə minmişdir.

Bu razılaşma iki təşkilatın əməkdaşlıq edəcəkləri sənəd və məlumatların mübadiləsi layihələrini, texniki əməkdaşlıq və birgə fəaliyyət üçün yolların açılmasını, hər bir təşkilat tərəfindən təşkil olunan görüşlərdə qarşılıqlı iştirakı təmin edir.

İnterpolun münasibət saxladığı köməkçi xidmətlərə (informasiyanın birlikdə istifadəsi, görüşlərdə iştirak, məsləhətlər və s.) daxildir.

- Narkotiklə bağlı məsələlərdə;
- Narkotiklər üzrə şöbə;
- Narkotiklərə nəzarət Beynəlxalq Məclisi;
- BMT-nin Narkotiklərdən Sui-istifadə Fondu;
- Narkotiklərə nəzarət BMT-nin Beynəlxalq Proqramı.
- İnsan hüquqları problemləri üzrə:
- İnsan hüquqları mərkəzi (azlıqlar qrupu, ayrı-seçkilik, köləlik, işgəncə və s. bağlı olan bütün məsələlər).

---

[1] Карташкин В.А. Право человека международная защита в условиях глобализации. Москва: 2009, с.165-166.

- Baş Cinayət Qanunları məsələləri:
- Cinayətin qarşısını alma və Baş Cinayət Qanunları şöbəsi.
- Ətraf mühit problemləri üzrə:
- BMT-nin və CİTES katibliyinin ətraf mühit proqramı.[1]

Bundan başqa, İnterpol BMT-nin sistemində olan aşağıdakı bir sıra institutlar və agentliklərlə də münasibət saxlayır:

- Romada BMT-nin Sosial Müdafiə üzrə Elmi-Tədqiqat İnstitutu;
- Asiya və Uzaq Şərq ölkələri üçün cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar haqqında BMT-nin Tokio İnstitutu;
- Latın Amerikası ölkələri üçün cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar haqqında BMT-nin İnstitutu;
- Şimali və Mərkəzi Avropada cinayətkarlığın qarşısının alınması və onunla mübarizə haqqında Helsinki və Milanda BMT İnstitutu;
- BMT-nin Qahirədə Sosial və Kriminoloji Tədqiqatlar Mərkəzi;
- Mülki Aviasiya Təhlükəsizliyi, mülki aviasiyanın qanunsuz hərəkəti zamanı onun qarşısının alınması və susdurulması məsələləri üzrə Mülki Aviasiyanın Beynəlxalq Təşkilatı (İCAO);
- Psixotrop maddələrin sui-istifadəsi ilə bağlı məsələlərdə Beynəlxalq Səhiyyə Təşkilatı;
- İnterpolun telekommunikasiya şəbəkəsi xüsusi problemlərinə dair məsələlərdə Beynəlxalq Telekommunikasiya İttifaqı;
- Müəlliflik hüququ daxil olmaqla, mülkiyyət pozuntuları ilə bağlı məsələlərdə İntellektual mülkiyyətin Ümumdünya Təşkilatı;
- Bütün vilayətlərdə təşkilatın poçt xidməti ilə bağlı, cinayətlərə qarşı fəaliyyətinin yaxşılaşdırılması üçün, Ümumdünya Poçt İttifaqı;
- Radioaktiv və nüvə maddələrinin köçürülməsinə qarşı mübarizə üçün Atom Enerjisi üzrə Beynəlxalq Agentlik;
- Dəniz quldurluğuna aid məsələlərdə Beynəlxalq Dəniz Təşkilatı;
- Qəza qurbanlarının eyniləşdirilməsi Humanitar İşlər Departamenti;
- YUNESKO milli, mədəni və bədii irsin müdafiəsi mövzusuna aid olan və incəsənət əsərlərinin oğurlanmasının qarşısının alınması məsələlərində.[2]

İnterpolun BMT-nin himayəsi altında qəbul olunmuş aşağıdakı konvensiyalara qoşulmasını qeyd edək:

- Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni daşınması haqqında BMT-nin konvensiyası (Vyana 1988-ci il) (maddə 7(8):

---

[1] Федоров В.И. Организация объединенных наций, другие международные организации и их роль в 21 веке. Москва: 2007 г., с.150.
[2] Rəcəbli N.M. BMT-nin ixtisaslaşdırılmış qurumları. Bakı: 2003, s.155.

- "Ədliyyə yardımı və hər hansı bir ona aid olan əlaqələr haqqında sorğuların verilməsi göstərilən tərəflərin hökumətləri arasında aparılır. Bu tələbnamə tərəfə, qeyd şərtsiz olaraq, belə sorğu və məlumatların ona diplomatik kanallar və təcili hallarda, əgər mümkünsə tərəflərin razılığı ilə, İnterpolun kanalları vasitəsilə ünvanlanmasının tələb etmək hüququ verir.
- BMT-nin ekstradisiya haqqında standart müqaviləsi (1990-cı il) (maddə 9 (1) (müvəqqəti həbs): "Təcili hallarda sorğu göndərən dövlət ekstradisiya haqqında sorğunun göndərilməsini gözləyərkən adamın qabaqcadan həbs edilməsi xahişini edə bilər. Əgər Beynəlxalq Cinayət Polisi Təşkilatı vasitəsilə informasiya yazılı surətdə təqdim edilmə formasında poçt və ya teleqraf və yaxud da hər hansı bir vasitə ilə göndərilməlidir");
- Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Beynəlxalq konvensiya (saziş) (1999-cu il) (b.4 s. 18: "Üzv dövlətlər Beynəlxalq Cinayət Polisi Təşkilatı (İnterpol) vasitəsilə informasiya mübadiləsi apara bilər");
- Transmilli mütəşəkkil cinayətkarlığa qarşı BMT-nin konvensiyası (2000-ci il) (b.13 s. 18) və rüşvətxorluğa qarşı BMT-nin konvensiyası (2003-cü il) (b.13 s.46): "Qarşılıqlı hüquqi yardım göstərilməsi xahişi və ona aid hər hansı bir məlumat üzv dövlətlərin təyin etdikləri mərkəzi təşkilatlar tərəfindən göndərilir. Bu tələbnamə belə xahiş və məlumatların diplomatik kanallar və fövqəladə hallarda üzv dövlətlər bu haqda razılaşma əldə ediblərsə, əgər mümkünsə, İnterpol vasitəsilə göndərilməsi üzv dövlətlərin tələb etmə hüququna ziyan gətirmir".

1998-ci ildə ABŞ-ın Nyu-York şəhərində BMT Baş Assambleyasının XX xüsusi sessiyası öz işinə başlamışdır. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalı, satışı, tələbatı, dövriyyəsi, yayılması və bununla bağlı qanunsuz fəaliyyətlə mübarizə haqqında məsələlərin baxılmasına həsr olunan xüsusi sessiyada BMT-yə üzv olan bir çox dövlətlərin başçıları, hüquq-mühafizə və İnterpolun nümayəndələri iştirak etmişlər. Xüsusi sessiya 3 gün davam etmiş, maraqlı məsələlər müzakirə edilmişdir.[1]

İnterpolla cinayətkarlığa qarşı mübarizə məqsədilə keçirilən bir neçə tədbirdə iştirakını qeyd etmək yerinə düşərdi:

1-5 mart 1999-cu il tarixdə İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) və BMT-nin "Narkotiklərə nəzarət üzrə beynəlxalq Proqram" Tehran şəhərində "İqtisadi regionda narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə əlaqədar, cina-

[1] Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 1998, №20 (2384).

yətkarlığa qarşı mübarizənin hüquqi cəhətləri" mövzusunda seminar keçirilmişdir. Seminarın işində Azərbaycan Respublikasında İnterpolun MMB-nin, DİN-in, Azərbaycan Respublikası prokurorluğunun, Ədliyyə Nazirliyinin, Bakı Şəhər Məhkəməsinin məsul işçiləri iştirak etmişlər. İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Ömər Ötər, İranın Baş prokuroru Novratalan, BMT-nin Narkotiklərə nəzarət üzrə Beynəlxalq proqramının nümayəndəsi Bernard Zepoy bu tədbirin narkomaniya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əhəmiyyətini qeyd etmişlər.

Seminarın plenar iclasında narkotiklərə qarşı mübarizə problemləri ilə bağlı bir sıra məsələlər müzakirə edilmiş və fikir mübadiləsi aparılmışdır.[1]

2000-ci ilin iyun ayında BMT-nin ixtisaslaşmış qurumlarından biri olan Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) İnterpolun Baş Katibliyi ilə birgə Vyana şəhərində nüvə və digər radioaktiv maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə təşkil etdiyi təlim kursunda iştirakçılar MAQATE-nin radioaktiv maddələrin qanunsuz dövriyyəsi üzrə proqramlar və yaradılmış məlumat bazası ilə tanış edilmiş, onlara gələcəkdə bu proqram çərçivəsində fəaliyyət göstərmək tövsiyə edilmişdir.[2]

2003-cü ilin mart ayında Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 3 gün müddətində, BMT-nin Ali Komissarlığının layihəsi çərçivəsində təşkil olunmuş təlimdə hüquq-mühafizə təlimi sahəsində çalışan polis əməkdaşlarının, təlimçilərinin, polis orqanları rəhbərlərinin "insan hüquqları təlimi" üzrə metodologiyasına yiyələnməsi məqsədi daşıyırdı. Bu təlimdə İnterpol əməkdaşları da iştirak etmişdir.[3]

2010-cu ilin aprel 12-19-da Braziliyanın Salvador şəhərində, BMT-nin cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsinə dair, XII konqres keçirilmişdir. Bu tədbirdə demək olar ki, dünyanın bütün ölkələrini təmsil edən 3 minədək nümayəndə, o cümlədən Ədliyyə, Daxili İşlər Nazirliyi əməkdaşları, Baş prokurorlar, İnterpolun yüksək vəzifəli şəxsləri iştirak etmişlər. Bu mötəbər tədbirdə Azərbaycan Respublikasında İnterpolun yüksək vəzifəli şəxsləri və Azərbaycan Respublikasının Ədliyyə Naziri Fikrət Məmmədov iştirak etmiş, Braziliyanın Ədliyyə Naziri Luis Paulo konqresin prezidenti, Azərbaycan Respublikasının Ədliyyə naziri isə vitse-prezidentlərdən biri seçilmişdir.

---

[1] Kərimov Y. Tehranda narkotiklərlə mübarizə mövzusunda seminar // Azərbaycan, 1999, 10 mart, №54(2167).

[2] MMB-nun cari arxivi. 2000-ci ilin xidməti fəaliyyətinə dair arayış 20 səhifədə əlyazma şəklində, s.15.

[3] 2003-cü ilin martında Azərbaycan Respublikasının Prezidenti respublikanın paytaxtı Bakı şəhərində 3 gün müddətinə "BMT-nin Ali Komissarlığı" layihəsi çərçivəsində seminarda iştirak etmişdir // Mübariz keşikdə, 2003, 6 mart, №9 (2619).

Nümayəndə heyətinin üzvləri gündəliyin əsas məsələləri olan terrorçuluq, kiber cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə, Beynəlxalq hüquqi yardımın səmərəliyi mövzusunda maraqlı çıxışlar olmuşdur. Bu beynəlxalq toplantıda BMT, Avropa Şurası, İnterpolun rəhbərliyi ilə görüşlər keçirilmiş və təcrübə mübadiləsi aparılmışdır.[1]

2013-cü il 18 mart tarixində Bakı şəhərində Azərbaycan hökumətinin, BMT-nin və İSESCO-nun təşkilatçılığı ilə "Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda terrorizm, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə, Erməni terrorizminin Azərbaycan xalqına qarşı törətdiyi fəlakətlər pislənmişdir.[2]

Daha bir faktı da qeyd etmək yerinə düşərdi. 2001-ci il 11 sentyabrda ABŞ-da terrorist hücumlarından sonra İnterpolla BMT arasında olan münasibətlər bu qaydadadır. BMT-nin TŞ-sı 2001-ci ilin 29 iyunda 1617 saylı qətnamə qəbul etmişdir. Qətnamədə göstərilir ki, Əlqaidə və Talibanla bağlı ayrı-ayrı şəxslər və təşkilatlarla mübarizədə BMT və İnterpol daha sıx birləşməlidir. Hələ bu hadisədən əvvəl BMT-nin TŞ-sı 1999-cu il tarixli 1267 saylı qətnaməsində BMT-yə silah embarqonun qoyulması, terrorizmdə şübhəli bilinən təşkilatların hücumlarının dondurulması və bu şəxslərin yerdəyişməsinin qadağası zamanı İnterpolun köməyindən istifadə edilməsi təklif edilmişdir. BMT-nin çərçivəsində Terrorçuluğa Qarşı Komitə (TQK) və kütləvi qırğın silahlarının terroristlərin və başqa cinayətkarların əllərinə keçməsinin qarşısının alınması Komitəsi fəaliyyət göstərir. Terrorçuluğa Qarşı Komitə ABŞ-da baş verən faciəvi hadisədən dərhal sonra təşkil edilmişdir. Onun əsas tapşırığı terrorçuluğa qarşı mübarizədə hansı ölçüləri götürəcəyinə nəzarət edir. BMT-nin üzvü olan dövlətlərə milli təşkilatlararası terrorçuluq fəaliyyətinin qarşısının alınması fəaliyyəti haqqında məlumatı Terrorçuluğa Qarşı Komitə təqdim edir.

Kütləvi qırğın silahlarının terrorçuların və başqa cinayətkarların əllərinə keçməsinin qarşısının alınması üzrə Komitə 28 aprel 2004-cü ildə təşkil olunmuşdur. Bu Komitə Təhlükəsizlik Şurasının 1540-cı sazişinin yerinə yetirilməsinə nəzarət edir və üzv dövlətləri bütün mövcud kütləvi qırğın silahları sisteminə sərt nəzarət qoyulmasına və qeyri-hökumət subyektlərinin kimyəvi, bioloji və nüvə silahlarının əldə olunması, daşınması və yiyələnməsini qadağan edən effektiv qanunlar qəbul edilməsinə çağırır.

BMT ilə birlikdə terrorçuların dosyalarının birgə nəşri 2005-ci ildə İn-

---

[1] Qarayev R. Bu, beynəlxalq əməkdaşlığın daha bir bəhrəsidir // Azərbaycan, 2010, 22 aprel, №85 (54-86).

[2] BMT-nin cinayətkarlıqla mübarizəyə həsr olunmuş XII konqresi keçirilmişdir // Azərbaycan, 2013, 22 aprel, №67 (6336).

terpolun Baş Assambleyası tərəfindən bəyənilmişdir. Hazırlıq işləri bundan dərhal sonra başlanmışdır.

2005-ci ilin dekabrında İnterpol BMT ilə birgə beynəlxalq terrorçuluqda şübhəli bilinən, Əlqaidə və Talibanla əlaqəli olan axtarışda olan şəxslər haqqında informasiya nəşr etməyə başladı. Axtarılan şəxslər haqqında məlumat İnterpolun üzvü olan bütün ölkələrə ötürülür. Əgər hər hansı bir ölkənin polisi göstərilən şəxslərin yerini müəyyən edərsə, bu zaman İnterpolun yerli MMB-si BMT-nin müvafiq müqaviləsinin yerinə yetirilməsi üçün ölçü götürəcək.

Təhlükəsizlik Şurası 1999-cu il 8 avqust 2006-cı il sazişində BMT-yə üzv olan dövlətlərə, xüsusilə I-24/7 qlobal polis sistemi ilə bağlı İnterpol tərəfindən təklif olunan bütün vasitələrdən istifadə olunması tövsiyə olunur. BMT-nin qlobal terrorizmə qarşı strategiyasında terrorizmə qarşı hərəkatda İnterpol faktiki olaraq mərkəzə qoyulmuşdur. İnterpol adı çəkilən strategiyada yeddi mövqedən göstərilir:

1) İnterpol üzərinə regional və subregional mərkəzlər tərəfindən yaradılan terrorçuluqla mübarizəyə yardım göstərmək məsuliyyəti qoyulmuşdur (m. 8, II b. fəaliyyət planı);
2) BMT sistemində üzv dövlətlərlə birgə bioloji münaqişə haqqında, vahid məlumat bazasının yaradılması təklif olunmuşdur. Buna əlavə tədbir olaraq İnterpolda yaradılan məlumat bazasını bioloji cinayətlər haqqında informasiya ilə doldursunlar (b. 11, II b.);
3) Terrorçuluqda əli olan şəxslərin keçirilməsinə nəzarət üzrə inzibati ölçülərin və qanunların qəbuluna yardım göstərmək məsələlərində Terrorçuluğa Qarşı Mübarizə Komitəsinə dövlətlərlə onların xahişi ilə qarşılıqlı fəaliyyəti davam etdirilməsi və bu mühitdə Vətəndaş Aviasiyasının Beynəlxalq Təşkilatı və İnterpolun Ümumdünya Gömrük Təşkilatı kimi beynəlxalq təşkilatların qabaqcıl təcrübələrini üzə çıxardılması məsləhət görülmüşdür;
4) İnterpola itirilmiş və ya oğurlanmış gediş-gəliş sənədləri haqqında məlumat bazasının genişləndirməsi təklif olunub. (m. 16 b II);
5) Çirkli pulların yuyulmasına qarşı mübarizə və terrorçuluğun maliyyələşdirilməsinə aid beynəlxalq vəzifə və qaydalara tam ölçüdə riayət etməyə kömək məqsədilə, Beynəlxalq Valyuta Fonduna, Ümumdünya Bankına, cinayətkarlıq və narkotiklər üzrə MBT İdarəsinə və İnterpola dövlətlərlə əməkdaşlığı genişləndirmək məsləhət görülmüşdür (m. 8 b. II). [1]

Bir faktı da qeyd etmək lazımdır.

[1] Зайцева Е.С. Деятельность интерпола по противодействию терроризму как вклад в укрепление международного правопорядка. Москва: 2008, с. 166.

BMT-nin ixtisaslaşmış qruplarından biri olan təhsil, mədəniyyət və elm məsələləri ilə məşğul olan YUNESKO ilə əməkdaşlıq yaratmaq məqsədi ilə 28 aprel 1999-cu il tarixdə Fransanın Paris şəhərində keçirilən İnterpolun Baş Assambleyasının 156-cı sessiyasında müqavilə layihəsi hazırlandı və qəbul edildi.

İnterpolun əməkdaşlıq etdiyi təşkilatlardan biri də Avropa Şurasıdır.

9 fevral 1960-cı ildə məktublaşma nəticəsində İnterpolla Avropa Şurası arasında əməkdaşlığın əsası qoyulmuşdur. Müvafiq saziş iki təşkilat arasında məlumat mübadiləsinin, birgə məsləhətləşmələrin, Avropa Şurası tərəfindən çağırılan ekspert komissiyasının iclasında İnterpol nümayəndələrinin iştirakının və texniki əməkdaşlığının şərtlərini müəyyən edir. İnterpol nümayəndələri Avropa Şurası çərçivəsində cinayətkarlıq problemləri üzrə Avropa komissiyasının iclaslarında müşahidəçi qismində iştirak edirlər (ECCP).

ECCP tərəfindən yaradılan ixtisaslaşdırılmış təşkilatların tərkibinə daxildirlər:

- BMT-nin Nizamnaməsinin 17-ci maddəsinə əməl olunmasına görə, Ekspert komissiyası narkotiklərin qanunsuz dövriyyəsinə qarşıdır;
- Terrorist hərəkətlərə qarşı cinayət axtarışı qanunçuluğunun tətbiqi Ekspert komissiyası;
- İnformasiya texnologiyaları ilə bağlı cinayət –prosessual problemləri Ekspert komissiyası;
- Cinayət cəzasına layiq olan sahələrdə Avropa konvensiyasının fəaliyyəti Ekspert komissiyası.[1]

Bundan başqa, Avropa Şurası və İnterpol arasında olan bir neçə razılaşmaları qeyd etmək yerinə düşərdi.

- Şərti olaraq ittiham və şərti olaraq azad edilmiş hüquq pozucularının müşahidəsi üzrə Avropa konvensiyası (maddə 27 (3)). Lazım gələrsə əlaqəni hazırkı maddənin 2-ci abzasında yada salınan Beynəlxalq Cinayət Polisi Təşkilatı vasitəsilə həyata keçirmək olar;
- Yeniyetmələrin repatriasiyası üzrə Avropa razılaşması (maddə 21). Hazırkı konvensiyanın yerinə yetirilməsi ilə əlaqədar mərkəzi hökumət orqanları ilə əlaqəni İnterpol vasitəsilə həyata keçirmək olar;
- Cinayət qanunlarına uyğun olaraq izləmənin (təqibin) başqasına tapşırılması haqqında Avropa konvensiyası (maddə 13 (2)). Təcili hallarda sorğular və əlaqələr İnterpol vasitəsilə həyata keçirilə bilər;
- Məhkəmənin hökm fəaliyyəti ilə əlaqədar beynəlxalq Avropa kon-

[1] Babayev H.A. İnterpolun fəaliyyətinin hüquqi və təşkilati aspektləri // Hüquqi dövlət və qanun, 2002, №1, s. 44.

vensiyası (maddə 15 (2)). Təcili hallarda sorğular və əlaqələr İnterpol vasitəsilə həyata keçirilə bilər;

- Fiziki şəxslərin odlu silahların əldə olunması və yiyələnməsi haqqında Avropa konvensiyası (maddə 9 (2)). Təcili hallarda məlumatlar İnterpol vasitəsi ilə göndərilə bilər;
- Cinayət işləri üzrə qarşılıqlı yardım haqqında Avropa konvensiyası (maddə 15 (5)). Bu konvensiya üzrə birbaşa ötürülməyə icazə verilməsi hallarında o, İnterpol vasitəsi ilə ötürülə bilər;
- Ekstradisiya üzrə Avropa konvensiyası (maddə 16 (3)). Müvəqqəti həbs olunma haqqında sorğu, sorğu göndərilən ölkənin səlahiyyətli hökumət orqanlarına ya diplomatik kanallar vasitəsilə, ya da birbaşa poçt və ya teleqraf İnterpol vasitəsilə göndərilir və yaxud yazılı formada dəlil gətirilən sorğu göndərən tərəf üçün məqbul olan hər hansı bir üsulla;
- Yol hərəkəti qaydalarının pozulmasının cəzalandırılması haqqında Avropa konvensiyası (maddə 15 (3)). Təcili hallarda əlaqəni bu maddənin 2-ci abzasında xatırladılan Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpol vasitəsilə həyata keçirmək olar.
- BMT-nin Konvensiyasının 17-ci maddəsinə müvafiq olaraq, narkotik və psixotrop maddələrin qeyri-qanuni daşınması haqqında (maddə 18 (2)). Hər hansı bir səbəbdən birbaşa əlaqə mümkün olmadığı zaman tərəflər Beynəlxalq Cinayət Polisi Təşkilatı (İnterpol) və ya Əməkdaşlıq Üzrə Gömrük Şurasının kanallarından istifadə etmək üçün razılaşa bilərlər.

## Pompidu qrupu

- Pompidu qrupu narkomaniya və narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı çoxşaxəli nəzəri nöqtədən bütün problemlərlə tanış olur. İnterpol bu qrupla sıx əlaqələr saxlayır.

Rüşvətxorluq üzrə müqavilə layihələrinin tərtibinə cavabdeh olan bu qrupun işi ilə sıx bağlıdır.[1]

İnterpolun cinayətkarlıqla mübarizədə qarşılıqlı əməkdaşlıq etdiyi beynəlxalq polis təşkilatlarından biri də Avropa polis təşkilatı olan Avropoldur.

Bir sıra Avropa ölkələri sistem qurmuşlar, hansı ki, orada insanlar azad hərəkət edə bilərlər və bu ölkələr arasındakı sərhəd nəzarəti ləğv edil-

[1] Нешатаева Т.Н. Международные организации и право. Новые тенденции в международно-правовом регулировании. Москва: 1998, с.150-151.

miş olurdu. Şengen razılaşması 14 iyun 1985-ci ildə imzalanmışdır. Bu razılaşma inzibati idarələri ekstradisiya ilə qismən tənzimləyir və bilavasitə İnterpola toxunmurdu. Nəhayət, 1997-ci ildə artıq 10 üzv dövləti özündə birləşdirən (Avstriya, Belçika, Fransa, Almaniya, Yunanıstan, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya və İspaniya). Şengen müqaviləsi 1995-ci il 26 martda qüvvəyə minmişdir.

Bundan başqa, Avropa Şurasının üzv dövlətləri Daxili İşlər və Ədalət Məhkəməsi sahəsində birləşmiş strategiyanın hazırlanması qərarına gəldilər. Bu strategiyanın tətbiqi K4 komitəsi tərəfindən əlaqələndirilir. Bu 1976-cı ildə yaradılmış Tetvi qrupunu əvəz etdi.

Polis əməkdaşlığı haqqında bölmə narkotiklər üzrə Avropa bölməsinin yaranmasına gətirib çıxartdı. Hansı ki, onun tapşırığı əsas etibarı ilə narkotiklərlə bağlı qanun pozuntusuna yol vermiş axtarılan şəxslərə aid məlumatların qarşılıqlı təqdim olunmasıdır.[1]

Avropa Şurası daxilində Avropolun yaranmasında məqsəd Avropa Şurası daxilində xüsusilə, narkotiklərin daşınması və terrorluğa qarşı mübarizədə polis əməkdaşlığının səmərəliyini yüksəltməkdən ibarətdir. Hal hazırda saziş təsdiq edilmə mərhələsini keçir və hələ qüvvəyə minməmişdir.

Baxmayaraq ki, Şengen razılaşması İnterpolla əməkdaşlığı Avropa Şurası xaricində olan dövlətlər və başqa müəssisələrlə müqayisədə yüksək dərəcədə nəzərdə tutmur, Avropol üzrə müqavilə həmçinin bu imkanları da təmin edir:

- Avropola informasiyanı xəbər edən təşkilatların siyahısını ayırmaq;
- Avropola İnterpola xəbər verilmiş informasiyanın məxfiliyi haqqında sazişin imzalanması ixtiyarı verir;
- İnterpolla münasibətlərin qurulmasına icazə verir.

Avropol tam olaraq öz funksiyasını 1998-ci ildə, Aİ-nin üzv ölkələri Avropol haqqında konvensiyanın və bir sıra ümumavropa qanunçuluq aktlarını təsdiq etdikdən sonra, 1999-cu ilin iyulunda yerinə yetirməyə başlamışdır. Bu gün Avropolun fəaliyyətinə rəhbərliyi Aİ-nın üzv ölkələrinin Daxili İşlər və Ədliyyə Nazirliyi Şurası həyata keçirir. Şura Avropolun direktorunu və onun müavinlərini təyin edir və büdcəni təsdiqləyir. Misal üçün, 2006-cı ilin büdcəsi 63,4 min avro tərtib edilmiş və Aİ-nin üzv ölkələrinin üzvlük haqları sayəsində formalaşmışdır. Avropolun qərargah mənzili Haaqada yerləşir.

Avropol öz fəaliyyətini yalnız Avropa İttifaqı ərazisində həyata keçirir, üzv ölkələrin və Avropa İttifaqına daxil olmayan üçüncü ölkələrin üzv-

[1] Родионов К.С. Право и международные отношения. Интерпол и Европол // Государство и право. 2009. №6. С.62-71.

lük haqları ilə maliyyələşir və yalnız müvafiq müqavilələr əsasında əməkdaşlıq edir. Belə müqavilələrdən biri Avropolla İnterpolun əməkdaşlığını möhkəmləndirir. Müqavilədə deyilir ki, hər iki təşkilat oxşar funksiyanı yerinə yetirərkən əks hərəkat məqsədilə informasiyanın toplanmasında, analizində və mübadiləsində bir-birlərinə kömək etməlidirlər. Belə ki,

- İnsanların qanunsuz mühacirəti və daşınması şəbəkəsinin yaradılması, insan alveri, cinsi istismar, uşaq pornoqrafiyası daxil olmaqla, mülkiyyətə qəsd etmə və dələduzluq, oğurluq, hədələmə, rüşvətxorluqda;
- Ətraf mühitə ziyan vurulması, pul əskinaslarının və başqa ödəniş vasitələrinin saxtalaşdırılması (saxta avronun hazırlanması), pul vasitələrinin yuyulması və həmçinin, fiziki şəxslərə qarşı cinayət, maliyyə cinayətləri və informasiya texnologiyaları mühitində cinayətlərdə.[1]

İnterpolla yanaşı, Avropol bu günə qədər aşağıdakı beynəlxalq təşkilatlarla müqavilə imzalamışdır:

1. Ümumdünya Gömrük Təşkilatı;
2. Narkomaniya və narkotiklərə nəzarət üzrə Avropa Mərkəzi;
3. Avropa Mərkəzi Bankı;
4. Avropa Komissiyası;
5. Avro ədliyyə və s.

Avropol İnterpolun konfranslarında və İnterpolun Baş Assambleyasının sessiyalarında iştirak edir.

Qeyd edək ki, beynəlxalq münasibətlər sisteminin əsas elementlərindən biri də, dövlətlərdən sonra beynəlxalq təşkilatlardır. İnterpol beynəlxalq təşkilatlar xətti ilə təşkil olunmuş tədbir və toplantılarda iştirak etmiş və hal-hazırda da etməkdədir. Bu tədbir və toplantılarda Azərbaycan Respublikasından olan aidiyyəti strukturların nümayəndələri fəal iştirak etmişlər. Belə toplantılarda beynəlxalq cinayətkarlığa qarşı mübarizənin bir sıra aspektləri müzakirə olunaraq, mübarizənin forma və metodları ciddi mübahisələr əsasında müəyyən qərarla da qəbul olunmuşdur. Bu tədbirlərdən biri də, 1994-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatı xətti ilə Tehran şəhərində keçirilib. Bu toplantıda Narkomaniyaya qarşı mübarizənin aktual problemləri müzakirə edilmişdir. Müzakirələrdə İnterpolun aktiv çıxış etməsinin zəruriliyinə diqqət yetirilmiş və beynəlxalq cinayətkarlığa qarşı Azərbaycan Respublikası ilə İnterpol arasında faydalı əməkdaşlığın mövcud olması diqqətə çatdırılmışdır.

7 oktyabr 2008-ci il tarixdə Rusiya Federasiyasının Sankt-Peterburq

[1] Мостович Н.В. Деятельность Европола в сфере борьбы с фальшивомонетничеством. // Вопросы современной юриспруденции // Сб. ст. по матер. VI междунар. науч.-практ. конф. Часть II. 2 ноября 2011. Новосибирск: 2011, с.13-14.

şəhərində İnterpolun 77-ci sessiyasında dünyanın 185 ölkəsindən, İnterpolun üzvü olan ölkələrdən Daxili İşlər, Ədliyyə orqanlarının nümayəndələri ilə yanaşı BMT, Avropa İttifaqı və İnterpolun, həmçinin başqa beynəlxalq təşkilatların nümayəndələri də iştirak etmişdir. Sessiyanın gündəliyində olan əsas məsələ beynəlxalq cinayətkarlığa qarşı İnterpolla birgə əməkdaşlıq etməkdən ibarət olmuşdur.[1]

İnterpolla əlaqəli fəaliyyət göstərən beynəlxalq səviyyəli təşkilatlardan biri də Müstəqil Dövlətlər Birliyidir (MDB).

Keçmiş SSRİ-nin ərazisində müstəqil dövlətlərin yaranması vahid bir hüquqi məkanın və bütövlükdə hüquq-mühafizə sisteminin dağıdılmasına səbəb oldu. Keçid dövründə sosial gərginliyin, cəmiyyətdə uyğunsuzluğun və deformasiyanın artması cinayətkarlığın yüksəlməsinə, müəyyən təbəqələrin mənəviyyatının pozulmasına gətirib çıxartdı.

MDB ölkələrində cinayətkarlıq daha geniş, transmilli xarakter aldı. Mütəşəkkil cinayətkarlıq daha da təhlükəli şəkil aldı. Terrorizm, rüşvətxorluq, narkobiznes, silah oğurluğu və silah alveri, fahişəlik, nəqliyyat vasitələrinin oğurlanması və satışı, maliyyə fırıldaqları, bank-kredit sistemində cinayətkarlıq və s. məhz mütəşəkkil cinayətkarlığın nəticəsi idi. Belə cinayətlərin əksəriyyəti bir neçə müstəqil dövlətin ərazisində eyni zamanda baş verir, bir çox hallarda burada müxtəlif ölkələrin vətəndaşları iştirak edirdilər. Beynəlxalq cinayətkar cəmiyyətlər yaranır, bəzi hallarda MDB ölkəsində cinayətkarlıq siyasi dövlət problemi xarakteri alırdı.

Şübhəsiz ki, mütəşəkkil cinayətkarlıq heç nədən və bir gündə yaranmamışdır. Yeni nəslin cinayətkar elementləri əvvəlki iqtisadi, sosial və ideoloji səhvlərin nəticəsində meydana gəlmişdir. Aydındır ki, cinayətkarlığa qarşı səmərəli və amansız mübarizə aparmaq ayrıca bir ölkədə qeyri-mümkündür. Ona görə də, MDB ölkələrinin üzvü olan dövlətlərin hamısı bizi əhatə edən kriminal aləmə qarşı mübarizədə birləşmək qərarına gəldilər. 1993-cü ilin yanvarın 22-də Birlik ölkələri başçılarının mülki, ailə cinayət işləri üzrə hüquqi yardım göstərmək barədə imzaladıqları konvensiya, habelə Birlik ölkələri Daxili İşlər nazirlərinin imzaladıqları sazişlər hüquq-mühafizə orqanlarının qarşılıqlı hərəkət etmələri üçün əsas oldu. Mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizənin səmərəliyinin yüksəlməsi işində MDB üzvü olan dövlətlərin qəbul etdikləri "Mütəşəkkil və digər təhlükəli cinayətkarlığa qarşı birgə mübarizə proqramı", MDB Ölkələri Şurası və başçıları tərəfindən 1993-cü il mayın 12-də təsdiq edilən qərar, MDB iştirakçıları olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanlarının kriminal strukturlara qarşı səmərəli tədbirlər görülməsi zərurəti ilə əlaqədar 1995-ci ilin

[1] http://ria/ru/trend/interpolstpetersburq07102008/ixzz2kh3oqeW

iyununda mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında müqavilə imzaladılar.

Cinayətkarlığa qarşı mübarizədə MDB hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının BMT-nin və digər beynəlxalq təşkilatlarla əlaqələrin həyata keçirilməsi barədə qərarlar qəbul olundu.[1]

MDB-nin iştirakçıları olan dövlətlərin DİNŞ cinayətkarlıqla mübarizədə Birlik dövlətlərin Daxili İşlər orqanları arasında əməkdaşlığın təşkilatı əsasdır. Daxili İşlər nazirlərinin mübarizəsi əsasında, MDB dövlət başçıları Şurasının 1996-cı il 19 yanvar tarixli qərarı ilə yaradılan bu şura müntəzəm olaraq ildə iki dəfə birlik ölkələrinin birində iclas keçirərək, qarşılıqlı fəaliyyətin aktual problemlərini müzakirə edir.

Daxili İşlər nazirləri Şurası işçi əlaqələndirmə orqanı, mütəşəkkil cinayətkarlıqla mübarizənin əlaqələndirmə bürosu onun, yəni DİNŞ-nın rəhbərliyi altında fəaliyyət göstərir.[2]

1998-ci ilin dekabr ayının 17-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində MDB ölkələrinin DİNŞ, MDB çərçivəsində yaradılmış İnterpolla, qarşılıqlı əlaqə məsələləri müzakirə edilmişdir.

Şuranın işində Ərəb Ölkələri DİNŞ-in Baş katibi Əhməd Salem iştirak edir. 1982-ci ildə yaradılan bu təşkilat 22 ölkəni birləşdirir. Ə.Salemin Moskvaya gəlişinin məqsədi mütəşəkkil cinayətkarlıq, terrorçuluq və narkotik maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə məsələlərində iki Şura arasında əlaqələndirməkdir. O, islam və terrorçuluq anlayışlarını eyniləşdirməyin qəti əleyhinə çıxmışdır. Əhməd salam vurğulamışdır ki, "İslam zorakılığı və qəddarlığı qəbul etmir və hər hansı qan tökməni və terrorçuluğu təşviq edə bilməz".[3]

29 aprel 1999-cu il tarixində Gürcüstan Respublikasının Borjomi şəhərində Azərbaycan Respublikası, Gürcüstan, Rusiya Federasiyası və Ermənistan Respublikasının Daxili İşlər orqanları rəhbərlərinin görüşü olmuşdur. Görüş zamanı Qafqaz regionunda cinayətkarlığa qarşı mübarizə və kriminogen durumun sağlamlaşdırılması istiqamətində birgə səylərdən daha səmərəli istifadə olunması məsələləri müzakirə edilmişdir. Görüşdə iştirak edən nazirlərin ümumi rəyi belə olmuşdur ki, əməkdaşlıq daha geniş sahədə – MDB-yə üzvü olan dövlətlərin DİNŞ, Qara Dəniz Hövzəsi, İqtisadi Əmək-

[1] Rzalı R. Mütəşəkkil cinayətkarlığa qarşı mübarizə birgə aparılmalıdır // Azərbaycan, 1996, 11 yanvar, №7 (1276).

[2] Usubov Ramil. Cinayətkarlıqla mübarizədə qarşılıqlı fəaliyyət // Azərbaycan, 1997, 30 dekabr, №287 (1808).

[3] MDB ölkələrinin Daxili İşlər Nazirləri Şurası İnterpolla qarşıqlı əlaqə məsələlərini müzakirə etmişdir // Azərbaycan, 1997, 19 dekabr, №294 (2103).

daşlıq Təşkilatı, mütəşəkkil cinayətkarlığa və digər ağır növ cinayətlərə qarşı Əlaqələndirmə Bürosu və eyni zamanda İnterpol çərçivəsində daha da fəallaşmalıdır.[1]

Daha sonra bir vacib faktı da qeyd etmək yerinə düşərdi. 10 dekabr 2008-ci il tarixdə Belorusun Minsk şəhərində MDB-nin 30-dan çox hüquq mühafizə orqanlarının vəzifəli şəxslərinin iştirakı ilə keçirilən toplantıda əsas məqsəd İnterpolun üzvü olan dövlətlər arasında terrorizm, narkomaniya, insan alveri və digər beynəlxalq cinayətkarlığa qarşı mübarizəni gücləndirmək məqsədilə məlumat mübadiləsini həyata keçirməkdən ibarət olmuşdur. Bundan başqa, həmin toplantıda İnterpolun Lizing – 24/7 polis rabitə sistemi ilə əlaqə yaratmaq üçün MDB (ATS-MDB) əməkdaşlıq müqavilələri imzalandı.[2]

7-8 sentyabr 2012-ci il tarixdə Azərbaycan Respublikasının Bakı şəhərində MDB ölkələrinin DİNŞ-in növbəti iclası keçirilmişdir. Həmin iclasda əsas məsələ MDB məkanında transmilli mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorizmə və bütövlükdə kriminal hallara qarşı mübarizədə vahid cəbhənin yaradılması, Birliyə üzv ölkələrin hamısının səylərinin birləşdirilməsini idi. Bu fikirlər MDB-nin üzvü olan ölkələrin Daxili İşlər nazirləri Şurasının sentyabr ayının 7-dəki növbəti iclasında səslənmişdir.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov[3] tədbiri açaraq, respublikamızda uğurla həyata keçirilən islahatlardan, o cümlədən Dİ orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə, terrorizmə qarşı mübarizə sahəsində görülən işlərdən əldə olunmuş uğurlardan danışmışdır. Tədbirdə İnterpolun Baş katibi Ronald Nobl iştirak etmişdi.

Sentyabr ayının 7-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev MDB-nin iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir.

İlham Əliyev demişdi: "Biz hamımız qarşılıqlı surətdə bağlıyıq və hüquq pozuntularının profilaktikası və aradan qaldırılması üzrə birgə tədbirlər zəruri olduqda əməkdaşlığın potensialını, informasiya mübadiləsini gücləndirməyə çalışmalıyıq. Dünyada təhdidlər artır. Həmin təhdidlərin xarakteri dəyişməz qalsa da, formaları dəyişir, əlbəttə, biz yeni çağırışlara, yeni təhdidlərə hazır olmalıyıq". Orada İlham Əliyev İnterpolun Baş katibi cənab Ronald Nobla müraciətlə demişdir: "Mən cənab Noblu görməyimə çox şa-

---

[1] Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi mətbuat xidmətinin məlumatı // Respublika, 1999, 1 may, 90 (554).

[2] http://İnterpol.int/20%

[3] General-polkovnik Ramil Usubov hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi vəzifəsində çalışır.

dam. O artıq ilk dəfə deyildir ki, Azərbaycana gəlir. Azərbaycan və İnterpol arasındakı əməkdaşlıq ən yüksək səviyyədədir. İnterpoldan aldığımız dəstək və məsləhətlər bizim üçün çox vacibdir. Mənə çox xoşdur ki, siz bu gün bu iclasda iştirak edirsiniz. Bu da çoxtərəfli əməkdaşlığımızın əlamətidir. Çünki vətəndaşlarımızın dinc həyatını qorumaq üçün belə məsləhətlərdə maksimum sayda ölkə birlikdə, necə deyərlər, bir qayıqda olmalıdır".[1]

MDB çərçivəsində qəbul edilən mühüm beynəlxalq müqavilələr və yaradılan təşkilati mexanizmlər də problemin dövlətlər qarşısında ciddi şəkildə dayandığını bir daha sübut edir.

MDB çərçivəsində cinayətkarlıqla mübarizənin bir qolunu terrorizmlə mübarizə təşkil edir. Belə ki, 2001-ci ildə yaradılmış MDB Antiterror Mərkəzi MDB-nin xüsusi ixtisaslaşdırılmış orqanı kimi daim fəaliyyət göstərir. Cinayətkarlıqla beynəlxalq mübarizə sahəsində MDB çərçivəsində bir sıra beynəlxalq sənədlər qəbul edilmişdir. Məsələn, iqtisadi sahədə cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında saziş (Moskva, 12 aprel 1996-cı il), MDB üzv dövlətləri ərazisində mütəşəkkil cinayətkarlıq və digər növ cinayətlərlə mübarizə üzrə birgə tədbirlər haqqında qərar (Moskva, 12 mart 1993-cü il), MDB üzv dövlətlərinin terrorizmlə mübarizə üzrə əməkdaşlıq haqqında müqavilə (4 iyun 1999-cu il) mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında (7 oktyabr 2002-ci il) Kişinyov Konvensiyası (Minsk konvensiyasını əvəz etmişdir), MDB üzv dövlətlərinin ərazisində birgə antiterror tədbirlərin təşkili və aparılması qaydası haqqında Əsasnamənin təsdiq edilməsi haqqında (7 oktyabr 2002-ci il) protokol.

Bir faktı da qeyd edək. 2013-cü ilin sentyabr ayının 10-da Qazaxıstanın Astana şəhərində MDB-nin Daxili İşlər Nazirləri Şurasının 41-ci iclası keçirildi. İclasda 2020-ci ilə qədərki dövrdə MDB ölkələri Daxili İşlər orqanları arasında İnkişaf Konsepsiyası təsdiq edilmiş, MDB ölkələrinin Daxili İşlər orqanları yanında Elmi Məsləhət Şurası haqqında Əsasnaməsi təsdiq olunmuşdur. Nazirlər 2014-2018-ci illər üçün cinayətkarlıqla birgə mübarizə üzrə dövlətlərarası proqramın və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə əməkdaşlıq proqramı qəbul etmişlər.[2]

İnterpolun beynəlxalq cinayətkarlığa qarşı birgə əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri də İqtisadi Əməkdaşlıq Təşkilatı "EKO"-dur.

Aşağıdakı tarixi faktları qeyd edək.

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir // Mübariz keşikdə, 1912, 13 sentyabr, №34 (3101).

[2] Astanada MDB Daxili İşlər nazirləri Şurasının iclası keçirilmişdir // Azərbaycan, 2013, 12 sentyabr, №35 (3150).

1-5 mart 1999-cu il tarixdə İqtisadi Əməkdaşlıq Təşkilatı BMT-nin narkotiklərə nəzarət üzrə beynəlxalq proqramı (BMTNBNP) – İran İslam Respublikasının Tehran şəhərində "İqtisadi əməkdaşlıq regionunda narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlığa qarşı mübarizənin hüquqi cəhətləri" mövzusunda seminar keçirilmişdir. Həmin seminarda İnterpolun və dünya dövlətlərinin, İnterpolun MMB-nin nümayəndələri və beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər və orada cinayətkarlığa qarşı mübarizənin aktual problemləri müzakirə edilmişdir.

26-27 may 2008-ci il tarixdə Türkmənistanın Aşqabad şəhərində İƏT-in üzvü olan ölkələrin Daxili İşlər nazirlərinin ikinci iclası keçirildi. 10 dövlətin Daxili İşlər Nazirliyinin rəhbərlərinin, aparıcı mütəxəssislərinin və ekspertlərinin iştirak etdiyi bu mötəbər tədbirdə İnterpolun və ona üzv olan ölkələrin nümayəndələri, həmçinin Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Ramil Usubov da iştirak etmişdir.

İƏT zabitlərinin qərarlarının üzv ölkələrin narkotiklərin qanunsuz dövriyyəsinə, terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizə sahəsində əməkdaşlığın möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyən cənab Ramil Usubov təhlükəsizlik və sabitliyin inkişafı üçün fundamental amillər olduğunu, narkotiklərin qanunsuz dövriyyəsinin, terrorizmin, transmilli mütəşəkkil cinayətkarlığın bütün region üçün təhlükə doğurduğunu qeyd etmiş, əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulamışdır. İclasda, həmçinin, əlaqəli və mütəşəkkil kompaniyanın həyata keçirilməsi məqsədilə, İƏT-in yüksək səviyyəli ekspertlər qrupu tərəfindən 2008-ci ilin aprelin 20-30-da Ankarada hazırlanmış, narkotiklərlə, terrorizmlə və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizəyə dair birgə regional strategiyanı qəbul etmişlər.

Daxili İşlər nazirləri terrorizmin bütün forma və təzahürlərini pisləyərək, bu qlobal bəlanın qarşısını almaq məqsədi ilə, birgə mübarizə aparmaq əzmini bir daha istifadə edərək, üzv dövlətləri terrorizmlə mübarizənin səmərəli forma və metodlarından istifadəyə, bu sahədə məlumat və qabaqcıl təcrübə mübadilələrini aparmağa çağırmışlar. Narkotiklərin qanunsuz dövriyyəsinə, terrorizm və transmilli mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizənin, digər aktual məsələlərin müzakirə olunduğu iclasın sonunda Aşqabad bəyannaməsi qəbul edilmişdir.[1]

İnterpol GUAM beynəlxalq təşkilatı ilə də əməkdaşlıq etməkdədir.

GUAM – Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna prezidentlərinin 10 oktyabr 1997-ci ildə Strasburqda Birgə Kommunike imzalanması ilə bu dörd dövlətin birliyi kimi fəaliyyətə başlamışdır. 1997-ci ildən mövcud olmuş birlik əsasında, 22-23 may 2006-cı il tarixdə GUAM-ın Kiyev zirvə

[1] MMB-nun cari arxivi. MMB-nun 9 aylıq hesabat arayışı, 2008, s.9.

toplantısı zamanı həyata keçirilmiş, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat təsis olunmuşdur. Kiyev zirvə toplantısında prezidentlər GUAM -ın Nizamnaməsini qəbul etmişlər.

11-18 may 2011-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikalarından ibarət beynəlxalq regional təşkilat terrorçuluqla mübarizə üzrə altı işçi qrupun iclası keçirilmişdir. İclasda GUAM-ın üzvü olan ölkələrin, İnterpolun MMB-nin nümayəndələri iştirak etmişlər.

1 iyul 2011-ci il tarixdə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qanunsuz dövriyyəsi ilə bağlı işçi qrupunun hüquqi statistika üzrə alt işçi qrupunun iclası keçirilmişdir.[1] 6-7 mart 2012-ci il tarixdə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qanunsuz dövriyyəsi ilə işçi qrupunun hüquqi statistika üzrə alt işçi qrupunun növbəti iclası keçirilmiş, bu tədbirdə Azərbaycan Respublikasının İnterpolun MMB-nin əməkdaşları, GUAM-ın üzvü olan ölkələrin rəhbər vəzifəli şəxsləri iştirak etmişlər.[2]

12-13 iyul 2013-cü il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qanunsuz dövriyyəsi ilə işçi qrupunun hüquqi statistika üzrə alt işçi qrupunun növbəti iclası keçirilmişdir. Həmin tədbirdə GUAM-ın üzvü olan dövlətlərin MBB-lərinin əməkdaşları iştirak etmişlər.[3]

Beləliklə, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın fəaliyyət istiqamətlərindən olan beynəlxalq cinayətkarlığa qarşı mübarizədə özlərinin İnterpolun MMB-si vasitəsilə İnterpolla qarşılıqlı əməkdaşlıq şəraitində öz fəaliyyətlərini davam etdirərək, cinayətkarlığa qarşı mübarizə aparırlar.

İnterpolun müxtəlif mənşəli (informasiyanın qarşılıqlı təqdimi, bütün görüşlərdə iştirak və s.) münasibətlər saxladığı beynəlxalq təşkilatlara daxildir:

- Ümumdünya Gömrük Təşkilatı (WCO) əvvəllər Əməkdaşlıq Üzrə Gömrük Şurası: narkotiklərin daşınması və qaçaqmalçılığı, gömrüyün polis ilə əməkdaşlığı qismində gömrük hüquq pozuntuları ilə bağlı bütün məsələlər;
- Narkotiklərdən sui-istifadənin qabağının alınması və nəzarəti ilə bağlı məsələlər;
- Əvvəllər QATT adlanan Beynəlxalq Ticarət Təşkilatı istehsal olun-

[1] MMB-nun cari arxivi. MMB-nun 2011-ci ilin arayış hesabatı, s.9.
[2] MMB-nun cari arxivi. MMB-nun 2012-ci ilin rüblük arayış hesabatı, s.11.
[3] MMB-nun cari arxivi. MMB-nun 2013-cü ilin 9 aylıq arayış hesabatı, s.12.

muş məhsulların saxtalaşdırılması və başqa bəzi məsələlər.

İnterpolun başqa beynəlxalq təşkilatlarla münasibətlərini necə fikir verək. Bir qayda olaraq, İnterpolla Qeyri-Hökumət Təşkilatları (NPO) ilə əməkdaşlıq müxtəlif görüşlərə müşahidəçilərin göndərilməsi formasında həyata keçirilir.

İnterpolun münasibətlər saxladığı NPO-ya daxildir:

- Polis işi ilə məşğul olan ümumi məsələlər üzrə Beynəlxalq Polis Rəhbərləri Assosiasiyası;
- Ərəb dövlətləri Daxili İşlər Nazirlər Şurası;
- MDB ölkələri Daxili İşlər Nazirlər Şurası;
- Avropa ölkələrinin polis təşkilatı olan Avropol;
- Asiya ölkələrinin regional polis təşkilatı ACEANPOL;
- Amerika dövlətləri təşkilatları çərçivəsində yaradılmış CİCAD təşkilatı;
- Şengen müqaviləsinə daxil olan ölkələrin polis təşkilatı (Şengen);
- Balkan ölkələrinin polis təşkilatı;
- Cinayət qanunçuluğunun işlənilib tətbiq edilməsi məsələləri üzrə Beynəlxalq Assosiasiya;
- Baş cinayət axtarışı, qanunçuluğunun yaradılması və tətbiqi üzrə məsələlərdə Baş Cinayət Axtarışı Qanunçuluğu Üzrə Beynəlxalq Assosiasiya;
- Mülki Aviasiyaya qarşı törədilən qanunsuz hərəkətlər üzrə məsələlərdə hava nəqliyyatı Beynəlxalq Assosiasiyası;
- Hava yolları nəqliyyatı təhlükəsizliyi məsələləri üzrə Hava Limanı Beynəlxalq Şurası;
- Asiya ölkələrində uşaq fahişəliyinin məhv edilməsi (ECPAT) seksual turizmlə bağlı uşaq fahişəliyi;
- Fahişəliklə bağlı məsələlər üzrə Beynəlxalq Abolisionistlər Federasiyası;
- Maliyyə və bank müəssisələrinə qarşı törədilən qanun pozuntuları məsələləri üzrə Bank Təhlükəsizliyi Beynəlxalq Assosiasiyası (İBSA);
- SARPCCO (Polis rəhbərlərinin əməkdaşlığı üzrə Cənubi Afrika Ərazi Təşkilatı) – Cənubi Afrika ölkələrinin polis rəhbərləri əməkdaşlığı, qeyri-hökumət təşkilatı. Xararenin sub ərazi bürosu bu assosiasiyanı texniki və inzibati köməklə təmin edir;
- Kriminologiya üzrə Beynəlxalq Cəmiyyət – hüquq-mühafizə metodları və cinayətin qarşısının alınması üzrə cinayət hadisələrinin tədqiqi.[1]

[1] Казанцев С. Борьба с международной преступностью. Москва: 2006, s. 144-145.

Beynəlxalq Polis Assosiasiyası barədə bir qədər ətraflı bəhs edək.

Beynəlxalq Polis Assosiasiyası BPA xidmətdə və ya istefada olan polis struktur üzvlərindən ibarət olan hər hansı bir sahə, rütbə, irq, dərisinin rəngi, dili və dini mənsubiyyətinin fərqi olmayan müstəqil bir təşkilatdır. BPA-nın məqsədi dostluq mühiti yaratmaq və bununla beynəlxalq polis əməkdaşlığına kömək göstərməkdir.

BPA 1948-cü il BMT-də qəbul edilmiş İnsan Hüquqları Ümumdünya Deklarasiyasında bəyan edilən prinsiplərin tam tərəfdarıdır. Onun məqsədinə üzvlər arasında qarşılıqlı mədəni əlaqələrin inkişafı, onların əhatə dairəsinin genişləndirilməsi və peşəkar təcrübə mübadilələrinin qaydaya salınması daxildir. Buna əlavə olaraq, BPA sosial mühitdə qarşılıqlı kömək imkanlarını axtarır və öz imkanları ölçüsündə, müxtəlif xalqların sülh şəraitində birgə yaşamasına təsir göstərməyə çalışır və bununla da bütün dünyada sülhün qorunub saxlanmasına imkan yaradır.

Assosiasiya sırf mədəni, sosial və əyləndirici mahiyyət daşıyan məqsədləri güdür. O, heç bir halda hər hansı bir idarə mahiyyətli, intizamın tətbiqi və həmkarlar ittifaqı qaydaları kimi məsələlərdə iştirak edə bilməz.

BPA mədəniyyət mübadiləsini və əlaqələrinin beynəlxalq, milli və yerli səviyyələrdə qaydaya salınması imkanlarını yaradır. Bu əvəzolunmaz təşkilat o iştirakçılar, üzvlər və onların ailələri üçündür ki, hansı ki, onlar dünya üzrə səyahət etmək istəyirlər. Assosiasiyanın əsas məqsədi “Xidmətdən dostluğa” şüarını mümkün qədər geniş açmaqdır. Bu günə qədər Assosiasiyanın üzvləri 60-dan çox dünya ölkələrinin 265 min nəfər polis zabitləridir və iştirakçıların sayı fasiləsiz artır.

Hazırda BPA özündə 61 ölkədən 276, 688 polis xidmətçilərindən ibarət olan üzvləri birləşdirən böyük beynəlxalq assosiasiyadır.

Jandarmeriya xidmətçiləri, polis, vəzifəli gömrük təşkilatı polisləri və həmçinin ədliyyə orqanı işçiləri assosiasiyanın üzvü ola bilərlər.

Bu günə qədər BPA rütbəsinə, vəzifə borcuna, irqinə, dininə və ideologiyasına görə fərqi olmayan tək polis xidmətçilərinin peşəkar təşkilatıdır. BPA siyasətçilərdən, həmkarlar ittifaqından, başqa qruplardan (birləşmələrdən) və müxtəlif müəssisələrdən asılı deyil. Təşkilat polis qulluqçuları arasında beynəlxalq əlaqələrin və təcrübələrin mübadiləsinə icazə verən hər hansı bir ölkənin polis orqanlarına açıqdır.

BPA-nın qarşısına qoyulmuş məqsəd və tapşırıqları siyahısına Avropa Şurasının qeyri-hökumət beynəlxalq təşkilatları da daxildir.

Əsas məqsəd xaricdə və hər hansı bir konkret ölkədə polis qulluqçuları arasında qarşılıqlı köməyin və dostluq münasibətlərinin qaydaya salınmasında vasitəçi xidmətidir. Həmçinin:

- Polis təcrübələrinin mübadiləsi məqsədilə polis xidmətinin yüngülləşdirilməsi üçün yardım göstərməkdir;

- Vətəndaşların polislə qarşılıqlı münasibətlərinə yardım etmək üçün müsbət imic yaratmaqdır;
- Polislər arasında bilik mübadiləsinin və onların problemlərinin daha yaxşı anlaşılmasına yardım göstərmək məqsədilə, idrakı səfər və görüşlərin təşkilidir;
- Ümumdünya sosial iş və qarşılıqlı yardım. Xalqların bir-birini daha yaxşı anlamasına yardım etmək və bununla da bütün dünyada sülhə zəmanət verməkdir.

BPA-nın əsas təklifləri aşağıdakılardan ibarətdir:

- BPA-nın təhsil mərkəzində (Almaniyada Qimborn qəsri IBZ) maarifləndirici və öyrədici proqramlar;
- 5 qitənin hamısında yerli, regional və beynəlxalq səviyyələrdə görüşlər;
- Xaricdə polis orqanlarının fəaliyyətini öyrənmək üçün təqaüdlər;
- Xarici polis xidmətinin müşahidəsi altında maarifləndirici və öyrədici səfərlər;
- BPA-nın gənc üzvləri və onların uşaqları üçün Yer kürəsinin bütün yerlərində ildə bir dəfə beynəlxalq gənclər görüşləri;
- Almaniyanın Qimborn qəsrində IBZ gənclərin beynəlxalq təhsil mərkəzi;
- İmtiyazlı tətillər və BPA-nın binalarında yerləşdirilmələr;
- Milli səviyyədə nəşr olunan BPA-nın regional dərci və ya jurnalı şəklində müxtəlif informasiyalar;
- Xidməti bitmədən ehtiyac və yoxsulluq vəziyyətinə düşərsə polis xidmətçiləri və onların ailələrinə ən yüksək maliyyə yardımı;
- Evdə olduğu kimi, xaricdə də polis orqanları fəaliyyəti haqqında biliklərin alınması və həmçinin vətəndaşlığı və rütbəsindən asılı olmayaraq təcrübə mübadiləsi imkanları.

Bəs, BPA-nın əsas faydaları nədən ibarətdir? Esperanto dilində Assosiasiyanın şüarı bü cür səslənir: *Servo pre amiko*, yəni “Xidmətdən dostluğa”.

Təşkilatın üzvlərinin əsas məqsədi nə az-nə çox, dostluq əlaqələri vasitəsilə vəzifə daşımaqdır. Bunun üzvlər üçün faydası çoxdur.

BPA üzvləri üçün bu, heç bir pul və ya maddi imtiyazlara səbəb olmur.

BPA-nın üzvləri öz fəaliyyətlərini şüara uyğun təyin edirlər.

BPA-nın üzvləri bir-birləri arasında peşəkar əlaqələr bağlayırlar və bu da, öz növbəsində, olduqca çətin polis işində səmərəli peşəkar dünyagörüşü-

nün formalaşmasında özünü göstərir.[1]

İnterpolun əlaqə saxladığı regional polis təşkilatlarından biri də Amerika Dövlətləri çərçivəsində yaradılmış (CİCAD) Amerikapoldur. Amerikapol 14 noyabr 2007-ci ildə yaradılmışdır. Onun üzvləri 18 Amerika dövlətlərindən ibarətdir. Həmin ölkələr aşağıdakılardır: Boliviya, Braziliya, Haiti, Qvatemala, Honduras, Dominikan Respublikası, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika, Paraqvay, Peru, Salvador, Uruqvay, Çili, Ekvador, Yamayka.

Amerika ölkələrinin polis təşkilatı rəhbərliyinə Baş katib və prezident daxildir.

Amerikapol əsasən: 1) ictimai təhlükəsizlik; 2) terrorizm; 3) mütəşəkkil cinayətkarlıq; 4) qanunsuz istehsal alveri; 5) qaçaqmalçılıq yolu ilə silah alveri; 6) insan alveri; 7) çirkli pulların yuyulması; 8) uşaq pornoqrafiyası; 9) vəzifə cinayətləri; 10) kiber cinayətləri; 11) əqli mülkiyyət cinayətkarlığı; 12) korrupsiyaya qarşı mübarizə aparır.

Korrupsiyaya qarşı mübarizədə 12 dövlət iştirak edir: Argentina, Haiti, Boliviya, Braziliya, Qvatemala, Dominikan Respublikası, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika, Paraqvay, Amerikapol İnterpolla qarşılıqlı fəaliyyət göstərir.[2]

Yekun olaraq qeyd etmək lazımdır ki, İnterpol beynəlxalq cinayətkarlığa qarşı daha effektiv mübarizə aparmaq üçün dünyanın bütün beynəlxalq və qeyri-hökumət təşkilatlarının hamısı ilə daha sıx əlaqə yaratmalı və bunu hal-hazırda İnterpola üzv olan 194 dövlətdən tələb etməlidir. Bu, həmçinin, erməni terrorizmində də öz əksini tapmalıdır.

[1] www.islandia.is\-ipa\whats_ipahtmt

[2] Каверин Т. Международные организации. Москва: 2006, с.144-145.

# II FƏSİL

# AZƏRBAYCAN RESPUBLIKASINDA İNTERPOLUN MİLLİ MƏRKƏZİ BÜROSUNUN FƏALİYYƏTİ

## 2.1. İnterpolun Azərbaycan Respublikası Milli Mərkəzi Bürosunun yaranması və fəaliyyətinin əsas istiqamətləri

**Azərbaycan Polisinin qəhrəmanlıq tarixindən**

Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik Respublikamızın müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir. Məhz Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra böyük fədakarlıqlar hesabına əldə edilən sabit şərait vətəndaşların təhlükəsizliyinin və sosial rifahının təmin edilməsinə, respublikamızın davamlı inkişafına, beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə imkan yaratmış, iqtisadiyyatda və siyasətdə mühüm nailiyyətlərin qazanılmasını şərtləndirən amil kimi çıxış etmişdir.[1]

Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub-saxlayan daxili işlər orqanlarının tarixi keçmiş dövrlərə gedib çıxır. Tariximizə nəzər salsaq görərik ki, xanlıqlar dövründə asayişi təmin etmək naibliklərə həvalə olunmuşdu. Həmin naibliklərdə onlarla darğa fəaliyyət göstərirdi. Darğalar ilk polis və hazırda fəaliyyət göstərən sahə müvəkkili funksiyasını yerinə yetirirdi. Onlar əsasən bazarlarda, ticarət mərkəzlərinin yaxınlığında fəaliyyət göstərirdilər. Onlar icra etdikləri işlər barədə öz naiblərinə hesabat verir və aldıqları yeni sərəncamları yerinə yetirirdilər.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra polis ilk rəsmi orqan kimi fəaliyyətə başlamışdır. İlk qəza polis idarəsinin əsası 1840-cı ilin aprelində qoyulmuşdur. Gəncə, Şamaxı, Quba, Bakı, Şuşa, Şərur və Dərələyəzdə, eyni zamanda Şəkidə, Ordubadda, Salyanda, Zaqatalada, Şamaxıda, Naxçıvanda,

[1] Hüseynli İxtiyar. Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik respublikamızın müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir // Azərbaycan, 2007, 8 sentyabr, №201[4717].

Şuşada, Qubada və Bakıda polis idarələri fəaliyyət göstərirdi. Həmin polis idarələri quberniya rəhbərliyinin tabeçiliyində olub, əsas vəzifələrini yerinə yetirməklə yanaşı, xırda ticarət hadisələrində müəyyən mənada məhkəmə funksiyasını da yerinə yetirirdilər. Şəhər polismeystrləri xırda oğurluq və dələduzluq faktları üzrə özləri məhkəmə aparır və cinayət törətmiş şəxslərin cəzasını verirdilər. Şəhərlərdə hələ ictimai idarəetmə orqanları yox idi. Ona görə də şəhər təsərrüfatını da polis idarə edirdi. Rəsmi orqan kimi fəaliyyətə başlayan polismeystrlər və prodniçilər idarəsinin nəzdində məhəllə nəzarətçiləri, pristavlar, deputat və polis əməkdaşları fəaliyyət göstərirdilər. Onların əsas vəzifəsi asayişi qorumaq, əmin-amanlığı təmin etmək idi.

Sonrakı dövrdə Bakının Balaxanı-Sabunçu ərazisindəki neft mədənlərinin mühafizəsini təmin edən polis qurumu fəaliyyət göstərmişdir. Balaxanı-Sabunçu polismeystrliyi – dalan polis qurumu XIX əsrin sonlarında, Bakı neft sənayesinin surətlə inkişaf etdiyi bir vaxtda, 1897-ci ildə yaradılmışdır. Həmin qurumu 1917-ci il aprelin 17-də Bakı Xalq Komissarları Soveti ləğv etmişdir. Bakı Qafqaz İslam Ordusu tərəfindən azad olunduqdan sonra, Cümhuriyyət hökumətinin qərarı ilə, yenidən bərpa edilmiş, şəhərin neft mədənləri rayonunda qayda yaradılması ona həvalə olunmuşdur. Əsasən 7 polis məntəqəsinə (Sabunçu, Ramana, Zabrat, Balaxanı, Suraxanı, Binəqədi, Corat) bölünmüşdür. Məntəqələrə pristavlar başcılıq edirdilər.[1]

1. **Bakı Polismeysterliyi** – Bakı şəhərində asayişi və qayda-qanunu qoruyan qurum. Bakı qradonaçalnikliyi (şəhər rəisliyi), Rusiya senatının 1906-cı il 28 oktyabr tarixli müvəqqəti əsasnaməsinə uyğun olaraq, Bakı şəhər polis idarəsi əsasında yaradılmışdır. Bakı polismeystrliyi 1907-ci il yanvarın 1-dən, Balaxanı-Sabunçu polis idarəsi ilə yanaşı, Bakı şəhər rəisliyinin polis funksiyasını yerinə yetirirdi. 1917-ci ildə Bakıda Sovet hakimiyyəti elan edilməsi ilə əlaqədar ləğv olunmuşdur. Cümhuriyyət dövründə, yeni idarəçiliyin təşkilinə qədər, Rusiya qanunlarının Azərbaycan Xalq Cümhuriyyəti ərazisində qüvvədə saxlanması haqqında Azərbaycan hökumətinin 1918-ci il 23 iyun tarixi qərarından sonra Bakı polismeystrliyi yenidən fəaliyyətə başlamışdı. Bakı qubernatorunun tabeliyində olan Bakı polismeystrliyi nəzdində polismeystrin adından, yaxud onun, ya da köməkçisinin göstərişi ilə yazışmalar aparan idarə – Dəftərxana vardı. Bakı polismeystrliyi 11 polis məntəqəsinə (Bayıl, Aleksandr Nevski, İçərişəhər, Şamaxı, Mərkəz, Mixaylov, Romanov, Qanlıtəpə, Zavağzal, Qaraşəhər, Liman) bölünmüşdü. Məntəqələrə sərəncamlarında qorodovoylar olan pristavlar başçılıq edirdilər. Pristavlar qayda-qanunun, təhlükəsizliyin təmin olunması və abadlıq işləri üçün məsuliyyət daşıyırdılar.

[1] Elbrus Ş. Azərbaycan polisi. 1-ci kitab. Bakı: 1997, s.243.

2. 1919-cu il aprelin 25-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti, guya Bakı şəhərində ermənilərə qarşı zorakılıq hallarının baş verməsi ilə əlaqədar, aparılmış təhqiqatlar barədə Bakı Polismeystrliyinin məlumatını müzakirə etmişdir. Daxil olmuş ərizələrin tam əksəriyyətinin əsassız və böhtan olduğu aşkara çıxarıldı. Hökumət DİN-ə tapşırmışdır ki, görülmüş tədbirlərdən asılı olmayaraq, yalan və əhali arasında gərginlik yaradan şayiələrin yayılmasında təqsirli bilinən şəxslər məhkəmə məsuliyyətinə cəlb edilsinlər. 1919-cu il iyunun 11-də Azərbaycan hökuməti Bakı şəhər polisinin ştatını artırmaq barədə qərar qəbul etmişdi. Pristavların təyin olunması və işdən azad edilməsi qubernatorun səlahiyyətinə daxil idi, qalan polis işçilərini isə polismeystrin özü təyin və azad edirdi. Rüstəm bəy Mirzəyev Bakı Polismeystri təyin olunmuşdu.[1]

Bakı Xalq Daxili İşlər Komissarlığı S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin hakimiyyət orqanı idi. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918-ci il 25 aprel tarixli qərarı ilə yaradılmışdır. Sədri R.A.Caparidze idi. Onun 8 may tarixli əmri ilə, xalq komissarları tərəfindən təsdiq olunanadək, F.A.Qikalo və M.Əzizbəyov müvəqqəti olaraq Xalq Daxili İşlər Komissarının müavinləri, B.Sərdarov və Q.K.Orconikidze isə komissarın müvəkkilləri vəzifəsinə dəvət olunmuşdular.

Bakı Soveti hakimiyyəti ələ aldıqdan sonra cəza orqanlarının fəaliyyətini öz səlahiyyətinə keçirməyə, Sovet hakimiyyətini möhkəmləndirmək və onun düşmənlərinə qarşı mübarizə aparmaq üçün onlardan istifadə etməyə çalışırdı. Bu məqsədlə yeni məhkəmə təsisatları sistemi yaradılmasına xüsusi fikir verirdi. 1917-ci il dekabrın 12-də hərbi tribunal yaradılmışdı. 1917-ci il martın 7-də Bakı Şəhəri İcraiyyə Komitəsinin iclasında şəhər Dumasının səlahiyyətində olan milisin inqilabi qaydaların mühafizəsini təmin edə bilməməsi iddia olunmuş, Caparidzenin təklifi ilə milisin Şəhər Sovetinin ixtiyarına verilməsi barədə qərar qəbul olunmuşdu. Komissarlığın təklifi ilə Daxili İşlər orqanları onun səlahiyyətinə verilmişdi. Lakin XDİK-nın hüquq və səlahiyyətləri getdikcə artırdı. O köhnə məhkəmə aparatının ləğvi, yerli və dairə xalq məhkəmələrinin təşkili ilə də məşğul olurdu. BXKS-nin qərarı ilə İcraiyyə Komitəsinin Rekvizisiya (müsadirə) Komissiyası XDİK-ə daha dəqiq ayrıca Rekvizisiya şöbəsinə verilmişdi. Komissarlıq öz fəaliyyətini Sovet hakimiyyətinin ideya düşmənlərinə qarşı çıxanların həbsinə, təqib edilməsinə və fiziki cəhətdən məhvinə cəhd göstərir, fəal rekvizisiya siyasəti həyata keçirərək, Sovet hakimiyyətinin maddi imkanlarını möhkəmləndirməyə çalışırdı. XDİK-in, qeyri millətlərin nümayəndələri tərəfindən başçılıq edilən, cəza əməliyyatları başlıca olaraq türk-müsəlman əhaliyə qarşı yönəldilmişdir.

[1] Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. I c. Bakı: 2004, s.233.

Xalq Daxili İşlər Komissarlığı BXKS-nin süqutu ilə (1918-ci il 31 iyun) ləğv edilmişdir, daşnak Şaumyan hökuməti kimi Sentrokaspi qondarma hökumətinin DİK-də cəmi iki ay ömür sürmüşdür.[1]

Az sonra, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Beləliklə, bütün türkdilli xalqlar arasında, eləcə də bütün islam dünyası tarixində ilk dəfə olaraq Respublika üsuli-idarəsi intişar tapdı.

Sonrakı dövrdə AXC hökumətinin DİN-i AXC dövründə ölkədaxili ictimai asayişi, qanunçuluğu və hüquq normalarını qoruyan dövlət orqanı kimi fəaliyyət göstərirdi. 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurasının qərarı ilə, F.Xoyski tərəfindən Tiflisdə təşkil edilmiş birinci Azərbaycan xalq cümhuriyyəti hökumətində F.Xoyski Nazirlər Şurasının sədri ilə yanaşı, həm də Daxili İşlər naziri vəzifəsini icra edirdi. Həmin il hökumət Gəncəyə köçdükdən sonra, iyunun 17-də F.Xoyskinin burada təşkil etdiyi ikinci hökumətdə Daxili İşlər naziri vəzifəsini Behbud xan Cavanşir tutdu. Noyabr-dekabr aylarında isə, Behbud xan Cavanşirin Sənaye və Ticarət naziri vəzifəsinə təyin olunması ilə əlaqədar Daxili İşlər naziri vəzifəsini müvəqqəti olaraq general-mayor Məmməd Sadıq bəy Ağabəyov icra etmişdir. AXC Parlamenti fəaliyyətə başladıqdan sonra, Parlamentin tapşırığı ilə 1918-ci il dekabrın 26-da Fətəli xan Xoyskinin təşkil etdiyi üçüncü Hökumət Kabinəsində Dİ naziri vəzifəsi Xəlil bəy Xasməmmədova həvalə olundu. 1919-cu il aprelin 14-də Nəsib bəy Yusifbəylinin dördüncü Hökumət Kabinetində o, hökumətin sədri olması ilə yanaşı, həm də Dİ naziri vəzifəsini icra edirdi. 1919-cu ilin dekabrında N.Yusifbəylinin yaratdığı beşinci hökumət Kabinetində Dİ naziri vəzifəsini əvvəlcə Məmməd Həsən Hacınski, sonra isə Mustafa bəy Vəkilov tuturdu. DİN mürəkkəb tarixi dövrdə ölkədə hökm sürən anarxiyanın qarşısının alınması, qanunçuluğun bərqərar edilməsi, ölkədə vətəndaşların şəxsi və əmlak təhlükəsizliyinin təmin olunması, cinayətkarlıqla mübarizə aparılması, həmçinin ölkədə sabitlik yaradılmasında mühüm rol oynamışdır.

DİN-in fəaliyyətini şərti olaraq 3 dövrə bölmək olar: 1-ci dövr – Behbud xan Cavanşirin nazirliyə rəhbərlik etdiyi dövrdür. Bu dövrdə DİN-in funksiyası bir tərəfdən müstəqil dövlətin nazirliyi tərəfindən həyata keçirilirdisə, digər tərəfdən bu struktur Türkiyə Hərbi Komissarlığından xeyli dərəcədə asılı idi. Ölkədə anarxiyaya son qoymaq, qanunçuluğu və vətəndaş təhlükəsizliyini təmin etmək məqsədi ilə bir tərəfdən, keçmişdə fəaliyyət göstərmiş inzibati idarə sisteminin quruluşu və şəxsi heyəti olduğu kimi saxlanılır, digər tərəfdən isə onların vəzifəsi, imkan düşdükcə, hökumətin 1918-ci il iyunun 19-da qəbul etdiyi hərbi vəziyyət haqqındakı qərarının müəyyən

[1] Багирова И.С. Политические партии и организации Азербайджана в начале 20 века, s. 33.

etdiyi səlahiyyətlərdən istifadə olmaqla, hərbi qüvvə vasitəsilə həyata keçirilirdi.

1918-ci il iyunun 23-də nazirlik tərəfindən işlənib hazırlanmış məcburi qərar dərc olundu. Qərara əsasən şəxsiyyətə, dövlət və ictimai əmlaka qarşı ağır cinayətlərə Hərbi-məhkəmə orqanlarında baxılır, ictimai sabitlik üçün təhlükə törədən cinayətlərin araşdırılması isə DİN-in və yerli inzibati idarə orqanları rəhbərlərinin (qubernatorlar, qəza rəisləri) sərəncamına verirdi.

AXC hökumətinin 1918-ci il 24 iyun tarixli qərarına əsasən, bütün keçmiş inzibati idarə işçiləri iyulun 1-dək öz iş yerlərinə qayıtmalı idilər, əks halda işdən azad ediləcəkdilər. Həmin vaxtdan etibarən qəzalarda yerli əhali hesabına inzibati idarə orqanlarının şəxsi heyəti formalaşmağa başladı. Cümhuriyyət hökuməti iyulun 2-də DİN-in məruzəsi əsasında polis işçilərinin əmək haqlarını artırmaq barədə qərar qəbul etdi. Zaqatala mahalı Azərbaycan Cümhuriyyətinə birləşdirildikdən sonra ayrıca Quberniyaya çevrildi və Quberniya İdarəsi yaradıldı. DİN-in Gəncədə həyata keçirdiyi ilk tədbirlərdən biri Gəncə şəhər özünüidarəsini bərpa etmək oldu. İyulun 22-də Gəncə şəhər rəisinin müavininə şəhərdəki işçi qüvvələrini təcili olaraq bir yerə toplayıb fəaliyyətə başlamaq tapşırıldı. İyulun 27-də Azərbaycan hökuməti Gəncə şəhər özünüidarəsini təşkil etmək üçün Şəhər idarəsinə 150 min manat faizsiz borc vermək, vəba ilə mübarizə aparmaq üçün, qaytarılmamaq şərti ilə, 100 min manat kömək ayırmaq barədə qərar qəbul etdi. 1918-ci il iyunun 30-da hökumət digər şəhərlərdə də özünüidarə orqanları yaratmaq haqqında, DİN tərəfindən təqdim olunmuş məruzə əsasında, qərar qəbul etdi. Azərbaycan hökumətinin 1918-ci il 7 və 27 iyul tarixli qərarı ilə DİN-ə yerlərdə inzibati idarə orqanları yaradılırdısa, anarxiyanın hökm sürdüyü dövrdə Gəncədə və digər şəhərlərdə əhalinin təşkilinin yeganə mərkəzi orqanı olan Müsəlman Milli Komitəsinin ləğv edilməsi tapşırıldı.

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını daşnak və eser menşevik hərbi qüvvələrindən azad etdikdən sonra hökumət Bakıya köçdü, DİN-in fəaliyyət dairəsi daha da genişləndi. 1918-ci ilin dekabrında Azərbaycan Cümhuriyyəti Parlamentinin işə başlaması ilə əlaqədar hökumətdə edilən dəyişikliklər nəticəsində Daxili İşlər naziri vəzifəsi Xəlil bəy Xasməmədova həvalə olundu. Bundan sonra nazirliyin fəaliyyətində bir cıra ciddi struktur dəyişiklikləri edildi. Nazirlik bir tərəfdən təşkilati işləri, digər tərəfdən isə xarici dövlətlərin ölkənin daxili işlərinə müdaxiləsini dəf etmək tədbirlərini gücləndirdi.

Qarabağ bölgəsində hakimiyyəti möhkəmləndirmək üçün Azərbaycan hökumətinin 1919-cu il 15 yanvar tarixli qərarı ilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında General–qubernatorluq yaradıldı və həmin ayın 29-da X.Sultanov general qubernator təyin olundu.

DİN-in yerli idarələrinin ştat cədvəli, onların əmək haqlarının artırılması barədə qanun layihələri aprelin 8-də və mayın 26-da Parlamentdə təsdiq olundu. Bu dövrdə DİN-in yerli qurumlarının təşkili, vəzifəli şəxslərin fəaliyyəti və s. haqqında təlimatlar da hazırlanaraq yerlərə göndərildi. AXC hökumətinin 1919-cu il 2 yanvar tarixli qərarı əsasında 1919-cu il üçün DİN-nin smetası hazırlandı. Həmin ilin mayında Bakıda müttəfiq dövlətlərin Polis komissarlıqlarının ləğvi ilə ölkənin daxili siyasətinə xarici təzyiqin aradan qalxması da Dİ orqanlarının fəaliyyətinin güclənməsinə səbəb oldu.

1919-cu il aprelin 14-də təşkil olunmuş 4-cü Hökumət Kabinetində hökumətin sədri Nəsib bəy Yusifbəylinin həm də Dİ naziri vəzifəsini tutması ilə nazirliyin fəaliyyətinin 3-cü dövrü başlandı. Nazirlik və onun yerli orqanları ölkədə xarici hərbi qüvvələrin müdaxiləsi olmadan sərbəst və müstəqil fəaliyyət göstərməyə başladılar. Bu işdə nazirliyin hazırladığı və 16 aprel tarixli əmri ilə elan etdiyi Təlimatın mühüm əhəmiyyəti olmuşdur. Təlimatda qanunçuluğun və intizamın möhkəmləndirilməsi, ölkənin bütün vətəndaşlarına eyni münasibət göstərilməsi, milli qırğın təzahürlərinin qarşısının qətiyyətlə alınması, vəzifəli şəxslərin öz vəzifələrindən sui-istifadə hallarına qarşı kəskin mübarizə aparılması və sair məsələlər öz əksini tapmışdı. Yerli hakimiyyət orqanları əvvəlki dövrə nisbətən öz hakimiyyətlərində mərkəzi hakimiyyətin göstərişlərinə daha ciddi əməl edirdilər.

Bu dövrdə DİN-in fəaliyyətində bir sıra təşkilati xarakterli tədbirlər həyata keçirildi. Nazirliyin təklifi ilə, Dövlət Müdafiə Komitəsi yaradıldı. Bakı və ətraf sənaye rayonlarının daha etibarlı mühafizəsi üçün Bakı şəhər rəisliyi təsis olundu. Bakı şəhər polisinin ehtiyat qüvvələri təşkil edildi. AXC-də hərbi çağırışın icrası haqqında Azərbaycan parlamentinin 26 may tarixli qanununa uyğun olaraq, hərbi çağırış barədə əsasnamə təsdiq olundu. Nazirlik tərəfindən hazırlanmış "Azərbaycan polis inspektoru haqqında əsasnamə" də Dövlət Müdafiə Komitəsi tərəfindən təsdiqləndi.

Şəhərlərə gətirilən və aparılan yüklərdən onların xeyrinə cari yığım haqqında nazirliyin hazırladığı qanun layihəsi 1919-cu il iyunun 27-də Azərbaycan Cümhuriyyətinin Parlamenti tərəfindən qəbul edilmişdir. Nazirliyin təqdimatı ilə mətbuat haqqında nizamnamə, icarəyə verilmiş binalar üçün qiymətlərin müəyyənləşdirilməsi və onlardan istifadə qaydaları və sair məsələlərlə bağlı qanun layihələrinə Parlamentdə baxılmış və qəbul olunmuşdur. Nazirliyin fəaliyyətinin sonuna yaxın işləyib hazırladığı ən mühüm məsələlərdən biri də Azərbaycanda torpaq məsələləri ilə məşğul olan idarələr haqqında əsasnamə idi. Sənəddə torpaqların idarəçilik formasının Qərbdəki demokratik əsaslara uyğun olaraq, tamamilə yenidən qurulması nəzərdə tutulmuşdu.

AXC dövründə Azərbaycan Cümhuriyyətinin DİN tərəfindən təyin

edilmiş, xüsusi səlahiyyəti olan vəzifəli şəxs, Gəncə quberniyasının Qazax qəzasında milli etnik toqquşmaları, azərbaycanlılar, ermənilər və gürcülər arasında münasibətləri tənzimləmək məqsədilə genişləndiyi və adi inzibati tədbirlərlə qayda-qanun yaratmağın mümkün olmadığı şəraitdə yerli qəza idarəsinə nəzarət etmək üçün 1919-cu il fevralın 17-də müvəqqəti general-qubernator səlahiyyətləri ilə DİN-in xüsusi müvəkkil vəzifəsi təsis edildi. Onun sərəncamında xalq milisi dəstələri var idi. 1919-cu il mayın 7-də Rza bəy Qaraşarov Qazax qəzasına xüsusi müvəkkil təyin olundu, ona qəza hakimiyyət nümayəndələrinə nəzarət etmək, lazım gəldikdə onları vəzifədən kənarlaşdırmaq səlahiyyəti verildi.

1917-ci il aprelin 27-də Xüsusi Zaqafqaziya komitəsi tərəfindən ləğv edilmiş Gəncə şəhər polis idarəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə bərpa olundu. Hökumətin 1918-ci il 23 iyun tarixli qərarına əsasən, iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyası üzrə polis əməkdaşlarının müvəqqəti maaşları müəyyən edildi. Qəza polisinə Daxili İşlər naziri tərəfindən təyin olunan qəza rəisi başçılıq edirdi.

Gəncə qəzası 4 polis məntəqəsinə bölünmüşdü. Bu məntəqələrə pristavlar başçılıq edirdilər. Onların tabeliyindəki polis nəzarətçiləri asayişin təhlükəsizliyin təmin olunması və abadlıq işləri üçün məsuliyyət daşıyır, müvafiq yuxarı hakimiyyət orqanlarının göstərişlərini yerinə yetirirdilər. Pristavları qubernatorlar, qalan polis işçilərini isə qəza rəisi təyin və azad edirdi.

AXC dövründə polis orqanlarının qanun əsasında fəaliyyət göstərməsinə nəzarətə dair hüquqi sənəd 1919-cu il sentyabrın 16-da AXC Dövlət Müdafiə Komitəsi tərəfindən təsdiq edilmişdi. Polis müfəttişliyi rəisi bilavasitə Dİ nazirinə, müfəttişlər və dəftərxana isə rəisə tabe idi. Müfəttişlik ildə bir dəfədən az olmayaraq, DİN-in bütün idarələrini və nazirliyin vəzifəli şəxslərinin fəaliyyətini yoxlayır, vəzifə cinayətlərini aşkar edib araşdırırdı.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 11-ci ordu tərəfindən işğal olunduqdan sonra F. Xoyski ailəsi ilə birlikdə Tiflisə köçmək məcburiyyətində qaldı. O, Azərbaycanın tanınmış dövlət xadimi Xəlil bəy Xasməmmədovla Tiflisin İrəvan meydanından keçərkən Erkayan və Misar Qriqoryan tərəfindən qətlə yetirilir. X.Xasməmmədov isə ağır yaralanır. AXC-nin F.X.Xoyskidən sonrakı Dİ nazirləri Cavanşir Behbudov (onun da aqibəti F.Xoyski kimi olub; 1921-ci ilin yanvarında İstanbulda "Daşnaksütyun" partiyasının üzvü Toplacyan tərəfindən arxadan vurulub öldürülmüşdü), X.Xasməmmədov, N.Yusifbəyli, M.Hacınski və M.Vəkilov olmuşdu. AXC-nin fəaliyyəti dövründə DİN Parlament qarşısında hesabat verdi. Bakı Balaxanı-Sabunçu müstəqil polismeystr idarələri, Bakı şəhər upravasının polisi, Bakı xüsusi vergi polisi, xəfiyyə polisi, Şuşa müvəqqəti general-qu-

bernatoru, Gəncə, Zəngəzur, Cavanşir, Cavad, Cəbrayıl və s. qəzaların polis idarələri DİN-in tərkib hissələri idi. Qəzalarda qəza polis rəisləri, onların böyük və kiçik köməkçiləri, sahə müvəkkilləri və miliş yaradılmışdı. Milislər polisin tərkibindəki könüllü silahlı ərazi özünümüdafiə dəstələri idilər. Daxili İşlər orqanlarındakı polis də, milis də eyni məqsədə xidmət edir, ictimai asayişi gözləyirdi.

Yeni yaranmış AXC cəmi 23 ay yaşadı. Azərbaycan Rusiyanın 11-ci ordusu tərəfindən işğal olundu, bolşeviklər hakimiyyətə gəldi. Yeni respublikanın ilk Daxili İşlər naziri Həmid Sultanov oldu. Elə ilk gündən polisin adı dəyişdirildi və məlum olduğu kimi “milis” adı qəbul edildi. İnqilab Komitəsi tərəfindən Bakı şəhər milis şöbəsi yaradıldı, Rəhim Hüseynov rəis təyin olundu. Eyni zamanda bütün inzibati ərazilərdə şəhərdəki pristavlar işdən uzaqlaşdırıldı, yerlərinə isə komissarlar təyin olundu. Dairə milis idarələri yaradıldı, qəza idarələri isə onlara tabe edildi. Qəza idarələri öz tabeliyindəki milis sahələrinə rəhbərlik edirdi. “Polis” və ya “milis” adını daşımasına baxmayaraq, ictimai asayişi gözləmək, cinayətkarlığa qarşı mübarizə aparmaq, xalqın əmin-amanlığını təmin etmək onların əsas vəzifəsi olmuşdu.

1920-ci il aprelin 29-da Bakı İnqilab Komitəsinin qərarı ilə bütün yerlərdə pristavlar işdən azad edildi və bu vəzifələrə komissarlar təyin edildi. Dairə polis idarələri yaradıldı və qəza idarələri onlara tabe oldu. Qəza idarələri isə qəzada olan milis sahələrinə rəhbərlik edirdilər.

20 sentyabr 1920-ci il tarixli dekretə əsasən, Azərbaycan İnqilab Komitəsi Xalq Daxili İşlər Komissarlığına oğruları, qarətçiləri, quldurları qoçuları, oğurluq mal alverçilərini, gizli silah saxlayanları və bu qəbildən olan digər cinayətkar ünsürləri vətəndaş müharibəsi qurtaranadək respublikadan sürgün etmək və 6 ay müddətinə məcburi əməyə cəlb etmək hüququ verildi.

1920-ci il noyabrın 3-də Respublika milis rəislərinin 1-ci qurultayı keçirildi. Qurultay milisin təşkilati cəhətdən möhkəmlənməsinə xeyli kömək etmiş oldu.

1921-ci iyunun 4-də N.Nərimanovun sədrliyi ilə keçən iclasda Xalq Komissarları Soveti Xalq Daxili Işlər Komissarı Həmid Sultanova milisi gücləndirmək üçün onun sıralarına 300 nəfər komandir dəvət etməyi tapşırdı. Dəmiryol milisi əməkdaşlarının təminatının dəmiryol fəhlələrinin təminatı ilə eyni olması qərarlaşdırıldı.

1920-40-cı illərdə milisin 500-ə qədər əməkdaşı cinayətkarlığa qarşı mübarizədə həlak olmuşdu. 1937-39-cu illərdə onun yalnız rəyasət heyətində 320 nəfərə qədəri repressiyaya uğradı. 1941-45-ci illər müharibəsində 800 nəfərə yaxın milis əməkdaşı cəbhəyə yollanmış, onların bir çoxu geri dönməmişdir. Müharibədən sonrakı illərdə milisdə çalışan İsrafil Məmmədov, polkovnik Mehdi Quliyev, generallar Xəlil Məmmədov, Səlahəddin

Kazımov isə cəbhədən vətənə Sovet İttifaqı Qəhrəmanı adı ilə qayıtmışdılar.

1946-cı ilin martında Azərbaycan Daxili İşlər Nazirliyi adı təsis olundu. Altı il sonra, 22 fevral 1962-ci ildə isə DİN Asayişi Mühafizə Nazirliyi adlandırıldı. Amma 60-cı illərin sonunda DİN yenidən bərpa olundu.

1950-ci il noyabrın 1-də Azərbaycan SSP Ali Soveti DİN əməkdaşlarının təltifi üçün "Asayişin mühafizəsində əla xidmətə görə" medalı, 23 dekabr 1958-ci ildə "Milis əlaçısı" döş nişanı təsis edildi. Son onilliklərdə Daxili İşlər orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm qərarlar qəbul edildi. Hələ 1969-cu ilin avqust plenumunda qəbul edilmiş qərar Respublikamızda milis əməkdaşlarının fəaliyyətində baş vermiş nöqsanların aradan götürülməsində, onların işinin yaxşılaşdırılmasında mühüm tədbirlərin həyata keçirilməsinə təkan verdi. Bunun nəticəsində Dİ orqanlarının əməkdaşlarının arasında nizam-intizam möhkəmləndirilmiş, məsuliyyət hissi artmış, cinayətkarlığa qarşı mübarizə gücləndirilmişdi.

Azərbaycan KP MK-nın 1982-ci il oktyabr plenumunda qəbul edilmiş qərarda hüquq-mühafizə orqanları qarşısında aşağıdakı tələblər qoyuldu: işdə süründürməçiliyə son qoyulsun, cinayətlərin baş vermə səbəbləri, zəmini aşkar edilsin və onlar aradan qaldırılsın. Həmin plenumda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev çıxış etmiş, hüquq-mühafizə orqanlarının fəaliyyətində olan nöqsanları çox ciddi tənqid etmişdir. Heydər Əliyev çıxışlarının birində demişdi: "Cinayətkarlığa qarşı səmərəli mübarizədə hüquq-mühafizə orqanları kadrlarının seçilməsinin və yerləşdirilməsinin son dərəcədə böyük əhəmiyyəti vardır. Bu iş həmin orqanların sınanmış və etibarlı işçilərilə, yüksək mənəvi və professional keyfiyyətlərə malik işçilərlə möhkəmləndirilməlidir".[1]

SSRİ süquta uğradıqdan sonra, 90-cı illərin əvvəllərində mürəkkəb tarixi proseslərin axarına düşmüş xalqımız doğru yolu seçərək, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında və dövlətçilik naminə fədakar xüsusiyyətləri sayəsində özünün yeni müstəqil dövlətini qura bildi. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi hələ dövlət müstəqilliyinin reallaşması demək deyildi. Hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması, dövlət idarəçiliyi mexanizminin formalaşmasında ciddi maneəyə çevrilmişdi. Bu illər həm də Daxili İşlər orqanlarının fəaliyyətinin tənəzzül dövrü kimi yadda qaldı. Müxtəlif məsul vəzifələrə təyin edilən təsadüfi və ambisiyalı şəxslərin qanunsuz hərəkətləri, özbaşınalığı, qeyri peşəkarlığı cinayətkarlığın səviyyəsini görünməmiş həddə çatdırdı.

---

[1] Behbudov T. Müstəqil Azəbaycan polisinin yaranması və fəaliyyəti (1918-1990-cı illər). Bakı: 1958, s. 298-299.

Xaos və anarxiyadan cana doyan Azərbaycan xalqı yeganə çıxış yolunu böyük etimad bəslədiyi Heydər Əliyevdə görərək, onu təkidlə respublika rəhbərliyinə dəvət etdi. Ümummilli lider 1993-cü ilin 15 iyununda Azərbaycan rəhbərliyinə qayıtdı və həmin gün tariximizə “Qurtuluş günü” kimi daxil oldu.

Onu da qeyd etmək yerinə düşər ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1695 nəfər polis işçisi şəhid olmuş, 5 minə yaxın əməkdaş isə yaralanmışdı. Asayişin mühafizəsi, cinayətkarların qarşısının alınması zamanı isə öz vəzifələrini yerinə-yetirən 80 əməkdaş həlak olmuş, 1240 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Göstərdikləri igidliyə və xidməti borca, sədaqətə görə Daxili İşlərin 2208 əməkdaşı və hərbi qulluqçusu yüksək dövlət mükafatına layiq görülmüş, o cümlədən 76 nəfərə “Milli qəhrəman” adı verilmişdi.

Dövlət və xalq uğrunda vuruşan, istər torpaqlarımızın azad olunmasında, istərsə də cinayətkarlığa qarşı mübarizədə şücaət göstərən həmin oğulların qəhrəmanlıqları ürəklərə və Azərbaycan tarixinin qızıl səhifələrinə yazılmış, adları əbədiləşdirilmiş (məktəblər, küçələr, xiyabanlar və s.), barələrində kitablar yazılmış, büst və heykəlləri ucaldılmışdır.

**Milli qəhrəmanlarımızın siyahısı:**

1. Polis mayoru Əlif Lətif oğlu Hacıyev,
2. Polis leytenantı İlham Müzəffər oğlu Əliyev.
3. Polis baş leytenantı Mehdi Yusif oğlu Abbasov.
4. Polis kapitanı Məhərrəm Mirəziz oğlu Seyidov.
5. Polis baş leytenantı Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov.
6. Polis serjantı Nofəl Zahid oğlu Quliyev.
7. Polis leytenantı Səfəralı Qurban oğlu Məmmədov.
8. Polis serjantı Valeh Əlirza oğlu Müslümov.
9. Polis serjantı Vüqar Tofiq oğlu Hüseynov.
10. Polis starşinası Yuri Petroviç Kovalyov.
11. Polis serjantı Yusif Əliyusif oğlu Əliyev.
12. Daxili İşlər Nazirliyinin yanğından mühafizə idarəsinin əməkdaşı Hikmət Baba oğlu Nəzərli
13. Polis serjantı Əli Hüseyn oğlu Məmmədov
14. Polis serjantı İlqar Sədi oğlu İsmayılov.
15. Polis serjantı Tahir Tofiq oğlu Həsənov.
16. Daxili xidmət polkovniki Ənvər Talış oğlu Arazov
17. Daxili xidmət baş leytenantı Fəxrəddin Vilayəddin oğlu Nəcəfov.
18. Daxili xidmət serjantı İqor Vladimiroviç Makeyev
19. Daxili xidmət baş leytenantı Mətləb Kazım oğlu Quliyev
20. Daxili xidmət starşinası Ruslan Həmid oğlu Muradov.

21. Polis baş leytenantı Kərəm Ərşad oğlu Mirzəyev.
22. Polis baş leytenantı Oqtay Güləli oğlu Güləliyev.
23. Polis starşinası Vasili Əhəd oğlu Əliyev.
24. Polis serjantı Siyavuş Həsən oğlu Həsənov.
25. Polis kapitanı Eldar Abdulla oğlu Tağızadə.
26. Polis kiçik serjantı Faiq Alış oğlu Ağayev.
27. Polis serjantı Namik Müslüm oğlu Allahverdiyev
28. Polis serjantı Şakir Davud oğlu Aslanov.
29. Polis starşinası Nazim Qabil oğlu Quliyev.
30. Polis starşinası Akif Abbas oğlu Əkbərov.
31. Polis baş leytenantı İmamverdi Barat oğlu Əliyev.
32. Polis kapitanı Faiq Qəzənfər oğlu Rəfiyev.
33. Daxili xidmət serjantı Malik Həmid oğlu Əsədov.
34. Polis serjantı Natiq İlyas oğlu Əhmədov
35. Polis starşinası İnqilab Ələkbər oğlu İsmayılov
36. Daxili xidməti baş leytenantı Elşad Məhəmmədhəsən oğlu Yəhyayev.
37. Polis serjantı Fazil Umud oğlu Mehdiyev.
38. Polis baş serjantı Aytəkin İsrafil oğlu Məmmədov.
39. Polis kiçik serjantı Kazım Ərşad oğlu Məmmədov.
40. Polis baş serjantı Nizami Murad oğlu Məmmədov.
41. Daxili xidmət baş serjantı Sahil Ələmdar oğlu Məmmədov.
42. Polis starşinası Vüqar Mirəzbər oğlu Mürsəlov.
43. Daxili xidmət serjantı Cəmil Səmədxan oğlu Niftalıyev.
44. Polis serjantı Hidayət Eldar oğlu Rüstəmov.
45. Polis serjantı Şakir Samir oğlu Salahov.
46. Polis serjantı Sərdar Mədət oğlu Cəfərov.
47. Polis starşinası Rizvan Rəhman oğlu Teymurov.
48. Polis mayoru Ənvər Sayad oğlu Fərəcov.
49. Polis baş leytenantı Pəhlivan Əhliman oğlu Fərzəliyev.
50. Polis baş serjantı Elşad Eynulla oğlu Hüseynov.
51. Polis leytenantı Sadıq Dayandur oğlu Hüseynov.
52. Polis kiçik serjantı Şamoj Məhyəddin oğlu Çobanov.
53. Polis mayoru Şahlar Əvəz oğlu Şükürov.
54. Polis kapitanı Əli Hüseyin oğlu Məmmədov.
55. DİN-in daxili qoşunlarının sıravi əsgəri Səxavət Ələmdar oğlu Məhərrəmov.Polis starşinası Əjdər Haqverdi oğlu Babayev.
56. Polis podpolkovniki Mədət Qəzənfər oğlu Quliyev. Cənab Mədəd Quliyev hazırda general leytenantdır. Dövlət Təhlükəsizlik Xidmətinin rəisidir.

57. Polis mayoru Nurəddin İslam oğlu İbrahimov.
58. Polis starşinası Ramazan Heybulla oğlu Cirinqov.
59. Daxili xidmət leytenantı Rövşən Əbdülhüseyin oğlu Abdullayev .
60. Polis serjantı Qabil Qasım oğlu Həsənov.
61. Polis baş leytenantı İsrafil Şahverdi oğlu Şahverdiyev.
62. Polis starşinası Qorxmaz Abış oğlu Eyvazov.
63. Polis starşinası Eldar İsfəndiyar oğlu Həsənov.

Ulu Öndər Heydər Əliyev 1994-cü ilin avqustun 9-da imzaladığı "cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi" fərmanı ilə mütəşəkkil cinayətkarlıqla mübarizənin təşkilati-hüquqi bazasını, bu sahədə gələcək uğurların əsasını qoydu. Məhz Heydər Əliyevin rəhbərliyi altında görülən tədbirlərlə on minlərlə qanunsuz odlu silah və sursat əldə edildi, qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr ləğv edildi, cəmiyyətə meydan oxuyan yüzlərlə cinayətkar dəstə zərərsizləşdirildi. Qısa müddətdə cinayətkarlığın dinamikasında müsbət təmayüllər müşahidə olundu. Qəsdən adamöldürmənin, oğurluqların, qarət və quldurluqların sayı kəskin surətdə azaldı. İnsanların dinc və rahat yaşaması üçün lazım olan şərait yaradıldı. Vətəndaşların dövlətə, onun hüquq-mühafizə strukturuna inamı bərpa edildi. Eyni zamanda Daxili İşlər orqanları təsadüfi adamlardan, dövlət vəzifələrini özlərinin şəxsi maraqlarına nail olmaq üçün alət vəsaiti hesab edənlərdən təmizlədi, sağlam ab-hava yaradıldı, polisdən uzaqlaşdırılmış yüzlərlə əməkdaş xidmətə qaytarıldı.

Dahi Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyası, habelə ölkənin bütün sahələrində hüquqi münasibətləri tənzimləyən, demokratik cəmiyyətdə Daxili İşlər orqanları üçün zəruri olan bir çox qanunlar qəbul edildi, fərman və sərəncamlar verildi.[1]

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində bərqərar olmuş möhkəm dövlət intizamı, qanunçuluğa söykənən iş prinsipləri, xalqın polisə olan etimadı və dəstəyi ölkəmizdə cinayətkarlığa, onun bütün təzahürlərinə, mübarizənin yüksək səviyyədə davam etdirilməsinə, sabitliyin uğurla qorunmasına imkan verir. Bu gün Azərbaycan polisi inkişaf və yüksəlmə mərhələsini yaşayır, müasir dünyanın çağırışına cavab olaraq, aparılan islahatlar nəticəsində, onun üzərinə qoyulan vəzifələrin dairəsi genişlənir, cinayətlərin qarşısının alınması ilə yanaşı, insan hüquq və azadlıqlarının qorunması Daxili İşlər orqanlarının əsas prinsiplərindən birinə çevrilir. Polis orqanlarının fəaliyyətini təkmilləşdirmək, peşə hazırlığını və bilik səviyyəsini artırmaq məqsədi ilə yeni axtarış və informasiya texnologiyaları ilə təmi-

[1] Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. II c. Bakı: 2005.

natı, maddi-texniki bazanın ən müasir tələblər səviyyəsinə çatdırılması və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində lazımi tədbirlər görür.

Dahi şəxsiyyət Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu ürəkdən qəbul edən və birmənalı dəstəkləyən, onun davamçısı olan, bütün fəaliyyətini Azərbaycanın strateji maraqlarının aliliyinə və işıqlı gələcəyinə həsr edən İlham Əliyev bu tarixi missiyanı öz üzərinə götürərkən demişdir: "Heydər Əliyevin siyasəti yaşamaqdadır, bu zamanın tələbidir, bu yeganə siyasətdir ki, Azərbaycan daha da güclənəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edəcəkdir".

İ.Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə edilmiş, xalqımız və dövlətimiz üçün taleyüklü sayılan layihələr reallaşmışdır. Respublikamızın iqtisadi və hərbi potensialı, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Prezident İlham Əliyev demişdir: "Azərbaycan polisi bütün bu qanunsuz hərəkətlərin qarşısını çox cəsarətlə, çox qətiyyətlə və lazım olan şəkildə aldı... Çünki polis öz vəzifə borcunu yerinə yetirir, dövlətçiliyin keşiyində durur... Mən bu gün də Azərbaycan polisini dəstəkləyirəm, polisin inkişafı üçün bütün lazımi tədbirləri görürəm. Həm polisin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün, həm də sosial problemlərinin həlli üçün".[1]

Bu gün Daxili İşlər orqanlarının fəaliyyəti cəmiyyət üçün açıq və sosial yönümlüdür. Əhalinin bütün qrup və təbəqələri vətəndaş cəmiyyətinin institutları ilə qarşılıqlı əlaqədə iş aparır, polis münasibətinin öyrənilməsi diqqət mərkəzində saxlanılır və öz növbəsində cinayətkarlığa qarşı mübarizənin nəticələri barədə ictimaiyyət mütəmadi məlumatlandırılır.

Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi üzrə milli fəaliyyət planının icrası, o cümlədən polisə gətirilmə, saxlanılma və məsuliyyət tətbiqi prosesində qanunçuluğa ciddi riayət olunması, bütövlükdə insan hüquq və azadlıqlarının təmin edilməsi kimi, vacib məsələlər gündəlik nəzarətdədir.

Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsində, cinayətkarlıqla mübarizənin, ictimai təhlükəsizliyin və əmin-amanlığın təmin edilməsində, ölkədə dönməz sabitliyin əldə olunub, qorunub saxlanılmasında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 1998-ci il tarixli 41 nömrəli Fərmanı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil

---

[1] Usubov Ramil. Asayişin və sabitliyin keşiyində // Azərbaycan, 2011, 20 oktyabr, №232 [5922].

Usubov Azərbaycanın beynəlxalq polis strukturlarına inteqrasiya olunmasında, dünya birliyi dövlətlərinin müvafiq qurumları ilə faydalı qarşılıqlı əlaqələrin təşkil edilməsində, transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığın möhkəmləndirilməsində xüsusi xidmətlərinə, bu sahədə uğurlu nəticələrinə və müsbət göstəricilərinə görə çox sayda müxtəlif yüksək mükafatlara layiq görülmüşdür. Məsələn, 2009-cu ildə Polşa prezidentinin sərəncamı ilə iki ölkənin münasibətlərinin inkişafına göstərdiyi xidmətlərə görə "Böyük zabit" ordeni ilə təltif olunub.[1]

14 may 2015-ci il tarixdə Respublikanın Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordan Birellini qəbul edib.

Görüşdə Böyük Britaniyanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğu və bu müddətdə ikitərəfli əlaqələrin bir çox sahələrdə uğurla inkişaf etdiyi, xüsusilə BP şirkətinin ölkəmizin neft strategiyasının həyata keçirilməsində rolu, "Əsrin müqaviləsi"nin əsas iştirakçılarından və ən böyük payçılarından biri kimi iqtisadiyyatımıza külli miqdarda sərmayə qoyması xatırlandı.

Daha sonra Daxili İşlər naziri müstəqilliyin ilk illərində ölkəmizdə mövcud olan gərgin ictimai-siyasi vəziyyəti, Azərbaycanın vətəndaş müharibəsi astanasında olduğunu yada salaraq, xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışını, onun həyata keçirdiyi qətiyyətli tədbirlərlə ölkəmizin məhv olmaq təhlükəsindən xilas edildiyini, sabitliyin bərpa olunduğunu, kriminogen durumun nəzarətə götürüldüyünü, vətəndaşlarımızın, eləcə də əcnəbi iş adamlarının təhlükəsiz və əmin-amanlıq şəraitində yaşayıb işləmələri üçün əlverişli şəraitin yaradıldığını vurğuladı.

Şəxsi heyətin peşəkarlığının daha da artırılmasından, müasir informasiya texnologiyalarının, elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin əməliyyat xidməti fəaliyyətində tətbiqindən danışan nazir vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, hüquq qaydasına riayət edilməsinə videonəzarətin həyata keçirilməsi, fasiləsiz və canlı izlənilməsi, fövqəladə vəziyyətlərə çevik reaksiya verilməsi funksiyalarının yerinə yetirilməsi məqsədilə Nazirlikdə "təhlükəsiz şəhər" Avtomatik İdarəetmə Sisteminin yaradıldığını, bu yöndə Birləşmiş Krallığın təcrübəsinin öyrənildiyini xüsusi qeyd edib.

Ölkəmizin Avropa oyunlarına ev sahibliyi ediləcəyini xatırladan nazir bu məqsədlə asayişi mühafizə tədbirlərinə Dİ orqanlarının 24 mindən çox əməkdaşın cəlb olunduğunu nəzərə çatdırıb və sözügedən oyunların da əvvəlki beynəlxalq tədbirlər kimi yüksək təhlükəsizlik və əmin-amanlıq şəraitində keçiriləcəyini ifadə edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən

[1] http://modern.az/az/news/49389/#gsc

Q.Birelli ölkəmizə birinci dəfə müstəqilliyin ilk illərində səfər etdiyini, daha sonra ümummilli lider Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırlayıb, regiona növbəti gəlişində respublikamızın, onun paytaxtı Bakının sürətli inkişafının, sabitliyin, əmin-amanlığın yüksək səviyyədə qorunmasının, təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsinin şahidi olduğunu, BP şirkətinin DİN ilə işgüzar əməkdaşlığın daha da dərinləşməsinə hər zaman önəm verdiyini qeyd edib.[1]

DİN-nin Polis Akademiyasında Azərbaycan polisinin peşə bayramına və 2014-2015-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasimin keçirilməsi də böyük əhəmiyyət daşıyır.

Millət vəkillərinin, nazir müavinlərinin, aidiyyəti xidmət rəislərinin, yerli icra, hüquq-mühafizə orqanlarının rəhbərlərinin, Olimpiya oyunlarının, dünya çempionatlarının mükafatçıları olan daxili işlər orqanları əməkdaşlarının, məzunların valideynlərinin, ictimaiyyət və kütləvi informasiya vasitələri nümayəndələrinin də iştirak etdiyi tədbirdə nazir müavini, polis general-leytenantı İ.Əliyev şəxsi heyətin təntənəli mərasimə hazır olması barədə Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubova raport verib. Sonra nazir Polis Akademiyasının müəllim və müdavim heyətini əlamətdar hadisələr münasibətilə təbrik edilib.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov təntənəli mərasimdə çıxış edərək demokratik prinsiplərin və ənənələrin varisliyinə əsaslanan, ümümmilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı fərmanla iyulun 2-ni "Azərbaycan polisi günü" elan etdiyini xatırladıb, çoxmilli asayiş keşikçiləri nəslinin Vətəninə və xalqına xidmətlərini özündə əks etdirən, mərdlik, şücaət və qəhrəmanlıqla zəngin olan bu tarixin 1918-ci il iyunun 2-də AXC və DİN-in tərkibində asayişi mühafizə dəstələrinin yaradılması ilə başlandığını diqqətə çatdırıb. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə yaranmış mürəkkəb vəziyyət, daxili çəkişmələr, özbaşınalıq, hüquq-mühafizə orqanlarının fəaliyyətsizliyi və bütün bunların məntiqi nəticəsi olaraq sabitliyin pozulmasının respublikamıza çox böyük zərbə vurduğu, onu dağıtmaq həddinə çatdırdığını bildirib.

Qeyd edilib ki, belə ağır vəziyyətdə xalqın tələbi ilə 1993-cü ilin iyununda respublikaya siyasi rəhbərliyə qayıdan ümummilli lider Heydər Əliyev ölkəni vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən xilas etdi. Bu qayıdış digər sahələrlə bərabər, DİN sistemində də köklü dönüş mərhələsi oldu və sonrakı illərdə polisin keçdiyi yolun şərəf tarixinə çevrilməsində müstəsna rol oynadı.

---

[1] DIN mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 14 may, №19932-32.

Ulu öndər fəaliyyətimizin qanunçuluq, xalqa və dövlətə sədaqət, milli maraqlara xidmət kimi prinsiplər üzərində qurulmasının möhkəm təməlini yaratdı, hüquqi əsaslarının müəyyən edilməsi üçün 34 qanun, 100-dən çox fərman və sərəncam imzaladı. Onun rəhbərliyi altında cəmiyyət həyatının bütün sahələrində uğurlar təmin edən çox böyük işlər görüldü. Artıq 2002-ci ildə ölkədə qeydə alınan cinayətlərin açılması 1992-ci illə müqayisədə 67 faizdən 95 faizə yüksəldi, ümumu cinayətlərin sayı 31 faiz, bağlı qalmış cinayətlər 13 dəfə azaldı.

Həmin illərin başlıca yekunu Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxaran Heydər Əliyevin dövlətçiliyə xidmət məktəbini keçmiş Azərbaycan polisinin formalaşması oldu və bu həqiqət öz ifadəsini ulu öndərin onların fəaliyyətinə verdiyi dəyərdə tapdı: "İndi Azərbaycanda insanlar əmin-amanlıq, rahatlıq şəraitində yaşayırlar. Bu, bizim dövlətimizin siyasətinin, ardıcıl surətdə həyata keçirilən tədbirlərin nəticəsidir. Eyni zamanda hüquq-mühafizə orqanlarının, o cümlədən DİN-in gördüyü işlərin, fəaliyyətinin nəticəsidir.

Müstəqillik illərində polis və daxili qoşunlar asayişi və daxili təhlükəsizliyi cəsarətlə qoruyub, ən çətin anlarda vətənə sədaqətlə xidmət ediblər. Respublikamızın ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla döyüşən 1695 əməkdaşımız və hərbi qulluqçumuz şəhid olub. 1710 nəfər yaralanıb. Göstərdikləri şücaətə və igidliyə görə 67 nəfər "Milli Qəhrəman" adına, 1143 nəfər orden və medallara layiq görülüb. Sonrakı illərdə də daxili işlər orqanlarının şəxsi heyətinin fəaliyyəti gərgin olub. Təkcə onu xatırlamaq kifayətdir ki, cinayətkarlığa qarşı mübarizədə ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrini yerinə yetirərkən 95 polis əməkdaşı həlak olmuş, 2514 nəfər xəsarət almışdır.

2003-cü ilin oktyabrında İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkə inkişafının yeni mərhələsinə qədəm qoydu. Həmin ildən başlayaraq, onun rəhbərliyi ilə aparılan quruculuq işləri, islahatlar, xalqımız və dövlətimiz üçün çox mühüm olan layihələrin reallaşması DİN-i, onun orqan və hissələrini də əhatə etdi.

Məhz Prezidentin təşəbbüsü ilə 2004-cü ildə qəbul edilmiş Dövlət Proqramı əsasında Nazirliyin strukturunun və normativ hüquqi bazasının təkmilləşdirilməsi, maddi-texniki bazasının yaxşılaşdırılması, şəxsi heyətin sosial müdafiəsinin və demokratik cəmiyyətdə polisin rolu haqqında məlumatlandırma işinin gücləndirilməsi üzrə əhəmiyyətli işlər görüldü. Ötən 12 ildə fəaliyyətin qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulması, cəmiyyətin maraqlarına tam cavab verməsi məqsədilə 421 fərman və sərəncam imzalandı. Nazirliyin büdcəsi 11 dəfə artdı, infrastruktur yeniləndi, maddi-texniki bazası əsaslı surətdə təkmilləşdi. Struktur qurumlar, o cümlədən ərazi polis orqanları və daxili qoşunlar üçün 362 sosial obyekt tikildi. 4 mindən çox

nəqliyyat vasitəsi alındı. Ölkə başçısının vətəndaşların ərizə və şikayətlərinə həssaslıqla yanaşması, qanunla qorunan hüquq və mənafelərin etibarlı müdafiəsi barədə tələb və tapşırıqların icrası məqsədilə “102 – zəng mərkəzi” və “təhlükəsiz şəhər” sistemi, “qaynar xətt”lər, “veb-saytlar”, habelə 40-dan çox informasiya resursu yaradılıb.

“Korrupsiyaya qarşı mübarizəyə dair” milli fəaliyyət planına müvafiq olaraq, orqan və hissələrin işində şəffaflığın artırılması, hesabatların təmin edilməsi, vətəndaş cəmiyyəti institutları ilə əlaqələrin genişlənməsi, yeni texnologiyaların tətbiqi, elektron xidmətlərin “bir pəncərə” prinsipi əsasında təşkili, informasiya əldə olunmasının asanlaşdırılması, etik davranış qaydalarının təkmilləşdirilməsi ilə bağlı konkret tədbirlər görülüb və bu gün də davam etdirilir.

Orta və böyük rəis heyəti vəzifəsində xidmət edən ali hüquq təhsilli əməkdaşların xüsusi çəkisi 1992-ci illə müqayisədə 3,1 dəfə artaraq cari ildə 80 faizə yüksəlib. Transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əlaqələrimizin rolu da əhəmiyyətli olmaqla, xarici həmkarlarımız ilə yaranmış işgüzar münasibətlər tərəflərin maraqlarına uyğun inkişaf edir. Bu formatda 40-dan çox ölkənin müvafiq qurumları ilə 92 beynəlxalq sənəd imzalanıb.

Dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə uyğun həyata keçirilən konkret tədbirlər, o cümlədən vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində sistemli fəaliyyət orqan və hissələrdə qanunçuluğu əhəmiyyətli dərəcədə möhkəmləndirilib. 2014-cü ildə və cari ilin ötən dövründə 65 mindən çox ərizə və şikayət araşdırılıb. Nazirliyin rəhbərliyi və struktur xidmətləri tərəfindən paytaxtda və respublikanın müxtəlif bölgələrində 5 mindən çox vətəndaş qəbul edilib. Bütün müraciətlər üzrə qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb, əksəriyyəti yerində həll olunub.

DİN ölkədə cinayətkarlıqla mübarizənin və ictimai qaydanın nümunəvi təmin edilməsinin uğurlu nəticələri barədə təntənəli mərasim iştirakçılarına ətraflı məlumat verilib. Nazir vurğulayıb ki, artıq neçə ildir Azərbaycan ictimaiyyəti asayişin və əmin-amanlığın qorunması sahəsində dünyanın öncül dövlətlərindəndir. Respublikamızda əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayı ötən 12 ildə orta hesabla 233 fakt olmaqla, əksər dünya ölkələri ilə müqayisədə bir çox hallarda dəfələrlə azdır.

Bu dövrdə cinayətlərin illik orta açılması 88 faiz olub, 4 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, axtarışda olan 41 minə yaxın təqsirləndirilən şəxs tutulub. Əlbəttə, qanunsuz saxlanılan 13 min odlu silah yığılıb və onun tətbiqilə törədilən cinayətlər əhəmiyyətli dərəcədə azalıb. Məqsədyönlü profilaktik tədbirlər sayəsində qeydə alınan hüquqazidd əməllərin 89 faizini böyük ictimai təhlükə törətməyən və ya az ağır, yalnız 11 faizini ağır cinayətlər təşkil edir.

Bildirilib ki, ölkə prezidentinin rəhbərliyi altında həyata keçirilən mühüm işlərin məntiqi nəticəsi olaraq, Azərbaycan özünün sabit və təhlükəsiz ölkə imicini tam təsdiqləyib. Təsadüfi deyil ki, respublikamız son illər dünyanı bürüyən problemlərdən çıxış yolunu arayan zirvə görüşlərinin, beynəlxalq konfransların, humanitar forumların keçirildiyi qlobal mərkəzə çevrilib. Bu səviyyəli tədbirlər isə yalnız sabitliyin ən yüksək standartlarını təmin edən, müvafiq imkanları və şəraiti olan dövlətlərdə mümkündür.

Birinci Avropa Oyunları kimi möhtəşəm idman tədbirinin Bakıda keçirilməsi və uğurla başa çatması barədə danışan nazir xüsusilə vurğulayıb ki, İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və gərgin əməyi, Avropa Oyunları Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çox yüksək təşkilatçılıq bacarığı və böyük xidmətləri sayəsində ölkəmiz üzərinə götürdüyü öhdəliyi cəmi 27 ay ərzində yerinə yetirdi. Dövlətimizin qarşıya qoyduğu hədəflərə çatmasından sonra, 10 ildə ölkədə idmanın inkişafı, xüsusən kütləviliyin təmin edilməsi üçün həyata keçirilən mühüm tədbirlərin, o cümlədən onlarca müasir Olimpiya mərkəzlərinin inşa edilib gənclərimizin istifadəsinə verilməsinin də böyük rolu olduqca diqqətə çatdırılıb.

Məmnunluqla qeyd edilib ki, ilk Avropa Oyunları üçün heç bir təcrübənin və standartın olmamasına baxmayaraq, "Bakı-2015" dünyada ən yüksək idman standartlarını təqdim etdi. Respublikamız, onun bütün dövlət strukturları və vətəndaş cəmiyyətləri üzərinə düşən tarixi məsuliyyətin öhdəsindən layiqincə gəldi. Bütün Azərbaycanda 17 gün əsl bayram ab-havası hökm sürdü. 1996-cı ildə müstəqil dövlət kimi Olimpiya oyunlarına 23 idmançı ilə qatılaraq yalnız bir gümüş medal əldə edən ölkəmiz artıq ilk Avropa oyunlarında yüksək nəticələr göstərərək, 21-i qızıl olmaqla 56 medal qazandı, qitə ölkələri arasında ikinci yer tutdu. Ümumən Azərbaycan bu mühüm əhəmiyyətli tədbiri keçirməklə dünyada açıq ölkə olduğunu bir daha təsdiqlədi. Sülhün, dostluğun, milli həmrəyliyin, prezident-xalq birliyinin təntənəsini bir daha nümayiş etdirdi.

Mərasim iştirakçılarının nəzərinə çatdırıldı ki, DİN-in I Avropa oyunları zamanı ictimai asayişin təmin olunmasına cəlb olunan 25 mindən çox əməkdaşı və hərbi qulluqçusu qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gələrək, əsil vətənpərvərlik, yüksək əzm və peşəkarlıq nümayiş etdirib. Bu yarışların ölkəmizin adına və nüfuzuna layiqli bir səviyyədə, təhlükəsizlik və əmin-amanlıq şəraitində keçməsi üçün digər dövlət orqanları ilə birgə böyük bir fəaliyyət ortaya qoyub. Nazir fürsətdən istifadə edərək xidməti vəzifələrin icrasında göstərdikləri köməyə görə vətəndaşlara, Azərbaycan Respublikası Prezident Administrasiyasının, hökumətin, Milli Məclisin, hüquq-mühafizə və xüsusi xidmət orqanlarının, kütləvi informasiya vasitələri-

nin, ictimai təşkilatların rəhbərlərinə və nümayəndələrinə dərin minnətdarlığını bildirib, həmçinin gənc əməkdaşların formalaşmasında böyük işlər görən veteranlara təşəkkür edib.

O da qeyd olunub ki, möhtərəm Prezidentimizin əvəzsiz dəstəyi, diqqət və qayğısı sayəsində, Nazirlik sistemində gedən inkişaf prosesinə paralel olaraq, xüsusi təyinatlı təhsil müəssisələrimiz də beynəlxalq təcrübəyə uyğun təkmilləşib. Daxili İşlər orqanlarının ixtisaslı kadrlarının təminatında həlledici rol oynayan Polis Akademiyası bu gün ölkəmizin yüksək reytinqə malik ali təhsil ocaqlarından birinə çevrilib.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov beş il Polis Akademiyasında mükəmməl təhsil almış, müxtəlif biliklərə yiyələnmiş, insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının qorunması kimi çətin, lakin çox şərəfli bir peşəni seçmiş müdavimlərə aldıqları nəzəri bilikləri praktikada uğurla tətbiq etməyi, qabaqcıl təcrübədən yararlanmağı, yenilikləri mənimsəmələrini tövsiyə etdi.

Nazir Akademiyanı müvəffəqiyyətlə bitirmələri münasibətilə hər bir müdavimi, onların valideynlərini və yaxınlarını ürəkdən təbrik edib, bu təhsil müəssisəsinin rəhbərliyinə və professor-müəllim heyətinə təşəkkürünü bildirdi.

O, ictimai asayişin qorunmasında və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində fərqlənən şəxsi heyətin fədakar əməyinin ölkəmizin başçısı tərəfindən həmişə yüksək qiymətləndirildiyini xatırladaraq, bu ilki peşə bayramı ərəfəsində ölkə prezidentinin sərəncamları ilə 41 əməkdaşın orden və medallarla təltif edildiyini, 3 rəhbər vəzifəli şəxsə ali xüsusi rütbələr verildiyini diqqətə çatdırmışdır.

Daxili İşlər orqanlarının fəaliyyətində hər zaman göstərdiyi ali diqqət və qayğıya görə bütün şəxsi heyət adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirən Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov əmin edib ki, şəxsi heyət qanunla müəyyən edilmiş funksiyaları, qarşıya qoyulan tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı, andına sadiqliyi, xalqına, prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.

Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri F.Ələsgərov əlamətdar hadisələr – Azərbaycan polisi günü və tədris ilinin buraxılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriklərini və ən xoş arzularını mərasim iştirakçılarına çatdırıb. O qeyd edib ki, polis orqanları 97 illik şanlı tarixi ərzində səmərəli yol keçərək dövlətimizin əsas dayaqlarından birinə çevrilib, müstəqilliyin dövlətçiliyin qorunmasında və daxili sabitliyin təmin olunmasında mühüm rol oynayıb. Bu dövr ərzində Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə

qətiyyətli addımlar atıb, qanunun aliliyinin, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təmin olunması, ictimai qaydanın və təhlükəsizliyin etibarlı qorunması kimi çətin, məsuliyyətli vəzifələrin öhdəsindən layiqincə gəlib.

F.Ələsgərov həmçinin vurğulayıb ki, 2004-2015-ci illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 9 sərəncam, habelə 2003-cü ildən etibarən DİN-in fəaliyyətinin tənzimlənməsi və təkmilləşməsi ilə bağlı yüzlərlə qanunvericilik aktı imzalanıb, yüzlərlə polis əməkdaşı dövlət mükafatına layiq görülüb. Bütün bunlar həm də ictimai asayişin keşiyində duran Dİ orqanlarının əməkdaşlarına ölkə rəhbərliyinin qayğısının, gərgin və səmərəli fəaliyyətinin verdiyi qiymətin nəticəsidir. Bildirib ki, bu gün daxili işlər orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ixtisaslı, təşəbbüskar, geniş dünyagörüşlü, nümunəvi davranışlı, anda sadiqlik, dövlətçilik və qanunçuluq prinsipləri əsasında tərbiyə edilmiş gənc kadrların hazırlanması istiqamətində mühüm işlər görülür.

Akademiyanı fərqlənmə ilə bitirmiş polis baş leytenantı Y.Hüseynov müdavimlərə olan diqqət və qayğıya, aldıqları mükəmməl təhsilə görə nazirliyin rəhbərliyinə, professor müəllim heyətinə təşəkkür edib, göstərilən etimadı doğruldacağını bildirib.

Tədbirin sonunda Daxili İşlər naziri, Polis Akademiyasını fərqlənmə ilə bitirən iki məzuna – C.Mirzəyevə və Y.Hüseynova diplomları və “polis baş leytenantı” xüsusi rütbəsinin poqonlarını təqdim edib.

Məzun Ş.Qasımov yaş kötüyünə rəmzi xatirəsini vurub.

Daha sonra dövlət bayrağı 4-cü kurs müdavimlərinə təhvil verilib. Müdavimlər “Azərbaycan Polisi” marşını ifa ediblər. Sonra şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

Təntənəli mərasim başa çatandan sonra Polis Akademiyasının müdavimləri üçün 400 yerlik yataqxana binasının açılışı olub. Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov və F.Ələsgərov yeni obyektin rəmzi açılışını bildirən qırmızı lenti kəsiblər.

Qeyd olunub ki, inşasına 2013-cü ildə başlanmış, ən müasir standartlara uyğun tikilmiş, ümumi sahəsi 9600 kv m olan 6 mərtəbəli və 2 bloklu yataqxana binasında 150 otaq, o cümlədən 133 yataq otağı, 3 oxu zalı, 6 məişət otağı və digər yardımçı sahələr var. Buna bütün zəruri mərkəzləşdirilmiş mühəndis kommunikasiya qurğuları, o cümlədən su, istilik, kondisioner və havalandırma, elektrik, rabitə sistemləri ilə təchiz edilib. Ərazidə abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma sistemləri yerinə yetirilib.

Yataqxana ilə yaxından tanış olan Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov yataqxana binasının ən müasir tələblər səviyyəsində tikilməsindən və burada müdavimlərin normal yaşayıb

fəaliyyət göstərmələri üçün yaradılmış şəraitdən razılığını bildirib, Akademiyanın rəhbərliyinə bu yöndə konkret tapşırıq və tövsiyələrini verib.

Açılış mərasimində iştirak edən müdavimlərin valideynləri yüksək diqqət və qayğıya görə ölkə və DİN-in rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər[1]

10 iyun 2015-ci il tarixində birinci yarımillikdə cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

İclası açan Daxili İşlər naziri cənab Ramil Usubov bildirdi ki, cari ilin birinci yarısında ölkəmizin ictimai-siyasi həyatı əlamətdar hadisələrlə zəngin olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda davam edən quruculuq işlərinin başlıca təminatlarından olan sabitlik etibarlı qorunaraq daha da möhkəmləndirilib. Şəxsi heyətin dövlətə, anda sədaqəti və fədakar xidməti möhtərəm dövlət başçımız tərəfindən növbəti dəfə yüksək qiymətləndirilib. Azərbaycan polisi peşə bayramı ərəfəsində onun imzaladığı növbəti sərəncamla 41 əməkdaş dövlət mükafatı ilə təltif edilib, 3 rəhbər vəzifəli şəxs isə ali xüsusi rütbəyə layiq görülüb. Bütün bunlar polis orqanlarının fəaliyyətinə verilən yüksək qiymətin və qayğının növbəti əyani təzahürüdür.

Avropa oyunlarının keçirildiyini xatırladan nazir Prezidentin siyasi iradəsi, qətiyyəti və gərgin əməyi, Azərbaycanın 1-ci xanımı Mehriban Əliyevanın çox böyük təşkilatçılıq bacarığı və xidməti sayəsində respublikamızın, onun bütün dövlət strukturlarının və vətəndaş cəmiyyətinin üzərinə düşən tarixi məsuliyyətin öhdəsindən yüksək səviyyədə gəldiyini məmnunluqla deyib. Digər hüquq-mühafizə qurumları, güc strukturları ilə birlikdə Dİ orqanlarının oyunlar zamanı asayişin qorunması, təhlükəsizliyin təmin edilməsi üzrə mühüm vəzifələri də layiqincə yerinə yetirdiyini vurğulayan Dİ naziri, fərqlənən yüzlərlə əməkdaş və hərbi qulluqçu barədə müxtəlif həvəsləndirmə tədbirlərinin tətbiq olunduğunu diqqətə çatdırıb, nümunəvi xidmətə, yüksək peşəkarlığa, vətənpərvərliyə və fədakarlığa görə bütün şəxsi heyətə minnətdarlığını bildirib. Hesabat dövründə cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan yüksək təmayüllərin davam etdiyi, kriminogen durumun nəzarətdə saxlanıldığı da qeyd olunub. Bu cinayətlərin 85 faizini böyük ictimai təhlükə törətməyən və ya az ağır, yalnız 15 faizini ağır və xüsusilə ağır növlər təşkil edib. Cinayətkarlığın dinamikasında son illər mövcud olan müsbət təmayül də qorunub saxlanılıb. Belə ki, həyata keçirilən məqsədyönlü profilaktik tədbirlərlə şəxsiyyət əleyhinə olan cinayət-

[1] DİN-nin Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 3 iyul, №25(3238).

karlığın strukturunda qəsdən adamöldürməyə cəhdlər 12,8 faiz, qəsdən sağlamlığa ağır zərbə vurmalar 13,7 faiz, xuliqanlıq 3,2 faiz azalıb.

Qeyd olunub ki, cinayətlərin açılmasına yönəlmiş əməliyyat-axtarış tədbirləri və professional fəaliyyət zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının və ədalətin bərpasında başlıca vəzifələr olaraq həyata keçirilib.

Ümumi cinayətlərin açılması 4,2 faiz yaxınlaşaraq 84,3 faiz təşkil edib. O cümlədən ağır və xüsusilə ağır cinayətlərin açılması 1,9 faiz, qəsdən adamöldürmənin açılması 11,2 faiz, hədə-qorxu ilə tələbetmələrin açılması 14 faiz yaxşılaşıb. Banditizm, adam oğurluğu və insan alveri cinayətlərinin açılması tam təmin olunub.

Əməliyyat planlarının vaxtında tətbiqi nəticəsində "isti izlərlə" 467, prokurorluq orqanları ilə birgə keçirilmiş illər bağlı qalmış 217, o cümlədən 53 ağır və xüsusilə ağır cinayət açılıb.

Məruzəçi bildirib ki, xidməti funksiyanın həyata keçirilməsində müasir iş metodlarının, o cümlədən informasiya texnologiyalarının tətbiqi də müsbət nəticələr verib. "102" zəng mərkəzinə daxil olan məlumatlar üzrə həyata keçirilmiş çevik cavab tədbirləri ilə 4302 əməlin qarşısı alınıb, 1375 cinayət işi başlanılıb "Təhlükəsiz şəhər" 102 şəhər xidmətinin "texniki imkanları ilə 43 cinayət açılıb,5764 yol-nəqliyyat qəzası və piyadaların vurulması ilə nəticələnən 77 hadisə aşkarlanıb, axtarışda olan 56 avtomobil saxlanılıb.

Törədilmiş əmələ görə cəzanın labüdlüyünün təmini işi də nəzarətdə saxlanılıb. Təqsirləndirilən şəxslərin axtarışının nəticələri 0,4 faiz yaxşılaşıb. İstintaqdan və məhkəmədən yayınan 1184 nəfər, müqayisə edilən dövrlə nisbətdə 5,2 faiz çox şəxs tutulub. İnterpolun MMB-si tərəfindən beynəlxalq axtarışa verilmiş 50 və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 25 nəfərin yeri müəyyən olunub.

Xidməti fəaliyyətdə böyük önəm verilən məsələlərdən olan mütəşəkkil cinayətkarlığın qarşısının alınması sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 455 ağır və xüsusilə ağır cinayət törədilmiş, 142 cinayətkar qrup və dəstə zərərsizləşdirilib. Qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 68 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Dövlətin iqtisadi təhlükəsizliyinin qorunmasına yönəlmiş əməliyyat tədbirləri ilə 25 saxta pul hazırlama və satma cinayəti aşkarlanıb. Nəticədə qeyri-leqal dövriyyədən ümumi məbləği 16 min 519 manat, 55 min 100 ABŞ dolları və 225 min rubl olan 901 ədəd saxta əskinas, habelə istifadə müddəti ötmüş 2,6 tona yaxın tikinti materialı çıxarılıb.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində narkotiklərlə əlaqədar 1804 cinayət, o cümlədən satışı ilə bağlı 478 fakt müəyyən edilib. 77 nəfərdən ibarət 22 cinayətkar qrup zərərsizləşdirilib.

Qanunsuz dövriyyədən ötən ilin 6 ayı ilə müqayisədə 16 faiz çox və

ya 432 kiloqram narkotik vasitə çıxarılıb, həmçinin xüsusi əməliyyat planı üzrə keçirilmiş tədbirlərlə ümumi çəkisi 90,2 ton olan çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

İnsan alverinə qarşı Milli Fəaliyyət Planı əsasında davam etdirilən tədbirlərlə müqayisə edilən dövrə nisbətən 60 faiz çox, yəni 80 cinayət müəyyən olunub. Həmin faktlar əsasında başlanmış cinayət işi üzrə 11 nəfər məhkəmə məsuliyyətinə verilib və bu əməllərin qurbanı olmuş 25 şəxsin cəmiyyətə reinteqrasiyası təmin edilib.

Hesabat dövründə müstəntiqlərin icraatında 13.714 cinayət işi olub, prosessual fəaliyyətin əsas göstəricilərindən olan dövlətə, fiziki və hüquqi şəxslərə dəymiş maddi ziyanın ödənilməsi işinin nəticələri 7,3 faiz yaxşılaşaraq 77,7 faiz təşkil edib.

Respublikada dövlət qeydiyyatına alınmış nəqliyyat vasitələrinin sayının 20 mindən çox artması fonunda yol-nəqliyyat hadisələrinin sayı 14,1 faiz, qəzalarda həlak olanların sayı 20,5 faiz, xəsarət alanların sayının azalmasını şərtləndirən amillər sırasında onların baş verməsinə səbəb olan xarakterik halların aradan qaldırılması, xüsusən inzibati xətaların aşkarlanmasının yaxşılaşdırılması olub. Belə ki, 2014-cü ilin 6 ayı ilə müqayisədə hesabat dövründə 12,5 faiz çox və ya 1,122,498 müvafiq qayda pozuntusu müəyyən edilib, o cümlədən şüşələrinə pərdə və plyonka çəkilmiş 3636 avtomobil sürücüsü, avtoxuliqanlığa görə 214 nəfər barəsində qanunauyğun tədbirlər görülüb.

Ümumən, Daxili İşlər orqanları tərəfindən müxtəlif inzibati xətalara görə 1,168.9006 protokol tərtib olunub. Nəticədə 1106.973 nəfər cərimələnib, 2.192 nəfər məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, 19.931 şəxsə isə xəbərdarlıq edilib.

O zaman nazir müavini olan cənab Vilayət Eyvazov[1] yuxarıda qeyd olunan tədbirdə qeyd etdi ki, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təminində əldə olunan nəticələr mötəbər beynəlxalq təşkilatlar tərəfindən də müsbət dəyərləndirilib, Beynəlxalq iqtisadi forumun 2014-2015-ci illər üzrə hesabatına əsasən, Azərbaycan dünyanın 144 ölkəsi arasında "polis orqanlarının etibarlılığı" indikatoru üzrə 40-cı yeri tutub. Bu göstəricilərlə respublikamız Avropa və MDB ölkələrini xeyli qabaqlayır.

Məruzədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində daim təkmilləşən və inkişaf edən Daxili Qoşunların da qanunvericiliklə müəyyən edilmiş vəzifələri layiqincə yerinə yetirdiyi nəzərə çatdırılıb.

[1] General-polkovnik Vilayət Eyvazov hazırda Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsində çalışır.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə başçısının qarşıya qoyduğu proqram vəzifələrin icraatının ciddi nəzarətdə saxlanıldığı və planlı surətdə davam etdirdiyi, 3 mindən çox, o cümlədən qabaqcadan təsdiqlənmiş cədvəl əsasında respublikanın ayrı-ayrı bölgələrində 1853 vətəndaşın qəbul edildiyi, qaldırılan məsələlərin əksəriyyətin yerində həll olunduğu, əlavə yoxlama tələb edən ərazilərin nəzarətə götürülərək araşdırıldığı, nəticələr barəsində təşəbbüskarın yazılı məlumatlandırıldığı, hüquqlarının izah edildiyi vurğulanıb.

Polis general-leytenantı Vilayət Eyvazov dövlət başçısının diqqət və qayğısı sayəsində şəxsi heyətin yüksək tələblərə cavab verən şəraitdə xidmətinin təşkili, peşə hazırlığının artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi, infrastrukturun təkmilləşdirilməsi ilə bağlı görülən işlər barədə də ətraflı məlumat verib.

Məruzə ətrafı çıxışlarda Nazirliyin ayrı-ayrı struktur qurumlarının şəhər, rayon polis orqanlarının rəisləri görülmüş işlər mövcud nöqsanların aradan qaldırılması üzrə qarşıda duran vəzifələr barədə məlumat veriblər.

İclasa yekun vuran nazir cənab Ramil Usubov hesabat dövründə əməliyyat –xidməti fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu, qanunla müəyyən edilmiş vəzifələrin layiqincə yerinə yetirildiyini, habelə cinayətkarlığa qarşı mübarizədə ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşların və hərbi qulluqçuların yüksək peşəkarlığı ilə fərqləndiyini, eləcə də digər hüquq-mühafizə orqanları ilə birgə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin hazırda da uğurla davam etdiyini bildirib.

Cinayətkarlığa qarşı mübarizədə və ictimai qaydanın qorunmasında şəxsi heyətin fəaliyyətini ümumilikdə qənaətbəxş hesab edən nazir, bununla yanaşı, kollegiya iştirakçılarının diqqətini həlli vacib olan bir neçə məsələyə yönəldib.

Ailə münaqişəsi zəminində və əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlərin qarşısının alınması üçün profilaktika işlərinin həyata keçirilməsinin, mühafizə-siqnalizasiya vasitələrinin tətbiqi ilə bağlı əhali arasında təbliğat işinin lazımi səviyyədə təşkilinin, vətəndaşların müraciətlərinə və qəbuluna ciddi yanaşılmasının, noyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilər zamanı asayişin və təhlükəsizliyin etibarlı qorunması məqsədilə zəruri qabaqlayıcı tədbirlərin görülməsinin, səsvermə hüququna malik bütün vətəndaşların şəxsiyyəti təsdiq edən sənədlərlə təmin olunmasının, hər işin gündəlik nəzarətdə saxlanılmasının, şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində davamlı tədbirlərin görülməsinin vacibliyi qeyd olunub. Daxili İşlər orqanlarının, o cümlədən Daxili Qoşunların dövlətimizin əvəzsiz dəstəyi sayəsində inkişaf dövrü yaşadığını, sosial müdafiə məsələlərinin

həlli istiqamətində böyük işlər görüldüyünü, şəxsi heyətin peşəkarlıq səviyyəsinin daha da yüksəldiyini, onların fədakar əməyinin İlham Əliyev tərəfindən növbəti dəfə yüksək qiymətləndirildiyini bir daha kollegiya iştirakçılarının diqqətinə çatdıran nazir cənab Ramil Usubov, şəxsi heyətdən möhtərəm Prezidentin xüsusi diqqət və qayğısına cavab olaraq, qanunla müəyyən olunmuş vəzifələrin yerinə-yetirilməsinə daha böyük məsuliyyətlə yanaşmasını tələb edib.

O, bildirib ki, artıq uzun illərdir ki, Azərbaycan sabitliyin və əmin-amanlığın qorunması sahəsində dünyanın öncül dövlətlərindəndir. Əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayı son 12 ildə orta hesabla 233 fakt təşkil edir. Bu göstərici eləcə də cinayətlərin konkret növlərinin, o cümlədən sağlamlığa ağır zərbə vurmaların, oğurluqların, soyğunçuluqların və s. sayı Avropa və MDB ölkələri ilə müqayisədə dəfələrlə azdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında dövlətin əsas sütunlarından biri kimi formalaşmış DİN bütövlükdə qanunla müəyyən olunmuş vəzifələri, ölkə prezidentinin tələb və tapşırıqlarını, hər zaman olduğu kimi bu gün də uğurla yerinə yetirir.

Daxili İşlər naziri əmin olduğunu bildirir ki, şəxsi heyət cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu mühüm vəzifələri, hüquq qaydasının və qanunçuluğun möhkəmləndirilməsi, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqların bundan sonra da layiqincə yerinə yetirəcək, sabitliyin, əmin-amanlığın, dövlətin, hüquqi və fiziki şəxslərin qanuni mənafeyinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcəkdir.[1]

14 iyul 2015-ci il tarixində DİN-də Birinci Avropa Oyunları zamanı ictimai asayişin qorunmasında qarşıya qoyulan tapşırıqların və təhlükəsizliyin təmin edilməsi üzrə vəzifələrin yerinə yetirilməsində fərqlənmiş bir qrup əməkdaşlara mükafatların təqdim olunmasına həsr olunmuş təntənəli mərasim keçirildi.

Mərasimi açan cənab Ramil Usubov ölkə prezidenti İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və gərgin əməyi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın çox böyük təşkilatçılıq bacarığı və xidmətləri sayəsində Respublikamızda ilk Avropa oyunlarının yüksək səviyyədə təşkilini məmnunluqla xatırlatdı. Birinci Avropa Oyunları zamanı ictimai asayişin təmin edilməsinə cəlb olunan 25 mindən çox əməkdaşın və hərbi qulluqçunun qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gələrək, əsl vətənpərvərlik və peşəkarlıq nümayiş etdirdikləri vurğulandı.

[1] DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 16 iyul, №27(3240).

Yarışların ölkəmizin adına və nüfuzuna layiq təhlükəsizlik və əmin-amanlıq şəraitində keçməsi üçün böyük bir fəaliyyət ortaya qoyduğu, belə nümunəvi və fədakar xidmətin, həm xalqımız, həm də ölkəmizə gəlmiş çoxsaylı qonaqlar, turistlər və idmançılar tərəfindən razılıqla qarşılandığı qeyd edildi.

Dövlət başçısının tapşırığı ilə Birinci Avropa oyunları zamanı xidməti vəzifələrini nümunəvi yerinə yetirdiklərinə, ictimai qaydanın və təhlükəsizliyin təminində yüksək peşəkarlıq göstərdiklərinə görə Dİ nazirinin müvafiq əmri ilə 2145 əməkdaş və hərbi qulluqçunun mükafatlandırıldığı, eyni zamanda ərazi polis orqanlarından Nazirliyin rəhbərliyinədək olan səviyyədə isə təxminən 7 min nəfər barəsində müxtəlif həvəsləndirmə tədbirlərinin tətbiq olunduğu diqqətə çatdırıldı.

Nazir nümunəvi xidmətə görə bütün şəxsi heyətə təşəkkürünü bildirdi. Sonra Baş Kadrlar İdarəsinin rəis müavini, polis polkovniki Səfər Əliyev mərasimə dəvət olunmuş 155 əməkdaşın siyahısını elan etdi.

Nazir cənab Ramil Usubov mükafatları təqdim edərək fərqlənənləri bir daha təbrik edib, hər bir tərəfin yüksək məsuliyyət daşıdığını xatırlatdı. Onlara xidməti fəaliyyətdə uğurlar, möhkəm cansağlığı, ailə səadəti arzuladı.

Tədbirin sonunda Dİ naziri mərasim iştirakçıları adından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi əmin etdi ki, şəxsi heyət qanunvericiliklə üzərlərinə düşən vəzifələri, möhtərəm dövlət başçısının qarşıya qoyduğu bütün tapşırıqları bundan sonra da yüksək səviyyədə yerinə yetirəcək, vətənə və xalqa sədaqətlə xidmət edəcəkdir.[1]

Daha bir mühüm tarixi hadisəni qeyd etmək yerinə düşərdi. 28 avqust 2015-ci il tarixində DİN-in “Xəzər” istirahət və sağlamlıq mərkəzində Avropa paytaxt polis rəislərinin növbəti 37-ci konfransı öz işinə başladı. 25 ölkədən 70-ə yaxın nümayəndənin qatıldığı konfransda cənab Ramil Usubov və Bakı şəhər icra hakimiyyətinin başçısı H.Abutalıbov iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Dİ naziri qonaqları salamlayıb, paytaxt şəhərlərində təhlükəsizliyin təmin olunmasına, cinayətkarlıqla mübarizənin effektivliyinin artırılmasına həsr olunmuş bu mötəbər tədbirin gələcək əməkdaşlığın inkişafına yeni imkanlar açması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Respublikamızın zəngin tarixə və mədəniyyətə malik, Avropa və Asiya arasında yerləşən, Şərqdə ilk demokratik cümhuriyyət quran ölkə olduğunu məmnunluqla xatırladan nazir, müstəqilliyin ilk illərində ölkəmizdə mövcud ictimai-siyasi vəziyyətin mövcudluğunu, yalnız 1993-cü ildə xalqımızın ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra, onun ön-

---

[1] DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 16 iyul, №27(3240).

dərliyi ilə görülən tədbirlər nəticəsində ölkədə ictimai-siyasi vəziyyətin sabitləşdiyini, kriminogen durumun tam nəzarətə alındığını, vətəndaşların dinc, təhlükəsiz yaşamasının təmin edildiyini diqqətə çatdırdı.

Növbəti illərin ölkəmiz üçün transformasiya və inkişaf dövrü olduğunu vurğulayan daxili işlər naziri bu gün bütün dünyada, o cümlədən bölgədə yaranan böhranlara baxmayaraq, respublikamızın uğurla inkişaf etdiyini, insanların rifah halının yaxşılaşdırılmasını, dövlətimizin siyasətinin mərkəzində vətəndaşların hüquq və azadlıqlarının qorunmasının, onların rifahının, milli dəyərlərin dayandığını ölkə prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımız üçün taleyüklü sayılan mühüm layihələrin reallaşdığı qeyd edilmişdir.

Daha sonra cənab Ramil Usubov konfrans iştirakçılarına polisin təyinatı, DİN-in strukturu, funksiyaları, vəzifələri, ölkəmizdəki kriminogen durum barədə ətraflı məlumat verdi. Həmçinin qeyd olundu ki, son 10 ildə 5 mindən çox əməkdaşımız BMT, NATO, Avropa Şurası və ATƏT-in təşkil etdiyi tədbirdə iştirak edib, təcrübə mübadiləsi aparılıb. Artıq onların bir çoxu xarici dövlətlərdə ekspert qismində təlimlər keçirir, xüsusi layihələrə cəlb olunurlar. Transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əlaqələrimiz də tərəflərin maraqlarına uyğun inkişaf edir. Bu formatda 40-dan çox ölkənin müvafiq qurumları ilə 94 beynəlxalq sənəd imzalanıb.

Qonaqların nəzərinə çatdırıldı ki, hərtərəfli islahatlar və modernləşmə cinayətkarlığın, onun transmilli mütəşəkkil növlərinin təhdidlərinə qarşı adekvat cavab tədbirlərinin görülməsinə tam imkan verir. O da bildirilir ki, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunmasında, ictimai təhlükəsizliyin təmin edilməsində əldə olunan müsbət nəticələrin məntiqi nəticəsi olaraq, Azərbaycan özünün sabit və təhlükəsiz ölkə imicini tam təsdiqləyib. Paytaxt Bakı şəhəri beynəlxalq əhəmiyyətli, siyasi, mədəni və idman tədbirlərinin, o cümlədən zirvə görüşlərinin, konfransların, humanitar forumların, dünya və Avropa çempionatlarının keçirildiyi məkana çevrilib.

Təsadüfi deyildir ki, ölkəmiz ilk Avropa oyunlarına ev sahibliyi edib. Qitənin 6 mindən çox idmançısını bir araya gətirən və miqyasına görə Yay Olimpiya oyunlarına bərabər olan bu dostluq və tərəfdaşlıq tədbiri də təhlükəsizlik və sabitlik şəraitində başa çatıb.

Çıxışın sonunda cənab Ramil Usubov Avropa polis rəislərinin 37-ci konfransında aparılacaq müzakirələrin əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəyinə, iştirakçılara öz həmkarlarının təcrübəsindən faydalanmaq imkanı, bütövlükdə cinayətkarlığa qarşı mübarizəyə layiq töhfələr verəcəyinə əmin olduğunu bildirdi.

Bakı şəhər İcra hakimiyyətinin başçısı H.Abutalıbov tədbir iştirakçılarını salamlayaraq, Şərq və Qərb sivilizasiyasını, tarixiliyi, müasirliyi özündə

əks etdirən qədim paytaxtımız haqqında qısa məlumat verib. O, dövlətimizin başçısının rəhbərliyi altında ölkəmizdə quruculuq işlərinin geniş vüsət aldığını, paytaxt Bakı şəhərinin simasının yeniləşdiyini, daha da gözəlləşdiyini, sözügedən inkişafın təməlində digər amillərlə bərabər, vətəndaşlarımızın, ölkəmizin qonaqlarının, burada yaşayan və işləyən əcnəbilərin təhlükəsizliyinə, bütövlükdə, Azərbaycanın tərəqqisinə xidmət edən sabitliyin dayanıqlığını, bu sabitliyin əldə edilməsində polisin də böyük xidmətləri olduğunu vurğulayıb.

Avqustun 30-nadək davam edəcək konfransda cinayətkarlıqla mübarizənin bir çox prioritet istiqamətləri, o cümlədən şəxsiyyət və mülkiyyət əleyhinə olan cinayətlər, həmçinin meqapolislərin təhlükəsizliyi mövzusunda ayrı-ayrı dövlətlərin nümayəndələrinin çıxışları dinlənilmiş, maraqlı müzakirələr aparılmışdır.

Konfransın sonunda birgə Bəyannamə qəbul olundu.

Konfransın sonuncu günü iştirakçılar DİN-in “102”, “Təhlükəsiz şəhər” xidməti, Çevik Polis Alayı və Polis Akademiyası, həmçinin, Bakı şəhər BPİ-də oldular.[1]

15 oktyabr 2015-ci ildə DİN-də şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinə və “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyəti”nə həsr olunmuş geniş kollegiya iclası keçirildi.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov kollegiya iclasını açaraq müzakirəyə çıxarılan məsələlərin xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, vətəndaşların müraciətlərinə baxılmasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət və nəzarətində olduğunu, məhz onun tapşırığına əsasən, son illər mərkəzi icra hakimiyyət orqanları rəhbərlərini şəxsən dindirdiklərini vurğulayıb. Daxili İşlər orqanlarının fəaliyyətində ən prioritet istiqamətlərdən olan bu əhəmiyyətli məsələnin sonuncu dəfə 2013-cü ildə müzakirə olunduğunu xatırladan nazir qarşıda duran yeni vəzifələrin müəyyən edildiyini, həmçinin kollegiyadan ötən iki il ərzində bu sahədə xeyli irəliləyişin baş verdiyini, əhəmiyyətli tədbirin həyata keçirildiyini, o cümlədən müraciətlərin operativ və vaxtında araşdırılmasına, təşəbbüskarlara yazılı cavabların verilməsinə, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun ədalətli qərarların çıxarılmasına, qəbulların müntəzəmliyinə nəzarət və tələbkarlığın artırıldığını bildirmişdir.

Bununla yanaşı, qeyd olunub ki, kriminogen duruma mənfi təsir göstərən amillərdən olan narkotik vasitələrin qanunsuz dövriyyəsi də müvafiq

[1] DİN-nin Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 3 sentyabr, №34(3247).

sahədə fəaliyyətin təşkilinə xüsusi diqqət, vəziyyətin daimi nəzarətdə saxlanılmasını və adekvat tədbirlərin vaxtında müəyyən edilib icraya yönəldilməsini tələb edir.

Nazir son illərdə hər iki istiqamətdə işin daha səmərəli yerinə yetirildiyini, lakin uğurla yanaşı, ayrı-ayrı ərazi polis orqanlarının fəaliyyətində hələ də müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu xatırlatdı.

Gündəlikdəki birinci məsələ ilə bağlı DİN-in katibliyinin rəisi, polis general-mayoru N.Şirinov məruzə ilə çıxış etdi. O bildirdi ki, ölkəmizdə hər bir şəxsin konstitusion hüquqlarının və qanuni mənafelərinin müdafiəsi sahəsində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinə uyğun olaraq, vətəndaşların müraciətlərinə baxılması və qəbulu daim ciddi nəzarətdə saxlanılır, xüsusi həssaslıq və ardıcıllıqla yerinə yetirilirdi. Müvafiq sahədə idarəçilik fəaliyyətinin, icra intizamına nəzarət mexanizminin təkmilləşdirilməsi, müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi işinə diqqət artırılıb.

Nazirliyin aparatında və struktur qurumlarında “elektron sənəd dövriyyəsi” sisteminin əhatə dairəsi, o cümlədən proqram təminatı genişləndirilib, müraciətlərin elektron poçt vasitəsilə qəbulu, qeydiyyatın elektron formada aparılması işinin təkmilləşdirilməsi davam etdirilib.

Rəsmi veb-sayta edilən müraciətlərin də elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyası təmin olunmuşdur ki, nəticədə vətəndaşların sayt vasitəsilə respublikanın istənilən yerindən birbaşa elektron qaydada müraciət etməsinə, qəbula yazılmasına dair ərizələrin elektron formada ötürülməsinə və operativ cavablandırılmasına imkanlar yaradılıb, həmçinin əlavə sənəd dövriyyəsinin, vaxt itkisinin, qəbulla bağlı təkrar müraciətlərinin qarşısı alınıb, vətəndaşlara aid məlumatların sistemli axtarışı təşkil edilib.

Şəhər, rayon polis orqanlarında ərizə və şikayətlərin avtomatlaşdırılmış qeydiyyat bazasının yaradılması və Elektron Sənəd Dövriyyəsi sisteminə inteqrasiyası da başa çatdırılıb.

Qeyd edilib ki, nazirliyin rəhbərliyi tərəfindən son bir il 9 ayda 6.412, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın bölgələri üzrə 4,223 vətəndaş qəbul olunub. Hər bir müraciətin mahiyyəti üzrə lazımi tədbirlər görülərək, qaldırılan məsələlərin əksəriyyəti yerində həll olunub. Əmlak məsələləri və dəymiş ziyanın ödənilməsi məsələləri ilə bağlı hüquqi yardımlar göstərilib. Eyni zamanda nazirliyin müvafiq kollegiya qərarlarının və göstərişinin icrası çərçivəsində şikayətlər doğuran səbəblərin və şəraitin aradan qaldırılması üzrə səmərəli tədbirlər həyata keçirilib. Bütün bunlarla bərabər, ötən il 456 və cari ilin 9 ayında 295 vətəndaş nazirliyə minnətdarlıq məktubları cavablayıb. Şikayətin araşdırılmasının keyfiyyətinə diqqətin artırılması, qanunçuluğun pozulması-

na qarşı təsirli ölçülərin görülməsi fəaliyyətin, aidiyyəti qanunların fərman və sərəncamların tələblərinə uyğun daha effektli təşkilində əhəmiyyətli rol oynayıb.

Vurğulandı ki, görülən bu və ya digər təşkilati-praktiki tədbirlərlə 2014-cü ildə vətəndaşlardan nazirliyə daxil olmuş müraciətlərin sayı 4,3 faiz, şikayətlərin sayı 6,9 faiz, Azərbaycan Respublikası Prezidenti Administrasiyasına ünvanlanan müraciətlərin sayı 21 faiz azalıb. Qeyd edilməlidir ki, şikayətlərin araşdırılmasının birbaşa rayon polis orqanlarının rəislərinə həvalə edilməsi və nəticələrinin məruzə olunması tələbi ötən il daxil olan ümumi müraciətlərin dinamikasına müsbət təsir göstərib.

Cari ilin 9 ayında bilavasitə nazirliyə daxil olan şikayətlərin sayı 9 faiz, AR Prezidenti Administrasiyasından daxil olan şikayətlərin sayı 2,8 faiz azalıb.

Əvvəlki illərdə olduğu kimi, narkotiklərlə bağlı cinayətləri hazırlayan və törədən şəxslərin müəyyən edilib məsuliyyətə cəlb edilməsi hesabat dövründə də başlıca vəzifələrdən olub və müvafiq tədbirlər kriminogen durumun nəzarətdə saxlanılmasını, narkotiklərin ölkə ərazisində saxlanılması cəhdlərinin qabaqlanmasını şərtləndirilib. 2015-ci ilin 9 ayında Daxili İşlər orqanları tərəfindən narkotiklərlə əlaqədar 2497 cinayət, o cümlədən satışı ilə bağlı 659 fakt müəyyən edilib, 115 nəfərdən ibarət 43 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 37,5 faiz və ya 200 kq çox narkotik vasitə, o cümlədən 116,7 kq tiryək, 34,3 kq heroin, 15 kq həşiş, 547,2 kq marixuana, 18,4 kq sair vasitələr çıxarılıb. Eyni zamanda 59,4 kq narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb.

Tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası yönümündə xüsusi əməliyyat planı üzrə keçirilmiş tədbirlərin nəticəsində ümumi çəkisi 169 ton olan çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib. Nazirliyin müvafiq kollegiya qərarına uyğun olaraq, son bir ilə yaxın müddətdə 75 şəhər-rayon polis orqanı tərəfindən orta, orta-ixtisas və ali təhsil müəssisələrində yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın gücləndirilməsi ilə bağlı 576 görüş təşkil olunub.

Gündəlikdəki məsələlər ətrafında çıxış edənlər görülən işlərdən, buraxılmış nöqsanlardan danışmış, ilin sonunadək onların aradan qaldırılması üçün kəsərli tədbirlərin həyata keçiriləcəyini bildirmişlər.

İclasa yekun vuran cənab Ramil Usubov müzakirə olunan hər iki məsələ üzrə bütövlükdə fəaliyyətin qənaətbəxş olduğunu, eyni zamanda qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılmasını tələb edən, konkret tapşırıq və tövsiyələrini verdi.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov xüsusilə vurğulayıb ki, polisin ictimai nüfuzuna və işgüzar imicinə həlledici təsir göstərən vətəndaşların qəbulu və müraciətlərinə baxılması orqan rəislərinin və onların müavinlərinin hər zaman diqqətində olmalı, görülən işlər mütəmadi öyrənilməli, təkrar şikayətləri doğuran səbəblərin müəyyən edilməsi, belə halların qarşısının alınması üçün bu növ müraciətlər vaxtaşırı nəzarət qaydasında yoxlanılmalı, vətəndaşların müraciətləri üzrə aparılmış araşdırmaların nəticələri barədə təşəbbüskarlara bütün hallarda rəsmi cavab verilməlidir.

Nazir narkotik vasitələrin qeyri-qanuni yollarla respublikamıza gətirilməsinin qarşısının alınması, güclü təsirə malik olan narkotiklərin qanunsuz dövriyyəyə gətirilmədən aşkarlanmasına, onları qaçaqmalçılıq yolu ilə ölkəyə gətirən şəxslərin müəyyən edilməsinə yönəldilmiş əməliyyat-axtarış tədbirlərinin daha da gücləndirilməsinin, yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın gücləndirilməsi baxımından ayrı-ayrı əmək kollektivlərində, orta ixtisas və ali təhsil müəssisələrində maarifləndirmə tədbirlərinin keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Daxili İşlər naziri cənab Ramil Usubov Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi və Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda ölkə başçısının proqram xarakterli nitqində respublikamızda sabitliyin, əmin-amanlığın hökm sürdüyünü vurğulamasının qürurverici olduğunu, bu işdə onun rəhbərliyi ilə respublikamızın hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının danılmaz xidmətini diqqətə çatdırıb. Həmin iclasda dövlət başçısının prinsipial mövqeyini xatırladan nazir sahibkarlıq fəaliyyətinə müdaxilənin, vətəndaşlara münasibətdə kobudluq, süründürməçilik və korrupsiya hallarının yolverilməzliyini, habelə neqativ əməllər törədən əməkdaşlar və onların rəhbərliyi barədə ciddi intizam tənbehi tədbirlərinin güclənəcəyini bir daha qeyd edib.

Qarşıda dövlət əhəmiyyətli mühüm tədbirin – növbəti parlament seçkilərinin gəldiyini xatırladan cənab Ramil Usubov Daxili İşlər orqanlarının bu sahədə böyük təcrübəyə malik olduğunu, asayişin qorunması və təhlükəsizliyin təmini məsələlərində onların üzərinə qanunvericilikdən irəli gələn mühüm vəzifələr düşdüyünü, əvvəlki illərdə və analoji tədbirlərdə olduğu kimi, hər bir əməkdaşın qarşıya qoyduğu bütün tapşırıqların öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib.

O, bir daha qeyd edib ki, bu gün Daxili İşlər orqanlarının qarşısında duran əsas vəzifə dövlətimizin tərəqqisi və qüdrətlənməsi, xalqımızın sosial rifahının yüksəldilməsi sayəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasətinin başlıca tə-

minatlarından olan ictimai-siyasi sabitliyin etibarlı qorunması, daha da möhkəmləndirilməsidir. Ölkədə sabitliyi, əmin-amanlığı pozmaq, qarışıqlıq, xaos və anarxiya yaratmaq istəyən qüvvələrin qarşısı qanunların verdiyi imkanlar çərçivəsində alınacaqdır.

Daxili İşlər naziri ölkə prezidenti İlham Əliyevi əmin edib ki, şəxsi heyət ölkənin qanunlarından, dövlət başçısının fərman və sərəncamlarından irəli gələn tələbləri layiqincə yerinə yetirəcək, xalqa və dövlətə sədaqətlə xidmət edəcək, sabitliyin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, həmişə olduğu kimi, cari ildə də yüksək göstəricilərlə başa vuracaqdır.[1]

Bu məqamda Azərbaycan polisinin 2015-ci ilin noyabrında Bakının Nardaran qəsəbəsində ictimai-siyasi sabitliyin təminatı naminə nümayiş etdirdiyi fədakarlığı da xüsusi xatırlatmaq yerinə düşər. Həmin vaxt Bakının Nardaran qəsəbəsində baş verənlər dini ekstremizmin nəinki vətəndaşların, ümumən dövlətin təhlükəsizliyinə ciddi təhdid olduğunu bir daha təsdiqlədi. Nardaranda din pərdəsi altında gizlənən, xarici dairələrin təsirində olan silahlı ekstremist-terrorçu qruplaşmanın dövlətə, onun güc strukturlarına, qanunlarına açıq-aşkar tabesizlik nümayiş etdirməsi burada adekvat olaraq sabitləşdirici tədbirlərin həyata keçirilməsini zərurətə çevirdi. DİN-in həyata keçirdiyi çevik tədbirlər nəticəsində Azərbaycanın dövlətçiliyinə qarşı qəsd yolu tutan, onun konstitusion dövlət quruluşunu dəyişdirməyə can atan, bütöv bir qəsəbədə insanların iradəsinə zorla təsir göstərməyə çalışan təxribatçı qrup zərərsizləşdirildi, orada sağlam ab-hava, qanunların aliliyi təmin edildi. Azərbaycan polisi ictimai sabitliyin təmin olunması naminə aparılan əməliyyatlarda itki versə də, üzərinə düşən vəzifənin öhdəsindən qətiyyətlə gəldi. Nardaranda qanunçuluq və hüquq qaydaları, ictimai asayiş təmin olundu, qəsəbədə pozuculuq fəaliyyəti ilə məşğul olan ifrat radikal qüvvələr zərərsizləşdirildi.

Bəli, bütün bunlar Azərbaycan polisinin vətəninə, dövlətinə sədaqətli xidmət amalının ən bariz göstəricisidir. Bu faktlar vətəndaşların polisə inam və etimadını daha da artırır, insanlar özlərini daha təhlükəsiz, daha güvənli bir cəmiyyətdə hiss edirlər. Polis ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu və hüquq qaydalarını təmin etmək kimi mühüm vəzifələrin öhdəsindən layiqincə gəlir.

26 noyabr 2015-ci il tarixdə cənab Ramil Usubovun dəvətilə Gürcüstanın Daxili İşlər naziri G.Mqebrişvili ölkəmizdə rəsmi səfərdə oldu. Daha sonra cənab Ramil Usubov G.Mqebrişvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

DİN-lər arasında əməkdaşlığın, xüsusilə də, transmilli cinayətkarlıqla

[1] DİN-in Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 18 oktyabr, №429(3254).

mübarizə sahəsində birgə əlaqələrin təcrübə və informasiya mübadiləsinin və yaradılmış normativ-hüquqi bazanın ilk növbədə dost və qardaş xalqımızın mənafeyinə, bölgədə təhlükəsizliyimizin təmini işinə xidmət etdiyi nəzərə çatdırılıb. Görüşdə cənab Ramil Usubov ölkədəki kriminogen durum barədə qısa məlumat vermiş, bildirmişdir ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb, bunun əyani təzahürü olaraq respublikamız "Evrovision" və 1 Avropa oyunları kimi möhtəşəm yarışlara uğurla ev sahibliyi edib, həmin tədbirin yüksək təhlükəsizlik və əmin-amanlıq şəraitində keçirilməsinə nail olmaqla bu sahədə böyük təcrübə qazanıb.

Nazir mövcud problemlərdən, o cümlədən transmilli cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.[1]

19 fevral 2016-cı il tarixində DİN-də sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən ali hüquq təhsilli əməkdaşların respublikamızın ərazi polis orqan hissələrində vakant olan zabit yerlərinə təyin edilmələrinə həsr olunmuş tədbir keçirilib.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov ənənəvi olaraq təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkliyini xatırladıb. Qeyd olunub ki, ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə ölkəmizin parlaq gələcəyinin işgüzar, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu vurğulayıblar. Qeyd edilib ki, gənc əməkdaşların hazırlıq səviyyəsinin artırılması, onlara lazımi diqqət və qayğının göstərilməsi, vəzifədə irəli çəkilmələri ölkə rəhbərliyinin fəaliyyətində prioritet istiqamətlərdəndir.

Cənab Ramil Usubov Baş Kadrlar İdarəsinin rəhbərliyinə təyinatın tədbir iştirakçılarının istək və arzuları, hazırda yaşadıqları yerlər nəzərə alınmaqla, həyata keçirilməsinə dair tapşırıq verildiyini, həmin tapşırığa uyğun olaraq, sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların zabit vəzifələrinə təyin olunmaları barədə müvafiq əmr imzalandığını diqqətə çatdırıb. DİN-in Baş Kadrlar İdarəsinin rəisi polis general-mayoru Rafiq Abbasov nazirliyə 35 əməkdaşın dəvət edildiyini bildirib, onların təyin edildikləri vəzifələrin siyahısı elan edib.

Nazirliyə dəvət olunanlardan 10 nəfər əməliyyat müvəkkili, 20-si sahə inspektoru, 5 nəfəri isə kadr, post-patrul xidmətlərinə, həmçinin məsul növ-

[1] DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 3 dekabr №47(3260).

bətçisi, yetkinlik yaşına çatmayanların işləri üzrə inspektor vəzifəsinə təyinat alıblar.

Xaçmaz RPŞ-də tağım komandiri vəzifəsinə təyin olunan S.Zeynalov gənc zabitlərin adından çıxış edərək, xüsusi diqqət və qayğıya görə nazirliyin rəhbərliyinə təşəkkürünü bildirib, yüksək etimadı gələcək fəaliyyətləri ilə doğrultmağa çalışacağını qeyd edib.

Tədbirin sonunda Dİ naziri gənc əməkdaşlara tapşırıq və tövsiyələrini verib. Qeyd olunub ki, öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin, dönməzliyin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu Daxili İşlər orqanlarının da üzərinə böyük məsul vəzifə qoyur.

Nazir gəncləri bir daha təbrik edərək, zabit olmağın şərəfli bir iş olduğunu, onların vətəndaşlara münasibətindən daxili işlər orqanları barədə müsbət və ya mənfi ictimai rəyin yarana biləcəyini, polis adını uca tutacağını, daimi bilik və təcrübələrini artıracağını, öz üzərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, ədalətli və obyektiv olmalarını, cinayətkarlıqla mübarizədə hər zaman cəzanın labüdlüyü prinsipindən, dövlətin və qanunun mənafeyindən çıxış etmələrini tövsiyə edib, çətin və şərəfli xidmətlərində onlara uğurlar arzulayıb.

Nazir əmin olduğunu bildirib ki, gənc zabitlər bu yönümdə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.[1]

Azərbaycan Prezidentinin yanında təhlükəsizlik şurasının iclası.

Xəbər verdiyimiz kimi, aprelin 1-dən 2-nə keçən gecə erməni silahlı qüvvələri müxtəlif istiqamətlərdən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma keçmiş və yaşayış məntəqələrini atəşə tutmuşlar. Bu təxribat xarakterli hücumların nəticəsində hərbi qulluqçularımız qəhrəmancasına həlak olmuşlar. Cavab olaraq Azərbaycan silahlı qüvvələri bütün istiqamətlərdən əks hücuma keçərək düşmənin mövqelərinə sarsıdıcı zərbələr vurmuşlar.

Aprelin 2-də Təhlükəsizlik Şurasının iclası keçirilib.

Dövlətimizin başçısı iclasda çıxış edib. Azərbaycan prezidenti İlham Əliyevin təklifi ilə həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Ölkə rəhbəri bildirib ki, bu Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatıdır. "Birinci dəfə deyil ki, Ermənistan bu cür təxribatlara əl atır. Bir neçə gün bundan əvvəl Azərbaycan sərhədində, Qazax istiqamətində oxşar təxribat törədilmişdir. Bu təxribat da Ermənistanın Azərbaycana qarşı məkr-

[1] DİN mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2016, 25 fevral, №8(3272).

li siyasətinin təzahürüdür. Erməni təxribatı Azərbaycan ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Bununla bərabər, qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər, eyni zamanda daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi.

Bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq, düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan ordusu buna qadirdir. Azərbaycan övladları öz torpaqlarını müdafiə edirlər. Vətən uğrunda vuruşurlar. Şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaq".

Azərbaycan prezidenti qeyd edib ki, Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlarımızdan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi 20 ildən artıqdır ki, aparılır. Bu 20 il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atıbdır. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Bugünkü təxribat da bu mənbədən gələn təxribatdır. Yenə də bizim mövqelərimizə hücum çəkirlər. Bizim əsgərlərimiz, zabitlərimiz həlak olur. Ondan sonra Azərbaycan ordusu onların başını əzir və indi dünyaya hay-haray çəkirlər ki, Azərbaycan atəşkəsi pozur. Biz atəşkəsi pozmamışıq, sadəcə olaraq, təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərindən əl çəkməyəcək, Azərbaycan ordusu onları bundan sonra da cəzalandıracaq.

Ermənistanın əsas məqsədi status-kvonun dəyişməz qalmasıdır. Əfsuslar olsun ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları Ermənistan rəhbərliyinə heç bir təsir göstərmir. Bu bəyanatlar ondan ibarətdir ki, ABŞ, Rusiya, Fransa dövlətlərinin başçıları dəfələrlə bildirmişlər; status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır".

Prezident bir daha bildirdi ki, "Ermənistan ordusu çox böyük zərbə almışdır. Atəşkəs rejimindən sonra ilk dəfədir ki, onlara belə sarsıdıcı zərbə vuruldu. Bunun günahkarı onlar özləridir. Ancaq çalışırlar ki, ictimai rəyi çaşdırsınlar, itkiləri gizlətsinlər. Ermənistan rəhbərliyi ictimaiyyətə itkilərlə bağlı qeyri-dəqiq məlumat ötürməyə çalışır. Bu açıq-aydın onu göstərir ki, bunlar, sadəcə olaraq, öz xalqını aldatmaq istəyirlər. Bu gün Ermənistan tərəfi bütün imkanlardan –diaspor təşkilatlarından, müxtəlif ölkədə onların agentlərindən, korrupsiyaya bulaşmış siyasətçilərdən istifadə edir ki, bütün günahı Azərbaycanın boynuna qoysun".

Dövlət başçımız çıxışının sonunda bir daha vurğulayıb: "Biz sadəcə

olaraq bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Bu, bir. İkincisi, biz öz torpaqlarımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm yenə də deyirəm!"[1]

3 may 2016-cı il tarixində Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubovun dəvəti ilə Türkiyə Respublikasının Jandarm Qüvvələrinin Baş Komandanı, ordu generalı Q.Mendininin başçılıq etdiyi nümayəndə heyəti rəsmi səfərdə oldu.

Səfər çərçivəsində cənab Ramil Usubov qonağı qəbul etmiş və görüşdə rəhbərlik etdiyi qurumun qardaş Türkiyənin DİN-i, o cümlədən Jandarm komandanlığı ilə münasibətləri daha da inkişaf etdirməsinə böyük önəm verdiyini, ordu quruculuğunda, daxili qoşunların formalaşdırılmasında, ən müasir tələblərə cavab verən silahlı birləşməyə çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Silahlı Qüvvələrinin, həmçinin Jandarm komandanlığının böyük zəhməti olduğunu xüsusi vurğulamışdır.

Daha sonra mövcud kriminogen durum, müstəqilliyin ilk illərində qarşılaşdığımız problemlər, Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində ərazi bütövlüyünün pozulması, torpaqlarımızın işğalı, 1 milyondan artıq soydaşımızın doğma yurdlarından qaçqın düşməsi, ölkəmizdə cərəyan edən gərgin ictimai-siyasi proseslər barədə ətraflı məlumat verilib. Qeyd olundu ki, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə tarixi qayıdışından sonra onun rəhbərliyi altında cəmiyyət həyatının bütün sahələrində, o cümlədən cinayətkarlıqla mübarizə, ictimai qayda və ictimai təhlükəsizliyin təmini sahəsində həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində Azərbaycanda sabitlik və əmin-amanlıq bərpa edilib. Kriminogen durum nəzarətə götürülüb. Bildirilib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən, əsas amillərdən olan dönməz sabitlik yaradılıb.

Problemlərə toxunan cənab Ramil Usubov transmilli mütəşəkkil cinayətkarlığın, beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qeyri-qanuni miqrasiya kimi ağır növləri ilə mübarizənin ölkəmizdə də diqqət mərkəzində dayandığını, onlara qaşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Nazir Türkiyə Jandarm Qüvvələri Baş komandanının ölkəmizə səfərinin əlaqələrimizin inkişafına və daha da dərinləşməsinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən Ordu generalı Q.Mendi Azərbaycana ilk dəfə səfər etdiyini nəzərə çatdırıb və Ba-

[1] Azərbaycan Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası // Mübariz keşikdə, 2016, 7 aprel, №13(3277).

kının ən gözəl paytaxt şəhərlərindən biri olmasından, ölkəmizin dinamik inkişafından məmnunluğunu bildirib.

Jandarm Qüvvələrinin Baş komandanı iki ölkənin müvafiq qurumları arasındakı faydalı iş birliyini yüksək qiymətləndirib. "Bir millət, iki dövlət" olaraq, Türkiyənin hər zaman Azərbaycanın yanında yer alacağını, ordusunun Daxili Qoşunların güclənməsindən qürur duyduğunu, onların inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarının mənafeyinə xidmət edəcəyini vurğulayıb.

Qəbulda Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri A.Kuçkun iştirak edib.[1]

İyulun 1-də, Azərbaycan polisinin peşə bayramı ərəfəsində, DİN-in Polis Akademiyasında 2015-2016-cı tədris ilinin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.[2]

Bu gün Azərbaycan iqtisadi inkişaf dinamikasına görə dünyanın aparıcı dövlətləri sırasında yer almaqdadır. Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər məhz ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və hüquqi dövlət quruculuğu istiqamətində düzgün, məqsədyönlü aparılan proseslərin məntiqi nəticəsidir. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi illərində daim bəyan edirdi ki, ölkənin tərəqqisi, əhalinin artan sosial rifahı çətinliklə qazanılan sabitliyin bəhrəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin fikrincə, ölkəmizin iqtisadi potensialının artmasının əsas şərti olan sabitlik və ictimai təhlükəsizlik olmadan bugünkü milli tərəqqidən söhbət gedə bilməz.

Azərbaycan sabitlik və kriminogen duruma nəzarət sahəsində, həmçinin əhalinin say nisbəti üzrə cinayətin azlığına görə, nəinki MDB ölkələri arasında, ümumiyyətlə Şərqi Avropa məkanında öncül dövlətlərdəndir. Bu müvəffəqiyyət göstəricisi, şübhəsiz ki, Prezident İlham Əliyevin xalqa və dövlətə xidmət siyasətinin əzəmətli tərənnümüdür. Bu nailiyyətlərin qazanılmasında Daxili İşlər orqanlarının da müstəsna xidmətləri olub. Azərbaycan polisi ulu öndər Heydər Əliyevin ölkəni xaosdan, tənəzzüldən xilas edib, qurtuluşa aparan siyasi xəttinin əsas istinadlarından olub, bu gün isə prezident İlham Əliyevin sivil, demokratik, qüdrətli dövlət quruculuğu prosesində vacib dayaqlarından biridir.

Yaranmasının 98-ci ildönümünü qeyd edən Daxili İşlər orqanlarının xidmət salnaməsi keşməkeşli, çətin olduğu qədər də, şərəfli, eyni zamanda ziddiyyətli və məsuliyyətli bir yolu ehtiva edir.

Beynəlxalq terrorizm, narkotik və silah qaçaqmalçılığı, insan alveri, qanunsuz miqrasiya, eləcə də transmilli cinayətlərin qloballaşan dünya üçün ciddi problemlərə çevrildiyi müasir dövrdə Azərbaycan Dİ orqanlarının bu

[1] DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2016, 5 may.

[2] Hüseynli İ. Sabitliyin və inkişafın keşiyində // Azərbaycan, 2015, 1 iyul.

istiqamətdə göstərdiyi fəaliyyət, əldə etdiyi real nəticələr son dərəcə təqdirəlayiqdir. Bu cür qlobal xarakterli cinayət əməllərinə qarşı mübarizədə qazanılmış uğurlar yalnız vətəndaşlarımızın təhlükəsizliyi, ölkədə asayişin təminatı ilə məhdudlaşmır, həm də Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin gündən-günə gücləndirilməsinə, ölkəmizin etibarlı tərəfdaş imicinin yüksəlməsinə mühüm töhfə verir.

Prezident İlham Əliyev son 13 ildə Daxili İşlər orqanlarına daim yüksək diqqət və qayğı ilə yanaşaraq, DİN-in fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üçün mühüm tədbirlər həyata keçirmişdir. Bunun nəticəsidir ki, DİN-də və onun yerli orqanlarında təşkilati-kadr və struktur islahatları son dövrlərdə davamlı xarakter daşıyır. Burada məqsəd xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi, ölkədə kriminogen durumun təhlil edilib adekvat planların hazırlanıb həyata keçirilməsi, yaranmış yeni vəziyyətdə çevik idarəçilik qərarlarının qəbul olunmasını təmin etməkdir. İstər şəhər, rayon polis orqanları səviyyəsində, istərsə də daha yüksək instansiyalarda bu yeniləşmə, müasirləşmə, işin yeni şəraitə uyğun qurulması, operativ idarəçilik mexanizmlərinin işə salınması, daha professional hazırlıqlı, enerjili əməkdaşların rəhbər vəzifələrə irəli çəkilməsi prosesi davam edir. Bu dəyişikliklərin, islahatların məqsədi isə Daxili İşlər orqanlarının qarşısında qanunla qoyulmuş mühüm və çox məsuliyyətli vəzifələri layiqincə həyata keçirməkdir.

Dövlət başçısının dəfələrlə vurğuladığı kimi, bu gün DİN-in qarşısında duran ən başlıca vəzifə ölkədəki dinamik inkişafa yol açan ictimai-siyasi sabitliyi qorumaq, dövlətçiliyə qarşı yönələn cinayətkar qəsdlərə qarşı barışmaz mövqe tutmaqdır. Daxili İşlər orqanları istər 2003-cü ilin Prezident, istərsə də 2005-ci ilin Parlament seçkiləri kampaniyası dövründə xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlməklə, hakimiyyət uğrunda qeyri-qanuni və zorakı mübarizə aparmaq niyyətinə düşmüş qüvvələrə qarşı qanun çərçivəsində ciddi tədbirlər görmüş, kütləvi iğtişaş cəhdlərinin qarşısını qətiyyətlə almış, qanunçuluğu təmin etmişdir. Azərbaycan Prezidentinin siyasi iradə və qətiyyəti, Daxili İşlər orqanlarının dövlətçiliyə və qanunçuluğa bağlılığı nəticəsində bu gün heç bir qüvvə qarşıdurma yaratmağa, asayişi pozmağa, ölkəmizi 1990-cı illərin əvvəllərindəki xaos və anarxiya mərhələsinə qaytarmağa qadir deyil. Buna cəhd edənlər, həmişə olduğu kimi, qarşılarında yenə də Azərbaycan xalqını, onun ayrılmaz hissəsi olan Azərbaycan polisini görəcəklər.

Daha effektiv xidmət, xalqa sıx bağlılıq, dövlətçiliyə nümunəvi xidmət Azərbaycan polisinin əsas xidmət göstəricisidir. Cənab Ramil Usubov başda olmaqla, bütün şəxsi heyət bu gün öz xalqına, vətəninə, ümummilli lider Heydər Əliyevin müqəddəs ideallarına, prezident İlham Əliyevin göstəriş və əmrlərinə, mövcud qanunlarımıza yüksək sədaqət nümunəsi göstərir və bunu fəaliyyətlərinin əsas prioriteti sayırlar.

Ölkəmiz son illər qlobal əhəmiyyət kəsb edən beynəlxalq miqyaslı tədbirlərin, forumların layiqli ev sahibi olur. Dövlətinə, xalqına və Prezidentinə hər zaman yüksək sədaqət nümayiş etdirən Daxili İşlər orqanlarının çoxsaylı əməkdaşları belə taleyüklü məqamlarda çevik, sistemli və planlaşdırılmış fəaliyyətləri ilə fərqlənir, qlobal tədbirlərin əvvəldən sonadək sabitlik, sülh və əmin-amanlıq şəraitində uğurla başa çatmasına, insanların təhlükəsizliyinin maksimum səviyyədə təminatına sanballı töhfələrini verirlər. Xüsusilə də son illər ölkəmizdə təşkil olunmuş nüfuzlu musiqi-idman yarışlarında iştirak edən əcnəbi qonaqlar Azərbaycan polisinin səmimi, nəzakətli, qonaqpərvər münasibətini razılıqla qeyd edirlər.

Xatırladaq ki, məhz bu təşkilatçılığın və məsuliyyətli fəaliyyətin nəticəsi olaraq, hələ 2012-ci ildə keçirilmiş "Evrovizion-2012" musiqi yarışması və 2015-ci ilin ilk Avropa Oyunları tamamilə dinc və sabitlik şəraitində başa çatdı. Bu qürurverici vəziyyət 2016-cı ildə yenidən təkrarlandı. "Formula-1" Avropa Qran-pri yarışları zamanı Azərbaycan polisi son dərəcə gərgin iş rejimində çalışaraq, ictimai-siyasi sabitliyin təmin edilməsi və təhlükəsizliyin qorunması ilə bağlı, qarşısında müəyyənləşdirilmiş strateji vəzifələrin öhdəsindən layiqincə gəldi. Cənab Ramil Usubovun da bildirdiyi kimi, həmin günlərdə ictimai-siyasi asayişin qorunmasına əvvəlcədən xüsusi hazırlıq keçmiş 3 minədək polis əməkdaşı cəlb edilmişdi. DİN əməkdaşlarının peşəkar fəaliyyəti, sivil davranışı, nəzakətli, təmkinli ünsiyyəti, xoş siması əcnəbilərdə yüksək təəssürat formalaşdırdı. Azərbaycan polisi mühüm beynəlxalq tədbirlərin təhlükəsizliyinin ən yüksək səviyyədə təminatına nail olmaqla xalqın və dövlət başçısının ona göstərdiyi yüksək etimadı, inamı layiqincə doğrultdu.

Bu gün hər bir vətəndaş əmindir ki, fəaliyyətinin 98-ci ildönümünü qeyd edən Azərbaycan polisi onun həyat və sağlamlığının, hüquq və azadlıqlarının, qanuni mənafelərinin, ictimai asayişinin keşiyində, dövlətin etibarlı mühafizəsindədir.[1]

## 2. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyəti

Müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar respublika olan Azərbaycan uzun müddət ərzində ARDİN-in İnterpola qəbul olunmaq imkanlarını müzakirə edirdi. Digər ölkələrin MMB-ləri ilə işgüzar əlaqələr quran və Azərbaycan Respublikasında İnterpolun MMB-nin yaradılması məqsədi ilə

[1] Hüseynli İ. Azərbaycana fədakar və layiqli xidmət nümunəsi // Azərbaycan, 2016, 1 iyul.

xüsusi işgüzar qrup yaradıldı. Onun strukturu, metodu və formaları dərindən öyrənildi.

İnterpol çərçivəsində əməkdaşlığın əsas məqsədi təcrübə və beynəlxalq ictimaiyyətin imkanlarından istifadə edərək cinayətkarlığa qarşı mübarizənin effektivliyinin qaldırılması və qarşısının alınmasında xarici ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlığın gücləndirilməsidir. Azərbaycan hökuməti tərəfindən 1992-ci ilin iyun ayında İnterpola qəbul olunmaq haqqında bəyanatla rəsmi olaraq müraciət olundu. Bir müddətdən, sonra İnterpolun Baş Katibi Raymond Kendal bildirdi ki, İnterpolun Baş Assambleyasının sessiyası Seneqalın Dakar şəhərində keçiriləcəkdir və həmin sessiyada Azərbaycanın MMB-yə üzvlüyü məsələsinə baxılacaqdır. 4-10 noyabr 1992-ci il tarixində İnterpolun Seneqalın Dakar şəhərində keçirilən Baş Assambleyanın 61-ci sessiyasında müstəqil Azərbaycan Respublikası bərabərhüquqlu üzv qəbul olundu. Bundan başqa, həmin sessiyada narkotiklərin qanunsuz dövriyyəsi, terrorizm, iqtisadi cinayətlər, dələduzluq, saxta pulların hazırlanması və digər amillərə qarşı beynəlxalq mübarizədə yaranan problemlər də öz həllini tapdı. [1]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 fevral 1993-cü il tarixli 72 nömrəli qərarından[2] sonra, martın 1-dən İnterpolun Azərbaycandakı MMB-si fəaliyyətə başladı.

Azərbaycan Respublikasında İnterpolun MMB-si haqqında ilk Əsasnamə ARDİN-in 17 mart 1995-ci il tarixli 140 nömrəli əmri ilə qüvvəyə mindi. ARDİN-in 01.04.2003-cü il tarixli 131 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycanda İnterpolun MMB-nin, əvvəlki strukturlarına dəyişikliklər edilməklə, yeni Əsasnaməsi qəbul edildi.

Azərbaycan Respublikası öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, İnterpolun nizamnaməsini və digər normativ sənədlərini, DİN-in normativ-hüquqi aktlarını, habelə Azərbaycan Respublikasının əsasnaməsini əldə rəhbər tutaraq fəaliyyət göstərir.[3] Qeyd olunduğu kimi, MMB-lər "polis orqanlarının İnterpol" çərçivəsində beynəlxalq əməkdaşlığın məsələləri üzrə dünya dövlətlərinin İnterpolun MMB-dir.

---

[1] Джумазаде В. Азербайджан вступает в Интерпол // Бакинский рабочий. 1992, 17 октября, №186 (22 465).

[2] Məsimov Ə. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 72 nömrəli 9 fevral 1993-cü tarixli qərarı. IV kitab. 1998, s. 429-430.

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nun cari arxivi. MMB-nun arayış hesabatı, 2003, s.10.

Azərbaycan Respublikasında İnterpolun MMB-si ARDİN-in Baş idarə səlahiyyətində fəaliyyət göstərməklə, Nazirliyin İnterpola üzvlüyə olan hüquqları və İnterpol Nizamnaməsinin 4-cü və 32-ci maddələrinə müvafiq olaraq təşkil olunmuşdur. Onun əsas vəzifəsi Milli Qanunvericiliyə və hamı tərəfindən qəbul edilmiş insan hüquq və azadlıqlarına riayət olunmaqla, Azərbaycan Respublikası Daxili İşlər orqanları bölməsinin cinayətkarlıqla mübarizədə İnterpolun üzvü olan digər dövlətlərin analoji orqanları ilə geniş, beynəlxalq, qarşılıqlı əlaqəni təmin etməkdir. Azərbaycan Respublikasında İnterpolun MMB-nin işçi aparatının strukturu və ştatları ARDİN tərəfindən vəzifəyə təyin olunan rəis başçılıq edir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Respublikasında İnterpolun MMB-si bir qurum kimi, Baş İdarə səlahiyyətində fəaliyyət göstərməklə, DİN-in bütün şöbə və idarələri, bütün strukturları ilə qarşılıqlı fəaliyyət göstərir. Azərbaycan Respublikasında İnterpolun MMB-si strukturu DİN-in tərkibində olsa da, respublikanın bütün hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edir. İlk növbədə respublikanın Prokurorluğu, MTN, Məhkəmə orqanları, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Gömrük Komitəsi və s. ilə Bundan başqa, Azərbaycan Respublikasında İnterpolun MMB-si İnterpolun üzvü olan xarici dövlətlərlə birgə cinayətkarlığa qarşı mübarizə aparır.

Azərbaycan Respublikasında İnterpolun MMB-si əsasən aşağıdakı vəzifələri həyata keçirir:

- Respublikanın və İnterpolun üzvü olan ölkələrin hüquq-mühafizə orqanları arasında cinayətkarlıqla mübarizə sahəsində informasiya mübadiləsinin həyata keçirilməsi;
- İnterpol kanalları ilə daxil olan sorğu və tapşırıqların icrası;
- Cinayətlərin qarşısının alınması və açılması məqsədi ilə digər ölkələrin MMB-lərinə cinayətlər və cinayətkarlar, habelə şəxslərin əşya və sənədlərinin axtarışı barədə sorğuların göndərilməsinin təmini;
- Digər ölkələrin MMB-dən daxil olan analoji müraciət və məlumatların respublikanın aidiyyəti hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə icrasının təmin edilməsi;
- Azərbaycanda cinayət törətməkdə şübhəli bilinmiş, cinayət məsuliyyətinə cəlb olunmuş və barəsində həbs qəti imkan tədbiri seçilmiş, xarici vətəndaşlar haqqında İnterpolun Baş Katibliyinə tapşırıq və məlumatların göndərilməsi;
- Respublikada cinayətkarlığa qarşı mübarizənin nəticələri, cinayətlərin yeni forma və metodları, eləcə də qabaqcıl təcrübə barədə müvafiq hesabatların tərtibi və zəruri hallarda belə məlumatların İnterpolun Baş Katibliyinə təqdim edilməsi;
- Beynəlxalq polis əməkdaşlığı çərçivəsində əldə olunan operativ və digər məlumatlar bankının yaradılması;

- Transmilli cinayətkarlıqla mübarizə üzrə əməkdaşlıq sahəsindəki tələblər, şərtlər barədə respublikanın hüquq-mühafizə orqanlarının məlumatlandırılması və bu yönümdə işin təkmilləşdirilməsinə dair Baş Katibliyə təkliflər verilməsi;
- Polisin fəaliyyətinə, habelə transmilli cinayətlərlə mübarizəyə dair beynəlxalq hüquq normalarını əks etdirən sənədlərin, müqavilələrin Baş Katiblikdən sorğu edilməklə alınması;
- Cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın problemlərinə dair xülasələrin, məruzələrin İnterpola üzv olan ölkələrin kriminal xidmətlərinin məlumatları əsasında ümumiləşdirilmiş təkliflərin hazırlanması.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəisi hüquq və vəzifələrə malikdir. MMB üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə görə şəxsi məsuliyyət daşıyır; vəzifələri öz müavinləri arasında bölüşdürür və onların icrasına nəzarət edir; MMB-nin fəaliyyəti ilə əlaqədar göstərişlər verir; işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə AR DİN-ə təqdimat verir və s.

Azərbaycan Respublikasında İnterpolun MMB-si Azərbaycan Respublikası DİN-in 2012-ci il üçün, əsas təşkilati tədbirlər planının 2.5 bəndinə müvafiq olaraq, 30 oktyabr 2012-ci il tarixində, Azərbaycan Respublikası İnterpolun MMB-də çalışmış və hal-hazırda AR DİN-in digər qurumlarında xidmət edən və təqaüddə olan əməkdaşları da dəvət olunmaqla, Azərbaycan Respublikasının İnterpola üzv olmasının 20 illiyinə həsr olunmuş tədbir keçirdi. Bu tədbir barədə 20/79 №-li 26.12.2012-ci il tarixli arayışla Azərbaycan Respublikasının DİN-nin rəhbərliyinə məruzə olundu.[2]

İnterpol çərçivəsində qazanılan təcrübə Azərbaycan Respublikasında İnterpolun MMB-nə təşkilatın özü və təşkilatın üzvü olan bir çox dövlətlərin MMB-ləri ilə sıx iş münasibətləri yaratmaq imkanı vermişdir.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, başqa sahələrdə olduğu kimi, bu sahədə də canlanma hiss edildi. Belə ki, 1993-cü ilin oktyabr ayında Aruba dövlətinin Aruba şəhərində İnterpolun Baş Assambleyasının 62-ci sessiyası keçirilmiş, həmin sessiyada dünyanın 174 ölkəsindən 600-ə qədər nümayəndə iştirak etmişdir. Bu sessiyada AR İnterpolun MMB-nin əməkdaşları iştirak etmişlər. Onlar Türkiyə, İran, ABŞ, Almaniya, Polşa, Niderland və başqa dövlətlərin nümayəndələri ilə görüşərək onlarla təcrübə mübadiləsi aparmış, onlardan dəyərli məsləhətlər almışlar.[3]

Cinayətkarlıq problemi hal-hazırda bütün dünyada qlobal xarakter da-

---

[1] www.mla.qov.az

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nun cari arxivi. MMB-nun 2012-ci il ərzində xidməti fəaliyyətinə dair arayış, s.6.

[3] Ахундов К. Знакомтесь: лица Интерпола // Газ. «Баку», 1994, №13 (612).

şıyır. Bu da sosial, iqtisadi, siyasi, mədəni inkişafa mane olur, əhalinin həyat səviyyəsini xeyli aşağı salır, beynəlxalq təhlükəni yaradan cinayət əməllərinin dairəsini, məsələn, terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, mədəni dəyərlərin oğurlanması və məhv edilməsi, qanunsuz silah satışı və s. genişləndirir. Bu cinayətlərlə effektli mübarizə yalnız bir çox ölkələrlə birgə fəaliyyət nəticəsində aparmaq olar.

İnterpol 1989-cu ildən dünyanın ən müasir kompüter sistemi ilə təchiz olunmuşdur. İnterpolun MMB-si ilk dövrlərə nisbətən 1995-ci ildə artıq təcrübə toplamış, təkmilləşmiş beynəlxalq polis əməkdaşlığının güclənməsində böyük rol oynayırdı.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin yuxarıda göstərdiyimiz illər ərzində apardığı əməliyyat-axtarış fəaliyyəti ilə bağlı bir neçə faktı qeyd edək. 1993-cü ilin yanvar ayında Azərbaycan Respublikasında İnterpolun MMB-nə daxil olmuş məlumat əsasında İsrail dövlətində İnterpolun MMB-nin əməkdaşları ilə birgə kredit kartlarının fırıldağı ilə məşğul olan Özbəkistan vətəndaşı B.Sarkisyan İsraildə saxlanılmış və nəticədə cinayət məsuliyyətinə cəlb edilmişdir. Bundan başqa, 1994-cü ildə İran vətəndaşlarının qeyri-qanuni yollarla Azərbaycan Respublikasının ərazisinə daxil olmaları Azərbaycan Respublikasında İnterpolun MMB-nə daxil olmuş məlumat əsasında müəyyən edilmiş və müvafiq tədbirlər görülmüşdür. 1994-cü ildə Azərbaycandan xarici ölkələrə qaçırılan avtomaşınların müəyyən edilməsi barədə İnterpolun 40 ölkəsinin MMB-nə 1500 sorğu göndərilmiş, oğurlanmış 7 ədəd avtomaşın Litva dövlətində müəyyən edilmişdir. Azərbaycan MMB-si ilə Litva dövlətinin MMB-si əməkdaşlarının birgə əməliyyat tədbirləri nəticəsində müəyyən edilmişdir ki, avtomaşınlar Gürcüstan vətəndaşlarına məxsusdur. Göstərdiyimiz faktla bağlı tədbir görülmüşdür.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları tərəfindən 1994-cü il ərzində Türkiyə, Böyük Britaniya, Fransa, Almaniya və İnterpolun üzvü olan başqa dövlətlərə Azərbaycan Respublikasında yeni pasportların verilməsi qaydaları və onların nümunələri barədə materiallar alınaraq respublika DİN-in pasport baş idarəsinə təqdim olunmuşdur. Bundan başqa, 15 sentyabr 1993-cü ildə Bakı-Perm reysi ilə işləyən təyyarə qaçırılmışdır. İnterpol kanalları ilə cinayətkarların şəkilləri əldə olunmuş, AR DİN-in, Azərbaycan Respublikasında İnterpolun MMB-nin və Azərbaycan Respublikası Nəqliyyat prokurorluğunun apardıqları birgə tədbirlər nəticəsində cinayətkarlar ifşa olunmuşlar.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin bu fəaliyyəti Norveçdə İnterpolun MMB-si və İnterpolun rəhbərliyi tərəfindən yüksək qiy-

[1] Джумазаде Б.Д. Что мы знаем об Интерполе // Газ. «Баку», 1994, №22(80).

mətləndirilmişdir. 1994-cü ilin mart ayında beynəlxalq əməkdaşlıq prosesində İnterpol kanalları vasitəsilə Türkiyə ərazisindən daxil olan əməliyyat məlumatlarına görə, həmçinin, qonşu dövlətlər və Azərbaycanda fəaliyyət göstərən PKK kimi terrorçu təşkilatlara aid məlumatlar əldə edilmiş və əməliyyat istifadəsi vasitəsilə MTN-ə verilmişdir. Bir faktı da qeyd edək ki, Bakı metropolitenində baş verən partlayışla əlaqədar olaraq, Azərbaycan Respublikasında İnterpolun MMB-si İnterpolun Baş Katibliyindən erməni terrorçu təşkilatları "Asala", "Erməni İnqilab ordusu", onların törətdikləri terror aktları və rəhbərləri barədə məlumatlar əldə etmiş və müvafiq orqanlara vermişdir. Bundan əlavə, respublika hüquq-mühafizə orqanlarının Azərbaycandan qeyri-qanuni 5 ton nərə balığı kürüsünün aparılması ilə bağlı, cinayət qrupunun bir üzvünün axtarılması üçün verdiyi sorğular İnterpolun MMB-si tərəfindən yerinə yetirilmişdir. Axtarış prosesində müəyyən olunmuşdur ki, axtarılan Muhammed Bağır Meşkinin İsveçrədə, İngiltərədə, BƏƏ-də bir sıra firmaları və evləri vardır. İnterpolun kanalları vasitəsilə göstərilən dövlətlər Meşin və onun cinayətkar fəaliyyəti barəsində məlumatlandırılmış və həyata keçirilən tədbirlər nəticəsində o, 1994-cü ilin mart ayında İranda həbs olunmuşdur.[1]

Keçmiş SSRİ-nin tərkibində olan respublikalar bir çox sahədə, o cümlədən cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq edirlər. Bu respublikalar İnterpol çərçivəsində də əməkdaşlıqlarını davam etdirirlər. Tez-tez MMB rəhbərlərinin görüşləri keçirilir. Bu görüşlərdən biri 1994-cü il yanvarın 15-dən 17-nə qədər Bakıda keçirilən MDB və Baltikyanı ölkələrdəki İnterpolun MMB rəhbərlərinin və DİN nümayəndələrinin müşavirəsi olmuşdur.

Qeyd edək ki, keçmiş SSRİ ərazisində cinayətkarlığın dinamikasında və onun vəziyyətinin digər keyfiyyət parametrlərində bəzi müsbət dəyişikliklərə və müəyyən fərqlərə baxmayaraq, MDB ölkələrində mütəşəkkil cinayətkarlığın əsas qanunauyğunluqları, meylləri, daha təhlükəli təzahürləri bir çox cəhətdən ümumən oxşardır.

MDB-nin cinayətkarlığa qarşı mübarizəni daha effektli aparmaq məqsədi ilə, MDB dövlət başçıları Şurasının 19 yanvar 1996-cı il tarixli qərarı ilə yaradılmış, MDB iştirakçısı olan dövlətlərin DİNŞ-dir. Ona cənab Ramil Usubov sədrlik edir.

MDB-nin iştirakçısı olan dövlətlərin DİNŞ cinayətkarlıqla mübarizədə birlik dövlətlərinin Daxili İşlər orqanları arasında əməkdaşlığın əsasıdır. Bu Şura müntəzəm olaraq ildə iki dəfə Birlik ölkələrindən birində iclas keçirə-

[1] Azərbaycan Respublikasının DİN-nin Polis akademiyasında yerləşən kitabxanası Azərbaycan Respublikasında İnterpolun MMB-nun fəaliyyəti ilə baglı bəzi normativ hüquqi aktlar, sorğular, icmal arayışlar və istiqamətləndirmələr, s. 5-6.

rək, qarşılıqlı fəaliyyətin aktual problemləri həll olunur.[1]

Yuxarıda qeyd etdiyimizlə bağlı bir neçə tarixən vacib faktı qeyd etmək yerinə düşərdi. 1996-cı il aprel ayının 16-19 tarixində Tacikistanın paytaxtı Düşənbə şəhərində MDB-nin üzvü olan ölkələrin DİNŞ-in müşavirəsi keçirildi. Müşavirənin iştirakçıları Azərbaycan, Ermənistan, Belorus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, RF, Tacikistan, Türkmənistan, Özbəkistan, həmçinin MDB Katibliyinin mütəşəkkil və digər cinayətkarlığa qarşı mübarizə üzrə əlaqələndirmə Bürosunun nümayəndə heyətləri idilər.

Müşavirədə cinayətkarlıqla mübarizədə MDB-yə üzv olan ölkələrin Daxili İşlər orqanlarının qarşılıqlı əlaqələri, cinayətkarlığa, terrorizmə, narkotiklərin qanunsuz dövriyyəsinə, dəmiryol nəqliyyatında cinayətkarlığa qarşı tranzit daşınması qaydaları haqqında sazişin yerinə yetirilməsi gedişatı və digər məsələlər müzakirə olunur. Müşavirədə müzakirə olunan məsələlərlə bağlı qərarlar qəbul olunur.[2]

Yuxarıda göstərdiyimiz misallar onu deməyə əsas verir ki, İnterpol və onun Azərbaycan Respublikasındakı İnterpolun MMB-si Cinayətkarlığa qarşı mübarizə sahəsindəki fəaliyyəti çoxşaxəlidir və milli ərazi polis orqanlarının fəaliyyəti üçün geniş imkanlar yaradır. Azərbaycan Respublikasında İnterpolun MMB-nin Cinayətlərin qarşısının alınması və açılması ilə əlaqədar, hələ onun fəaliyyət göstərdiyi ilk illərdə müəyyən təcrübə və müsbət nəticələrə nail olunmuşdur. Lakin bu fəaliyyətin günü-gündən təkmilləşdirilməsi, daha yüksək nəticələr əldə edilməsi üçün əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi tələb olunur.

Bir tarixi hadisəni də qeyd edək. 23-29 oktyabr 1996-cı il tarixində Türkiyənin Antalya şəhərində İnterpolun Baş Assambleyasının 65-ci sessiyası keçirilmişdir. Sessiyanın işində AR DİN-in Baş idarə səlahiyyətli strukturu olan Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəis heyəti və əməkdaşları, Azərbaycan Respublikası Prokurorluğunun nümayəndələri iştirak etmişlər. Sessiyanın açılış mərasimində M.B.Ericson, baş katib R.Kendal, Türkiyənin sabiq İç İşləri bakanı M.Ağar, Əmniyyət Genel müdiri Ə.Yüksəl, müxtəlif ölkələrin səfirləri, beynəlxalq təşkilatların müşahidəçiləri və digər rəsmi şəxslər iştirak etmişlər. Əvvəlcə Qırğızıstanın İnterpola qəbul olunması barədə ərizəsinə baxıldı və o müsbət həll olundu. Beləliklə, İnterpolun üzvü olan ölkələrin sayı 177-yə çatdı.

1995-ci ildə təşkilat tərəfindən görülən tədbirlər barədə qısa məlumatdan sonra, prezidentin hesabatı dinlənildi. Ötən müddətdə əsas nailiyyətlərdən biri kimi İnterpola BMT-də dövlətlərarası təşkilat kimi müşahidəçi sta-

---

[1] DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 1996, 25 aprel, №287(1808).
[2] DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 1996, 25 aprel, №287(1808).

tusunun verilməsi xüsusi ilə vurğulandı. Daha sonra, terrorizmlə mütəşəkkil cinayətkarlıqla əlaqədar məsələlər müzakirə olundu. Qeyd edildi ki, hazırda dünyanın kriminoloqları terrorizm mütəşəkkil cinayətkarlığın bir növü kimi qiymətləndirirlər. Müstəqilliyin ilk illərində bir sıra keçmiş sosialist sisteminə daxil olan ölkələrdə (əsasən, keçmiş SSRİ tərkibindəki respublikalarda) mütəşəkkil cinayətkarlığa aid qanunvericilik aktları qəbul edilmədiyindən beynəlxalq polis əməkdaşlığında ciddi əngəllər yaranırdı ki, bu da cinayət əməllərinin təsbit edilməsində anlaşılmazlıqlara səbəb olurdu. Mütəşəkkil cinayətkarlıqla qrup şəklində törədilən cinayətkarlığın eyniləşdirilməsi qəbuledilməz idi. Ona görə ki, daha çox ictimai təhlükəli olmaqla ona qarşı müvafiq tədbirlərin görülməsini tələb edir, bu isə hüquqi əsaslar olmadan mümkün deyildi.

Yuxarıda göstərdiyimiz tarixi sessiyanın toplantıları komissiyalarda və komitələrdə keçirildi. Kompüterləşmə və telekommunikasiya üzrə komitədə aparılan müzakirələr əsasən yeni rabitə sisteminin yayılması və İnterpolun üzvü olan ölkələr tərəfindən tətbiqi məsələlərinə həsr edilmişdir. Həmin sistemin tətbiqi son illərdə İnterpol çərçivəsində məlumat mübadiləsinin bir neçə dəfə artması müqabilində rabitə xərclərinin xeyli azaldılmasına və rabitə keyfiyyətinin yüksək səviyyəyə qaldırılmasına imkan yaratmışdır. Həmçinin qeyd olundu ki, hazırda bu rabitə sistemindən 120-dən artıq ölkə istifadə edir və yaxın gələcəkdə İnterpolun üzvü olan bütün ölkələrin bu sistemə keçməsi nəzərdə tutulur. Digər üstünlüklərlə yanaşı, yeni sistem bilavasitə İnterpolun Baş Katibliyində olan məlumat blanklarından istənilən məlumatı almağa, müəyyən texniki və proqram təminatı olduğu halda isə, maraq doğuran şəxsin fotoşəklini və identifikasiyası üçün yararlı olan əl-barmaq izlərini rabitə kanalları ilə ötürməyə və qəbul etməyə imkan verir.

Baş Katibliyin 4-cü idarəsinin İnformasiya Texnologiyası üzrə rəis əvəzi R.Melle cari ildə tətbiq edilməyə başlayacaq “İnform məlumat forması” barədə söhbət açmışdır. O, bildirdi ki, həmin formatın tətbiqi kriminal xarakterli məlumatın mübadiləsini standartlaşma yolu ilə xeyli asanlaşdıracaq, məlumatın işlənib hazırlanmasında qarşıda duran bir sıra problemlər həllini tapacaq, təcrübə prosesi yüngülləşəcək və nəticədə kriminal xarakterli məlumatların realizə olunması kəskin surətdə sadələşəcək.

Yuxarıda qeyd edilən məsələlərlə yanaşı, Azərbaycan Respublikasında İnterpolun MMB-nin modernləşməsi də Baş Katibliyin 4-cü idarəsinin rəhbərliyi ilə müzakirə edildi. 1995-ci ildə ÇXR-in Pekin şəhərində keçirilən İnterpolun Baş Assambleyasının 64-cü sessiyasında Azərbaycan nümayəndəsinin təkidi nəticəsində ölkəmiz üçün 200 min Fransız frankı məbləğində texniki yardım göstərilməsi barədə razılıq əldə edilmişdir. Bundan sonra, İnterpolun Baş Katibliyində Azərbaycanda İnterpolun MMB-si ara-

sında texniki yardım və proqram təminatına dair müvafiq müqavilə bağlanmış və ilkin razılığa görə, yardım proqramının 1997-ci ilin əvvəlində həyata keçirilməsi nəzərdə tutulmuşdur. Aparılan danışıqlardan sonra bu müddət 1996-cı ilin sonuna müəyyən edildi. MMB-nin "İnterform proqram təminatı" ilə təchiz olunması barədə razılıq əldə olundu. Bundan başqa, Azərbaycan MMB-nin yeni rabitə sistemi üzrə nəql xərclərinin müəyyən hissəsinin Baş Katiblik tərəfindən ödənilməsi imkanları da müzakirə olundu. Nəzərə alındı ki, əgər qeyd edilən məsələlər həllini tapsa, bu zaman təxminən 70 min dollara yaxın maliyyə vəsaitinin qənaət edilməsinə imkan yaranacaq. Bu isə ildə cəmi 28 min ABŞ dollarını təşkil edən üzvlük haqqının ödənilməsində hər zaman rastlaşdığımız çətinliklər müqabilində böyük qazancdır.

Qitələr üzrə toplantı keçirildi. Müxtəlif problemlərlə yanaşı Ankarada İnterpolun Regional Bürosunun yaradılması barədə Türkiyənin təşəbbüsü ilə müzakirə edildi. Qeyd olunmalıdır ki, 1996-cı ilin avqust ayında Azərbaycan Respublikasının Daxili İşlər naziri cənab Ramil Usubovun Türkiyəyə səfəri zamanı bu məsələ Türkiyəli həmkarlarımız tərəfindən qaldırılmış və ölkəmizin nümayəndə heyəti tərəfindən bəyənilərək, bu təşəbbüsü dəstəkləyəcəyinə təminat vermişdir. Buna görə də, həmin məsələ müzakirə olunanda nümayəndə heyətimiz bu təşəbbüsə tərəfdar çıxdı və bildirdi ki, Azərbaycanla yanaşı, daha 10 ölkənin (Yunanıstan, Albaniya, Rumıniya, Türkiyə, Bolqarıstan, Moldova, RF, Ukrayna, Gürcüstan, Ermənistan) üzv olduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrini əhatə edən regional büronun yaradılması daha məqsədəuyğundur. Aydın məsələdir ki, bu regional bürolara yaxın bölgələrdə yerləşən və maraqlı olan digər ölkələrin qoşulması da istisna edilmir. Təşəbbüs İnterpolun rəhbərliyi tərəfindən rəğbətlə qarşılanmışdır.

Bundan başqa, İnterpolun Baş Assambleyasının bu tarixi sessiyasında "Narkotiklərin qeyri qanuni-dövriyyəsinə dair", "Əl-barmaq izlərinin avtomatlaşdırılmış identifikasiya sisteminin alınmasına dair", "1997-1998-ci illərdə şifrləmə sisteminin tətbiqinə dair", "İnsanların qeyri qanuni aparılması və fahişəliyin beynəlxalq istismarına dair", "Uşaq pornoqrafiyasının beynəlxalq miqyasda yayılmasına dair", "Azyaşlılara qarşı törədilən cinayətlərlə mübarizə sahəsində beynəlxalq polis əməkdaşlığının gücləndirilməsinə dair", "İnterpolun istiqamətləndirmələri və beynəlxalq cinayətkarlar üzərində nəzarətin təmin edilməsi şərtlərinə dair", "Ekstradisiya (cinayətkarların verilməsi) barədə, qəza qurbanlarının identifikasiyasına dair", "BMT ilə əməkdaşlıq barədə", "Baş Assambleyanın təşkili barədə", "Üzvlük haqqını ödəməyən ölkələrə qarşı tətbiq edilən sanksiyaların genişləndirilməsinə dair" və s. qətnamələr qəbul edildi.

Analitik sahəyə dair qətnamədə bildirilir ki, hər bir maraqlı ölkə

müəyyən təhlillərin aparılması və tövsiyələrin alınması üçün İnterpolun Baş Katibliyinə müraciət edə bilər.

İnterpolun Baş Assambleyasının son günündə İnterpolun rəhbər orqanlarına alternativ seçkilər keçirildi və Tosinori Kanemomo (Yaponiya) İnterpolun prezidenti, Rişardo (Fransa) İnterpolun vitse-prezidenti vəzifələrinə seçildilər. Baş Assambleyanın gedişi zamanı İİR polis qüvvələrinin komandanının birinci müavini general Ə.Şəmşiri, İnterpolun sabiq və hazırkı prezidentləri Erikson ve Kanemomo, İnterpolun Baş katibi R.Kendal, İnterpolun Baş Katibliyinin 2-ci idarəsinin rəisi Pol Kirdan, 4-cü idarənin rəisi R.Melle, Təhqiqat və İnterpolun icraiyyə Komitəsinin üzvü B.Teylor, Türkiyə, Bolqarıstan, Slovakiya, İtaliya, Cənubi Afrika, Rusiya, Qazaxıstan, Özbəkistan, Moldova, Gürcüstan, Ukrayna, Litva, Latviya, Estoniya, Belorus, Yunanıstan, Bəhreyn, Avstraliya, Əlcəzair, Böyük Britaniya, ABŞ, İspaniya və digər ölkələrin MMB-nin görüşləri keçirildi. Həmin görüşlərdə Azərbaycan Respublikasında İnterpolun MMB-də əməkdaşlıq etmələri ətraflı müzakirə edilmişdir.

İnterpolun sabiq prezidenti B.Erikson və Baş katib R.Kendal Azərbaycan Respublikası nümayəndə heyətinin Baş Assambleyanın işində fəal iştirakını vurğulayaraq, Azərbaycan nümayəndə heyəti tərəfindən irəli sürülən təklifləri bəyəndiklərini və gələcəkdə İnterpolun Azərbaycan MMB-nın İnterpolun ön sıralarında gedəcəklərinə inandıqlarını bildirdilər.[1]

Bundan başqa, daha bir tarixi hadisəni qeyd edək. 1997-ci il fevral ayının 16-da cənab Ramil Usubov BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlərlə əlaqədar yardımçı komissiyanın 32-ci sessiyasında iştirak etmək üçün Bakıya gələn İnterpolun Baş katibi R.Kendalı qəbul etmişdir.

Nazir ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında Daxili İşlər orqanlarının son 3 ildə ölkədə sabitliyin təmin olunması və dönməz xarakter alması üçün gördüyü işlər barədə qonağa ətraflı məlumat verib, ümumən cinayətlərin açılması və açılma faizinin artmasını razılıqla bildirdi. O, İnterpolun Baş Katibliyi ilə bu təşkilatın ölkəmizdəki MMB-nin əməkdaşlığından razı qaldığını, işgüzar əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

Bu tarixi görüşdən sonra cənab Ramil Usubov və R.Kendal kütləvi informasiya nümayəndələri üçün mətbuat konfransı keçirdilər. Konfransda qeyd olundu ki, Azərbaycan İnterpola üzv olandan sonra xarici dövlətlərin ərazisində gizlənən onlarla cinayətkar bu təşkilatın səyi nəticəsində müəyyənləşdirilib və bir çoxu respublikamıza gətirilib. Eyni zamanda MMB vasi-

---

[1] Azərbaycan Respublikası DİN-nin Mətbuat xidmətinin məlumatı. Cəzadan qaça bilməyəcəklər // Mübariz keşikdə, 1996, 5 dekabr, №46 (23 14).

təsilə İnterpolun axtardığı müəyyən şəxslər Azərbaycan ərazisində aşkar edilərək xarici dövlətlərə verilib. Təkcə 1996-cı ildə 17 mindən çox kriminal xarakterli məlumat təhlil olunaraq lazımi instansiyalara göndərilib. İnterpol cinayətkarlığa qarşı mübarizədə, cinayətkarların axtarışında, çirkli pulların yuyulmasında, digər iqtisadi xarakterli cinayətlərin qarşısının alınmasında mühüm rol oynayan nüfuzlu bir beynəlxalq təşkilatdır və bu strukturla DİN əməkdaşlıq edir.[1]

1997-ci il mart ayının 10-da Moldova respublikasının paytaxtı Kişinyov şəhərində MDB-nin üzvü olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının (DİNŞ) növbəti müşavirəsi keçirildi. Azərbaycanı həmin müşavirədə cənab Ramil Usubov təmsil etdi. Müşavirədə MDB ərazisində mütəşəkkil cinayətkarlığa və digər təhlükəli cinayətlərə qarşı mübarizəyə dair dövlətlərarası proqramın həyata keçirilməsində nazirlərinin əməkdaşlığının səmərəsinin daha da artırılması, MDB məkanında axtarışın elan olunması və dayandırılması barədə vahid qaydanın tətbiqi, beynəlxalq miqyasda avtonəqliyyat oğurluğu və nəqliyyatda digər qatı cinayətlər törədən mütəşəkkil qruplara qarşı mübarizədə imkanlarının həyata keçirilməsi tədbirləri, MDB üzvü olan dövlətlərdə cinayətkarlığa qarşı mübarizə sahəsindəki problemlərə həsr olunmuş bülletenin nəşri və digər məsələlər müzakirə olundu.[2]

MDB üzvü olan ölkələrin DİNŞ-in növbəti 5-ci iclası 1997-ci il sentyabr ayının 10-da Bakı şəhərində keçirildi. İclasda Moldovanın Daxili İşlər naziri M.Plemedjabe DİNŞ-in sədrliyi vəzifəsini növbəti müddət üçün cənab Ramil Usubova təhvil verdi. Cənab Ramil Usubov çıxışında bildirdi ki, transmilli, xüsusən də mütəşəkkil cinayətkarlıq qlobal xarakter alır və bu, bütün MDB dövlətləri, o cümlədən hüquq-mühafizə orqanları üçün ciddi narahatlıq doğurur. Nazirin fikrincə, MDB üzvü olan ölkələrin DİNŞ-in yaradılması cinayətkarlığa qarşı mübarizədə bütün səyləri birləşdirmək yolunda mühüm addımdır.

İclasda cinayətkarlığa qarşı mübarizədə qarşılıqlı fəaliyyətin və 2000-ci ilədək MDB məkanında mütəşəkkil cinayətkarlığa və digər təhlükəli cinayət növlərinə qarşı mübarizəyə dair dövlətlərarası icra vəziyyəti, MDB-nin icra katibliyi yanında MDB DİNŞ-in nümayəndəsi haqqında əsasnamənin təsdiqi, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə üzrə əlaqələndirmə bürosunun (MCQMƏB) fəaliyyətinin təkmilləşdirilməsi və bu büroya İnterpolun MDB ölkələri üzrə subregional bürosu statusunun verilməsi, dövlətlərarası axtarışın vahid qaydası haqqında müvəqqəti təlimatın təsdiqi, MDB dövlətlərində cinayətkarlığa qarşı mübarizə problemlərinə dair informasiya bülle-

---

[1] Mahmudzadə O. Polis baş leytenantı DİN-nin mətbuat konfransının məlumatı // Mübariz keşikdə, 1997, 20 fevral, №7(23 24).
[2] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 1997, 20 mart, №12 (28 15).

tenlərinin nəşri və cinayət cəzalarının icrasının təşkili sahəsində əməkdaşlıq haqqında sazişin layihəsi məsələləri müzakirə edildi.[1]

Bundan başqa, Azərbaycan Respublikasında İnterpolun MMB-si ilə bağlı 1997-ci ilin oktyabr ayında olan daha bir tarixi hadisəni qeyd edək. AR Dİ naziri, MDB-yə üzv olan dövlətlərin DİNŞ-in sədri cənab Ramil Usubov İnterpolun Baş Assambleyasının 66-cı sessiyasında iştirak etmək üçün oktyabrın 15-dən 20-dək Hindistanın paytaxtı Dehli şəhərində oldu.

Tədbirin açılışında Hindistanın Baş naziri İ.K.Qural, İnterpolun prezidenti T.Kenomoto və xarici ölkələrin səfirləri iştirak etdilər. Sessiya öz işinə başlamazdan əvvəl baş katib R.Kendal başda olmaqla MMB üzvləri olan dövlətlərin nümayəndə heyətlərinin rəhbər işçiləri, o cümlədən regional büronun rəisi S.Bollarinin iştirakı ilə toplantı keçirildi. Toplantıda MDB üzvü olan dövlətlərin DİNŞ tərəfindən irəli sürülən təklif əsasında MDB-nin mütəşəkkil və s. cinayətlər üzrə əlaqələndirmə bürosu bazasında İnterpolun subregional bürosunun yaradılması məsələsinə baxılmışdır. Baş katibin verdiyi izahatdan aydın olur ki, İnterpol çərçivəsində, təklif edildiyi kimi, ikili tabeli (yəni həm İnterpolun Baş Katibliyinə, həm də MDB katibliyinin DİNŞ-ə daxil olan) orqanın yaradılması təşkilatın nizamnaməsinə və əsasnaməsinə uyğun deyildir.

Baş Katiblik MMB-nin mütəşəkkil və s. cinayətlər üzrə əlaqələndirmə bürosu ilə əməkdaşlığı zəruri hesab etmiş, onun yeni formalarının yaradılması üçün axtarışlar aparılmasının vacibliyini vurğulamışdır. Sessiyada İnterpolun fəaliyyəti ilə bağlı müxtəlif məsələlər, o cümlədən təşkilat tərəfindən 1996-cı ildə görülən işlər barədə hesabat, beynəlxalq səviyyədə narkotik maddələrin qanunsuz dövriyyəsi, beynəlxalq iqtisadi və maliyyə cinayətkarlığı, beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq, 1998-ci il üçün tədbirlər planı və digər məsələlər müzakirə olundu. Gündəlikdə duran məsələlərin müzakirəsində Azərbaycan nümayəndə heyəti fəal iştirak etdi. Cinayətkarların beynəlxalq axtarışı ilə bağlı məsələ müzakirə edilərkən nümayəndə heyətimiz belə bir təklif irəli sürdü ki, İnterpol müşahidəçi statusundan istifadə edərək, BMT-də ekstradisiya haqqında vahid beynəlxalq konvensiyanın təklifi ilə çıxış etsin. Belə bir konvensiyanın olması həm İnterpolun, həm də MMB-nin rolunun artmasına bilavasitə xidmət göstərə bilərdi. Bu təşəbbüs bütün iştirakçılar tərəfindən bəyənilmiş və sessiyanın müvafiq qərarında öz əksini tapmışdır. Nümayəndə heyətimiz müxtəlif problemlərlə əlaqədar ABŞ-ın, RF-nın, Ukraynanın, Gürcüstanın, Moldovanın, Türkiyənin, Avstraliyanın, Polşanın, Xorvatiyanın, Bəhreynin, Misirin, Latviyanın, Yunanıstanın, Hindistanın və Qazaxıstanın nümayəndə heyəti ilə bir sıra işgüzar görüşlər keçirdi.

[1] DİN-in mətbuat katibliyi. Əməkdaşlıq cinayətkarlığa qarşı ən etibarlı sipərdir // Mübariz keşikdə, 1997, 18 sentyabr, 34(2351).

İnterpolun Baş katibi R.Kendalla görüşdə Azərbaycan Respublikasının beynəlxalq polis əməkdaşlığı sahəsində daha fəal rol oynaması üçün bütün imkanlardan istifadə ediləcəyinə zəmanət verildi. İnterpolun MMB-nin rəisi Ə.İbrahimov, rəis müavini T.Mürşüdli nümayəndə heyətinin tərkibində idi.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 1998-ci il tarixdə olan tarixi məlumatını qeyd edək. 5 noyabr 1998-ci il tarixində Avropa Şurasının Baş katibi D.Tonsisin rəsmi dəvəti ilə, Azərbaycan DİN-in və Azərbaycan Respublikasında İnterpolun MMB-nın əməkdaşları ilə 5-6 noyabr tarixində Fransanın Strasburq şəhərində AŞ tərəfindən "Qanunun aliliyi prinsipinin bərqərar olduğu dövlətlərdə mütəşəkkil cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə beynəlxalq polis əməkdaşlığı" mövzusunda yüksək səviyyədə müzakirə olundu. Bu beynəlxalq tədbirin işində respublikamızdan başqa, bir sıra Avropa, o cümlədən MDB üzvü olan dövlətlərin DİN-ləri də iştirak etmişdir.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin sabiq rəisi Ə.İbrahimov 2 iyun 1998-ci il tarixdə respublika qəzetinə verdiyi müsahibəsində Azərbaycan Respublikasında İnterpolun MMB-nin yaranmasından 5 il ötdüyünü, ötən müddət ərzində beynəlxalq hüquq normalarının öyrənilməsi, yayılması, qanunçuluğun təkmilləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi sahəsində xeyli işlərin görülməsi, İnterpolun üzvü olan ölkələrlə birgə əməliyyat tədbirləri keçirilməsi üçün çevik iş birliyinin yaradılmasını, əlaqələrin dinamikasının artdığını bildirmişdi. Görülən işlərin nəticəsi və son illərin konkret statistikası barədə məlumat verərək demiş ki, Respublikada İnterpolun MMB-si xidməti fəaliyyətini Azərbaycan Respublikasının Qanunları və Beynəlxalq hüquq normalarına uyğun qurur, qanunçuluğun təmin olunması üçün beynəlxalq polis əməkdaşlığını daha da genişləndirir. Cinayətkarların beynəlxalq axtarışı, kriminal xarakterli məlumatların dəqiqləşdirilməsi, bizimlə eyni təmayüllü təşkilatlar arasında əlaqələrin yaradılması üçün bütün imkanlar səfərbər edilir. Azərbaycanda dövlət quruculuğunun yeni mərhələyə qədəm qoyması, ölkəmizin beynəlxalq miqyasda nüfuzunun artması potensial imkanlara güclü təkan verir.

Ə.İbrahimov təkcə 1998-ci il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-yə kriminal xarakterli 22 min sorğunun daxil olduğunu bildirdi. Həmçinin Bakıda T.Mustafayev adına İncəsənət Muzeyindən oğurlanmış 174 sənət əsərin axtarışı üçün İnterpola daxil olan ölkələrə dərhal sorğu

[1] Respublikanın DİN mətbuat xidmətinin məlumatı // Azərbaycan, 1997, 22 oktyabr, №230(1751).

[2] Səfər Beynəlxalq polis əməkdaşlığı yeni mərhələdə // Mübariz keşikdə, 1998, 5 noyabr, №41(2405).

göndərildiyi, birgə əməliyyat tədbirləri nəticəsində həmin əsərlərin Nyu-York şəhərindən aşkar edildiyi qeyd olunmuşdu. Məlum olmuşdur ki, oğurlanan sənət əsərlərinin içində Brem kolleksiyasına məxsus, dünya şöhrətli sənətkarların 12 qrafik əsəri də var.

1998-ci ildə ölkəmizə külli miqdarda qəlp pul gətirmək istəyən Türkiyə vətəndaşı A.Dərviş Binə hava limanında yaxalandı. Cinayətkar qrupun ifşa olunması hər iki ölkənin beynəlxalq polis təşkilatının birgə əməkdaşlığının səmərəli nəticəsidir. İnterpol yaranandan 1998-ci ilə qədər Beynəlxalq Polis Təşkilatları narkotik maddələrin dövriyyəsini məhdudlaşdırmaq üçün ardıcıl tədbirlər görülür, birgə əməliyyatlar keçirilir. Hesablamaya görə, il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-yə narkotik maddələrin alveri ilə məşğul olan 1440 şəxs barədə məlumat daxil olmuş, bütün bu faktların, məlumat və sorğuların düzgün araşdırılması üçün beynəlxalq polis əməkdaşlığı çərçivəsində mübarizə tədbirləri aparılmışdır.

Azərbaycanın dünya dövlətləri ilə iqtisadi əməkdaşlığının genişlənməsi, şübhəsiz ki, dövlət və kommersiya strukturlarında yeni münasibətlər formalaşdırır. Bəzi hallarda isə yeni yaranan beynəlxalq qurumlar arasında iqtisadi cinayətkarlıq faktları aşkara çıxarılır. Belə cinayətlərin istintaqı ilə bağlı sorğu materiallarını da İnterpolun üzvü olan dövlətlərin MMB-ləri bir-birinə çatdırır. Görülən işlərin nəticəsi texniki imkanlarla çox bağlıdır. 1998-ci il də daxil olmaqla, son illərdə Azərbaycan Respublikasında İnterpolun MMB-də beynəlxalq normalara uyğun müasir texnika quraşdırılıb, yeni avadanlıqlar alınmışdır.

1998-ci ildə 75 illik yubileyini keçirməyə hazırlaşan İnterpolun Baş katibi R.Kendal Azərbaycan Prezidenti Heydər Əliyevi 75 illiyi münasibəti ilə təbrik edərkən, hər iki yubileyin eyni vaxta təsadüf etdiyini qürur hissi ilə qeyd etmiş, böyük siyasi xadimin beynəlxalq polis təşkilatının işinə qayğısını yüksək qiymətləndirmişdir.[1]

1998-ci il dekabr ayının 16-da Moskvada MDB ölkələrinin DİNŞ-in növbəti iclası keçirildi. Bu iclasda narkotik maddələrin, psixotrop vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlığı möhkəmləndirmək məsələsi, habelə əməliyyat-axtarış fəaliyyətinin xüsusi müşayiət edilməsi sahəsində əməkdaşlıq haqqında sazişin layihəsi də nəzərdən keçirildi. Şuranın işində cənab Ramil Usubov və Azərbaycan Respublikasında İnterpolun MMB əməkdaşları iştirak etmişlər.

Bundan başqa 17 dekabr 1998-ci il tarixdə Moskvada MDB çərçivəsində yaradılmış Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Bürosunun İnterpolla qarşılıqlı əlaqə məsələləri müzakirə edilmişdir. Şuranın işində cənab Ramil

[1] İbrahimov Ə. Azərbaycan İnterpolun güzgüsündə // Respublika, 1998, 2 iyun, №116(324).

Usubov və İnterpolun Azərbaycan Respublikasında MMB-nin əməkdaşları iştirak etmişlər.[1]

1999-cu il aprel ayının 29-da Gürcüstan Respublikasının Borjomi şəhərində Azərbaycan Respublikası, Gürcüstan Respublikası, RF və Ermənistan Respublikasının Daxili İşlər orqanları rəhbərlərinin görüşü zamanı, görüşdə iştirak edən nazirlərin ümumi rəyi belə olmuşdur ki, əməkdaşlıq daha geniş sahədə: MDB üzvü olan dövlətlərin DİNŞ Qara dəniz hövzəsi İqtisadi əməkdaşlıq təşkilatı, Mütəşəkkil cinayətkarlığa və digər ağır növ cinayətlərə qarşı mübarizəni əlaqələndirmə bürosu və eyni zamanda İnterpol çərçivəsində daha da fəallaşmalıdır. [2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2000-ci il üçün hesabat dövrü ərzində İnterpolun Baş Katibliyindən təşkilatın üzvü olan ölkələrin MMB-dən və respublikanın hüquq-mühafizə orqanlarından çox sorğu və məlumat daxil olmuşdur. Onlardan 5000 ədəd sənəd icraata qəbul edilmiş, qalanları isə müvafiq məlumat bazasında saxlanılmışdır. AŞ ilə İnterpolun Baş Katibliyi xətti ilə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışlar. Respublikada narkotik maddələrin və psixotrop vasitələrin qanunsuz dövriyyəsi, saxta pulların hazırlanması və dövriyyəyə buraxılması barədə və s. statistik məlumatlar hazırlanmış və İnterpolun Baş Katibliyinə göndərilmişdir.

Hesabat dövrü ərzində xarici ölkələrin və respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş tapşırıqlar əsasında cinayət işlərinin təhqiqi və açılması, həmçinin bir sıra materialların yoxlanması üçün informasiya mübadiləsi təmin edilmişdir.

Azərbaycan Respublikası İnterpolun MMB-nin texniki məlumat şöbəsinin 2000-ci ildəki fəaliyyətini də qeyd edək. MMB-nin texniki təminat şöbəsinin fəaliyyəti kompüter texnikasının telekommunikasiya vasitələrinin istismarı, onların müasirləşdirilməsi, yeni proqram təminatının hazırlanması, məlumat arxivinin və tətbiqi proqramlar kitabxanasının yaradılması istiqamətində qurulmuş, 2000-ci il ərzində Laus və X-400 beynəlxalq telekommunikasiya sistemi vasitəsilə 10237 sənəd qəbul edilmiş, 1910 məlumat isə göndərilmişdir.

MMB-nun lokal şəbəkəsinin yaradılması üçün tələb olunan texniki və proqram vasitələri əldə edilmişdir. Sponsorların yardımı vasitəsilə 10 ədəd 350 MHZ II tipli işçi stansiya, 1 ədəd 500 MHZ Pentium III “Newlett Packard” tipli fayl sever və lokal şəbəkəyə qoşulma qurğu və cihazları alınmışdır. Yuxarıda qeyd etdiyimiz sahədə istismar olunan məlumat bazasında ax-

[1] MDB ölkələrinin Daxili İşlər Nazirləri Şurası İnterpolla qarşılıqlı əlaqə məsələlərini müzakirə etmişdir // Mübariz keşikdə 1998, 19 dekabr, №294 (2103).

[2] DİN-yi mətbuat xidmətinin məlumatı // Respublika, 1999, 1 may, №90(554).

tarışda olan cinayətkarlar, itkin düşmüş şəxslər, oğurlanmış mədəni sərvətlər, silah, sənədlər, saxta pullar, respublikamızda və xaricdə olan avtonəqliyyat vasitələri və s. sahələr üzrə 300 000-ə yaxın məlumat toplanmışdır. [1]

Azərbaycan Respublikasında İnterpolun MMB-si 2001-ci ildə öz xidməti fəaliyyətini AR DİN tərəfindən təsdiq olunmuş əsasnamə və Azərbaycan Respublikasının qanunları, beynəlxalq hüquq, DİN-in normativ sənədləri, habelə polis fəaliyyətini tənzimləyən bir sıra qanunvericilik aktları, o cümlədən "Polis haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar, AR DİN-in Əsasnaməsinin və təsdiq edilməsi haqqında ölkə prezidentinin 30.06.2001-ci il tarixli 518 saylı fərmanı və İnterpolun Baş Katibliyinin tövsiyəsi əsasında hazırlanmış funksional vasitələrinə uyğun olaraq qurmuş, DİN-in 2001-ci il üçün təşkilati tədbirlər planında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində, qanunçuluğun təmin edilməsi, cinayətlərin açılmasına yönəlmiş əməliyyat və istintaq tapşırıqlarının icra edilməsi, ümumi cinayətkarlığa qarşı mübarizə beynəlxalq polis əməkdaşlığının həyata keçirilməsi sahəsində müntəzəm fəaliyyət göstərmişdir.

Hesabat ilinin əvvəlində 2001-ci il ərzində xidməti fəaliyyətin yekunları MMB-nin əməliyyat müşavirəsində geniş müzakirə olunmuş, kriminal xarakterli məlumatların təhlili əsasında xidməti fəaliyyətin təkmilləşdirilməsi, nəzarət və tələbkarlığın artırılması istiqamətləri müəyyən edilmişdir. İl ərzində mütəmadi olaraq MMB-nin əməliyyat müşavirəsi keçirilmiş, DİN və Baş Katiblikdən daxil olan direktiv sənədlər dərindən öyrənilmişdir.

Avropa Şurası və İnterpolun Baş Katibliyi xətti ilə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışlar. Respublikada beynəlxalq cinayətkarlığa qarşı mübarizə üzrə statistik göstəricilər, narkotik maddələrin və psixotrop vasitələrin qanunsuz dövriyyəsi, saxta pulların hazırlanması və dövriyyəyə buraxılması və s. barədə illik statistik məlumatlar hazırlanmış və İnterpolun Baş Katibliyinə göndərilmişdir.

Azərbaycan Respublikası DİN-in Kriminalistik-Tədqiqatlar İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə yaradılması nəzərdə tutulan yeni əsasnamənin beynəlxalq standartların tələbləri səviyyəsində olması üçün İnterpolun Türkiyə, İtaliya, Fransa və Macarıstandakı MMB-yə müraciətlər edilmiş və bu ölkələrin polis orqanları nəzdində fəaliyyət göstərən analoji qurumların statusu, strukturu, məqsəd və vəzifələri barədə məlumat toplanaraq DİN-in Kriminalistik Tədqiqatlar İdarəsinə təqdim edilmişdir.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndələrin mühafizəsi ilə bağlı, yeni hüquqi normativ sənədlərin hazırlanması ilə

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2000-ci il ərzində xidməti fəaliyyətinin yekunlarına dair arayış, s. 6,8.

əlaqədar olaraq, bu sahədə mövcud iş təcrübəsi və müvafiq hüquqi-normativ sənədləri əldə etmək məqsədilə, İnterpolun Rusiyada, Ukraynada, Türkiyədə və Qazaxıstanda MMB-lərə müraciətlər göndərilmiş və əldə edilmiş sənədlər istifadə edilməsi üçün AR DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə göndərilmişdir.

Xarici ölkələrin İnterpolun MMB-ləri yeni qanun layihəsinin hazırlanması və məlumat xarakterli sorğular əsasında respublikamızın aidiyyəti orqanlarına müraciətlər göndərmiş, təşəbbüskarlar müvafiq qaydada məlumatlandırılmışlar.

ATLAS telekommunikasiya sisteminə keçidlə əlaqədar olaraq, cari ilin sentyabr ayının 17-dən 21-nə qədər Liondakı telekommunikasiya stansiyasında bizim MMB-nin mütəxəssisləri üçün xüsusi seminar keçirilmişdir. Həmin seminarda MMB-nin rəhbərliyi və texniki təminat şöbəsinin əməkdaşları iştirak etmişlər. Bundan başqa, 24-28 sentyabr 2001-ci ildə Buxarest şəhərində keçirilən 70-ci sessiyanın işində MMB-nin rəhbərliyi iştirak etmişdir. Sessiyada məlumat mübadiləsinin təkmilləşdirilməsi və mühafizəsi, terrorizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya qarşı mübarizə və s. məsələlər müzakirə edilmişdir.

İnterpolun, 2001-ci il üçün Bərabər Qiymətləndirmə Proqramı çərçivəsində təşkilatın Belçika, Fransa, Ukraynada MMB-ni təmsil edən üç nəfərdən ibarət beynəlxalq komissiya 20-22 iyun tarixdə Bakıya gəlmiş, Büronun işi ilə tanış olmuşdur. Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyəti komissiya tərəfindən çox yüksək qiymətləndirilmiş və bu barədə İnterpolun Baş Katibliyinə, AR DİN-in rəhbərliyinə xüsusi rəy göndərilmişdir.

2001-ci il ərzində İnterpolun Baş Katibliyindən təşkilatın üzvü olan ölkələrin MMB-dən və respublikamızın hüquq-mühafizə orqanlarından daxil olmuş 26600 iş icraata götürülərək aidiyyəti üzrə respublika hüquq-mühafizə orqanlarına göndərilmiş, müvafiq məlumat bazasına salınmış nəticələr barədə təşəbbüskarlara məlumat verilmişdir.

MMB-nin texniki-təminat şöbəsi fəaliyyətini kompüter texnikasının, telekommunikasiya vasitələrinin istismarı, onların müasirləşməsi, yeni proqram təminatının hazırlanması, məlumat arxivinin və tətbiqi proqramlar kitabxanasının yaradılması istiqamətində qurmuşdur.

Respublika hüquq-mühafizə orqanlarından və X-400 beynəlxalq telekommunikasiya sistemi vasitəsilə xarici həmkarlarımızdan alınan məlumatlar MMB-də istismar olunan 11 məlumat bazasına aidiyyəti üzrə daxil edilmiş, Laus və X-400 sistemi vasitəsi ilə müxtəlif ölkələrə 2185 məlumat göndərilmişdir. Bundan başqa, məlumat bazasının və kompüter şəbəkəsinin daha səmərəli istifadəsini təmin edən yeni, müasir "İnterpol Baku" proqram tə-

minatı yaradılmışdır. Bu proqramın köməyi ilə lazımi məlumatların DİN Dövlət Yol Polisi İdarəsinə və Dövlət Gömrük Komitəsinə ötürülməsi imkanı yaratmışdır. Hal-hazırda həmin məlumatlar Dövlət Yol Polisi idarəsinə modem vasitəsilə ötürülür.

MMB-nin ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsi tərəfindən təqdim edilmiş, axtarışda olan və itkin düşmüş şəxslərin siyahısı "Kontingent" məlumat bazası ilə üzləşdirilmiş və siyahıda təqdim edilmiş 245 şəxsdən 124 nəfəri bazadan keçməmişdir.

30-cu Avropa Regional Konfransında müzakirə olunmuş məsələlərdən biri ATLAS telekommunikasiya sisteminin MMB-də tətbiq edilməsi məqsədilə, yeni 850 MHZ pentium III tipli fayl server alınmış, quraşdırılmışdır.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-si 2002-ci il tarixdə öz xidməti fəaliyyətini bütün normativ-hüquqi sənədlər üzrə, ölkə Prezidentinin 30.06.2001-ci il tarixli 518 saylı fərmanı və İnterpolun Baş katibliyinin tövsiyəsi əsasında hazırlanmış funksional vəzifələrə uyğun olaraq qurmuş, kriminal xarakterli məlumatların təhlili əsasında xidməti fəaliyyətin təkmilləşdirilməsi, nəzarət və tələbkarlığın artırılması istiqamətləri müəyyən edilmişdir. İl ərzində mütəmadi olaraq MMB-nin əməliyyat müşavirələri keçirilmiş, DİN-dən və İnterpolun Baş Katibliyindən daxil olan direktiv sənədlər dərindən öyrənilmişdir.

AŞ və İnterpolun Baş Katibliyi xətti ilə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışdır. Respublikamızda beynəlxalq cinayətkarlığa qarşı mübarizə üzrə statistik göstəricilər, narkotik maddələrin və psixotrop vasitələrin qanunsuz dövriyyəsi, saxta pulların hazırlanması və dövriyyəyə buraxılması və s. barədə illik statistik məlumatlar hazırlanmış və İnterpolun Baş Katibliyinə göndərilmişdir.

Xarici ölkələrin İnterpolun MMB-nə yeni qanun layihəsinin hazırlanması və məlumat xarakterli sorğular əsasında respublikamızın aidiyyəti orqanlarına müraciətlər göndərilmiş, təşəbbüskarlar müvafiq olaraq məlumatlandırılmışlar.

Hesabat dövründə xarici ölkələrin və respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş tapşırıqlar əsasında cinayət işlərinin tədqiqi və açılması, həmçinin bir sıra materialların yoxlanması üçün informasiya mübadiləsi təmin edilmişdir.

2002-ci il ərzində İnterpolun Baş Katibliyindən təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikamızın hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan daxil olmuş 32500 sorğu və məlumat icraata götürülərək

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2001-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 1, 2, 9.

aidiyyəti üzrə respublika hüquq-mühafizə orqanlarına, İnterpolun üzvü olan ölkələrə göndərilmiş, müvafiq məlumat bazasına salınmış və nəticələr barədə təşəbbüskarlara məlumat verilmişdir.

2002-ci ildə xarici ölkələrdə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 1205 nəfər şəxsin identifikasiyası ilə bağlı sorğular daxil olmuşdur (Türkiyə – 250, Rusiya – 34, İran İslam Respublikası – 12, Ukrayna – 9, Çexiya – 8). Təhlil göstərir ki, bu şəxslər əsasən pasport rejiminin pozulması (79), dələduzluq (53), oğurluq (56), ağır cinayətlər (37), fahişəlik (39), qaçaqmalçılıq (81), və s. cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Hesabat dövrü ərzində Baş Katibliyin məlumat bazasından kriminal qeydiyyatda olan, yoxlanılması məqsədi ilə respublikanın polis orqanlarından daxil olmuş 1 sorğu (1 nəfər faizlə) icra edilmiş və təşəbbüskara cavab verilmişdir. Bundan əlavə, İ.Z.Yaqubovun adına yazılmış Bakı şəhəri 190 saylı texniki peşə məktəbindən verilmiş diplomun qanuniliyinin yoxlanılması məqsədi ilə Yerusəlim İnterpolun MMB-dən daxil olmuş sorğu əsasında həmin diplomun surəti Azərbaycan Respublikası Təhsil Nazirliyinə təqdim olunmuş, onun qanunsuz olduğu aşkar edilmişdir. İnterpolun üzvü olan ölkələrdən kriminal xarakterli məlumat alınması məqsədilə MMB-yə, ümumiyyətlə 434 şəxs barəsində sorğu daxil olmuşdur. Həmin şəxslər müvafiq uçotlardan yoxlanılaraq, nəticələri barədə təşəbbüskarlara məlumat verilmişdir.

2002-ci il ərzində Azərbaycan Respublikasında Texniki-təminat şöbəsinin fəaliyyəti kompüter texnikasının, telekommunikasiya vasitələrinin istismarı, onların müasirləşdirilməsi, yeni proqram təminatları hazırlanması, məlumat arxivinin və tətbiqi proqramlar kitabxanasının yaradılması istiqamətində qurulmuşdur.

Hesabat dövrü ərzində cari proqram təminatının təkmilləşdirilməsi, MMB-də istifadə olunan rabitə və kommunikasiya kanalları vasitəsilə daxil olan məlumatların istismar edilən bazalara daxil edilməsi, lazımi düzəlişlər, əlavələr olunması, yeni məlumat bazalarının yaradılması, kompüter texnikasına profilaktik tədbirlər görülməsi üzrə müəyyən işlər görülmüşdür. Respublika hüquq-mühafizə orqanlarından, Laus və X-400 beynəlxalq telekommunikasiya sistemi vasitəsilə İnterpolun üzvü olan ölkələrin MMB-lərinin əməkdaşlarından alınan məlumatlar MMB-də istismar olunan məlumat bazasına aidiyyəti üzrə daxil olmuş, Laus və X-400 sistemi vasitəsilə müxtəlif ölkələrə 12774 məlumat göndərilmişdir. Bundan əlavə, məlumat bazasının və kompüter şəbəkəsinin daha səmərəli istifadəsini təmin edən yeni, müasir, yuxarıda qeyd etdiyimiz kimi, "İnterpol-Baku" proqram təminatı yaradılmışdır. Bu proqramın köməyi ilə lazımi məlumatların DİN Dövlət Yol Polisi İdarəsinə (DYPİ) və Dövlət Gömrük Komitəsinə ötürülməsi imkanı yaranmışdır.

2002-ci ildən etibarən istifadəsi nəzərdə tutulan ATLAS proyektinin son nöqtədə Baş Katiblik tərəfindən məqsədəuyğun hesab edilmiş həmin tarixi dövrdə internetdə şərti qapalı qruplar əsasında İnterpolun Qlobal Kommunikasiya sistemi (İQCS-24/7) adlanan və məlumatların ötürülüb alınmasını təmin edən yeni proyektə baxılırdı. Bununla əlaqədar, MMB-nin texniki-təminat şöbəsi bir neçə proyekt və təkliflərin analizini aparmış və internet texnologiyası əsasında qurulacaq Lokal şəbəkə vasitəsilə istifadəçilərin məlumat bazasına birbaşa çıxışı təmin edən sxemi daha faydalı hesab etmişdir. Həmin sxemin tətbiqi üçün lazım olan kompüter texnikasının, telekommunikasiya və rabitə vasitələrinin siyahısını hazırlamış və Norveç hökumətinə təqdim etmişdir. Məlum olduğu kimi, Norveç hökuməti tərəfindən Azərbaycan Respublikasında İnterpolun MMB-də kompüter texnikasının müasirləşdirilməsi, müvafiq rabitə vasitələrinin və avadanlıqların alınması üçün 100 000 ABŞ dolları həcmində təmənnasız yardım göstərilməsi nəzərdə tutulmuşdur. Təqdim olunmuş həmin siyahı əsasında 44 ədəd pentium 4 15 MHZ tipli kompüter və Lokal şəbəkə üçün lazım olan digər avadanlıqlar alınıb quraşdırılmışdır.

MMB-də alınan 17 məlumat bazasında axtarışda olan cinayətkarlar, itkin düşmüş şəxslər, oğurlanmış mədəni sərvətlər, silah, sənədlər, saxta pullar, respublikamızda və xaricdə axtarışda olan avtonəqliyyat vasitələri və s. sahələr üzrə 914 295 məlumat toplamışlar.[1]

2003-cü ildə Azərbaycan Respublikasında İnterpolun MMB-si öz xidməti fəaliyyətini İnterpolun nizamnaməsi, o cümlədən DİN-in 1/04//2003-cü il tarixli 131 saylı əmri ilə təsdiq olunmuş Azərbaycan Respublikasında İnterpolun MMB-nin yeni əsasnaməsi, Azərbaycan Respublikası Prezidentinin 30/06/2001-ci il tarixli 5/8 saylı fərmanı ilə təsdiq edilmiş DİN-in əsasnaməsi, Azərbaycan Respublikasının qanunları, habelə polisin fəaliyyətini tənzimləyən bir sıra qanunvericilik aktları, o cümlədən polis haqqında əməliyyat-axtarış fəaliyyəti haqqında qanunları, DİN-in normativ sənədləri və İnterpolun Baş Katibliyinin tövsiyələri əsasında hazırlanmış funksional vasitələrə uyğun olaraq qurmuş, DİN-in təşkilati tədbirlər planında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində, qanunçuluğun təmin edilməsi, cinayətlərin açılmasına yönəlmiş əməliyyat və istintaq tapşırıqlarının icra edilməsi, ümumi cinayətkarlığa qarşı mübarizədə beynəlxalq polis əməkdaşlığının həyata keçirilməsi sahəsində müntəzəm olaraq fəaliyyət göstərmişdir. MMB-nin 2003-cü ilin hər bir rübü ərzində xidməti fəaliyyətinin yekunları əməliyyat müşavirəsində geniş müzakirə olunmuş, aparılan təhlillər əsasında xidməti fəaliyyətin təkmilləşdirilməsi, nəzarət və tələbkarlığın artırılması

[1] Azərbaycan Respublikasında MMB-nin cari arxivi. MMB-nin 2002-ci il üçün xidməti fəaliyyətinə dair arayış, s. 1, 3, 5, 6.

istiqamətləri müəyyən edilmişdir. MMB-nin əməliyyat müşavirəsində DİN-in Baş Katiblikdən daxil olan direktiv sənədləri dərindən öyrənilmişdir.

2003-cü ildə MMB-yə 19062 sənəd daxil olmuş və icraata qəbul olunmuşdur. Eyni zamanda MMB tərəfindən 4711 sənəd göndərilmişdir.

2003-cü ildə MMB-nun qarşısında duran vəzifələrin yerinə yetirilməsi, cinayətkarlıqla mübarizədə respublikanın hüquq-mühafizə orqanları ilə İnterpolun üzvü olan dövlətlərin müvafiq orqanları arasında hərəkətli və operativ əməkdaşlığın təmin olunması ölkəmizdə cinayətin müxtəlif növləri ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlərin daha da təkmilləşdirilməsi üçün, dünya dövlətlərinin qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə mətbuat mübadiləsinə xüsusi diqqət yetirilmişdir.

2003-cü il ərzində İnterpolun üzvü olan dövlətlərdə törədilmiş cinayətlərin, onların növləri və sayı, açılma faizi, bu əməllərə görə məsuliyyətə cəlb olunmuş şəxslər, o cümlədən yetkinlik yaşına çatmayan şəxslər və s. barədə üzv dövlətlərin MMB-dən daxil olmuş statistik məlumatların müqayisə və təhlillərinin aparılması üçün, müvafiq orqanlara təqdim olunmuş və eyni zamanda respublikamızla bağlı statistik göstəricilər, xarici həmkarlara və o cümlədən İnterpolun Baş Katibinə göndərilmişdir.

2003-cü il tarixi dövründə ölkəmizdə cinayətkarlığın növləri, xüsusilə terrorçuluq və narkotiklərin qanunsuz dövriyyəsi kimi, aktual mənfi təzahürlərlə mübarizənin daha da gücləndirilməsi məqsədi ilə, DİN tərəfindən tətbiq olunan müvafiq tədbirlər planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində MMB-də müəyyən işlər görülmüş və bu işlər barədə DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi və Baş Narkotiklərlə Mübarizə İdarəsi məlumatlandırılmışdır.

2003-cü ildə müvafiq aktual məsələlərin müzakirə olunması, təcrübə və məlumat mübadiləsi, təmin olunması məqsədi ilə AŞ və İnterpol tərəfindən müxtəlif mövzular üzrə təşkil olunan konfranslar, işçi dövrlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışlar.

Eyni zamanda Azərbaycan Respublikasında İnterpolun MMB-nin öz əməkdaşları İnterpol çərçivəsində müxtəlif beynəlxalq formalarda, konfranslarda, seminarlarda iştirak etmişlər.

29 sentyabr – 2 oktyabr tarixində İnterpolun Baş Assambleyasının Benidorm şəhərində keçirilən 72-ci sessiyasında MMB-nin rəhbərliyi iştirak etmişdir.

2003-cü ildə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 1096 şəxsin identifikasiyası ilə bağlı sorğu daxil olmuşdur. (Türkiyə – 45, Rusiya – 28, İran İslam Respublikası – 19, Ukrayna – 16, Bratislava – 8 və s.). Bunlardan 285 nəfəri Azərbaycan vətəndaşıdır. Təhlil göstərir ki, bu şəxslər əsasən qaçaqmalçılıq (58), pasport rejiminin pozulması (27), oğurluq (26), pasport

saxtalaşdırılması (76), fahişəlik (15), dələduzluq (7), ağır cinayətlər (15) və s. cinayət faktları üzrə məsuliyyətə cəlb olunmuşlar.[1]

Cənab Ramil Usubov 2003-cü il may ayının 1-də İnterpolun Baş katibi R.Noblu qəbul etmişdir. Görüş zamanı cənab Ramil Usubov qeyd etmişdir ki, on iki ilə yaxındır ki, müstəqillik tarixi ərzində dünya birliyinə inteqrasiya edən gənc respublikamız suveren və hüquqi dövlət kimi demokratik prinsiplərə riayət edir, bütün sahələr, o cümlədən insan hüquqlarının təmini və cinayətkarlıqla mübarizədə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirən Azərbaycan Respublikası demək olar ki, bütün beynəlxalq institutların, o cümlədən İnterpolun tam və bərabərhüquqlu üzvüdür və görülən işlərdə fəal iştirak edir.

Baş katib rəhbərlik etdiyiniz təşkilatın sahələrində iştirakımıza xüsusi əhəmiyyət verərək, qanunçuluğun tələblərinə İnterpolun Nizamnaməsinin və Azərbaycanın üzv olduğu BMT-nin və AŞ-nin qəbul etdikləri beynəlxalq hüquqi aktların müddəalarına uyğun olaraq, geniş beynəlxalq polis əməkdaşlığını ürəkdən dəstəkləyirik.

Keçid dövrünün çətinliklərinə, ərazimizin 20%-nin Ermənistan tərəfindən işğalına və bu səbəbdən ölkənin 1 milyona yaxın köçkün və qaçqın olmasına baxmayaraq, Azərbaycanda AŞ-nin müəyyən etdiyi normalara uyğun hüquqi-məhkəmə islahatları aparılmış, yeni cinayət və cinayət prosessual qanunvericilik aktları qəbul olunmuş, ölüm cəzası ləğv edilmiş, işgəncələrin ləğv olunması, ekstradisiya, hüquqi yardım barədə və digər beynəlxalq hüquqi sahələrdə konvensiyalar ratifikasiya olunmuşdur.

Cənab Ramil Usubov İnterpolun Baş katibi R.Nobla müraciət edərək, vacib olan bir sıra məsələlər və onların həlli yolları ilə bağlı məsləhətləşmələr aparmaq istədiyini bildirmişdir. Məlumdur ki, İnterpolun Baş Katibliyi tərəfindən İnterpolun üzvü olan ölkələrə ağır və təhlükəli cinayətlər törətmiş şəxslər barədə "qırmızı istiqamətləndirmələr" göndərilir. Analoji istiqamətləndirmələr Azərbaycanın təşəbbüsü ilə də yayımlanmışdır. Buna baxmayaraq, bizə məlum olan faktlara əsasən deyə bilərik ki, axtarış elan olunmuş bu qəbildən olan şəxslər bir çox ölkələrə maneəsiz səfərlər edərək mətbuat konfransı keçirir. Məsuliyyətsiz bəyanatlar verir, özlərinin gizlənmədiklərini, əksinə, bır sıra dövlətlərin ərazisinə çəkinmədən və sərbəst gəlmələrini açıq-aşkar nümayiş etdirirlər.

Sərhəd və miqrasiya orqanları, həmçinin, İnterpolun müvafiq bölmələri bu axtarılan şəxsləri yoxlamaq, həbs etmək əvəzinə, heç bir tədbir görmür, hətta onların yerləri barədə də bizi məlumatlandırmırlar. Bəziləri isə bizim sorğularımıza ümumiyyətlə cavab vermirlər. Etiraf edim ki, belə hallar ən

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2003-cü ilin xidməti fəaliyyətinə dair arayış, s.1,2,4.

azı anlaşılmazlıq doğurur və bizi heyrətləndirir. İnterpolun müsbət imicinə xələl gətirir. Mənim üçün çətin olsa da, deməliyəm ki, qeyd olunan xoşagəlməz vəziyyət istiqamətləndirmələrin verilməsini formal və lüzumsuz edir, bu yönümdə fəaliyyətin davam etdirilməsinin məqsədə müvafiqliyini sual altında qoyur. Sözlərimə təsdiq olaraq, mən kifayət qədər misal göstərə bilərəm.

Bizi narahat edən vacib məsələlər sırasında 1994-cü ildə Bakı Metropolitenində baş vermiş terror aktlarından biri də iyunun 3-də (martın 19-da da belə hadisə olmuşdur) partlayış nəticəsində 13 nəfərin ölümü və 42 insanın yaralanması ilə bağlı cinayətin təşkilatçısı ölkəmiz tərəfindən beynəlxalq axtarışda elan olunmuş Z.Balayandır.

Onun barəsində "qırmızı istiqamətləndirmə" ilə yayımlanmış beynəlxalq axtarışın elan olunmasına baxmayaraq, sonradan Baş Katiblik tərəfindən bizim niyyətimizdə guya siyasi motivlərin olduğu göstərilərək, həmin istiqamətləndirilmə ləğv edilmişdir. Baş Katibliyin sorğusuna əsasən, tərəfimizdən dəfələrlə əlavə prosessual və icraedici sənətlərin təqdim olunmasına baxmayaraq, sözü gedən məsələ öz müsbət həllini tapmamışdır.

Bildiyiniz kimi, terrorizmlə mübarizənin gücləndiyini, beynəlxalq aləmin bu yönümdə getdikcə daha da birlik nümayiş etdirdiyini görən terrorçular son vaxtlar praktiki surətdə öz cinayətkar əməllərinə siyasi, dini və irqi don geyindirməyə, bununla da törətdikləri cinayətlərə haqq qazandırmağa çalışırlar. Məsələn, 11 sentyabr 2001-ci ildə Nyu-York şəhərində baş vermiş terror aktlarından sonra, beynəlxalq terrorçuların müvafiq bəyanatlarında əks olunan motivlər buna sübutdur. Bu baxımdan, günün reallıqları, terrorizmlə mübarizədə ümumbəşəri maraqlar nəzərə alınaraq, İnterpolun nizamnaməsinin 3-cü maddəsinə diferensial yanaşmasına, potensial cinayətkarların, terrorçuların bundan sui-istifadə edərək pərdələnmələrinin qarşısının alınması üçün onun yenidən redaktə olunmasına zərurət yaranmışdır.

Azərbaycan Respublikası da terrorçuluq əleyhinə koalisiyaya qoşulmuşdur. Bir çox dünya ölkələri kimi biz də Usama Ben Ladenin və onun terrorçu silahdaşlarının, ümumiyyətlə, hər cür terrorçunun axtarışında iştirak etmişik və onların zərərsizləşdirilməsində fəal rolumuz olmuşdur. Əfqanıstan, İraq və Kosovoda koalisiya qüvvələrinin tərkibində olmuşuq və hal-hazırda da fəaliyyət göstəririk. Azərbaycan tərəfi bunu özünün milli, bəşəri və insanlıq borcu hesab edir".[1]

Azərbaycan Respublikasında MMB-nin 2004-cü ildəki fəaliyyətinə nəzər saldıqda aşağıdakı rəqəmlər və faktları qeyd edək. 2004-cü il ərzində

[1] Azərbaycan Respublikası DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2003, 1 may, №16(2696).

MMB-yə İnterpolun Baş Katibliyindən, təşkilat üzvü olan ölkələrin MMB-dən, Respublikamızın hüquq-mühafizə orqanlarından və vətəndaşlardan 6514 sənəd, 160 əmr və göstərişlər, 26 ərizə daxil olmuş və icraata verilmişdir. Eyni zamanda MMB tərəfindən 5240 sənəd göndərilmişdir.

Azərbaycan Respublikası Daxili İşlər orqanlarının fəaliyyəti ilə bağlı, Azərbaycan Respublikası prezidenti İlham Əliyevin 30.06.2004-cü il tarixdə imzaladığı fərman və sərəncamlar elan olunmaqla yanaşı, tərtib olunmuş tədbirlər planı əsasında, onların diqqət və qayğıkeşlik ruhu Daxili İşlər orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi və səmərəsinin artırılması işindəki əvəzsiz rolu geniş şərh edilmişdir. Müvafiq göstərişlərə, tələblərə uyğun olaraq, görülmüş işlər barədə ilin yekununda 07.10.2004-cü il tarixli 20/3963 №-li və 22.12.2004-cü il tarixli 20/5084 №-li "Azərbaycan Respublikasında "Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" ölkə başçısı İlham Əliyevin Dövlət proqramı (2004-2008-ci illər) haqqında ARDİN-in 07.04.2004-cü il tarixli 292 №-li əmrinin tələblərinin yerinə yetirilməsi üzrə tədbirlər planı tərtib olunaraq, icrası təmin olunmuşdur. Bu tədbirlər planının 9-cu bəndinin icrası ilə əlaqədar, 2005-ci ildə İnterpol kanalları ilə keçiriləcək bir sıra tədbirlərin də MMB-nin əməkdaşlarının iştirakı ilə proqnozlaşdırılmış və müvafiq məlumatlar əmrin tələblərinə uyğun olaraq DİN Baş Cinayət Axtarış İdarəsinə (BCAİ), 09.12.2004-cü il tarixli 20/4955 №-li və Baş İctimai Təhlükəsizlik İdarəsinə (BİTİ) 20.12.2004-cü il tarixli 20/5078 №li məktublar təqdim olunmuşdur. Həmçinin 10-cu bəndin icrası ilə əlaqədar, Azərbaycan Respublikasında İnterpolun MMB-nin bir əməkdaşının İnterpolun Baş Katibliyində fəaliyyət göstərən antiterror qrupunda təmsil olunması məqsədilə, İnterpolun Baş Katibliyi ilə DİN-in rəhbərliyi tərəfindən həmin qrupa ezam olunması üçün namizədliyi irəli sürülən əməkdaş barəsində məlumatlar İnterpolun Baş Katibliyinə göndərilmişdir.

2004-cü ildə MMB-nin qarşısında duran vəzifələrin yerinə yetirilməsində cinayətkarlıqla mübarizədə respublikamızın hüquq-mühafizə orqanları ilə İnterpolun üzvü olan dövlətlərin müvafiq orqanları arasında hərtərəfli və operativ əməkdaşlığın təmin olunması, ölkəmizdə cinayətin müxtəlif növləri ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlərin daha da təkmilləşdirilməsi üçün dünya dövlətlərinin qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə, məlumat mübadiləsinə xüsusi diqqət yetirilmişdir. 2004-cü ildə İnterpolun üzvü olan dövlətlərdə törədilmiş cinayətlər, onların növləri və sayı, açılma faizi, bu əməllərə görə cəlb olunmuş şəxslər, o cümlədən yetkinlik yaşına çatmayan şəxslər və s. barədə üzv dövlətlərin MMB-lərindən daxil olmuş statistik məlumatlar müqayisə və təhlillərin aparılması üçün müvafiq orqanlara təqdim olunmuş və eyni zamanda respublikamızla bağlı statistik göstəricilər xarici həmkarlarımıza və o cümlədən İnterpolun Baş Katibliyinə göndərilmişdir.

Ölkəmizdə cinayətlərin müxtəlif növləri, xüsusilə terrorçuluq və narkotiklərin qanunsuz dövriyyəsi kimi aktual mənfi təzahürlərlə mübarizənin daha da gücləndirilməsi məqsədilə, DİN-in tədbirlər planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlər Baş İctimai Təhlükəsizlik İdarəsinə və Baş Narkotiklərlə Mübarizə İdarəsinə arayışlar tərtib olunaraq göndərilmişdir.

Cinayətkarlıqla mübarizədə dünya dövlətlərinin təcrübəsinin öyrənilməsi və müvafiq məlumatların respublikamızın hüquq-mühafizə orqanlarına təqdim olunması istiqamətində fəaliyyət davam etdirilmişdir.

Transmilli cinayətkarlıq və terrorçuluqla mübarizənin gücləndirilməsi və bu mübarizənin səmərəliliyinin artırılması məqsədilə, İnterpolun Baş Katibliyi tərəfindən üzv dövlətlərə oğurlanmış və ya itirilmiş yol sənədləri ilə bağlı məlumat bazasının yaradılması və bu bazanın mütəmadi olaraq İnterpolun Baş Katibliyinə ötürülməsi və o cümlədən oğurlanmış yol sənədləri ilə bağlı Baş Katibliyin özündə fəaliyyət göstərən məlumat bazasından istifadənin genişləndirilməsi tövsiyə olunmuşdur. Bu tövsiyə əsasında təklif hazırlanaraq DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə təqdim olunmuşdur. ARDİN-də də bu məqsədlə məlumat bazası yaradılmışdır.

ARDİN sistemində qabaqcıl Dünya və Avropa dövlətlərinin təcrübəsini tətbiq etmək məqsədi ilə bir sıra ölkələrdə İnterpolun MMB-lərinə müraciət olunmuş və Türkiyədən, İsveçdən, İngiltərədən, Almaniyadan alınmış müvafiq məlumatlar DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə təqdim olunmuşdur.

Həmçinin Azərbaycan Respublikasında İnterpolun MMB-nə Baş İdarə səlahiyyətinin verilməsi ilə əlaqədar büronun fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə, bir sıra ölkələrin qabaqcıl təcrübəsini tətbiq etmək üçün həmin ölkələrdə İnterpolun MMB-lərinə müraciət edilmiş və alınmış müvafiq materiallardan geniş istifadə olunmuşdur.

DİN-in Narkotiklərlə Mübarizə İdarəsinə Baş İdarə strukturunun verilməsi ilə əlaqədar yeni struktur islahatların aparılması və bu sahədə qabaqcıl dünya dövlətlərinin təcrübəsinin öyrənilərək tətbiq olunması zərurətini nəzərə alaraq, DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsindən daxil olmuş məktub əsasında Almaniya, İtaliya, İspaniya, Kolumbiya və Tayvanda İnterpolun MMB-lərinə müvafiq sorğular göndərilmişdir. Diplomatik nümayəndəliklərin mühafizəsinin təşkili və fövqəladə vəziyyət zamanı polis orqanlarının qarşısında duran vəzifələr və onların yerinə yetirilməsi sahəsində Türkiyə, Almaniya, Fransa, İtaliya və Qazaxıstan dövlətlərində tətbiq olunan təcrübənin öyrənilməsi ilə bağlı ARDİN-in Baş İctimai Təhlükəsizlik İdarəsindən daxil olmuş sorğu əsasında həmin ölkələrin MMB-lərinə müraciət olunmuş və alınan cavablar təşəbbüskara təqdim olunmuşdur.

Müxtəlif aktual məsələlərin müzakirə olunması, təcrübə və məlumat mübadiləsinin təmin olunması məqsədilə, İnterpol çərçivəsində də müxtəlif mövzular üzrə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışlar. Hesabat dövrü ərzində İnterpol çərçivəsində təşkil olunan 34 konfrans, seminar, təlim kursu və digər görüşlər barədə müvafiq strukturlar məlumatlandırılmışlar.

23-25 mart 2004-cü il tarixdə Ukrayna Respublikasının Kiyev şəhərində keçirilən İnterpolun 33-cü Avropa Regional Konfransında Azərbaycan Respublikasında İnterpolun MMB-nin nümayəndələri iştirak etmişlər.

13-14 sentyabr 2004-cü il tarixdə Fransanın Lion şəhərində İnterpolun Baş Katibliyində İnterpolun I-24/7 kommunikasiya sistemi ilə bağlı, İstifadəçilərin Məşvərətçi Qrupunun (İMQ) 3-cü işçi görüşündə Azərbaycanda İnterpolun MMB-nun Texniki-təminat şöbəsinin rəisi və əməkdaşları iştirak etmişlər.

2004-cü il ərzində İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan daxil olmuş 4820 sorğu və məlumat icraata götürülərək aidiyyəti üzrə respublika hüquq-mühafizə orqanlarına, İnterpolun üzvü olan ölkələrə göndərilmiş, müvafiq məlumat bazasına salınmış və nəticələr barədə təşəbbüskarlara məlumat verilmişdir.

Xarici ölkələrdə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 793 nəfər şəxsin identifikasiyası ilə bağlı sorğular daxil olmuşdur (Ankarada 215, Moskvada 341 nəfəri Azərbaycan vətəndaşıdır). Təhlil göstərir ki, bu şəxslər əsasən qaçaqmalçılıq (80), pasport rejiminin pozulması (51), oğurluq (48), dələduzluq (45), fahişəlik (16), ağır cinayətlər (12) və s. cinayət faktları üzrə məsuliyyətə cəlb olunmuşlar.

İnterpolun üzvü olan ölkələrdən kriminal xarakterli məlumat alınması məqsədilə MMB-yə ümumiyyətlə 179 şəxs barəsində sorğu daxil olmuşdur. Həmin şəxslər mövcud uçotlardan yoxlanılaraq, nəticələri barədə təşəbbüskara cavab verilmişdir.

MMB-nin Texniki-təminat şöbəsinin əməkdaşları məlumat texnologiyasının müasir nailiyyətlərini tətbiq etmək məqsədilə, mövcud imkanlardan istifadə edərək, müəyyən müsbət işlər yerinə yetirmişlər.

Fransanın Lion şəhərində yerləşən İnterpolun Baş Katibliyi və Azərbaycanda İnterpolun MMB-nin arasında informasiya mübadiləsi üçün istifadə olunan internetdə şərti qapalı şəbəkə (VPN) standartı əsasında, İnterpolun Qlobal Kommunikasiya Sistemi (IGCS-24/7) adlanan, məlumatların ötürülüb-alınması kanalında “Azərin” İnternet provayderinin köməyi ilə profilaktik işlər aparılmış və nəticədə məlumatların ötürülüb-alınması surətini 64/C/9 kimi çatdırmaq mümkün olmuşdur. Eyni zamanda həmin VPN rabitə kanalının təhlükəsizliyi artmışdır.

İnformasiya mübadiləsinin həcminə gəldikdə isə, aşağıdakı məlumatları göstərmək olar:

Baş Katiblik və digər ölkələrdən daxil olub – 28312 məlumat;

Baş Katiblik və digər MMB-lərə göndərilib – 1594 məlumat;

Faks – 152 məlumat.

Baş Katiblik və digər MMB-lərdən, Azərbaycan hüquq-mühafizə orqanlarından daxil olan bir sıra məlumatlar müvafiq olaraq Azərbaycan vətəndaşlarının şəxsiyyətinin müəyyən olunması "ST-message" və avtomobillərin axtarış bazasına daxil edilmişdir.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2005-ci il tarixi dövründə olan fəaliyyətinə diqqət yetirərkən məlum olur ki, MMB ümumi cinayətkarlığa qarşı mübarizədə beynəlxalq polis əməkdaşlığının həyata keçirilməsi sahəsində müntəzəm olaraq fəaliyyət göstərmişdir. 2005-ci il tarixdə MMB-yə İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-lərdən, respublikanın hüquq-mühafizə orqanlarından və vətəndaşlardan 6333 sənəd, 181 əmr və göstərişlər daxil olmuş və icraata qəbul olunmuş, MMB tərəfindən 6597 sənəd göndərilmişdir.

"Azərbaycan Respublikasında Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı"nın (2004-2008-ci illər) icrasının təmin edilməsi haqqında ARDİN-in 17.07.2004-cü il tarixli 292 №-li əmrinin tələblərinin yerinə yetirilməsi üzrə tədbirlər planına müvafiq olaraq, 9-cu bəndin icrası ilə əlaqədar, 2006-cı ildə İnterpolun kanalları ilə keçiriləcək bir sıra tədbirlərdə MMB-nin əməkdaşlarının iştirakı proqramlaşdırılmış və müvafiq məlumatlar əmrin tələblərinə uyğun olaraq, DİN-in Baş Cinayət-Axtarış İdarəsinə təqdim olunmuşdur.

Azərbaycan Respublikasında İnterpolun MMB-lərin vasitəsilə, İnterpolun Baş Katibliyinin məlumat bazasına qoşularaq, DİN qurumlarının və onların sayının müəyyənləşdirilməsi məqsədilə, İnterpolun Baş Katibliyinin məlumat bazasının siyahısı və onlar barədə məlumatlar, həmçinin məlumat bazalarında istifadə zamanı Baş Katiblik tərəfindən qaldırılan təhlükəsizlik tədbirləri, virus əleyhinə müdafiə vasitələri, icazəsiz daxilolma hallarının qarşısının alınması, təlim məsələləri barədə məlumatlar DİN-in müvafiq qurumlarına təqdim olunmuşdur. Görülən işlər barədə müvafiq qaydada DİN-in rəhbərliyinə məruzə edilmişdir.

İnterpolun üzvü olan dövlətlərdə 2004-cü il ərzində törədilmiş cinayət, onların növləri və sayı, açılma faizi, bu əməllərə görə məsuliyyətə cəlb olunmuş şəxslər, o cümlədən yetkinlik yaşına çatmayan şəxslər və s. barədə

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s. 1-3,6,13-14.

üzv dövlətlərin (Türkiyə, Kanada, Makedoniya, Qazaxıstan, Ermənistan, Belorus, Bolqarıstan, Bosniya və Herseqovina, Hindistan, RF, Finlandiya, Çex Respublikası, Çin, Sloveniya) MMB-lərindən daxil olmuş statistik məlumatlar müqayisə və təhlillərin aparılması üçün DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinə (BƏSİİ) təqdim olunmuşdur. Həmçinin 2005-ci il ərzində Azərbaycan Respublikası və onun paytaxtı Bakı şəhərində törədilən cinayətlər barədə statistik məlumatlar İnterpolun Baş Katibliyi və üzv dövlətlərə yayımlanmışdır.

Ölkəmizdə cinayətlərin müxtəlif növləri xüsusilə terrorçuluq və narkotiklərin qanunsuz dövriyyəsi kimi aktual mənfi təzahürlərlə mübarizənin daha da gücləndirilməsi məqsədilə tətbiq olunan müvafiq tədbirlər planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülmüş işlər barədə DİN-in Baş Təhlükəsizlik İnspeksiya İdarəsinə və Baş Narkotiklərlə Mübarizə İdarəsinə arayışlar təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15.07.2000-ci il tarixli 371№li Fərmanı ilə təsdiq edilmiş “2006-cı ilədək narkotik vasitələr, psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomaniyanın yayılması ilə mübarizə üzrə ümumi proqram”ın yerinə yetirilməsi istiqamətində DİN-in 14.08.2000-ci il tarixində təsdiq olunmuş tədbirlər planının icrasına dair DİN-in 14.08.2000-ci il tarixli 36 №li əmri, avtonəqliyyat vasitələrinin oğurlanmış və itirilmiş texniki pasportları və sürücülük vəsiqələri xüsusi EDİSOL formatında hazırlanaraq İnterpolun Baş Katibliyinə göndərilmişdir.

ARDİN sistemində qabaqcıl dünya və Avropa dövlətlərinin təcrübəsini təsdiq etmək məqsədilə, struktur dəyişikliyinin və islahatlarının aparılması məqsədilə bir sıra ölkələrdə İnterpolun MMB-lərinə müraciət olunmuş və Türkiyədən, İsveçdən, Almaniyadan, İtaliyadan alınmış müvafiq məlumatlar DİN-in BTİİ-yə təqdim olunmuşdur.

ARDİN-in narkotiklərlə mühazirə İdarəsinə Baş İdarə statusunun verilməsi ilə əlaqədar yeni struktur islahatların aparılması və bu sahədə qabaqcıl dünya dövlətlərinin təcrübəsini öyrənərək, tətbiq olunma zərurəti nəzərə alınaraq DİN-nin Baş Narkotiklərlə Mübarizə idarəsindən daxil olmuş məktub əsasında Avstriya, İtaliya, İspaniya, Kolumbiya və Tayvanda İnterpolun MMB-lərinə müvafiq sorğular göndərilmiş və alınan cavablar DİN-nin Baş NMİ-yə təqdim olunmuşdur.

Qadın alveri ilə mübarizə üzrə qanunvericilik və müvafiq orqanların strukturu və fəaliyyəti iə bağlı dünya dövlətlərinin qabaqcıl təcrübəsinin öyrənilməsi və tədqiq edilməsi məqsədilə Almaniyada, Avstriyada, Fransada, Türkiyədə, Ukraynada və Rusiya Federasiyasında İnterpolun MMB-lərinə müvafiq sorğular göndərilmiş və alınan cavablar DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİN), Baş Cinayət Axtarış İdarəsi-

nə, Baş Təhlükəsizlik İdarəsi və Milli Təhlükəsizlik İdarəsinə göndərilmişdir.

Bundan başqa 2005-ci il tarixində Azərbaycan Respublikasında İnterpolun MMB-si Beynəlxalq təcrübədə futbol oyunları zamanı asayişin mühafizəsinə cəlb olunmuş futbol federasiyası ilə polis orqanları arasında təhlükəsizlik məsələlərinin təqdim olunmasına dair müqavilələrin bağlanması təcrübəsi və qaydaları barədə DİN-nin Baş İctimai Təhlükəsizlik İdarəsindən daxil olmuş sorğu əsasında bir sıra ölkələrdə İnterpolun MMB-lərinə müraciət olunmuş və Türkiyədən, Yaponiyadan, İngiltərədən, Macarıstandan, İtaliyadan, Fransadan, Almaniyadan alınmış məlumatlar təşəbbüskara təqdim olunmuşdur. Müxtəlif aktual məsələlərin müzakirə olunması, təcrübə və məlumat mübadiləsinin təmin olunması məqsədilə İnterpol çərçivəsində, müxtəlif mövzular üzrə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan təşkilatlar məlumatlandırılmışlar. Hesabat dövrü ərzində İnterpol çərçivəsində təşkil olunan 31 konfrans və görüşlər barədə müvafiq strukturlar məlumatlandırılmışlar.

Bir neçə faktı qeyd edək, 3-4 mart 2005-ci il tarixdə Fransanın Lion şəhərində İnterpolun MMB rəhbərlərinin birillik konfransı keçirilmiş, həmin konfransda Azərbaycan Respublikası İnterpolun MMB-nin sabiq rəisi, Azərbaycan Respublikasının Milli qəhrəmanı, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev[1] iştirak etmişdir.

12-22 sentyabr 2005-ci il tarixdə Almaniyanın Berlin şəhərində İnterpolun Baş Assambleyasının 74-cü sessiyası keçirilmiş, həmin sessiyada Azərbaycan Respublikasını MMB-nin sabiq rəisi cənab Mədət Quliyev təmsil etmişdir.

25-27 may 2005-ci il tarixdə Kipr Respublikasının Nikonya şəhərində İnterpolun 34-cü Avropa Regional Konfransı keçirilmişdir. Həmin konfransda Azərbaycan Respublikasının MMB-nin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.

14 oktyabr 2005-ci il tarixdə Fransanın Lion şəhərində, İnterpolun Baş Katibliyində Avropa əlaqələndirici zabitlərinin 17-ci görüşü keçirilmişdir. Həmin görüşdə Azərbaycan Respublikasının MMB-nin Texniki-təminat şöbəsinin əməkdaşları iştirak etmişlər.

22-23 noyabr 2005-ci il tarixdə Fransanın Lion şəhərində, İnterpolun Baş Katibliyində MDB ölkələrinin MMB-ləri üçün təşkil olunan konfransda MMB-nin sabiq rəisi cənab Mədət Quliyev iştirak etmişdir.[2]

---

[1] General-polkovnik Mədət Quliyev hazırda Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsində çalışır.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2005-ci ilin xidməti fəaliyyətinə dair arayış. MMB-nin cari arxivi. s.1-2,7-8.

2005-ci il ərzində MMB-nin Texniki-təminat sahəsində fəaliyyəti kompüter texnikasının, telekommunikasiya vasitələrinin istismarı, onların müasirləşdirilməsi, yeni proqram təminatının işlənib hazırlanması, məlumat arxivinin və tətbiqi proqramlar kitabxanasının yaradılması istiqamətində qurulmuşdur. MMB-də yeni yaradılan I-24/7 sistemi üzrə MMB-nin istifadəçilərinin poçt proqramının ünvanlar bölməsində düzəlişlər və əlavələr edilmişdir. 2005-ci il ərzində I-24/7 yeni sistemi üzrə İnterpolun Baş Katibliyindən və digər MMB-lərdən 48927 informasiya vahidinin alınması və göndərilməsi təmin edilmişdir.

DİN-in 07/07/2004-cü il tarixli 292 №li "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı"-nın (2004-2008-ci illər) icrasının təmin edilməsi haqqında" əmrinin 15-ci bəndinin yerinə yetirilməsi üçün, Cənubi Qafqazda Narkotiklərə Nəzarət (SCAD) proqramının maliyyə dəstəyi ilə, 1 ədəd skaner, 1 ədəd modem alınmış və istismara verilmişdir.

2005-ci ildə respublika hüquq-mühafizə orqanları və İnterpolun üzvü olan ölkələrin müvafiq orqanları arasında əlaqələrin inkişafı sahəsində əməli işlər görülmüşdür.[1]

2006-cı ildəki bir mühüm hadisəni qeyd etmək yerinə düşərdi. 1 fevral 2006-cı il tarixində İnterpolun beynəlxalq terrorizmə qarşı mübarizə üzrə tədbiri keçirildi. Bu tədbirdə İnterpolun İctimai Təhlükəsizlik və Terrorçuluq üzrə Subdirektorluğunun və ARDİN-in birgə təşəbbüsü ilə, o cümlədən İnterpolun üzvü olan ölkələrin rəhbər və nümayəndələrinin və Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının iştirakı ilə keçirilən tədbir iki gün davam etmişdi.

Tədbirin keçirilməsində əsas məqsəd üzv dövlətlər arasında terrorçuluğa, insan alverinə, cinayətkarlığa qarşı birgə mübarizəni, axtarışda olan cinayətkarların yerinin müəyyənləşdirilməsi və həbsi sahəsində informasiya mübadiləsini genişləndirmək və möhkəmləndirmək idi.

Bu tədbirdə İnterpolun Baş Katibliyinin polis xidmətləri üzrə icraçı direktoru Lan-Mişel Subitan, Baş Katibliyin İctimai Təhlükəsizlik və Terrorçuluq Subdirektoriyasının əməkdaşları, habelə 25 dövlətin terrorçuluqla mübarizə orqanlarının və yuxarıda deyildiyi kimi, İnterpolun MMB-nin bütün əməkdaşları iştirak etmişlər.

Tədbirin əhəmiyyəti ondan ibarətdir ki, bütün dünyaya meydan oxuyan və mütəşəkkil cinayətkarlığın xüsusi təhlükəli növü hesab edilən terrorizmlə mübarizə istiqamətində bir sıra təkliflərin hazırlanmasına həsr olunmuşdur. Bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi İnterpolun Baş Ka-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Texniki-təminat şöbəsinin 2005-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 8-9.

tibliyinin Azərbaycan dövlətinə və hüquq-mühafizə orqanlarına olan etimadından irəli gəlirdi. Bildiyimiz kimi, belə bir tədbir 2005-ci ildə Qazaxıstanda keçirilibdir. Və həmin tədbirdə İnterpolun üzv dövlətlərindən yalnız 13 dövlət iştirak etmişdir. Lakin 2006-cı ildə Bakıda keçirilən tədbirdə, Azərbaycan da daxil olmaqla, 28 dövlətin 48 nümayəndəsi iştirak etmişdir. Burada əsas məqsəd İnterpola üzv dövlətlər arasında terrorizmə qarşı mübarizəni birləşdirmək, mütəşəkkil cinayətkarlıqla əlaqədar onların yerlərinin müəyyənləşdirilməsi və yaxalanması istiqamətində informasiya mübadiləsinin genişləndirilməsi sahəsində bir sıra təklifləri hazırlamaq idi.

Cənab Mədət Quliyev erməni terrorçuları tərəfindən 1992-1994-cü illər ərzində Bakı metro stansiyalarında və digər obyektlərdə törədilmiş terror aktları barədə məlumat vermişdir. O, 1994-cü ildə Bakı metropoliteninin partlayışı ilə əlaqədar Z.Balayanın adını xüsusi vurğulamış və onun həbs olunmamasının Azərbaycanın istintaq orqanları üçün problem yaratdığını qeyd etmişdir. Təəssüf ki, müşavirədə iştirak edən İnterpolun üzvü olan dövlətlərin belə bir məlumatı yox idi.

1-2 fevral 2006-cı ildə Bakı şəhərində Baş Katibliyin "Kalkan" layihəsi üzrə həyata keçirdiyi tədbir zamanı kamikadze problemi ətrafında geniş müzakirələr aparıldı. Kamikadze qadın yaxud kişilər bədənlərinə partlayıcı qurğular bağlayaraq, hansısa dövlət məmurunun yaxud dövlət başçısının həyatına qəsd edirlər. Bu, terrorun olduqca təhlükəli növüdür. Həmçinin İnterpol üçün də böyük problemdir.

İnterpolun "Kalkan" layihəsi 2004-cü ildə Qazaxıstanın Almatı şəhərində İnterpolun Baş Assambleyasının 73-cü sessiyasında İnterpolun Baş Katibliyinin təşəbbüsü ilə yaradılmışdır. Həmin layihənin üzvlərindən Azərbaycan, Rusiya, Türkmənistan, Tacikistan, Pakistan, Çin, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, İran, Türkiyə və başqa dövlətlər idi.

Yuxarıda deyildiyi kimi, əsas məqsəd Mərkəzi Asiya və qonşu regionlarda terror təşkilatları barədə dövlətlərin hüquq-mühafizə orqanları arasında informasiya mübadiləsini həyata keçirtməkdən ibarətdir.

Bundan başqa, Bakı şəhərində keçirilən müşavirədə qeyd edilmişdir ki, törədilmiş terror aktlarında iştirak etmiş cinayətkarları həmin ölkənin hüquq-mühafizə orqanları yaxalaya bilmir. İnterpolun Baş Katibliyi 184 dövlətdə həmin cinayətkarların axtarışını elan etmişdir. Lakin necə deyərlər, nə İngiltərə, nə Fransa, nə Almaniya, nə də digər dövlətlər həmin cinayətkarların öhdəsindən gələ bilmirdi. Nəhayət, Azərbaycan tranzit kimi istifadə etmək niyyəti kimi həmin cinayətkarlar bizim xüsusi xidmət orqanları tərəfindən saxlanıldı.

Bu tarixi tədbirdə erməni faşistləri tərəfindən Qarabağda törədilmiş terror aktları ətrafında müzakirələr aparıldı. Qeyd edildi ki, Azərbaycan

Respublikası Baş Prokurorluğu, İnterpolun Azərbaycan Respublikasındakı MMB-si 70-dən artıq erməni mənşəli cinayətkarın siyahısını tərtib etmişdir. Onlardan 40 nəfərin siyahısı İnterpolun Baş Katibliyinə göndərilmişdir ki, həmin cinayətkarların həbs olunması ilə əlaqədar üzv dövlətlərdə axtarış elan edilsin. Təəssüf ki, bəzi qüvvələr həmin cinayətləri hərbi cinayət kimi qələmə verməyə cəhd göstərirlər.

Yuxarıdakı fəsildə qeyd edildiyi kimi, İnterpolun nizamnaməsinin 3-cü maddəsinə görə, bu qurum siyasi, hərbi, dini və irqi cinayətkarların axtarışını həyata keçirmir. Lakin Azərbaycan Respublikasında İnterpolun MMB-si İnterpolun Baş Katibliyinə müraciət edərək, həmin erməni mənşəli cinayətkarların hərbi cinayət yox, vəhşilik törətmələrini əsaslandırmağa çalışaraq bildirmişdir ki, silahlı, əliyalın qocanı, körpəni xüsusi qəddarlıqla həyatdan məhrum edirsə, insanı doğrayırsa, burada artıq hərbi cinayətdən söhbət gedə bilməz. İnanırıq ki, yaxın vaxtlarda həmin erməni mənşəli cinayətkarlar barədə axtarış veriləcək. Bütün dünyada onların bir dövlətdən digər dövlətə keçmələri məhdudlaşdırılacaq. Nəhayət, onlar törətdikləri cinayətlərə görə gec-tez Azərbaycan ədalət mühakiməsi qarşısında cavab verməli olacaqlar.[1]

2007-ci ildə İnterpolun MMB-nin illik fəaliyyəti dövründə 7970 sənəd, əmr və göstəriş, 25 ərizə daxil olmuş və icraata qəbul edilmişdir. Azərbaycan Respublikasında "İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 28/12/2006-cı il tarixli, Respublika Prezidentinin sərəncamının icrası üzrə 05/02/2007-ci il tarixli tədbirlər planının yerinə yetirilməsi ilə bağlı görülmüş işlər barədə arayışlar DİN-in Daxili Təhlükəsizlik İdarəsinə göndərilmişdir. 2007-ci il ərzində törədilmiş cinayətlər, onların növləri və sayı, açılma faizləri, bu əməllərə görə məsuliyyətə cəlb olunmuş şəxslər və s. barədə üzv dövlətlərin MMB-dən daxil olmuş məlumatlar, müqayisə və təhlillərin aparılması, DİN-in BƏSİİ-nə təqdim olunmuşdur. Eyni zamanda 2007-ci il ərzində Azərbaycan Respublikasında və Bakı şəhərində törədilmiş cinayətlər DİN-in BƏSİİ-dən alınaraq İnterpol kanalları ilə yayımlanmışdır. Müxtəlif aktual məsələlərin müzakirə olunması, təcrübə və məlumat mübadiləsinin təmin olunması məqsədilə İnterpol çərçivəsində müxtəlif mövzular üzrə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışdır.

DİN-in 2007-ci il ərzində Daxili İşlər orqanlarında qanunçuluğa və hüquq qaydalarına riayət olunmasının vəziyyəti barədə və İnterpolun MMB-də şəxsi heyət arasında nizam-intizam və qanunçuluğun təmin edilməsi istiqamətində görülmüş işlər barədə məlumat Daxili Tədqiqatlar İdarəsinə (DTİ) təqdim olunmuşdur.

---

[1] Интерпол проводит международное заседание в Баку // Эхо, 2006, 2 февраля, №17(1257).

2007-ci ildə Azərbaycan Respublikası MMB-si texniki-təminat sahəsində fəaliyyətini kompüter texnikasının, telekommunikasiya vasitələrinin müəyyənləşdirilməsi, yeni proqram təminatının işlənib hazırlanması, məlumat arxivinin və tətbiqi proqramlar kitabxanasının yaradılması istiqamətində qurmuşdur.

Aidiyyəti qurumların mobil şəbəkəsinin əhatə dairəsinə, 1-24/7 qlobal kommunikasiya sistemi vasitəsilə Baş Katibliyin məlumat bazasına qoşulması üçün sxem və tələb olunan avadanlıqların siyahısı hazırlanmışdır. Təklif olunan layihə portativ kompüter və hətta smartfon tipli aparatlar vasitəsilə sərhəd buraxılış məntəqəsində, əlçatmaz və ya kabel çəkilişi çətin olan yerlərdə, nəqliyyat vasitələrində incəsənət əsərlərinin, sənədlərin İnterpolun məlumat bazalarından operativ şəkildə yoxlanılmasını mümkün edə bilər. [1]

2008-ci il tarixi dövrdə Azərbaycan Respublikasında İnterpolun MMB-si öz xidməti fəaliyyətini bu qayda və ictimai təhlükəsizliyin təmin olunması, polisin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və təkmilləşdirilməsi, hüquqi islahatların həyata keçirilməsi, cinayət qanununun humanistləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasında İnterpolun Azərbaycan Respublikasında MMB-nin şəxsi heyəti, prezident İlham Əliyevin polisin fəaliyyəti barədə imzaladığı fərman və sərəncamlar əsasında qurmuşdur.

2008-ci ildə MMB-yə İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-lərindən, Respublikanın hüquq-mühafizə orqanlarından, müxtəlif qurumlardan və vətəndaşlardan 7636 sənəd, 273 əmr və göstəriş daxil olmuşdur.

2008-ci ildə qətl, zorlama, cinsi istismar cinayətlərinin araşdırılmasında səmərəliliyin və effektliliyin artırılması sayəsində İnterpolun Baş Katibliyi tərəfindən həyata keçirilən "SCREAM" layihəsi ilə əlaqədar olaraq, son 10 il ərzində Azərbaycan ərazisində törədilmiş bu növ cinayətlərlə bağlı, hadisə yerindən götürülmüş və hal-hazırda eyniləşdirilməsi mümkün olmayan, lakin yararlı olan əl-barmaq izlərinin eyniləşdirilməsinə kömək məqsədilə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət olunmuş və şəhər, rayon prokurorluğundan daxil olmuş əl-barmaq izlərini eyniləşdirmək üçün İnterpolun Baş Katibliyinə göndərilmişdir. Baş Katiblikdən eyniləşdirmənin nəticələrinə dair daxil olmuş məlumatlar müvafiq şəhər-rayon prokurorluğuna təqdim olunmuşdur.

Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş xarici ölkə vətəndaşlarının əl-barmaq izlərinin eyniləşdirilməsi məqsədilə, İn-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2007-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.1-2, 26.

terpolun Baş Katibliyinə təqdim olunması üçün DİN-in BƏSİİ-yə müraciət olunmuş və əldə edilmiş əl-barmaq izlərinin eyniləşdirmə üçün Baş Katibliyə göndərilmişdir. Bu istiqamətdə fəaliyyət davam etdirilir.

İnterpolun üzvü olan dövlətlərdə 2008-ci il ərzində törədilmiş cinayətlər, onların növləri və sayı, açılma faizləri, bu əməllərə görə məsuliyyətə cəlb olunmuş şəxslər, o cümlədən yetkinlik yaşına çatmayan şəxslər və s. barədə üzv dövlətlərin MMB-lərindən daxil olan statistik məlumatların müqayisəsi DİN-in BƏSİİ-yə təqdim olunmuşdur. Eyni zamanda 2008-ci il ərzində müxtəlif aktual məsələlərin müzakirə olunması, təcrübə və məlumat mübadiləsinin təmin olunması məqsədilə, İnterpol çərçivəsində müxtəlif məlumatlar üzrə təşkil olunan konfranslar, işçi görüşləri və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışdır. 2008-ci il ərzində İnterpol çərçivəsində təşkil olunan 52 konfrans, seminar və görüşlər barədə DİN-in rəhbərliyinə məruzə olunmuş və müvafiq strukturlar mükafatlandırılmışlar.

3-5 fevral 2008-ci il tarixlərdə BƏƏ-nin Dubay şəhərində "Piratçılıq və saxtakarlığa qarşı mübarizə" üzrə keçirilmiş IV qlobal konfransda Azərbaycan Respublikasında İnterpolun MMB-nin Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin rəhbərliyi iştirak etmişdir.

30 mart-4 aprel 2008-ci ildə İtaliyanın Roma şəhərində "Mülkiyyət əleyhinə cinayətlə mübarizə" üzrə İnterpolun təlim kursu keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin ümumi cinayətkarlıqla mübarizə şöbəsinin əməkdaşları iştirak etmişlər.

14-15 may 2008-ci il tarixdə BMT-nin Regionlararası Cinayət və Ədliyyə Araşdırmaları İnstitutunun (UNİCRİ) İtaliyanın Turin şəhərində yerləşən mənzil qərargahında "Cənub-qərbi Avropada və Qafqazda kimyəvi, bioloji, radioloji, nüvə (KBRN) materiallarının qaçaqmalçılığı üzrə məlumat idarəetmə sistemi"nin təsis edilməsi məqsədilə keçirilmiş iclasda MMB-nin əməkdaşları iştirak etmişlər.

7-10 oktyabr 2008-ci il tarixdə RF-nin Sankt-Peterburq şəhərində İnterpolun Baş Assambleyasının 77-ci sessiyası keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasının DİN-in müavini polis general-leytenantı Vilayət Eyvazov, İnterpolun MMB-nin rəisi polis general-mayoru S.Mirzəyev, DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsinin Baş inspektoru Ə.Zərgərli iştirak etmişlər.

Xarici ölkələrdə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 788 nəfər şəxsin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur. Belə ki, Ankara – 283, Moskva – 29, Bolqarıstan – 16, Stokholm – 7, Vyana – 7, Baş Katiblik – 6, Praqa – 3, Əbu-Dabi – 6, London – 2 və s. Onların 529 nəfəri Azərbaycan vətəndaşıdır. Təhlil göstərmişdir ki, bu şəxslər əsasən pasport rejimi-

nin pozulması, qaçaqmalçılıq (57), fahişəlik (40), dələduzluq (35), oğurluq (26) və s. cinayət faktları üzrə məsuliyyətə cəlb olunmuşlar.

MMB-nin Texniki-təminat şöbəsi, 1-24/7 Qlobal Kommunikasiya sistemi vasitəsilə Baş Katibliyin məlumat bazasına qoşulmaq üçün, DİN-in rəhbərliyi tərəfindən İnsan Alverinə Qarşı Mübarizə İdarəsi və Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin qoşulmasını məqsədə müvafiq hesab etmişdir. Həmin idarələrə müraciət edən əməkdaşlar MMB-yə dəvət olunmuş, onlara 1-24/7 sistemi və qoşulmanı təmin edə biləcək texniki vasitələr barədə ətraflı məlumat verilmiş və bu vasitələrin əldə edilməsi tövsiyə olunmuşdur. MMB-nun DİN-in vahid axtarış sistemi başa çatdırılmışdır. Eyni zamanda bu qoşulma ilə bağlı DİN-nin Baş Əməliyyat Statistika İdarəsi (BƏSİ-də) keçirilmiş seminarda MMB-nin əməkdaşları iştirak etmişlər.

Baş Əməliyyat Statistika İdarəsindən respublikadaxili və dövlətlərarası axtarışda olan şəxslər barədə məlumat bazaları alınaraq, serverdə yeniləşmə aparılmışdır.

Digər ölkələrdə İnterpolun MMB-lərinin faks nömrələri, elektron poçt ünvanları, xarici ölkələrin və şəhərlərin telefon kodları, şəhər-rayon polis orqanlarının faks nömrələri toplanmış sorğu kitabçalarına əlavə və düzəlişlər edilmişdir.[1]

2009-cu il ərzində İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublika hüquq-mühafizə orqanlarından, müxtəlif qurum və vətəndaşlardan 7860 sənəd daxil olmuş və icraata qəbul edilmişdir. Eyni zamanda MMB tərəfindən 9987 sənəd aidiyyəti ünvanlara göndərilmişdir.

Azərbaycan Respublikası prezidentinin "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə milli fəaliyyət planının təsdiq edilməsi haqqında" 28/12/2006-cı il tarixli sərəncamı üzrə, "DİN-nin insan hüquqlarının müdafiəsi üzrə komissiyanın yaradılması barədə DİN-in 05/02/2007-ci il tarixli 53 №-li əmri"nin yerinə yetirilməsi ilə bağlı görülmüş işlər barədə arayışlar tərtib olunaraq 20/2589 №-li, 02/04/2009-cu il tarixli, 20/7111 №-li, 30/09/2009-cu il tarixli və 20/9880 №-li 28/12/2009-cu il tarixli məktublarla DİN-in Daxili Tədqiqatlar İdarəsinə (DTİ) təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasından irəli gələn, təşkilinə dair DİN-in 06/06/2007-ci il tarixli 303 №-li əmrinin icrası ilə əlaqədar görülmüş işlər barədə arayış tərtib olunaraq, 20/2668 №-li, 03/04/2009-cu il tarixli, 20/5042 №-li 07/07 2009-cu il tarixli və məktublarla DİN-in Baş Təhlükəsizlik İdarəsinə (BƏİ) təqdim olunmuşdur.

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2008-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 2, 12, 28-29.

"2008-2011-ci illərdə "Beynəlxalq əməkdaşlığın inkişaf konsepsiyası"nın həyata keçirilməsinə dair proqramın təsdiq edilməsi barədə DİN-in 07/12.2007-ci il tarixli 665 №-li əmrinin icrası ilə bağlı görülmüş işlər barədə arayışlar tərtib olunaraq, 20/2709 №-li 30/09.2009-cu il tarixli məktublarla DİN-in Beynəlxalq Əməkdaşlıq idarəsinə (BƏİ) təqdim olunmuşdur.

2009-cu ilin yanvar ayında son 3 ildə DİN-in kollegiyası tərəfindən qəbul olunmuş aidiyyəti qərarın icrası vəziyyəti əməliyyat müşavirəsində müzakirəyə çıxarılmaqla (protokol №1, 13/01/2009-cu il) təhlil edilmiş və bu barədə DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə arayış təqdim olunmuşdur. Habelə, DİN-in kollegiyasının "2009-cu ilin 6 ayında cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin təmini üzrə fəaliyyətin nəticələri və qarşıda duran vəzifələr haqqında" qərarı Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməliyyat müşavirəsində (protokol №1, 13/01.2009-cu il) geniş müzakirə olunmuşdur.

Bundan başqa, 2009-cu ildə Azərbaycan Respublikasında İnterpolun MMB-si digər ölkələrdə hüquq-mühafizə orqanları tərəfindən fotorobotların tərtib olunması, onların məlumat bazasına ötürülməsi və eyniləşdirilməsinin aparılması qaydaları, bu sahədə istifadə olunan son yeniliklər və sistemlər, bu sistemlərin təcrübi işi, eyni zamanda digər analoji sistemlərdən üstün cəhətləri barədə geniş məlumatlar əldə olunması üçün, DİN-in Kriminalistik Tədqiqatlar İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar, bir sıra ölkələrdə İnterpolun MMB-nə müraciət olunmuşdur. Əldə olunmuş məlumatlar təşəbbüskara təqdim olunmuşdur.

DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsindən (BƏSİİ) daxil olmuş sorğu ilə əlaqədar, cinayət hüquqi statistik metodologiyanın Avropa standartları, qabaqcıl Avropa dövlətlərinin hüquq-mühafizə orqanlarında cinayət statistikası, əməliyyat sorğusu, arayış, kriminal, arxiv və digər növ məlumatların toplanması, emalı, ötürülməsi və istifadə olunması qaydaları və bu fəaliyyətdə tətbiq olunan yeni texnologiyalara dair materialların əldə olunması məqsədi ilə bir sıra ölkələrdə İnterpolun MMB-lərinə sorğular göndərilmişdir. Bu sorğulara cavab olaraq, alınan materiallar təşəbbüskara təqdim edilmişdir.

2009-cu il ərzində DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar, Azərbaycan Respublikası Polis orqanlarının müvəqqəti saxlama təcridxanalarında xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə dünya dövlətlərinin qabaqcıl təcrübəsini əldə etmək üçün bir sıra ölkələrdə İnterpolun MMB-nə sorğular göndərilmişdir. Bu sorğuya cavab olaraq alınan məlumatlar təşəbbüskara təqdim edilmişdir. Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş xarici ölkə vətəndaşlarının əl-barmaq izlərinin eyniləşdirilməsi məqsədilə, İnterpolun Baş Katibliyinə

təqdim olunması üçün, DİN-in BƏSİİ-yə müraciət olunmuş və əldə olunmuş əl-barmaq izləri eyniləşdirmə üçün Baş Katibliyə göndərilmişdir.

2-19 yanvar 2009-cu il tarixdə Fransanın Leon şəhərində soyqırım, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər üzrə seminar keçirilmişdir. Azərbaycan Respublikasını əsir, itkin düşmüş və girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının 1-ci qrupunun rəhbəri Firidun Sadıqov təmsil etmişdir.

27-29 may 2009-cu il tarixdə San-Marinoda İnterpolun 38-ci Avropa Regional Konfransı keçirilmişdir. Bu tədbirdə Azərbaycan Respublikasını Azərbaycan Respublikasında İnterpolun Təşkilati-Analitik Şöbəsinin rəis müavini (Avropa əlaqələndirici zabiti) Hamlet Babayev təmsil etmişdir.

11-15 oktyabr 2009-cu il tarixində Sinqapurda İnterpolun Baş Assambleyasının 78-ci sessiyası keçirilmişdir. Bu sessiyada V.Eyvazov, İnterpolun MMB-nin rəisi, polis general-mayoru S.Mirzəyev və inspektor tərcüməçisi E.Orucov təmsil etmişlər.

Xarici ölkələrdə cinayət və ya inzibati məsuliyyətə cəlb olunmuş 231 nəfər şəxsin eyniləşdirilməsi ilə bağlı sorğular (Ankara – 466, Moskva – 63, Visbadien – 35, Stokholm – 23, Kiyev – 16, Bratislava – 13, Haaqa – 10, Vyana – 17, Bolqarıstan – 8, Baş Katiblik – 8, Praqa – 1, London – 1) 2009-cu il tarixdə 788 nəfərin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur. Təhlil göstərir ki, bu şəxslər əsasən pasport rejiminin pozulması (365), qaçaqmalçılıq (234), sərhədi qanunsuz keçmə (83), oğurluq (45), dələduzluq (11) və s. cinayət faktları üzrə məsuliyyətə cəlb olunmuşlar. Hesabat dövrü ərzində şəxslərin eyniləşdirilməsi ilə bağlı respublikanın hüquq-mühafizə orqanlarından hər hansı bir müraciət daxil olmamışdır.

2009-cu ildə daha bir tarixi hadisəni qeyd edək. DİN-in rəhbərliyinin göstərişi əsasında, Azərbaycan Respublikasında MMB-nin Texniki-təminat şöbəsinin əməkdaşları tərəfindən Azərbaycan Respublikasında MTN-in və digər hüquq-mühafizə orqanlarının İnterpolun Baş Katibliyinin məlumat bazasına qoşulmasını təmin etmək üçün SUNFİREX-220 M2 tipli serverdə müvafiq proqram təminatı və əməliyyat sistemi quraşdırılmışdır.[1]

İndi də MMB-nin 2010-cu ildəki tarixi fəaliyyətini qeyd edək. 2010-cu il ərzində MMB daxilində təşkilati məsələlərin həlli, MMB-nin fəaliyyəti barədə məlumatların toplanması, görülmüş işlərin təhlil edilməsi, qiymətləndirilməsi, hesabatların hazırlanması və müvafiq instansiyalara göndərilməsi, nöqsanların aradan qaldırılması üçün təkliflərin verilməsi, İnterpolun Baş Katibliyindən üzv dövlətlərin MMB-dən və respublikanın hüquq-mühafizə

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s. 1-2,7,9,28.

orqanlarından daxil olmuş sorğuların icrası, beynəlxalq cinayətkarlıqla mübarizədə İnterpol sistemində əməkdaşlığın tələb və şərtləri, cinayətlərin qarşısının alınmasında və açılmasında dünya dövlətlərinin qabaqcıl təcrübəsi barədə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının məlumatlandırılması, müxtəlif statistik məlumatların İnterpolun Baş Katibliyinə göndərilməsi, həmçinin müqayisə və təhlillərin aparılması üçün üzv dövlətlərdən daxil olmuş statistik məlumatların müvafiq orqanlara göndərilməsi, sənədlərin tərcüməsi, MMB-nin rəhbərliyinə təkliflərin verilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

2010-cu il ərzində MMB-yə 8390 sənəd daxil olmuşdur ki, bunlardan MMB-də fəaliyyət göstərən tərcümə qrupuna 7363 sənəd daxil olmuş, 1027 sənəd isə Baş Katiblikdən, üzv dövlətlərin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan daxil olmuşdur.

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar Azərbaycan Respublikasının polis orqanlarının müvəqqəti saxlama təcridxanalarında xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə, dünya dövlətlərinin qabaqcıl təcrübəsini əldə etmək üçün, bir sıra ölkələrdə İnterpolun MMB-nə sorğular göndərilmiş və sorğulardan cavab alınaraq təşəbbüskara təqdim olunmuşdur.

Bundan başqa, DİN-in Əsaslı Tikinti İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar DİO-nın xidməti fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, polis orqanlarının gələcəkdə inşa ediləcək inzibati binasının layihələşdirilməsi və inşası zamanı beynəlxalq standartların tətbiq olunması məqsədilə bir sıra ölkələrin İnterpolun MMB-lərinə müraciət olunmuş və həmin ölkələrdə polis orqanlarının texniki parametrlərinə dair məlumatların, onların sxemlərinin və fotoşəkillərinin göndərilməsi təmin olunmuşdur. Alınan məlumatlar və digər məlumatlar təşəbbüskara təqdim olunmuşdur.

Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş xarici ölkə vətəndaşlarının əl-barmaq izlərinin eyniləşdirilməsi məqsədilə, İnterpolun Baş Katibliyinə təqdim olunması üçün, DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinə müraciət olunmuş və əldə edilmiş əl-barmaq izlərinin eyniləşdirilməsi üçün Baş Katibliyə göndərilmişdir.

2010-cu il ərzində törədilmiş cinayətlər, onların növləri və sayı, açılma faizləri, bu əməllərə görə məsuliyyətə cəlb olunmuş şəxslər, o cümlədən yetkinlik yaşına çatmayan şəxslər və s. barədə İnterpolun üzv dövlətlərin MMB-dən daxil olmuş statistik məlumatlar DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinə təqdim olunmuşdur. Eyni zamanda 2010-cu il tarixdə Azərbaycan Respublikasında və Bakı şəhərində törədilmiş cinayətlərlə bağlı statistik məlumatlar DİN-in BƏSİİ-dən alınaraq, İnterpol kanalları ilə yayımlanmışdır.

2010-cu ildə xarici ölkələrdə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 1103 nəfər şəxsin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur. Ankara – 514, Moskva – 88, Stokholm – 40, Visbaden – 58, Baş Katiblik – 10, Vyana – 8, Başqırdıstan – 8, Bratislava – 8, Minsk – 5, Praqa – 3, Tehran – 3, Abu-Dabi – 3, Bern – 2, London – 2 və s. Onlardan 817 nəfər Azərbaycan Respublikası vətəndaşıdır. Təhlil göstərir ki, bu şəxslər əsasən pasport rejiminin pozulması (405), qaçaqmalçılıq (105), oğurluq (63), sərhədi qanunsuz keçmə (70), fahişəlik (31), dələduzluq (17), ağır cinayətlər (14), və s. cinayət faktları üzrə məsuliyyətə cəlb olunmuşdur.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2011-ci il ərzində fəaliyyətinə nəzər yetirək.

2011-ci il tarixi dövrünü araşdırarkən məlum olmuşdur ki, Azərbaycan Respublikasında İnterpolun MMB-si ölkəmizdə cinayətkarlıqla mübarizə, ictimai qayda və ictimai təhlükəsizliyin təmin olunması, polis fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və təkmilləşdirilməsi, hüquqi islahatların həyata keçirilməsi, cinayət qanununun humanistləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, qanunun aliliyinin təmini prinsipləri respublika əhəmiyyətli vəzifələr olmaqda davam etmişdir.

Prezident İlham Əliyevin ölkəmizin qüdrətlənməsi, vətəndaşların rifah halının yaxşılaşdırılması, şəffaflığın təmin olunması və korrupsiya ilə mübarizə üzrə həyata keçirdiyi daxili tədbirlər, şəxsi rəhbərliyi ilə müasir Azərbaycanın inkişafı naminə aparılan islahatlar, DİN sistemində və fəaliyyətinin beynəlxalq standart səviyyəsində yüksəldilməsində əhəmiyyətli rol oynamışdır. Prezidentin xüsusi diqqət və qayğısı nəticəsində sahəvi xidmətlərin yeni məlumat və axtarış texnologiyaları, avadanlıq və vasitələrlə təmin olunması, şəxsi heyətin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Əməkdaşların ən yüksək tələblərə cavab verən şəraitdə, xalqın və dövlətin maraqlarına uyğun səmərəli fəaliyyəti üçün hər cür imkanlar yaranmışdır. Cənab Ramil Usubovun göstərişi əsasında İnterpolun MMB-nin inzibati binasında əsaslı təmir işləri aparılmış, MMB-yə xeyli sayda avadanlıqlar, habelə bir ədəd avtomaşın ayrılmışdır.

Dövlət başçısının və DİN rəhbərliyinin bu diqqət və qayğısı Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarında ruh yüksəkliyinə səbəb olmuş və xidməti vəzifələrinin layiqincə yerinə yetirilməsinə böyük təsir göstərmişdir.

Azərbaycan Respublikasında İnterpolun MMB-si 2011-ci il ərzində öz xidməti fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası və digər qa-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2010-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s. 1,2,19.

nunlar, habelə polisin fəaliyyətini təkmilləşdirən bir sıra qanunvericilik aktları, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin normativ aktları, Azərbaycan Respublikası DİN-in əsasnaməsi, İnterpolun Nizamnaməsi, MMB-nin əsasnaməsi, DİN-in normativ sənədləri və İnterpolun Baş Katibliyinin tövsiyəsi əsasında, həmçinin DİN-in əsas təşkilati tədbirlər planında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi, ümumi cinayətkarlığa qarşı mübarizədə beynəlxalq polis əməkdaşlığının həyata keçirilməsi istiqamətində qurmuşdur.

2011-ci il ərzində MMB-yə İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından, müxtəlif qurumlardan və vətəndaşlardan 7596 sənəd daxil olmuş və icraata qəbul edilmişdir. Eyni zamanda MMB tərəfindən 10468 sənəd göndərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28/12/2006-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın DİO aid müddəalarının yerinə yetirilməsi məqsədilə, "DİN-in İnsan hüquqlarının müdafiəsi üzrə komissiyası"nın yaradılması barədə, DİN-in 05/02/2007-ci il tarixli 53 №-li əmrinə əlavə olaraq, 1/215 tarixli tədbirlər planının icrası üzrə görülmüş işlər barədə arayışlar tərtib olunaraq 20/25 №-li, 04/01/2011-ci il tarixli, 20/2464 №-li, 29/03/2011-ci il tarixli, 20/0146 №-li, 01/07/2011-ci il tarixli və 20/7212 №-li, 03/10/2011-ci il tarixli məktublarla DİN-in Daxili Tədqiqatlar İdarəsinə təqdim olunmuşdur.

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasından irəli gələn vəzifələrin Daxili İşlər orqanlarında icrasının təşkilinə dair" DİN-in 06/06 2007-ci il tarixli 303 №-li əmrinin icrası ilə əlaqədar, görülmüş işlər barədə arayışlar tərtib olunaraq, 20/19 №-li 04/01/2011-ci il tarixli, 20/2777 №-li 04/04/2011-ci il tarixli məktubların DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə göndərilmişdir.

"2008-2011-ci illərdə ARDİN-in beynəlxalq əməkdaşlığın inkişaf konsepsiyasının" həyata keçirilməsinə dair proqramın təsdiq edilməsi barədə DİN-in 07/12 2007-ci il tarixli 665 №-li əmrinin icrası ilə bağlı, görülmüş işlər barədə arayışlar tərtib olunaraq, 22/20 №-li 64101/2011-ci il tarixli, 20/2778 №-li 24/04 2011-ci il tarixli, 20/5221 №-li 04/07/2011-ci il tarixli və 2/7300 №-li 05/10/2011-ci il tarixli məktublarla DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsinə göndərilmişdir.

2011-ci il tarixdə daha bir tarixi hadisəni qeyd etmək yerinə düşərdi.

ARDİN-in 2011-ci il üçün əsas təşkilati tədbirlər planının 1-35-ci maddəsi və Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2011-ci ilin I yarımili üçün iş planının 7-ci bəndinə müvafiq olaraq, respublikanın 10 re-

gionunda yerli hüquq-mühafizə orqanları tərəfindən təqsirləndirilən, məhkum olunmuş və itkin düşmüş şəxslərin İnterpol kanalları vasitəsi ilə beynəlxalq axtarışa verilməsi ilə bağlı, İnterpolun MMB-lərinə göndərilən tapşırıqlardakı nöqsanların aradan qaldırılması, İnterpolun MMB-si ilə yerli hüquq-mühafizə orqanları arasında qarşılıqlı əlaqənin effektliliyin artırılması məqsədilə, "Şəxslərin İnterpol kanalları ilə beynəlxalq axtarışa verilməsi qaydaları" mövzusunda regional seminar-məşğələ keçirilmişdir.

2011-ci il ərzində Daxili İşlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və dünya dövlətlərinin qabaqcıl təcrübəsinə dair məlumatların əldə edilərək müvafiq orqanlara təqdim olunması istiqamətində də müəyyən işlər görülmüşdür.

DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar, Aİ Azərbaycan fəaliyyət planının icrasına dəstək və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə, bir sıra ölkələrdə müvafiq istiqamət üzrə hüquq-mühafizə fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların əldə olunması üçün, İnterpolun MMB-nə (Almaniya, İtaliya, Fransa, İspaniya, Portuqaliya, Çex Respublikası) müraciət olunmuş və əldə olunan məlumatlar təşəbbüskara təqdim edilmişdir.

İnterpolun İnternet saytında Azərbaycanla bağlı səhifələrin hazırlanması üçün müvafiq məlumatlar təşəbbüskara təqdim olunmuş və bu səhifə açıq elan edilmişdir.

DİN-in Əsaslı Tikinti İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar, Daxili İşlər orqanlarının xidməti-şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması, polis orqanlarının gələcəkdə inşa ediləcək inzibati binasının layihələşdirilməsi və inşası zamanı beynəlxalq standartların tətbiq olunması məqsədilə, bir sıra ölkələrdə İnterpolun MMB-nə müraciət olunmuş və həmin ölkələrdə polis orqanlarının inzibati binalarının texniki parametrlərinə dair məlumatların, onların sxemlərinin və fotoşəkillərinin göndərilməsi xahiş olunmuşdur. Alınan məlumatlar və digər materiallar təşəbbüskara təqdim edilmişdir.

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar, polis orqanlarında müvəqqəti saxlanma təcridxanalarında xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə, bir sıra üzv dövlətlərin İnterpolun MMB-nə (Almaniya, İngiltərə, İspaniya, İtaliya, Portuqaliya, Macarıstan, Norveç, İsveç, Polşa) müraciət olunmuş və əldə olunan məlumatlar təşəbbüskara təqdim edilmişdir.

Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş xarici ölkə vətəndaşlarının əl-barmaq izlərinin eyniləşdirilməsi məqsədilə, İnterpolun Baş Katibliyinə təqdim olunması üçün, DİN-in BƏSİİ-yə müraciət olunmuş və əldə edilmiş barmaq izləri eyniləşdirmə üçün Baş Katibliyə göndərilmişdir.

İnterpolun üzvü olan dövlətlərdə 2011-ci il ərzində cinayətlər, onların növləri, sayı, açılma faizləri, bu əməllərə görə məsuliyyətə cəlb olunmuş şəxslər, o cümlədən yetkinlik yaşına çatmayan şəxslər və s. barədə üzv dövlətlərin MMB-dən daxil olmuş statistik məlumatlar müqayisə və təhlillərin aparılması üçün DİN-in BƏSİİ-yə təqdim olunmuşdur. Eyni zamanda 2011-ci il ərzində Azərbaycan Respublikasında və Bakı şəhərində törədilmiş cinayətlərlə bağlı statistik məlumatlar DİN-in BƏSİİ-dən alınaraq İnterpol kanalları ilə yayımlanmışdır.

2011-ci il tarixi dövrü ərzində müxtəlif aktual məsələlərin müzakirə olunması məqsədilə, İnterpol çərçivəsində müxtəlif mövzular üzrə təşkil olunmuş konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışlar. Hesabat dövrü ərzində İnterpol çərçivəsində təşkil olunan 46 konfrans, seminar və görüşlər barədə DİN-in və MMB-nin rəhbərliyinə müraciət olunmuş və müvafiq təşkilatlar məlumatlandırılmışlar.

Bununla bağlı bir neçə tarixi hadisəni qeyd edək.

1-3 fevral 2011-ci il tarixində Fransanın Lion şəhərində "Odlu silahlarla bağlı məhkəmə ekspertizası üzrə" beynəlxalq simpozium keçirilmiş, bu tədbirdə Azərbaycan Respublikasını Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi rəisi, III dərəcəli Dövlət Ədliyyə müşaviri F.Cabbarov və həmin mərkəzin aparıcı eksperti N.Abbasov təmsil etmişdir.

19-21 aprel 2011-ci il tarixində Fransanın Lion şəhərində İnterpolun MMB rəislərinin 7-ci toplantısı keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin sabiq rəisi, polis general-mayoru S.Mirzəyev və MMB-nin Təşkilati-analitik şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Hamlet Babayev təmsil etmişlər.

11-13 may 2011-ci il tarixində Malta dövlətində İnterpolun 40-cı Avropa Regional Konfransı keçirilmiş, bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin sabiq rəisi, polis general mayoru S.Mirzəyev və MMB-nin Təşkilati-analitik şöbəsinin rəis müavini Hamlet Babayev təmsil etmişlər.

22-26 may 2011-ci il tarixində Finlandiyanın Helsinki və Estoniyanın Tallin şəhərlərində Avropa paytaxt polis rəhbərlərinin 33-cü konfransı keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını Bakı şəhər Baş Polis İdarəsinin rəisi polis general mayoru Rafiq Abbasov və həmin idarənin baş inspektoru polis baş leytenantı V.Qasımov təmsil etmişlər.

26-27 may 2011-ci il tarixində Ukraynanın Krım vilayətinin Yalta şəhərində İnterpolun "Millenium" layihəsi üzrə işçi qrupunun iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını DİN-in Baş Cinayət-Axtarış İda-

rəsinin əməliyyat müvəkkili, polis mayoru E.Mirzəyev və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməliyyat müvəkkili, polis kapitanı K.Məmmədov təmsil etmişlər.

6-7 oktyabr 2011-ci il tarixdə İnterpolun Avropa Əlaqələndirici Zabitlərinin 23-cü toplantısı keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin Təşkilati Analitik Şöbəsinin rəis müavini, polis polkovnik leytenantı Hamlet Babayev təmsil etmişdir.

31 oktyabr-3 noyabr 2011-ci il tarixdə Vyetnam Sosialist Respublikasının Hanoy şəhərində İnterpolun Baş Assambleyasının 80-ci sessiyası keçirilmişdir. Bu tədbirdə Azərbaycan Respublikasını DİN-in müavini polis general-leytenantı V.Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti (MMB-nin sabiq rəisi, polis general-mayoru S.Mirzəyev, DİN-in Beynəlxalq Əməkdaşlıq Şöbəsinin rəisi, polis polkovniki A.Zərgərli və İnterpolun MMB-nin inspektor tərcüməçisi, polis leytenantı E.Orucov) təmsil edmişdir.

16-19 noyabr 2011-ci il tarixdə İsveçrənin Cenevrə şəhərində "Crans Montana forumu" çərçivəsində transmilli cinayətkarlığa qarşı mübarizə üzrə beynəlxalq samit, eləcə də daxili qlobal təhlükəsizlik üzrə toplantı keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını təmsil edən Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları üzrə iş şöbəsinin müdiri F.Ələsgərovun başçılıq etdiyi nümayəndə heyəti (İnterpolun MMB-nin Təşkilati-analitik şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Hamlet Babayev olmuşdur).

1-2 dekabr 2011-ci il tarixdə Ukraynanın Kiyev şəhərində, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat-GUAM üzv dövlətlərdə məlumatların kriptoqrafik mübadiləsi üzrə mütəxəssislərin növbəti iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun Texniki-təminat şöbəsinin Baş mühəndisi polis polkovnik-leytenantı N.Həmzəyev və DİN-in Baş Əməliyyat Statistika İdarəsinin Baş mühəndis-proqramçısı, polis baş leytenantı Ü.Paşayev təmsil etmişlər.

2011-ci il ərzində ictimai təhlükəsizlik əleyhinə mübarizə sahəsində müəyyən işlər görülmüşdür. İnterpolun üzvü olan ölkələrdən daxil olmuş oğurlanmış, aşkar olunmuş və müsadirə edilmiş tapança, avtomat silah, müxtəlif növ və kalibrli tüfənglər barədə sorğulardakı məlumat uçota salınmış, müvafiq xidmətlərin qeydiyyatlarından yoxlanmış və nəticələri barədə təşəbbüskara bildirilmişdir.

Xarici ölkələrdə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 948 nəfər şəxsin eyniləşdirilməsi ilə bağlı sorğular (Ankara – 578, Moskva – 77, Visbaden – 29, Stokholm – 15, Kişinyov – 8, Vyana – 6, Minsk – 5, Vaşinqton – 3, London – 2, Kiyev – 1, Skoryye – 1, Roma – 1, Afina – 1, Baş Katiblik – 1, və s.) göndərilmişdir. Onlardan 632 nəfəri Azərbaycan Respublikasının vətəndaşıdır.

Təhlil göstərir ki, bu şəxslər əsasən pasport rejiminin pozulması (308),

qaçaqmalçılıq (91), sərhədi qanunsuz keçmə (68), saxta sənəddən istifadə etmə (39), fahişəlik (30), dələduzluq (22), xəsarət yetirmə (25), oğurluq (10) və s. cinayət faktları üzrə məsuliyyətə cəlb edilmişdir.

2011-ci il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-si texniki-təminat sahəsində də müəyyən yeniliklərlə bağlı işlər görmüşdür. Belə ki, MMB-nin texniki-təminat sahəsindəki fəaliyyəti kompüter texnikasının, telekommunikasiya vasitələrinin istismarı, onların müasirləşdirilməsi, yeni proqram təminatlarının işlənib hazırlanması, məlumat arxivinin və tətbiqi proqramlar kitabxanasının yaradılması istiqamətində qurulmuşdur.

İnterpolun MMB-nin inzibati binasında aparılan təmir-bərpa işləri ilə əlaqədar olaraq, ARMTN-in xüsusi telefon kabelləri, nazirliyin I-24/7 qoşulmasını təmin edən optik kabel binanın fasadından çıxarılaraq döşəməaltı kanallar vasitəsilə çəkilmişdir. Həmçinin yeni avadanlıqda əməkdaşların işçi yerlərinə çəkilən telefon kabelləri, lokal kompüter şəbəkəsi və digər rabitə kanallarının yerləri müəyyən edilərək sxem-plan hazırlanmış, həmin sxem-plana əsasən hər bir əməkdaşa telefon rabitəsi, lokal şəbəkə və internet şəbəkəsinə qoşulması üçün xətlər, yanğından mühafizə və eyni zamanda xüsusi giriş tələb olunan otaqlarda təhlükəsizlik avadanlıqları üçün xətlər çəkilmişdir.

Oğurlanmış və itirilmiş yol sənədlərinə dair məlumatların İnterpolun Baş Katibliyinə təqdim edilməsi məqsədilə, müvafiq parametrlərin dəqiqləşdirilməsi üçün, Baş Katibliyə müraciətlər edilmişdir. Bu fəaliyyətlə bağlı DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinin əməkdaşları ilə birgə həmin baza üzərində standartlaşma işləri görülmüşdür. Bundan başqa 2011-ci ildə Azərbaycan Respublikasında İnterpolun MMB-si "Giriş-çıxış və qeydiyyat "İAMAS"ın sərhəd keçmə məhdudiyyətləri" siyahısına İnterpol kanalları ilə axtarışda olan şəxslərin də daxil edilməsi təklif edilmişdir. Qeyd olunan məsələ ilə əlaqədar DİN-in BƏSİİ tərəfindən təqdim olunmuş arayış və təkliflər öyrənilmişdir. Təkliflər əsasında İnterpol kanalları ilə axtarışda olan şəxslərə dair məlumat bazasının təqdim edilməsi forması, strukturu və mütəmadiliyi barədə məlumatın əldə olunması üçün İnterpolun Baş Katibliyinə müraciət edilmişdir. Həmçinin oxşar sistem üzrə Baş Katibliyin müvafiq məlumat bazasına qoşulmuş ölkələrin təcrübəsi, onların tətbiq etdikləri istismar qaydaları və üzləşdikləri problemlər və digər texniki məsələlərə dair məlumat əldə etmək məqsədilə, üzv dövlətlərdə İnterpolun MMB-lərinə sorğular göndərilmişdir və alınan cavablar DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinə göndərilmişdir.

MMB-nin əməkdaşlarının işçi kompüterlərində və lokal şəbəkələr sistemində lisenziyalı "Kasperski" antivirus proqramı qoşulmuşdur.[1]

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 1-2,5,13-14,25,27.

İnterpolun MMB-nin 2011-ci ilin xidməti fəaliyyəti tarixindəki daha bir mühüm hadisəni qeyd etmək lazımdır.

5-6 oktyabr və 21-22 noyabr 2011-ci il tarixlərində İnterpolun Baş katibi R.Noblın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfərlər etmişdir. R.Nobl Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və digər hökumət nümayəndələri ilə görüşlər keçirmişdir. Eyni zamanda İnterpolun MMB-də olmuş, yeni təmirdən çıxmış bina və əməkdaşların iş şəraiti ilə tanış olmuşdur.

6 oktyabr 2011-ci il tarixdə cənab Ramil Usubov Azərbaycanda səfərdə olan İnterpolun Baş katibi R.Nobl ilə görüşmüşdür. O, nazirlik ilə beynəlxalq polis təşkilatı arasında sıx əlaqələrin mövcudluğunu xatırladaraq qeyd edir ki, qloballaşan dünya, inteqrasiya imkanlarının getdikcə artması müxtəlif tədbirlər ortaya cıxarır ki, bu da yeni növ cinayətlərlə transmilli mütəşəkkil cinayətkarlıqla birgə mübarizəni şərtləndirir. Qeyd olunub ki, Azərbaycan İnterpolla iş birliyinə xüsusi əhəmiyyət verir və onu da inkişaf etdirməkdə meyllidir. Əməkdaşlığın əsas istiqamətlərindən biri təqsirləndirilən və itkin düşmüş şəxslərin beynəlxalq axtarışının təşkil edilməsidir. Hər il orta hesabla İnterpol tərəfindən 60-70 nəfər belə şəxsin yeri müəyyən olunur və onlar yaxalanaraq ədalət məhkəməsinə təhvil verilir. Nazir deyib ki, 20 illik müstəqillik tarixi ərzində inamla dünya birliyinə inteqrasiya edən Azərbaycan suveren və hüquqi dövlət kimi demokratik prinsiplərə riayət edir, bütün sahələrdə o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının təmini və cinayətkarlıqla mübarizədə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir.

Daha sonra nazir ötən illərdə respublikamızın keçdiyi çətin, lakin şərəfli yoldan, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrdə aparılan geniş islahatlardan, cinayətkarlığa qarşı mübarizənin vəziyyətindən danışıb, kriminogen duruma nəzarət edildiyini, Azərbaycanın dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biri olduğunu diqqətə çatdırıb. Bu fikir xüsusilə vurğulanıb ki, ölkə prezidenti İlham Əliyevlə R.Noblın görüşü və aparılan fikir mübadiləsi İnterpolla əlaqələrimizin daha da dərinləşməsinə öz töhfəsini verəcəkdir. İnterpolun Baş katibi Ronald Noblın ölkəmizdəki MMB-nin fəaliyyətinin günün tələblərinə uyğun təşkil edildiyini, Azərbaycanın dünyada təhlükəsiz polis kommunikasiya xidmətlərini həyata keçirən 10 ölkədən biri olduğunu deyərək, əlaqələrimizin mövcud durumundan məmnun qaldığını bildirib. O, həmçinin, məmnunluqla qeyd edib ki, ölkəmizdə bundan əvvəl olduğu, 2003-cü ildən bəri paytaxt Bakı tanınmaz dərəcədə dəyişib və dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib.

Səmimi və işgüzar şəraitdə keçən görüşdə bir sıra məsələlər də müzakirə olunur.

Bundan başqa, Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov Azərbaycanda 5-6 oktyabr 2011-ci il tarixlərdə səfərdə olan İnterpolun Baş katibi R.Noblla 6 oktyabr 2011-ci il tarixdə görüşmüşdür. Görüş zamanı cənab Zakir Qaralov İnterpolla Azərbaycan arasında əməkdaşlığın dinamik inkişaf etdiyini qeyd edib, ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən imzalanmış mütərəqqi qanunvericilik aktlarının qəbul edilməsi, bu islahatlar çərçivəsində prokurorluğun fəaliyyətinin zəruri normativ hüquqi bazasının yaradılması, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində zəruri tədbirlərin görülməsi barədə ətraflı məlumat verib.

Cənab Zakir Qaralov qeyd edib ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan digər nüfuzlu beynəlxalq təşkilatlarla yanaşı, tamhüquqlu üzv kimi, İnterpolla da əlaqələrini uğurla davam etdirir. Görüşdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində narkotik maddələrin qanunsuz becərilməsi, istehsalı, narkotiklərin satışından əldə olunmuş çirkli pulların separatçılar tərəfindən qanunsuz silahlı birləşmələr yaradılmasına, terror qrupları üçün silahların alınmasına və təlimlərin keçirilməsinə xərclənməsinin bəşəriyyət üçün nə dərəcədə təhlükəli olmasını nəzərə almaqla, bu ümümbəşəri problemlərin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həll edilməsinin zəruriliyini qonaqların diqqətinə çatdırır.

İnterpolun Baş katibi R.Nobl Azərbaycanın İnterpolun Baş Katibliyi və təşkilatın üzv dövlətləri ilə hər əməkdaşlıqdan məmnunluğunu ifadə edib, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarını, xüsusilə cinayətkarlığa qarşı mübarizə sahəsində və insan hüquqlarının daha effektli qorunmasına xidmət edən, qanunvericilik aktları üzrə birgə görüşləri, mühüm tədbirləri yüksək qiymətləndirib.

2011-ci il noyabr ayının 22-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyeva ölkəmizdə səfərdə olan R.Noblun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Heydər Əliyev Fonduna gələn nümayəndə heyətinə əvvəlcə fondun məqsədi və fəaliyyəti haqqında məlumat verildi. Qonaqların diqqətinə çatdırıldı ki, fond Ümummilli lider Heydər Əliyevin zəngin irsini öyrənmək, milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq məqsədini daşıyır, və fondun fəaliyyətində səhiyyə, təhsil, sosial və mədəniyyət sahələrində layihənin həyata keçirilməsi prioritet istiqamətlərdir.

İnterpolun nümayəndə heyəti ulu öndərin şəxsi arxivindən götürülən və fəaliyyətinin müxtəlif dairələrini əhatə edən eksponatlar və fotoşəkillərlə tanış oldu. R.Nobl fondun xatirə kitabına ürək sözlərini yazdı. İnterpolun

nümayəndə heyəti ilə görüşən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qonaqları salamlayaraq bildirdi ki, onların ölkəmizlə daha yaxından tanış olmaq imkanı vardır. Azərbaycanın müstəqilliyinin bu il 20-ci ildönümündən ötən müddətdə ölkəmizin böyük nailiyyətlər əldə etdiyini, regionun lider dövlətinə çevrildiyini, respublikamızda bütün sahələrdə sürətli inkişafın getdiyini diqqətə çatdırdı.

Mehriban Əliyeva xüsusilə qeyd etdi ki, Azərbaycan təhlükəsiz ölkədir və respublikamızda cinayətkarlığın səviyyəsi çox aşağıdır. O, ölkəmizin 1992-ci ildən İnterpola üzv olduğunu, dövlət və hökumət orqanları ilə qurum arasında sıx əlaqələrin qurulduğunu vurğuladı.

"Azərbaycan təhlükəsizlik baxımından nümunəvi ölkədir" deyən İnterpolun Baş katibi R.Nobl Heydər Əliyev Fondunun fəaliyyətindən məlumatlı olduğunu vurğulayaraq, fondun mədəniyyət tədbirlərinin keçirilməsindəki təcrübəsini qeyd etdi. O, gələcəkdə Azərbaycanda birgə mədəni tədbirlərin keçirilməsi təklifini etdi. Sonra R.Nobl İnterpolun 2011-ci ildə təsis etdiyi "Daha təhlükəsiz dünyanın yaradılmasında xidmətə görə" yadigar medalını Mehriban xanım Əliyevaya təqdim etdi.

Baş katib bildirdi ki, Mehriban Əliyeva dünyanın bu medalından təqdim olunduğu ilk şəxsdir.[1]

2012-ci il tarixi dövrü ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyətinə nəzər salaq. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü və ardıcıl siyasəti sayəsində bərqərar olmuş möhkəm dövlət intizamı, qanuna söykənən iş prinsipi, hüquq mühafizə orqanlarının səmərəli fəaliyyəti, xalqın polisə olan etimadı və dəstəyi ölkədə cinayətkarlıqla, onun bütün təzahürləri ilə mübarizənin yüksək səviyyədə davam etdirilməsinə, sabitliyin gələcəkdə də uğurla qorunmasına imkan verir. Dövlətimizin əsas dayaqlarından olan Daxili İşlər orqanları ölkədə aparılan quruculuq işlərində də fəallıq göstərərək, dövlətin hüquq və fiziki şəxslərinin mənafelərinin və mülkiyyətinin hüquqa zidd əməllərdən qorunması, insanların sərbəst yaşayıb-işləməsi üçün lazımi şəraitin yaradılması istiqamətində üzərinə düşən vəzifələri lazımınca yerinə yetirir. Bu gün Azərbaycan polisi inkişaf və yeniləşmə mərhələsini yaşayır. Polis orqanları fəaliyyətinin təkmilləşdirilməsi, iş keyfiyyətinin, əməkdaşların peşə hazırlığının və bilik səviyyəsinin artırılması, maddi-texniki bazanın ən müasir tələblər səviyyəsinə çatdırılması və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində lazımi tədbirlər görülür.

[1] Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İnterpolun yadigar medalı təqdim edilmişdir // Azərbaycan, 2011, 22 noyabr, №242 (5932).

Dövlət başçısının və DİN rəhbərinin diqqət və qayğısı Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarında da ruh yüksəkliyinə səbəb olmuş və xidməti vəzifələrini layiqincə yerinə yetirmələrinə böyük təsir göstərmişdir.

Azərbaycan Respublikasında İnterpolun MMB-si 2012-ci il ərzində öz xidməti fəaliyyətini və digər qanunları, habelə polis fəaliyyətini tənzimləyən bir sıra qanunvericilik aktları, DİN-in Əsasnaməsi, DİN-nin normativ sənədləri və İnterpolun Baş Katibliyinin tövsiyələri əsasında qurmuşdur. DİN-in əsas tədbirlər planında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi, ümumi cinayətkarlığa qarşı mübarizədə polis əməkdaşlığının həyata keçirilməsi istiqamətində fəaliyyət göstərir. 2012-ci il tarixi dövrü ərzində İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından, müxtəlif qurumlardan və vətəndaşlardan 2011-ci il ərzində 7239 sənəd daxil olmuş və icraata qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28/12/2006-cı il sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə milli fəaliyyət planı"nın DİO-na aid müddəalarının yerinə yetirilməsi məqsədilə, müvafiq tədbirlər planının icrası üzrə görülmüş işlər barədə arayış tərtib olunaraq 20/03 №-li; 02/01/2012-ci il tarixli, 20/2132 №-li; 02/04/2012-ci il tarixli, 20/4607 №-li; 02/07/2012-ci il tarixli və 20/6264 №-li; 03/10/2012-ci il tarixli məktubla DİN-in Daxili Tədqiqatlar İdarəsinə təqdim olunmuşdur.

"Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyasından irəli gələn vəzifələrin Daxili İşlər orqanlarında icrasının təşkilinə dair" DİN-in 203 №-li 06/06/2007-ci il tarixli əmrinin icrası ilə əlaqədar, görülmüş işlər barədə arayışlar tərtib olunaraq, 20/1 №-li, 02/01/2012-ci il tarixli, 20/2213 №-li 04/04/2012-ci il tarixli, 20/4660 №-li 04/07/2012-ci il tarixli və 20/6256 №-li 03/10/2012-ci il tarixli məktubla DİN-in Baş Təhlükəsizlik İdarəsinə göndərilmişdir.

"2008-2011-ci illərdə Azərbaycan Respublikası DİN-in Beynəlxalq əməkdaşlığın həyata keçirilməsinə dair" proqramın təsdiq edilməsi barədə DİN-in 665 №-li 07/12/2007-ci il tarixli əmrinin icrası ilə bağlı, görülmüş işlər barədə arayış tərtib olunaraq, 20/2 №-li 02/01/2012-ci il tarixli məktubla DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsinə təqdim edilmişdir.

DİN-in "2012-ci il üçün əsas təşkilati tədbirlər planı"nın 1/31-ci bəndinin icrası ilə əlaqədar, 17 oktyabr 2012-ci il tarixində DİN-in Polis Akademiyasında "Şəxslərin İnterpol kanalları ilə beynəlxalq axtarışa verilmə qaydaları" mövzusunda virtual şəkildə seminar-məşğələ keçirilmişdir. 120 №li 22/10/2012-ci il tarixli arayışla DİN-in rəhbərliyinə məruzə olunmuşdur.

Daha bir tarixi hadisəni qeyd edək. DİN-in "2012-ci il üçün əsas təşki-

lati tədbirlər planının 2.5 bəndinə müvafiq olaraq, 30/10/2012-ci il tarixində İnterpolun MMB-də çalışmış və hazırda DİN-in digər qurumlarında xidmət edən və təqaüddə olan əməkdaşları da dəvət olunmaqla, 20 illiyə həsr olunmuş tədbir keçirilmişdir 20/79 №-li 26/12/2012-ci il tarixli arayışla DİN-in rəhbərliyinə məruzə olunmuşdur.

2012-ci ildə DİN-in kollegiyası tərəfindən qəbul olunmuş aidiyyəti qərarların icra vəziyyəti cari ilin fevral ayında MMB-in əməliyyat müşavirəsində müzakirəyə çıxarılaraq təhlil edilmişdir (protokol №5; 21/02/2012-ci il).

2012-ci ilin may ayında ölkəmizdə "Avroviziya-2012" beynəlxalq musiqi yarışması keçirilmişdir. Bu tədbirə hazırlıq və onun keçirilməsi müddəti ərzində təhlükəsizliyin təmin olunması ilə əlaqədar Daxili İşlər orqanları üzərinə böyük vəzifələr düşmüşdür. Bununla bağlı, Azərbaycan Respublikasında İnterpolun MMB-nin şəxsi heyəti də tədbir ərəfəsində və onun keçirilməsi müddətində gücləndirilmiş iş rejiminə keçirilmiş və respublikanın hüquq-mühafizə orqanları ilə xarici ölkələrin müvafiq orqanları arasında əlaqələndirici bir qurum kimi, bu məqsədlə həyata keçirilən tədbirlərə hazır olmuşdur. Dİ naziri cənab Ramil Usubovun verdiyi göstərişlər vaxtlı-vaxtında yerinə yetirilmişdir.

2012-ci il tarixi dövrü ərzində Daxili İşlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və dünya dövlətlərinin qabaqcıl təcrübəsinə dair məlumatların əlavə olaraq müvafiq orqanlara təqdim olunması istiqamətində də müəyyən işlər görülmüşdür.

DİN-in Baş İTİ-dən daxil olmuş sorğu ilə əlaqədar, polis orqanlarında müvəqqəti saxlama təcridxanalarında xidməti fəaliyyətin təkmilləşdirilməsi bir sıra üzv dövlətlərdə (Almaniya, İngiltərə, İspaniya, İtaliya, Portuqaliya, Macarıstan, Norveç, Polşa) İnterpolun MMB-lərinə müraciət olunmuş və əldə olunan məlumatlar təşəbbüskara təqdim edilmişdir.

DİN-nin kollegiyasının 24/01/2012-ci il tarixli qərarının 12-ci bəndinə əsasən DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsindən daxil olmuş sorğu ilə əlaqədar, əməliyyat şəraiti barədə məlumatlılığın araşdırılmasında böyük rolu olan, inzibati sahədə pasportların elektron formada aparılmasına dair beynəlxalq təcrübənin əldə olunması məqsədilə, bir sıra üzv dövlətlərdən (RF, Türkiyə, Belarus, Makedoniya, Gürcüstan, Serbiya, Macarıstan və Moldova) İnterpolun MMB-lərinə müraciət olunmuş və əldə olunan məlumatlar təşəbbüskara təqdim edilmişdir.

Hesabat dövrü ərzində İnterpol çərçivəsində təşkil olunan 38 konfrans, seminar və görüşlər barədə DİN-in və MMB-nin rəhbərliyinə məruzə olunmuş və müvafiq strukturlar məlumatlandırılmışdır.

13-15 mart 2012-ci il tarixində Fransanın Lion şəhərində İnterpolun

MMB rəislərinin 8-ci toplantısı keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin sabiq rəisi, polis general-mayoru S.Mirzəyev iştirak etmişdir.

29-31 may 2012-ci il tarixində Fransanın Lion şəhərində bu təşkilatın yeni "1 lizinq" sistemi üzrə təlim-seminar keçirilmiş və həmin tədbirdə ölkəmizi Azərbaycan Respublikasında İnterpolun MMB-nin şöbə rəisinin müavini, polis polkovnik-leytenantı E.Talıbzadə təmsil etmişdir.

4-5 oktyabr 2012-ci il tarixində Fransanın Lion şəhərində İnterpolun Avropa Əlaqələndirici Zabitlərinin 24-cü toplantısı keçirilmişdir. Bu tədbirdə Azərbaycan Respublikasını MMB-nin inspektor tərcüməçisi Elnur Aslanov təmsil etmişdir.

14 noyabr 2012-ci il tarixdə İsrail dövlətinin Təl-Əviv şəhərində Daxili Təhlükəsizlik üzrə II Beynəlxalq konfrans keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirinin mavini polis general-leytenantı Vilayət Eyvazovun rəhbərliyi ilə, DİN-in bir sıra vəzifəli şəxslərindən və polis baş leytenantı E.Orucovdan ibarət nümayəndə heyəti təmsil etmişdir.

2012-ci il ərzində ictimai təhlükəsizlik əleyhinə cinayətkarlıqla mübarizə sahəsində də müəyyən işlər görülmüşdür. İnterpolun üzvü olan ölkələrdən daxil olmuş, oğurlanmış və müsadirə olunmuş tapança, avtomat, silah və müxtəlif növ kalibrli tüfənglər barədə sorğulardakı məlumatlar uçota salınmış, müvafiq xidmətlərin qeydiyyatlarından yoxlanılmış və nəticələri barədə təşəbbüskarlara bildirilmişdir.

Beynəlxalq terror təşkilatları şəbəkələri tərəfindən qeyri-adi üsulla hazırlanmış partlayıcı qurğular, onların gizlədilmə üsulları ilə bağlı İnterpolun Baş Katibliyi və üzv ölkələr tərəfindən yayımlanan məlumatlar aidiyyəti üzrə respublikanın hüquq-mühafizə orqanlarına, DİN-in Baş Cinayət Axtarış İdarəsinə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə və MTN-ə göndərilmişdir.

2012-ci il ərzində xarici ölkələrdə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 957 nəfər şəxsin eyniləşdirilməsi ilə bağlı sorğular (Ankara – 560, Moldova – 76, Stokholm – 53, Visbaden – 32, Vyana – 15, Kiyev – 13, Kişinyov – 9, Paris – 7, Tehran – 6, Baş Katiblik – 4, Minsk – 3) onların 864 nəfəri Azərbaycan vətəndaşıdır. Təhlil göstərir ki, bu şəxslər əsasən pasport rejiminin pozulması(282), qaçaqmalçılıq (89), saxta sənədlərdən istifadə etmə (52), sərhədi qanunsuz keçmə (44), fahişəlik (30), dələduzluq (24), xəsarətyetirmə (18), oğurluq (16) və s. cinayət faktları üzrə cinayətə cəlb olunmuşlar.

2012-ci il tarixi dövrü ərzində axtarışa elan olunmuş şəxslər və itmiş, oğurlanmış yol sənədləri barədə bazalar sərhəd nəzarətinə götürülmüşdür.

Sərhəd keçmə zamanı "giriş-çıxış və qeydiyyat" məlumat axtarış sisteminin "sərhəd nəzarəti" alt sistemində yoxlanılması zamanı Türkiyə, Polşa, Almaniya, İtaliya, Fransa dövlətləri tərəfindən axtarışda olan 13 sənəd aşkar edilmiş və bununla təşəbbüskara məlumat verilmişdir.

Azərbaycan Respublikası DİN-nin beynəlxalq əməkdaşlığın inkişaf konsepsiyasının həyata keçirilməsinə dair proqram"ın 33-cü bəndində narkotik vasitələrin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, insan alveri, qeyri-leqal miqrasiya, transmilli cinayətlərin digər təzahürləri ilə mübarizə sahəsində fəaliyyəti, müasir tələblərə uyğun daha effektli təşkili, əməkdaşlığın yeni forma və üsulları ilə mübarizə metodlarına yiyələnməsi məqsədilə, qabaqcıl Avropa ölkələrinin hüquq-mühafizə orqanlarının analitik, idarəçilik və digər normativ hüquqi sənədlərin hazırlanması təcrübəsinin öyrənilməsi nəzərdə tutulmuşdur. Bunun üçün konkret olaraq, hansı təcrübənin maraq kəsb etməsi məqsədilə, DİN-in müvafiq qurumlarına (BMCMİ, BNMİ, İAQMS və BƏİ) müraciət edilmişdir ki, DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsindən daxil olmuş məktubla qabaqcıl Avropa ölkələrinin insan alverinə qarşı mübarizə üzrə müəyyən təcrübənin öyrənilməsi xahiş edilmişdir.

Məktub əsasında bir sıra üzv dövlətlərdən (Almaniya, İtaliya, Polşa, Fransa, Belçika, Avstriya, Çex Respublikası, Litva və Niderland) İnterpolun MMB-nə müvafiq sorğular göndərmiş və əldə olunmuş məlumatlar təşəbbüskara təqdim edilmişdir.[1]

23 may 2012-ci il tarixdə Azərbaycana səfərə gələn Baş katib R.Nobl 2012-ci ilin may ayının 23-də Azərbaycanın paytaxtı Bakı şəhərində Dənizkənarı Milli Parkda olmuşdur.

Heydər Əliyev fondunun icraçı direktoru A.Ələkbərov R.Nobla məlumat vermişdir ki, Bakının əvəzsiz incilərindən sayılan Dənizkənarı Milli Park maddi mədəniyyətimizin əsrarəngiz nümunəsi olmaqla yanaşı, paytaxtın tarixi və müasir simasını təşkil edən xüsusi təbii kompleksdir. Son illərdə prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə baş verən sürətli sosial-iqtisadi inkişaf meqapolisə çevrilməkdə olan Bakının simasını nəzərəçarpacaq dərəcədə dəyişmişdir.

O, "Avroviziya – 2012" mahnı müsabiqəsinin keçirildiyi "Baku Crystal Hall"a gələn İnterpolun Baş katibinə burada görülən işlər barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. Kompleksdə gələcəkdə başqa beynəlxalq tədbirlərin keçirilməsi də mümkündür.

"Baku Crystal Hall"un əhəmiyyətini artıran mühüm amillərdən biri də

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2012-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.2, 3,4,8,10,16,17,28.

onun dövlət bayrağı meydanının ətrafında yerləşməsidir. Qeyd edilmişdir ki, "Avrovaziya-2011" beynəlxalq mahnı müsabiqəsində möhtəşəm qələbə qazanan Azərbaycan bu uğuru, müstəqil olduğu 20 il ərzində, yarışmağa cəmi 4 dəfə qatılmaqla əldə etmişdir.

R.Nobl prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Bayraq meydanı və səkkizguşəli ulduz formasında yaradılmış Dövlət Bayrağı Muzeyi ilə də tanış olmuşdur. Bildirilmişdir ki, muzeydə müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud dövlətlərin, xanlıqların, o cümlədən İrəvan xanlığının bərpa olunmuş bayraqları, həmçinin, XVII-XVIII əsrlərə aid bayraqların üç elementləri, gerblər, Azərbaycan Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, pul nişanlarının nümunələri, orden və medalları, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin yaranması, formalaşması və inkişafı, Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi ilə bağlı fəaliyyətini əks etdirən çoxsaylı fotolar və sənədlər, Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin prezident seçildikdən sonra andiçmə mərasimlərində öpdükləri Dövlət bayraqları, Silahlı Qüvvələrin Ali Baş Komandanının bayrağı, Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqları və mərasim geyimləri nümayiş olunur.

Baş katib bildirmişdir ki, Azərbaycan prezidenti, hökuməti və xalqı "Auroviziya-2012"-nin yüksək səviyyədə keçirilməsi ilə fəxr edə bilər.

R.Nobl demişdir ki, "Mən 12 ildir ki, İnterpol kimi möhtəşəm qurumun Baş katibiyəm və işlədiyim müddət ərzində ictimai asayişin qorunması və təhlükəsizliyin təmin olunmasında bir çox texnologiyalar və yeniliklər görmüşəm. Amma Bakıda gördüklərim çox təsiredicidir. "Baku Crystal Hall"a gələnlər özlərini çox rahat hiss edəcəklər".[1]

Görüşdə, həmçinin, qeyd edilmişdir ki, Azərbaycan ən təhlükəsiz ölkələrdən biridir.

R.Nobl qeyd etmişdir, Azərbaycanda "Avroviziya-2012" mahnı müsabiqəsinin keçirilməsi məqsədilə Azərbaycan xarici vətəndaşların sənədlərinin etibarlığını, onların İnterpol tərəfindən axtarışda olub olmamasını yoxlamaq məqsədilə, ən müasir avadanlıqlardan istifadə edir. O, demişdir ki, təhlükəsizliklə bağlı müasir avadanlığın tətbiq edilməsi sahəsində Azərbaycan birinci yerdədir.[2]

2012-ci il sentyabr ayının 7-də olmuş daha bir tarixi hadisəni qeyd edək.

"MDB məkanında transmilli mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorizmə və bütövlükdə kriminal hallara qarşı mübarizədə vahid cəbhənin

---

[1] İnterpolun baş katibi Ronald Nobl: Azərbaycan qısa zamanda böyük işlər görmüşdür // Azərbaycan, 2012, 24 may, №113(6094).

[2] www.milli:AZ.24 may2012-ci il.

yaradılması birliyə üzv ölkələrin hamısının səylərinin birləşdirilməsini tələb edir". Bu fikirlər MDB iştirakçısı olan ölkələrin DİNŞ-ın 2012-ci il sentyabrın 12-də keçirilmiş növbəti iclasında səslənmişdir.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov tədbiri açaraq respublikada uğurla həyata keçirilən islahatlardan, o cümlədən Daxili İşlər orqanlarının maddi texniki bazasının möhkəmləndirilməsindən, mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə və terrorizmə qarşı mübarizə sahəsində görülən işlərdən əldə olunmuş uğurlardan danışmışdır.

Cənab Ramil Usubov bildirmişdir ki, MDB DİNŞ-in formatında əməkdaşlıq daima möhkəmlənir, iştirakçı dövlətlərin mənafelərinə xidmət edən yeni konkret məzmun alır. Bu formada əməkdaşlıq müasir çağırışlara və təhlükələrə layiqli cavabdır. Beynəlxalq terrorizmə və mütəşəkkil millətlərarası cinayətkarlıqla mübarizədə müvəffəqiyyət birlikdə qarşılıqlı anlaşmada və insanların dinc həyatının müdafiəsi üçün birgə fədakar səylərin tarazlığıdır.

Tədbirdə iştirak edən R.Nobl demişdir ki, İnterpol MDB DİNŞ-in fəaliyyətinə böyük önəm verir və həmişə əməkdaşlıqda maraqlıdır. 2012-ci ilin sentyabr ayının 7-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev MDB iştirakçısı olan dövlətlərin DİNŞ-in Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir.

Prezident İlham Əliyev demişdir: "Ölkəmizin hüquq-mühafizə orqanları arasında əməkdaşlıq bütövlükdə çox dinamik və uğurla inkişaf edir. Əlbəttə, DİN-in fəaliyyəti çərçivəsində əməkdaşlığın xüsusi əhəmiyyəti vardır. Azərbaycana gəldikdə isə, təmsil etdiyimiz ölkələrlə bizim aramızda bütövlükdə çox dost münasibətlər, etimada söykənən qarşılıqlı səmimi dəstəkləmə münasibətləri qurulmuşdur. Bu dəstək həm də əməkdaşlığın mövcud olduğu səviyyədə özünü büruzə verir.

Müasir dövrdə biz hamımız qarşılıqlı surətdə bağlıyıq və hüquq pozuntularının profilaktikası və aradan qaldırılması üzrə birgə tədbirlər zəruri olduqda əməkdaşlığın potensialını, informasiya mübadiləsini gücləndirməyə çalışmalıyıq. Dünyada təhdidlər artır. Həmin təhdidlərin xarakteri dəyişməz qalsa da, formaları dəyişir. Əlbəttə, biz yeni çağırışlara, yeni təhdidlərə hazır olmalıyıq. Vətəndaşlarımızın bir çox mənada təhlükəsizliyi və həyatı ölkələrin indiki halda MDB məkanında qarşılıqlı fəaliyyətinin nə dərəcədə səmərəli təşkil edilməsindən asılı olacaqdır. Yəni, mən bizim və MDB ölkələrinin Daxili İşlər orqanları arasında əməkdaşlığı təşkilatımız çərçivəsində, habelə ikitərəfli formatda çox müsbət dəyərləndirirəm və qiymətləndirirəm".

Həmçinin İ.Əliyev bildirmişdir ki, Azərbaycan Postsosialist məkanda MDB-nin fəal üzvüdür, bir çox proqramlarda, layihələrdə həm humanitar,

həm də iqtisadi sahələrdə, həm də təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərində iştirak edir.

Daha sonra prezident İlham Əliyev ölkənin İnterpol ilə uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdırmışdır.[1]

Bakıda iki gün davam edən iclasda MDB-nin iştirakçısı olan dövlətlərin DİN-lərinin əməkdaşlığının prioritet istiqamətləri, cinayətkarlıqla mübarizədə dövlətlərarası proqramın həyata keçirilməsinin gedişi, 2014-2018-ci illərdə cinayətkarlıqla mübarizədə birgə tədbirlər üzrə Dövlətlərarası proqramın və 2014-2018-ci illərdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizədə və narkomaniyaya qarşı fəaliyyətində MDB-yə üzv dövlətlərin proqramının layihələrinin işlənib hazırlanması, birlik dövlətlərin Daxili İşlər Nazirliklərinin əməkdaşlığının inkişaf konsepsiyası layihəsinin və MDB-nin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlığın digər növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun maliyyə-təsərrüfat fəaliyyətinin aparılması üzrə təlimatın layihəsinin hazırlanması DİNŞ-nın nəzdində Elmi-məsləhət şurasının yaradılması və s. məsələlər ətrafında geniş müzakirələr aparılmış, müvafiq qərarlar qəbul edilmişdir.[2]

2012-ci ilin noyabr ayının 5-də daha bir tarixi hadisəni qeyd olunmuşdu. Belə ki, cənab Ramil Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti Romada keçirilən İnterpolun 81-ci sessiyasında iştirak etmişdir. Noyabrın 5-də keçirilən sessiyada nazirlərin görüşü zamanı İnterpolun prezidenti Hu Bun Hyui və bu qurumun Baş katibi R.Nobl çıxış etmişlər. Sonra bir çox ölkələrin nümayəndələri cinayətkarlıqla mübarizə sahəsində əldə etdikləri uğurlardan danışmış, bu sahədə beynəlxalq əməkdaşlığın önəmliliyini vurğulamışlar.

Sessiya çərçivəsində cənab Ramil Usubov İtaliyanın Daxili İşlər naziri Anna Mariya Kançeleri ilə də görüşmüşdür. O, həmkarına Azərbaycanın Dövlət müstəqilliyinin, demokratik prinsiplərin möhkəmlənməsi, hüquqi, dünyəvi, iqtisadi baxımdan güclü dövlət quruculuğu, ictimai münasibətləri tənzimləyən hüquq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər barədə məlumat vermiş, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin genişləndiyini və daha da möhkəmləndiyini, həmçinin hüquq-mühafizə sahəsində əməkdaşlığın inkişafı və bu çərçivədə əldə edilən təcrübə mübadiləsinin vacibliyini xüsusi qeyd etmişdir. Kançeleri ölkələrimiz arasında-

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasın iştirakçılarını qəbul etmişdir // Azərbaycan, 2012, 8 sentyabr, № 200(6181).

[2] MDB iştirakçıları olan ölkələrin Bakıda keçirilən iclası başa çatmışdır // Azərbaycan, 2012, 9 sentyabr, № 207(6782).

kı əlaqələrin yüksək səviyyəsindən məmnun olduğunu vurğulamış, İtaliyanın Azərbaycan ilə daha da möhkəm əməkdaşlığa və bunun üçün lazımi addımların atılmasına hazır olduğunu bildirmişdir.

Görüşün sonunda "ARDİN və İtaliya Respublikasının DİN-i arasında əməkdaşlıq haqqında" saziş imzalanmışdır.[1]

İnterpolun İtaliyanın Roma şəhərində keçirilən bu tarixi sessiyasında İnterpolun prezidenti vəzifəsinə İtaliyanın DİN-i Anna Mariya Kançeleri seçilərək Sinqapurlu Hu Bun Hyueni əvəz etdi.

2013-cü il tarixi dövrünə nəzər salaq. 2013-cü il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nə İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından, müxtəlif qurumlardan və vətəndaşlardan 2012-ci ilin I yarımili ərzində 4201 sənəd daxil olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 27/12/2011-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş və "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılması üzrə milli fəaliyyət proqramı"-nın DİN-ə aid müddəalarının icrası üzrə tədbirlər planının müvafiq bəndlərinin yerinə yetirilməsi barədə arayışlar tərtib olunaraq, 20/1691 №li 01/04/2013-cü il tarixli məktubla DİN-in Daxili Tədqiqatlar İdarəsinə təqdim olunmuşdur.

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasından irəli gələn vəzifələrin Daxili İşlər orqanlarında icrasının təşkilinə dair" DİN-in 06/06/2007-ci il tarixli 303 №li əmrinin icrası ilə əlaqədar görülmüş işlər barədə arayışlar tərtib olunaraq 20/3 №li 02/12/2013-cü il və 20/1764 №li 04/04/2013-cü il tarixli məktublarla DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə təqdim olunmuşdur.

AR DİN-in 04.07.2012-ci il tarixli 2416-001-12 №li əmri ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Azərbaycan Respublikası DİN-in Beynəlxalq əməkdaşlıq İnkişaf Konsepsiyasının həyata keçirilməsinə dair" proqramın icrası ilə bağlı, görülmüş işlər barədə arayış tərtib olunaraq, 20/1 №-li 02/01/2013-cü il tarixli məktubla ARDİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsinə təqdim edilmişdir. Ötən ildə DİN-in Kollegiyası tərəfindən qəbul olunmuş aidiyyəti qərarların icrası vəziyyəti 2013-cü ilin fevral ayında MMB-nin əməliyyat müşavirəsində müzakirəyə çıxarılaraq təhlil edilmişdir (protokol №10, 27/02/2013-cü il).

Hesabat dövrü ərzində Daxili İşlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə və dünya dövlətlərinin qabaqcıl təcrübəsinə dair məlumatlar

[1] Azərbaycan və İtaliyanın DİN-ləri arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır // Azərbaycan, 2012, 7 noyabr, №248(6229).

əldə olunaraq, müvafiq orqanlara təqdim olunması istiqamətində də müəyyən işlər görülmüşdür. DİN-in 04/07/2012-ci il tarixli, Ə416-001-12 №-li əmri ilə təsdiq edilmiş "2012-2015-ci illərdə ARDİN-in beynəlxalq əməkdaşlığının inkişaf konsepsiyasının həyata keçirilməsinə dair" 3.3 bəndində narkotik vasitələrin qanunsuz dövriyyəsi, korrupsiya, çirkli pulların yuyulması və transmilli cinayətkarlığın digər təzahürləri ilə mübarizədə fəaliyyətinin müasir tələblərə uyğun daha da effektli təşkili, əməkdaşların yeni forma və üsullar ilə mübarizə metodlarına yiyələnməsi məqsədilə, qabaqcıl Avropa ölkələrinin hüquq-mühafizə orqanlarının analitik idarəçilik və digər normativ hüquqi sənədlərin hazırlanması təcrübəsinin öyrənilməsi nəzərdə tutulmuşdur.[1]

Azərbaycan Respublikasının müvafiq qurumlarına, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİ), Baş Narkotiklərlə Mübarizə İdarəsinə (BNMİ), İnsan Alverinə Qarşı Mübarizə İdarəsinə (İAQMİ) və Beynəlxalq Əməkdaşlıq İdarəsinə (BƏİ) müraciət edilmişdir. Bu müraciətlərdən sonra DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsindən daxil olmuş məktubda qabaqcıl Avropa ölkələrində insan alverinə qarşı mübarizə üzrə müəyyən təcrübənin öyrənilməsi xahiş edilmişdir. Həmin məktub əsasında bir sıra üzv dövlətlərin (Almaniya, İtaliya, İspaniya, Polşa, Fransa, Belçika, Avstriya, Çex Respublikası, Litva və Niderland) İnterpolun MMB-nə müvafiq sorğular göndərilmiş və əldə olunan məlumatlar təşəbbüskara təqdim olunmuşdur. Habelə DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin müvafiq müraciətlərindən sonra, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində müəyyən müasir üsulların öyrənilməsi üçün İnterpol kanallarından istifadə edilməsi xahiş edilmişdir. Bununla bağlı, bir sıra üzv dövlətlərdən (Türkiyə, İngiltərə, Fransa, Avstriya, İsveçrə, Bolqarıstan və İsveç) İnterpolun MMB-nə müvafiq sorğular göndərilmişdir.

Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş xarici ölkə vətəndaşlarının əl-barmaq izlərinin eyniləşdirilməsi məqsədilə, İnterpolun Baş Katibliyinə təqdim olunması üçün, DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinə təqdim olunması üçün müraciət olunmuş və əl-barmaq izlərinin eyniləşdirilməsi üçün Baş Katibliyə göndərilmişdir.

Müxtəlif aktual məsələlərin müzakirə olunması, təcrübə və məlumat mübadiləsinin təmin olunması məqsədilə, İnterpol çərçivəsində müxtəlif mövzular üzrə təşkil olunan konfrans, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışdır. Hesabat dövrü ərzində İnterpol çərçivəsində təşkil olunan 27 konfrans, seminar və görüşlər barədə DİN-in və MMB-nin rəhbərliyinə məruzə olunmuş və müvafiq strukturlar məlumatlandırılmışlar.

Bir neçə vacib konfransları tarixi ardıcıllıqla şərh edək.

[1] Azərbaycan Respublikası DİN-in Ə 416-001-12 №li 04/07.2012-ci il tarixli əmri.

17-18 yanvar 2013-cü il tarixdə İtaliyanın Roma şəhərində İnterpolun Baş Katibliyi tərəfindən "Çovkan oyunlarının nəticələrinin əvvəldən müəyyənləşdirilməsi: Gözəl oyunun zəif tərəfi" mövzusunda konfrans keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını MMB-nin inspektoru, polis mayoru Heydər Əliyev təmsil etmişdir.

14-15 aprel 2013-cü il tarixdə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-in terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi qrupunun hüquqi statistika üzrə işçi alt qrupunun növbəti iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinin baş inspektoru, polis mayoru V.Hüseynov və İnterpolun MMB-nin inspektor tərcüməçisi Elnur Aslanov təmsil etmişlər.

17-19 aprel 2013-cü il tarixində Fransanın Lion şəhərində İnterpolun MMB rəislərinin 9-cu toplantısı keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB rəisi, polis general-mayoru M.Təhməzov və MMB-nin Təşkilati-analitik şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Hamlet Babayev təmsil etmişlər.

14-16 may 2013-cü il tarixlərdə Macarıstanın Budapeşt şəhərində İnterpolun 42-ci Avropa Regional Konfransı keçirilmiş və həmin tədbirdə Azərbaycanı İnterpolun MMB-nin rəisi, polis general-mayoru M.Təhməzov və MMB-nin şöbə rəisinin müavini Hamlet Babayev təmsil etmişlər.

26-27 iyun 2013-cü il tarixlərdə Türkiyənin İstanbul şəhərində İnterpolun "Kalkan" layihəsinin işçi qrupunun mühafizə zonalarından keçən terror marşrutları və radikallaşma əleyhinə mübarizədə mənimsənilməli biliklər" mövzusunda növbəti iclası keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin rəis müavini, polis polkovnik-leytenantı cənab Elnur Nəbiyev və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Mühüm işlər üzrə baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı M.Məmmədov təmsil etmişlər.

2013-cü ilin I yarım ili ərzində ictimai təhlükəsizlik əleyhinə cinayətkarlıqla mübarizə sahəsində də müəyyən işlər görülmüşdür.

İnterpolun üzvü olan ölkələrdən daxil olmuş oğurlanmış, aşkar olunmuş və müsadirə edilmiş tapança, avtomat silah və müxtəlif növ kalibrli tüfənglər barədə sorğulardakı məlumat uçota alınmış, müvafiq xidmətlərin qeydiyyatlarından yoxlanılmış və nəticələri barədə təşəbbüskara bildirilmişdir. Beynəlxalq terror təşkilatları və şəbəkələri tərəfindən qeyri-adi üsulla hazırlanmış partlayıcı qurğular, onların yerləşdirmə üsulları ilə bağlı İnterpolun Baş Katibliyinə və üzv ölkələr tərəfindən yayımlanan məlumat aidiyyəti üzrə respublikanın hüquq-mühafizə orqanlarına, DİN-in Baş Cinayət Axtarış İdarəsinə və MTN-ə göndərilmişdir.

Xarici ölkələrdə cinayət və inzibati məsuliyyətə cəlb olunmuş 411 nəfər şəxsin eyniləşdirilməsi ilə bağlı sorğular (Ankara – 235, Moskva – 46, Stokholm – 19, Kişinyov – 8, Visbaden – 6, Vyana – 7, Minsk – 3, Tehran – 7, Paris – 7, Kiyev – 1 və s.) daxil olmuşdur. Onlardan 328 nəfəri Azərbaycan vətəndaşıdır. Təhlillər göstərir ki, bu şəxslər əsasən pasport rejiminin pozulması (151), qaçaqmalçılıq (45), saxta sənədlərdən istifadə etmə (10), oğurluq (11), sərhədi qanunsuz keçmə (38), fahişəlik (14), dostluq (28), xəsarət yetirmə (18) və s. cinayət faktları üzrə məsuliyyətə cəlb olunmuşlar.

MMB əməkdaşları tərəfindən, bilavasitə "1-link" portalının vasitəsilə istiqamətləndirmələrin nəşr olunması və yayımlara verilməsi prosedurlarını mənimsəmək üçün iyul ayında təlimlər və məşqlər təşkil edilmişdir. Təlim və məşqlərdə test rejimində bu proses nümayiş etdirilmiş və əməkdaşların sualları cavablandırılmışdır.[1]

11 iyul 2014-cü il tarixində 2014-cü ilin 1-ci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclası giriş sözü ilə açan Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafının davam etdiyini, aparılan hərtərəfli islahatların daha da dərinləşdiyini, bütövlükdə ictimai-siyasi həyatın bütün sahələrində irəliləyişə nail olunduğunu, eyni zamanda ictimai asayişin, vətəndaşların qanuni mənafelərinin hesabat dövründə də etibarlı qorunduğunu, qarşıda duran vəzifələrin etibarlı və tam yerinə yetirildiyini vurğulamışdır.

Qeyd etmişdir ki, uzun illərdir ki, Azərbaycan sabitliyin və əmin-amanlığın qorunması sahəsində dünyanın öncül dövlətlərindən biridir. Respublikamızda əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı son 10 ildə orta hesabla 231 fakt təşkil etməklə əksər ölkələrlə müqayisədə xeyli azdır. Cinayətkarların dinamikasında və statistikasında müşahidə olunan ötən illərin müsbət təmayülləri cari ilin 6 ayında da davam etmiş, kriminogen durum nəzarətdə saxlanılmışdır.

Hesabat məruzəsi ilə çıxış edən nazir müavini Vilayət Eyvazov qeyd etmişdir ki, göstərilən müddətdə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyektləri üzrə 12.231 cinayət qeydə alınmışdır. Onların 92 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən ibtidai araşdırılması aparılan hüquqazidd əməllər olmuşdur. Bu cinayətlərin 87,2 faizini ağır və xüsusilə ağır cinayətlər təşkil etmişdir.[2]

2015-ci il yanvarın 27-də DİN-də 2014-cü ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edil-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 1-ci yarım ili ərzində xidməti fəaliyyətinə dair arayışı, s.1-2,19-21.

[2] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2014, 17 iyul, №27(3191).

məsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirildi.

İclasda qeyd olundu ki, möhtərəm prezidentimizin fərman, sərəncam və tapşırıqlarından, aidiyyəti plan və proqramlardan irəli gələn vəzifələr vaxtında və tam yerinə yetirilib. Vətəndaşların əmin-amanlığının yüksək səviyyədə təmin edildiyi dövlət imicini bir daha təsdiqləyən respublikamız əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayının azaldığına görə ötən il də MDB və Şərqi Avropa məkanında öncül mövqedə olub. Daha sonra iclasın gündəliyi elan olunub və Daxili İşlər naziri hesabat məruzəsi ilə çıxış edib. O, deyib ki, hesabat dövründə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 24607 cinayət qeydə alınıb. Onların 91 faizini və ya 22297-ni daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər təşkil edib. Bu cinayətlərin 86 faizi böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 14 faizi ağır və xüsusilə ağır növlər olub. Bildirilib ki, törədilən əmələ görə cəzanın labüdlüyünün təmin edilməsi işi də nəzarətdə saxlanılıb, təqsirləndirilən şəxslərin axtarışının nəticələri 6,5 faiz yaxşılaşaraq istintaqdan və məhkəmələrdən yayınan 2193 nəfər tutulub. Azərbaycan Respublikasında İnterpolun MMB-si tərəfindən axtarışa verilmiş 73 nəfərin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 27 şəxsin yerli müəyyən olunub. Bütövlükdə axtarılan şəxslərin 67,7 faizi tutulub.[1]

16 aprel 2015-ci ildə DİN-də "Vətəndaşların şəxsiyyət vəsiqələri ilə təmin edilməsi"nin və "1-ci Avropa oyunları ilə əlaqədar ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və texniki vasitələrlə təminat sahəsində görülən işlər"in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

Cənab Ramil Usubov müzakirəyə çıxarılan hər bir məsələnin aktual olduğunu, Dİ orqanlarının fəaliyyəti ilə bağlı mühüm sahələri əhatə etdiyini bildirib. İlk Avropa oyunlarının ölkəmizin son illər artan beynəlxalq nüfuzunun və iqtisadi gücünün, regionda lider dövlətə çevrilməsinin, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən geniş quruculuq, abadlıq işlərinə, köklü demokratik hüquqi islahatlara verilən yüksək qiymətin əyani göstəricisi olduğunu xatırladan Daxili İşlər naziri, bu mötəbər beynəlxalq idman yarışına hazırlıq işlərinin sürətlə getdiyini, planlaşdırılan tədbirlərin ardıcıllıqla yerinə-yetirildiyini və ciddi nəzarətdə saxlanıldığını qeyd edib.

Sözügedən ümumdövlət əhəmiyyətli tədbirlər ərəfəsində respublikada ictimai asayişin və daxili təhlükəsizliyin etibarlı qorunması və 1-ci Avropa oyunlarına hazırlıqla bağlı dövlətin, hökumətin, şəxsən Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və ölkəmizin birinci xanımı, Heydər Əli-

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 29 yanvar, №4(3217).

yev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın əvəzsiz dəstəyi sayəsində böyük bir fəaliyyətin ortaya qoyulduğu xüsusi vurğulanıb.

Mövcud kriminogen duruma toxunan nazir, əvvəlki illərdə olduğu kimi, cari ilin birinci rübündə də cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin təmin edilməsi, insan hüquq və azadlıqlarının qorunması üzrə kompleks tədbirlərin uğurla davam etdirildiyini, bütövlükdə qarşıda duran vəzifələrin layiqincə yerinə yetirildiyini bildirib.

1-ci Avropa Oyunları ilə əlaqədar ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və texniki vasitələrlə təminat sahəsində görülən işlər barədə Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru C.Məmmədov, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru R.Zeynalov və Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi, polis general-mayoru D.Aslanov məruzələrlə çıxış ediblər.

Qeyd olunub ki, qaydaya qoyulan vəzifələrin tam və vaxtında yerinəyetirilməsi üçün hələ 2013-cü il fevral ayının 4-də nazirlikdə əməliyyat müşavirəsi keçirilib. Müşavirənin qərarına əsasən, texniki vasitələrə, əşya və ləvazimatlara olan tələbat müəyyən edilib, xüsusi komissiya yaradılıb, təşkilati iş, şəxsi heyətin hazırlığı, profilaktik tədbirlər, ictimai qaydanın qorunması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində qarşıda duran vəzifələrə dair tədbirlər planı dəqiqləşdirilərək icraya yönəldilib. Təhlükəsizlik məsələlərinin həlli ilə bağlı Avropa oyunlarının Əməliyyat Komitəsi tərəfindən yaradılan İşçi qrupu tərkibində nazirliyin əməkdaşları da iştirak edirlər. Təhlükəsizliyin etibarlı təmini, yarış və qeyri yarış obyektlərinin mühafizəsi məqsədilə Dislokasiya planı hazırlanaraq təsdiqlənib. Nazirliyin xidmətlərinin, ərazi polis orqanlarının, nizami polis hissələrinin və Daxili Qoşunların hərbi qulluqçularının fəaliyyətinin koordinasiyası, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili, əməliyyat şəraitinin fasiləsiz izlənilməsi, vəziyyətin dəyişməsinə operativ reaksiya verilməsi, hüquq qaydalarına nəzarətin həyata keçirilməsi məqsədilə, müvafiq əmrlə Əməliyyat Qərargahı və əlavə Köməkçi Qərargah yaradılıb.

Kollegiya iştirakçılarının nəzərinə çatdırılıb ki, Oyunlar zamanı asayişin qorunması sahəsində təcrübə mübadiləsinin səmərəliliyinin artırılması üçün cari il martın əvvəllərində Avstriya Federal DİN-nin və Vyana Polis Departamentinin İctimai Təhlükəsizlik Bölməsinin əməkdaşları Azərbaycanda səfərdə olublar. Baş İctimai Təhlükəsizlik İdarəsində "Təhlükəsiz şəhər", "102" xidməti-zəng mərkəzində görüşlər, çevik polis alayında seminar məşğələlər keçirilib, təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb. Bununla yanaşı, martın 10-da 1-ci Avropa oyunları zamanı ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması, ərazinin mühafizəsi və nəzarət buraxılış tədbirlərinə cəlb edilərək qüvvə və vasitələrin ümumi sayını və funksiyalarını müəyyən edən plan-hesabat hazırlanaraq köməkçi qərargahlara təqdim olunub. O da qeyd olu-

nub ki, martın 27-də cənab Ramil Usubov tərəfindən Bakı Olimpiya Stadionunda, Milli Gimnastika Arenalarında, Atletlər və Media Atçılıq Mərkəzində xidmətin təşkilinin vəziyyəti yoxlanılıb.

Avropa Oyunları Əməliyyat Komitəsi ilə birgə aparılmış ilkin hesabatlara görə, nəzarət – buraxılış yerlərində xüsusi yoxlama avadanlıqlarından istifadə ediləcəyi nəzərdə tutulub. Avropa Oyunlarına hazırlığın bütün komponentlərindən olan yol-hərəkət təhlükəsizliyinin təşkili ilə əlaqədar, 2014-cü ildə cari ilin ötən dövründə 798 ədəd Günəş enerjisi ilə qidalanan 2377 yeni yol nişanı qoyulub və ya yenisi ilə əvəzlənib, 25 təkrarlanan işıqfor obyekti quraşdırılıb, küçə və yollarda 224 min poqonometr cizgiləmə işləri aparılıb. Bakı şəhərində 290 nöqtədə videomüşahidə kameralarının quraşdırılması üzrə işlərin 65%-i artıq tamamlanıb. Hazırda ”Təhlükəsiz Şəhər” sisteminin respublika üzrə (metropoliten də nəzərə alınmaqla) 2039 nöqtədə 8085, o cümlədən paytaxtda 1356 nöqtədə 4224 kamerası quraşdırılmışdır.

İctimai asayişin qorunmasında edəcək bayır xidməti əməkdaşlarının peşə hazırlığının və vətəndaşlarla ünsiyyət səviyyəsinin yüksəldilməsi məsələlərinə də böyük önəm verərək, lazımi tədbirlər davam etdirilib. Belə ki, Daxili İşlər orqanlarında xidmətə qəbul zamanı xarici dil bilən namizədlərə üstünlük verilib, habelə “Polis əməkdaşlarının davranış qaydaları” adlı metodik vəsait hazırlanaraq, öyrənilməsi üçün bütün orqan və hissələrə göndərilib. Çevik polis alayının və paytaxtın orqan və hissələrinin bayır xidmətinin ümumilikdə 1000 əməkdaşı üçün ingilis dili kursları təşkil edilib. Diqqətə çatdırılıb ki, Əməliyyat Komitəsi tərəfindən mütəmadi olaraq, işçi qrupunun iclasları keçirilir, yaranmış problemlərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülür.

Məruzə ətrafı çıxışlarda müzakirə olunan məsələlər üzrə görülmüş işlər barədə ətraflı danışılıb və qarşıda duran vəzifələr qeyd olunub. Cənab Ramil Usubov 1-ci Avropa Oyunlarına hazırlıqlarla bağlı, Daxili İşlər orqanlarının da üzərinə məsul vəzifələrin düşdüyünü, Azərbaycan Respublikası prezidentinin aktlarından irəli gələn məsələlərin, təşkilat komitəsinin müəyyənləşdirdiyi aidiyyəti vəzifələrin, nazirliyin tədbirlər planının, əmr və görüşlərinin layiqincə icrasının hər bir əməkdaşın şərəf işi olduğunu, bu zaman ən yüksək səviyyədə xidmət aparılmasının, digər tərəfdən həmin oyunlarda Azərbaycan Prezidentinin işgüzar nüfuzunun və prezidentin aktlarından irəli gələn məsələlərin, təşkilat komitəsinin müəyyənləşdirdiyi aidiyyəti vəzifələrin, nazirliyin tədbirlər planının, əmr və göstərişlərinin əhəmiyyətini qeyd edib.

Nazir adı çəkilən tədbirin ölkəmizin adına və nüfuzuna layiq təhlükəsizlik və əmin-amanlıq şəraitində keçirilməsinin, baş verə biləcək istənilən fövqəladə vəziyyətə hazırlıq məqsədilə, vaxtaşırı təlim-məşqlərin təşkilinin, əməliyyat şəraitinin ciddi nəzarətdə saxlanılmasının, nazirliyin müvafiq

strukturlarının aidiyyəti dövlət orqanları ilə davamlı informasiya mübadiləsi aparmasının, şəxsi heyətin mənəvi, psixoloji və peşəkar hazırlığının daha da yüksəldilməsinin vacibliyindən danışıb.

Çıxışının sonunda Ramil Usubov ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi əmin edib ki, Vətəninə, xalqına və dövlətinə sədaqətli olan Daxili İşlər orqanlarının şəxsi heyəti qarşıdan gələn 1-ci Avropa oyunlarının yüksək səviyyədə keçirilməsi üçün üzərinə düşən bütün məsul vəzifələri əzmlə yerinə yetirəcəkdir.[1]

Nəticə olaraq bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmiz son illərdə böyük inkişaf yolu keçmiş, respublikamızın gələcək tərəqqisi yolunda yeni perspektivlər açmış və insan amilinə söykənən milli təhlükəsizlik strategiyası uğurla həyata keçməkdir.

Ölkəmizdə cinayətkarlıqla mühazirə, ictimai qayda və ictimai təhlükəsizliyin təmin olunması, polisin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və təkmilləşdirilməsi, hüquqi islahatların həyata keçirilməsi, cinayət qanununun humanistləşdirilməsi, insan hüquq və azadlıqlarının, qanunun aliliyinin təmini prinsipləri respublikada ümumdövlət əhəmiyyətli vəzifələr almaqdadır. Dövlətimizin əsas dayaqlarından olan Daxili İşlər orqanları ölkəmizdə aparılan quruculuq işlərində də fəallıq göstərərək dövlətin hüquqi və fiziki şəxslərinin mənafelərinin və mülkiyyətinin hüquqazidd əməllərdən qorunması, insanların azad, sərbəst yaşayıb-işləməsi üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışlar.

Dövlət başçısının və DİN rəhbərliyinin diqqət və qayğısı İnterpolun MMB-nin əməkdaşlarının ruh yüksəkliyinə səbəb olaraq xidməti vəzifələrini layiqincə yerinə yetirmələrinə təsir göstərir.

## 2.2. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun strukturu və kadr təminatı

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən və ümumbəşəri dəyərlərin aliliyini qəbul edərək, dünyəvi demokratik, hüquqi dövlət quruculuğu yolunu seçdikdən sonra, onun qarşısında digər problemlərlə yanaşı, hüquqi islahatların aparılması, hüquqi tənzimləmə mexanizmlərinin beynəlxalq hüquq normaları əsasında yenidən qurulması zərurəti yaranmışdır. Hüquqi islahatların demokratikləşdirmə, humanistləşdirmə prosesinin və ümumiyyətlə hər bir dünyəvi sivil dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının bu yolla irəliləməsinə və sözsüz ki, qoyulmuş ali məqsədə çatmasına zəmanət verən həlledici amil məhz ulu öndərimiz Hey-

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2016, 16 aprel, №15(3228).

dər Əliyev ölkədə gedən bütün dəyişiklərlə bərabər hüquqi islahatların da aparılmasını öz üzərinə götürdü və hüquqi münasibətləri tənzimləyən cinayət, cinayət prosessual, mülki, mülki prosessual, inzibati xətalar, gömrük məsələlərinin, "məhkəmələr və hakimlər haqqında", "vergilər haqqında", "prokurorluq haqqında", "polis haqqında", "əməliyyat-axtarış fəaliyyəti haqqında" və s. qanunların hazırlanmasını təmin etmişdir. Son qısa zaman kəsiyində ulu öndərimiz müstəqilliyin ilk illərində ölkədə xaos və anarxiya baş alıb gedirdi, cinayətkarlıq tüğyan edirdi. Ölkədə xaos və anarxiyanın qarşısı alındı və stabilliyə nail olundu.[1]

Heydər Əliyevin siyasi kursu onun layiqli varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sabitlik, ictimai təhlükəsizlik olmayan bir ölkədə heç bir inkişafdan: nə siyasi, nə də iqtisadi inkişafdan söhbət gedə bilməz.

Bu gün bizim uğurlu, iqtisadi və siyasi işlərimizin, bu sahədə aparılan siyasətin təməlində Azərbaycanda mövcud olan sabitlik dayanır. Biz bunu gündəlik həyatda da görürük. Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkəsidir və bu proses davam edir. Azərbaycanda çox böyük quruculuq, abadlıq işləri aparılır, çox gözəl ab-hava var. İctimai vəziyyət çox gözəldir, xalqla iqtidar arasında əlaqələr çox yüksək səviyyədədir. Bizim həyata keçirdiyimiz bütün proqramlar Azərbaycan xalqının maddi rifahının yaxşılaşmasına yönəldilibdir...

Cinayətkarlıq problemi bütün dünyada qlobal xarakter daşıdığına görə bu da sosial, iqtisadi, siyasi, mədəni inkişafa xeyli mane olur. Müstəqilliyin ilk illərində ölkə əhalisinin səviyyəsinin aşağı salınmasına, insanların yoxsulluq səviyyəsində yaşamasını şərtləndirən amillər idi.

Uzun müddət ərzində ARDİN-in nəzdində yaradılmış işgüzar qrup İnterpola üzv olan xarici ölkələrin təcrübəsindən, onların struktur və iş metod və formalarından yararlanmaq məqsədi daşıyır.

Bildiyimiz kimi, Azərbaycan müstəqillik əldə etdikdən sonra, İnterpolun Baş Assambleyasının 4-10 noyabr 1992-ci il tarixində Seneqalın Dakar şəhərində keçirilən 61-ci sessiyasında bu mötəbər təşkilatın bərabərhüquqlu üzvlüyünə qəbul edildi.[2] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 fevral 1993-cü il tarixli 72 saylı qərarı ilə 1993-cü il martın 1-dən fəaliyyətə başladı. ARDİN-in 140 saylı 27 mart 1995-ci il tarixli əmri ilə, Azərbaycan Respublikasında İnterpolun MMB-nin Əsasnaməsi təsdiq edildi. İnterpolun MMB-si idarə səlahiyyətində fəaliyyət göstərirdi və onun strukturu bu qaydada idi: İnterpolun MMB-si ARDİN-in strukturuna daxil olan idarə səla-

---

[1] Quliyev F. Azərbaycanda hüquqi islahatlat və DİN // Mübariz keşikdə, 2001, 29 mart.
[2] Джумазаде В. Азербайджан вступает в Интерпол // Бакинский рабочий, 17 октября 1992, №186 (22465).

hiyyətində MMB-nin rəisi, 1-ci rəis müavini, 2-ci rəis müavini, eyni zamanda Texniki-təminat şöbəsinin rəisi (3-cü şöbənin rəisi) – orada avtomatlaşdırılmış sistemlər fəaliyyət göstərirdi. I şöbədə "İnformasiyanın analizi və hazırlanması" şöbəsi, şöbənin tərkibində "İnformasiyanın operativ hazırlanması" və "İnformasiyanın analitik" bölmələri, II şöbədə "Ümumi cinayətlər və beynəlxalq axtarış" şöbəsi, onun tərkibində "İqtisadi və mülki cinayətlər üzrə". "Şəxsiyyət əleyhinə cinayətlər və beynəlxalq axtarış" bölmələri fəaliyyət göstərirdi. MMB-nin həmin dövrdə fəaliyyət göstərən strukturunda 30-a qədər əməkdaş çalışırdı.[1]

ARDİN-in Əsasnaməsinin və strukturunun yaradılması Azərbaycan Respublikası prezidentinin 30 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasında İnterpolun MMB-si həmin dövrdən Baş İdarə səlahiyyətində DİN-in bütün strukturları ilə əlaqəli fəaliyyət göstərir. İnterpolun Əsasnaməsi 01-04-2003-cü il tarixli 131 saylı əmr ilə təsdiq edilmişdir.

Burada qeyd olunur ki, Azərbaycan Respublikasında MMB Beynəlxalq Kriminal Polis Təşkilatı İCPO İnterpolun 1956-ci ildə qəbul edilmiş Nizamnaməsinin 4-cü və 32-ci bəndlərinə müvafiq olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09 fevral 1993-cü il tarixli 72 №-li qərarı ilə yaradılmışdır.

- MMB Azərbaycan Respublikası DİN-in mərkəzi aparatının Baş İdarə səlahiyyətli müstəqil struktur hissəsidir. MMB öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, İnterpolun Nizamnaməsini və digər normativ sənədlərini, DİN-in normativ hüquqi aktlarını, habelə bu Əsasnaməni rəhbər tutur;
- MMB-nin təşkilati strukturu və ştat cədvəli DİN tərəfindən təsdiq edilir.

MMB-nin hal-hazırda fəaliyyət göstərən strukturuna daxilidir:

- Təşkilati-analitik şöbə – 1-ci şöbə, Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsi (II şöbə), Texniki-təminat şöbəsi (III şöbə), Katiblik və mühasibatlıq. Lakin ARDİN-nin 28 fevral 2012-ci il tarixli Ə-125-007-12 №-li əmri ilə mühasibatlıq "Maliyyə hissəsi" adlandırılmışdır. Təminat hissəsi isə MMB-də DİO-da fəaliyyət göstərən "Növbətçi hissə" funksiyasını yerinə yetirir;
- MMB-nin rəisi, onun müavinləri və digər əməkdaşları DİN-in 14.08.2001-ci il tarixli 321 saylı əmri ilə müəyyən olunmuş qaydada vəzifəyə təyin və vəzifədən azad edilir;

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin Azərbaycan Respublikası Dİ nazirinin 27 mart 1995-ci il tarixli əmrilə təsdiq edilmiş Əsasnaməsi, 6 s.

- MMB tərəfindən respublikanın hüquq-mühafizə orqanları ilə, habelə İnterpolun Baş Katibliyi və üzv ölkələrin MMB-ləri ilə qarşılıqlı əlaqə İnterpolun Nizamnaməsi, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar, müqavilə və sazişlər əsasında həyata keçirilir;
- MMB İnterpolun Nizamnaməsinin 3-cü maddəsini rəhbər tutaraq, siyasi, hərbi, dini və irqi xarakterli cinayətlərə müdaxilə etmir;
- Təxirəsalınmaz tədbirlərin keçirilməsi ilə əlaqədar, İnterpolun Baş Katibliyinə və üzv ölkələrin MMB-lərinə nümayəndələr (əlaqə zabitləri) göndərilə bilər;
- Nazirlər Kabinetinin 9 fevral 1993-cü il tarixli 72 saylı qərarının 2-ci bəndinə əsasən, hər il Azərbaycan Respublikası tərəfindən İnterpolun Nizamnaməsilə müəyyən olunmuş məbləğdə üzvlük haqqı ödənilir;
- MMB xəzinədarlıqda Valyuta və hesablaşma hesabına malikdir;
- MMB-də kargüzarlıq işi Azərbaycan Respublikasının Qanunvericiliyi və DİN tərəfindən müəyyən edilmiş qaydada Azərbaycan və İnterpolun işçi dillərində aparılır;
- MMB-nin üzərində Azərbaycan Respublikasının Dövlət gerbi həkk olunmuş, möhürə müvafiq ştamplara malikdir və Beynəlxalq Kriminal Polisi Təşkilatı İCPO – İnterpol simvollarından istifadə edir.

MMB-nin əsas vəzifələri və funksiyaları:

- Respublikanın və İnterpolun üzvü olan hüquq-mühafizə orqanları arasında cinayətkarlıqla mübarizə sahəsində informasiya mübadiləsinin həyata keçirilməsi;
- İnterpol kanalları ilə daxil olan sorğu və tapşırıqların icrası;
- Cinayətlərin qarşısının alınması və açılması məqsədilə, digər ölkələrin MMB-lərinə cinayətlər və cinayətkarlar, habelə şəxslərin, əşya və axtarışı barədə sorğuların göndərilməsinin təmini;
- Digər ölkələrin MMB-lərindən daxil olan analoji müraciət və məlumatların respublikanın aidiyyəti hüquq-mühafizə orqanları ilə qarşılıqlı icrasının təmin edilməsi;
- Azərbaycanda cinayət törətməkdə şübhəli bilinmiş, cinayət məsuliyyətinə cəlb olunmuş və barəsində həbs qəti-imkan tədbiri seçilmiş xarici vətəndaşlar barəsində İnterpolun Baş Katibliyinə və MMB-yə tapşırıq və məlumatların göndərilməsi;
- Respublikada cinayətkarlığa qarşı mübarizənin nəticələrinin, cinayətlərin yeni forma və təzahürlərin, eləcə də qabaqcıl təcrübə barədə müvafiq hesabatların tərtibi və zəruri hallarda belə məlumatların İnterpolun Baş Katibliyinə təqdim edilməsi;

- Beynəlxalq Polis əməkdaşlığı çərçivəsində əldə olunan operativ və digər məlumat blanklarının yaradılması;
- Transmilli cinayətkarlıqla mübarizə üzrə əməkdaşlıq sahəsindəki tələblər, şərtlər barədə respublikanın hüquq-mühafizə orqanlarının məlumatlandırılması və bu yönümdə işin təkmilləşdirilməsinə dair Baş Katibliyə təkliflər verilməsi;
- Polisin fəaliyyətinə, habelə transmilli cinayətlərlə mübarizəyə dair beynəlxalq hüquq normalarını əks etdirən sənədlərin, müqavilələrin Baş Katiblikdən sorğu etməklə alınması.
- Cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın problemlərinə dair xülasələr, məruzələr İnterpola üzv olan ölkələrin kriminal xidmətlərinin məlumatları əsasında ümumiləşdirmələrin hazırlanması.

Azərbaycan Respublikasında İnterpolun MMB-yə rəis rəhbərlik edir. MMB-nin rəisi vəzifəyə Respublikanın DİN tərəfindən təyin edilir və vəzifədən azad edilir.

MMB-nin qüvvədə olan Əsasnaməsinə əsasən, rəisin hüquq və vəzifələri aşağıdakılardır:

- MMB-nin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir, Baş İdarənin üzərinə düşən vəzifə və funksiyaların tələb olunan səviyyədə yerinə yetirilməsinə xidməti və icra intizamının vəziyyətinə, şəxsi heyətin peşə hazırlığının səviyyəsinə görə şəxsən məsuliyyət daşıyır;
- Əməkdaşların funksional vəzifələrini təsdiq edir, müavinlər arasında vəzifə bölgüsü aparır, şəxsi heyət tərəfindən qanunçuluğa ciddi riayət olunmasına nəzarət edir;
- MMB-nin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə, struktur və ştat dəyişiklikləri barədə DİN-in rəhbərliyinə təkliflər verir;
- Müəyyən olunmuş qaydada əməkdaşların vəzifəyə təyin edilməsi, vəzifədən azad olunması və vəzifə üzrə yerlərin dəyişdirilməsi, habelə əməkdaşlara xüsusi rütbənin verilməsi barədə təqdimatlar verir;
- Müəyyən edilmiş qaydada əməkdaşların xidməti attestasiyasını keçirir, səlahiyyətləri daxilində onların mükafatlandırılması və intizam məsuliyyətinə cəlb edilməsi məsələlərini həll edir;
- İdarənin əməkdaşlarına məzuniyyətlər verir, müəyyən edilmiş qaydalara əsasən onların xidməti ezamiyyətə göndərilməsini təşkil edir, ayrılmış fond həcmində maddi yardım göstərir;
- MMB-nin kredit sərəncamçısıdır.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-si AR DİN-in Baş İda-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-si haqqında əsasnamə Azərbaycan Respublikası DİN-in 01.04.2003-cü il tarixli 131 saylı əmri ilə təsdiq edilmişdir, 4 s.

rə səlahiyyətində, strukturunun tərkib hissəsi olmaqla, fəaliyyət göstərdiyi müddətdə ARDİN-in bütün strukturları və Respublikanın hüquq-mühafizə orqanları və İnterpola üzv olan, hal-hazırda 194 xarici ölkənin MMB-ləri ilə fəaliyyət göstərən strukturların hansı fəaliyyətlə məşğul olduqlarını qeyd etmək yerinə düşərdi.

Təşkilati –analitik şöbə (1-ci şöbə):

Təşkilati-analitik şöbənin əsas fəaliyyət istiqamətləri MMB daxilində təşkilati məsələlərin həlli, MMB-nin fəaliyyəti barədə məlumatların toplanması, görülmüş işlərin təhlil edilməsi, qiymətləndirilməsi, hesablanması və müvafiq instansiyalara göndərilməsi, nöqsanların aradan qaldırılması üçün təkliflərin verilməsi, İnterpolun Baş Katibliyindən, üzv dövlətlərin MMB-dən və respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş sorğuların icrası, Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının beynəlxalq cinayətkarlıqla mübarizədə İnterpol çərçivəsində əməkdaşlığın tələb və şərtləri, cinayətin qarşısının alınması və açılmasında dünya dövlətlərinin qabaqcıl təcrübəsi barədə məlumatlandırılması, müxtəlif statistik məlumatların İnterpolun Baş Katibliyinə göndərilməsi, həmçinin müqayisə və təhlilinin aparılması üçün İnterpola üzv olan dövlətlərdən daxil olmuş statistik məlumatların müvafiq orqanlara göndərilməsi, ictimai təşkilatlarla işgüzar əlaqələrin təşkili kütləvi informasiya vasitələri üçün müvafiq materialların hazırlanması, Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının peşə hazırlığının təmin olunması, sənədlərin tərcüməsi (İnterpolun işçi dilləri – (ingilis, ispan, ərəb, fransız, çin dilləri), MMB-nin rəhbərliyinə təkliflərin verilməsi və s. ibarətdir.[1]

Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsi (2-ci şöbə):

Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin fəaliyyət istiqamətləri terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, təqsirləndirilən şəxslərin yaxalanması, mədəni sərvətlərin oğurlanmasına qarşı mübarizə, oğurlanmış avtomobil vasitələrinin axtarışı, insan alverinə, kiber cinayətkarlığına, fahişəliyə, iqtisadi cinayətkarlığa, çirkli pulların yuyulmasına, uşaq pornoqrafiyasına qarşı mübarizə və s. cinayətkarlığa qarşı Azərbaycan Respublikası hüquq-mühafizə orqanları ilə, Azərbaycan Respublikasının bütün strukturları ilə, İnterpola üzv olan xarici dövlətlərlə əlaqəli şəkildə mübarizə aparmaqdan ibarətdir.[2]

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analitik şöbəsinin 2004-ci ilin 1-ci rübündə görülmüş işlər barədə arayışı. Əlyazma şəklində, s.1-2.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. Azərbaycan Respublikasında İnterpolun MMB-nin Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin hesabat arayışları. 2004, 8 s, s.3-5.

Texniki-təminat şöbəsi (3-cü şöbə):

Bu şöbə fəaliyyətini Azərbaycan Respublikasında İnterpolun MMB-də əsasnamə, xidməti və peşə vəzifələri əsasında quraraq, İnterpolun Nizamnaməsi və başqa əsas sənədlərində nəzərdə tutulduğu kimi, mövcud kompüter texnikası və telekommunikasiya vasitələrinin, onların müasirləşdirilməsinə, yeni proqram vasitələrinin işlənib hazırlanmasına, məlumat arxivinin və tətbiqi proqramlarının istismarına yönəldilmiş və Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi tərəfindən təsdiq edilmiş iş planına uyğun yerinə yetirilir.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin strukturunda Katiblik fəaliyyət göstərir. Katiblik rəis və əməkdaşlardan ibarətdir. Katibliyin nəzdində sənədlərin saxlanılması üçün cari arxiv mövcuddur. Katibliyin əməkdaşları MMB-nin rəisinə tabedir. MMB-də Katiblik Daxili İşlər və hüquq-mühafizə orqanlarından İnterpolun üzvü olan dövlətlərdən, vətəndaşlardan daxil olan müraciətlərin qəbulunu və onların qeydiyyatını, icra intizamı, məxfilik rejiminə nəzarət və s. çoxsaylı fəaliyyəti həyata keçirən struktur hissəsidir.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin təminat hissəsi Azərbaycan Respublikasında İnterpolun MMB-nin hal-hazırda fəaliyyət göstərən Əsasnaməsində öz əksini tapmışdır. MMB-da növbətçi hissə funksiyasını yerinə yetirir, orada növbə ilə MMB-nin sıravi və zabit heyətindən olan əməkdaşlar xidmət aparırlar. MMB-nin mühafizəsini təşkil edir, MMB-yə gələn vətəndaşları qəbul edir, MMB-yə aid olan xidməti tapşırıqları yerinə yetirirlər.

Maliyyə hissəsi ARDİN-in 28 fevral 2012-ci il tarixli Ə-125-007-12 saylı əmri ilə Azərbaycan Respublikası İnterpolun MMB-da olan mühasibatlıqla əvəz olunmuşdur.

Maliyyə hissəsi MMB-nin əmək haqqı ödənişlərini müəyyən olunmasını, mühasibat uçotunu, uçotun metodik təşkili və hesabatı və cari maliyyə məsələləri ilə bağlı işləri AR DİN-in Maliyyə-plan İdarəsi ilə əlaqəli şəkildə həyata keçirən struktur hissədir.

Azərbaycan Respublikasında İnterpolun MMB-də hal-hazırda 41 əməkdaş fəaliyyət göstərir, onlardan 38-i polis əməkdaşı, 3 nəfər isə mülki şəxsdir. 30 nəfər zabit, 8 nəfər sıravi heyətdən ibarətdir.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin peşə fəaliyyəti barədə onu qeyd etmək olar ki, Azərbaycan Respublikasında İnterpolun

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Texniki –Təminat şöbəsinin hesabat arayışı, 2004, s. 7.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2012-ci ilin 6 aylıq hesabat arayışı. Əlyazma ilə, 15 s., s. 5.

MMB-nin əməkdaşlarının peşə fəaliyyəti daim diqqət mərkəzində saxlanılır. Beynəlxalq standartlara uyğun biliklərə yiyələnmək, təcrübə toplamaq, nəzəri dərslər keçirmək üçün il ərzində mütəmadi olaraq ayrı-ayrı ölkələrə, əsasən Fransaya ezam olunurlar.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-si Daxili İşlər orqanları və hüquq-mühafizə orqanları ilə birgə ölkədə gedən islahatların, eyni zamanda təhsil islahatlarının uğurla həyata keçirilməsində yaxından iştirak edir.

Həmçinin hüquq-mühafizə orqanları və İnterpolun üzvü olan ölkələrlə əlaqəli şəkildə beynəlxalq cinayətkarlığa qarşı mübarizə etməklə yanaşı, əməkdaşların peşə hazırlığını yüksəltmək üçün mütəmadi təhsillərini artırmaq məqsədilə dərslər keçirilir.

Azərbaycan Respublikasında İnterpolun MMB-də Peşə hazırlığı səviyyəsinin maddi-texniki bazasının yaxşılaşdırılması, onun fəaliyyətinin yüksəldilməsi, dərslərin daha yaxşı təşkili, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirilmişdir. İnterpolun MMB-nin əməkdaşlarının peşə hazırlığı DİN-in "Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili haqqında təlimatın təsdiq edilməsi barədə" 26/06/2012-ci il tarixli 08-007-12 №li qərarına, "2013-cü ildə Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili barədə" 5/01/2013-cü il tarixli Ə-1-001-13 №li əmrinə, "Şəxsi heyətin xüsusi peşə hazırlığı sahəsində işin təşkilinə dair təlimatın təsdiq olunması barədə" 24/12/2009-cu il tarixli 752 №li əmrinə, "2013-cü ildə Daxili İşlər orqanlarının fiziki hazırlıq işinin təşkilinə dair" 29/12/2012-ci il tarixli Ə-821-001-12 №li əmrinə, habelə Azərbaycan Respublikasında İnterpolun MMB-nin 9.01.2013-cü il tarixli 01 nömrəli əmrinə müvafiq olaraq təşkil edilmişdir. İnterpolun MMB-də 3 tədris qrupu yaradılmışdır:

I qrup – Təşkilatı-analitik şöbənin, Texniki-təminat şöbəsinin, Katibliyin və Maliyyə hissəsinin orta və böyük rəis heyəti;

II qrup – Ümumi cinayətkarlığa qarşı mübarizə, şöbənin orta və böyük rəis heyəti;

III qrup – MMB-nin kiçik və sıravi rəis heyəti;

MMB-də xidməti və döyüş hazırlığı üzrə dərslər hər həftənin IV günü saat 9.30-dan saat 11.00-dək keçirilmişdir.

MMB-də tədris ili üçün illik saat bölgüsü, xidməti və döyüş hazırlığı dərsləri üzrə mövzular planı tərtib edilir, rüblük dərs cədvəli tərtib olunur, məşğələlər, praktik məşğələlər, seminar məşğələləri aparılır. Eyni zamanda

[1] Azərbaycan Respublikasında Interpolun MMB-nin cari arxivi. MMB-nin 2012-ci ilin illik arayış hesabatı. Əlyazma ilə, 25 s., s.4.

DİN-in "DİO-da peşə hazırlığının təkmilləşdirilməsi üzrə əlavə tədbirlərə dair" 4-03-2010-cu il tarixli 135 №-li əmrinin tələbinin yerinə yetirilməsi istiqamətində tədbirlər həyata keçirilir və peşə hazırlığına nəzarət daha da gücləndirilir.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyət göstərdiyi müddətdə hər ilin yanvar ayından həftənin II və V günləri saat 8.30-dan 11.00-dək fiziki hazırlıq dərsləri keçirir.[1]

MMB-nin 2001-ci ilin xidməti fəaliyyətinə dair arayışdan məlum olur ki, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il fərmanının icrasına dair tədbirlər planı MMB-nin əməliyyat müşavirəsində elan edilərək, dərindən öyrənilmiş, Azərbaycan dilinin və Latın qrafikasının tarixi əhəmiyyəti, müstəqilliyimizin və dövlətçiliyimizin qorunub saxlanılmasında onun mühüm rolu hər bir əməkdaşa dərindən izah edilmişdir. Sonrakı dövr ərzində xidməti dərslər sistemində və sərbəst dərs hesabına ayrıca saatlar müəyyən edilməklə 10 gün müddətində bütün əməkdaşların Latın qrafikası ilə işləmə vərdişlərinə yiyələnməsi təmin olunmuşdur.

DİN-in şəxsi heyətinin Azərbaycan dövlətçiliyinə, anda, xidməti vəzifə borcuna sədaqət ruhunda tərbiyə olunması, qanunçuluğun, nizam-intizamın, təlim-tərbiyənin gücləndirilməsi, əməkdaşların fərdi məsuliyyət hissinin, peşəkarlığının artırılması, onların sosial hüquqlarının qorunması istiqamətində ciddi və təxirəsalınmaz tədbirlər görülməsi barədə 01 iyun 2001-ci il tarixli göstərişin yerinə yetirilməsi istiqamətində MMB-də 2001-ci il ərzində xeyli işlər görülmüşdür. Respublika Daxili İşlər orqan və hissələrində kadrların döyüş və fiziki hazırlığının təşkili istiqamətində əməkdaşlarda dövlətə və xidməti işə sədaqət, qanunçuluğun aliliyinə, insan hüquq və azadlıqlarına hörmətin aşılanması sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir.[2]

Sonrakı tarixi dövrdə MMB-də əməkdaşların nizam-intizamının vəziyyəti barədə bir faktı qeyd edək. ARDİN-in 23.03.2006-cı il tarixli göstərişinin tələbinə müvafiq olaraq, nizam-intizamın mövcud vəziyyətini əks etdirən hesabat formaları hazırlanır, MMB-da əməliyyat müşavirəsində müzakirə edilərək protokollaşdırılır və DİN-in İş İdarəsinə təqdim olunur.

Bundan başqa, MMB-də məxfilik rejiminə nəzarət, məxfi sənədlərin mövcudluğunun yoxlanılması üzrə komissiya fəaliyyət göstərir. Komissiya məxfi sənədlərin mövcudluğunu yoxlayır, yoxlamanın nəticələrini komissi-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2013-cü ilin 6 aylıq arayış hesabatı, s.6,8.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2001-ci ilin arayış hesabatı, s.4.

yanın müvafiq iclaslarının birində müzakirəyə çıxarır və protokollaşdırılır.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin Təşkilatı-analitik şöbəsinin nəzdində zabit heyətindən ibarət Tərcümə qrupu fəaliyyət göstərir. Onlar İnterpolun üzvü olan ölkələrin və Azərbaycan Respublikasında İnterpolun MMB-nə aid olan məxfi sənədlərin tərcüməsi ilə məşğul olurlar.

Tərcümə qrupunun fəaliyyətini bir neçə tarixi fakt və rəqəmlərlə göstərək.

2004-cü ildə Azərbaycan Respublikasında İnterpolun MMB-nin İnterpolun üzvü olan xarici dövlətlərdən 1747 sənəd və MMB-dən xarici dövlətlərə göndərilən 1376 sənəd ingilis və fransız dillərindən Azərbaycan dilinə və Azərbaycan dilindən ingilis dilinə tərcümə edilmişdir. Bu tərcümənin ümumi həcmi orta hesabla 6350 çap vərəqi olmuşdur.

2005-ci il ərzində MMB-yə daxil olan 2359 və MMB tərəfindən göndərilən 1341 sənəd ingilis və fransız dillərindən Azərbaycan dilinə və Azərbaycan dilindən ingilis dilinə tərcümə edilmişdir. Bu tərcümənin ümumi həcmi orta hesabla 6500 çap vərəqi olmuşdur.

2008-ci ildə MMB-də olan zərurətlə əlaqədar olaraq və əməkdaşların İnterpolun rəsmi dillərindən birini bilmələrinin vacibliyini nəzərə alaraq, MMB-də ingilis dili kursları təşkil edilmiş, həftədə 3 dəfə məşğələlər keçirilmişdir.

2008-ci ildə MMB-nin hesabat dövrü ərzində daxil olan 2343 sənəd ingilis, fransız və ispan dillərindən Azərbaycan dilinə, MMB tərəfindən göndərilən 3271 sənəd isə Azərbaycan dilindən ingilis dilinə tərcümə edilmişdir.

2009-cu il ərzində xidməti zərurətlə əlaqədar və əməkdaşların İnterpolun rəsmi dillərindən birini bilmələrinin vacibliyini nəzərə alaraq, MMB- də ingilis dili kursları təşkil edilmiş, həftədə 3 dəfə məşğələlər keçirilmişdir.

2009-cu il ərzində MMB-yə daxil olan 3012 sənəd ingilis, fransız, alman, ispan və polyak dillərindən Azərbaycan dilinə və MMB tərəfindən göndərilən 3684 sənəd isə Azərbaycan dilindən ingilis dilinə tərcümə olunmuşdur.

2010-cu il ərzində xidməti zərurətlə əlaqədar və əməkdaşların İnterpolun rəsmi dillərindən birini bilmələrinin vacibliyini nəzərə alaraq, MMB- da ingilis dili kursları təşkil edilmişdir. İl ərzində MMB-ya daxil olan 3199 sənəd ingilis, fransız, ispan və ərəb dillərindən Azərbaycan dilinə tərcümə edilmişdir. MMB-yə daxil olan fransız dilində 65, ispan dilində 6, ərəb dilində 3 sənədin tərcüməsi təmin edilmişdir.

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2006-cı ilin arayış hesabatı, s.11-12.

2011-ci il ərzində əməkdaşların xarici dilləri bilmələrinin vacibliyini nəzərə alaraq, MMB-də dil kursu fəaliyyət göstərmişdir. 2011-ci ilin hesabat dövrü ərzində 2422 sənəd ingilis, fransız, ispan və ərəb dillərindən Azərbaycan dilinə və Azərbaycan dilindən ingilis dilinə tərcümə olunmuşdur.

2012-ci il ərzində MMB-də ingilis dili kursu fəaliyyət göstərmişdir. 2012-ci ilin hesabat dövrü ərzində MMB-yə daxil olan 3629 sənəd ingilis, fransız və ispan dillərindən Azərbaycan dilinə və MMB-dən göndərilən 3950 sənəd isə Azərbaycan dilindən ingilis dilinə tərcümə olunmuşdur.

2013-cü ilin 6 ayı ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin 6 aylıq hesabatından görünür ki, MMB-yə daxil olan 1207 sənəd ingilis, fransız və ispan dillərindən Azərbaycan dilinə və MMB tərəfindən göndərilən 1251 sənəd isə Azərbaycan dilindən ingilis dilinə tərcümə edilmişdir. [1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin peşə hazırlığı və kadr fəaliyyəti ilə, təchizi ilə bağlı məlumatları tarixi ardıcıllıqla qeyd edək.

23 may 1992-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə, N.K.Rzayev adına Bakı Orta Milis məktəbinin nəzdində ali hüquq təhsili verən Polis Akademiyası yaradılmışdır ki, akademiyada fəaliyyət göstərən ixtisasartırma kurslarında yüksək səviyyədə dərslər keçirlər.[2]

1 fevral 1996-cı il tarixdə ARDİN-in Kadrlar İdarəsinin 1995-ci il tarixindəki fəaliyyəti müzakirə edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Yığıncaq iştirakçıları bu faktı ötən ilin ən əlamətdar hadisəsi, ən yüksək nailiyyət kimi qiymətləndirmişlər ki, məhz 1995-ci ilin axırlarında ölkə Prezidentinin fərmanları ilə Azərbaycan Respublikası Konstitusiyasının, dövlət quruluşunun müdafiəsində, sabitliyin təmin edilməsində mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə xidməti borcunu şərəflə yerinə yetirdiklərinə görə Daxili İşlər orqanlarının 60-dan artıq əməkdaşı ölkənin ali mükafatları ilə təltif olunmuşdur. Bu, Azərbaycan Polisinin tarixində nadir hadisədir.

Yığıncaqda təəssüflə qeyd olunurdu ki, ümummilli lider Heydər Əliyev hakimiyyətə gələnə qədər, müstəqilliyin ilk illərində qəhrəman polis işçiləri ilə yanaşı, DİO-da öz xidməti vəzifəsinə dönük çıxan, vətəni qorumaq əvəzinə cinayətkar qurumlara, siyasi cərəyanlara nökərçilik edən əməkdaşlar da olmuşdur. Məhz elə buna görə də, cinayətlər baş alıb getmiş, şəxsi mənafe ümumxalq və dövlət mənafeyini üstələmişdi.

Azərbaycan Respublikasında İnterpolun MMB-si yarandığı gündən

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004, 2005, 2008, 2009, 2010, 2011, 2012-ci illərin illik və 2013-cü ilin 6 aylıq arayış hesabatları, s. 6, 5, 18, 19, 13, 18, 20, 12.

[2] Mübariz keşikdə, 1995, №6 (2262).

İnterpolun üzvü olan ölkələrin MMB ilə hüquq-mühafizə orqanları qarşılıqlı əlaqə şəraitində cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparmışlar. Yaxşı işlərinə görə əməkdaşlar mükafatlandırılmışlar. Lakin təəssüflə qeyd etmək istəyirəm ki, MMB-nin rəisi olmuş İ.Səfixanov dövlət çevrilişində iştirak etdiyinə görə həbs edilmişdir. Məhz belə bir şəraitdə Daxili İşlər orqanları sıralarının təmizlənməsi, savadlı, səviyyəli, təcrübəli kadrların yerləşdirilməsi, onların peşə ustalığının artırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdu.

Həmçinin həmin yığıncaqda "Dinamo" idman cəmiyyəti fiziki hazırlıq və idman şöbələrinin problemləri qeyd edilmiş, tezliklə dönüş yaradılması vurğulanmışdır. [1]

25 sentyabr 1997-ci ildə Dİ naziri cənab Ramil Usubov Misir Ərəb Respublikası DİN-in ölkəmizə səfərə gəlmiş nümayəndələrini – nazirin birinci müavinini, Polis Akademiyasının rəhbəri, general-mayor Ömər Həsəni və nazir müavini, Polis Araşdırmaları Mərkəzinin direktoru general-mayor Məhəmməd Şariri qəbul etmişdir.

Ölkəmizdəki kriminogen durum haqqında qonaqlara ətraflı məlumat verən nazir qeyd edib ki, Azərbaycan öz müstəqilliyini bərpa etdiyi 1991-ci ildən ötən müddət ərzində çox çətin və eyni zamanda şərəfli bir yol keçib. Ermənistanın təcavüzü nəticəsində ərazisinin 20 faizindən çoxunun işğalı, əhalisinin hər yeddi nəfərdən birinin qaçqın və köçkün vəziyyətində olması çox ciddi problemlər yaratsa da, möhtərəm Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, tədricən sabitlik bərpa olunmuş və daimi xarakter almışdır.

Sonra nazir son dörd ildə ayrı-ayrı düşmən qüvvələrin bir neçə dəfə qeyri-qanuni yolla hakimiyyətə gəlmək, dövlət çevrilişi etmək cəhdlərinin qarşısının alınmasından, əllərdə olan qanunsuz silahların yığılmasından, mütəşəkkil cinayətkar dəstələrin zərərsizləşdirilməsindən, həyata keçirilən tədbirlərin, son nəticədə cinayətkarlığın azalmasına gətirib çıxarılmasından və ictimai asayişin daimi səviyyədə təmin olunmasında hüquq-mühafizə orqanlarının birgə fəaliyyətindən ətraflı söhbət açıb. Qazanılan bütün bu uğurların dövlətçiliyimizin və qanunçuluğumuzun əsas qarantı olan möhtərəm Heydər Əliyev cənablarının adı ilə bağlı olduğu xüsusi vurğulanıb.

Nazir qeyd edib ki, cinayətkarlığın bəzi təhlükəli növlərinin, xüsusən narkomaniyanın, insan alverinin və terrorizmin getdikcə daha çox beynəlxalq xarakter almasını nəzərə alaraq, Azərbaycan bütün dünya dövlətləri və həmin dövlətlərin Daxili İşlər orqanları ilə münasibətlər yaratmağa, əməkdaşlıq etməyə çalışır. Bir sıra dövlətlərin, həmçinin MDB-yə daxil olan öl-

[1] Sadıqova Z. Yenə də kadrlar hər şeyi həll edir // Mübariz keşikdə, 1996, 1 fevral, №4 (2277).

kələrin DİN ilə əlaqələr genişləndirilib. Son illərdə 50-yə yaxın əməkdaşların Milli Polis Akademiyasında mütəşəkkil cinayətkarlığa və narkomaniyaya qarşı mübarizə üzrə kurslarda ixtisasartırmaları öz müsbət nəticələrini verib.

Yuxarıda qeyd etdiyimiz tarixdə cənab Ramil Usubov Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri R.Toması qəbul etmişdir. Respublika Prezidenti Heydər Əliyev cənablarının yorulmaz səyi ilə ölkədə yaranmış sabitlikdən məmnunluqla danışan səfir bildirib ki, Azərbaycanda olduğu qısa müddət ərzində çox böyük və faydalı islahatlar aparıldığının şahidi olub. Azərbaycanın indiki durumunun təkcə ölkə əhalisi üçün yox, həm də xarici vətəndaşlar, eləcə də xarici sərmayədarlar üçün əlverişli olması xüsusi vurğulanmışdır.

İngiltərəli diplomat ölkədə sabitliyin yaranmasında, ictimai təhlükəsizliyin etibarlı şəkildə qorunmasında xidmətlərinə görə Daxili İşlər orqanlarının əməkdaşlarına, həmçinin, nazirə dərin təşəkkürünü bildirmişdir.[1]

1997-ci ilin yanvarın 23-də DİN-in Kadr İdarəsində keçirilən yığıncaqda ötən ilin fəaliyyəti müzakirə olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. DİN-in Kadr İdarəsi tərəfindən DİN sistemində peşə hazırlığının təkmilləşdirilməsi məqsədilə 48 təcrübi məlum məşğələsi keçirilib. Müxtəlif xidmətlər üzrə 1996 əməkdaş Polis Akademiyasında, tədris mərkəzlərində, eləcə də xarici dövlətlərdə ilkin və ixtisasartırma kurslarına cəlb edilmişdir.

Ümummilli lider Heydər Əliyev demişdir: "Mən hüquq-mühafizə orqanlarının son mərhələdə gördüyü işi müsbət qiymətləndirirəm. Məhz ona görə də, bu işdə fərqlənənlər təltif olunmuşlar. Bu gün onlara bir daha təşəkkür edirəm".[2]

1 oktyabr 1998-ci il tarixində AŞ ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramı çərçivəsində seminar keçirilmiş, AŞ Hüquq Departamentinin respublika Daxili İşlər orqanlarının əməkdaşları ilə keçirilən bu tədbir polisin fəaliyyətinin və polis təliminin,ələlxüsus onun iqtisadi sahədəki yeni formalarına uyğun təkmilləşdirilməsi mövzusundaydı. Tədbirdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəis müavini polis-polkovniki Ə.Umayev İnternet sistemi və kompüterlərin satışının təşkilində qeydə alınan cinayətlər haqqında danışarkən, bu cinayətlərin yaranma səbəbləri və nəticələri barədə seminar iştirakçılarına məlumat vermişdir.[3]

Dünya dövlətləri sırasında Azərbaycanın tanınıb, özünəlayiq yer tut-

---

[1] DİN-in Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 1997, 25 sentyabr, № 35 (2352).

[2] Rüstəmov İ. Azərbaycan polisi, dünən, bu gün, sabah // Xalq qəzeti, 1997, № 32 (22428).

[3] Babayev İ. Avropa Şurası ilə birgə // Mübariz keşikdə, 1998, 8 oktyabr, 37(2401).

ması üçün inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsi çox vacibdir. Bir sıra beynəlxalq təşkilatlar və xarici dövlətlərlə hüquqi əməkdaşlığın inkişaf etməsi, bu əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsi və əlaqələrin möhkəmləndirilməsinə xidmət edən digər tədbirlərin keçirilməsi.

1999-cu il iyulun 8-də Bakı şəhərində "Hyatt-Regency Naxçıvan" otelində AŞ ilə AR arasında hüquqi əməkdaşlıq proqramı çərçivəsində "Beynəlxalq təmayüllər baxımından polisin hazırlanmasında yeni tendensiyalar" mövzusunda seminar keçirilmişdir. Seminarda iştirak edən cənab Ramil Usubov demişdir ki, polislə bağlı çoxsaylı beynəlxalq seminarların keçirilməsi səmərəlidir, qarşıda duran bir sıra problemlərin həllində xarici ölkələrin müvafiq qurumlarının və beynəlxalq polis təşkilatlarının təcrübəsindən istifadə etməyə, əməkdaşların xidməti səlahiyyətlərinin təkmilləşdirilməsinə imkan yaratmışdır.

Bu seminarda "Beynəlxalq standartlar nəzərə alınmaqla, polis əməkdaşlarının təhsili və peşə hazırlığı sisteminin təkmilləşdirilməsi mövzusunda olan çıxış da vurğulanmışdır.[1]

1995-ci il dekabr ayının 15-də cənab Ramil Usubov AŞ-nin Polis və İnsan hüquqları 1997-2000-ci il proqramının meneceri A.Hayanberqi qəbul etmişdir. Görüş zamanı, DİN-in və onun yerli qurumlarının fəaliyyətinin əsas istiqamətlərinin insan haqlarının qorunması və təminatı olduğu xatırlanmışdır. Onun fikrincə, yalnız beynəlxalq təcrübəni əks etdirməklə, öz peşəkarlıq, təhsil, təlim, fiziki hazırlıq səviyyəsini daimi artırmaqla polis əməkdaşları günün tələbləri səviyyəsində öz işlərini və xidmətlərini qura bilərlər.[2]

2000-ci il aprelin 4-də Azərbaycan Respublikası DİN-in "Şəhər-rayon polis orqan və hissələrində sıravi və kiçik rəis heyəti vəzifəsinə namizədlərin seçilib yerləşdirilməsi, kadrların təhsilinin və peşə hazırlığının təşkili işində DİN qərarlarının yerinə yetirilməsi vəziyyəti və qarşıda duran vəzifələr barədə" geniş əməliyyat müşavirəsi keçirildi.[3]

22-26 may 2000-ci il tarixdə Türkiyədə İnterpolun MMB-si tərəfindən təşkil olunan və Ankarada keçirilən "Terrorizm, silah və narkotiklərin qaçaqmalçılığına qarşı mübarizənin gücləndirilməsinə dair" IV İnterpol kursunda Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları fəal iştirak etmişlər.[4]

---

[1] Polis insan hüquqlarının qoruyucusudur // Mübariz keşikdə, 16 dekabr 1999, №13 (2475).

[2] Babayev İ. Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində // Mübariz keşikdə, 1999, 15 iyun, № 47 (2460).

[3] Polis insan hüquqlarının qoruyucusudur // Mübariz keşikdə, 16 dekabr 1999, №13 (2475).

[4] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2000-ci ilin 6 ayı ərzində xidməti fəaliyyətinə dair arayış, s.2.

2001-ci il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin 17 əməkdaşı İnterpolun Baş Katibliyi və İnterpolun üzvü olan bir sıra ölkələr tərəfindən təşkil olunan müxtəlif kurslarda, konfranslarda iştirak etmişlər. Onlardan bir neçəsini qeyd etmək yerinə düşərdi.

2001-ci ilin 19-21 sentyabr tarixində Bakı şəhərində YUNESKO-nun “Mədəni irsin qorunmasına dair normativ və aktlar”a həsr olunmuş seminar keçirilmiş və bu seminarın işində MMB-nin nümayəndələri də iştirak etmişlər. Müzakirələr zamanı İnterpolun imkanlarından istifadə etmək yolları izah edilmiş, bu sahədə xarici dövlətlərin qabaqcıl təcrübəsinin əldə edilib öyrənilməsi və mədəniyyət nazirinə təqdim edilməsi təşəbbüsü irəli sürülmüşdür.

Bundan başqa, 28 sentyabr 2001-ci il tarixində Britaniyanın “Delakuc” şirkəti və Avropa Mərkəzi Bankının təşəbbüsü ilə, avronun nağd dövriyyəyə buraxılması, onun dizaynı və qoruyucu elementləri mövzusunda Bakı şəhərində keçirilən seminarın işində də MMB-nin nümayəndələri iştirak etmişlər.

AR DİN-nin “Terrorçuluqla və digər ictimai, təhlükəli cinayətlərlə mübarizənin gücləndirilməsi tədbirlərinə dair” 15 sentyabr 2001-ci il tarixli 46/XI saylı göstərişi MMB-nun əməliyyat müşavirəsində geniş müzakirə edilmişdir.

Əməliyyat müşavirəsində cari ilin sentyabr ayının 11-də ABŞ-ın Nyu-York və Vaşinqton şəhərində törədilmiş çoxsaylı insan tələfatı ilə nəticələnmiş faciəli terror aktlarının hər yerdə və həmişə yüksək sayıqlıq göstərilməsi, belə xüsusi təhlükəli təzahürlərin qarşısının alınması üçün ciddi qabaqlayıcı tədbirlərin müəyyən edilməsinin vacibliyi qeyd edilmişdir. Beynəlxalq cinayətkarlığa, o cümlədən terrorizmlə mübarizə aparan beynəlxalq bir təşkilat olduğundan, bu hadisədən dərhal sonra, MMB-də xüsusi iş rejimi yaradılmış, inzibati binanın mühafizəsinin gücləndirilməsi, daxil olan məlumatlara operativ reaksiya verilməsi məqsədilə 24 saatlıq növbətçilik rejimi müəyyən edilmişdir.

2001-ci ilin sentyabr ayının 17-21–nə kimi MMB-nun ATLAS telekommunikasiya sisteminə keçidlə əlaqədar olaraq, Fransanın telekommunikasiya stansiyasında bizim MMB-nun mütəxəssisləri üçün xüsusi seminar keçirilmişdir. Göstərilən tədbirdə MMB-nin rəhbərliyi və Texniki-təminat şöbəsinin əməkdaşları iştirak etmişlər. Seminarda ATLAS proyektinin məqsədləri, hər bir MMB üçün konfiqurasiya strukturu, rabitənin təhlükəsizliyi, onun üstünlükləri istifadə edilərək protokollar, investisiya və cari xərclər, proyektin icra planı və s. kimi məsələlər hazırlanmışdır.

2001-ci il ərzində İnterpolun Baş Katibliyi tərəfindən İnterpol zabitləri üçün Praqada təşkil olunmuş hazırlıq kursu və Ankarada təşkil olunmuş V

İnterpol kurslarının hər birində MMB-nun iki gənc zabiti iştirak etmiş və onlara müvafiq sertifikatlar verilmişdir.[1]

2002-ci ildə Azərbaycan Respublikası İnterpolun MMB-nin gənc zabitləri Türkiyə Respublikasının Ankara şəhərində təşkil olunmuş VI Beynəlxalq İnterpol kursunda iştirak etmiş və müvafiq sertifikatlara layiq görülmüşlər. Həmçinin 2002-ci il ərzində xidməti fəaliyyətin yekunları əməliyyat müşavirəsində geniş müzakirə olunmuş, kriminal xarakterli məlumatların təhlili əsasında xidməti fəaliyyətin təkmilləşdirilməsi, nəzarəti və tələbkarlığın artırılması istiqamətləri müəyyən edilmişdir. Bir il ərzində mütəmadi olaraq əməliyyat müşavirəsi keçirilmiş, DİN-in və İnterpolun Baş Katibliyindən daxil olan direktiv sənədlər dərindən öyrənilmişdir. AŞ və İnterpolun Baş Katibliyi xətti ilə təşkil olunan konfranslar, işçi görüşlər və seminarlar barədə müvafiq orqan və təşkilatlar məlumatlandırılmışlar.

2002-ci ildə MMB-nin 7 əməkdaşı Baş Katiblik və İnterpolun üzvü olan bir sıra ölkələr tərəfindən təşkil olunan müxtəlif kurslarda 177 gün müddətində ezamiyyətdə olmuşlar.[2]

MMB-yə işə qəbul olunmuş iki nəfər gənc əməkdaş üçün DİN-in 30 avqust 2002-ci il tarixli 325 saylı əmrinə müvafiq olaraq, 3 aylıq sınaq müddəti ayrılmış, onlara təcrübəli əməkdaşlardan hami təyin edilmiş, bu gənc zabitlərin yüksək peşəkarlıq məsuliyyətlərinə, elmi-texniki nailiyyətlər haqqında biliklərə, beynəlxalq standartlara uyğun iş tərzinə yiyələnməsi məqsədilə plan tərtib edilmişdir.

2003-cü ildə arayış hesabatından görünür ki, əməkdaşların hazırlıq səviyyəsinin ümumilikdə MMB-nin qarşısında duran vəzifələrin düzgün və keyfiyyətlə yerinə yetirilməsinə təsir göstərən amillərdən biri olan peşə hazırlığına xüsusi diqqət yetirilmişdir. DİN-in "Daxili İşlər orqanlarının şəxsi heyətinin 2003-cü ildə peşə hazırlığının təşkili barədə" 488/XİÜ saylı 30 dekabr 2002-ci il tarixli əmrinə müvafiq olaraq tərtib olunmuş mövzular planı üzrə həftənin IV günləri məşğələlər keçirilmiş və tədris ilinin sonunda əməkdaşlardan xidməti və döyüş hazırlığı fənlərindən qiymətli məqbullar qəbul olunmuşdur. Daxili İşlər orqanının tərkib hissəsi olan MMB-ya yeni qəbul olunan bir əməkdaş 03 sentyabr-04 oktyabr 2003-cü il tarixində Polis Akademiyasında gənc əməkdaşlar üçün təşkil olunmuş təlim kurslarında iştirak etmişdir. Bundan başqa, bir nəfər sıravi polis nəfəri qəbul olunmuş şəxsdə polis nəfərləri üçün təşkil olunan təlim kurslarında iştirak etmişdir.

MMB-nin əməkdaşlarının bilik səviyyəsinin tutduqları vəzifəyə uyğun

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2001-ci ilin arayış hesabatı, s. 2, 3, 4, 31.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2002-ci ilin hesabat arayışi MMB-nin cari arxivi, s.1-2.

olmasını müəyyən etmək məqsədilə, 2003-cü ilin avqust ayında Attestasiya Komissiyası tərəfindən müvafiq yoxlamalar keçirilmiş və MMB-nin 19 nəfər əməkdaşı barədə attestasiya yoxlamalarının nəticələri DİN-in Baş Kadr İdarəsinə təqdim olunmuşdur.

Qeyd olunanlarla yanaşı, MMB-nin fəaliyyətində müəyyən nöqsan və çatışmazlıqlar da olmuşdur. 2003-cü ilin iyun ayında DİN-in Baş Təşkilati-İnspektor İdarəsinin əməkdaşları tərəfindən MMB-də icra intizamının vəziyyəti yoxlanılmışdır. Yoxlamanın nəticələrinə dair arayış MMB-nin əməliyyat müşavirəsində geniş müzakirə olunmuş və xidməti vəzifələrinin icrasında nöqsanlara yol vermiş əməkdaşlar 11 avqust 2003-cü il tarixli 07 saylı əmrlə cəzalandırılmışlar. MMB-də idarəçilik və təşkilatçılıq siyasətində aşkar olunmuş çatışmazlıqları aradan qaldırmaq məqsədi ilə, tədbirlər planı hazırlanmış və onun həyata keçirilməsi təmin olunmuşdur.[1]

2004-cü ilin 27 may tarixində DİN-də şəxsi heyətin fiziki hazırlığının təşkili və həyata keçirilməsinin vəziyyətlərinə dair geniş kollegiya iclası keçirilmiş, orada vurğulanmışdır ki, Daxili İşlər orqanlarında şəxsi heyətin fiziki hazırlığının təşkili və həyata keçirilməsi olduqca vacib amildir.

Möhtərəm prezidentimiz İlham Əliyevin xalqımızın sağlamlığına, ölkədə bədən tərbiyəsi və idman sahəsinə göstərdiyi diqqət sayəsində əhali, xüsusən də gənclər arasında bu sahəyə maraq xeyli artmış, bunun nəticəsində idmançılarımız müxtəlif səviyyəli beynəlxalq yarışlarda Azərbaycanın adını ucaltmışlar. Sevindirici haldır ki, bu proses Daxili İşlər orqanlarından da yan keçməmiş, müxtəlif idman növlərilə məşğul olan polis əməkdaşlarının sayı xeyli artmışdır. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, müstəqillik illərində ölkəmizdə Olimpiada çempionu adı qazanmış hər üç şəxs DİN-in əməkdaşıdır.[2]

2 iyul 2004-cü il tarixdə DİN-də Azərbaycan polisinin peşə bayramının 86-cı il dönümünə həsr olunmuş təntənəli mərasimdə cənab Ramil Usubov cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın təmin olunması, transmilli cinayətkarlığa qarşı mübarizədə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin müvafiq strukturları ilə birgə fəaliyyət, təhsil və elm sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, şəxsi heyətin döyüş və fiziki hazırlığının yüksəldilməsi, idmançıların qazandıqları uğurlar barədə danışdı. O, dedi ki, nazirlik tərəfindən müasir tələblərə cavab verən kadr potensialının formalaşması, əməkdaşların qanunçuluğa xidməti və icra intizamına riayət, etik normalara və davranış qaydalarına ciddi əməl etməsi və anda sədaqət ruhunda tərbiyə olunması yönümündə kompleks təşkilati-praktik tədbirlər görülür.[3]

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2003-cü ilin hesabat arayışı, s.4.

[2] DİN-in Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2004, 27 may, № 21 (2681).

[3] Məmmədov N. Azərbaycan polisi xalqımıza, dövlətçiliyimizə xidmət edir // Azərbaycan, 2004, 28 oktyabr, № 152 (3767).

2004-cü ilin oktyabr ayının 22-də DİN-də "Şəxsi heyətin yüksək peşəkarlığı cinayətkarlıqla mübarizənin və ictimai təhlükəsizliyin etibarlı təminində əsas şərtdir" mövzusunda seminar-mühazirə keçirilmişdir.

"Daxili İşlər Orqanları şəxsi heyətinin 2004-cü ildə peşə hazırlığının təşkili barədə" AR DİN-in 23/12/2003-cü il tarixli 485 №-li əmrinə müvafiq olaraq, MMB-nin 07/01/2004-cü il tarixli 1 №-li əmrinə əsasən, 2004-cü il tədris ilində yanvar ayının 15-dən oktyabr ayının 21-dək həftənin IV günləri saat 9.30-dan 11.00-dək 56 saat xidməti hazırlıq və 30 saat döyüş fənləri üzrə peşə hazırlığı məşğələləri keçirilmişdir. Məşğələlər hər rüb üzrə tərtib olunmuş, tədris planına uyğun olaraq aparılmış və zəruri hallarda, DİN-in əmr və göstərişlərinə müvafiq olaraq, əlavə mövzular üzrə şəxsi heyətə mühazirələr oxunmuşdur.

Tədris ili ərzində dərslərdə davamiyyət qənaətbəxş olmuşdur. Xidməti və döyüş hazırlığı fənləri üzrə tədris prosesində qanunçuluq, polisin bilavasitə fəaliyyəti, insan hüquq və azadlıqları, mülki müdafiə, topoqrafiya, Daxili İşlər orqanlarında mövcud olan odlu silahlar və onlardan istifadə qaydaları, tibbi hazırlığı və bilavasitə İnterpolun fəaliyyəti ilə bağlı mövzulara geniş yer verilmişdir.

Bu mövzular üzrə mühazirələr MMB-nin yüksək hazırlıqlı əməkdaşları və o cümlədən DİN-in Baş Kadrlar İdarəsinin Hərbi Səfərbərlik və Mülki Müdafiə şöbəsinin, DİN-in 1 saylı poliklinikasından dəvət olunmuş əməkdaşlar tərəfindən aparılmışdır. Tədris ilinin yekunlarında (04/11/2004-cü il tarixində) əməkdaşlardan məhsullar götürülmüş və AR DİN-in 16/03/2002-100 saylı əmrinə əsasən Baş Kadr İdarəsinə hesabat verilmişdir.

Azərbaycan Respublikası prezidentinin 30 iyun 2004-cü il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət proqramının (2004-2008-ci illər) icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası DİN-in 292 saylı 07 iyul 2004-cü il tarixli əmrinin 15-ci bəndinə istinadən, DİN-in müvafiq qurumlarının İnterpolun Azərbaycan Respublikasında MMB-nin telekommunikasiya sistemi vasitəsilə İnterpolun Baş Katibliyinin məlumat bazasına qoşulması nəzərdə tutulur. Əmrin icrasını təmin etmək üçün bu sahədə dünya dövlətlərinin qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiq olunması zəruridir. Bu məqsədlə İnterpolun Baş Katibliyinin dəvətinə və DİN-in rəhbərliyinin göstərişinə əsasən, 13-14 sentyabr 2004-cü il tarixlərində Fransanın Lion şəhərində İnterpolun Baş Katibliyində İnterpolun – İ-24/7 kommunikasiya sistemi ilə bağlı İstifadəçilərin Məşvərətçi Qrupunun (İMQ) III işçi görüşündə MMB-nin Texniki-təminat şöbəsinin əməkdaşları iştirak etmişlər.[1]

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-cü ilin arayış hesabatı, s. 4,14.

2005-ci il yanvarın 10-da DİN-in Daxili İşlər orqanlarında əsas təşkilati tədbirlər planının və DİN-in rəhbərliyinin müvafiq əmr və göstərişlərinin icrası ilə əlaqədar seminar-müşavirə keçirilib. Baş İdarə, idarə və ərazi polis orqanları nümayəndələrinin iştirak etdiyi tədbirdə xidməti və peşə hazırlığı dərslərinin keçirilməsi və bu zaman təlim prosesinin keyfiyyətinin artırılması, dərsə ayrılan vaxtın səmərəli istifadə olunması üçün cədvəl və dərsə nəzarət kitablarının hazırlanması qaydası barədə məlumat verilmişdir. Bundan başqa, tədbirdə fiziki hazırlıq məşğələlərinə davamiyyətin yerli orqanların rəhbərləri tərəfindən nəzarətdə saxlanılması və keçirilən proqramların daha yaxşı mənimsənilməsi üçün qrup rəhbəri və təlimatçıların şəxsi heyət arasında idmana marağı olan əməkdaşlar tərəfindən üstünlüyü barədə danışılıb. Döyüş hazırlığını əhatə edən məsələlər, həmçinin atəş hazırlığının səviyyəsinin yüksək səviyyədə saxlanılması barədə tövsiyələr bildirilib. Bu işdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.[1]

Cənab Ramil Usubov 3 fevral 2005-ci il tarixdə ölkəmizdə səfərdə olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru K.Ştrohalın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Cənab Ramil Usubov K.Ştrohala, 2003-cü ilin noyabr ayında keçirdiyi görüşdən sonra, Daxili İşlər orqanlarında vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində xeyli iş görüldüyünü bildirmişdir. Qeyd olunmuşdur ki, cinayət qanunvericiliyinin, insan hüquq və azadlıqlarının qorunması ııə bağlı, ümumbəşəri dəyərlərə əsaslanan hüquqi islahatların, demokratik prinsiplərə əsaslanan qanunların şəxsi heyətə öyrədilməsi sahəsində tədbirlər davam etdirilmiş, Avropa Şurası və ATƏT-in müvafiq qurumları ilə əməkdaşlıq proqramı çərçivəsində Polis Akademiyasında xüsusi kurslar, seminar və treninqlər təşkil olunmuşdur. Beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilən bu cür tədbirlərin keçirilməsi indiki şəraitdə polis əməkdaşlığının peşə hazırlığı sisteminin keyfiyyətcə yeni göstəricilərə nail olmağa istiqamətləndirilməsi və demokratik tendensiyalar baxımından mühüm əhəmiyyət kəsb edir.

Cənab Ramil Usubov ötən müddət ərzində Daxili İşlər orqanlarının fəaliyyətinin demokratik prinsiplərə və beynəlxalq normalara uyğun qurulması üçün də bir sıra tədbirlər görüldüyünü, o cümlədən nazirliyin strukturunda Daxili Təhlükəsizlik, İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin yaradılmasını diqqətə çatdırmışdır.[2]

DİO-da qarşıda qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün əmək-

---

[1] Polisin hazırlıq səviyyəsi həmişə yüksək olmalıdır // Mübariz keşikdə, 2005, 13 yanvar, №2 (2715).

[2] DİN-in Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2005, 10 may, № 6 (2719).

daşlardan xüsusi bilik və vərdişlərə yiyələnmək tələb olunur, bu sistem şəklində qurularaq, DİN-də və onun müvafiq orqanlarında fasiləsiz olaraq təlim və tədris şəklində təşkil edilir. İlkin hazırlıq, yenidən hazırlıq, ixtisasartırma kursları, döyüş hazırlığı dərsləri, təcrübə, təhlil və elmi fəaliyyət kimi təlim formaları, sərbəst hazırlıq, fiziki hazırlıq bu sistemə daxildir.[1]

"Azərbaycan Respublikasında Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" Dövlət proqramının (2004-2008-ci il icrasının təmin edilməsi haqqında AR DİN-in 17-07-2004-cü il tarixli 297 saylı əmrinin tələbinin yerinə yetirilməsi üzrə tədbirlər planına müvafiq olaraq, IX bəndin icrası ilə əlaqədar, 2006-cı ildə İnterpolun kanalları ilə keçiriləcək bir sıra tədbirlərdə MMB əməkdaşlarının iştirakı proqnozlaşdırılmış və müvafiq məlumatlar əmrin tələbinə müvafiq olaraq DİN-in Baş Cinayət Axtarış İdarəsinə təqdim olunmuşdur. 2004-2008-ci il Dövlət proqramının X bəndinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasında İnterpolun MMB-nin bir əməkdaşının İnterpolun Baş Katibliyində fəaliyyət göstərən antiterror qrupunda təmsil olunması məqsədi ilə, İnterpolun Baş Katibliyi ilə yazışmalar aparılmış və əldə olunmuş razılıq əsasında DİN-in rəhbərliyi tərəfindən MMB-nin Baş Katibliyinə ezam olunmuşdur. Eyni zamanda Dövlət proqramının XV bəndinin icrası ilə əlaqədar DİN-in müvafiq qurumlarının Azərbaycan Respublikasında İnterpolun MMB-nin vasitəsilə, İnterpolun Baş Katibliyinin məlumat bazasına qoşulması məqsədilə, bir sıra tədbirlər həyata keçirilmişdir. İlk növbədə bu sahədə dünya dövlətlərinin qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə, bir sıra ölkələrdə İnterpolun MMB-lərinə müvafiq sorğular göndərilmiş və alınan cavablar ətraflı öyrənilmişdir. Bu cavablara istinadən bir sıra ölkələrdəki təcrübə, xüsusilə maraq dövriyyəsi kimi, aktual mənfi təzahürlərlə mübarizənin daha da gücləndirilməsi məqsədilə, DİN tərəfindən tətbiq olunan müvafiq tədbirlər planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülmüş işlər barədə DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə (BTİİ) və Baş Narkotiklərlə Mübarizə İdarəsinə təqdim olunmuşdur.

2005-ci ildə İnterpolun MMB-də peşə hazırlığı sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması, onun səviyyəsinin yüksəldilməsi, dərslərin daha səmərəli təşkili və mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirilmişdir. 2005-ci tədris ilində İnterpolun MMB-nin əməkdaşlarının peşə hazırlığı "Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili qaydaları haqqında təlimatın təsdiq edilməsi barədə" 16/03/2002-ci il tarixli 100 saylı "Daxili İşlər orqanları şəxsi heyətinin 2005-ci ildə peşə hazırlığının təşkili barədə" 22/12_2004-cü il tarixli 513 saylı əmrinə və Azərbaycan Respublikasında İnterpolun MMB-nin

[1] Fərzəliyev N. Peşəkarlıq peşə hazırlığı səviyyəsindən asılıdır // Mübariz keşikdə, 2004, 22 yanvar, № 5 (2665).

07/01/2005-ci il tarixli 01 №-li daxili əmrinə müvafiq olaraq təşkil edilmişdir.[1]

21 yanvar 2006-cı il tarixdə DİN-də 2005-ci illərdə kadrların seçilib yerləşdirilməsi, peşə hazırlığının artırılması, ərazi polis orqanlarında mənəvi-psixoloji durumun sağlamlaşdırılması, əməkdaşlar arasında təlim-tərbiyənin və nizam-intizamın gücləndirilməsi, həmçinin şəxsi heyətə tibbi xidmətin təşkili, kütləvi informasiya vasitələri ilə iş sahəsində həyata keçirilmiş tədbirlərin yekunlarına həsr olunmuş seminar-müşavirə keçirilmişdir.

Burada vurğulanmışdır ki, ümummilli liderin əsasını qoyduğu, möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət sayəsində ölkəmiz sürətlə iqtisadi inkişaf yoluna qədəm qoymuş, ölkədə ictimai sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunmasını, cinayətkarlıqla qətiyyətli mübarizəni təmin edə bilən, yüksək peşəkarlığa mənəvi dəyərə malik kadr özəyi yaranmış və bu kadrlar əvvəlki illərdə olduğu kimi, 2005-ci ildə İlham Əliyevin qarşıya qoyduğu məsul vəzifələri səylə yerinə yetirmişlər.

Polis general-leytenantı Ə.Ələkbərov xatırlatmışdır ki, uğurlar heç də asan başa gəlməyib, onların qazanılmasında əsas amillərdən biri kadrların seçilib yerləşdirilməsi, peşəkar kadr şəbəkəsinin yaradılması olmuşdur.

Bu müşavirədə Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.

2006-cı ilin yanvar ayında Polis Akademiyasında “Dövlət proqramının tələbləri uğurla həyata keçirilir” mövzusunda keçirilən müşavirədə nazir vurğulamışdır ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən 2004-cü il iyul ayının 30-da Respublika Daxili İşlər orqanlarının təqdirəlayiq fəaliyyətinə, şəxsi heyətin hüquq və demokratik dövlət quruculuğu sahəsində xüsusi xidmətlərinə verilən yüksək qiymətin əyani təzahürü olaraq, bir sıra fərman və sərəncamlar verilmiş, o cümlədən “Azərbaycan Respublikasında Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı (2004-2008-ci illər)“ təsdiqlənmişdir. Böyük əhəmiyyətə malik olan bu proqram polisin maddi-texniki bazasının ən müasir texnika və avadanlıqlarla təchiz edilməsi, şəxsi heyətin sosial müdafiəsinin daha da gücləndirilməsi, cəmiyyətdə polisin rolunun və nüfuzunun yüksəldilməsi, bütövlükdə Daxili İşlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsilə bağlı kompleks tədbirləri əhatə edir.

Müşavirədə Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.[2]

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2005-ci ilin hesabat illik arayışı, s. 2, 5, 6.

[2] Dövlət Proqramlarının tələbləri ugurla həyata keirilir // Mübariz keşikdə, 2006, 21 yan-

Azərbaycan Respublikasında İnterpolun MMB-də 8-ə qədər sıravi və kiçik rəis heyəti fəaliyyət göstərir. Onların peşə hazırlığı əsasən A.Heydərov adına sıravi və kiçik rəis heyəti hazırlayan məktəblərdə keçirilir.

Daxili İşlər orqanlarının sıravi və kiçik rəis heyətinin işə qəbulu, hərtərəfli hazırlanması və sərbəst fəaliyyətə başlaması DİN rəhbərliyinin gündəlik nəzarətində və diqqətində olan vacib məsələlərdən biridir. Çətin və şərəfli yol keçmiş gənc əməkdaşların peşə fəaliyyətinin nə dərəcədə müasir tələblərə cavab verməsi əsasən ilk hazırlığın keyfiyyətindən asılıdır. Gənc əməkdaşın da ilk hazırlıq kurslarından keçməsi, onların peşə fəaliyyətinin, ilk peşə vərdişlərinin formalaşması prosesinin Asif Heydərov adına sıravi və kiçik rəis heyəti hazırlayan məktəbdə beynəlxalq standartlara uyğun həyata keçirilməsi üçün son illər məktəbdə bir sıra təkmilləşmə işləri və islahatlar həyata keçirilmişdir. Belə ki, ilk növbədə sovet dönəmindən qalmış tədris mərkəzi cənab Ramil Usubovun əmri ilə ləğv edilərək, onun bazasında sıravi və kiçik rəis heyəti hazırlayan məktəb yaradılıb. İlkin hazırlıq kurslarının təşkili tamamilə yeniləşdirilib. Əgər əvvəllər DİO-ya qəbul edilmiş gənc əməkdaş bir müddət başqa yerlərdə işlədikdən sonra hazırlıq kurslarına gəlirdisə, indi DİO-ya gələn kimi hazırlıq kurslarına göndərilir. Əvvəllər kursların müddəti 3 ay idi. Hazırda bu müddət 4 aya qədər uzadılmışdır. Gənc əməkdaşlara tədris olunan proqramlar, mövzular yenidən işlənərək hazırlanmış, məktəb əsaslı şəkildə təmir edilmiş, yeni fənn kabinetləri, ayrı-ayrı sinif otaqları, kitabxana, akt zalı lazımi avadanlıq və vəsaitlərlə təchiz olunmuşdur. Tədrisin metodikası yeni əsaslarla Avropa standartlarına uyğun qurulmuşdur. Bu vacib məsələnin həllində ATƏT-in Bakı ofisinin fəaliyyətini qeyd etməmək olmaz. Onların "Polisə yardım proqramı" çərçivəsində məsələləri öz həllini tapmışdır.

Ulu öndərimiz Heydər Əliyevin bu fikrini xatırlatmaq yerinə düşərdi. O, deyirdi: "Polisə yeni qəbul olunmuş əməkdaşların hazırlanması təhsilin fundamentini təşkil edir."[1]

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasında İnterpolun MMB-nin sıravi və kiçik rəis heyəti işə qəbul edilərkən yalnız Asif Heydərov adına sıravi və kiçik rəis heyəti hazırlayan məktəbdə hazırlıq kursları keçilir.

25 may 2007-ci il tarixdə DİN-in müavini polis general-leytenantı Ə.Ələsgərov AŞ ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramı çərçivəsində nüfuzlu beynəlxalq təşkilatın ölkəmizdə səfərdə olan, J.Şlifin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı Respubli-

var, 31 (2768).

[1] Zahidov E. Cinayətkarlıqla mübarizənin əsası məktəbdə qoyulur // Mübariz keşikdə, 2006, 14 dekabr, № 51 (2816).

ka DİN-in 2005-ci il 8 aprel tarixli əmri ilə "Daxili İşlər orqanları əməkdaşlarının etik davranış kodeksi"nin təsdiqləndiyinin 2 ili ərzində həmin fəslin uğurla təsdiq olunduğunu, onun şəxsi heyətinin mənəvi-psixoloji durumunun daha da yüksəldilməsində rolu, polis-vətəndaş münasibətlərinin müasir tələblər səviyyəsində tənzimlənməsi diqqətə çatdırılmışdır. Eyni zamanda göstərilən zaman kəsiyində həmin məsələnin Avropa standartlarına daha da yaxınlaşmasının və Avropa polisinin əxlaq kodeksinə uyğun zərurət kimi meydana çıxdığı vurğulanmışdır.[1]

16 avqust 2007-ci il tarixdə "Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti DİN-ləri arasında əməkdaşlıq haqqında" sazişə uyğun olaraq, Baş Əmniyyət Müdirliyinin Təhsil İdarəsi tərəfindən Bakının polis orqan və hissələrinin kadr və peşə hazırlığı üzrə qrup rəhbərlərinin, təcrübəli əməkdaşların iştirakı ilə ixtisasartırma kursu təşkil olunmuşdur.

Tərtib olunmuş tədbirlər planına əsasən Türkiyə DİN-in Baş Əmniyyət Müdirliyi Təhsil İdarəsinin 6 əməkdaşı "Təlimçilər təlimi" adlanan bu kurs çərçivəsində təlim keçmişlər. 2007-ci ilin iyulun 30-dan avqustun 10-dək davam etmiş seminar zamanı Polis idarəsinin və bölməsinin əməkdaşları cinayətkarlıqla mübarizə və ictimai asayişin təmini sahəsində qabaqcıl dünya, o cümlədən qardaş Türkiyə Cümhuriyyəti polisinin qazandığı müsbət təcrübə, insan və vətəndaş hüquqlarının təminində fəaliyyətin beynəlxalq standartlara uyğunlaşdırılması, psixologiya, pedaqogika və polis xidməti ilə birbaşa yaxud dolayısı ilə bağlı olan humanitar elmlərdə müasir tendensiyalar və digər aktual mövzularda mühazirələr dinlənilmişdir.

Göstərilən kursda Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları da iştirak etmişlər.

2007-ci il avqust ayının 9-da paytaxtın "Park İNN" mehmanxanasında MDB-nin üzvü olan ölkələrin DİN-in ekspertlərinin müşavirəsi keçirilmiş və iki gün davam edən işgüzar görüş zamanı vurğulanmışdır ki, cinayətkarlıqla mübarizəni təmin edən şəxsi heyət arasında peşəkarlığın artırılmasına, icra intizamına, qanunçuluğa dönmədən riayət olunması yönümündə təşkilati-praktik tədbirlərin reallaşmasına ciddi fikir verilməlidir.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2008-ci il tarixli hesabat arayışından ölkəmizdə cinayətkarlıqla mübarizə, ictimai qayda, ictimai təhlükəsizliyin təmin olunması, polisin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və təkmilləşdirilməsi, hüquq islahatlarının həyata keçirilməsi, cinayət qanununun humanistləşdirilməsi, insan hüquq və azad-

---

[1] Məlikov Ə. Avropa Şurasının ekspertləri əlaqələrin inkişafından razıdırlar // Mübariz keşikdə, 2007, 31 mart, № 20 (2838).

[2] Orxan M. Kursun yüksək səviyyədə təşkili razılıq dogurdu // Mübariz keşikd, 2007, 16 avqust, №32 (2850).

lıqlarının, qanunun aliliyinin təmini prinsipləri respublikada ümumdövlət əhəmiyyətli vəzifə olmaqdadır.

DİN-in şəxsi heyətinin Azərbaycan Respublikasına xidməti, cinayətkarlığa qarşı mübarizədə uğurları, ictimai qaydaların və ictimai təhlükəsizliyin keşiyində layiqli dayanması, lazım gəldikdə öz həyatını belə əsirgəməməsi Azərbaycan prezidenti İlham Əliyev tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Bu yüksək qiymətin növbəti əyani təzahürü olaraq prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla işçilərin əmək haqları artırılmış, MMB-nin sabiq rəisi S.Mirzəyev polis general-mayor xüsusi rütbəsinə, Daxili İşlər orqanlarının bir çox əməkdaşları isə mükafatlara layiq görülmüşlər.

2008-ci ildə cənab Ramil Usubovun göstərişi əsasında MMB-nin inzibati binasında əsaslı təmir işləri aparılmış, MMB-yə xeyli sayda kompüter, digər köməkçi avadanlıqlar və avtomobillər ayrılmışdır.

Dövlət başçısı və DİN rəhbərliyinin bu diqqət və qayğısı MMB-nin əməkdaşlarının da ruh yüksəkliyinə səbəb olmuş və xidməti vəzifələrinin layiqincə yerinə yetirilməsinə böyük təsir göstərmişdir.

2008-ci ildə DİN-in kollegiyası tərəfindən qəbul olunmuş qərarlar İnterpolun MMB-nin şəxsi heyətinə elan olunmuş və aidiyyəti qərarlardan irəli gələn tapşırıqların icrası təmin edilmişdir. DİN-in 05.04. 2008-ci il tarixli 174 saylı əmri ilə elan edilmiş "Şəxsi heyət arasında mənəvi-psixoloji durumun, nizam-intizamın, habelə sosial müdafiənin yaxşılaşdırılması üzrə fəaliyyəti haqqında" 01.04.2008-ci il tarixli CQ-212 saylı kollegiya qərarlarından irəli gələn tapşırıqların icrası ilə əlaqədar, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi məsələsinə dair, DİN-in əmr və göstərişləri, habelə, Daxili İşlər orqanları əməkdaşlarının etik davranış kodeksi" İnterpolun MMB-nin şəxsi heyəti tərəfindən bir daha öyrənilmiş və əməkdaşlardan bunlarla bağlı məqbullar götürülmüşdür. Şəxsi heyətin xidmətdən kənar məşğuliyyətinə, onların sosial, o cümlədən ailə-məişət problemlərinin, çətinliklərinin həllinə diqqət yetirilmiş və zəruri hallarda köməklik göstərilmişdir. MMB-nin rəhbərliyi tərəfindən əməkdaşlarla mütəmadi olaraq fərdi-profilaktik söhbətlər aparılmışdır. Əməkdaşların qanunla təsbit olunmuş vəzifə və funksiya hüquqlarını bilmələri, səlahiyyətlərini qanunla müəyyən edilmiş çərçivədə həyata keçirmələri üçün maarifləndirmə tədbirləri həyata keçirilmiş və peşə-hazırlıq məsələlərində müvafiq mövzular tədris olunmuşdur. MMB-də mənəvi-psixoloji mühitin, işgüzar əhval-ruhiyyənin qorunub saxlanılması üçün ədalətlilik prinsipi təmin olunmuş, xidməti fəaliyyətdə fərqlənən əməkdaşlar barədə maddi və mənəvi həvəsləndirmə tədbirləri tətbiq olunmuşdur. Belə ki, 2008-ci il ərzində MMB-nin 27 əməkdaşı mükafatlandırılmışdır.

Hesabat dövrü ərzində 12-14 mart 2008-ci il ərzində BƏƏ-nin Fransanın Lion şəhərində İnterpolun Baş Katibliyində Avropa dövlətlərinin əməkdaşları üçün X təlim kursu keçirilmişdir. Bu təlim kursunda Azərbaycan Respublikasında İnterpolun MMB-nin Təşkilati-analitik şöbəsinin zabiti iştirak etmişdir.

4 aprel 2008-ci il tarixdə İtaliyanın Roma şəhərində “Əqli-mülkiyyət əleyhinə cinayətlərlə mübarizə” üzrə İnterpolun təlim kursları keçirilmiş və həmin tədbirdə MMB-nin Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin bir zabiti iştirak etmişdir.[1]

1 dekabr 2009-cu il tarixdə DİN-də “Daxili İşlər orqanlarında kargüzarlıq işinin təşkili”nə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir. Orada qeyd olunmuşdur ki, ölkə prezidentinin 27 sentyabr 2003-cü il tarixli fərmanı ilə təsdiq olunmuş “Dövlət hakimiyyət orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın artırılmasına dair təlimat”, habelə icra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında” 26 oktyabr 2006-cı il tarixli sənədlərlə işin və idarəçilik fəaliyyətinin məqsədyönlü tənzimlənməsində əhəmiyyətli rol oynamaqla, icra intizamına nəzarət sahəsində konkret vəzifələr müəyyən edilmişdir, xidməti fəaliyyətdə rəhbər tutulan bu normativ hüquqi aktların tələbləri DİN-in diqqət mərkəzində olmuşdur. Aidiyyəti fərman və sərəncamların, Nazirlər Kabinetinin qərarlarının, vətəndaşların müraciətlərinin icra vəziyyəti mütəmadi təhlil edilmiş, bu vacib məsələyə dair ayrı-ayrı kollegiya iclaslarında və əməliyyat müşavirələrində zəruri qərarlar qəbul edilmişdir.[2]

3-5 mart 2009-cu il tarixdə Fransanın Lion şəhərində İnterpolun MMB rəislərinin 5 illik təlim toplantısı keçirilmiş, həmin toplantıda MMB-nin rəhbərliyi iştirak etmişdir.

11-13 mart 2009-cu il tarixdə Fransanın Lion şəhərində İnterpolun Baş Katibliyində Avropa MMB-su əməkdaşları üçün XIII təlim kursu təşkil olundu. Təlim kursunda Azərbaycan nümayəndə heyəti də iştirak etdi.

2-6 iyun 2009-cu il tarixdə Türkiyənin Ankara şəhərində İnterpolun V Beynəlxalq təlim kursu keçirilmişdir. Bu təlim kursunda Azərbaycan Respublikasında İnterpolun MMB-nin Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin əməkdaşları iştirak etmişlər.

2009-cu tədris ilində İnterpolun MMB-də peşə hazırlığı sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması, onun səviyyəsinin yüksəldilməsi, dərslərin daha səmərəli təşkili və mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirilmişdir. İnterpolun əməkdaş-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2008-ci ilin arayış hesabatı, s.1, 2, 7, 12.
[2] DİN-in Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2009, dekabr, № 47 (2967).

larının peşə hazırlığı DİN-in "Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili qaydaları haqqında təlimatın tətbiq edilməsi haqqında" 16 mart 2002-ci il tarixli 100 saylı "Daxili İşlər orqanlarında şəxsi heyətin 2009-cu ildə peşə hazırlığının təşkili barədə" 2008-ci il tarixli 697 saylı, "Daxili İşlər orqanlarında xüsusi fiziki hazırlıq üzrə fəaliyyətin təşkilinə dair təlimatın təsdiq olunması barədə" 31 avqust 2000-ci il tarixli 347 saylı, "2009-cu ildə Daxili İşlər orqanlarında fiziki hazırlıq işinin təşkilinə dair" 31 dekabr 2008-ci il tarixli 722 saylı əmrinə, habelə Azərbaycan Respublikasında İnterpolun MMB-nin 31/01/2009-cu il tarixli 01 saylı əmrinə müvafiq olaraq təşkil edilmişdir.

2009-cu tədris ilində xidməti və döyüş hazırlığı dərslərinin keçirilməsi üçün İnterpolun MMB-də 3 tədris qrupu yaradılmışdır.

I qrup (Təşkilati-analitik şöbənin, texniki-təminat şöbəsinin və Katibliyin orta və böyük rəis heyəti), II qrup (Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin orta və böyük rəis heyəti), III qrup (İnterpolun MMB-nin kiçik və sıravi rəis heyəti). 2009-cu tədris ilində xidməti və döyüş hazırlığı üzrə dərslər hər həftənin dördüncü günü saat 9:30-dan 11:00-dək keçirilir. 2009-cu tədris ili üçün illik saatlar bölgüsü xidməti və döyüş hazırlığı dərsləri üzrə təxmini mövzular planı tərtib olunmuşdur. Cari dərs ilində rüblük dərs cədvəlləri tərtib olunmuş və həmin cədvəllərə müvafiq olaraq məşğələlər (mühazirələr, praktik məşğələlər, seminar məşğələlər) aparılmışdır. Zəruri hallarda digər qrupların mütəxəssisləri dəvət olunmuşdur. 2009-cu ilin sonunda xidməti və döyüş hazırlığı dərsləri üzrə əməkdaşlardan qiymətli məqbullar götürülmüş, müvafiq dərslərə cavab verən əməkdaşların məharət dərsləri artırılmışdır.

2009-cu il yanvar ayının 16-dan həftənin II və V günləri saat 8:30-dan 11:00-dək fiziki hazırlıq dərsləri keçirilmiş, 2009-cu tədris ilinin yekunlarında "Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili qaydaları haqqında təlimatın tətbiq olunması barədə" DİN-in 16 mart 2009-ci il tarixli 100 saylı əmrinin tələblərinə uyğun olaraq, əməkdaşların peşə hazırlığı barədə məlumat DİN-in Baş Kadr İdarəsinə göndərilmişdi.

DİN-in "2008-ci il ərzində AR Daxili İşlər orqanlarında intizamın vəziyyətinə dair "29/01/2009-cu il tarixli 7 saylı, "2009-cu ilin I rübü ərzində nizam-intizamın mövcud vəziyyəti barədə" 23/04/2009-cu il tarixli 33 saylı, "2009-cu ilin I yarımili ərzində AR DİN-in orqan və hissələrində intizamın vəziyyəti barədə" 22/07/2009-cu il tarixli 45 saylı, "2009-cu ilin I yarımili ərzində Respublika Daxili İşlər orqanlarında nizam-intizamın vəziyyəti barədə" 22/07/2009-cu il tarixli 45 saylı göstərişlərin icrası ilə əlaqədar, MMB-nin şəxsi heyəti arasında mövcud sağlam, mənəvi-psixoloji mühitin qorunub saxlanılması, əməkdaşlarda fərdi intizam, məsuliyyət və cavabdeh-

lik hissinin aşılanması, anda və vəzifə borcuna sədaqət ruhunun daha da inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi təmin edilmişdir. Şəxsi heyət arasında mənəvi-psixoloji durumun daha da yaxşılaşdırılması məqsədilə, xidmətdə fərqlənən əməkdaşların mükafatlandırılması işinə də diqqət yetirilmişdir. Belə ki, 2009-cu il ərzində MMB-da 36 əməkdaş mükafatlandırılmışdır.

Eyni zamanda DİN-in 23/03/2006-cı il tarixli 18 saylı göstərişinin tələbinə müvafiq olaraq, MMB-də nizam-intizamın mövcud vəziyyətini əks etdirən hesabat formaları hesabat dövrünün sonunda müvafiq məlumatlarla birgə DİN-in şəxsi heyətilə İş idarəsinə təqdim olunmuşdur.

DİN-in " 2008-ci il ərzində Daxili İşlər orqanlarında qanunçuluğa və hüquq qaydalarına riayət edilməsinin vəziyyəti barədə" 21/01/2009-cu il tarixli 4 saylı göstərişinin tələblərinə uyğun olaraq, İnterpolun MMB-də şəxsi heyət arasında nizam-intizam və qanunçuluğun təmin edilməsi istiqamətində görülmüş işlər barədə məlumat DİN-in Daxili Tədqiqatlar İdarəsinə təqdim olunmuşdur. "2009-cu ilin I yarımili ərzində icra intizamının, sənədlərin, işin və vətəndaşların ərizə və şikayətlərinə baxılması vəziyyətinə dair icmal-arayış" MMB-nin əməliyyat müşavirəsində müzakirə edilmişdir (protokol №17).

2009-cu ilin mart, iyun, iyul və oktyabr aylarında MMB-də icra intizamının vəziyyəti büronun müvafiq komissiyası tərəfindən yoxlanılmış, arayış tərtib olunmuş və nəticələr əməliyyat müşavirəsində müzakirəyə çıxarılmışdı (protokol № 9). 31/03/2009-cu il; protokol № 13 30/06/ 2009-cu il; protokol №16, 31/07/2009-cu il; protokol №23 23/10/2009 il.

2009-cu ilin yanvar və avqust aylarında MMB-də məxfilik rejiminə nəzarət və məxfi sənədlərin mövcudluğunun yoxlanılması üzrə komissiya məxfi sənədlərin mövcudluğunu yoxlamış və yoxlamanın nəticələri, məxfilik rejiminə riayət olunma vəziyyəti müvafiq komissiyaların iclasında müzakirə edilmişdir (protokol №4 28/01/2009-cu il və protokol №19 28/08/2009-cu il)[1]

30 mart 2000-ci il tarixdə ARDİN-də orta və böyük rəis heyəti vəzifəsində xidmətə qəbul üzrə müsabiqə komissiyasının iclası keçirilmişdir. İclasda vurğulanmışdır ki, Daxili İşlər orqanlarında xidmətə qəbulun yekun nəticələri barədə tədbir iştirakçılarına məlumat verilmişdir. Orada deyilmişdir ki, xidmətə qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi işinin daha da genişləndirilməsi və səmərəsinin artırılması məqsədilə, DİN-in "Daxili İşlər orqanlarının orta rəis heyəti vəzifəsinə xidmətə qəbul üzrə müsabiqənin elan edilməsi haqqında" əmrinə əsasən, respublikanın orqan və

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009 cu ilin arayış hesabatı, s. 17, 18, 19.

hissələrində vakant vəzifələrinə qəbul üçün kütləvi informasiya vasitələrində elan olunur və nəticələri TQDK-ya göndərilir. Nəticədə test imtahanlarından yuxarı bal toplayan namizədlər müsabiqənin ikinci mərhələsinə buraxılırlar. Sonra həmin namizədlər orta rəis heyəti vəzifəsində xidmətə qəbul üzrə keçirilmiş müsabiqənin ikinci mərhələsindən də uğurla keçərək, DİN-in müvafiq əmri ilə, bütün iddiaçılar "Polis leytenantı" xüsusi rütbəsi verilməklə, respublikanın şəhər, rayon polis orqanlarında müxtəlif vəzifələrə təyin edilirlər.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-si ARDİN-in Baş İdarə səlahiyyətində bir qurumdur və yuxarıda qeyd edildiyi kimi, DİN-in bütün strukturları ilə əlaqəli fəaliyyət göstərir. MMB-də olan bütün kadrla bağlı səlahiyyətləri DİN-in Baş Kadr İdarəsi həyata keçirir.

Yeri gəlmişkən, bir faktı qeyd etmək yerinə düşərdi. Azərbaycan Respublikasında İnterpolun MMB-nin zabit heyətinin ixtisaslarının artırılmasında və bir çox zabit heyətinin Ali Hüquq təhsili aldığı ali təhsil müəssisəsi olan Polis Akademiyasının dünyaya inteqrasiyası barədə Azərbaycan Respublikasının həyata keçirdiyi siyasət dünyada mövcud olan bir çox müasir yanaşmaların ölkəmizdə tətbiqi üçün real imkanlar yaradır. AB-nin 2004-cü il tarixli genişlənmə siyasətindən yararlanaraq, AB ilə Azərbaycan arasında intensiv siyasi, iqtisadi, mədəni və s. sahələrdə əlaqələrin qurulmasına başlanmışdır. Məhz bu baxımdan, Respublika Prezidenti tərəfindən ölkəmizdə təhsilin gələcək inkişafında önəmli rol oynayan "Avropa İttifaqı-Azərbaycan fəaliyyət planı" və "Azərbaycan Ali təhsil məkanına inteqrasiya" ilə bağlı bəzi tədbirlər haqqında sərəncamlar imzalanmışdır.

Ölkəmizdə aparılan quruculuq işləri, texniki inkişaf, təhsil sahəsindəki qabaqcıl təcrübə ilə ayaqlaşma istiqamətində əldə olunan nailiyyətlər DİN-dən və onun yeganə Ali təhsil müəssisəsi olan Polis Akademiyasından da yan keçməmişdir. Artıq bir neçə ildir ki, təhsil müəssisələrimiz respublikada təhsil sahəsində aparılan islahatlara və DİN-in beynəlxalq əməkdaşlığın imzası strategiyasına əsaslanaraq, xarici əlaqələr sahəsində önəmli addımlar atmışdır. Təhsil sahəsində yeni forma və metodların axtarışı, qabaqcıl təcrübənin mənimsənilməsi, bu sahədə yeni tədqiqatların aparılması Polis Akademiyasının Avropa məkanında tanınmasına, onun elmi potensialının müxtəlif beynəlxalq layihələrdə təmsil olunmasına səbəb olmuşdur.

Belə layihələr çərçivəsində təhsil müəssisəmiz polis təhsili sahəsində Avropanın nüfuzlu təşkilatları – Avropa Polis Kolleci (CEPOL) və Avropa Polis Kollecləri Assosiasiyası (The Association of European Police Colleges) ilə əlaqələrin qurulmasına başlanmışdır.

---

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2010, 1 aprel, 11(2482).

Avropa Birliyinə üzv olan 15 dövlətin 12-si Avropa Polis Kollecləri Assosiasiyası ilə birgə əməkdaşlıq haqqında memorandumu imzalamışlar. 14 iyun 1996-cı ildə Stokholm şəhərində Assosiasiyanın İdarə Şurası tərəfindən təşkil olunan görüşdə Portuqaliya Ali Polis Məktəbinin, həmin ilin 5-6 dekabr tarixində isə İtaliya və Lüksemburq nümayəndələrinin əməkdaşlıq haqqında memoranduma qoşulması ilə Avropa Birliyinin bütün ölkələrinin Avropa Polis Kolleci Assosiasiyasına daxilolma prosesi tamamlanmışdır.

APKA Avropada polis kadrlarının birgə hazırlığına, məlumat mübadiləsində, qonşuluq və peşəkar fəaliyyətdə əlaqələrin möhkəmləndirilməsinə zəruri kömək edir. Təşkilat assosiasiyaya üzv dövlətlərin arasında əməkdaşlığın əlaqələndirilməsi ilə yanaşı, Avropa Polis təhsilinin tədqiqatlarını aparan əlaqələndirici qrup funksiyasını da daşıyır. Eyni zamanda APKA mövcud olan resurslar vasitəsilə elmi-yaradıcılıq fəaliyyətinin, Avropanın milli polis müəssisələrinin pedaqoji heyətinin, o cümlədən əməliyyat aparatlarında fəaliyyət göstərən əməkdaşların təcrübə mübadiləsində, AB üzvlüyünə namizəd dövlətlərin polis kadrlarının hazırlanmasında, həmçinin beynəlxalq cinayətkarlıqla mübarizədə Avropa Polis Təşkilatına köməklik və yaradılmasında əlaqələndirici rolunda da çıxış edir.

Son zamanlar Şengen müqaviləsi və Avropol (Avropa polis təşkilatı) çərçivəsində əməkdaşlığın fəallaşdırılması assosiasiyanın Avropa Akademiyalar Təşkilatı və Şimal Baltik Polis Akademiyaları Təşkilatı ilə əməkdaşlığın real imkanlarından xəbər verir.

Hazırda Avropa Polis Kollecləri Assosiasiyası 40 Avropa ölkəsinin 48 təhsil ocağının, o cümlədən AR Polis Akademiyasının fəaliyyətini əlaqələndirir.

2010-cu ilin fevralın 1-2-də İsveçrə Polis İnstitutu ilə Avropa Polis Kollecləri Assosiasiyasının birlikdə təşkil etdikləri və həmin təşkilata üzv dövlətlərin ali polis təhsil müəssisə rəhbərlərinin iştirak etdiyi İcra Komitəsinin növbəti iclası İsveçrənin Novşatel şəhərində keçirilmişdir. Tədbirdə AR DİN-in Polis Akademiyası ilə yanaşı, Türkiyə Polis Akademiyası, Belçika Polis Kolleci, Avstriyanın Təhlükəsizlik Akademiyası, Almaniyanın Ali Polis Məktəbi, Fransa Jandarmeriyasının Tədris Mərkəzi, Birləşmiş Krallığın Milli Polis Qüvvələri Akademiyası, İspaniyanın Milli Polis Kolleci, Polşanın Polis Məktəbi, İsveç Polis Akademiyası, Serbiya Polisinin Kriminalistika Akademiyası, Kolova Polis Məktəbi, Slovakiya Polis Akademiyası və Gürcüstan Respublikası DİN-in Polis Akademiyasının müvafiq rəhbərlikləri toplaşaraq, cari məsələlərin, eləcə də təhsil müəssisələrinin APKA-ya üzv seçilməsi məsələsini müzakirə etmişlər. Səsvermədən sonra Azərbaycan Respublikası DİN-in Polis Akademiyası yekdilliklə Avropa Polis Kollecləri Assosiasiyasının üzvü seçilmişdir.

Ölkə prezidentinin və DİN-in rəhbərliyi tərəfindən təhsil müəssisələrinin fəaliyyətinə göstərilən diqqət və qayğı onun maddi-texniki bazasının zənginləşməsi və Avropa standartlarına müvafiq quruculuq işlərinin aparılması nəticəsində Polis Akademiyasının beynəlxalq aləmə inteqrasiyasının belə surəti təhsil ocağımızın yaxın gələcəkdə Avropa Polis təhsilinin tətbiq etmək prosesinə və hətta dünyanın Polis Təhsil Müəssisələri ilə rəqabət aparmağına şərait yaradacaqdır. AR Daxili İşlər Orqanlarında və onun tərkib hissəsi olan Azərbaycan Respublikasında İnterpolun MMB-nun əməkdaşlarının peşəkarlığının və əsl beynəlxalq standartlara cavab verən polis əməkdaşı olmasına bu günün tələbinə uyğun şərait yaradacaqdır.[1]

Yuxarıda qeyd etdiklərimizə əsasən, Polis Akademiyası barədə bir faktı da qeyd edək. Azərbaycan Respublikası DİN-in 5 dekabr 2001-ci il tarixli əmri ilə Polis Akademiyasının nəzdində "DİO-da idarəetmənin təşkili və ixtisasartırma" fakültələri yaradılmış, 2003-cü ildən dinləyicilərin qəbuluna başlanmışdır. Dinləyicilər DİN-in tərəfindən hər il üçün tərtib olunmuş plan-cədvələ əsasən ayrı-ayrı tarixlərdə Akademiyaya ezam olunmuşlar. Onların buradakı təhsil müddəti DİN-in aidiyyəti əmrinin tələblərinə müvafiq planlaşdırılır. Təlimə cəlb olunmuş kadrların peşəkarlıq səviyyəsinin artırılması üzrə bir neçə istiqamətdə zəruri tədbirlər həyata keçirilir. Belə ki, hər cari tədris ilində əməkdaşlarla təşkil olunmuş kursların mövzu-təqvim planına yenidən baxılır, real surətdə və Daxili İşlər orqanları qarşısında qoyulmuş vəzifələrin icrası ilə bağlı, aktual mövzular salınmaqla, əlavə və dəyişikliklər edilir. DİN-in aidiyyəti qurumları ilə razılaşdırıldıqdan sonra, dərslərin keçirilməsi təmin olunur.

Fakültənin fəaliyyətinin digər bir istiqaməti Daxili İşlər orqanları üçün rəhbər kadrların hazırlanmasıdır. Yuxarıda qeyd etdiyimiz bu ixtisasartırma kurslarına DİO-nun əməkdaşları ilə yanaşı, Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları da cəlb olunurlar və öz peşəkarlıq səviyyələrini yüksəldirlər.[2]

2010-cu il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-də Peşə hazırlığı sisteminin maddi bazasının yaxşılaşdırılması, onun səviyyəsinin yüksəldilməsi, dərslərin daha səmərəli təşkili və mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirilmişdir.

2010-cu tədris ilində İnterpolun MMB-nin əməkdaşlarına peşə hazırlığı DİN-in "DİO-da peşə hazırlığının təşkili qaydaları haqqında təlimatın təsdiq edilməsi barədə" 2002-ci il tarixli 100 №-li, "Daxili İşlər orqanları şəxsi heyətinin 2010-cu ildə peşə hazırlığının təşkili barədə" 05 yanvar 2010-cu il

[1] Cəfərov Y. Təhsilimizin yeni səhifəsi // Mübariz keşikdə, 2010, 8 aprel, №12 (2983).
[2] Təmirov H. Uğurları ilə fəxr etdiyimiz təhsil ocagı–Polis Akademiyası // Mübariz keşikdə, 2010, 16 oktyabr, №6 (3073).

tarixli 1 №-li, “Şəxsi heyətin xüsusi fiziki hazırlığı sahəsində işin təşkilinə dair təlimatın təsdiq olunması barədə” 24 dekabr 2009-cu il tarixli 152 №-li, “2010-cu ildə DİO-da fiziki hazırlıq işinin təşkilinə dair” 11 yanvar 2010-cu il tarixli 19 №-li əmrinə, habelə İnterpolun MMB-nin 16/01/2010-cu il tarixli 2 №-li əmrinə müvafiq olaraq təşkil edilmişdir.

2010-cu tədris ilində xidməti və döyüş hazırlığı dərslərinin keçirilməsi üçün MMB-də 3 tədris qrupu yaradılmışdır:

I qrup (Təşkilati-analitik şöbənin, texniki-təminat şöbəsinin və katibliyin orta və böyük rəis heyəti), II qrup (Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin orta və böyük rəis heyəti), III qrup (İnterpolun MMB-nin kiçik və sıravi rəis heyəti). 2010-cu tədris ilində xidməti və döyüş hazırlığı üzrə dərslər hər həftənin dördüncü günü saat 9:30-dan 11:00-dək keçirilir. 2010-cu tədris ili üçün illik saatlar bölgüsü xidməti və döyüş hazırlığı dərsləri üzrə təxmini mövzular planı tərtib olunmuşdur. Cari dərs ilinin I, II, III, IV rübü üçün rüblük dərs cədvəlləri tərtib olunmuş və həmin cədvəllərə müvafiq olaraq məşğələlər (mühazirələr, praktik məşğələlər, seminar məşğələlər) aparılmışdır. Zəruri hallarda digər qrupların mütəxəssisləri dəvət olunmuşlar.

Eyni zamanda DİN-in “Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili üzrə əlavə tədbirlərə dair” 04/03/2010-cu il tarixli 135 №-li əmrinin tələblərinin yerinə yetirilməsi istiqamətində tədbirlər həyata keçirilmiş və peşə hazırlığına nəzarət daha da gücləndirilmişdir. 2010-cu tədris ilinin sonunda xidməti və döyüş hazırlığı fənləri üzrə əməkdaşlardan yeni tərtib edilən test üsulu ilə (DİN-in 27/08/2010-cu il tarixli 530 №-li əmri) qiymətli məqbullar götürülmüş, müvafiq tələblərə cavab verən əməkdaşlar məharət dərslərinə təqdim olunmuşlar.

2010-cu ilin yanvar ayının 12-dən həftənin II və V günləri saat 8:30-dan 11:00-dək fiziki hazırlıq dərsləri keçirilmiş, 2010-cu tədris ilinin yekunlarında “Daxili İşlər Orqanlarında peşə hazırlığının təşkili qaydaları haqqında təlimatın tətbiq olunması barədə” DİN-in 16 mart 2002-ci il tarixli 100 saylı əmrinin tələblərinə uyğun olaraq, əməkdaşların peşə hazırlığı barədə məlumat DİN-in Baş Kadr İdarəsinə göndərilmişdir (BKİ).

Xidməti zərurətlə əlaqədar və əməkdaşların rəsmi dillərdən birini bilmələrinin vacibliyini nəzərə alaraq, MMB-də ingilis dili kursu fəaliyyət göstərir.

DİN-in 30/01/2010-cu il tarixli G-6 №-li göstərişinin tələblərinə uyğun olaraq, “2009-cu ildə DİO-da qanunçuluğa riayət edilməsinin vəziyyəti barədə” icmal-arayış MMB-nin əməliyyat müşavirəsində müzakirəyə çıxarılmış (protokol №7) və görülmüş işlər barədə DİN-ə məlumat verilmişdir.

DİN-in 03/01/2010-cu il tarixli G-9 №-li göstərişinin tələbinə uyğun olaraq, “2009-cu ildə DİO-da nizam-intizamın vəziyyəti barədə icmal-ara-

yış” MMB-nin əməliyyat müşavirəsində müzakirəyə çıxarılmış (protokol №8, 10/03/2010-cu il) və görülmüş tədbirlər barədə DİN-in Şəxsi Heyətlə İş İdarəsinə məlumat verilmişdir.

Eyni zamanda DİN-in 23/03/2006-cı il tarixli 18 №-li göstərişinin tələblərinə müvafiq olaraq, MMB-də nizam-intizamın mövcud vəziyyətini əks etdirən hesabat forması hesabat dövrlərinin fonunda müvafiq məlumatlarla birgə DİN-in Şəxsi Heyətlə İş İdarəsinə (ŞHİİ) təqdim olunmuşdur.

2010-cu ilin yanvar, aprel, iyul və oktyabr aylarında icra intizamının vəziyyəti büronun müvafiq komissiyası tərəfindən yoxlanılmış, arayış tərtib olunmuş və nəticələri əməliyyat müşavirəsində müzakirəyə çıxarılmışdır. (Protokol №2, 10/01/2010-cu il; protokol № 9, 14/04/2010-cu il; protokol 14, 24/07/2010-cu il və protokol №20, 21/10/2010-cu il).

2010-cu ilin yanvar və iyul aylarında MMB-də məxfilik rejiminə nəzarət və məxfi sənədlərin mövcudluğunun yoxlanılması üzrə komissiya məxfi sənədlərin mövcudluğunu yoxlamış və yoxlamanın nəticələri, məxfilik rejiminə riayət olunma vəziyyəti müvafiq komissiyaların iclasında müzakirə edilmişdir. (Protokol №7, 14/01/2010-cu il və protokol №15, 26/07/2010-cu il).[1]

Cənab Ramil Usubov 2 iyul 2011-ci il tarixdə Polis gününə həsr olunmuş tədbirdə demişdir: “Daxili İşlər orqanları əməkdaşlarının peşə hazırlığı, əməliyyat, xidmət fəaliyyətinin prioritet istiqamətlərdən biri olduğundan və ixtisaslı kadrlarla kompleksləşmədə mühüm əhəmiyyət kəsb etdiyindən müvafiq sahədə işin məqsədyönlü təşkilinə və aparılmasına xüsusi diqqət yetiririk. Polisdə xidmətin yüksək vətəndaşlıq məsuliyyəti cəsarət, şəxsi mətanət, bilik, geniş dünyagörüşü, elm, təhsil və təcrübə tələb etdiyini vurğulayan Ümummilli lider Heydər Əliyev professional səviyyənin yüksəlməsini, xidmətin müasir tələblərə, beynəlxalq təcrübəyə uyğun qurulmasını bir tələb kimi qarşımıza qoymuşdur. Bu proqram vəzifələrin yerinə yetirilməsi üçün nazirlik sistemində video-konfrans texnologiyalarına əsaslanan “Virtual tədris mərkəzi”, habelə Baş Kadrlar İdarəsinin, Polis Akademiyasının, respublikanın 11 şəhər-rayon polis orqanının bazasında təlimlərin videokonfrans formatında keçirilməsinə imkan verən xüsusi tədris sinfi yaradılmışdır.

Akademiyada idarəetmənin təşkili və ixtisasartırma fakültəsi təsis olunmuş, müasir tədris, konfrans zalı, elmi-metodik kabinetlər, laboratoriyalar, kriminalistik təlim otaqları, xüsusi təchiz edilmiş auditoriyalar, idman kompleksi, sıra meydanları və s. tikilib istifadəyə verilmişdir. Analoji tədbirlər A.Heydərov adına sıravi və kiçik rəis heyəti hazırlayan məktəblərdə

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2010-cu il ərzində arayış hesabatı, s.. 9, 10, 11, 12.

də görülmüşdür. Gənc kadrların tədris müəssisələrində aldıqları nəzəri bilikləri praktikada istifadə etməsinə, xidmətində möhkəmlənməsinə yönələn tədbirlər davam etdirilir.

Qabaqcıl dünya təcrübələrinin öyrənilməsi üçün əməkdaşlar mütəmadi olaraq xarici dövlətlərdə təşkil olunan təlimlərdə, treninqlərdə, ayrı-ayrı xidmət sahələri və təsnifat vəzifələri üzrə müsabiqələrdə, informasiya texnologiyaları sahəsində xüsusi kurslarda iştirak edirlər. Şəxsi heyətin sıralarına hazırlıqlı və bacarıqlı gəncləri cəlb etmək üçün kadr seçiminə də xüsusi həssaslıqla yanaşılır.

Son illər Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasında keçirilən test imtahanlarının nəticələrinə görə, ali hüquq təhsili olan yüzlərlə gənc orta rəis heyəti vəzifəsində xidmətə qəbul edilmişdir. Sıravi və kiçik rəis heyəti vəzifəsinə qəbul da analoji qayda ilə aparılır. [1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı, 2011-ci il üçün bir neçə faktı qeyd edək.

18-22 aprel 2011-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın üzv dövlətlərinin Milli İnformasiya Təhsil Mərkəzləri arasında məlumatların mühafizəsi üzrə "Plena-E" şifrləmə aparat-proqram kompleksinin istismarı ilə bağlı təlim kursu keçirilmiş, bu təlim kursunda MMB-nin Texniki-təminat şöbəsinin əməkdaşları iştirak etmişlər.

23-25 noyabr 2011-ci il tarixdə Fransanın Lion şəhərində İnterpolun Avropa MMB-lərinin əməkdaşları üçün XXI təlim kursu keçirilmiş, həmin təlim kursunda MMB-nin tərcümə qrupunun əməkdaşı iştirak etmişdir.

2011-ci il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-da Peşə hazırlığı sisteminin maddi bazasının yaxşılaşdırılması, onun səviyyəsinin yüksəldilməsi, dərslərin daha səmərəli təşkili və mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirilmişdir.

"2011-ci tədris ilində İnterpolun MMB-nin əməkdaşlarının peşə hazırlığının təşkili qaydaları haqqında təlimatın təsdiq edilməsi barədə" 16/03/2002-ci il tarixli 100 №-li, 2011-ci ildə Daxili İşlər orqanlarında 100 №-li, "2011-ci ildə Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili barədə" 05/01/2011-ci il tarixli 5 №-li, "Şəxsi heyətin xüsusi fiziki hazırlığı sahəsində işin təşkilinə dair" 05/01/2011-ci il tarixli 2 №-li əmrlərinə, habelə İnterpolun MMB-nun 11/01/2010-cu il tarixli 62 №-li əmrinə müvafiq olaraq təşkil edilmişdir.

2011-cu tədris ilində xidməti və döyüş hazırlığı dərslərinin keçirilməsi üçün İnterpolun MMB-də 3 tədris qrupu yaradılmışdır:

[1] Usubov R. Azərbaycan polisi xalqa sədaqətlə xidmət edir // Azərbaycan, 2011, 2 iyun, №141 (5831).

I qrup (Təşkilati-analitik şöbənin, Texniki-təminat şöbəsinin və Katibliyin orta və böyük rəis heyəti), II qrup (Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin orta və böyük rəis heyəti), III qrup (İnterpolun MMB-nin kiçik və sıravi rəis heyəti). 2011-cu tədris ilində xidməti və döyüş hazırlığı üzrə dərslər hər həftənin 4-cü günü saat 9:30-dan 11:00-dək keçirilib. 2011-ci tədris ili üçün illik saatlar bölgüsü xidməti və döyüş hazırlığı dərsləri üzrə təxmini mövzular planı tərtib olunmuşdur.

2011-ci tədris ilinin yekunlarında "Daxili İşlər Orqanlarında peşə hazırlığının təşkili qaydaları haqqında təlimatın tətbiq olunması barədə" DİN-nin 16 mart 2002-ci il tarixli 100 №-li əmrinin tələblərinə uyğun olaraq, əməkdaşların peşə hazırlığı barədə məlumat DİN-in Baş Kadr İdarəsinə göndərilmişdir (BKİ).

DİN-in 23/03/2006-cı il tarixli 18 №-li göstərişinin tələblərinə müvafiq olaraq, MMB-də nizam-intizamın mövcud vəziyyətini əks etdirən hesabat forması hesabat dövrlərinin fonunda müvafiq məlumatlarla birgə DİN-in Şəxsi Heyətlə İş İdarəsinə (ŞHİİ) təqdim olunmuşdur. Yaxşı işinə görə MMB-nin 30 əməkdaşı mükafatlandırılmışdır.

2011-cu ilin yanvar, aprel, iyul və oktyabr aylarında MMB-da icra intizamının vəziyyəti MMB-nun müvafiq komissiyası tərəfindən yoxlanılmış, arayış tərtib olunmuş və nəticələri əməliyyat müşavirəsində müzakirəyə çıxarılmışdır.(protokol №4, 27/01/2011-ci il, protokol №13, 16/04/2011-ci il, protokol №21, 27/10/2011-ci il)

2011-ci ilin yanvar və avqust aylarında MMB-də məxfilik rejiminə nəzarət və məxfi sənədlərin mövcudluğunun yoxlanılması üzrə komissiya məxfi sənədlərin mövcudluğunu yoxlamış və yoxlamanın nəticələri, məxfilik rejiminə riayət olunma vəziyyəti müvafiq komissiyaların iclasında müzakirə edilmişdir (Protokol №2, 17/01/2011-ci il və protokol №18, 17/08/2011-ci il).[1]

29-31 may 2012-ci il tarixdə Fransanın Lion şəhərində İnterpolun Baş Katibliyində bu təşkilatın yeni "İ-Lizing" sistemi üzrə təlim seminarı keçirilmiş, və həmin tədbirdə İnterpolun Azərbaycan Respublikasında MMB-nin rəhbərliyi iştirak etmişdir. Bundan başqa, 18-28 sentyabr 2012-ci il tarixində Azərbaycanın Bakı şəhərində "Asiyada terrorçuluqla mübarizə üzrə potensialın inkişaf etdirilməsi" proqramı çərçivəsində təlim kursu keçirilmişdir. Bu tədbirdə İnterpolun Baş Katibliyindən, Azərbaycan, Əfqanıstan, Qazaxıstan, Gürcüstan, Pakistan, Tacikistan və Özbəkistan nümayəndələri iştirak etmişlər.

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayış hesabatı, ş. 10, 15, 16, 17.

2-4 oktyabr 2012-ci il tarixində Ukraynanın Odessa şəhərində keçirilmiş "Ukrayna və Qara dəniz hövzəsi ölkələrində Avropanın mühafizəsinə dair" təlim kursu keçirilmiş, həmin kursda MMB-nin əməkdaşları iştirak etmişlər.

2012-ci tədris ilində İnterpolun MMB-də maddi-texniki bazanın yaxşılaşdırılması, onun səviyyəsinin yüksəldilməsi, dərslərin daha səmərəli təşkili və mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirilmişdir. 2012-ci tədris ilində İnterpolun MMB-nin əməkdaşlarının Peşə hazırlığı DİN-in peşə hazırlığının təşkili haqqında təlimatın təsdiq edilməsi barədə DİN-in 20/06/2012-ci il tarixli 08-001-12 №-li qərarına, DİN-in "2012-ci ildə Daxili İşlər Orqanlarında peşə hazırlığının təşkili barədə" 29/12/2011-ci il tarixli 810 №-li, "Şəxsi heyətin xüsusi fiziki hazırlığı sahəsində işin təşkilinə dair təlimatın təsdiq olunması barədə" 24/12/2009-cu il tarixli 752 №-li "2012-ci ildə DİO-da fiziki hazırlıq işinin təşkilinə dair" 29/12/2011-ci il tarixli 809 №-li, habelə İnterpolun MMB-nin 05/11/2012-ci il tarixli 0 №-li əmrlərinə müvafiq olaraq təşkil edilmişdir.

2012-ci tədris ilində xidməti və döyüş hazırlığı dərslərinin keçirilməsi üçün İnterpolun MMB-da 3 tədris qrupu yaradılmışdır.

2012-ci ilin yanvar ayının 10-dan həftənin II və V günləri saat 8:30-dan 11: 00-dək fiziki hazırlıq dərsləri keçirilmişdir.

DİN-in 23/03/2006-cı il tarixli 18 №-li göstərişinin tələblərinə müvafiq olaraq, MMB-də nizam-intizamın mövcud vəziyyətini əks etdirən hesabat forması hesabat dövrlərinin fonunda müvafiq məlumatlarla birgə DİN-in Şəxsi Heyətlə İş İdarəsinə (ŞHİİ) təqdim olunmuşdur.

2012-ci ilin yanvar, aprel, iyul və oktyabr aylarında MMB-də icra intizamının vəziyyəti MMB-nin müvafiq komissiyası tərəfindən yoxlanılmış, arayış tərtib olunmuş və nəticələri əməliyyat müşavirəsində müzakirəyə çıxarılmışdır (protokol №2, 19/01/2012-ci il; protokol №11, 23/04/2012-ci il; protokol №16, 25/07/2012-ci il; protokol №21, 22/10/2012-ci il).

2012-ci ilin yanvar və avqust aylarında MMB-də məxfilik rejiminə nəzarət və məxfi sənədlərin mövcudluğunun yoxlanılması üzrə komissiya məxfi sənədlərin mövcudluğunu yoxlamış və yoxlamanın nəticələri, məxfilik rejiminə riayət olunma vəziyyəti müvafiq komissiyaların iclasında müzakirə edilmişdir (protokol №3, 26/01/2012-ci il və protokol №17, 02/08/2012-ci il).[1]

Azərbaycan Respublikası Daxili İşlər orqanlarının şəxsi heyətinin intellektual və peşə hazırlığının səviyyəsinin yüksəldilməsi, daimi yeniləşən xidmət şəraitinə uyğunlaşdırılması, eləcə də hüquq-mühafizə fəaliyyətində

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2012-ci il xidməti arayış hesabatı, s. 12, 13, 18, 19, 20.

fəal və səmərəli iştirakı DİN-in daim diqqət mərkəzində olmuşdur. Bu məqsədlə 2012-ci ilin dekabr ayının 1-14-dək və 2013-cü il aprel ayının 1-dən DİN-in "Xəzri" istirahət və sağlamlıq mərkəzində ixtisasartırma kursları təşkil olunmuşdur. İxtisasartırma kurslarında mühazirələr Nazirliyin rəhbərliyi tərəfindən təsdiq olunmuş tədris mövzu planına əsasən, "Microsoft Office" və "Power-Point" proqramlarına uyğun tərtib edilmişdir. Həmin kursda sahə müvəkkilləri, əməliyyat, tədqiqat və digər xidmət sahələri ilə yanaşı, Azərbaycan Respublikası İnterpolun MMB-nin əməkdaşları da iştirak etmişlər. İxtisasartırma kurslarının "Xəzri" istirahət mərkəzində keçirilməsi şəxsi heyət arasında təhsilə və peşəkarlığın artırılmasına həvəs və tələbat doğuran mənəvi-psixoloji mühitin yaradılmasına və kurslara cəlb edilmiş əməkdaşların asudə vaxtlarının səmərəli keçirilməsinə şərait yaratmışdır.[1]

29 aprel, 10 may 2013-cü il tarixində Hindistanın Mümbol şəhərində İnterpolun "Asiyada terrorçuluqla mübarizə üzrə, potensial inkişaf etdirilməsi proqramı" çərçivəsində növbəti təlim kursu keçirilmiş, bu təlim kursunda MMB-nin əməkdaşları ilə birlikdə Gömrük Komitəsinin, MTN-nin əməkdaşları da iştirak etmişlər.

2013-cü tədris ilində İnterpolun MMB-də Peşə hazırlığı sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması, onun səviyyəsinin yüksəldilməsi, dərslərin daha səmərəli təşkili və mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirilmişdir. İnterpolun MMB-nin əməkdaşlarının Peşə hazırlığı DİN-in "Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili haqqında təlimatın təsdiq edilməsi barədə" DİN-in 26/06/2012-ci il tarixli, Q-8-001-12 №-li qərarının, DİN-in "2013-cü ildə Daxili İşlər orqanlarında peşə hazırlığının təşkili barədə" 05/01/2013-cü il tarixli Ə 1-001-13 №-li, "Şəxsi heyətin xüsusi peşə hazırlığı sahəsində işin təşkilinə dair təlimatın təsdiq olunması barədə" 24/12/2009-cu il tarixli 752 №-li, "2013-cü ildə Daxili İşlər orqanlarında fiziki hazırlıq işlərinin təşkilinə dair" 29/12/2012-ci il tarixli Ə-821-001-12 №-li əmrinə, habelə İnterpolun MMB-nin 09/01\2013-cü il tarixli 01 №-li əmrlərinə müvafiq olaraq təşkil edilmişdir.

2013-cü tədris ilində də xidməti və döyüş hazırlığı dərslərinin keçirilməsi üçün İnterpolun MMB-də 3 tədris qrupu yaradılmışdır:

I qrup (Təşkilati-analitik şöbənin Texniki-təminat şöbəsinin və Katibliyinə orta və böyük rəis heyəti), II qrup (Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin orta və böyük rəis heyəti), III qrup (İnterpolun MMB-nin kiçik və sıravi rəis heyəti).

2013-cü tədris ilinin I və III rübləri ərzində xidməti və döyüş hazırlığı

[1] Xüsusi ixtisaslaşma kursu // Mübariz keşikdə, 2012, 20 dekabr, №48 (3115).

üzrə dərslər hər həftənin 4-cü günü saat 9:30-dan 11:00-dək keçirilib. 2013-cü tədris ili üçün illik saatlar bölgüsü xidməti və döyüş hazırlığı dərsləri üzrə texniki mövzular planı tərtib olunmuşdur. Rüblük dərs cədvəlləri tərtib olunmuş və həmin cədvəllərə müvafiq olaraq məşğələlər (mühazirələr, praktik məşğələlər, seminar məşğələlər) aparılmışdır.

Eyni zamanda DİN-in "Daxili İşlər Orqanlarında peşə hazırlığının təkmilləşdirilməsi üzrə əlavə tədbirlərə dair" 04/03/2010-cu il tarixli 135 №li əmrinin tələblərinin yerinə yetirilməsi istiqamətində tədbirlər həyata keçirilmiş və peşə hazırlığına nəzarət daha da gücləndirilmişdir.

2013-cü ilin yanvar ayının 11-dən həftənin II və V günləri saat 8:30-dan 11:00-dək fiziki hazırlıq dərsləri keçirilmişdir.

DİN-in 23.03.2006-cı il tarixli 18 №-li göstərişinin tələblərinə müvafiq olaraq, MMB-də nizam-intizamın mövcud vəziyyətini əks etdirən hesabat forması hesabat dövrlərinin fonunda müvafiq məlumatlarla birgə DİN-in Şəxsi Heyətlə İş İdarəsinə (ŞHİİ) təqdim olunmuşdur.

2013-cü ilin yanvar, aprel, iyul və oktyabr aylarında MMB-də icra intizamının vəziyyəti MMB-nin müvafiq komissiyası tərəfindən yoxlanılmış, arayış tərtib olunmuş və nəticələri əməliyyat müşavirəsində müzakirəyə çıxarılmışdır (protokol №5, 26/01/2013-ci il; protokol №13, 24/04/2013-cü il).

2013-cü ilin yanvar ayında MMB-də məxfilik rejiminə nəzarət və məxfi sənədlərin mövcudluğunun yoxlanılması üzrə komissiya məxfi sənədlərin mövcudluğunu yoxlamış və yoxlamanın nəticələri, məxfiçilik rejiminə riayət olunma vəziyyəti müvafiq komissiyaların iclasında müzakirə edilmişdir (protokol №4, 22/01/2013-cü il).[1]

18 dekabr 2013-cü il tarixində regional cinayətkarlığın, kriminoloji tədqiqatların aktual problemlərini müəyyən etmək, onların təhlilini aparmaqla profilaktikası istiqamətlərini araşdırmaq və beynəlxalq təcrübəni öyrənmək məqsədilə, Polis Akademiyasında "Regional cinayətkarlığın kriminoloji tədqiqatlarının aktual problemləri" mövzusunda beynəlxalq elmi profilaktik konfrans keçirildi. Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq üzrə fəlsəfə doktoru N.Əliyev son dövrlərdə cinayətkarlığın yeni növlərinin yaradılması, kəmiyyət və keyfiyyət göstəricilərinin daha dinamik dəyişikliyi, regional cinayətkarlığın konseptual səviyyədə aktuallaşdırılmasını zəruri etdiyini bildirmiş, Azərbaycanın ayrı-ayrı bölgələrinin səciyyəvi kriminoloji xüsusiyyətlərini qeyd etməklə, regional kriminoloji təhlillər aparılmışdır. Konfransda Yusto Avropa institutunun cinayətkarlığa qarşı mübarizənin hüquqi vasitələri kafedrasının müdiri, hüquq elmləri doktoru, profes-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2013-cü ilin 6 ayı ərzində xidməti fəaliyyətinə dair arayışı, s. 8, 10, 11, 12.

sor Y.Qalik, Rusiya Dövlət Ticarət-İqtisadi Universitetinin "Cinayət hüququ və prosesi" kafedrasının müdiri, hüquq elmləri doktoru, professor V.Catiy, Odessa hüquq Akademiyası Milli Universitetinin "Kriminologiya və cəza icra hüquq kafedrasının rəis müavini, hüquq elmləri namizədi, dosent T.Melnuçuk, professorlar İ.Rəhimov, X.Ələkbərov, B.Zahidov, AMEA-nın, Ədliyyə Nazirliyinin, Gömrük, Dövlət İdarəçilik və Aviasiya Akademiyasının, Qafqaz Universitetinin, Baş Prokurorluğun, Ali Məhkəmənin və Daxili İşlər orqanlarının müxtəlif xidmətlərinin nümayəndələri bu aktual problemlə bağlı fikirlərini ifadə etmiş, regional kriminoloji tədqiqatların əhəmiyyətini göstərərək aparılan araşdırmaların, profilaktik tədbirlərin daha konkret istiqamətlərinin formalaşdırıldığını vurğulamışlar.

Konfransın yekununda Polis Akademiyasının müdavimləri arasında keçirilmiş intellektual yarışmanın qalibləri mükafatlandırılmışlar.[1]

Cənab Ramil Usubovun dəvəti ilə Əfqanıstan Respublikasının Daxili İşlər naziri Qulam Mustafa Patanqın Azərbaycana rəsmi səfəri böyük əhəmiyyət daşımışdır. Nazir bildirmişdi ki, bu gün Azərbaycan respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan sabitlik yaradılmış və onun dönməzliyi təmin edilmişdir. Respublikamızda cinayətkarlıqla mübarizədə və ictimai təhlükəsizliyin qorunması sahəsində danılmaz xidmətləri olan Daxili İşlər orqanlarının kadr özəyi formalaşmışdır.

Kadr hazırlığı prosesinə olan dövlət qayğısının nəticəsidir ki, indi orta və böyük rəis heyəti vəzifəsində xidmət edən ali hüquq təhsilli əməkdaşların xüsusi çəkisi 8 faizədək yüksəldilmişdir. Daxili İşlər orqanları əməkdaşlarının peşəkarlığının daha da artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində görülən işlər sistemli şəkildə həyata keçirilir. Bu məqsədlə son illər AŞ, ATƏT və digər beynəlxalq təşkilatların xətti ilə keçirilən müxtəlif treninqlərdə və seminar-müşavirələrdə 2 minədək əməkdaşımız iştirak etmişdir. Əfqanıstanın beynəlxalq təşkilatlarda həm Dağlıq Qarabağ, həm də digər məsələlərdə Azərbaycanın haqlı mövqeyini həmişə müdafiə etdiyini yüksək qiymətləndirən cənab Ramil Usubov Əfqanıstan DİN-in narkotiklərin qanunsuz dövriyyəsinə və terrorçuluğa qarşı mübarizə sahəsində qazandığı təcrübənin ölkəmiz üçün faydalı ola biləcəyini, göstərilən istiqamətdə əməkdaşlığa hər zaman açıq olduğumuzu qonaqların nəzərinə çatdırmışdır.

Səmimi qəbula və ətraflı məlumata görə, təşəkkür edən ordu generalı Qulam Mustafa Patanq, xüsusən terrorçuluqla mübarizədə 32 illik təcrübəyə malik Əfqanıstanın inkişaf tempinə görə, bölgədə lider dövlətə çevrilən, sa-

[1] Cinayətkarlıqla mübarizəyə elmi baxış // Mübariz keşikdə, 2013, 26 dekabr, №49(3164).

bitliyin dönməzliyini təmin edən, eyni zamanda kadrların peşəkarlığının yüksəldilməsi sahəsində Azərbaycanın əldə etdiyi qabaqcıl təcrübənin öyrənilməsində maraqlı olduğunu diqqətə çatdırmış və rəhbərlik etdiyi qurum əməkdaşlarının Azərbaycan DİN-in tədris müəssisələrində təhsil almalarını onların professionallığının artırılması məqsədilə təlim prosesinə, seminar-treninqlərə cəlb olunmasına kömək göstərməsini xahiş etmişdir.[1]

2 iyul 2014-cü ildə Azərbaycan Polisinin yaranmasının 96-cı ildönümü qeyd edilmişdir. Bu münasibətlə cənab Ramil Usubovun rəhbərliyi ilə DİN-in kollegiya üzvləri, baş idarə və xidmət rəisləri, məsul əməkdaşları Polis Akademiyasında Azərbaycan Polisinin peşə bayramına və 2013-2014-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirildi. Təntənəli mərasimdə çıxış edən cənab Ramil Usubov bildirmişdir ki, Respublikanın ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla döyüşərək, 1695 əməkdaşı şəhid olmuş, 68 nəfəri "Milli qəhrəman" adına layiq görülmüşdür. Bununla bərabər, müstəqillik illərində cinayətkar qrup və dəstələrə qarşı mübarizədə asayişin qorunmasında 94 əməkdaşın həlak olması, 2405 nəfərin xəsarət alması da asayiş keşikçilərinin fədakarlığının və gərgin əməyinin əyani təzahürüdür.

Nazir demişdir ki, müasir dövrün çağırış və təhdidləri cinayətkarlığa qarşı mübarizədə yeni, daha səmərəli formaların tətbiqini və davamlı təkmilləşmə tələb etdiyindən, kadr heyətinin peşəkarlıq səviyyəsinin artırılması prosesi daimi əsaslarla həyata keçirilir. BMT, NATO, AŞ, ATƏT və digər beynəlxalq qurumların təşkil etdiyi müxtəlif forum və müşavirələrdə 6 minə yaxın əməkdaş və hərbi qulluqçu iştirak etmiş, təcrübə mübadiləsi aparmışdır. Xarici ölkələrin aidiyyəti dövlət strukturları ilə əməkdaşlıq çərçivəsində hər il onlarla gənc Türkiyənin polis və hərbi akademiyalarına, Rusiya DİN-in hüquq universitetlərinə, Böyük Britaniyanın, ÇXR və digər dövlətlərin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilir. Orta və böyük rəisi vəzifəsində xidmət edən ali hüquq təhsilli əməkdaşların xüsusi çəkisi 1992-ci illə münasibətdə ildə 2,4 dəfə artaraq, cari ildə 80 faiz yüksəlmişdir. Transmilli cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əlaqələrimizin də rolu böyükdür. Bu gün Türkiyə, Rusiya, Gürcüstan, İran, ABŞ, Avstriya, Almaniya, Fransa, Çexiya, Macarıstan, Polşa, İsrail və digər ölkələrin DİN-ləri ilə yaradılmış işgüzar münasibətlər tərəflərin maraqlarına uyğun inkişaf edir.

Prezidentin tapşırıq və tövsiyələrinə uyğun həyata keçirilən kompleks tədbirlər, o cümlədən vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində sistemli fəaliyyət, orqan və hissələrdə qanunçuluq əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir.[2]

---

[1] DİN-in mətbuat xidmətinin məlumatı, №26 (3141).

[2] DIN Mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 3 iyul, №25(3189).

Nəticə olaraq göstərə bilərəm ki, prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz son illərdə inkişaf yolu keçmiş, respublikamızın gələcək tərəqqisi yolunda yeni perspektivlər açılmış və insan amilinə söykənən milli təhlükəsizlik strategiyası uğurla həyata keçirilmişdir.

Ölkəmizdə cinayətkarlıqla mübarizə, ictimai qayda və ictimai təhlükəsizliyin təmin olunması polisin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və təkmilləşdirilməsi, hüquqi islahatların həyata keçirilməsi, cinayət qanunlarının humanistləşdirilməsi, insan hüquq və azadlıqlarının, qanunun aliliyinin təmini prinsipləri respublikada ümumdövlət əhəmiyyətli vəzifələr olmaqdadır.

Dövlətçiliyin əsas dayaqlarından olan Daxili İşlər orqanları ölkəmizdə aparılan quruculuq işlərində də fəallıq göstərərək, dövlətin, hüquqi və fiziki şəxslərin mənafeyini və mülkiyyətini hüquqa zidd amillərdən qorunması, insanların azad, sərbəst yaşayıb işləməsi üçün lazımi şərait yaradılması istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar. Dövlət başçısı və DİN-in rəhbərliyinin diqqət və qayğısı İnterpolun MMB-nin əməkdaşlarında böyük ruh yüksəkliyinə səbəb olmuş və xidməti vəzifələrini yerinə yetirməsinə böyük təsir göstərmişdir.

### 2.3. Azərbaycan Respublikasının Milli Mərkəzi Bürosunun beynəlxalq cinayətkarlığa qarşı mübarizəsi

Beynəlxalq axtarış, cinayət törədən ölkə və xarici vətəndaşlar respublikamızın hüdudlarını tərk etdiyi zaman onların yerini müəyyənləşdirmək və qaytarılmasını təmin etmək, itkin düşmüşlərin tapılması, tanınmamış meyitlərin şəxsiyyətinin müəyyən edilməsi və terrorizmə qarşı mübarizə, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə, korrupsiya və iqtisadi cinayətkarlığa qarşı mübarizə, oğurlanmış mədəni sərvətlərin oğurlanmasına, avtomobillərin yerinin müəyyənləşdirilməsi sahəsində xarici orqanlarla əməkdaşlıq və s. Azərbaycan Respublikasında İnterpolun MMB-nin beynəlxalq cinayətkarlığa qarşı mübarizədə əsas vəzifələridir.

İnterpol sistemində cinayət törətmiş, itkin düşmüş şəxslərin axtarışı, onların yerinin müəyyən edilməsi, İnterpolun üzvü olan ölkələrin təhükəli cinayətkarlar haqqında xəbərdarlığı, yüksək qiymətə malik olan oğurlanmış xüsusi mülkiyyətin axtarışı, həmçinin cinayətin törədilməsinin təsviri, cinayətkarların dəsti-xəttini təyin etmək üçün istiqamətləndirmə sistemi istifadə olunur. Bu barədə birinci fəsildə ətraflı qeyd olunmuşdu.

Azərbaycan Respublikasında İnterpolun MMB-si də beynəlxalq cinayətkarlığa qarşı axtarış fəaliyyətini həyata keçirmək üçün aşağıdakı istiqamətləndirmələrdən istifadə olunur.

İnterpolun üzvü olan hər hansı bir ölkənin təşkilata daxil olmuş bütün ölkələrdə yayılan istiqamətləndirmələrin buraxılışı üçün istehlakçı olduğu kimi, həmçinin təşəbbüsçüsü də ola bilər. Azərbaycan Respublikasında İnterpolun MMB-də hal-hazırda istiqamətləndirmənin 8 növü tətbiq edilir.

Azərbaycan Respublikasında İnterpolun MMB-nə bu və ya digər seriyalı istiqamətləndirmələrin buraxılması sorğusunu göndərmək məqsədilə, lazımdır ki, sorğu İnterpolun 3-cü maddəsinin tələblərinə zidd olmasın, hansı ki, təşkilatlara qəti surətdə hərbi, dini, irqi, siyasi xarakterli müdaxilə edilməsini qadağan edir.

Azərbaycan Respublikasında İnterpolun MMB-dən İnterpolun Baş Katibliyindən istiqamətləndirmələri alarkən aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır:

a) Alınan istiqamətləndirməni müvafiq qeydlərlə yoxlamaq;
b) İstiqamətləndirməni bölmələr üzrə göndərmək;
c) İstiqamətləndirmədəki müvafiq qeyd sisteminə uyğun olaraq informasiya daxil etmək;
d) Müvafiq qeydə əsasən datakarta tətbiq etmək;
e) Axtarışda olan şəxs və əşya haqda əhalinin geniş xəbərdarlığı üçün lazımi ölçü götürmək;
f) Ölkə miqyasında axtarışın təşkili üçün ölçü götürmək.

İnterpolun Baş Katibliyində mövcud olan informasiya onun cinayətkar və cinayət haqqında məlumatın yayılması mühitində olan imkanları respublikanın hüquq-mühafizə orqanlarının fəaliyyətini keyfiyyətcə yeni mərhələyə qalxmağa və cinayətkarlığa qarşı mübarizədə beynəlxalq birliyin tamhüquqlu üzvü olmağa imkan verir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Respublikasında İnterpolun MMB-nin beynəlxalq cinayətkarlığa qarşı mübarizədə əsas fəaliyyət istiqamətlərindən birini beynəlxalq axtarış, cinayət törədən ölkə və xarici vətəndaş respublikanın hüdudlarını tərk etdiyi zaman onların yerini müəyyənləşdirmək və qaytarılmasını (ekstradisiya) təmin etmək və itkin düşmüş şəxslərin tapılması təşkil edir.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin yarandığı ilk tarixi dövrlərdə yalnız İnterpol xətti ilə beynəlxalq axtarışda olan şəxslərin tutulub Azərbaycana gətirilməsi mümkün idi. Bu gün Daxili İşlər orqanları qarşısında duran başlıca vəzifələrdən biri məhz istintaqdan yayınan şəxslərin tutulmasıdır. Azərbaycan Respublikasında İnterpolun MMB-si hüquq-mühafizə orqanları və İnterpolun özündə olan ölkələrlə keçirilən əməliyyat tədbirləri nəticəsində onlarla cinayətkar ölkəmizə ekstradisiya olunmuşdur.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 1995-ci il ərzində cinayətkarların axtarışı barədə aşağıdakı məlumatları qeyd edək.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 1995-ci ildə "Ümumi cinayətkarlıq və beynəlxalq axtarış" şöbəsinin rəisi işləmiş (o dövrdə şöbə belə adlanırdı) polis polkovnik-leytenantı A.Qayıbovun qeydləri əsasında, cinayət törədərək Azərbaycandan qaçmış 1060 nəfər şəxsin siyahısı MDB dövlətlərinə göndərilmişdi. Digər şəxslər barədə İnterpolun üzvü olan 176 dövlətin müvafiq qurumlarına məlumat verilmişdir. 1995-ci ildə müxtəlif cinayət törətmiş 60 şəxsin axtarışı təşkil olunmuş, xaricdə cinayət törətmiş 72 şəxsin axtarışının Azərbaycanda təşkil edilməsi nəticəsində ölkəmizdə gizlənən 19 nəfərin yeri müəyyən edilmişdir. Beynəlxalq axtarış sahəsində müəyyən çətinliklərdən danışarkən sabiq şöbə rəisi A.Qayıbov bildirmişdir ki, cinayətkarlığa qarşı mübarizədə Azərbaycanın ən çox təmasda olduğu İran və Türkmənistanla əlavə ikitərəfli hüquqi razılaşmaların imzalanması mühüm əhəmiyyətə malikdir. Rusiya və Türkiyə ilə belə razılaşmalar artıq mövcuddur. İnterpolun Tehran bürosunun məlumatına əsasən, İran İslam Respublikasının 4 vətəndaşı qonşu dövlətə təhvil verilmişdir. Təəssüf ki, İran tərəfinin cavab reaksiyası zəif olmuşdur.

Rusiya Federasiyasının müvafiq qurumu ilə qarşılıqlı əlaqədə MMB şimal qonşumuzun hüquq-mühafizə orqanları tərəfindən 23 ton kərə yağının mənimsənilməsində şübhəli şəxs kimi axtarılan Ələt qəsəbə sakini, 1952-ci il təvəllüdlü V.Dəmirovu müəyyən etmişdir. Rusiya ərazisində müxtəlif cinayətlər törətmiş Azərbaycan vətəndaşları H.Ağayev, Ə.Məmmədov, B. Əliyev və başqalarının ölkəmizdə müəyyən edilməsi barədə informasiyalar da Moskvaya göndərilmişdir.

Sabiq şöbə rəisi A.Qayıbovun dediyinə görə, İnterpolun nizamnaməsinin 3-cü maddəsinə uyğun olaraq, bu təşkilat siyasi, dini, irqi və hərbi cinayətlərlə ümumiyyətlə məşğul olmur.

Azərbaycan Respublikasında İnterpolun MMB-nə 1995-ci il ərzində edilmiş 25 sorğu məhz bu bəndin tələblərinə uyğun olaraq icraata qəbul edilməyib. 3 illik fəaliyyəti dövründə MMB-də müasir kompüter avadanlığı və 150 minə yaxın müxtəlif informasiya vahidi cəmlənib. Büro 3-5 dəqiqə ərzində polisi maraqlandıran istənilən şəxs haqqında informasiyanı İnterpol xətti ilə alıb yaya bilər. Ölkə sərhədlərinin giriş-çıxış nöqtələrində belə müasir kompüter sistemi quraşdırılsa, haqqında beynəlxalq axtarış elan edilmiş şəxsləri ən qısa müddətə müəyyənləşdirmək mümkündür.

Həmin dövrdə, yəni 1995-ci ildə MMB-nin təşkilati-analitik şöbəsinin sabiq rəisi, polis mayoru T.Mürşüdlünün fikrincə, İnterpolun imkanlarından daha səmərəli istifadə etmək üçün Azərbaycanın bir sıra beynəlxalq konvensiyalara və müqavilələrə qoşulması olduqca vacibdir. Onun o dövrdə dediklərindən məlumdur ki, respublikamız hazırda Avropa Şurasına qonaq statusunda qəbul edilib (2001-ci ildə Azərbaycan Avropa Şurasına qəbul edilib).

Bununla bağlı, öz üzərinə müəyyən öhdəliklər götürən Azərbaycan mövcud qanunvericiliyini Avropa standartlarına uyğunlaşdırmaq zərurəti ilə üzləşib.

AB çərçivəsində mövcud olan "Ekstradisiya haqqında", qarşılıqlı hüquqi yardım haqqında, cinayət yolu ilə əldə edilmiş pulların qanunsuz dövriyyəsinin qarşısını almaq haqqında və s. mühüm konvensiyalara qoşulması beynəlxalq axtarışda olan şəxslərin yerini müəyyənləşdirmək, ölkəmizdən qeyri-qanuni yolla çıxarılmış strateji məhsulların dəyərinin və mədəni sərvətlərin geri qaytarılması və başqa meydana çıxan çətinliklər daha asan, sivil qaydada həll etməyə imkan verərdi.[1]

Bir faktı da qeyd etmək yerinə düşərdi ki, ölkələr arasında əməkdaşlıq üç səviyyədə inkişaf edir. İlk növbədə bu, ikitərəfli müqavilələr çərçivəsində həyata keçirilir. Bu cür müqavilələr iki ölkə arasında olan münasibətlərin xarakterini, maraqlarını nəzərə almağa imkan yaradır. Həmin müqavilələr daha çox cinayət işləri üzrə, cinayətlərin verilməsində, ekstradisiyasında geniş yer almışdır. Azərbaycan Respublikası əsasən bu cür müqavilələri MDB ölkələri, Avropa və Asiya dövlətləri ilə bağlamışdır. Bundan başqa, DİN, Prokurorluq və Gömrük Komitəsi də başqa dövlətlərin hüquq-mühafizə orqanları ilə belə müqavilələr bağlayır.

Azərbaycan Respublikasının hüquqi yardım və ekstradisiya haqqında beynəlxalq konvensiya və müqavilələrini qeyd etmək yerinə düşərdi:

1. 1 sentyabr 1995-ci il tarixdə Minsk şəhərində imzalanmış "Hüquqi yardım və hüquqi münasibətlər haqqında mülki, ailə və cinayət işlərinə dair" konvensiya imzalanmış və Azərbaycan Mülki Məcəlləsinin 1098 nömrəli qərarı ilə ratifikasiya olunmuşdur.
2. 22 dekabr 1992-ci il tarixdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında "Mülki, ailə və cinayət işlərinə dair hüquqi yardım və hüquqi münasibətlər haqqında" müqavilə imzalanmışdır. 3 mart 1993-cü il tarixində AR Milli Məclisi tərəfindən radifikasiya olunmuşdur. 22 iyul 1994-cü il tarixində Rusiyanın Dövlət Duması tərəfindən ratifikasiya olunmuşdur.
3. Rusiya Federasiyasının və Azərbaycan Respublikasının Daxili İşlər nazirləri arasında 19 aprel 1996-cı il tarixində müqavilə imzalanmışdır.
4. 22 yanvar 1993-cü il tarixdə MDB dövlətləri arasında "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" imzalanmış konvensiya AR MM tərəfindən qəbul edilmişdir.
5. 2 noyabr 1992-ci il tarixdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında qəbul edilmiş "Mülki ticarət və cinayət işləri-

[1] Orxan M. Beynəlxalq axtarış nə verir? // Mübariz keşikdə, 1996, 4 iyul, №25 (2293).

nə dair" müqavilə imzalanmış, AR MM tərəfindən ratifikasiya olunmuşdur.

6. 8 mart 1996-cı il tarixdə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında "Mülki ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" müqavilə imzalanmışdır. 19 aprel 1996-cı il tarixində AR MM tərəfindən ratifikasiya olunmuşdur.
7. 10 iyul 1997-ci il tarixdə Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında "Mülki və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" müqavilə imzalanmış, 26 iyun 1997-ci il tarixdə AR MM tərəfindən ratifikasiya olunmuşdur.
8. 29 iyun 1995-ci il tarixində Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında "Cinayətkarların verilməsi haqqında" müqavilə imzalanmış, 29 mart 1996-cı il tarixdə AR MM tərəfindən ratifikasiya olunmuşdur.
9. 18 iyun 1997-ci il tarixində Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" müqavilə imzalanmış, 26 iyun 1997-ci il tarixdə AR MM tərəfindən ratifikasiya olunmuşdur.
10. 21 fevral 1998-ci il tarixində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" müqavilə imzalanmış, 26 iyun 1997-ci ildə AR MM tərəfindən ratifikasiya olunmuşdur.
11. 26 may 1994-cü il tarixində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Məhkum edilmiş şəxslərin verilməsi və gələcəkdə cəza çəkməsi haqqında" müqavilə imzalanmış, 9 mart 1995-ci il tarixində AR MM tərəfindən ratifikasiya olunmuşdur.
12. 10 iyul 1997-ci il tarixində Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında "Məhkum edilmiş şəxslərin verilməsi və gələcəkdə cəza çəkməsi haqqında" müqavilə imzalanmış, 26 iyul 1997-ci il tarixində AR MM tərəfindən ratifikasiya olunmuşdur.
13. 3 avqust 1997-ci il tarixində Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında "Məhkum olunmuş şəxslərin verilməsi və gələcəkdə cəza çəkməsi haqqında" müqavilə imzalanmış və AR MM tərəfindən ratifikasiya olunmuşdur.
14. 24 mart 1997-ci il tarixində Azərbaycan Respublikası ilə Ukrayna Respublikası arasında "Məhkum olunmuş şəxslərin verilməsi və gələcəkdə cəza çəkməsi haqqında" müqavilə imzalanmış, 3 avqust 1997-ci il tarixində AR MM tərəfindən ratifikasiya olunmuşdur.
15. 18 iyun 1997-ci il tarixində Azərbaycan Respublikası ilə Özbəkis-

tan Respublikası arasında "Məhkum olunmuş şəxslərin verilməsi və gələcəkdə cəza çəkməsi haqqında" müqavilə imzalanmış, 26 iyun 1997-ci il tarixində AR MM tərəfindən ratifikasiya olunmuşdur.

16. 6 mart 1998-ci il tarixində Azərbaycan Respublikasının xüsusi məsləhəti ilə "Azadlıqdan məhrum edilmiş şəxslərin verilməsi və gələcəkdə cəza çəkməsi haqqında" müqavilə imzalanmış və 4 dekabr 1998-ci il tarixində AR MM tərəfindən ratifikasiya olunmuşdur.
17. 1996-cı ilin mart ayında Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında "Məlumat mübadiləsi haqqında" müqavilə imzalanmış və AR MM tərəfindən ratifikasiya olunmuşdur.
18. 7 may 1996-cı il tarixdə Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında "Təhlükəsizlik məsələlərinə dair" müqavilə imzalanmış, 14 sentyabr 1996-cı il tarixində AR MM tərəfindən ratifikasiya olunmuşdur.
19. 30 aprel 2002-ci il tarixində Trabzon Zirvə görüşündə "Terrorizmə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə haqqında" Azərbaycan, Gürcüstan, Türkiyə Respublikası arasında saziş imzalanmışdır.[1]
20. 5 iyun 2008-ci il tarixində Polşa dövlətinin sabiq prezidenti Lex Kaçinski cənab Ramil Usubovu qəbul etmişdir və fikir mübadiləsi aparmışlar. Bundan başqa, Azərbaycan Respublikası və Polşa DİN-ləri arasında görüş zamanı əməliyyat-axtarış, beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq və digər cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq sazişi imzalanmışdır.[2]

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti Romada keçirilən İnterpolun Baş Assambleyasının 81-ci sessiyasında iştirak etmişdir. Sessiya çərçivəsində bir sıra görüşlər keçirilmişdir.

Cənab Ramil Usubov İtaliyanın Daxili İşlər naziri A.M.Kançeleri ilə də görüşmüşdür. Cənab Ramil Usubov həmkarına Azərbaycan dövlət müstəqilliyinin demokratik prinsiplərinin möhkəmlənməsi, hüquqi-dünyəvi iqtisadi baxımdan güclü dövlət quruculuğu, ictimai münasibətləri tənzimləyən hüquq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər barədə məlumat vermiş, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin geniş-

---

[1] Мехтиев Н. Правовые формы международного сотрудничества государств в борьбе с уголовной преступностью. Баку, 2004, с. 226.
[2] Dövlətlərarası saziş. Azərbaycan və Polşa Daxili İşlər nazirləri arasında saziş imzalanmışdır // Mübariz keşikdə, 2008, 12 iyun, №22(2891).

ləndiyini və daha da möhkəmləndiyini, hüquq mühafizə sahəsində əməkdaşlığın inkişafı və bu çərçivədə əldə edilən təcrübə mübadiləsinin vacibliyini qeyd etmişdir.

A.M.Kançeleri ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsindən məmnun olduğunu vurğulamış, İtaliyanın Azərbaycan ilə daha da möhkəm əməkdaşlığa və bunun üçün lazımi addımların atılmasına hazır olduğunu bildirmişdir. Görüşün sonunda ölkələrin DİN arasında əməliyyat-axtarış, beynəlxalq terrorizm və digər cinayətlərə qarşı birgə mübarizə sahəsində saziş imzalanmışdı.[1]

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasında İnterpolun MMB-si digər Daxili İşlər orqanları ilə yanaşı Azərbaycan Respublikasının Prezidentinin 28 oktyabr 1999-cu il tarixli 728-IQ №-li "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunla və digər normativ hüquqlarla tənzimlənir.

Əməliyyat-axtarış fəaliyyəti aşağıdakılardır:

1. Hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;
2. Törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;
3. Məhkəmə istintaq və tədqiqat orqanlarından gizlənən, cəza çəkmədən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarışı;
4. Naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi və s.[2]

Bundan başqa, Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyət sahəsi olan əməliyyat-axtarış fəaliyyətinin bir növü (ekstradisiya) cinayət törətmiş şəxslərin verilməsi haqqında Azərbaycan Respublikasının 136 №li 2001-ci il qəbul edilmiş qanunla da tənzim olunur.[3]

Cinayətkarların verilməsi ilə bağlı bütün məsələlərdə yuxarıda adı çəkilən ekstradisiya haqqında bu qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.

Əlimizdə olan Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivindən MMB-nin axtarış fəaliyyəti ilə bağlı aşağıdakı tarixi faktları qeyd etmək yerinə düşərdi.

2000-ci ilin hesabat dövründə beynəlxalq polis əməkdaşlığının daha da genişləndirilməsi sahəsində müəyyən işlər görülmüşdür. Belə ki, 1999-cu ildə yaradılmış konsulluq, hüquq məsələləri üzrə Azərbaycan Türkiyə işçi komissiyasının 2000-ci ilin yanvar ayında Ankara şəhərində keçirilən II toplantısında bir sıra aktual məsələlərlə yanaşı, ölkənin hüquq-mühafizə orqan-

[1] http:\\www.mid.qov.Az

[2] Əməliyyat-Axtarış fəaliyyəti haqqında Azərbaycan respublikasının qanunu. MMB-nin cari arxivi. 2000-ci il.

[3] Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında Azərbaycan Respublikasının 130 №li 2001-ci il tarixli qanunu.

ları tərəfindən axtarılan və Türkiyədə gizlənən cinayətkarların ekstradisiyası ilə bağlı problemlər də müzakirə edilmişdir.

İnterpolun Baş Assambleyasının 30 oktyabr-04 noyabr 2000-ci il tarixində Yunanıstanın Rodos şəhərində keçirilən 69-cu sessiyasında iştirak edən Azərbaycan Respublikasının nümayəndə heyətinə MMB-nin polis polkovniki Ə.İbrahimov başçılıq etmişdir. Sessiyanın gedişatında gündəlikdə duran məsələlərin müzakirəsində fəal iştirak etməklə yanaşı, MDB ölkələrindən gələn nümayəndə heyəti ilə də müxtəlif görüşlər keçirilmiş, cinayətkarların beynəlxalq axtarışı ilə bağlı bir sıra aktual məsələlər müzakirə edilmişdir. 2000-ci il ərzində respublikanın hüquq-mühafizə orqanlarının MMB-yə 174 axtarış tapşırığı daxil olmuşdur. Bu tapşırıqlar əsasında əsasən ağır cinayətlərlə və əmlak oğurluğunda təqsirli bilinən 96 nəfərin beynəlxalq axtarışı təşkil edilmiş, o cümlədən 8 nəfər xüsusi təhlükəli cinayətkarlar barədə beynəlxalq axtarış elan edilməsi üçün İnterpolun Baş katibinə müvafiq sənədlər göndərilmişdir.

Bu axtarış tapşırıqları əsasən Naxçıvan MR DİN və rayon şöbələrindən (17 nəfər şəxs barədə), DİN Baş Cinayət Axtarış İdarəsindən (9), MTN (3), Nərimanov RPİ (9), Səbayel RPİ (5), Nəsimi RPİ (9), Lənkəran RPİ (9), Xətai RPİ (6), Respublika Hərbi Prokurorluğu (3), Yevlax RPİ (7), Əzizbəyov RPİ (3), Yasamal RPİ (4), Masallı RPŞ (7), Hacıqabul RPŞ (5), Nəqliyyat prokurorluğu (2) və s. tərəfindən göndərilmişdir. Axtarış elan olunmuş şəxslərin 71 nəfəri Azərbaycan vətəndaşı, 8 nəfəri MDB ölkələrinin, 17 nəfəri isə digər ölkələrin vətəndaşıdır. Bu şəxslərdən 38 nəfəri ağır, 27 nəfəri isə əmlak cinayətləri, 12 nəfəri şəxsiyyətə qarşı, 20 nəfər isə digər növ cinayətlər törətdiklərinə görə axtarılıblar.

2000-ci il tarixində Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının xarici ölkələrdəki həmkarları ilə əməkdaşlıqları nəticəsində Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarılan 19 nəfər şəxsin yeri müəyyən edilmişdir. 2000-ci ildə İnterpolun Özbəkistan və Kanada MMB-dən daxil olmuş identifikasiya sorğularının yoxlanılması zamanı 2 nəfər beynəlxalq axtarışda olan şəxsin yeri Özbəkistan və Kanadada müəyyən olunmuş və Azərbaycana ekstradisiya olunmuşlar.

Respublika DİN-in Baş Cinayət Axtarış İdarəsi tərəfindən axtarılan 2 nəfər cinayətkarın yeri Türkiyə Respublikasında müəyyən edilmiş, Azərbaycana ekstradisiya olunmuşlar. MTN tərəfindən axtarılan bir nəfər İİR vətəndaşı BƏƏ-də müəyyən edilmiş və Azərbaycana ekstradisiya olunmuşdur.

Digər tərəfdən 3 nəfər ağır və 25 nəfər müxtəlif cinayətlər törətmiş şəxslərin Türkiyədə yerləri müəyyən edilmiş və onların barəsində müvafiq əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir.

Dövlətlərarası axtarışı elan olunmuş 31 nəfər şəxsin yerləri müəyyən

edilmişdir. Onların 38 nəfəri Azərbaycan vətəndaşı, 3 nəfəri isə MDB vətəndaşıdır.

DİN-in 29/06/1995-ci il tarixli 16 saylı göstərişində tələb olunan zəruri məlumatlar əks olunmadığından, materiallar təşəbbüskara qaytarılmışdır.

İnterpolun üzvü olan ölkələrin MMB-dən daxil olmuş tapşırıqları əsasında respublika ərazisində 86 nəfər cinayətkarın axtarışı təşkil edilmiş, həmin şəxslərin axtarışı ilə bağlı DİN-in Baş Cinayət Axtarış İdarəsinə müvafiq sorğular göndərilmişdir. Keçirilmiş axtarış tədbirləri nəticəsində axtarışda olan 22 nəfərin yeri müəyyən edilmiş və bu barədə təşəbbüskara bildirilmişdir.

Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan təhlükəli cinayətkarların yerlərinin müəyyənləşdirilməsi məqsədilə, onların gizləndikləri ehtimal olunan ölkələrin MMB-nə əlavə axtarış tapşırıqları göndərilmişdir.

2000-ci il ərzində MMB-də respublika hüquq-mühafizə orqanları tərəfindən 263, İnterpolun üzvü olan ölkələrin MMB-dən isə 225 nəfər şəxs barədə axtarış tədbirləri icraatda olmuşdur.

2000-ci il tarixi dövrü ərzində itkin düşmüş şəxslərin yerlərinin müəyyən olunması və tapılan meyitlərin identifikasiya edilməsi sahəsində də müəyyən işlər görülmüşdür. Belə ki, MMB-yə İnterpolun üzvü olan ölkələrdən 32 nəfər itkin düşmüş şəxs və 79 tanınmamış meyitin identifikasiyası barədə məlumatlar daxil olmuşdur. Həmin materiallar əsasında DİN-in ayrı-ayrı xidmətlərinə müvafiq məlumatlar göndərilmişdir. Digər tərəfdən hesabat dövrü ərzində itkin düşmüş şəxslərin axtarışı ilə bağlı Qazaxıstanda, Özbəkistanda və Qırğızıstanda İnterpolun MMB-lərinə 10 sorğu göndərilmişdir.

Bundan başqa, itkin düşmüş 3 nəfər Azərbaycan vətəndaşı barədə beynəlxalq axtarış elan olunması üçün müvafiq sənədlər İnterpolun Baş katibinə göndərilmişdir.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2001-ci il tarixi dövründə əməliyyat-axtarış fəaliyyəti ilə bağlı faktları qeyd edək.

2001-ci il ərzində respublikanın hüquq-mühafizə orqanlarından MMB-yə (174 nəfər) cinayət törətmiş şəxs barədə axtarış tapşırıqları daxil olmuşdur. Axtarış tapşırıqları əsasən DİN Baş Cinayət Axtarış İdarəsindən (4), Nəsimi RPİ-dən (6), Nərimanov RPİ-dən (3), Lənkəran RPİ-dən (3), Yasamal RPİ-dən (9), Qusar RPİ-dən (2), Göyçay RPŞ-dən (3) və s. tərəfindən göndərilmişdir. Axtarış elan olunmuş şəxslərin 81 nəfəri Azərbaycan

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin xidməti fəaliyyətinə dair 2000 il üçün arayışı, s.3, 5, 6.

vətəndaşı, 23 nəfəri MDB ölkələrinin, 26 nəfəri isə digər ölkələrin vətəndaşlarıdır. Bu şəxslərdən 22 nəfəri xüsusi təhlükəli cinayətlər, 41 nəfəri əmlak cinayətləri, 23 nəfəri şəxsiyyətə qarşı, 26 nəfəri isə digər növ cinayətlərə görə axtarılır. Bu tapşırıqlar əsasında 112 (96) nəfərin beynəlxalq axtarışı təşkil edilmiş, onlardan 15 (8) nəfəri xüsusi təhlükəli cinayətkar barədə İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmələr buraxılmışdır.

Azərbaycan Respublikasında İnterpolun əməkdaşlarının xarici həmkarları ilə yaxından sıx əlaqələri nəticəsində respublika hüquq-mühafizə orqanları tərəfindən axtarılan 16 nəfər (Türkiyədə – 5, ABŞ-da – 2, Kanadada – 2, İordaniyada – 2, İran İslam Respublikasında – 1, Gürcüstanda – 1, Polşada – 1, Rusiya Federasiyasında – 1, Özbəkistanda -1) müəyyən edilmişdir.

Bakı şəhəri Nərimanov RPİ tərəfindən axtarılan Özbəkistandan ekstradisiya olunmuş və MMB-nin əməkdaşları tərəfindən respublikanın istintaq orqanına təhvil verilmiş və 4 nəfər isə Naxçıvan Muxtar Respublikasının Culfa RPŞ-nə Özbəkistandan ekstradisiya olunaraq təhvil verilmişdir.

İnterpolun üzvü olan ölkələrin MMB-dən (RF – 50, Ukrayna – 16, Litva – 7, İİR – 7, Qazaxıstan -3, Belarusiya – 2 və s.) daxil olmuş tapşırıq əsasında respublikamızın ərazisində 89 (86) nəfər cinayətkarın, o cümlədən adam öldürməklə bağlı – 18, soyğunçuluq – 1, quldurluq – 5, oğurluq – 10, qanunsuz narkotik dövriyyəsi – 7, dələduzluq – 12 və s. axtarışı təşkil edilmiş, həmin şəxslərin axtarışı ilə bağlı Baş Cinayət Axtarış İdarəsi (BCAİ), Baş Əməliyyat Statistika İnformasiya İdarəsi, ərazi polis orqanları və respublikanın Sərhəd Qoşunları Baş İdarəsinə müvafiq məlumatlar göndərilmişdir. Keçirilən axtarış tədbirləri nəticəsində 20 nəfərin yeri müəyyən edilmiş və bu barədə təşəbbüskara məlumat verilmişdir.

MMB-nin hesabat dövrü ərzində, həmçinin 3 nəfər ağır cinayətlər törətmiş şəxs 25/12/1999-cu il tarixində Azərbaycan Respublikası arasında təhvilvermə haqqında müqavilənin tələbinə əsasən, İran İslam Respublikasına verilmişdir. Bundan başqa, bir nəfər Türkiyə Respublikası tərəfindən axtarışda olan şəxs Azərbaycan Respublikasında ekstradisiya olunmuşdur.

2001-ci ilin tarixi dövrü ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin itkin düşmüş şəxslərin yerinin müəyyən olunması sahəsində də müəyyən işlər görülmüşdür. Belə ki, MMB-yə respublika hüquq-mühafizə orqanlarından xaricdə itkin düşməsi ehtimal olunan 10 nəfər şəxs barədə materiallar daxil olmuşdur. Həmin şəxslərin axtarışı ilə bağlı İnterpolun Fransada, Kanadada, Türkiyədə və s. bürolarına sorğu göndərilmişdir. İnterpolun Baş Katibliyi tərəfindən Azərbaycan Respublikasında İnterpolun MMB-si tərəfindən 5 nəfər itkin düşmüş şəxs barəsində son istiqamətləndirmə buraxılmışdır. İnterpolun üzvü olan ölkələrdən isə MMB-yə 12 nəfər itkin düşmüş şəxs barəsində materiallar daxil olmuşdur, həmin materiallar

əsasında Azərbaycan Respublikası DİN-in ayrı-ayrı xidmətlərinə müvafiq məlumatlar göndərilmişdir.

2001-ci il tarixi dövrü ərzində 886 nəfər şəxs barəsində MMB-də axtarış tapşırıqları icraatda olmuşdur. Bu şəxslərdən 380 nəfəri respublika hüquq-mühafizə orqanları, 501 nəfəri isə İnterpolun üzvü olan ölkələrin MMB-si tərəfindən axtarıldı. 2001-ci ildə İnterpolun üzvü olan ölkələrin MMB-dən 82 tanınmamış meyitin identifikasiyası ilə bağlı materiallar daxil olmuşdur. Həmin materiallar əsasında tanınmamış meyitlər identifikasiya olunmaqla bərabər, mərkəzləşmiş şəkildə DİN-in Baş Əməliyyat Statistika İdarəsinə uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanlarında yayımlanmışdır.

2001-ci il ərzində respublikanın hüquq-mühafizə orqanları tərəfindən tanınmamış meyitlərin identifikasiyası ilə bağlı MMB-yə heç bir müraciət daxil olmamışdır.[1]

İndi də Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2002-ci il tarixi dövründə cinayət törətmiş şəxslər barəsində axtarış fəaliyyətinə diqqət yetirək. 2002-ci ildə Azərbaycan hüquq-mühafizə orqanlarında 245 nəfər cinayət törətmiş şəxs barədə axtarış tapşırıqları daxil olmuşdur. Bu axtarış tapşırıqları əsasən Səbail RPİ (11), Baş Prokurorluq (10), Əzizbəyov RPİ (8), DİN Baş Cinayət Axtarış İdarəsi (7), Yasamal RPİ (7), Xətai RPİ (5), Nəsimi (5), Şərur RPŞ (4), Daşkəsən RPŞ (4), Biləsuvar RPŞ (4), Dəvəçi RPŞ (4) və s. tərəfindən göndərilmişdir.

Bu tapşırıqlar əsasında 122 nəfərin Beynəlxalq axtarışı təyin edilmişdir. Onlardan 102 nəfəri Azərbaycan vətəndaşı, qalanı isə digər ölkələrin vətəndaşlarıdırlar. Bu şəxslərin 42 nəfəri ağır cinayətlər, 33 nəfəri əmlak cinayətləri, 15 nəfəri şəxsiyyətə qarşı, 32 nəfəri isə digər növ cinayətlərə görə axtarılmışdır.

Azərbaycan Respublikasında İnterpolun MMB-si tərəfindən xarici həmkarlarla sıx əlaqə nəticəsində respublika hüquq-mühafizə orqanları tərəfindən axtarılan 13 nəfər şəxsin yeri (Türkiyədə 5, İİR-də 2, İsraildə 2, ABŞ-da 1, İordaniyada 1, Fransada 1, Monakoda 1) müəyyən edilmişdir. Naxçıvan şəhər polis şöbəsi tərəfindən axtarılan 1 nəfər Türkiyə Respublikasından Azərbaycana ekstradisiya olunmuşdur. Bundan başqa, 1 nəfər Nəsimi RPİ, 1 nəfər Yasamal RPİ, 1 nəfər Xətai RPİ-dən Türkiyə Respublikasına ekstradisiya olunmuşdur.

İnterpolun üzvü olan ölkələrin MMB olan (RF – 40, Ukrayna – 8, İİR – 8, Qazaxıstan – 5, Litva – 4 və s.) daxil olmuş tapşırıqlar əsasında respub-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2001-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.3, 6, 7.

lika ərazisində 70 (89) nəfər cinayətkarın (o cümlədən, ağır cinayətlər – 29, əmlak cinayətləri – 14, şəxsiyyətə qarşı cinayətlər – 6 və s.) axtarışı təmin edilmiş, həmin şəxslərin axtarışı ilə bağlı qurumlara məlumatlar göndərilmişdir. Keçirilən axtarış tədbirləri nəticəsində axtarışda olan 20 nəfərin yeri müəyyən edilmiş və bu barədə təşəbbüskara bildirilmişdir.

2002-ci il ərzində itkin düşmüş şəxslərin müəyyən olunması sahəsində də müəyyən işlər görülmüşdür. Belə ki, MMB-yə respublika orqanlarından xaricdə itkin düşməsi ehtimal olunan 12 nəfər şəxs barədə materiallar daxil olmuşdur. Həmin şəxslərin axtarışı ilə bağlı İnterpolun üzvü olan ölkələrin MMB-nə sorğular göndərilmişdir. Bundan başqa, 2 nəfərin yeri (Türkiyə və Fransada) müəyyən olunmuşdur. İnterpolun üzvü olan ölkələrdən isə MMB-yə 12 nəfər itkin şəxs barəsində materiallar daxil olmuşdur. Həmin materiallar əsasında DİN-in ayrı-ayrı xidmətlərinə müvafiq məlumatlar göndərilmiş, onlardan 2 nəfərin yeri respublika ərazisində müəyyən olunmuşdur.

Hesabat dövrü ərzində 9 nəfər şəxs barəsində müvafiq sənədlər toplanaraq qırmızı istiqamətləndirmə buraxılması məqsədilə İnterpolun Baş Katibliyinə göndərilmişdir. Axtarışda olan şəxslərin siyahısı DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinin məlumat bazalarından yoxlanılmış və axtarışda olmayan şəxslər barəsində materiallar isə alınmışdır.

2002-ci il tarixi dövründə MMB-də 792 nəfər şəxs barəsində axtarış tapşırıqları icraatda olmuşdur. Bu şəxslərdən 380 nəfəri respublika hüquq-mühafizə orqanları, 625 nəfəri isə İnterpolun üzvü olan ölkələrin büroları tərəfindən axtarılırdılar.

2002-ci il ərzində İnterpolun üzvü olan ölkələrdən 82 tanınmamış meyitin identifikasiyası barədə materiallar daxil olmuşdur. Həmin materiallar əsasında tanınmamış meyitlər identifikasiya olunmaqla bərabər, mərkəzləşmiş şəkildə DİN-in BƏSİİ-yə uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanlarında yayımlanmışdır.[1]

2003-cü il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-yə hüquq mühafizə orqanlarından 96 nəfər cinayət törətmiş şəxs barəsində axtarış tapşırıqları daxil olmuşdur. Bu axtarış tapşırıqları əsasən 48, o cümlədən Şəki (7), Nəsimi RPİ (17), Cəbayev RPİ (7), Nərimanov RPİ (6), Nizami RPİ 4), Binəqədi RPİ (4), Yevlax RPİ (7), prokurorluq orqanlarından (5) və s. tərəfindən göndərilmişdir. Bu tapşırıqlar əsasında (53(42)) nəfərin beynəlxalq axtarışı təşkil edilmişdir. Axtarış elan olunmuş şəxslərin 45 nəfəri Azərbaycan, qalanları isə digər ölkənin vətəndaşı olub. Bu şəxslərin 12 nəfəri ağır cinayətlər, 17 nəfəri mülkiyyət əleyhinə, 9 nəfəri şəxsiyyətə qarşı, 15 nəfəri isə digər növ cinayət törətdiklərinə görə axtarılıblar. 43 nəfər şəxs

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nun cari arxivi. MMB-nun 2002-ci ilin xidməti fəaliyyətinə dair arayış, s.1-2.

barəsində göndərilmiş axtarış tapşırıqları DİN-in 19 saylı göstərişinin tələblərilə geri qaytarılmış və ya əlavə məlumat tələb olunmuşdur.

İnterpolun üzvü olan xarici dövlətlərin MMB-nin əməkdaşlığı nəticəsində axtarılan 13 nəfərin yeri (İİR-da, İsraildə – 2, Rusiya Federasiyasında – 2, Kanadada – 1, Ukraynada – 1, Türkiyədə – 2 və Belçikada – 1) müəyyən edilmişdir. Baş prokurorluq tərəfindən ARCM-134,144, 181, 182, 185, 217-2 və 228-3 maddələri ilə axtarışda olan 1 nəfər şəxs Rusiya Federasiyasından Azərbaycan Respublikasına ekstradisiya olunmuşdur. ABŞ-dan (1), Türkiyədən (1), İsraildən (1), Polşadan (1).

İnterpolun üzvü olan ölkələrin MMB-dən (Rusiya Federasiyası – 10, İran İslam Respublikası – 2, Özbəkistan – 2, Livan – 7 və s.) daxil olmuş tapşırıq əsasında cinayət törətmiş şəxs, o cümlədən ağır cinayətlər – 6, mülkiyyət əleyhinə cinayətlər – 5, şəxsiyyətə qarşı cinayətlər – 3 və s. bağlı respublika ərazisində axtarışı təşkil edilmiş, həmin şəxslərin axtarışı ilə bağlı Baş Cinayət Axtarış İdarəsinə və Baş Əməliyyat Statistika İnformasiya İdarəsinə, Ərazi polis orqanlarına müvafiq məlumatlar göndərilmişdir. Keçirilən axtarış tədbirləri nəticəsində axtarışda olan 7 nəfərin yeri müəyyən edilmiş (İnterpolun MMB-si – 4, Kürdəmir RPİ – 1, Lənkəran RPŞ – 1, Oğuz RPİ – 1 və bu barədə təşəbbüskarlara məlumat verilmişdir. Onlardan 1 nəfəri dərhal İran İslam Respublikasına ekstradisiya edilmişdir.

İtkin düşmüş şəxslərin axtarışı istiqamətində də, müəyyən işlər görülmüşdür. Belə ki, MMB-yə respublika hüquq-mühafizə orqanlarından 17 şəxs barədə material daxil olmuşdur. Onlardan 9 nəfər barəsində axtarış tapşırığı Baş Prokurorluğa göndərilmişdir. Həmin şəxslərin axtarışı ilə bağlı MDB ölkələrində, Almaniya, Hollandiya, Türkiyə İnterpolunun MMB-lərinə sorğular göndərilmişdir. Onlardan 2 nəfərin yeri Türkiyədə müəyyən edilmiş və təşəbbüskara məlumat verilmişdir.

İnterpolun üzvü olan ölkələrdən isə MMB-yə 2 nəfər itkin düşmüş şəxs barədə material daxil olmuş, həmin materiallar əsasında Azərbaycan Respublikasının DİN-in ayrı-ayrı xidmətlərinə müvafiq məlumatlar göndərilmişdir. 392 nəfər respublika hüquq-mühafizə orqanları, 339 nəfər isə İnterpolun üzvü olan ölkələrin MMB-ləri tərəfindən axtarılmışlar.

2003-cü il ərzində 4 nəfər cinayətkar şəxs barədə qırmızı istiqamətləndirmə buraxılması məqsədilə İnterpolun Baş Katibliyinə göndərilmişdir.

2003-cü il tarixi dövründə İnterpolun üzvü olan ölkələrdən 52 tanınmamış meyitin identifikasiyası barədə materiallar daxil olmuşdur. Həmin materiallar əsasında tanınmamış meyitlər identifikasiya olunmaqla bərabər, mərkəzləşmiş şəkildə DİN-in BƏSİİ-də uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanları arasında yayımlanmışdır.

İnterpolun üzvü olan ölkələrdən kriminal xarakterli məlumat alınması

məqsədilə, MMB-yə 475 şəxs barəsində sorğu daxil olmuşdur. Həmin şəxslər müvafiq uçotlardan yoxlanılaraq nəticələri barədə təşəbbüskara cavab verilmişdir.[1]

2004-cü ildə Azərbaycan Respublikasında İnterpolun MMB-yə respublikanın hüquq-mühafizə orqanlarından 106 nəfər təqsirləndirilən şəxs barədə axtarış tapşırıqları daxil olmuşdur. Bu axtarış tapşırıqları Baş Prokurorluqdan (7), Milli Təhlükəsizlik Nazirliyindən (2), Səbail RPİ (8), Nərimanov RPİ (6), Xətai RPİ (7), Sumqayıt ŞPİ (1), Abşeron RPŞ, Şərur PPŞ (1), Suraxanı RPİ (1) və digər hüquq-mühafizə orqanları tərəfindən göndərilmişdir.

Bu axtarış tapşırıqları əsasında 58 nəfərin İnterpol kanalları ilə beynəlxalq axtarışı təşkil edilmişdir. Axtarış elan olunmuş şəxslərdən 53 nəfəri Azərbaycan, 2 nəfəri İran İslam Respublikası, 1 nəfəri Türkiyə, 1 nəfəri isə İsrail vətəndaşıdır. Bu şəxslərdən 24 nəfəri dələduzluq, 9 nəfəri mənimsəmə, 4 nəfər terror aktı, 3 nəfər cinayətkar birlik yaratma, 3 nəfər qanunsuz azadlıqdan məhrum etmə. 1 nəfər oğurluq, 1 nəfər narkotik vasitələrin qanunsuz dövriyyəsi, 1 nəfər zorlama, 2 nəfər qaçaqmalçılıq, 1 nəfər rüşvət, 1 nəfər soyğunçuluq, 2 nəfər quldurluq, 2 nəfər bədənə xəsarət yetirmə, 1 nəfər qanunsuz silah saxlama, 1 nəfər qətl, 3 nəfər isə ictimai təhlükəsizlik əleyhinə olan cinayət törətdiklərinə görə axtarılıblar. 48 nəfər şəxs barəsində göndərilmiş axtarış tapşırıqları "Azərbaycan Respublikası DİN sistemində axtarış işinin təşkili haqqında" təlimatın təsdiq edilməsinə dair 01 saylı 15/01/2004-cü il tarixli əmrinin tələblərinə cavab vermədiyi üçün geri qaytarılmış və ya əlavə məlumat tələb olunmuşdur (9-İnterpolun nizamnaməsinin 3-cü maddəsinə əsasən).

Azərbaycan Respublikasında İnterpolun MMB-nin xarici həmkarları ilə sıx əməkdaşlığı nəticəsində respublika hüquq-mühafizə orqanları tərəfindən 15 nəfər şəxsin yeri müəyyən olunmuşdur. Kəpəz RPŞ tərəfindən axtarılan 1 nəfər Ukraynada, Hacıqabul RPŞ-si tərəfindən axtarılan 1 nəfər Belorusiyada, Səbail RPİ tərəfindən axtarılan 1 nəfərin yeri İngiltərədə müəyyən olunmuşdur.

Xətai RPİ tərəfindən axtarılan 1 nəfərin yeri BƏƏ-də müəyyən olunaraq, Azərbaycana deportasiya olunmuş və Xətai RPİ-nin 35-ci polis bölməsi tərəfindən yaxalanmışdır. Səbail RPİ tərəfindən axtarılan 1 nəfərin yeri Kanadada müəyyən olunmuşdur.

Bakı şəhər Xətai RPİ tərəfindən axtarışda olan 1 nəfər Türkiyə Respublikasından Azərbaycana ekstradisiya edilmişdir.

Yardımlı RPŞ tərəfindən axtarılan 1 nəfərin yeri İsraildə müəyyən edilmişdir.

---

[1]Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2003-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s. 5, 6.

Səbail RPİ-si tərəfindən axtarılan 1 nəfərin yeri Bolqarıstanda müəyyən olunmuşdur.

Nərimanov RPİ tərəfindən axtarılan 1 nəfərin yeri Ukraynada müəyyən edilmiş, ekstradisiya olunaraq Bakı şəhərinə gətirilmişdir. Yasamal RPİ tərəfindən axtarılan 1 nəfər İİR-də, Nərimanov RPİ tərəfindən axtarılan 1 nəfərin yeri Almaniyada, Xətai RPİ tərəfindən axtarılan 1 nəfərin yeri Hollandiyada, Nizami RPİ tərəfindən axtarılan 1 nəfərin yeri Türkiyədə, Səbail RPİ tərəfindən axtarışda olan 1 nəfərin yeri Hollandiyada müəyyən olunmuşdur.

2004-cü il ərzində 53 nəfər ağır cinayət törətmiş şəxslər barədə göndərilmiş məlumatlar əsasında İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə paylanmışdır.

2004-cü ildə barələrində məlumatların toplanması və olduğu yerin müəyyən edilməsi məqsədilə, 3 nəfər təqsirləndirilən şəxs haqqında MMB-nin təşəbbüsü ilə, İnterpolun Baş Katibliyinə göndərilmiş müvafiq məlumatlar əsasında "B" seriyalı mavi istiqamətləndirmə nəşr olunmuşdur.

Axtarışda olan şəxslərin yerlərinin müəyyən olunması və cinayət işinin açılmasına köməklik üçün "MO" seriyalı çəhrayı istiqamətləndirmə nəşr olunması məqsədilə, cinayətkarlar tərəfindən tətbiq olunan qeyri-adi metodlar və məlumat verilməsi barədə büronun təşəbbüsü ilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsinə və Azərbaycan Respublikasının Baş İstintaq və Təhqiqat İdarəsinə müvafiq müraciətlər olunmuşdur.

Bir neçə ölkədə cinayət törətmiş və digər ölkələrdə də cinayət törətməyə meyilli olan şəxslər barədə "S" seriyalı yaşıl istiqamətləndirmə nəşr olunması, müvafiq məlumatların təqdim olunması məqsədilə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciət olunmuşdur.

01/01/2004-cü il tarixə olan hala görə, Azərbaycanda İnterpolun MMB-nin icraatına respublikanın hüquq-mühafizə orqanlarının tapşırığı əsasında 358 təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar daxil olmuşdur. Onlardan 331 nəfəri Azərbaycan, 13 nəfəri MDB, 14 nəfəri isə digər xarici ölkələrin vətəndaşlarıdırlar.

2004-cü il tarixində Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu tərəfindən itkin düşmüş şəxslərin axtarışı istiqamətində müəyyən işlər görülmüşdür. Belə ki, MMB-yə respublika hüquq-mühafizə orqanlarından xaricdə itkin düşməsi ehtimal olunan 9 nəfər şəxs barədə tapşırıqlar daxil olmuşdur. Həmin şəxslərdən 5 nəfərin axtarışı ilə bağlı MDB ölkələrinə və İnterpolun üzvü olan digər ölkələrin MMB-nə sorğular göndərilmişdir. 2004-cü ildə 13 nəfər itkin düşmüş şəxs barədə sarı istiqamətləndirmə nəşr olunması məqsədi ilə, çatışmayan məlumatlar toplanılaraq İnter-

polun Baş Katibliyinə göndərilmişdir. Azərbaycan Respublikasında İnterpolun MMB-nin təşəbbüsü əsasında Baş Katiblik tərəfindən 19 nəfər barədə sarı istiqamətləndirmə nəşr olunmuşdur. Onların hamısı Azərbaycan vətəndaşıdırlar.

2004-cü ildə Azərbaycanda İnterpolun MMB-nin xaricdə itkin düşmüş 35 nəfər şəxsin axtarışı ilə bağlı materiallar vardır.

2004-cü il ərzində 775 təqsirləndirilən şəxs barədə axtarış tapşırıqları MMB-nin icraatında olmuşdur. Bu şəxslərdən 358 nəfəri respublika hüquq-mühafizə orqanları, 417 nəfəri isə İnterpolun üzvü olan ölkələrin büroları tərəfindən axtarılırlar. Bu materiallarla bağlı respublikanın hüquq-mühafizə orqanları və İnterpolun üzvü olan ölkələrin MMB-lərii ilə mütəmadi olaraq yazışmalar aparılmışdır. 2004-cü il ərzində İnterpolun üzvü olan ölkələrdən 6 tanınmamış meyitin identifikasiyası barədə materiallar daxil olmuş, bu barədə məlumat mərkəzləşmiş şəkildə DİN-in BƏSİİ-də uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanları arasında yayımlanmışdır. Həmçinin respublikanın hüquq-mühafizə orqanları tərəfindən Azərbaycan respublikasının ərazisində aşkar olunmuş xarici vətəndaş olması ehtimal olunan tanınmamış meyitlərin eyniləşdirilməməsi ilə bağlı MMB-yə heç bir tapşırıq daxil olmamışdır.

Respublika ərazisində aşkar olunmuş tanınmamış meyitlərin eyniləşdirilməməsi ilə bağlı, hüquq-mühafizə orqanlarına kömək məqsədilə, Azərbaycan Respublikası DİN-in BƏSİİ-yə müraciət olunaraq, uzun müddət eyniləşdirilməsi mümkün olmayan tanınmamış meyitlər barədə zəruri məlumatlar əks olunaraq İnterpolun Baş Katibliyinə göndərilmiş materiallar əsasında 8 tanınmamış meyit barədə “D” seriyalı qara istiqamətləndirmələr nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır.[1]

2005-ci il tarixi dövründə Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməliyyat-axtarış fəaliyyətini faktlarla qeyd edək.

2005-ci il ərzində İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan daxil olmuş 4068 (təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı ilə bağlı respublikanın hüquq-mühafizə orqanlarından – 832, təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı ilə bağlı İnterpolun üzvü olan ölkələrdən 790 məlumat icraata götürülərək aidiyyəti üzrə respublika hüquq-mühafizə orqanlarına, İnterpolun üzvü olan ölkələrə göndərilmiş, müvafiq məlumat bazasına salınmış və nəticələr barədə təşəbbüskara məlumat verilmişdir.

2005-ci ildə tutulduqları üçün və ya digər səbəbdən barələrində axtarış

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s 7-10.

işi xətm olunduğuna görə, 137 nəfər təqsirləndirilən şəxs beynəlxalq axtarışdan çıxarılmışdır.

Axtarışda olan şəxslərin yerlərinin müəyyən olunması və cinayət işinin açılmasına köməklik üçün "MO" seriyalı çəhrayı istiqamətləndirmə nəşr olunması məqsədilə, cinayətkarlar tərəfindən tətbiq olunan qeyri-adi metodlar barədə məlumat verilməsi haqda büronun təşəbbüsü ilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır Cinayətlərə dair işlər üzrə İstintaq İdarəsinə və AR DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinə olunmuş müraciətlərə həmin idarələrdən bununla bağlı məlumatın olmadığı bildirilmişdir.

Bir neçə ölkədə cinayət törətmiş və digər ölkələrdə də cinayət törətməyə meyilli olan şəxslər barədə "S" seriyalı yaşıl istiqamətləndirmə nəşr və müvafiq məlumatların təqdim olunması məqsədilə Azərbaycan Respublikası DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciət olunmuşdur.

01/01/2006-cı il tarixə olan məlumata görə Azərbaycanda İnterpolun MMB-nin icraatında respublikanın hüquq-mühafizə orqanlarının tapşırığı əsasında 331 təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar vardır. Onlardan 311 nəfəri Azərbaycan, 8 nəfəri MDB, 12 nəfəri isə digər xarici ölkələrin vətəndaşlarıdırlar.

Respublika ərazisində itkin düşmüş şəxslərin axtarışı istiqamətində müəyyən işlər görülmüşdür. Belə ki, MMB-yə respublika hüquq-mühafizə orqanlarından xaricdə itkin düşməsi ehtimal olunan 9 nəfər şəxs barədə tapşırıqlar daxil olmuşdur. Bunlardan 3 nəfərin yeri müəyyən olunmuşdur. 6 itkin düşmüş şəxs barədə sarı istiqamətləndirmə nəşr olunması barədə çatışmayan məlumat toplanaraq İnterpolun üzvü olan ölkələrə yayımlanmışdır.

Azərbaycanda İnterpolun MMB-nin təşəbbüsü əsasında, İnterpolun Baş Katibliyi tərəfindən ümumiyyətlə 45 nəfər barədə son istiqamətləndirmə nəşr olunmuşdur. Onların hamısı Azərbaycan vətəndaşı olublar.

2005-ci ildə Azərbaycan Respublikasında İnterpolun MMB-nin icraatında xaricdə itkin düşmüş 37 nəfər şəxsin axtarışı ilə bağlı materiallar vardır.

İnterpolun üzvü olan ölkələrin MMB-lərindən (Türkiyə – 29, RF – 60, Belorus – 6, Almaniya – 10, Çex Respublikası – 2, Ukrayna – 8 və Özbəkistan – 9 və s.) daxil olmuş tapşırıq əsasında 130 nəfər təqsirləndirilən və məhkum olunmuş şəxsin (o cümlədən adam öldürməklə bağlı – 26, terrorçuluq – 21, dələduzluğa görə – 15, külli miqdarda mənimsəməyə görə – 13, insan alveri – 2, zorlamaya görə – 2, qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr yaratma və ya veteranlıq – 1, quldurluq – 36, narkotik – 3, kütləvi iğtişaş – 11) respublika ərazisində axtarışı təşkil edilmiş, həmin şəxslərin axtarışı ilə bağlı MTN, DİN, BCAİ, BƏSİİ və ərazi polis orqanlarına müvafiq məlumatlar göndərilmişdir.

Keçirilən axtarış tədbirləri nəticəsində 1 nəfər təqsirləndirilən şəxsin yeri respublika ərazisində müəyyən olunmuşdur. Axtarışda olan şəxslərin siyahısı DİN BƏSİİ-nin məlumat bazasında mütəmadi olaraq yoxlanılmış və bu bazalarda onların axtarışı haqqında məlumat olmayan şəxslər barədə materiallar isə alınmışdır.

2005-ci il ərzində MMB-də 1010 nəfər şəxs barədə axtarış tapşırıqları icraatda olmuşdur. Bu şəxslərdən 368 nəfəri respublikanın hüquq-mühafizə orqanları, 642 nəfər isə İnterpolun üzvü olan ölkələrin Büroları tərəfindən axtarılıblar.

Hesabat dövrü ərzində İnterpolun üzvü olan dövlətlərdən 12 tanınmamış meyitin identifikasiyası barədə materiallar daxil olmuşdur. Həmin materiallar əsasında tanınmamış meyitlər identifikasiya olunmaqla bərabər, bu barədə məlumat mərkəzləşmiş şəkildə DİN BƏSİİ-də uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanları arasında yayımlanmışdır.

Respublika ərazisində aşkar olunmuş, uzun müddət eyniləşdirilməsi mümkün olmayan və xarici vətəndaş olması ehtimal olunan tanınmamış meyitlərin eyniləşdirilməsi ilə bağlı hüquq-mühafizə orqanlarına kömək məqsədilə, İnterpolun Baş Katibliyi tərəfindən "D" seriyalı qara istiqamətləndirmələr nəşr olunması üçün büronun təşəbbüsü ilə AR DİN-nin BƏSİİ və BCAİ-yə müraciətlər olunmuşdur. Hesabat dövrü ərzində 1 tanınmamış meyit barədə "Neftçala rayonunda aşkar olunmuş" göndərilmiş, materiallar əsasında İnterpolun Baş Katibliyi tərəfindən "D" seriyalı qara istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməliyyat-axtarış fəaliyyətini qeyd edək. İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublika hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan 160 nəfər, o cümlədən 99 nəfər təqsirləndirilən, 61 nəfər itkin düşmüş şəxslər barədə materiallar daxil olmuşdur.

2006-cı il ərzində daha bir tarixi hadisəni qeyd edək. 1 fevral 2006-cı ildə Bakı şəhərində İnterpolun "Kalkan" layihəsi üzrə beynəlxalq tədbirdə başqa məsələlərlə yanaşı, cinayətkarlıqla mübarizənin vacibliyi və eyni zamanda axtarışda olan cinayətkarların yerinin müəyyənləşdirilməsi və həbsi sahəsində informasiya mübadiləsini genişləndirmək, möhkəmləndirmək məsələləri də müzakirə olundu. Bu tarixi müşavirədə Azərbaycan Respublikasında İnterpolun MMB-nin sabiq rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik, hal-hazırda Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev 1994-cü ildə Bakı Metropoliteninin partlayışı ilə əlaqədar, erməni faşisti

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin "Ümumi cinayətkarlığa qarşı mübarizə" şöbəsinin 2005-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 5,6,10.

Z.Balayanın adını xüsusi ilə vurğulamış və qeyd etmişdir ki, bu günə qədər onun həbsi baş tutmamışdır. Çox təəssüf ki, müşavirədə iştirak edən İnterpolun üzvü olan dövlətlərin belə bir məlumatı yox idi.[1]

Bundan başqa 2007 və 2008-ci illər ərzində İnterpolun Baş Katibliyindən, İnterpolun üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan 177 nəfər, o cümlədən 166 nəfər təqsirləndirilən və 11 nəfər itkin düşmüş şəxs barədə axtarış tapşırıqları daxil olmuşdur.

166 nəfər təqsirləndirilən şəxs barədə axtarış tapşırığı Ədliyyə Nazirliyi penitensionar xidməti (30), İnsan Alverinə Qarşı Mübarizə İdarəsi (12), Vergilər Nazirliyi (9), Nərimanov RPİ (9), Nəsimi RPİ (9), Səbail RPİ (8), Suraxanı RPİ (8), Ağcabədi RPŞ (8), Milli Təhlükəsizlik Nazirliyi RPİ (8), Nizami RPİ (7), Binəqədi RPİ (6), Göy-göl RPİ (6), Yasamal RPİ (5), Sabunçu RPİ (3), Xətai RPİ (3), Qaradağ RPİ (3), Sumqayıt şəhər Pİ (3), Gəncə RPİ (3), Astara RPŞ (3), Əzizbəyov RPİ (3), Narkotiklərə qarşı mübarizə Baş Polis İdarəsi (7), Abşeron RPİ (7), Lənkəran RPŞ (7), Quba RPŞ (1), Cəlilabad RPŞ (1), Masallı RPŞ (1), Ucar RPŞ (1) və Mingəçevir şəhər PŞ-dən (7) daxil olmuşdur. Onlardan 148 nəfər barəsində tapşırıqlar DİN-in 15/01/2004-cü il tarixli 01№li əmri ilə təsdiq olunmuş “Azərbaycan Respublikası DİN sistemində axtarış işinin təşkili haqqında” təlimatın tələblərinə cavab verdiyindən, həmin şəxslərin beynəlxalq axtarışı təşkil edilmişdir.

2008-ci il üçün Azərbaycanda İnterpolun MMB-nin icraatında respublikanın hüquq-mühafizə orqanlarının tapşırığı əsasında 400 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar vardır (2007-ci ilin yekunu üzrə 341 nəfər olmuşdur. Onların 369 nəfəri Azərbaycan, 12 nəfəri MDB, 19 nəfəri isə digər xarici ölkələrin vətəndaşlarıdır).

2008-ci il ərzində 174 nəfər cinayət törətməkdə təqsirləndirilən şəxs barəsində göndərilmiş məlumatlar əsasında İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır. 2007-ci ildə isə bu göstərici 27 nəfər olmuşdur.

Ümumiyyətlə, 2008-ci il üçün hesabatın yekununa görə, MMB-də 260 nəfər təqsirləndirilən şəxs barəsində qırmızı istiqamətləndirmə qüvvədə olmuşdur (dələduzluq – 82, mənimsəmə – 35, insan alveri – 29, qətl – 19, qanunsuz azadlıqdan məhrumetmə – 12, saxta sənəd hazırlamaq və ondan istifadə etmək – 9, quldurluq – 9, vergi cinayətləri – 9, hədə-qorxu – 1, əmlakı zorla tələb etmə, girov götürmə – 7, qanunsuz silah saxlama – 6, xəsarət yetirmə – 6, nəqliyyat vasitələri ilə bağlı cinayətlər – 6, qaçaqmalçılıq – 5, xu-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin “Ümumi cinayətkarlıga qarşı mübarizə” şöbəsinin 2006-cı il üçün xidməti fəaliyyətinə dair arayışı, s. 4,5.

liqanlıq – 5, terror aktı, cinayətkar birlik yaratma – 4, oğurluq – 4, kütləvi iğtişaş, hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etmə – 2, kompüter cinayətləri – 2, rüşvət – 2, zorlama – 1 və s.).

2008-ci ilin hesabat dövrü ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nə 11 nəfər itkin düşmüş şəxs barəsində axtarış tapşırıqları daxil olmuş və bu şəxslər İnterpol kanalları ilə beynəlxalq axtarışa elan olunmuşlar.

Bu dövr ərzində Şirvan şəhər PŞ tərəfindən itkin düşmüş şəxs kimi axtarışda olan, 12/12/1956-cı il təvəllüdlü S.M.Ağami 04/09/1981-ci il tarixində RSFSR Cinayət Məcəlləsinin (D) bəndinə əsasən bu ölkədə ölüm cəzasına məhkum edildiyi və bu cəzanın 25/06/1982-ci il tarixində icra olunduğu müəyyən olunmuşdur. Eyni zamanda 20/08/2006-cı il tarixdə Antalya şəhərində 4 nömrəli sahil ərazisində tapılmış cəsədin Ağcabədi RPŞ tərəfindən itkin düşmüş şəxs kimi axtarışda olan, 09/02/1984-cü il təvəllüdlü F.H.Namazova məxsus olduğu müəyyən olunmuşdur.

2008-ci ildə MMB-nin icraatında 60 nəfər şəxs barədə materiallar vardır.

2008-ci il tarixi ərzində 15 nəfər itkin düşmüş şəxs barədə sarı istiqamətləndirmə nəşr olunması məqsədilə, materiallar toplanaraq İnterpolun Baş Katibliyinə göndərilmişdir. Onların hamısı barədə sarı istiqamətləndirmələr nəşr olunaraq İnterpolun üzv ölkələrinə yayımlanmışdır.

Ümumiyyətlə, 2008-ci ilin yekununa qədər MMB-nin təşəbbüsü əsasında Baş Katiblik tərəfindən nəşr olunan 51 nəfər barədə sarı istiqamətləndirmə qüvvədə olmuşdur. Onların 50 nəfəri Azərbaycan və 1 nəfəri Türkiyə vətəndaşı olublar.

Xarici ölkələrin hüquq-mühafizə orqanları tərəfindən axtarılan şəxslərin respublika ərazisində axtarışı ilə bağlı müəyyən işlər görülmüşdür. Belə ki, İnterpolun üzvü olan ölkələrin MMB-lərindən daxil olmuş tapşırıqlar əsasında 102 nəfərdən 96 nəfər təqsirləndirilən və 6 nəfər itkin düşmüş şəxsin respublika ərazisində axtarışı təşkil edilmiş və həmin şəxslərin axtarışı ilə bağlı MTN, DİN, Baş Cinayət Axtarış İdarəsi və ərazi polis orqanlarına məlumat göndərilmişdir.

Keçirilən əməliyyat tədbirləri nəticəsində axtarışda olan 19 nəfər təqsirləndirilən şəxsin (2007-ci ildə 16 nəfər) yeri respublika ərazisində müəyyən olunmuşdur.

2008-ci il tarixində MMB-nin icraatında xarici ölkələrin hüquq-mühafizə orqanları tərəfindən axtarılan 220 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar vardır (2007-ci ilin yekunu üzrə 23 nəfər olmuşdur). İnterpolun üzvü olan ölkələrdən isə MMB-yə 6 nəfər itkin düşmüş şəxs barədə sorğular daxil olmuşdur.

2007-ci ildə 2, 2008-ci ildə isə 4 tanınmamış meyitlərin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur ki, bu tanınmamış meyitlər barədə məlumatlar mərkəzləşmiş şəkildə BƏSİİ-sində uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanları arasında yayımlanmışdır.

2008-ci il ərzində İnterpolun üzvü olan ölkələrdən respublika ərazisində aşkar edilmiş 3 tanınmamış meyit barədə məlumat İnterpolun Baş Katibliyinə təqdim edildikdən sonra, İnterpolun Baş Katibliyi tərəfindən "D" seriyalı qara istiqamətləndirmə nəşr olunaraq yayımlanmışdır. 2007-ci il tarixində isə bu göstərici 1 olmuşdur.[1]

2009-cu il ərzində İnterpolun Baş Katibliyindən, İnterpolun üzvü olan ölkələrin MMB-dən, respublika hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan 198 nəfər, o cümlədən 112 nəfər təqsirləndirilən və 6 nəfər itkin düşmüş şəxs barədə axtarış tapşırıqları daxil olmuşdur.

Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarından MMB-yə 198 nəfər təqsirləndirilən MTN (44), Sumqayıt ŞPİ (16), Sabunçu RPİ (13), Xətai RPİ (12), Nəsimi RPİ (10), Yasamal RPİ (9), Binəqədi RPİ (8), Gəncə RPİ (8), Nərimanov RPİ (10), BŞPİ (6), Çapayev RPİ (6), Abşeron RPİ (3), Qaradağ RPİ (3), İmişli RPİ (2), Xaçmaz RPŞ (12), Vergilər Nazirliyi (2), Narkotiklərə qarşı mübarizə Baş Polis İdarəsi (7), Suraxanı RPİ (8), Qəbələ RPİ (1), Şəmkir RPİ (7), Salyan RPŞ (7), Göygöl RPİ (1), Tərtər RPŞ (1), Yasamal RPİ (7), Goranboy RPŞ (1), Dövlət Gömrük Komitəsindən (7) məlumat daxil olmuş, onlardan 170 nəfər barəsində tapşırıqlar DİN-in 15/07/2004-cü il tarixli 01 №-li əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikası DİN sistemində axtarış işinin təşkili haqqında" təlimatın tələblərinə cavab vermədiyindən həmin şəxslərin İnterpol kanalları ilə beynəlxalq axtarışı təşkil edilmişdir. Axtarışı elan olunmuş şəxslərin 151 nəfəri Azərbaycan, 5 nəfəri Türkiyə, 3 nəfəri Gürcüstan, 3 nəfəri Birləşmiş Krallıq, 2 nəfəri Nigeriya, 2 nəfəri İİR, 1 nəfəri RF, 1 nəfəri Əfqanıstan vətəndaşı olmuşdur.

2009-cu il ərzində Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən axtarılan 67 nəfər təqsirləndirilən şəxsin yeri İnterpol kanalları ilə müəyyən olunmuşdur. 8 nəfər Azərbaycana ekstradisiya, 6 nəfər isə deportasiya olunmuşdur. 2009-cu il ərzində 184 nəfər cinayət törətməkdə təqsirləndirilən şəxs barəsində göndərilmiş məlumatlar əsasında İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır.

Ümumiyyətlə, 2009-cu ilin tarixi dövrü ərzində 400 nəfər təqsirləndirilən şəxs barədə qırmızı istiqamətləndirmə qüvvədə olmuşdur.

---

[1] Azərbaycan Respublikasında Interpolun MMB-nin cari arxivi. MMB-nin 2007-2008-ci illərdə xidməti fəaliyyətinə dair illik arayışı, s. 18,19.

2009-cu ilin hesabat dövrü ərzində respublikanın hüquq-mühafizə orqanlarından MMB-yə 6 nəfər itkin düşmüş şəxs barəsində axtarış tapşırıqları daxil olmuş və bu şəxslər barəsində İnterpol kanalları ilə beynəlxalq axtarış elan olunmuşdur. Siyəzən RPŞ tərəfindən axtarılan 07/11/1982-ci il təvəllüdlü A.M.Eldarova Türkiyə Respublikasında müəyyən olunmuşdur.

2009-cu il tarixi ərzində Azərbaycan Respublikası İnterpolun MMB-nun icraatında Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən itkin düşmüş şəxs kimi, axtarılan 57 nəfər barəsində material olmuşdur.

2009-cu il ərzində 14 nəfər itkin düşmüş şəxs barədə sarı istiqamətləndirmə nəşr olunması məqsədilə məlumatlar toplanılaraq İnterpolun Baş Katibliyinə göndərilmişdir. Onların hamısı barədə sarı istiqamətləndirmə nəşr olunaraq İnterpolun üzvü olan ölkələrə yayımlanmışdır.

Ümumiyyətlə, 2009-cu il ərzində MMB-nin təşəbbüsü əsasında nəşr olunmuş 52 nəfər barədə sarı istiqamətləndirmə qüvvədə olmuşdur.

İnterpolun üzvü olan ölkələrin MMB-lərindən 119 nəfər şəxsin, o cümlədən 109 təqsirləndirilən, 10 itkin düşmüş şəxsin respublika ərazisində axtarışı təşkil edilmiş və həmin şəxslərin axtarışı ilə bağlı MTN, DİN və ərazi polis orqanlarına müvafiq məlumatlar göndərilmişdir.

2009-cu il ərzində İnterpolun MMB-nin icraatında xarici ölkələrin hüquq-mühafizə orqanları tərəfindən axtarılan 210 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar alınmışdır. İnterpolun üzvü olan ölkələrdən MMB-yə daxil olan 3 nəfərin yeri respublika ərazisində müəyyən olunmuşdur.

2009-cu il dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən 26 tanınmamış meyitin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur. Bu tanınmamış meyitlər barədə məlumatlar mərkəzləşdirilmiş şəkildə DİN-in BƏSİİ-də uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanları arasında tanınmamış meyitin şəxsiyyətinin müəyyən edilməsi məqsədilə, MMB-yə müraciət daxil olmuş, bununla bağlı Baş Katibliyə müraciət olunmuş və qara istiqamətləndirmə nəşr olunaraq üzv dövlətlərə yayımlanmışdır.[1]

2010-cu ilin tarixi dövründə təqsirləndirilən və itkin düşmüş şəxslərin İnterpol kanalları ilə axtarışının vəziyyətinə nəzər saldıqda məlum olur ki, Azərbaycan Respublikasının 2010-cu il üçün əsas təşkilati tədbirlər planının 1-40-cı bəndinin tələblərinə uyğun olaraq, "2010-cu ilin I yarımili ərzində təqsirləndirilən, məhkum olunmuş və itkin düşmüş şəxslərin İnterpol kanalları ilə beynəlxalq axtarışının vəziyyətinə dair icmal-arayış" hazırlanaraq

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009-cu il ərzində "Ümumi cinayətkarlığa qarşı mübarizə" şöbəsinin xidməti fəaliyyətinə dair arayışı, s. 22, 26, 27.

DİN-in 3 avqust 2010-cu il tarixli 54№-li göstərişi ilə Baş idarə və şöbələrə Bakı şəhər və Nəqliyyatda Baş Polis İdarəsinə, şəhər, rayon, kənd polis orqanlarına göndərilmişdir. Həmin göstərişdə qeyd olunan icmal-arayışda polis orqanlarının əməliyyat və istintaq aparatı əməkdaşları ilə müzakirə olunması və görülən işlər barədə məruzə olunması məlumat verilməsi tələb edilmişdir. Daxil olan məlumatlar ümumiləşdirilərək 20/7859№li 30/09/2010-cu il tarixli arayışla DİN-in rəhbərliyinə məruzə olunmuşdur.

DİN-in 2010-cu il üçün əsas təşkilati tədbirlər planının 1-45 bəndinin tələbinə uyğun olaraq, yerli hüquq-mühafizə orqanları tərəfindən və itkin düşmüş şəxslərin İnterpol kanalları vasitəsilə beynəlxalq axtarışa verilməsi ilə bağlı, Azərbaycan Respublikasında İnterpolun MMB-nə göndərilən tapşırıqlardakı nöqsanların aradan qaldırılması, İnterpolun MMB-si ilə Respublikanın ərazi polis orqanları arasında əlaqələrin effektivliyinin artırılması məqsədilə, 28/09/2010-cu il tarixində İnterpolun MMB-nin inzibati binasında Bakı Şəhər Baş Polis İdarəsi və ərazi polis orqanları əməkdaşlarının iştirakı ilə “Şəxslərin İnterpol kanalları ilə beynəlxalq axtarışa verilməsi qaydaları” mövzusunda məşğələ keçirilmişdir.

2010-cu il ərzində İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan daxil olmuş 7957, respublikanın hüquq-mühafizə orqanları tərəfindən təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı ilə bağlı 2766, İnterpolun üzvü olan ölkələrin MMB-ləri tərəfindən təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı ilə bağlı 1002, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı 85, avtonəqliyyat vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı 1336, şəxslərin eyniləşdirilməsi ilə bağlı 2748 və s. sorğu və məlumat icraata götürülərək aidiyyəti üzrə respublika hüquq-mühafizə orqanlarına, İnterpolun üzvü olan ölkələrə göndərilmiş, müvafiq məlumat bazasına salınmış və nəticəsi barədə təşəbbüskara məlumat verilmişdir.

Hesabat dövrü ərzində respublikanın hüquq-mühafizə orqanlarından 210 təqsirləndirilən şəxs barəsində axtarış tapşırıqları daxil olmuşdur. Bunlardan “AR DİN sistemində axtarış işinin təşkili haqqında” təlimatın təsdiq edilməsinə dair DİN-in 01№-li 05/01/2004-cü il tarixli əmrinin və İnterpolun Nizamnaməsinin tələblərinə cavab vermədiyinə görə 176 nəfər təqsirləndirilən şəxsin İnterpol kanalları ilə beynəlxalq axtarışı təşkil edilmişdir.

Hesabat dövrü ərzində 214 nəfər təqsirləndirilən şəxs barədə göndərilmiş məlumatlar əsasında İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır. 522 nəfər təqsirləndirilən şəxs barədə müxtəlif cinayətlər üzrə qırmızı istiqamətləndirmə qüvvədə olmuşdur.

2010-cu il tarixi dövründə Azərbaycan Respublikasında İnterpolun

MMB-nin icraatında hüquq-mühafizə orqanlarının tapşırıqları əsasında 570 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı, həmçinin itkin düşmüş şəxs kimi 49 nəfər şəxs barədə material alınmışdır.

Hesabat dövrü ərzində respublikanın hüquq-mühafizə orqanlarından MMB-yə 6 nəfər itkin düşmüş şəxs barədə axtarış tapşırıqları daxil olmuş və onların 2-si İnterpol kanalları ilə beynəlxalq axtarışa elan olunmuşdur. 3 nəfər itkin düşmüş şəxs barədə göndərilmiş məlumatlar əsasında İnterpolun Baş Katibliyi tərəfindən sarı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır.

2010-cu il tarixi dövründə Azərbaycan Respublikasında İnterpolun MMB-nun təşəbbüsü əsasında Baş Katiblik tərəfindən nəşr olunmuş 45 nəfər itkin düşmüş şəxs barədə sarı istiqamətləndirmə qüvvədə olmuşdur.

Xarici ölkələrdə cinayət törədərək istintaqdan gizlənən şəxslərin respublika ərazisində axtarışı ilə bağlı müəyyən işlər görülmüşdür. Belə ki, İnterpolun üzvü olan ölkələrin MMB-lərindən daxil olmuş tapşırıqlar əsasında 104 nəfər təqsirləndirilən şəxs barədə ərazi polis orqanlarına müvafiq məlumatlar göndərilmişdir. Keçirilən axtarış tədbirləri nəticəsində İnterpolun üzvü olan ölkələr tərəfindən axtarışda olan 26 nəfər təqsirləndirilən şəxsin yeri respublika ərazisində müəyyən olunmuşdur. Yerləri müəyyən olunmuş şəxslərdən 4 nəfər axtarışda olan şəxs Türkiyə Respublikasına ekstradisiya, 1 nəfər isə deportasiya olunub.

2010-cu ilin sonunda MMB-də 919 nəfər təqsirləndirilən və itkin düşmüş şəxs barədə axtarış tapşırıqları icraatda olmuşdur. Bu şəxslərdən 570 nəfər təqsirləndirilən, 49 nəfər itkin düşmüş respublika hüquq-mühafizə orqanları və 209 təqsirləndirilən, 1 nəfər itkin düşmüş isə İnterpolun üzvü olan ölkələrin büroları tərəfindən axtarılıb. Bu materiallarla bağlı respublikanın hüquq-mühafizə orqanları İnterpolun üzvü olan ölkələrin MMB-ləri ilə mütəmadi olaraq yaxınlaşmalar aparmışdır. Hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən 17 tanınmamış meyitin eyniləşdirilməsi ilə bağlı materiallar daxil olmuşdur. Həmin materiallar əsasında tanınmamış meyitlərin eyniləşdirilməsi və müvafiq məlumatların əldə olunması məqsədi ilə DİN-in BƏSİİ-yə müraciət olunmuş və nəticəsi barədə təşəbbüskara məlumat verilmişdir.[1]

Daha bir tarixi hadisəni qeyd etmək yerinə düşər. 29 iyun 2010-cu ildə DİN-in cari ilin 6 ayında cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclasda cənab Ramil Usubov qeyd etmişdir ki, törədilmiş əmələ görə cəza-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin “Ümumi Cinayətkarlığa qarşı mübarizə” şöbəsinin 2010-cu ildə xidməti fəaliyyətinə dair arayışı, s. 15, 16, 17.

nın labüdlüyünün təmini işi davam etdirilərək, yerli və dövlətlərarası axtarışda olan 1134, o cümlədən MDB və digər xarici ölkədə gizlənmiş 68 nəfər tutulmuşdur. Azərbaycan Respublikasında İnterpolun MMB-si tərəfindən beynəlxalq axtarışda olan 45 nəfərin və İnterpol xətti ilə digər üzv ölkələrdə axtarılan 21 nəfərin yeri müəyyən olunmuşdur.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2011-ci il tarixi dövründə əməliyyat-axtarış fəaliyyətini qeyd edək.

2011-ci il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nə hüquq-mühafizə orqanlarından 74 nəfər, o cümlədən 61 nəfər təqsirləndirilən və 13 nəfər itkin düşmüş şəxs barəsində axtarış tapşırıqları daxil olmuşdur. Təqsirləndirilən şəxslərdən 57 nəfəri barəsində tapşırıqlar DİN-in 15/01/2004-cü il tarixli 01№-li əmri ilə təsdiq olunmuş "ARDİN sistemində axtarış işinin təşkili haqqında" təlimatın tələblərinə cavab verdiyindən həmin şəxslərin İnterpol kanalları ilə beynəlxalq axtarışı təşkil edilmişdir. Axtarış elan olunmuş təqsirləndirilən şəxslərin 50 nəfəri Azərbaycan, 3 nəfəri RF, 2 nəfəri İİR, 1 nəfəri Gürcüstan, 1 nəfəri Türkiyə vətəndaşı idi.

Təqsirləndirilən şəxslər barəsində axtarış tədbirləri Binəqədi RPİ (5), Mingəçevir ŞPŞ (5), Səbail RPİ (5), Nəsimi RPİ (5), Nərimanov RPİ (5), Yardımlı RPİ (4), Bərdə RPİ (5), Biləsuvar RPŞ (2), DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi (7), Sabirabad RPİ (7), Abşeron RPŞ (7), Balakən RPİ (7), Lənkəran RPŞ (7), Cəlilabad RPŞ (7), Yevlax RPŞ (7), Kürdəmir RPŞ (7), Vergilər Nazirliyi (7), Dövlət Gömrük Komitəsi (7) tərəfindən daxil olmuşdur.

2011-ci il ərzində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarılan 70 nəfər təqsirləndirilən şəxs İnterpol kanalları ilə müəyyən olunmuşdur. Yerləri müəyyən olunmuş şəxslərdən 17 nəfəri Azərbaycana ekstradisiya olunmuşdur. Bunlardan 8 nəfəri RF-dən, 3 nəfəri Gürcüstandan, 2 nəfəri BƏƏ-dən, 2 nəfəri Belorusdan, 1 nəfəri Ukraynadan və 1 nəfəri Türkiyədən ekstradisiya olunmuşdur. Azərbaycan vətəndaşı 17/02/1963-cü il təvəllüdlü A.Cəfərova və Gürcüstan vətəndaşı, 27/07/1973-cü il təvəllüdlü K.Əhmədovanın ekstradisiyası İnterpolun MMB-nin əməkdaşları tərəfindən keçirilmişdir.

2011-ci il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin icraatında Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının tapşırıqları əsasında 570 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar alınmışdır. Onlardan 516 nəfəri Azərbaycan, 14 nəfəri MDB, 15 nəfəri isə digər xarici ölkələrin vətəndaşlarıdır. İl ərzində 46 nəfər cinayət törətməkdə təq-

[1] DİN-in cari ilin 6 ayında cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir // "Azərbaycan" qəz., 2010, 30 iyul, №163(5564).

sirləndirilən şəxs barədə göndərilmiş məlumatlar əsasında İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır.

Ümumiyyətlə, 2011-ci il ərzində respublikanın hüquq-mühafizə orqanları tərəfindən axtarılan 498 nəfər təqsirləndirilən şəxs barəsində qırmızı istiqamətləndirmə qüvvədə olmuşdur.

2011-ci ilin hesabat dövrü ərzində Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarından MMB-yə 13 nəfər itkin düşmüş şəxs barəsində axtarış tapşırıqları daxil olmuşdur. Bu şəxslərdən 10 nəfəri beynəlxalq axtarışa elan olunmuşdur.

Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən itkin düşmüş şəxs kimi axtarışda olan 2 nəfərin yeri İnterpol kanalları vasitəsilə Türkiyə Respublikasında müəyyən olunmuşdur.

2011-ci ilin hesabatı dövrü ərzində 4 nəfər itkin düşmüş şəxs barəsində göndərilmiş məlumatlar əsasında İnterpolun Baş Katibliyi tərəfindən sarı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır. Azərbaycan Respublikasında İnterpolun MMB-nin təşəbbüsü əsasında Baş Katiblik tərəfindən nəşr olunmuş 41 nəfər itkin düşmüş şəxs barəsində sarı istiqamətləndirmə qüvvədə olmuşdur.

Xarici ölkələrin hüquq-mühafizə orqanları tərəfindən axtarılan şəxslərin respublika ərazisində axtarışı ilə bağlı müəyyən işlər görülmüşdür. Belə ki, İnterpolun üzvü olan ölkələrdən daxil olmuş tapşırıqlar əsasında 89 nəfər şəxsin, o cümlədən 74 nəfər təqsirləndirilən şəxsin və 15 nəfər itkin düşmüş şəxsin respublika ərazisində axtarışı təşkil edilmiş və həmin şəxslərin axtarışı ilə bağlı MTN, DİN, Baş Cinayət Axtarış İdarəsi və ərazi polis orqanlarına müvafiq məlumatlar göndərilmişdir. Keçirilən axtarış tədbirləri nəticəsində İnterpolun üzvü olan ölkələr tərəfindən axtarışda olan 27 nəfər təqsirləndirilən şəxsin yeri respublika ərazisində müəyyən olunmuşdur.

2011-ci il Azərbaycan Respublikasında İnterpolun MMB-nin icraatında xarici ölkələrin hüquq-mühafizə orqanları tərəfindən axtarılan 190 nəfər şəxsin axtarışı ilə bağlı materiallar daxil olmuşdur. Ümumiyyətlə, il ərzində İnterpolun MMB-də 778 şəxs barəsində axtarış tapşırıqları icraatda olmuşdur. Onlardan 592 nəfəri təqsirləndirilən, 47 nəfəri isə itkin düşmüş şəxslər olub.

2011-ci ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən 6 tanınmamış meyitin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur. Bu tanınmamış meyitlər barədə məlumatlar mərkəzləşdirilmiş şəkildə DİN-in BƏSİİ-də uçota qoyulmuş və respublikanın hüquq-mühafizə orqanlarında yayımlanmışdır.[1]

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin “Ümumi cinayətkarlıga qarşı mübarizə” şöbəsinin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı. MMB-nin cari arxivi, s. 20, 21,

2012-ci ildə MMB-nin əməliyyat-axtarış fəaliyyətinə nəzər saldıqda məlum oldu ki, MMB-yə respublikanın hüquq-mühafizə orqanlarından 80 nəfər, o cümlədən 77 nəfər təqsirləndirilən, 3 nəfər itkin düşmüş şəxs barəsində axtarış tapşırıqları daxil olmuşdur. Axtarışda elan olunmuş təqsirləndirilən şəxslərin 71 nəfəri Azərbaycan, 4 nəfəri Türkiyə, 1 nəfəri RF, 1 nəfəri İİR vətəndaşı olublar.

2012-ci ildə 7 nəfər təqsirləndirilən şəxsin yeri İnterpol kanalları ilə müəyyən olunmuşdur. Bu şəxslərdən 6 nəfər Azərbaycana ekstradisiya olunmuşdur (4 nəfər RF-dan, 1 nəfər BƏƏ-dən, 1 nəfəri isə Ukraynadan).

2012-ci il ərzində İnterpolun MMB-nin icraatında respublikanın hüquq-mühafizə orqanlarının tapşırıqları əsasında 595 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar olmuşdur. Onlardan 532 nəfəri Azərbaycan, 13 nəfəri MDB ölkələri və digər xarici ölkələrin vətəndaşlarıdırlar.

2012-ci il ərzində 47 nəfər cinayət törətməkdə təqsirləndirilən şəxs barəsində göndərilmiş materiallar əsasında İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmələr nəşr olunaraq İnterpolun üzvü olan ölkələrə yayımlanmışdır. Ümumiyyətlə, il ərzində respublikanın hüquq-mühafizə orqanları tərəfindən 497 nəfər təqsirləndirilən şəxs barədə qırmızı istiqamətləndirmə göndərilmişdir.

2012-ci il ərzində itkin düşmüş şəxslərlə bağlı respublikanın hüquq-mühafizə orqanlarından İnterpolun MMB-nə 3 axtarış tapşırığı daxil olmuşdur. Azərbaycan Respublikasında İnterpolun MMB-nin icraatında itkin düşmüş şəxs kimi axtarılan 44 nəfər şəxs barəsində material vardır.

Göndərilmiş materiallar əsasında İnterpolun Baş Katibliyi tərəfindən sarı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır.

2012-ci ildə Azərbaycan Respublikasında İnterpolun MMB-nin təşəbbüsü əsasında, Baş Katiblik tərəfindən nəşr olunmuş, 44 nəfər itkin düşmüş şəxs barəsində sarı istiqamətləndirmə qüvvədə olmuşdur.

Xarici ölkələrin hüquq-mühafizə orqanları tərəfindən axtarılan şəxslərin respublika ərazisində axtarışı ilə bağlı müəyyən işlər görülmüşdür. Belə ki, İnterpolun üzvü olan ölkələrin MMB-lərindən daxil olmuş tapşırıqlar əsasında 103 nəfər şəxsin, o cümlədən 86 nəfər təqsirləndirilən şəxsin və 17 nəfər itkin düşmüş şəxsin respublika ərazisində axtarışı təşkil edilmiş və MTN, DİN, BCAİ, BƏSİİ və ərazi polis orqanlarına müvafiq məlumatlar göndərilmişdir.

Ümumiyyətlə, Azərbaycan Respublikasında İnterpolun MMB-də 795 nəfər şəxs barəsində axtarış tapşırıqları icraatda olmuşdur.

2012-ci ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən 3

---

23.

tanınmamış meyitin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur. Bu tanınmamış meyitlər müəyyənləşdirilmiş şəkildə DİN-in BƏSİİ-də uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanlarında yayımlanmışdır.[1]

2012-ci ildə daha bir mühüm tarixi hadisəni qeyd edək.

24 yanvar 2012-ci il tarixdə ARDİN 2011-ci ildə “Cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın qorunmasının, ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vasitələrə” həsr olunmuş kollegiya iclasında cənab Ramil Usubov məruzə ilə çıxış etmişdir. O, davamlı şəkildə gedən quruculuq işlərinə zəmin yaradan ictimai asayiş insan hüquq və azadlıqlarının daha etibarlı qorunması, ölkənin qanunlarından, dövlət başçısının fərman və sərəncamlarından irəli gələn vəzifələr vaxtında və tam yerinə yetirilmişdir. Azərbaycan cinayətkarlıqla mübarizənin nəticələrinə görə, MDB və Şərqi Avropa məkanında tutduğu qabaqcıl mövqeyini qoruyub saxlamışdır. Hesabatda bildirilmişdir ki, Azərbaycan Respublikasında İnterpolun MMB-si tərəfindən beynəlxalq axtarışda olan 70 nəfərin və bu təşkilata üzv olan ölkələr tərəfindən axtarılan 27 nəfərin yeri müəyyən edilmişdir.[2]

Daha bir tarixi hadisəni qeyd edək. 30 aprel 2009-cu ildə Azərbaycan Neft Akademiyasında F.Qədirovun terror cinayətinin sifarişçisi erməni millətindən olan M.Qumasyan barəsində materiallar Respublika prokurorluğu tərəfindən beynəlxalq axtarışa elan olunması üçün Azərbaycan Respublikasında İnterpolun MMB-nə göndərilmiş, Azərbaycan Respublikasında İnterpolun MMB-si tərəfindən beynəlxalq axtarış elan edilmişdir.[3]

Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının CM-nin 103-cü (soyqırım) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddəsi ilə cinayət işinin istintaqı nəticəsində müəyyən olunmuşdur ki, 280-ə yaxın erməni və rus millətindən olan şəxslərin təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunmaları barəsində həbs-qəti imkan tədbiri seçilmiş və onların barəsində materiallar beynəlxalq axtarış elan edilməsi üçün Azərbaycan Respublikasında İnterpolun MMB-nə göndərilmişdir.[4]

2013-cü ilin I yarımilliyi üçün Azərbaycan Respublikasında İnterpo-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin “Ümumi cinayətkarlığa qarşı mübarişə” şöbəsinin 2012-ci il ərzində xidməti fəaliyyətinə dair arayışı, s. 22, 23, 27.

[2] Cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifəjərə həsr olunmuş kollegiya iclası. Bakı, 2012, 25 yanvar, №18 (5999).

[3] “Azərbaycan” qəz., 2011, 12 fevral, №34(6015).

[4] Hacıyev E., Baxşəliyev R. İnsanlıga qarşı yönəlmiş dəhşətli cinayət // Azərbaycan, 2012, 21 fevral, №41 (6022).

lun MMB-nin əməliyyat-axtarış fəaliyyətini qeyd edək. 11-12 aprel 2013-cü il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM işçi qrupu axtarışda olan və əməliyyat marağı kəsb edən şəxslər barəsində avtomatlaşdırılmış məlumat bazasının yaradılmsı üzrə ekspertlərin işçi görüşü keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin şöbə rəisi, polis polkovnik-leytenantı A.Ağayev və DİN-in Baş Cinayət Axtarış İdarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı M.Həsənov təmsil etmişlər.[1]

2013-cü ildə I yarımillik ərzində respublikanın hüquq-mühafizə orqanlarından MMB-yə 57 təqsirləndirilən şəxs barəsində axtarış tapşırıqları daxil olmuşdur. Axtarış elan olunmuş təqsirləndirilən şəxslərin 48 nəfəri Azərbaycan, 4 nəfəri İsrail, 1 nəfəri Türkiyə, 1 nəfəri RF, 1 nəfəri Özbəkistan, 1 nəfəri İİR vətəndaşıdır.

2013-cü ilin I yarımilliyi ərzində Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən axtarılan 49 nəfər təqsirləndirilən şəxsin yeri İnterpol kanalları ilə müəyyən olunmuşdur. Onlardan 8 nəfəri Azərbaycana, 3 nəfəri Rusiya Federasiyasından, 2 nəfəri Ukraynadan, 1 nəfəri Türkiyədən, 1 nəfəri Gürcüstandan və 1 nəfəri Belçikadan ekstradisiya olunmuşdur.

I yarımillik ərzində Azərbaycan Respublikasında İnterpolun icraatında respublikanın hüquq-mühafizə orqanlarının tapşırıqları əsasında 557 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar daxil olmuşdur. Onlardan 530 nəfəri Azərbaycan, 13 nəfəri MDB ölkələri, 14 nəfəri isə digər xarici ölkələrin vətəndaşları olub. Cinayət törətməkdə təqsirləndirilən 63 nəfər barəsində göndərilmiş məlumat əsasında İnterpolun Baş Katibliyi tərəfindən qırmızı istiqamətləndirmə nəşr olunaraq üzv ölkələrə yayımlanmışdır.

Ümumiyyətlə, 2013-cü ilin I yarımilliyi ərzində respublikanın hüquq-mühafizə orqanları tərəfindən axtarılan 519 nəfər təqsirləndirilən şəxs barədə qırmızı istiqamətləndirmə qüvvədə olmuşdur.

Həmçinin itkin düşmüş şəxslərlə bağlı respublikanın hüquq-mühafizə orqanlarından MMB-yə 41 nəfər barədə axtarış tapşırıqları daxil olmuşdur.

2013-cü ilin I yarımilliyi üçün Azərbaycan Respublikasında İnterpolun MMB-nin təşəbbüsü əsasında Baş Katiblik tərəfindən nəşr olunmuş, 36 nəfər itkin düşmüş şəxs barədə sarı istiqamətləndirmə qüvvədə olmuşdur.

Xarici ölkələrin hüquq-mühafizə orqanları tərəfindən axtarılan şəxslərin respublika ərazisində axtarışı ilə bağlı müəyyən işlər görülmüşdür. Belə ki, İnterpolun üzvü olan ölkələrin MMB-dən daxil olmuş tapşırıqlar əsasında 89 nəfər şəxsin, o cümlədən 87 nəfər təqsirləndirilən şəxsin və 2 nəfər it-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analitik şöbəsinin 2013-cü ilin 1-ci yarım ili üçün xidməti fəaliyyətinə dair arayışı, s.9.

kin düşmüş şəxsin respublika ərazisində axtarışı təşkil edilmişdir və həmin şəxslərin axtarışı ilə bağlı lazımi qurumlara müvafiq məlumatlar göndərilmişdir.

Keçirilən axtarış tədbirləri nəticəsində İnterpola üzv ölkələr tərəfindən axtarışda olan 22 nəfər təqsirləndirilən şəxsin yeri respublika ərazisində müəyyən olunmuşdur.

Hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən 4 tanınmamış meyitlərin eyniləşdirilməsi ilə bağlı sorğular daxil olmuşdur. Bu tanınmamış meyitlər barədə məlumatlar mərkəzləşdirilmiş şəkildə DİN-in BƏSİİ-də uçota qoyulmuş və respublika hüquq-mühafizə orqanları arasında yayımlanmışdır.[1]

**Azərbaycan Respublikasında İnterpolun fəaliyyət sahələrindən olan oğurlanmış avtonəqliyyat vasitələrinin tapılması təşkil edir**.

Avtonəqliyyat ilə bağlı cinayətlərlə mübarizədə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları İnterpol kanalları vasitəsi ilə hansı məlumatlar üçün sorğu göndərə bilər?

Onlar bu imkanlara malikdirlər:

- Avtonəqliyyat vasitələrinin oğurluq və qanunsuz nəqli ilə məşğul olan şəxslər və mütəşəkkil qruplar haqqında informasiya sorğusu göndərmək (sonradan avtonəqliyyat vasitəsi);
- Xaricdə qeydiyyata alınmış və yaxud çıxarılma yeri və vaxtı haqqında;
- Avtonəqliyyat vasitələrinin qeydiyyata alınma və çıxarılma vaxtı və yeri haqqında sorğu göndərmək;
- Xarici dövlətlərin oğurlanmış avtonəqliyyat vasitələrinin qeydiyyatı üzrə avtonəqliyyat vasitələrinin yoxlanılması, axtarışı, oğurlanmanın vəziyyəti, zərərçəkən sahib və onun oğurlanmış avtonəqliyyat vasitələrinin qaytarılması haqqında fikrin təsdiqini almaq;
- Avtonəqliyyat vasitələri və onun nömrə nişanlarının eyniləşdirilməsi;
- Azərbaycan Respublikası ərazisində oğurlanmış avtonəqliyyat vasitələri haqqında İnterpolun üzvü olan xarici dövlətlərdə beynəlxalq axtarışını təmin etmək.

Azərbaycan Respublikasında İnterpolun MMB-si oğurlanmış avtonəqliyyat haqqında Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun xarici dövlətlərdə olan Milli Mərkəzi Bürolarından lazımi məlumat almaq üçün əsaslar aşağıdakılardan ibarətdir:

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin "Ümumi cinayətkarlığa qarşı mübarizə" şöbəsinin 2013-cü ilin 1-ci yarım ili ərzində xidməti fəaliyyətinə dair arayışı.

- Azərbaycan DİN-in Baş Dövlət Yol Polisi İdarəsindən və Baş Əməliyyat Statistika İnformasiya İdarəsindən avtomobil oğurluğu faktını mərkəzləşmiş qeydiyyatda olub-olmaması faktının müəyyənləşdirilməsi;
- Azərbaycan ərazisində cinayət törətməsi haqqında, xarici dövlətlərin qeydiyyat nişanlarından istifadə olunması haqqında sübutu göstərən cinayət işləri materialları və operativ qeydiyyat işləri;
- Xarici dövlətlərdən gətirilən və DİN-in Dövlət Yol Polisi İdarəsinə və onun struktur hissələrinə təqdim olunan sənədlərin saxta olmasının aşkarlanması;
- Xaricdə istehsal olunan avtonəqliyyat vasitələrinin qurğularında hissə və eyniləşdirici nömrələrində olan zavod nişanlarının saxtalığının müəyyən edilməsi;
- Gömrük sənədlərində, nəqliyyat vasitələrinin qeydiyyatı haqqında şəhadətnamələrdə, alış-veriş və başqa sənədlərdə göstərilən qeydlərin Azərbaycan Respublikası vətəndaşları tərəfindən xaricdə əldə olunmuş, avtonəqliyyat vasitələrinin qurğu və hissələrinin qeydlərilə ziddiyyətlərin aşkarlanması.

İnterpol kanalları vasitəsilə İnterpolun MMB-si 3 gün müddətində avtonəqliyyat vasitələrinin aşkarlanması zamanı və avtonəqliyyat vasitələrinin aşkarlanması haqqında axtarış təşəbbüskarlarını, yəni hüquq-mühafizə orqanlarını məlumatlandırmaq üçün bir sıra lazımi məlumatlar haqqında xəbərdarlıq göndərir. Avtonəqliyyat vasitələrinin aşkarlanması haqqında xəbər birbaşa Azərbaycan Respublikası İnterpolun MMB-nə göndərilir. İnterpol kanalları vasitəsi ilə axtarılan avtonəqliyyat vasitələrinin aşkarlanması dəlili üzrə hüquqi yoxlamaların materialları İnterpolun MMB-nə göndərilmir, yalnız onun hüquqi həlli üzrə məlumatlar təqdim olunur.

Beynəlxalq axtarışa elan olunmuş avtonəqliyyat vasitələrinin aşkarlanması xəbəri və onun yoxlanılması haqqında sorğular 3 gün müddətində nöqsanların aradan qaldırılması üçün qarşılıqlı fəaliyyət göstərən orqanın rəhbərliyinə qaytarılır.

İnterpol kanalları vasitəsi ilə avtonəqliyyat vasitələrinin axtarışı üçün təsdiqin alınması və yoxlanılması üçün ancaq Azərbaycan Respublikasında İnterpolun rəsmi kanallarından istifadə olunur.

Azərbaycan Respublikası İnterpolun MMB-si axtarışın təşəbbüskarını avtonəqliyyat vasitələrinin aşkarlanması, oğurlanması vəziyyəti, zərərçəkən sahibkar, nəticələr barədə məlumatlandırılır və lazım gələrsə, Azərbaycan Respublikasının mövcud qaydalarına əsasən, oğurlanmış xüsusi mülkiyyətin qaytarılması məsələsinin həllini aydınlaşdırır.

Bilavasitə, avtonəqliyyat vasitələrinin qaytarılması haqqında məsələlər

Azərbaycan Respublikasında İnterpolun MMB-nin səlahiyyətlərinə daxil deyildir.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin İnterpol kanalları vasitəsilə oğurlanmış avtonəqliyyat vasitələrinin xarici ölkələrdə tapılması sahəsindəki müxtəlif illərdəki fəaliyyətini aşağıdakı faktlarla qeyd edək.

2000-ci ildə oğurlanmış avtonəqliyyat vasitələrinin tapılması sahəsində müəyyən işlər görülmüşdür. Respublikamızdan oğurlanmış bir avtomaşın Rusiya Federasiyasında, 1 ədəd "YEP SRAHD CHEROKEE" markalı avtomaşın isə Bolqarıstanda, xarici ölkələrin müvafiq orqanları tərəfindən axtarılan 22 ədəd nəqliyyat vasitəsi isə respublikamızda aşkar edilmişdir. Müvafiq yoxlamalar zamanı müəyyən edilmişdir ki, Türkiyədə oğurlanmış "TOFAŞ MURAT" markalı 6 ədəd avtomaşın respublikamızda əvvəllər qeydiyyata alınmış, 3-ü isə Tovuz gömrük məntəqəsində aşkar edilmişdir. Həmin maşınların qanuni sahiblərinə qaytarılması məsələsinin həll edilməsi ilə bağlı respublika hüquq-mühafizə orqanlarına müvafiq məlumatlar göndərilmişdir.[2]

2001-ci il ərzində oğurlanmış avtonəqliyyat vasitələrinin axtarılması sahəsində Azərbaycan Respublikası İnterpolun MMB-si müəyyən işlər görmüşdür. Respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş 1614 avtonəqliyyat vasitəsi barədəki tapşırıq əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, 3 avtomaşın barədə isə beynəlxalq axtarış elan olunmuşdur. Həmin müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdə oğurlanmış 12 avtomaşının yeri respublikamızda müəyyən edilmişdir və bu barədə təşəbbüskara məlumat verilmişdir.

Xarici ölkələrdən daxil olmuş sorğular əsasında 544 avtomaşın Dövlət Yol Polisi İdarəsindən və DİN-in Əməliyyat Statistika İdarəsində yoxlanılmış, nəticələri barədə təşəbbüskara bildirilmişdir.[3]

2002-ci ildə respublikamızın hüquq-mühafizə orqanlarından daxil olmuş 1523 avtonəqliyyat vasitəsi barədə tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, 2 avtomaşın barədə isə beynəlxalq axtarış elan olunmuşdur.

Xarici ölkələrdən daxil olmuş sorğular əsasında 297 avtomaşın Dövlət Yol Polisi İdarəsinin və Əməliyyat Statistika İnformasiya İdarəsinin qeydiyyatlarından yoxlanılmış, nəticələri barədə təşəbbüskara bildirilmişdir. Həmin müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi, 1999-cu il.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Texniki-təminat şöbəsinin 2000-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 8.

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2001-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.8, 9.

oğurlanmış 6 (Almaniya – 3, Macarıstan – 1, Rumıniya – 1 və Türkiyə – 1) avtomaşının yeri respublikamızda müəyyən edilmiş və bu barədə təşəbbüskara məlumat verilmişdir. [1]

2003-cü il ərzində oğurlanmış avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş 417 avtonəqliyyat vasitəsi barədə tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə MMB-dən müvafiq sorğular göndərilmişdir. 30 avtomaşın barəsində isə beynəlxalq axtarış elan olunmuşdur. Bu müraciətlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 21 (Almaniya – 10, Türkiyə – 6, Litva – 2, Çexiya – 1, İsveç – 1, Rusiya Federasiyası – 1) avtomaşının yeri respublikamızda müəyyən edilmiş və bu barədə təşəbbüskara məlumat verilmişdir.

Xarici ölkələrdən daxil olmuş sorğularda 287 avtomaşın Dövlət Yol Polisi İdarəsinin və Əməliyyat Statistika İnformasiya İdarəsinin qeydiyyatlarından yoxlanılmış, nəticələr barədə təşəbbüskara bildirilmişdir. Yoxlamalar nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 2 avtomaşının yeri Moskva və Yerevan şəhərində müəyyən olunmuş və bu barədə axtarışın təşəbbüskarlarına (Xətai və Nərimanov RPİ) məlumat verilmişdir.[2]

2004-cü il ərzində MMB-nin avtonəqliyyat vasitələrinin axtarış fəaliyyətinə nəzər yetirərək məlum olur ki, oğurlanmış avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı respublikanın hüquq-mühafizə orqanlarında daxil olmuş 11261 avtonəqliyyat vasitəsi barədə tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, bu müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 44 (Türkiyə – 9, Belçika – 8, Almaniya – 7, İtaliya – 4, Yaponiya – 3, Fransa – 3, Çexiya – 2, RF – 2, Litva – 2, Bolqarıstan – 1, İngiltərə – 1, Tbilisi – 1 və Polşa – 1) avtomaşının yeri respublikamızda müəyyən edilmiş və bu barədə təşəbbüskarlara məlumat verilmişdir.

2004-cü ilin 12 ayı ərzində MMB tərəfindən respublika ərazisində axtarışda olan 51 avtonəqliyyat vasitəsi DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin təşəbbüsü ilə beynəlxalq axtarışa elan olunmuşdur.

Xarici ölkələrdən daxil olmuş sorğular əsasında 99 avtomaşın Baş Dövlət Yol Polisi İdarəsinin və Baş Əməliyyat Statistika İdarəsinin qeydiyyatından yoxlanılmış, nəticələr barədə təşəbbüskarlara bildirilmişdir.[3]

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2002-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 19.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2003-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s. 18.

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-cü ilin

2005-ci il ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin oğurlanmış avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı respublikasının hüquq-mühafizə orqanlarından daxil olmuş 20934 avtonəqliyyat vasitəsi barədə tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, bu müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 77 avtomaşının yeri respublikamızda müəyyən edilmiş (Almaniya – 7, Çex Respublikası – 2, Belçika – 10, Yaponiya – 31, İtaliya – 5, Fransa – 5, Gürcüstan – 1, Ukrayna – 1, Türkiyə – 1, Moldova – 1, RF – 7, İsveç – 1, Polşa – 1, Serbiya – 1) və bu avtomaşınlarla bağlı istintaq orqanları tərəfindən qəbul olunmuş qərarlar barədə təşəbbüşkarlara məlumat verilmişdir. 2005-ci il ərzində MMB tərəfindən respublikanın ərazisində axtarışda olan 15 avtonəqliyyat vasitəsi Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin təşəbbüsü ilə beynəlxalq axtarışa elan olunmuşdur.

Xarici ölkələrdən daxil olmuş sorğular əsasında 63 avtomaşın Baş Dövlət Yol Polisi İdarəsinin və Baş Əməliyyat Statistika İdarəsinin qeydiyyatlarından yoxlanılmış nəticələr barədə təşəbbüskarlara bildirilmişdir.[1]

2007 və 2008-ci illər ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nə oğurlanmış avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı 57635 avtonəqliyyat vasitəsi barədə (2007-ci ildə 50936 avtonəqliyyat vasitəsi barədə) Respublikanın hüquq-mühafizə orqanlarına daxil olmuş tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, bu müraciətlərlə aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 30 avtomaşının (Rusiya – 9, Almaniya – 6, Belçika – 6, Yaponiya – 3, İtaliya – 1, Fransa – 1, Çex Respublikası – 1, Avstriya – 1, Polşa – 1, Türkiyə – 1) yeri respublikada müəyyən olunmuş və avtomaşınlarla bağlı istintaq orqanları tərəfindən qəbul olunmuş qərar barədə axtarışın təşəbbüskarlarına məlumat verilmişdir.

Hesabat dövründə İnterpolun üzvü olan ölkələrdən 108 avtomaşının müvafiq qeydiyyatdan yoxlanılması ilə bağlı Azərbaycan Respublikasında MMB-yə sorğular daxil olmuşdur. Həmin avtomaşınlar MMB-nin əməkdaşları tərəfindən Baş Dövlət Yol Polisi İdarəsi və Beynəlxalq Əməliyyat Statistika İdarəsinin qeydiyyatlarından yoxlanılmış və nəticə barədə təşəbbüskara bildirilmişdir.[2]

2009-cu il tarixi dövründə İnterpolun MMB-nin oğurlanmış avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı respublikanın hüquq-mühafizə orqanla-

---

xidməti fəaliyyətinə dair arayışı, s. 12-13.

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2005-ci ilin xidməti fəaliyyətinə dair arayışı. MMB-nin cari arxivi. s.14.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2007 və 2008-ci illər xidməti fəaliyyətinə dair arayışı, s. 25.

rından daxil olmuş tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, bu müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 25 avtomaşının (RF – 8, Almaniya – 4, BƏƏ – 3, Moldova – 2, Yaponiya – 2, Türkiyə – 1, Fransa – 1, Belçika – 1, Bolqarıstan – 1) yeri respublikamızda müəyyən edilmiş və bu avtomaşınlarla bağlı istintaq orqanları tərəfindən qəbul olunmuş qərarlar barədə axtarışın təşəbbüskarlarına məlumat verilmişdir.

Hesabat dövründə İnterpolun üzvü olan ölkələrdən 48 avtomaşının müvafiq qeydiyyatlardan yoxlanılması ilə bağlı büromuza sorğular daxil olmuşdur. Həmin avtomaşınlar MMB-nin əməkdaşları tərəfindən Baş Dövlət Yol Polisi İdarəsinin və Baş Əməliyyat Statistika İdarəsinin qeydiyyatından yoxlanılmış, nəticələr barədə təşəbbüskara bildirilmişdir.[1]

2010-cu il tarixi dövrünə nəzər saldıqda məlum olur ki, Azərbaycan Respublikasında İnterpolun MMB-si oğurlanmış avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş 37896 avtonəqliyyat vasitələri barədə tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular daxil olmuşdur. Bu müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 18 avtomaşının yeri respublika ərazisində müəyyən edilmiş (Rusiya – 8, Almaniya – 2, Yaponiya – 1, Birləşmiş Krallıq – 1 və s.) və bu avtomaşınlarla bağlı istintaq orqanları tərəfindən qəbul olunmuş qərarlar barədə axtarışın təşəbbüskarlarına məlumat verilmişdir.

2010-cu il tarixi dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən 42 avtomaşının müvafiq qeydiyyatlardan yoxlanılması ilə bağlı (RF – 10, Gürcüstan – 8, Bolqarıstan-6, Andorra – 4, Almaniya – 3, Polşa – 3, Macarıstan – 3, Moldova – 2, Belçika – 2, İİR – 1) büromuza sorğular daxil olmuşdur. Həmin avtomaşınlar MMB-nin əməkdaşları tərəfindən Baş Dövlət Yol Polisi İdarəsinin və BƏSİİ-nin qeydiyyatlarından yoxlanılmış, nəticələr barədə təşəbbüskarlara bildirilmişdir.[2]

2011-ci il ərzində MMB-nin oğurlanmış avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı faktlara diqqət yetirək. Məlum olur ki, avtonəqliyyat vasitələrinin axtarışı ilə bağlı 51521 avtonəqliyyat vasitəsi barədə respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, bu müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 26 avtomaşının yeri respublikamızda müəyyən edilmişdir (RF – 12, İtaliya – 4, İsveçrə –

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s. 27, 28.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2010-cu ilin xidməti fəaliyyinə dair arayışı, s. 19-20.

1, Bolqarıstan – 2, Yaponiya – 2, Çex Respublikası – 1, Polşa – 1, Almaniya – 1) və bu avtomaşınlarla bağlı istintaq orqanları tərəfindən qəbul olunmuş qərarlar barədə axtarışın təşəbbüskarlarına məlumat verilmişdir.

2011-ci ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən 39 avtomaşının müvafiq qeydiyyatlardan yoxlanılması ilə bağlı MMB-yə sorğular (RF – 20, Almaniya – 6, Çex Respublikası – 3, İtaliya – 2, Macarıstan – 2, Polşa – 2, Latviya – 1, Qazaxıstan – 1 və s.) daxil olmuşdur. Həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları tərəfindən Baş Dövlət Yol Polisi İdarəsindən və Baş Əməliyyat Statistika İdarəsinin rəisinin qeydiyyatlarından yoxlanılmış və nəticəsi barədə təşəbbüskara bildirilmişdir.[1]

Daha sonrakı 2012-ci il tarixi dövrü ərzində 84317 avtonəqliyyat vasitəsi barədə respublikamızın hüquq-mühafizə orqanlarından daxil olmuş tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, bu müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 16 avtomaşının yeri respublikamızda müəyyən edilmiş (RF – 5, İtaliya – 4, Yunanıstan – 1, Almaniya – 1, Malayziya – 1, Hollandiya – 1, Livan – 1, Rumıniya – 1, Bolqarıstan – 1) və bu avtomaşınlarla bağlı istintaq orqanları tərəfindən qəbul olunmuş qərarlar barədə axtarışın təşəbbüskarlarına məlumat verilmişdir.

2012-ci il hesabat dövründə İnterpolun üzvü olan ölkələrdən 34 avtomaşının müvafiq qeydiyyatlardan yoxlanılması ilə bağlı Azərbaycan Respublikasının İnterpolun MMB-nə sorğular (RF – 11, Almaniya – 6, Polşa – 4, İtaliya – 3, Çex Respublikası – 3, Fransa – 2, Macarıstan – 2, Gürcüstan – 2, Qazaxıstan – 1) daxil olmuşdur. Həmin maşınlar İnterpolun MMB-nin əməkdaşları tərəfindən yoxlanılmış və nəticələri barədə təşəbbüskara bildirilmişdir[2].

İndi isə İnterpolun Azərbaycan Respublikasının MMB-dən götürülmüş arxiv materialları əsasında daha bir faktı qeyd edək.

2013-cü ilin 1-ci yarımilliyi ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-si avtonəqliyyat vasitələrinin oğurlanması ilə bağlı, 43066 avtonəqliyyat vasitəsi barədə, respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş tapşırıqlar əsasında, İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərmiş, bu müraciətlərlə bağlı aparılan yoxlamalar nəticəsində xarici ölkələrdən oğurlanmış 10 avtomaşının yeri respublikada müəyyən edil-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 23, 24.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin "Ümumi cinayətkarlıga qarşı mübarizə" şöbəsinin 2012-ci ilin xidməti fəaliyyətinə dair hesabat arayışı, s. 27,28.

mişdir (RF – 2, Almaniya – 2, Çex Respublikası – 1, İtaliya – 1, Bosniya və Herseqovina – 1, Hollandiya – 1, İran İslam Respublikası – 1, Birləşmiş Ərəb Əmirlikləri – 1) və bu avtomaşınlarla bağlı istintaq orqanları tərəfindən qəbul olunmuş qərarlar barədə axtarışın təşəbbüskarlarına məlumat verilmişdir.

Hesabat dövründə İnterpola üzv olan ölkələrdən 8 avtomaşınla bağlı, müxtəlif qeydiyyatlardan yoxlanılması üçün MMB-yə sorğular (Litva – 2, Almaniya – 2, RF – 1, Moldova – 1, Belorus – 1, Sloveniya – 1) daxil olmuşdur. Baş Dövlət Yol Polisi İdarəsinin və Baş Əməliyyat Statistika İdarəsinin qeydiyyatlarından yoxlanılmış və nəticəsi barədə təşəbbüskarlara məlumat verilmişdir.[1]

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin beynəlxalq cinayətkarlığa qarşı mübarizə sahələrindən birini də beynəlxalq terrorizmdə odlu silah və partlayıcı maddələrə qarşı mübarizə təşkil edir.**

Terrorizm müasir dövrün ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif miqyas alan təzahürlərindən biridir. Terror aktı çoxsaylı insan tələfatı ilə nəticələnir, böyük insan kütləsinə psixoloji təsir göstərir, yenidən bərpası bəzən mümkün olmayan maddi və mənəvi dəyərləri məhv edir, dövlətlər arasına nifaq salır, müharibələr, sosial və milli qurumlar arasında inamsızlığa və nifrətin yaranmasına səbəb olur. Terrora bir vasitə kimi əl atanlar, əsasən, cəmiyyətdə qanunçuluğu şübhə altına almağa başlayanlar, bununla da öz məqsədlərinə çatmaq üçün terroru çıxış yolu kimi görən ayrı-ayrı qurumlardır. Müxtəlif cinayətkar qruplaşmalar terror aktlarını rəqiblərini qorxutmaq və məhv etmək, öz cinayətkar fəaliyyətini həyata keçirmək üçün dövlət hakimiyyətinə təzyiq göstərmək məqsədilə törədirlər.

Terrorun qurbanı hər kəs ola bilər, hətta terror aktına səbəb olmuş, münaqişəyə heç bir aidiyyəti olmayan şəxslər də terrorla rastlaşa bilərlər.

Terrorizmin səviyyəsi və onun konkret təzahür formaları bir tərəfdən cəmiyyətin əxlaqi dəyərlərini, digər tərəfdən isə dövlətin terrorizmə qarşı gördüyü tədbirlərin effektivliyinin dərəcəsini göstərir.

Terror aktları ildən-ilə daha mütəşəkkil təşkil edilir, daha qəddar olur, ən başlıcası, müasir texnikadan, silahdan istifadə olunur. Terrorizm təşkilatlarının fəaliyyətini gizlətmək üçün firmalar, şirkətlər, banklar və fondlar sistemi fəaliyyət göstərir.

Tamamilə aydındır ki, bu təhlükəli problemlə mübarizə üçün dövlətlərin öz güclərini yüksək səviyyədə koordina etməsi, beynəlxalq təşkilatlar şəbəkəsi yaratması lazımdır. Həmçinin terrorizmlə mübarizə ilə bağlı effektli

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin "Ümumi cinayətkarlıga qarşı mübarizə" şöbəsinin 2013-cü ilin 1-ci yarım ili ərzində xidməti fəaliyyətinə dair hesabat arayışı, s. 19.

fəaliyyətin həyata keçirilməsi üçün onun vahid beynəlxalq hüquqi anlayışının, cinayətin bu növünün dəqiq xarakteristikasının hazırlanması vacibdir. Dünyanın aparıcı dövlətlərinin terrorizmə qarşı mübarizə ilə bağlı qəbul etdiyi qanunlar belə, terrorizmin nə dərəcədə təhlükəli, qorxulu bir hadisə olduğunu göstərir. ABŞ-dakı 2001-ci il 11 sentyabr hadisələrindən sonra hamıya aydın oldu ki, hətta dünyanın ən güclü olan dövləti belə, özünü terror təhlükəsindən qoruya bilmir.

Yuxarıda qeyd olunanlara əsasən, aşağıdakı faktları qeyd etmək yerinə düşər. Hələ İnterpolun Baş Assambleyasının 1951-ci ildə Lissabonda keçirilən sessiyasında “Beynəlxalq sorğuların verilməsi” adlı qətnaməsi, 1972-ci ildə Fransadakı sessiyasında “Girovlar və şantaj ”, 1979-cü ildə Nayrobidə keçirilən sessiyada “Mütəşəkkil qruplar tərəfindən təcavüz aktının törədilməsi”, 1981-ci ildə Nitsşe şəhərində keçirilən iclasında “Partlayıcıların maskalanması” adlı qətnaməsi qəbul olunmuş və bu problemə qarşı mübarizənin daha sərt xarakter almasının zəruriliyi bildirilmişdir. İnterpolun Baş Assambleyasının 1983-cü il oktyabrın 18-25 də Fransanın Kann şəhərində keçirilmiş geniş iclasında “Terrorçuluq” adlı qətnaməsi qəbul olundu. Bu sənədlə dünyanın bir çox ölkələrində geniş miqyaslı cinayət aktlarının mütəşəkkil qruplar tərəfindən törədilməsinin intensivləşdirilməsi qərara alındı ki, qeyd olunan bu dəstələr insan həyatına və sağlamlığına qarşı hücumlar, uşaq oğurluğu, girov götürmə, mülki aviasiyaya qarşı qeyri-qanuni müdaxilə cəmiyyətə və şəxsiyyətə qarşı ciddi təhlükə yaratdığı üçün qeyri-şərtsiz məhv edilməlidir.

İştirakçı dövlətlər “Terrorizmin qarşısının alınması üzrə” Avropa konvensiyası, “Terror aktlarının aşkar edilməsi və cəzalandırılması” üzrə Amerika dövlətləri konvensiyası və Ərəb Ölkələri Liqasının “Təhvilvermə” haqqında konvensiyasından irəli gələn öhdəliklərə də həmrəyliklərini bildirərək, İnterpolun MMB-ləri ilə sıx əməkdaşlıq çərçivəsində terrorizmlə daima mübarizə aparacaqlarını bəyan etdilər.

İnterpol 1985-ci ildən başlayaraq MMB-lərin ekspert xidmətlərinin, Beynəlxalq informasiya və İnterpolun rabitə şəbəkəsinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində bir çox nailiyyətlər qazandı. Bundan başqa, beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlığın genişləndirilməsinə və gücləndirilməsinə kömək məqsədilə, xüsusi təyinatlı polis dəstəsinin nəzdində əlavə qrupların yaradılması nəzərdə tutuldu.

İnterpolun Baş Assambleyasının 1998-ci ilin oktyabrında Qahirədə keçirilən sessiyasında “Terrorizmlə mübarizə” haqqında Qahirə bəyannaməsi qəbul olundu. Bəyannamədə terrorizmlə mübarizəni gücləndirmək üçün birgə beynəlxalq əməkdaşlığın səmərəliyini artırmağın vacibliyini bir daha təsdiqləndi.

Qeyd etmək lazımdır ki, son zamanlar geniş vüsət alaraq dünyada təh-

lükəsizliyə və sabitliyə, həmçinin demokratiyaya, insan hüquqları və qanunun aliliyinə təhlükə olan terror aktlarının qarşısının alınması məqsədilə, əməkdaşlığın zəruriliyi, onun prosedur qaydalarının yerinə yetirilməsi böyük əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd edildiyi kimi, İnterpolun beynəlxalq terrorizmlə mübarizəyə cəlb olunması 1985-ci ildə İnterpolun Baş Assambleyasının Vaşinqtonda keçirilən iclası zamanı qəbul olunmuş qətnamədən sonra daha geniş vüsət almışdır. Qətnaməyə uyğun olaraq yaradılan İctimai Təhlükəsizlik və Terrorizmlə mübarizə üzrə Direktorluq terrorizm, odlu silahlar və partlayıcı maddələr, mülki aviasiyaya qarşı hədələr və hücumlar, dəniz piratçılığı, kütləvi qırğın silahları və s. məsələlər mübarizə aparmağa başladı. Direktorluq həmçinin terrorizmə qarşı mübarizədə İnterpolun digər təşkilatlarla əlaqəsini tənzimləyir.

İnterpola üzv olan ölkələr terrorizmin aşkar edilməsi, qarşısının alınması və ləğv edilməsi məqsədilə, birgə tədbirlər planının hazırlanmasına həsr edilmiş beynəlxalq konfransın BMT-nin rəhbərliyi altında çağrılmasını dəstəkləyir, bu dövlətlər arasında xüsusi təhlükəli cinayətlərin təhvil verilməsinə və terrorizmə qarşı birgə mübarizənin aparılmasına maneçilik törədən amillərin aradan qaldırılması məqsədilə informasiya mübadiləsi və əməkdaşlığın digər formalarının inkişaf etdirilməsinə çalışır, bu strategiyanın daha da uzunmüddətli olmasını ən vacib şərtlərdən biri sayır.

2000-ci ildə İnterpolun bəyanat verdiyi sənəddə qeyd olunur ki, ictimaiyyətdə və ya müəyyən qruplar arasında siyasi məqsədlərlə terror aksiyalarının yaradılmasına, siyasi, fəlsəfi, ideoloji, irqi, dini və etnik mövqeyindən asılı olmayaraq, bəraət qazandırıla bilməz. Eyni zamanda İnterpol bütün dövlətləri terrorizmə, kimlər tərəfindən və harada törədilməsindən asılı olmayaraq, hər hansı iqtisadi, mənəvi və siyasi dəstəyin verilməsindən çəkindirməyə çalışırdı. Həmçinin informasiya mübadiləsi üçün İnterpoldan ötürücü vasitə kimi istifadə edilməsi tövsiyə olunurdu.

İnterpolla yanaşı, terrorizmə qarşı mübarizədə regional modellər kimi, kriminal nəzarət təşkilatlarının da adını çəkmək olar. Bu qurumlar regional təşkilatlara daxil olan dövlətlərin polis orqanları arasında müqavilələr əsasında yaradılır və bu təşkilatların mübarizə hədəfində beynəlxalq terrorizmə qarşı mübarizə ilk yerlərdən birini tutur. Bu təşkilatlara AB ölkələrinin polis təşkilatı olan Avropol, ASEAH ölkələrinin regional polis təşkilatı ACEANPOİ, Amerika Dövlətləri Təşkilatı çərçivəsində yaradılan CİCAD təşkilatı, Şengen müqaviləsinə daxil olan ölkələrin polis təşkilatı, Şengen-MDB ölkələrinin polis əməkdaşlığı, Baltik ölkələrin polis təşkilatı və s. daxildir.[1]

[1] Fərzəliyev N. İnterpol terrorla savaşda // Mübariz keşikdə, 2013, 13 aprel, №14(2779).

Bütün dünyanı sarsıdan terrorla dəfələrlə ziyan çəkmiş bir dövlət kimi, Azərbaycanda bu növ cinayətlərə qarşı aparılan mübarizə tədbirlərini daha ətraflı qeyd etmək üçün tarixə nəzər salaq.

Azərbaycan Respublikası da terrorizmin acısını yaşayan dövlətdir. XX əsrin əvvəllərində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı kütləvi terror hadisələri törədilib. Bu terror nəticəsində yüzlərlə yaşayış məskənləri tamamilə yandırılıb, dağıdılıb, onminlərlə insan həlak olub. I erməni terror dövrü Azərbaycan üçün ağır nəticələrə səbəb olub və əhəmiyyətli dərəcədə Azərbaycan əraziləri ermənilər tərəfindən işğal olunub. 1922-ci ildə SSRİ-nin tərkibinə qatılmış Azərbaycana qarşı növbəti terror "yuxarıdan" başlayıb. 1937-ci ildən başlayaraq Stalin hakimiyyəti Azərbaycan xalqını dəhşətli terrora məruz qoyub. Minlərlə ziyalı, ictimai xadim repressiyalara məruz qalmış, həbs olunaraq bir neçə dəqiqə çəkən məhkəmə proseslərində ən yüksək cəzalara məhkum olunaraq güllələnmiş və ya yaşayış üçün xarakterik olmayan uzaq ərazilərə göndərilmişlər. 1948-1953-cü illərdə Azərbaycan xalqı növbəti dəfə terrorun acısını yaşadı. 1947-ci il dekabr ayının 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSRİ-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında 4083 saylı qərar verdi. Ermənilərin təkidi ilə verilən bu qərarlar köçürülən azərbaycanlılar üçün ağır nəticələrə səbəb olub, köçürmə prosesi zamanı minlərlə insan məqsədli şəkildə məhv edilib.[1]

III erməni terror dövrünün də əsas hədəfi Azərbaycan olmuşdur. 1988-ci ildə ermənilərin separatçı maraqlarının nəticəsi kimi başlamış Dağlıq Qarabağ münaqişəsində ermənilər tərəfindən Azərbaycana qarşı dəhşətli terror aktları törədilmişdir. Rəsmi sənədlərdən aydın olur ki, Azərbaycan vətəndaşlarına qarşı törədilən 32 terror aktı nəticəsində əksəriyyətin qadınlar və uşaqlar təşkil etdiyi 200-ə yaxın insan həyatını itirmişdir. Bundan başqa, bir neçə dövlət rəsmisi, ölkədə fəaliyyət göstərən bir neçə separatçı qrup tərəfindən müxtəlif formada terror aktları törədilmiş və terror aktına cəhd göstərilmişdir. Həmçinin ölkənin hüquq-mühafizə orqanları tərəfindən bir sıra təhlükəli terror qrupları və terror təşkilatlarının özəkləri aşkar edilərək zərərsizləşdirilmişdir.

Azərbaycana qarşı törədilən erməni zorakılığının ən qanlı səhifələrindən biri də Xocalı şəhərində həyata keçirilən soyqırımıdır. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə, SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının köməyindən istifadə etməklə, erməni terror birləşmələri Xocalı şəhərində XX əsrdə ən dəhşətli faciələrdən biri olan Xocalı faciəsini törətdilər. Müxtəlif terrorçu birləşmələrin xaricdən gətirilən muzdlu döyüşçülərin

[1]Севдималыев Р.М. Международный терроризм глобальная проблема современности. Баку, 2004, с. 75-157.

və erməni ordusunun şəhərdə həyata keçirdiyi soyqırımı nəticəsində 313 nəfər öldürülmüşdür. Bunlardan 56 nəfəri xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Faciədə 26 ailə tam məhv edilmiş, 230 ailə öz başçısını itirmiş, 1275 nəfər girov götürülmüşdür. Yuxarıda göstərilən faktları nəzərə alaraq qətiyyətlə söyləmək olar ki, Ermənistanda terrorizm yüksək idarəetmə səviyyəsində qəbul edilir və bunu özünün ayrılmaz siyasi fəaliyyət forması kimi, istər öz dövlətinin daxilində, istərsə də xaricdə sürdürür.[1]

Azərbaycan Respublikasının beynəlxalq terrorizmlə, ümumiyyətlə terrorizmlə mübarizə sahəsində atdığı addımlar çox önəmlidir. "Terrorizmə qarşı mübarizə haqqında" xüsusi qanunlar qəbul edilməsi, cinayət məcəlləsində terrorizmin ayrı-ayrı təzahür formalarının konkret cinayət kimi göstərilməsi, bu sahədə qəbul edilən beynəlxalq sazişlərin ratifikasiya edilməsi müxtəlif beynəlxalq təşkilatlarda bu istiqamətdə fəaliyyət göstərməsi Azərbaycan Respublikasının beynəlxalq terrorizmlə mübarizədə milli təcrübənin inkişaf etdirilməsinə şərait yaradır.

Müasir dövrdə terrorizmə qarşı mübarizənin ən effektli yolu dövlətlər arasında antiterrorizm siyasətinin uzlaşdırılması və bu sahədə əməkdaşlığın genişləndirilməsidir. Bura beynəlxalq və regional təşkilatlar səviyyəsində əməkdaşlıq daxildir. Bu təşkilatlara BMT, ATƏT, İƏT, GUAM, türk dövlətləri birliyinin zirvə görüşlərini və s. aid etmək olar. 2 və daha çox dövlətlər arasında keçirilən rəsmi görüşlər və zirvə toplantıları və digər hallarda terrorizmə qarşı birgə mübarizə sahəsində imzalanmış sənədlər çərçivəsində əməkdaşlıq daxildir.[2]

SSRİ-nin dağılması və onun tərkibində olan respublikaların müstəqillik qazanmasından sonra, suveren hüquqların realizəsi kimi, dövlətlər müxtəlif beynəlxalq təşkilatlara üzv oldular. Belə Respublikalardan biri də Azərbaycan Respublikası və belə təşkilatlardan biri İnterpoldur. Cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlıq müstəqillik qazanmış respublikamız üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, respublikamızın xarici ölkələrlə əlaqələri genişləndiyindən, cinayət törətmiş şəxslərin gizlənmək imkanı xeyli artıb.

Azərbaycan keçmiş SSRİ-nin tərkibində olan respublikalarla bir çox sahələrdə, o cümlədən cinayətkarlıq və onun təhlükəli növlərindən olan terrorizmlə mübarizə sahəsində əməkdaşlıq edir. Bu respublikalar İnterpol çərçivəsində də əməkdaşlığını davam etdirirlər. İnterpolun bu respublikalardakı MMB-ləri arasında hər cür iş münasibətləri mövcuddur.

Qeyd edək ki, tez-tez respublikalardakı İnterpolun MMB-nin rəhbərlə-

[1] Севдималыев Р.М. Международный терроризм и политика правовые проблемы борьбы с ним. Баку, 2011, s. 341.
[2] Həsənov A. Beynəlxalq terrorizm. Bakı, 2003, s. 6.

rinin görüşü keçirilir. 1997-ci il fevral ayının 16-da R.Kendal ulu öndər Heydər Əliyevlə görüşdü. H.Əliyev R.Kendalın rəhbərlik etdiyi beynəlxalq təşkilatın dünyada, o cümlədən Azərbaycanda məşhur olduğunu nəzərə çatdırmış, bu təşkilatla ölkəmizin əlaqələrindən razılıqla danışmışdır. İnterpolun gördüyü işlərə hər bir ölkənin ehtiyacı olduğunu vurğulayan respublika rəhbəri, bir çox məsələlər barədə R.Kendalla fikir mübadiləsi aparılmasının vacibliyini vurğulamışdır. İnterpolun Azərbaycanla sıx əlaqələrindən məmnun qaldığını söyləyən R.Kendal, MDB dövlətlərinin hüquq-mühafizə orqanlarının bir-biri ilə qarşılıqlı surətdə faydalı münasibətlərindən razılıqla söhbət açaraq demişdir ki, kriminogen vəziyyətə qarşı birgə mübarizə aparmaq çox vacibdir. MDB ölkələrinin hüquq-mühafizə orqanlarının iş birliyi gələcəkdə beynəlxalq aləm üçün də xüsusi əhəmiyyət kəsb edəcəkdir. Heydər Əliyev beynəlxalq cinayətkarlığa qarşı mübarizə işinin daha da gücləndirilməsi məqsədi ilə, Azərbaycanın İnterpolla əməkdaşlığının daha da genişlənməsinin vacibliyini vurğulamış, bir sıra sahələrdə İnterpolla sıx əlaqələr qurulmasına Azərbaycanın xüsusi əhəmiyyət verdiyini nəzərə çatdırmış, beynəlxalq terrorizmin qarşısını almaq üçün belə əməkdaşlığın çox faydalılığını bildirmişdir. MMB-yə daxil olan bir sıra ölkələrdə beynəlxalq terrorizmin genişləndiyini vurğulayan Heydər Əliyev bildirmişdir ki, terroristlər bu cinayətləri edərkən çox vaxt başqa ölkələrdəki imkanlardan da istifadə edirlər, yaxud cinayət törətdikdən sonra başqa ölkələrə qaçırlar və belə halların, xüsusən silah alverinin qarşısının alınması çox vacibdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq aləmə göstərdiyi təsirdən söz açan R.Kendal münaqişənin aradan qaldırılmasına İnterpolun da maraq göstərdiyini vurğulamış və həmçinin İnterpol əməkdaşlarının Azərbaycanla əlaqələrindən çox razı qaldığını bildirmişdir.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyət göstərdiyi 20 ildən artıq müddətdir ki, beynəlxalq terrorizmə qarşı mübarizə aparmaq üçün bütün imkanlar səfərbər edilir.

Aşağıdakı faktlara nəzər yetirək. 21 fevral 1997-ci il tarixində saat $18^{\underline{10}}$ radələrində Azərbaycan Respublikasının görkəmli dövlət və ictimai xadimi, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının sədr müavini, Sovet İttifaqı Qəhrəmanı, AMEA-nın vitse-prezidenti, akademik Ziya Musa oğlu Bünyadovun soyuq və odlu silahla qətlə yetirilməsilə bağlı Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının Daxili İşlər və hüquq-mühafizə orqanlarının apardığı uğurlu əməliyyat-axtarış fəaliyyəti nəticəsində, 2001-ci il fevral ayının 16-da Azərbaycan Respublikasının Ağır Cinayətlərə Dair İşlər üzrə məhkəmədə Ənvər Seyidovun sədrliyi ilə, "Hizbul-

---

[1] Krimnogen vəziyyətə qarşı mübarizə çox vacibdir. Azər.tac // Xalq qəzeti, 1997, 18 fevral, №34 (22430).

lah" terror təşkilatının üzvləri olan qatillərə hökm oxundu. Cəzanı ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə müqəssir R.Məmmədovla Q.Abbasov 10 il, müqəssir M.Əliyev 11 il, müqəssir X.Cabbarov 12 il, R.Həsənov 14 il azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırıldılar. Əsas müqəssir M.Zeynalov isə ən ağır cəzaya – ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edildi.[1]

30 aprel 2009-cu il tarixdə Azərbaycan Dövlət Neft Akademiyasında F.Qədirovun törətdiyi terror cinayətinin sifarişçisi milliyyətcə erməni (Qumaşyan) olması müəyyən olunmuş, barəsindəki olan materiallar onun tutulması üçün MMB-yə göndərilmişdir.

Tarixi faktlar göstərir ki, "dənizdən-dənizə Ermənistan" xülyası ilə yaşayan erməni ideoloqları müəyyən xarici havadarların köməyi ilə, müxtəlif vaxtlarda azərbaycanlılara və türklərə qarşı terror və soyqırımı həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasətinin nəticəsini bütövlükdə 2 milyon azərbaycanlı öz üzərində hiss etmişdir. XX əsrin sonlarına doğru yenidən torpaq iddiası ilə çıxış edən Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal edilmiş, 20 mindən çox vətəndaşımız qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. İşğal nəticəsində Azərbaycanın 900-dən artıq yaşayış məskəni talan edilmiş, yandırılmış və dağıdılmışdır. Həmçinin yaşayış sahəsi 9 milyon kv km-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 4366 sosial mədəni obyekt, eyni zamanda 695 tibb məntəqəsi məhv edilmişdir. İşğal olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və telekommunikasiya xidmətləri tamamilə aradan çıxarılmışdır.[2]

Azərbaycan Respublikasının Baş Prokurorluğunda cinayət məcəlləsinin 103-cü (soyqırımı) və əhalini deportasiya etmə və ya məcburi köçürmə (107) maddələri ilə cinayət işinin istintaqı aparılır. İstintaq zamanı 280-ə yaxın erməni və rus millətindən olan şəxslərin təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunması barədə həbs qətimkan tədbiri seçilmiş və onların barəsində olan materiallar, onların yoxlanılıb istintaqa cəlb olunması üçün MMB-yə göndərilmişdir.[3]

Azərbaycana qarşı siyasi-hərbi təxribatların, terrorun, iqtisadi dağıntıların təşkilatçısı olan Ermənistan Respublikasının keçmiş prezidentləri L.Ter-Petrosyan, R.Koçaryan, S.Sarkisyan və eləcə də, Bakı Metropoliteni-

---

[1] Ağaqızı Z. Ziya Bünyadovun qatilinin dediyinə görə, bizi İrana məcburi apardılar // Mübariz keşikdə, 2001, 15 fevral, №7 (2517).

[2] Hacalıyev E. İnsanlığa və bəşəriyyətə qarşı yönəlmiş amansız cinayət // Azərbaycan, 2012, 12 fevral, №34(6015).

[3] Hacıyev E., Baxşəliyev R. Azərbaycanda insanlığa qarşı yönəlmiş dəhşətli cinayət // Azərbaycan, 2012, 21 fevral, №41(6022).

nin partladılması nəticəsində çoxsaylı insan qırğınına səbəb olmuş hadisəyə bilavasitə rəhbərlik etmiş, Xocalı faciəsini törədənlərdən biri olmuş Z.Balayanın tutulub ədalət məhkəməsinə verilməsi üçün MMB tərəfindən 170 ölkəyə axtarış elan edilmişdir. Lakin İnterpolun Baş Katibliyi tərəfindən həmin axtarış işi dayandırılmışdır. İnterpolun Nizamnaməsinin 3-cü bəndi əsas gətirilmişdir. Aparılan tədbirlərə baxmayaraq, onların məsuliyyətə cəlb edilməməsi bu sahədə ikili standartlarla yanaşmanın mövcud olduğunu göstərir.

22-26 may 2000-ci il tarixində Türkiyədə İnterpolun MMB-si tərəfindən təşkil olunan və Ankarada keçirilən “Terrorizmə, silah və narkotiklərin qaçaqmalçılığına qarşı mübarizənin gücləndirilməsi”nə dair 4-cü İnterpol kursunda MMB-nin əməkdaşları iştirak etmişdilər.

Azərbaycan Respublikasında İnterpolun MMB-si 2000-ci ildə tarixi ARMT və DİN-in 215492 və 1/69m saylı 03/11/1999-cu il tarixli birgə hazırlanmış “Terrorizmə qarşı mübarizənin gücləndirilməsinə dair tədbirlər planı” na uyğun olaraq müəyyən işlər görmüşdür.

Rusiya Federasiyasının ayrı-ayrı bölgələrində 1996-1999-cu illər ərzində müxtəlif terror aktları, banditizm, adamların girov götürülməsi və s. üzrə ağır cinayətlər törətmiş 84 şəxs, Özbəkistan Respublikasında 1999-cu ilin fevral ayında baş vermiş terror-diversiya aktları ilə bağlı 59 şəxs barədə axtarış tapşırıqları daxil olmuşdur. Həmin 143 şəxs barədə lazımi məlumatlar DİN-in Baş Cinayət Axtarış İdarəsinə və Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə, eləcə də MTN-ə göndərilmişdir. Bundan başqa, xarici ölkələrdə baş vermiş terror hadisələri zamanı istifadə olunan partlayıcı maddə, qurğu, silah, sahə üzrə İnterpolun Baş Katibliyi tərəfindən yayımlanan digər informasiyalar məlumat üçün aidiyyəti üzrə hər iki nazirliyə göndərilmişdir.

“AL-SAMA AL-İSLAMİYYA” terror təşkilatlarından birinin rəhbəri olan, Lüksa şəhərində məscidin partladılması və 63 nəfərin ölümü ilə nəticələnən terror aktının təşkilində şübhəli bilinən H.Mustafanın axtarışı ilə bağlı, İnterpolun Berndə MMB-dən daxil olmuş məlumat dərhal DİN-in BCAİ-yə, MCMİ-yə və MTN-ə göndərilmişdir.

4 sentyabr 2000-ci il tarixində Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində RF CM-nin 205-ci (terrorçuluq) və bir sıra digər maddələri ilə İnterpolda axtarışda olan H.Batırov həbs edilmiş və müvafiq qayda əsasında RF hüquq-mühafizə orqanlarına təhvil verilmişdir.

Bundan başqa, Azərbaycan ərazisində terror və diversiya aktları törətmiş 7 nəfər (Z.Balayan, K.Baqdasaryan, E.Allahverdiyev, E.Qolayan, B.Si-

monyan, Y.Ağanisyan) barədə əməliyyat-axtarış tədbirləri görülmüşdür.[1]

11 sentyabr 2001-ci il tarixdə ABŞ-da törədilmiş və çoxsaylı insan tələfatı ilə nəticələnmiş terror aktı ilə bağlı İnterpolun Baş Katibliyində "11 sentyabr" adlı xüsusi qrup yaradılmış və həmin qrup tərəfindən məlumat mübadiləsinin operativliyini yoxlamaq məqsədilə 17 sentyabr tarixdə bütün MMB-lərə müraciət olunmuş təcili cavab vermələri üçün sınaq sorğuları göndərilmişdir. İnterpolun MMB-dən 178-dən yalnız 66-sı, o cümlədən Azərbaycan Respublikasında İnterpolun MMB-si bu sorğulara vaxtında cavab vermişdir.

İnterpolun Baş Assambleyasının Budapeşt şəhərində keçirilən 70-ci sessiyasında "Terrorçuluqla və digər ictimai təhlükəli cinayətlərlə mübarizənin gücləndirilməsi tədbirlərinə dair" 15 sentyabr 2001-ci il tarixli 46/xiü bağlı göstərişi geniş müzakirə edilmişdi.

AR DİN-in "Terrorçuluğa və digər ictimai təhlükəli cinayətlərlə mübarizənin gücləndirilməsi tədbirlərinə dair" 15 sentyabr 2001-ci il tarixli 86/xiü saylı göstərişində və Azərbaycan Respublikasının Şimal və Şimal Qərb bölgələrində kriminogen durumun gərginləşməsinə təsir edən terrorçuluq aktları, dini radikalizm təzahürləri və digər hüquqa zidd əməllərlə mübarizə üzrə tədbirlər planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi istiqamətində müəyyən işlər görülmüş, bu barədə ümumiləşdirilmiş arayış tərtib edilərək DİN-in Baş Təşkilati İnspektor İdarəsinə təqdim edilmişdir.

2002-ci il tarixi dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən daxil olmuş, oğurlanmış, aşkar olunmuş və müsadirə edilmiş 97 ədəd tapança, 4 ədəd avtomat silah və 17 ədəd müxtəlif növ və kalibrli tüfəng barədə 45 sorğudakı məlumat müvafiq xidmətlərin qeydiyyatlarından yoxlanılmış, uçota salınmış və nəticələri barədə təşəbbüskarlara məlumat verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il tarixli 920 saylı sərəncamı ilə təsdiq olunmuş "BMT-nin TŞ-nin 1368 saylı 12 sentyabr 2001-ci il tarixli, 1373 saylı 28 sentyabr 2001-ci il tarixli və 1377 saylı 12 noyabr 2001-ci tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planına" uyğun olaraq, RF-nin ayrı-ayrı bölgələrində illər müxtəlif terror aktları, banditizm, adamların girov götürülməsi və digər ağır cinayətlər törətmiş şəxslər barədə daxil olmuş yeni axtarış tapşırıqları MMB-nin məlumat bazasına salınmış, xarici ölkələrdə baş vermiş terror hadisələri zamanı istifadə olunan partlayıcı maddə, qurğu, silah, üsul və bu sahə üzrə İnterpolun Baş Katibliyi və İnterpolun üzvü olan ölkələr tərəfindən yayımlanan digər məlumatlar aidiyyəti üzrə respublikanın hüquq-mühafizə orqanlarına göndərilmişdir.

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati analitik şöbəsinin 2000-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 2, 3.

(buradan)İnterpolun Baş Katibliyindən daxil olmuş sorğuda, "DECOV" layihəsi çərçivəsində, respublikanın ərazisində aşkar olunmuş müxtəlif əşyalar şəklində qablaşdırılmış gizli silah və partlayıcı qurğular barədə məlumat verilməsi xahiş olunurdu. Buna cavab olaraq (Qondarma DQMR) işğal olunmuş ərazilərimizdə erməni faşistləri tərəfindən su borusu, metal əşya və konserv bankası şəklində qablaşdırılmış gizli partlayıcı qurğular barədə məlumatlar Baş Katibliyə göndərilmişdir.

Qahirədə İnterpolun MMB-nə daxil olmuş məlumatda bir neçə prezidentin həyatına sui-qəsd cəhd edən, bir sıra tanınmış şəxsləri qətlə yetirən və müxtəlif terror aktları törədən, 1935-ci ildən fəaliyyətdə olan "Əl-Əkvan" və "Təkvir Vəl Hicrə" qruplaşmaları barədə ətraflı informasiya verilmişdir. Bununla əlaqədar olaraq, AR MTN ilə əlaqə saxlanılmış və onun üçün maraq kəsb etdiyindən, bu qurumun müvafiq xidmətlərinə təqdim olunmuşdur. 11 sentyabr 2001-ci il tarixdə ABŞ-da törədilmiş, çoxsaylı insan tələbatı ilə nəticələnmiş terror aktı ilə bağlı İnterpolun Baş Katibliyindən, ABŞ-dan və İnterpolun üzvü olan digər ölkələrdən şübhəli şəxslərin müəyyən olunması ilə bağlı daxil olmuş yeni sorğular respublikanın hüquq-mühafizə orqanlarına göndərilmişdir.

Bundan başqa, MMB-nin 2002-ci il hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında, terror aktları törətməkdə şübhəli bilinən 185 şəxs barədə təqsirləndirici materialların olub-olmaması müvafiq uçotlardan yoxlanılmış, nəticələri barədə təşəbbüskarlara məlumat verilmişdir.[1]

2002-ci il üçün daha bir faktı qeyd edək. 2002-ci il yanvar ayının 29-30-da Belarusiya Respublikasının Minsk şəhərində "Terrorizmə qarşı mübarizə" ilə bağlı keçirilən tədbirdə MDB-yə üzv olan ölkələrin Baş Prokurorluqlarının Əlaqələndirmə Şurası, Təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri, Sərhəd Qoşunları komandanları, AR DİN-nin nümayəndə heyəti iştirak etmişlər.[2]

2003-cü il tarixi dövründə Azərbaycan Respublikasında İnterpolun MMB-nə İnterpolun Baş Katibliyindən və İnterpolun üzvü olan digər ölkələrdən terrorçu qruplar, terror aksiyalarında istifadə olunan xüsusi partlayıcı qurğular və silah kimi istifadə oluna biləcək müxtəlif əşyalar və s. ilə bağlı sorğular daxil olmuş, müvafiq tədbirlər görülməsi üçün MTN-ə, "AZAL" hava yolları dövlət konserninə və digər müvafiq orqanlara göndərilmişdir. Görülən işlər barədə ümumiləşdirilmiş hesabat arayışları tərtib edilərək DİN-in Baş Təşkilati İnspektor İdarəsinə təqdim olunmuşdur.

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati analitik şöbəsinin 2002-ci il üçün xidməti fəaliyyətinə dair arayışı, s.4.

[2] DİN-in mətbuat xidməti. Terrorizmə qarşı mübarizə Azərbaycanın dəyişməz mövqeyidir // Mübariz keşikdə, 2002, 7 fevral, №(2215).

2003-cü il noyabr ayının 19-dan 25-dək ABŞ-ın Nyu-York şəhərində İnterpolun Baş Katibliyi və Nyu-York şəhər Polis Departamenti tərəfindən təşkil olunan terrorizmlə bağlı konfransda MMB-nin Mühüm işlər üzrə baş inspektoru, polis mayoru F.Axundov iştirak etmişdir.

2003-cü ildə İnterpolun üzvü olan ölkələrdən daxil olmuş, oğurlanmış, aşkar olunmuş və müsadirə edilmiş 6 ədəd tapança, 26 ədəd avtomat silah və 30 ədəd müxtəlif növ və kalibrli tüfəng barədə sorğulardakı məlumat uçota salınmış, mövcud xidmətlərin qeydiyyatlarından yoxlanılmış və nəticələri barədə təşəbbüskara bildirilmişdir.

İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında terror aktları törətməkdə şübhəli bilinən 48 sənəd barədə təqsirləndirici materialların olub-olmaması müvafiq uçotlardan yoxlanılmış nəticələri barədə təşəbbüskarlara məlumat verilmişdir.[1]

Daha sonra Azərbaycan Respublikasında İnterpolun MMB-nun 2004-cü il tarixində fəaliyyət sahələrindən biri olan terrorizmə qarşı mübarizə ilə əlaqədar fəaliyyətini qeyd edək.

Azərbaycan Respublikası Prezidentinin 11/05/2002-ci il tarixli 920 №-li sərəncamı ilə, BMT Təhlükəsizlik Şurasının 12/09/2001-ci il tarixli 1368 №-li, 25/09/2001-ci il tarixli 1373 №-li və 12/11/2001-ci il tarixli 1377 №-li qətnaməsinin yerinə yetirilməsinə dair Tədbirlər planına, Azərbaycan Respublikası DİN-in “Terrorçuluq və digər ictimai təhlükəli cinayətlərlə mübarizənin gücləndirilməsinə dair” 15/09/2001-ci il tarixli 49 №-li göstərişə və 23/08/2001-ci il tarixdə təsdiq edilmiş “Azərbaycan Respublikasının şimal və şimal-qərb bölgələrində kriminogen durumun gərginləşməsinə təsir edən terrorçuluq aksiyaları, dini radikalizm təzahürləri və digər hüquqazidd əməllərlə mübarizə üzrə Tədbirlər planı”na müvafiq olaraq görülən işlər barədə arayışlar 5/04/2001-ci il tarixli 20/09 №li, 6/04/2004-cü il tarixli, 20/13/08 nömrəli 10/07/2004-cü il tarixli 20/27/42 №-li və 28/12/2004-cü il tarixli 20/5199 məktubları DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur.

23-25 mart 2004-cü il tarixdə Fransanın Lion şəhərində keçirilən “Müharibə cinayətləri, soyqırımı və insanlıq əleyhinə cinayətlər üzrə ekspertlərin 1-ci görüş”ündə Azərbaycan Respublikasının nümayəndə heyəti və polis mayoru F.Axundov iştirak etmişdir.

24/02/2004-cü il tarixində İnterpolun Baş Katibliyi tərəfindən İnterpolun üzvü olan hüquq-mühafizə orqanlarını, ictimai, beynəlxalq və digər təşkilatları, yeri, törədilmiş terror aktının təşkilatı, şübhəli şəxslər, maskalan-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati analitik şöbəsinin 2003-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s. 4-10.

mış silahdan, poçt bombalarından və digər əşyalardan istifadə etməklə mümkün terror təhlükəsi barədə olan məlumatlarla xəbərdarlıq etmək məqsədilə, narıncı istiqamətləndirmə nəşr olunması haqqında qərar qəbul olunmuşdur. Bununla bağlı, tərəfimizdən AR MTN-ə müraciət olunaraq, belə məlumatlar olduğu təqdirdə MMB-yə təqdim olunması xahiş olunmuşdur.

İnterpolun Baş Katibliyindən daxil olmuş “Liviya” terrorçu qrupunun, xüsusi ilə də Əl-səma at əl Moqatila terrorçu qrupunun üzvü olmaqla və terror fəaliyyəti ilə məşğul olmaqla 130 nəfərdən ibarət siyahı üzv olan ölkələrin ərazisində tutulmuş, barələrində qırmızı istiqamətləndirmə olan 866 nəfər terrorçu və digər 17 terrorçu haqqında məlumat əməli istifadə üçün AR MT-ə göndərilmişdir.

AR DİN-in nəzarətində olan ÇXR-in Azərbaycandakı səfirliyindən daxil olmuş məlumatla əlaqədar “Şərqi Türküstan Azadlıq Təşkilatı”nın rəhbəri, 1950-ci ildə ÇXR-də anadan olmuş Muhammetemin Hazrev, “Əl Qaidə” təşkilatının filialının rəhbəri Ali Heydar və digər terrorçu şəxslər barədə İnterpolun Baş Katibliyinə, Ankarada, Astanada və Tehranda İnterpolun MMB-lərinə müvafiq sorğular göndərilmişdir. İnterpolun Baş Katibliyinə müraciət olunaraq, respublikanın təlimatlandırılması məqsədilə, barələrində qırmızı istiqamətləndirilmə buraxılmış, beynəlxalq axtarışa elan olunan 922 nəfər, xüsusilə təhlükəli terrorçuların əldə olunmuş siyahısı müvafiq tədbirlərin görülməsi məqsədilə, AR DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə, Baş Əməliyyat Statistika İnformasiya İdarəsinə və Baş Cinayət Axtarış İdarəsinə, AR MTN-ə və Dövlət Sərhəd Xidmətinə göndərilmişdir. Daxil olmuş sənədlə əlaqədar daha ətraflı məlumat almaq məqsədilə, Azərbaycanda İnterpolun MMB-nin sabiq rəisi general-polkovnik cənab Mədət Quliyev ÇXR-in Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Çjan Siyun ilə görüşmüşdür. Görüş zamanı əldə olunmuş faydalı məlumatla bağlı müvafiq tədbirlər həyata keçirilmişdir.

Bundan əlavə İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında terror aktları törətməkdə şübhəli bilinən 27 şəxs barədə təqsirləndirici materialların olub-olmaması müvafiq uçotlardan yoxlanılmış, nəticələri barədə təşəbbüskara məlumat verilmişdir.[1]

2005-ci ilin hesabat dövrü ərzində MMB-nin əməkdaşları Azərbaycan Respublikası Prezidentinin 11.05.2002-ci il tarixli 920 №-li sərəncamı ilə BMT-nin Təhlükəsizlik Şurasının 12/09/2001-ci il tarixli 1368 №-li, 28/09/2001-ci il tarixli 1373 №-li, 12/11/2001-ci il tarixli 1377 №-li qətnamələrinin yerinə yetirilməsinə dair tədbirlər planının, AR DİN-in “Terrorçuluq və digər ictimai təhlükəli cinayətkarlıqla mübarizənin gücləndirilməsinə

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analtik şöbəsinin 2004-cü il üçün xidməti fəaliyyətinə dair arayışı, s. 2,4,10,11.

dair" 15/09/2001-ci il tarixli 46 №-li göstərişinə və 23/08/2001-ci il tarixdə təsdiq edilmiş "Azərbaycan Respublikasının Şimal və Şimal-Qərb bölgələrində kriminogen durumların genişlənməsinə təsir edən terrorçuluq aksiyaları, dini radikalizm təzahürləri və digər hüquqazidd əməllərlə mübarizə üçün tədbirlər planı"na müvafiq olaraq görülmüş işlər barədə arayışlar, 28/12/2004-cü il tarixli 20/5199 №-li, 31/03/2005-ci il tarixli 20/1396 №-li, 08/07/2005-ci il tarixli 20/3054 №-li və 07/10/2005-ci il tarixli 20/4740 №-li məktublarla DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur.

2005-ci il tarixi dövründə cinayətkarlıqla mübarizədə dünya dövlətlərinin qabaqcıl təcrübəsinin öyrənilməsi və müvafiq məlumatların respublikanın hüquq-mühafizə orqanlarına təqdim olunması istiqamətində fəaliyyət davam etdirilmişdir.

Transmilli cinayətkarlıq və terrorçuluqla mübarizənin gücləndirilməsi və bu mübarizənin səmərəliliyinin artırılması məqsədilə, İnterpolun Baş Katibliyi tərəfindən üzv dövlətlərlə oğurlanmış və itirilmiş yol sənədləri ilə bağlı, məlumat bazasının yaradılması və bu bazanın mütəmadi olaraq İnterpolun Baş Katibliyinə ötürülməsi ilə bağlı, Baş Katibliyin özündə fəaliyyət göstərən məlumat bazasından istifadənin genişləndirilməsi tövsiyə olunmuşdur. Bu tövsiyə əsasında təkliflər hazırlanaraq DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur. DİN-in rəhbərliyinin göstərişi əsasında Baş Əməliyyat Statistika İdarəsi ilə birgə ilkin olaraq avtonəqliyyat vasitələrinin oğurlanmış və itirilmiş texniki pasportları və sürücülük vəsiqələri xüsusi EDİP01 formasında hazırlanaraq İnterpolun Baş Katibliyinə göndərilmişdir.

2005-ci ildə olan daha bir tarixi hadisəni qeyd edək. Martın 1-2-də İnterpolun mənzil qərargahının yerləşdiyi Fransanın Lion şəhərində Bio-terrorçuluqla mübarizə ilə bağlı Qlobal konfrans keçirilmişdir. Həmin konfransda Azərbaycanı polis general-mayoru cənab Mədət Quliyev və Dövlət Gömrük Komitəsinin "Qaçaqmalçılıq və Gömrük qaydalarının pozulması ilə mübarizə" Baş İdarəsinin rəis müavini, polkovnik A.Mikayılov təmsil etmişlər.

2005-ci il 20-21 aprel tarixində Qazaxıstan respublikasının Almatı şəhərində, İnterpol çərçivəsində, terrorçuluqla mübarizəyə həsr olunan "Kalkan" layihəsi üzrə işçi qrupunun 1-ci görüşü keçirilmişdir. Həmin görüşdə Azərbaycan Respublikasında İnterpolun Təşkilati-analitik şöbəsinin sabiq baş inspektoru H.Babayev iştirak etmişdir.

Bundan başqa, Türkiyə Respublikasının hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan, Konqra Gel /PKK terror təşkilatının üzvü, 1972-ci il təvəllüdlü Türkiyə vətəndaşı E.Pelitin yeri Naxçıvan Muxtar Respublikasın-

da müəyyən olunmuş və o, həbs olunaraq Türkiyə Respublikasına ekstradisiya olunmuşdur.

"Monitor" jurnalının redaktoru E.Hüseynovun qətlində istifadə olunmuş döyüş silahı qismində düzəldilmiş, Rusiyanın İjevsk şəhərində istehsal olunmuş "Baykal" tipli qaz tapançasının yoxlanılması ilə bağlı, 12/03/2005-ci il tarixdə AR MTN-dən daxil olmuş müraciətlə bağlı İnterpolun Baş Katibliyinə, təşkilatın üzvü olan ölkələrin MMB-nə sorğu göndərilmişdir. Sorğulara cavab olaraq, qaz tapançası ilə bağlı, Sofiyada İnterpolun MMB-nə daxil olmuş ətraflı məlumat təşəbbüskara bildirilmişdir.

Terrorçuluqla məşğul olduqlarına görə 78 nəfər şəxs barəsində Özbəkistanda İnterpolun MMB-dən daxil olmuş sorğular icra olunaraq, nəticələri barədə təşəbbüskara məlumat verilmişdir.

Şimali Qafqaz regionunda müxtəlif cinayətlər, o cümlədən terror aktları törətdiklərinə görə, olan Kabarda-Balkarın axtarışda olan 132 nəfər vətəndaş-terrorçu barədə RF-də İnterpolun MMB-dən daxil olmuş məlumat əsasında bu şəxslər Baş Əməliyyat Statistika İnformasiya İdarəsində MAP3 sistemi sərhəd nəzarətinə ildə qoyulmuş və onların barəsində DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə və MTN-in Antiterror mərkəzinə məlumat verilmişdir.

Türkiyə Respublikasının ərazisində müxtəlif terror aktları, silahlı basqınlar və digər ağır cinayətlər törətmiş "TKP-M1/TİKKO" "KP/İO-DGB" "DEL-SO1" və "DNK" terrorçu təşkilatların üzvü olan 20 nəfər barəsində Ankarada İnterpolun MMB-dən daxil olmuş məlumat DİN-in müvafiq xidmətlərinə və MTN-in Antiterror mərkəzinə bildirilmişdir.

AR DİN-in nəzdində olan ÇXR-in Azərbaycandakı səfirliyindən daxil olmuş məlumatla əlaqədar "Şərqi Türküstan Azadlıq Təşkilatı"nın rəhbəri, 1950-ci ildə ÇXR-də anadan olmuş Muhammetemin Hazret "Əl Qaidə" təşkilatının filialının rəhbəri Ali Hedar və digər terrorçu şəxslərlə barədə iş davam etdirilmişdir.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin sabiq rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik, DTX rəisi Mədət Quliyevin əmri ilə, büroda ətraf mühitə qarşı törədilən cinayətlərlə və bio terrorçuluqla mübarizə ilə bağlı, hər biri 3 nəfərdən ibarət 2 qrup yaradılmış və bu qruplara müvafiq məlumatların toplanması, təhlili, qruplaşdırılması və araşdırılması həvalə edilmişdir. Bundan əlavə, İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında terror aktları törətməkdə şübhəli bilinən 29 şəxs barəsində təqsirləndirici materialların olub-olmaması müvafiq uçotlardan yoxlanılmış, nəticələri barədə təşəbbüskara məlumat verilmişdir.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin təşəbbüsü ilə RF MTN tərəfindən zərərsizləşdirilmiş terror dəstəsinin üzvlərindən aşkar olu-

naraq götürülmüş partlayıcı qurğuların və sxemlərin fotoşəkilləri İnterpolun Baş Katibliyinə təqdim olunmuş və 16 dekabr 2005-ci il tarixdə Baş Katiblik tərəfindən nəşr olunaraq İnterpolun üzvü olan ölkələrə yayımlanmışdır.

Terrorçuluq fəaliyyəti ilə məşğul olmaqda və terror aktlarına hazırlıqda şübhəli bilinən 3 nəfər Niderland vətəndaşının yerinin müəyyən olunması ilə bağlı, birgə əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün Niderlandın terrorçuluqla mübarizə aparan qurumunun əməkdaşlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfər etməsi məqsədilə, Niderlandın Rusiya Federasiyasındakı səfirliyindən büromuza müvafiq sorğular daxil olmuşdur. Daxil olmuş sorğu MTN-ə təqdim olunmuş və razılıq alındıqdan sonra adı çəkilən nümayəndə heyəti respublikamıza səfər etmişdir[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2006-cı ildə daha bir tarixi hadisəyə ev sahibliyi etməsini qeyd etmək yerinə düşər. 1 fevral 2006-cı il tarixdə terrorizmə qarşı mübarizə məqsədi ilə yaradılan "Kalkan" layihəsi çərçivəsində Bakı şəhərində 2 günlük tədbir keçirildi. İnterpolun Baş Katibliyinin İctimai Təhlükəsizlik və Terrorçuluq üzrə Subdirektorluğunun Azərbaycan Respublikasının birgə təşəbbüsü, o cümlədən İnterpolun bir sıra üzv dövlətlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə AR Dİ orqanlarının yüksək vəzifəli şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və İnterpolun Azərbaycan Respublikasında MMB-nin bütün şəxsi heyəti, rəis başda olmaqla, İnterpolun Baş Katibliyinin İctimai Təhlükəsizlik və Terrorçuluq Subdirektorluğunun əməkdaşları, habelə 25 dövlətin terrorçuluqla mübarizə orqanlarının nümayəndələri iştirak etmişlər.

Tədbirin keçirilməsində əsas məqsəd üzv dövlətlər arasında terrorçuluğa, insan alverinə, cinayətkarlığa qarşı birgə mübarizəni, axtarışda olan cinayətkarların yerinin müəyyənləşdirilməsi və həbsi barəsində informasiya mübadiləsini genişləndirmək və möhkəmləndirmək olub. Tədbirdə İnterpolun Baş Katibliyinin icraçı direktoru S.M.Subetan da iştirak etmişdir.

"Kalkan" layihəsi terrorçuluqla mübarizədə böyük dəstəkdir. Bu layihə Baş qərargahın üzv ölkələrinin əksəriyyəti ilə informasiya mübadiləsini aparmağa imkan verir. İnterpolun üzv dövlətlərinin köməkliyi olmasaydı "Kalkan" layihəsini həyata keçirmək qeyri-mümkün olardı. Azərbaycanda cinayət törətmiş və onun hüdudlarından kənarda gizlənmiş cinayətkarların yerinin müəyyənləşdirilməsində bu layihə böyük rol oynayır.

2004-cü ildən icrasına başlanmış "Kalkan" layihəsi Azərbaycan tərəfindən böyük uğurla qarşılanıb. Mübarizənin əhəmiyyəti ondan ibarətdir ki, bütün dünyaya meydan oxuyan və mütəşəkkil cinayətkarlığın xüsusi təhlü-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analitik şöbəsinin 2005-ci il üçün xidməti fəaliyyətinə dair arayışı, s. 5,10, 11,12,13,14.

kəli növü hesab edilən terrorizmlə mübarizə istiqamətində bir sıra təkliflərin hazırlanmasına həsr olunmuşdur.

2007-ci ildəki bir mühüm tarixi hadisəni yada salaq.

Beynəlxalq terrorizmə qarşı mübarizə məqsədilə 3-cü görüş 2007-ci ildə Gürcüstanın paytaxtı Tiflis şəhərində keçirilmişdir. Həmin tədbirdə dünyanın Avropa, Asiya, ABŞ daxil olmaqla dünyanın 27 ölkəsinin hüquq-mühafizə orqanlarının 60 nümayəndə heyəti və İnterpolun nümayəndələri iştirak edirdi. Burada beynəlxalq qlobal terrorizmə qarşı mübarizə məsələlərinə baxıldı. Bu mötəbər tədbirdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi və əməkdaşları yaxından iştirak etmiş, nümayəndələrlə fikir mübadiləsi aparmışlar.

31 oktyabr və 1 noyabr 2006-cı il tarixində İİR-in paytaxtı Tehran şəhərində İƏT-ə üzv ölkələrin DİN-in toplantısı keçirilmiş, 2 gün davam edən iclasda beynəlxalq terrorizm və ekstremizmlə, transmilli mütəşəkkil cinayətkarlıqla, narkotik maddələrin qaçaqmalçılığı, insan alveri, çirkli pulların yuyulması ilə mübarizə və digər məsələlər müzakirə edilmişdir.[1]

“Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı”nın (2004-2008-ci illər) icraatın təmin edilməsi haqqında” AR DİN-nin 07/07/2004-cü il tarixli 292 № əmrinin tələbinə müvafiq olaraq, proqramın 9-cu bəndinin icrası ilə əlaqədar 2008-ci il ərzində İnterpolun kanalları ilə keçirilməsi nəzərdə tutulan tədbirlərin siyahısının əldə edilməsi və bunun əsasında ezamiyyə xərclərinin proqnozlaşdırılması məqsədilə, İnterpolun Baş Katibliyinə müraciət olunmuş və əldə olunan müvafiq məlumatlar əmrin və DİN-in tələblərinə uyğun olaraq, DİN-in Baş Cinayət Axtarış İdarəsinə təqdim olunmuşdur. DİN-in müvafiq qurumlarının İnterpolun Baş Katibliyinin məlumat bazasına qoşulmasına dair 15-ci bəndin yerinə yetirilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Azərbaycan Respublikası prezidentinin 11/05/2002-ci il tarixli 920 №-li sərəncamı ilə təsdiq olunmuş “BMT Təhlükəsizlik Şurasının 12/09/2001-ci il 1368 №-li; 28/09/2001-ci il 1373 №-li və 12 noyabr 2001-ci il tarixli 1377№-li qətnaməsinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı” DİN-in “Terrorçuluq və digər təhlükəli cinayətlərlə mübarizənin gücləndirilməsi tədbirlərinə dair” 15/09/2001 tarixli 1377 №-li qətnaməsinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planının 46/xiü №-li göstərişi və 23/08/2001-ci il tarixdə təsdiq edilmiş “Azərbaycan Respublikasının Şimal və Şimal-Qərb bölgələrində kriminogen durumun gərginləşməsinə təsir edən terrorçuluq aksiyaları, dini radikalizm təzahürləri və digər hüquqazidd əməllərlə mübarizə üzrə tədbirlər planı” ilə əlaqədar görülən iş-

[1] DİN-nin mətbuat xidməti // Mübariz keşikdə, 2006, 2 noyabr, №45(2810)

lər barədə arayışlar DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur.

20-21 may 2008-ci il tarixində İİR-in Tehran şəhərində İnterpolun "Kalkan" layihəsi üzrə 4-cü iclası keçirilmiş, bu iclasda Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.

28-30 may 2008-ci il tarixdə Litva Respublikasının Vilnüs şəhərində 37-ci Avropa Regional Konfransı keçirilmiş və bu konfransda beynəlxalq terrorizm və ekstremizm təzahürlərinə qarşı mübarizə ilə əlaqədar məsələlər müzakirə edilib, qərarlar qəbul olunmuşdur.

Beynəlxalq terror təşkilatları və şəbəkələri tərəfindən qeyri-adi üsulla hazırlanmış partlayıcı qurğular, onların gizlədilmə üsulları ilə bağlı İnterpolun Baş Katibliyi və üzv ölkələr tərəfindən yayımlanan məlumatlar aidiyyəti üzrə DİN-in Baş Cinayət Axtarış Şöbəsinə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə və MT-nə göndərilmişdir[1]

26-27 may 2008-ci il tarixdə keçirilən daha bir tarixi hadisəni qeyd etmək yerinə düşər. Bu tarixdə Türkmənistanın paytaxtı Aşqabad şəhərində İƏT-ə üzv olan ölkələrin Daxili İşlər nazirlərinin ikinci iclası keçirilmişdir. On dövlətin DİN rəhbərlərinin, aparıcı mütəxəssislərin iştirak etdiyi bu mötəbər tədbirdə ölkəmizi Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti təmsil etmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatı Sammitlərinin qərarlarının üzv ölkələrin narkotiklərin qanunsuz dövriyyəsi, terrorizm və transmilli mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizə sahəsində əməkdaşlığın möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyən DİN, təhlükəsizlik və sabitliyin inkişafı üçün fundamental amillər olduğunu, narkotiklərin qanunsuz dövriyyəsinin, terrorizm və transmilli cinayətkarlığın bütün region üçün təhlükə doğurduğunu qeyd etmiş, əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulamışdır. İclasda, həmçinin, əlaqəli və mütəşəkkil kampaniyanın həyata keçirilməsi məqsədilə, İƏT-nin yüksək səviyyəli ekspertlər qrupu tərəfindən 2008-ci il aprel ayının 29-30-da Türkiyənin paytaxtı Ankara şəhərində hazırlanmış "Narkotiklərə, terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə"yə dair birgə regional strategiya qəbul edilmişdir.

Daxili İşlər nazirləri terrorizmin bütün forma və təzahürlərini pisləyərək, bu bəlanın qarşısını almaq məqsədilə, birgə mübarizə aparmaq əzmini bir daha istifadə edərək, üzv ölkələri terrorizmlə mübarizənin səmərəli forma və metodundan istifadəyə, bu sahədə məlumat və qabaqcıl təcrübə mü-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analitik şöbəsinin 2008-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.4,13,23.

badiləsi aparmağa çalışmışlar. İclasın sonunda Dİ nazirləri Aşqabad bəyannaməsi qəbul etmişlər.[1]

Bundan başqa, 2008-ci ildə olan daha bir mühüm hadisəni qeyd edək. 10 dekabr 2008-ci il tarixində Belorusun paytaxtı Minsk şəhərində İnterpolun müasir informasiya kommunikasiya sistemi olan Lizinq-24/7 sistemi MDB-nin 30-dan çox hüquq-mühafizə İnterpolun üzvü olan ölkələr arasında Terrorizm, narkomaniya, insan alveri və digər beynəlxalq cinayətkarlığa qarşı mübarizənin gücləndirmək məqsədilə məlumat mübadiləsini həyata keçirməkdən ibarətdir. Həmin toplantıda İnterpolun Lizinq-24/7 qlobal polis rabitə sistemi ilə əlaqə yaratmaq üçün MDB (ATS-MDB) əməkdaşlıq müqaviləsi imzalandı.[2]

Azərbaycan Respublikası prezidentinin 11/05/2002-ci il tarixli 920 №-li sərəncamı ilə təsdiq olunmuş "BMT TŞ-nin 12/09/2001-ci il tarixli 1373 №-li və 12/11/2001-ci il tarixli 1377 №-li qətnaməsinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı" AR DİN-in "Terrorçuluğa və digər ictimai təhlükəli cinayətlərlə mübarizənin gücləndirilməsi tədbirlərinə dair" 15/09/2001-ci il tarixli 46/XİÜ nömrəli göstərişi və 23/08/2001-ci il tarixdə təsdiq edilmiş "Azərbaycan Respublikasının şimal və şimal-qərb bölgələrində kriminogen durumunun gərginləşməsinə təsir edən terrorçuluq aksiyaları, dini radikalizm təzahürləri və digər hüquqazidd əməllərə mübarizə üzrə tədbirlər planı" ilə əlaqədar görülmüş işlər barədə arayışlar tərtib olunaraq 20/2590 nömrəli 24/12/2009-cu il tarixli məktublarla DİN-nin Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur.

2009-cu ilin hesabat dövründə İnterpolun üzvü olan ölkələrdən daxil olmuş oğurlanmış, aşkar olunmuş, müsadirə edilmiş tapança, avtomat silah və müxtəlif növ kalibrli tüfənglər barədə sorğulardakı məlumat uçota salınmış, müvafiq xidmətlərin qeydiyyatlarından yoxlanılmış və nəticə barədə təşəbbüskara bildirilmişdir. Beynəlxalq terror təşkilatları və şəbəkələri tərəfindən qeyri-adi üsulda hazırlanmış partlayıcı qurğular, onların düzəlmə üsulları ilə bağlı İnterpolun Baş Katibliyi və üzv ölkələr tərəfindən yayımlanan məlumatlar aidiyyəti üzrə respublikanın hüquq-mühafizə orqanlarına, DİN-in Baş Cinayətkarlıqla Mübarizə İdarəsinə və MTN-ə göndərilmişdir.[3]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2010-cu il tarixi dövründə fəaliyyət istiqamətlərindən biri olan terrorizmə qarşı mübarizənin tarixi aspektlərinə nəzər yetirək.

2010-cu il ərzində Azərbaycan Respublikası prezidentinin 11/05/2002-

---

[1] DİN-nin mətbuat xidmətindən // Mübariz keşikdə, 2008, 25 may, №20 (2889).
[2] http:İnterpol.int% 20.
[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analitik şöbəsinin 2009-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s.2.

ci il tarixli 920 №-li sərəncamı ilə təsdiq olunmuş "BMT Təhlükəsizlik Şurasının 12/09/2001-ci il tarixli 1368 №-li, 28/09/2001-ci il tarixli 1370 №-li və 12/11/2001-ci il tarixli qətnaməsinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı" AR DİN-in "Terrorçuluq və digər ictimai təhlükəli cinayətlərlə mübarizənin gücləndirilməsi tədbirlərinə dair 15/09/2001-ci il tarixli 46/xiü №-li göstərişi və 293/08/2001-ci il tarixdə təsdiq edilmiş "Azərbaycan Respublikasının Şimal-Qərb bölgəsində kriminogen durumun genişlənməsinə təsir edən terrorçuluq aksiyaları, dini radikalizm təzahürləri və digər hüquqazidd əməllərlə mübarizə üzrə tədbirlər planı ilə əlaqədar görülən işlər barədə arayışlar tərtib olunaraq 20/97/76 №-li 24/12/2001-ci il tarixli, 20/09 №-li 31/03/2010-cu il tarixli, 20/5662 №-li 01/07/2010-cu il tarixli məktublarla DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur".

İnterpolun Baş Katibi R.Nobl Azərbaycan Respublikasının aparıcı rola malik olmasını, beynəlxalq terrorçuluğa qarşı koalisiyada iştirakını və İnterpolla səmərəli əməkdaşlığını nəzərə alaraq, 2010-cu ilin 26-30 aprel tarixində Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin hüquq-mühafizə, gömrük və səhiyyə orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuş bioterrorçuluqla mübarizə təlimatçıların təlim seminarının Bakı şəhərində keçirilməsini təklif etmiş, Azərbaycan tərəfi bu təklifi qəbul etmişdir. Bu tədbirlərin yüksək səviyyədə təşkil olunması və keçirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Lakin obyektiv səbəblərdən (İslandiyada vulkan püskürməsi səbəbindən uçuşların təxirə salınması) bu tədbir qeyri-müəyyən müddətə təxirə salınmışdır.

2010-cu ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən daxil olmuş oğurlanmış, aşkar olunmuş və müsadirə olunmuş tapança, avtomat silah və müxtəlif növ kalibrli tüfənglər barədə sorğulardakı məlumatlar müvafiq xidmətlərin qeydiyyatlarından yoxlanılmış və nəticələri barədə təşəbbüskarlara bildirilmişdir. Azərbaycan Respublikası prezidentinin 11/05/2002-ci il tarixli 920 №-li sərəncamı ilə təsdiq olunmuş "BMT TŞ-nin 1368 №-li 12 sentyabr 2001-ci il tarixli, 1373 №-li 28 sentyabr 2001-ci il tarixli və 1377 №-li 12 noyabr 2001-ci il tarixli sərəncamının yerinə yetirilməsinin təmin edilməsinə dair" RF-nin ayrı-ayrı bölgələrində müxtəlif terror aktları, banditizm, adamların girov götürülməsi və digər ağır cinayətlər törətmiş şəxslər barədə daxil olmuş yeni axtarış tapşırıqları, xarici ölkələrdə baş vermiş terror hadisələri zamanı istifadə olunan partlayıcı maddə, qurğu, silah, üsul və bu sahə üzrə İnterpolun Baş Katibliyi və İnterpolun üzvü olan ölkələr tərəfindən yayımlanan digər məlumatlar aidiyyəti üzrə respublikanın hüquq-mühafizə orqanlarına göndərilmişdir.

Hesabat dövrü ərzində beynəlxalq şəbəkələr tərəfindən qeyri-adi üsul-

la hazırlanmış partlayıcı qurğular, onların gizlədilmə üsulları ilə bağlı İnterpolun Baş Katibliyi tərəfindən yayımlanan narıncı istiqamətləndirmələr barədə MTN-ə, DİN-in Baş Cinayət Axtarış İdarəsinə və Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə məlumat verilmişdir.[1]

16 iyun 2010-cu il tarixdə MDB-nin Antiterror Mərkəzinin və İnterpolun Baş Katibliyinin təşəbbüsü ilə RF-nin Domodedova şəhərində yerləşən Ümumrusiya Təkmilləşmə İnstitutunda DİN əməkdaşlarının iştirakı ilə, İnterpolun terrorizmə qarşı mübarizə ilə əlaqədar, "Kalkan" layihəsi çərçivəsində 5-ci görüşü keçirilmişdir. Görüşdə 20 dövlətdən terrorizmə qarşı mübarizə aparan mütəxəssislər, həmçinin Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2011-ci il tarixi dövrü ərzində terrorizmlə bağlı tarixi fəaliyyətini qeyd edək. Beynəlxalq terrorizmlə bağlı, 28/06/2011-ci il tarixində Qırğızıstan Respublikasının Düşənbə şəhərində "Asiya-plus" adlı, İnterpolun "Kalkan" layihəsi üzrə növbəti iclası keçirildi. Tədbir ATƏT-in Sənəd İdarəçiliyi Mərkəzinin bazası əsasında keçirilmişdir. Mərkəzi və Cənubi Asiyadan olan dövlətlər, eyni zamanda Əfqanıstan və Pakistan da daxil olmaqla, dünyanın müxtəlif ölkələrindən, eyni zamanda Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları da iştirak etmişlər.

İnterpolun "Kalkan" layihəsinin meneceri O.Aysu bildirmişdir ki, bu gün dünya terrorizm təhlükəsi ilə üzləşməkdədir, o, sərhəd tanımır. Əgər 2004-cü ildə "Kalkan" layihəsində 5 dövlət iştirak edirdisə, indi bu layihəyə dünyanın 100-dən çox dövləti qoşulmuşdur.

Monoqrafiya işinin 1-ci fəslində qeyd olunduğu kimi, İnterpolun təşəbbüsü ilə terrorizmə qarşı mübarizə məqsədilə, Fuston Task Force (FTF) qrupu 2002-ci ildə yaradılmışdır. İnterpolun üzvü olan dövlətlərin MMB-dən bu məqsədlə 240 mütəxəssis cəlb edilmişdir. Göstərilən bu tədbirdə MMB-nin əməkdaşı daimi olaraq orada fəaliyyət göstərir.

FTF qrupunun qarşısına qoyulan məsələlər aşağıdakılardır:

1. Fəal terrorçu qruplar və onların üzvlərini müəyyənləşdirmək;
2. Terrorçu qruplaşmalar barədə olan və əməliyyat xarakterli məlumatları İnterpolun üzvü olan dövlətlər arasında yaymaq, fikir mübadiləsi aparmaq;
3. İnterpolun üzvü olan dünya dövlətlərinin MMB-ləri arasında terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədilə imkanları daha da genişləndirmək;

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analtik şöbəsinin 2010-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s. 2, 18.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analitik şöbəsinin 2010-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s. 7-8.

4. İnterpolun üzvü olan dövlətlərin regional və qlobal səylərini daha da artırmaq.

Həmçinin bu məqsədlə "Əl Qaida", "Taliban" və Yuqoslaviya üçün beynəlxalq cinayət tribunalı barədə olan terroristlərin siyahısını dəqiqləşdirmək üçün dünyanın beynəlxalq təşkilatları və BMT ilə müqayisə etmək olar.[1]

17-18 may 2011-ci il tarixdə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın terrorçuluqla mübarizə üzrə Alt işçi qrupunun növbəti iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin rəis müşaviri, polis polkovniki İ.Axundov təmsil etmişdir.

22-23 sentyabr 2011-ci il tarixində Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi üzrə işçi qrupunun korrupsiya və çirkli pulların yuyulması üzrə Alt işçi qrupunun, növbəti iclası keçirilmişdir. Bu tədbirdə Azərbaycan Respublikasını polkovnik A.Əliyev təmsil etmişdir.

1 iyul 2011-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi qrupunun, hüquqi statistika üzrə Alt işçi qrupunun iclası keçirildi. Tədbirdə ölkəmizi polkovnik-leytenant Z.Quliyev təmsil etmişdir.

2011-ci ilin hesabat dövrü ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin beynəlxalq terror təşkilatları, hazırlanmış partlayıcı qurğular, onların gizlədilmə üsulları ilə bağlı İnterpolun Baş Katibliyi və üzv ölkələr tərəfindən yayılası məlumatlar aidiyyəti üzrə Respublikanın hüquq-mühafizə orqanlarına, DİN-in Baş Cinayət Axtarış İdarəsinə, Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə və MTN-ə göndərilmişdir.

5-6 oktyabr və 21-22 noyabr 2011-ci il tarixlərində İnterpolun Baş Katibi R.Noblun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmişdir. Səfər proqramına uyğun olaraq Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, R.Nobl, Ramil Usubov arasında görüşlər keçirilmişdir.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2012-ci il üçün tarixi fəaliyyətinə diqqət yetirək.

6-7 mart 2012-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi və hüquqi-sta-

[1] Crime.areal-areas\terrorizm\fusion-tasion-task-torse

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analtik şöbəsinin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 6,7, 22.

tistika üzrə işçi qruplarının növbəti iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsinin şöbə müdiri, polis polkovniki A.Abdullayev və İnterpolun MMB-nin sabiq baş inspektoru E.Quliyev təmsil etmişlər.

12-13 iyul 2012-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi üzrə işçi qrupunun 20-23 noyabr 2012-ci il tarixində isə Azərbaycan tərəfinin sədrliyi ilə Bakı şəhərində GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi üzrə işçi və terrorçuluqla mübarizə üzrə Alt işçi qruplarının iclası keçirilmişdir. Bu tədbirdə Azərbaycan Respublikasını polis polkovniki İ.Axundov və MMB-nın digər əməkdaşları təmsil etmişlər.

6-7 dekabr 2012-ci il tarixdə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-a üzv dövlətlərin radiasiya, kimyəvi və bioloji terror təhlükələrinə qarşı mübarizə məsələlərinə qarşı işçi görüşü keçirilmişdir.

25-26 aprel 2012-ci il tarixində Qazaxıstanın Almatı şəhərində Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzinin inzibati binasında bu qurumla birgə, İnterpolun "Kalkan" layihəsi üzrə işçi qrupunun "Terrorçuluq və narkotiklərin qanunsuz dövriyyəsi arasında qarşılıqlı əlaqə mövzusunda növbəti iclas keçirilmişdir və həmin tədbirdə ölkəmizi MMB-nin şöbə rəisinin müavini, polis polkovnik-leytenantı Hamlet Babayev və MTN-in əməkdaşı E.Qasımov təmsil etmişlər.[1]

2012-ci ilin may ayının 12-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclası keçirilmişdir. İclasda Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda müzakirə olunmuşdur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev çıxışında bildirmişdir ki, terror aktları Beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən bütün üzv dövlətlərdə insan hüquqlarının, fundamental azadlıqların, demokratiyanın, siyasi müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və nəhayət sosial və iqtisadi inkişafın bərqərar olmasına ciddi təhdiddir. "Azərbaycan terrorçuluğun bütün forma və təzahürlərini qəti surətdə pisləyir. Biz belə hesab edirik ki, bütün terror aktları ağır cinayətdir, onlar pislənilməli və bunu törədənlər cəzalandırılmalıdırlar. Terrorçulara öz əməllərini əsaslandırmaq üçün heç vaxt imkan verilməməlidir. Səbəbindən asılı olmayaraq heç bir terror

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analitik şöbəsinin 2012-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 3,10,11.

aktı əsaslandırıla bilməz. Terrorçuluğun dəyişən mahiyyəti və siması, bir çox hallarda onun təcavüzünün separatizm və mütəşəkkil cinayətkarlığa bağlılığı vardır. Silahlı münaqişələrə məruz qalan yerlərdə, xüsusən də xarici hərbi işğal altında olan ərazilərdə terrorçuluq ilə həmin məkanda olanlar arasında bir qayda olaraq birləşmənin yaranmasına şəraitlər formalaşır. Azərbaycan müxtəlif yollarla terrorçuluğa məruz qalmışdır. Azərbaycan kənardan təşkil olunan terror fəaliyyətinin birbaşa hədəfinə çevrilmişdir. Ermənistan Respublikası Azərbaycanın mülki əhalisi və infrastrukturuna qarşı onlarca terror aktı törədilmişdir. Bunun nəticəsində 2 mindən artıq azərbaycanlı öz həyatını itirmişdir. Ermənistan öz güc strukturlarının bilavasitə iştirakı ilə hazırladığı həmin terror aktlarını beynəlxalq terror qruplarından istifadə edərək törətmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəal bazasında etnik təmizləməyə nail olmaq üçün hərbi təcavüzlə yanaşı, mülki əhaliyə qarşı geniş şəkildə terror aktlarından da istifadə etmişdir. Həmin vəhşilik aktları 1992-ci ilin fevral ayında Xocalı əhalisinin məhv edilməsi ilə kulminasiya nöqtəsinə çatdı. Həmin vaxt 613 günahsız insan, o cümlədən qadınlar, uşaqlar öz həyatı ilə vidalaşdılar. Ermənistan, həmçinin, münaqişə zonasından uzaq məsafədə, ictimai və mühüm infrastruktur yerlərində, 1994-cü ildə Bakı metrosunda bomba partlayışı və digər əməllər kimi terror aktlarını törədərək mülki əhaliyə qarşı mübarizə apardı”.[1]

12 aprel 2013-cü il tarixlərdə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə təşkilat – GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə əlaqədar işçi qrupu ilə axtarışda olan, əməliyyat marağı kəsb edən şəxslər barədə avtomatlaşdırılmış məlumat bazasının yaradılması üzrə ekspertlər işçi görüşü keçirmişlər. Tədbirdə polis polkovniki A.Ağayev və DİN-in Baş Cinayət Axtarış İdarəsinin şöbə rəisi, polis polkovniki M.Həsənov iştirak etmişlər.

22-23 may 2013-cü il tarixdə Ukraynanın Kiyev şəhərində GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi qrupunun, 23-24 may 2013-cü il tarixində isə həmin işçi qrupunun və terrorçuluqla mübarizə üzrə işçi alt qrupunun növbəti iclası keçirilmişdir. Tədbirdə İnterpolun MMB-nin rəis müavini, polis polkovnik-leytenantı İ.Axundov, DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin şöbə rəisi, polis polkovniki E.Kərimov və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin baş əməliyyat müvəkkili, polis polkovniki E.Tağıyev iştirak etmişlər.

2013-cü ilin mart ayının 18-19-da BMT-nin Azərbaycan hökumətinin

---

[1] Dövlət başçısının sədrliyi ilə Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclası keçirilmişdir // Azərbaycan, 2011, 6 may, №99(6080).

və İSESCO-nun təşkilatçılığı ilə Bakı şəhərində keçirilən "Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi" mövzusundakı beynəlxalq konfransda 50-dən çox ölkənin xarici işlər nazirləri və nazir müavinləri, İSESCO-nun, GUAM-ın, MB-nin, Türkdilli ölkələrin əməkdaşlıq şurasının və digər qurumların baş katibləri, BMT-nin, ATƏT-in, NATO-nun, ümumiyyətlə 25-dək beynəlxalq təşkilatın rəsmiləri, habelə 30-a yaxın yüksək səviyyəli ekspertlər iştirak edirdilər. Həmin mötəbər beynəlxalq tədbirdə dünyanın ən böyük bəlası olan terrorizmə qarşı müştərək mübarizə, onu dəstəkləyən dövlətlərə qarşı ən ciddi sanksiyalar tətbiq edilməsi üçün beynəlxalq birliyin səylərinin birləşdirilməsi, antiterrorla əlaqədar yeni qanunvericilik aktlarının işlənib hazırlanması, terrorizmlə bağlı mövcud stereotiplərin qarşısının alınması, sivilizasiyalar və dinlər arasında dialoqun gücləndirilməsi, insan hüquqlarının qorunması, demokratiyanın gücləndirilməsi və sosial ədalətin yaxşılaşdırılması mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.[1]

Terrorizm müxtəlif qollara ayrılır. Yuxarıda göstərildiyi kimi, onun təcavüzkar separatizm, siyasi və dini ekstremizm, sağ və sol radikalizm, qloballaşma əleyhinə hərəkatı da vardır. Terrorizmin bir ucu Şərqdədirsə, digər ucu Qərbdədir. Elə buna görə də onları tək-tək üzə çıxarıb məhv etmək o qədər də asan məsələ deyil. Bu gün dünyada güclü maliyyə mənbələrinə malik, bir-biri ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərən çoxlu terror təşkilatları mövcuddur. Onların maliyyə mənbələrinin əsası işğal etdikləri ərazilərdəki yeraltı və yerüstü sərvətlərdir, yüksək pul alaraq girov götürdükləri insanlardır, qanunsuz silah alveridir, qaçaqmalçılıqdır, narkotik maddələrin ixracıdır, insan orqanlarının qanunsuz satışıdır. Bu işdə Ermənistan ön cərgədə addımlayır. Əldə edilən pul isə təcavüzkar Dağlıq Qarabağ separatçılarının və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən terrorçu qrupların maliyyələşdirilməsi kimi çirkin işlərə sərf edilir. Terrorçu qruplaşmalar son yarım əsrdə İtaliyada, Portuqaliyada, Kanadada, Livanda, Türkiyədə, Yunanıstanda, Böyük Britaniyada, Danimarkada, İspaniyada, İranda, Almaniyada, Rusiyada yüz minlərlə günahsız insanı qətlə yetirib.

Azərbaycan öz daxilində bütün potensial terror hədəflərinin qarşısını sədləmiş bir ölkədir. Hazırda ölkəmiz sərhəd infrastrukturunun gücləndirilməsinə böyük sərmayə yatırır. Bu da zəruridir. Çünki bu gün Yer kürəsində heç bir ölkə tam sığortalana bilməz. Elə buna görə də, həm hüquq-mühafizə orqanlarının gücləndirilməsi, həm də sərhəd infrastrukturunun möhkəmləndirilməsi, təsirli sərhəd nəzarəti yaradılması əsas vəzifə kimi qarşıda durur. İnterpolla yanaşı, terrorizmə qarşı mübarizədə regional modellər kimi, kriminal nəzarət təşkilatlarının da adını çəkmək olar. Bu qurumlar regional təş-

[1] Fəqf Z. Azərbaycanda terrorizmə qarşı beynəlxalq əməkdaşlıq genişlənir // Azərbaycan, 2013, 9 aprel, №43(6348).

kilatlara daxil olan dövlətlərin polis orqanları arasında müqavilələr əsasında yaradılır və bu təşkilatların mübarizə hədəfində beynəlxalq terrorizmə qarşı mübarizə ilk yerlərdən birini tutur. Bu təşkilatlara AB ölkələrinin polis təşkilatı olan AVROPOL, ASEAN ölkələrinin regional təşkilatı ACEANPOİ, Amerika Dövlətləri təşkilatı çərçivəsində yaradılan CİCAD təşkilatı, Şengen müqaviləsinə daxil olan ölkələrin polis təşkilatı ŞENGEN, MDB ölkələrinin polis əməkdaşlığı, Baltik ölkələrinin polis təşkilatı və s. daxildir.[1]

Bütün dünyanı sarsıdan terrorla dəfələrlə ziyan çəkmiş bir dövlət kimi, Azərbaycanda da bu növ cinayətlərə qarşı aparılan mübarizə tədbirlərinə nəzər salaq.

Azərbaycan Respublikası da terrorizmin acısını yaşayan dövlətdir. XX əsrin əvvəllərində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı kütləvi terror hadisələri törədilib. Bu terror nəticəsində yüzlərlə yaşayış məskənləri tamamilə yandırılıb, dağıdılıb, onminlərlə insan həlak olub. I erməni terror dövrü Azərbaycan üçün ağır nəticələrə səbəb olub və əhəmiyyətli dərəcədə Azərbaycan əraziləri ermənilər tərəfindən işğal edilib.1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında 4083 saylı qərar verdi. 1948-1953-cü illərdə Azərbaycan xalqı növbəti dəfə terrorun acısını yaşayıb, köçürülən azərbaycanlılar üçün ağır nəticələrə səbəb olub. Köçürmə prosesi zamanı minlərlə insan məqsədli şəkildə məhv edilib. 1988-ci ildə azərbaycanlılar erməni terrorçuları tərəfindən dövlət səviyyəsində işgəncəli surətdə öz tarixi torpaqlarından çıxarılmışlar.[2]

Azərbaycana qarşı törədilən erməni zorakılığının ən qanlı səhifələrindən biri də Xocalı şəhərində həyata keçirilən soyqırımıdır. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə SSRİ silahlı qüvvələri 366-cı motoatıcı alayının köməyindən istifadə etməklə erməni terror birləşmələri Xocalı şəhərində XX əsrdə ən dəhşətli faciələrdən biri olan – Xocalı faciəsini törətdilər. Müxtəlif terrorçu birləşmələrin xaricdən gətirilən muzdlu döyüşçülərin və erməni ordusunun şəhərdə həyata keçirdiyi soyqırımı nəticəsində 613 nəfər öldürülmüşdür. Bunlardan 106 qadın, 63 uşaq, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmişdi, Faciədə 26 ailə tam məhv edilmiş, 230 ailə öz başçısını itirmiş, 1275 nəfər girov götürülmüşdür, 150 nəfərin taleyi hələ də naməlum qalıb, 450 nəfər Xocalı sakini ağır yaralandı, 6 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirdi. Yuxarıda göstərilən faktları nəzərə alaraq, qətiyyətlə söyləmək olar ki, Ermənistanda ter-

---

[1] Fərzəliyev N. İnterpol terrorla savaşda // Mübariz keşikdə. Bakı, 2013.

[2] Севдималыев К.М. Международный терроризм глобальная проблема свременности. Баку, 2004, с.308.

rorizm yüksək idarəetmə səviyyəsində qəbul edilir və bunu özünün ayrılmaz siyasi fəaliyyət forması, kimi istər öz dövlətinin daxilində, istərsə də xaricdə sürdürür.[1]

Erməni işğalçılarının cinayət əməlləri Cinayət Məcəlləsinin soyqırıma görə məsuliyyət nəzərdə tutan 103-cü və digər maddələri ilə tövsif edilib, iş üzrə 206 təqsirləndirilən şəxs barəsində İnterpol vasitəsilə beynəlxalq axtarış elan edilib. Verilən məlumatlara görə, Xocalı soyqırımı ilə bağlı 31, Qarabağ faciəsi ilə bağlı 17, Bağanis-Ayrum faciəsi üzrə 18, işgəncə faktları ilə bağlı 29, terrorla bağlı 2 nəfəri təqsirləndirən şəxs qismində cəlbetmə barədə qərardan çıxarılıb. [2]

Z.Balayanın Xocalı soyqırımında birbaşa iştirakını təsdiqləyən faktlar artıq mövcuddur. İnterpol xətti ilə haqqında beynəlxalq axtarış elan olunan Z.Balayan 1996-cı ildə nəşr olunan "Ruhumuzun canlanması" adlı əsərində Xocalıda azərbaycanlılara qarşı soyqırımı həyata keçirdiyini, törətdiyi qəddarlıqları fəxrlə etiraf edib. Ermənistan Respublikasının keçmiş prezidenti S.Sarkisyan dəfələrlə öz çıxış və müsahibələrində Xocalı soyqırımının təşkil olunmasında və həyata keçirilməsində iştirakını nəinki gizlətməyib, əksinə, açıq etiraf edib.[3]

Beləliklə, beynəlxalq terrorizm, beynəlxalq sabitliyin ciddi pozulması, narkomaniya, narkotik maddələrin qanunsuz dövriyyəsi, ərazi bütövlüyünə qəsd, ərazi işğalı, insanlığa qarşı cinayətlər, mədəni irsimizin məhv edilməsi kimi beynəlxalq cinayətlər törədən Ermənistana qarşı ciddi tədbirlər görülməlidir. Dünyanın beynəlxalq təşkilatları, o cümlədən İnterpol beynəlxalq cinayətkarlığa qarşı mübarizə tədbirlərində Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin dərinləşməsinə təsir edən bütün təzahürləri nəzərə almalı və öz imkanları daxilində tədbirlər görməlidir.

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyət istiqamətlərindən birini də yüksək texnologiyalar olan, İnformasiya kommunikasiya sahəsindəki cinayətkarlığa qarşı mübarizə sahəsi – Kibercinayətkarlıq təşkil edir.**

Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları cinayətlərin aşkarlanması, qarşısının alınması, açılması və istintaqı zamanı İnterpol kanalları vasitəsilə yüksək texnologiyalar sahəsində Beynəlxalq xarakterli cinayət əməlləri haqqında İnterpolun üzvləri olan xarici dövlətlərin hüquq-mühafizə orqanlarına aşağıdakı sorğular göndərirlər:

[1] Севдималыев Р.М. Международный терроризм глобальная проблема современности. Баку: 2004,

[2] Əziz B. Xocalı soyqırımı: səbəbləri, həyata keçirmə üsulları və nəticələri. Bakı, 2014, s.118.

[3] Serj Sarkisyan Xocalı haqqında nəyi etiraf edib? http:\\www.medianevs.az\2015\02\26\.

- İKT sisteminə və ya onların şəbəkələrinə qanunsuz qoşulma və yaxud daxil olma;
- Göstərilən xidmətə görə ödəmədən qaçmaq məqsədilə telekommunikasiya və kompüter sisteminin istismarı qaydalarının pozulması;
- İnformasiyanın dəyişdirilməsi, məhvi və ya bloklaşdırılmasına gətirib çıxara bilən kompüter sisteminin texniki vasitələrinə və ya proqram təminatına daxil edilən dəyişikliklər (kompüter "bombaları", viruslar);
- Oyun avtomatları, ödəniş vasitələri və bankomatlara kompüter dələduzluğu və ya saxtakarlığı;
- Proqram təminatının, həmçinin kompüter oyunlarının, kompüter texnikası elementlərinin qanunsuz əks etdirilməsi (canlandırılması);
- Uşaq pornoqrafiyası, haker məlumatları, qanunsuz proqram təminatının mübadiləsi üçün İKT sistemi və şəbəkələrinin ümumdünya internet şəbəkəsinin qanunsuz məqsədlər üçün istifadəsi.

Müvafiq sorğulara görə aşağıdakı məlumat alına bilər:

- İstifadəçilər, server təşkilatçıları, domenlərin adları və şəbəkə ünvanları;
- Logic faylların, treninqlərin və protokolların məzmunu;
- Sərhəd hüquq pozuntusunun qarşısının alınması zamanı hüquq-mühafizə orqanlarının operativ qarşılıqlı əlaqə qaydasında elektron informasiyanın bloklaşdırılması;
- Provayderlər, şəbəkə və telekommunikasiya distribüterləri;
- Yüksək texnologiyalar sahəsindəki cinayətlərlə əlaqəsi olan fiziki və hüquqi şəxslər;
- Mövcud sahədəki müxtəlif dövlətlərin xüsusi xidmətlərinin fəaliyyəti, proqram təminatı, kompüter və telekommunikasiya cinayətlərinin metodikası və mübarizəsi taktikası, dövri və xüsusi nəşrlər, statistika icmalı və materiallar haqqında.

İnterpolun MMB-nə göndərilən yüksək texnologiyalar sahəsindəki cinayətlər haqqında sorğularda aşağıdakı məlumatlar göstərilir:

- Yoxlamanın aparılması üçün əsas;
- Cinayətin törədilmə üsulu, yeri və zamanı (əgər məlumsa);
- Cinayətlə bilavasitə əlaqəsi olan fiziki və hüquqi şəxslər;
- Zərərçəkən (fiziki və ya hüquqi şəxslər), vurulan ziyanın xarakteri və ölçüsü;
- Cinayətin törədilmə üsulu, həmçinin texniki xarakterli xüsusi məlumatlar (texniki vasitələr, proqram təminatı, qanunsuz daxil olmanın (girişin) vaxtı və müddəti);

• Sorğunun icrasını yüngülləşdirən hər hansı bir məlumat.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin kibercinayətkarlıqla mübarizə istiqamətindəki tarixinə nəzər saldıqda apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, bu fəaliyyət əsasən “Kibercinayətkarlıq haqqında” Azərbaycan Respublikasının 30 sentyabr 2009-cu il tarixli 874-III-Q№li qanunu ilə, Kibercinayətkarlıq haqqında 23 noyabr 2001-ci il tarixli Budapeşt şəhərində imzalanmış konvensiya ratifikasiya olunduqdan sonra başlamışdır. [1]

Tarixi faktlara diqqət yetirək. Bu dövrlərdə telekommunikasiya şəbəkəsindən istifadənin çoxalması nəticəsində müxtəlif kibercinayətkarlıq hallarının artmasına müşahidə olunmuşdur. Təəssüf ki, respublikamızın vətəndaşları da kibermühitdə törədilən belə cinayətlərin qurbanlarına çevrilir, malların alqı-satqısı, xidmətlərin göstərilməsi və ya işlərin görülməsi barədə internetdə gedən elanlara inanaraq, onları hərtərəfli yoxlamadan külli miqdarda pullarını cinayətkarların bank hesabına köçürür və yalnız müəyyən müddətdən sonra aldandıqlarını başa düşüb, kömək üçün rəsmi dövlət orqanlarına müraciət edirlər. Məsələn, vətəndaş A.Əliyev DİN-ə müraciətində bildirmişdir ki, 2007-ci ilin noyabr ayında Portuqaliyada yaşayan A.Pedro adlı şəxsə məxsus, internetdə satışa qoyulmuş 2004-cü ilin “Range rover” markalı avtomaşınını almaq qərarına gələrək, bu məqsədlə tələb olunan hesaba 14.000 ABŞ dolları vəsait köçürmüşdür. Lakin bu günə kimi nə avtomaşının, nə də pulun aqibətindən bir xəbər çıxmamışdır.

Vətəndaş C.Abdullayev isə guya 2008-ci ildə “Microsoft” şirkətində 250.000 funt sterlinq məbləğində uduş kampaniyasının qalibi olması barədə elektron poçt vasitəsi ilə londonlu K.Sandos adlı vəkildən məktub, eləcə də Londondakı bankların birindən məbləğin onun hesabına köçürüləcəyi ilə bağlı zəmanət məktubu alsa da, vəkil ilə anlaşma sənədləri əsasında onun hesabına 5.845 ABŞ dolları köçürülsə də, müəyyən olunmuş müddətdə və sonralar uduş barədə heç bir məlumat almamışdır.

Bakı şəhər Müşfiqabad qəsəbəsinin sakini B.İsmayılov da 2008-ci ilin may ayında Avstriyada yerləşən şirkətlərin biri tərəfindən guya internet vasitəsilə keçirilən lotereya oyununun qalibi olması barədə aldığı məktub əsasında sənədləşmə işləri üçün müvafiq bank hesabına 4.000 ABŞ dolları məbləğində vəsait köçürmüşdür. Zərərçəkmişin müraciəti Azərbaycan Respublikasında araşdırılarkən, Avstriyada həmin adda şirkətin fəaliyyət göstərmədiyi və bu hadisənin internet fırıldaqçılığı olması müəyyən edilmişdir.

Həmçinin vətəndaş N.Ələmşahovun internet saytlarının birində satışda olan kompüter almaq məqsədilə köçürdüyü 1.200 ABŞ dolları, X.Xakidanın

[1] Kibercinayətkarlıq haqqında Azərbaycan Respublikasının 30 sentyabr tarixli qanunu.

isə mobil telefon almaq üçün köçürdüyü 370 ABŞ dolları da dələduzlar tərəfindən mənimsənilmişdir.[1]

Bundan başqa, 12-30 yanvar 2009-cu ildə Kiprin Nikoniya şəhərində, "İnformasiya texnologiyaları sahəsində cinayətkarlıqla mübarizə və kibercinayətlərin araşdırılması" üzrə 1-ci təlim seminarı keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını MTN-in əməkdaşı Z.İsmayılov təmsil etmişdir.

20-22 yanvar 2009-cu ildə Fransanın Lion şəhərində "İnformasiya sahəsində cinayətkarlıqla mübarizə üzrə" İnterpolun Avropa işçi qrupunun 54-cü iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını DİN-in "Yeni texnologiyaların tətbiqi sahəsində işin təşkili" şöbəsinin mühəndis-inspektoru, polis leytenantı Ü.Süleymanov təmsil etmişdir.

1-5 iyun 2009-cu ildə Finlandiyanın Tampare şəhərində "Kompüterlə əlaqəli cinayətlər, internet araşdırmaları" mövzusunda təlim kursu keçirilmişdir. Bu İnterpolun MMB-nin Texniki Təminat şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı E.Talıbzadə iştirak etmişdir.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyət sahəsi olan kibercinayətkarlıqla bağlı daha bir mühüm hadisəni qeyd edək.

AR DİN-nin 2010-cu il üçün əsas təşkilati tədbirlər planının 1-53-cü bəndinə "Kibercinayətkarlıq haqqında" konvensiyanın təsdiq edilməsi barədə 30 sentyabr 2009-cu il tarixli 874-IIIQ №-li qanunun elan edilməsinə dair, DİN-in 29/11/2009-cu il tarixli 693 №-li əmrinin icrası üzrə görülmüş işlərin nəticələri ümumiləşdirilərək 20/9897№-li 17/12/2010-cu il tarixli arayışla DİN-in rəhbərliyinə məruzə edilmiş və arayışın surəti 20/10080№-li 23/12/2010-cu il tarixli məktubla DİN-in Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur.[3]

6-7 iyul 2011-ci il tarixində Sinqapur şəhərində İnterpolun kibertəhlükəsizliyə dair 1-ci təlim seminarı keçirilmiş və təlim seminarında Azərbaycan Respublikasında İnterpolun Texniki-təminat şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı E.Talıbzadə və DİN-in Baş İnformasiya Kommunikasiya İdarəsinin "Yeni texnologiya tətbiqi sahəsində işin təşkili" şöbəsinin baş mühəndisi, proqramçı polis kapitanı Ü.Süleymanov iştirak etmişdir.[4]

2012-ci il üçün əsas təşkilati tədbirlər planının 1-51-ci il bəndinə mü-

---

[1] DİN-in Mətbuat xidməti // Mübariz keşikdə, 2013, 13 aprel, №11(2965).

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analtik şöbəsinin 2009-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s.12-14.

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Təşkilati-analtik şöbəsinin 2010-cu ilin xidməti fəaliyyətinə dair arayışı, 13 s., s.6.

[4] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Texniki-təminat şöbəsinin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, səh. 6, 12

vafiq olaraq, “Kibercinayətkarlıq haqqında konvensiyanın təsdiq olunması barədə” 30 sentyabr 2009-cu il tarixli 874№-li qanunun elan edilməsinə dair DİN-in 693№-li 23/11/2009-cu il tarixli əmrinin icrası üzrə il ərzində görülmüş işlər təkliflərlə birgə 20/7961№-li, 26/12/2012-ci il tarixli arayışla DİN-nin rəhbərliyinə məruzə olunmuşdur.

4-7 iyun 2012-ci il tarixində Fransanın Lion şəhərində İnterpolun Baş Katibliyində Uşaqlar Əleyhinə Cinayətlərlə Mübarizə üzrə işçi qrupunun 30-cu iclası keçirilmiş və həmin tədbirdə MTN-in əməkdaşı F.Mahmudov iştirak etmişdir.

25-27 iyun 2012-ci il tarixində Koreya Respublikasının Seul şəhərində İnterpolun Kibercinayətkarlıqla mübarizə üzrə milli əlaqə zabitlərinin 1-ci təlim kursu keçirilmişdir. Bu təlimdə Azərbaycan Respublikasından DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin baş əməliyyat müvəkkili, polis mayoru E.Mehdiyev və DİN-in Baş İnformasiya-Kommunikasiya İdarəsinin inspektor mühəndisi, polis leytenantı O.Şabanov iştirak etmişlər.[1]

2 dekabr 2013-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində “Bakutel-2013” XIX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi çərçivəsində “Qlobal kibertəhlükəsizlik üzrə əməkdaşlıq, problemlər və perspektivlər” mövzusunda konfrans mühüm bir tarixi konfrans keçirilmişdir. Bu beynəlxalq konfrans BMT-nin ixtisaslaşdırılmış İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) Agentliyi olan Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ), Dünya Bankı, Dünya İqtisadi Forumu İnterpolun dəstəyi ilə təşkil etmişdir.

Açılış mərasimində çıxış edən Rabitə və İnformasiya Texnologiyaları naziri Ə.Abbasov tədbirin əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, konfrans internet məkanında əhəmiyyətli informasiyaların qorunması və bu sahədə qabaqcıl təcrübə mübadiləsinin təmin və təsdiq etmək məqsədini daşıyır. Bu gün kibertəhlükəsizlik, onlayn təhlükəsizlik və şəbəkələrin etibarlılığı üçün həlledici təminat məsələləri qlobal gündəlikdə duran ən mühüm prioritet istiqamətlərdən biri kimi qiymətləndirilir. Bu sahədə səmərəli beynəlxalq əməkdaşlıq, uğurlu qərarların qəbulu və həyata keçirilməsi vacibdir. O, qeyd etmişdir ki, Azərbaycan bu sahədə mövcud olan problemlərin həllində maraqlıdır.[2]

Nəticə olaraq demək olar ki, Azərbaycan Respublikasında İnterpolun MMB-si bütün strukturları, ərazi polis orqanlarının idarə və şöbələri və bölmələri ilə, hüquq-mühafizə orqanları ilə Azərbaycanda kibertəhlükəsizliyin təmin olunması üzrə ardıcıl iş aparır.

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin Texniki-təminat şöbəsinin 2012-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 8-13.

[2] Bakıda “Qlobal kibercinayətkarlıq üzrə əməkdaşlıq: problemlər və prespektivlər” mövzusunda konfrans işə başlamışdır // Azərbaycan., 2013, 3 dekabr, №266(6541).

Bundan başqa, virtual məkanın təhlükəsizliyinin təmin olunması üçün qanun layihəsi hazırlanır.

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin beynəlxalq cinayətkarlığa qarşı fəaliyyət sahələrindən biri də narkomaniyaya qarşı mübarizədir**.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizə bəşəriyyət qarşısında duran mühüm məsələlərdəndir. Belə ki, narkotiklərin milli genefondumuza vurduğu ciddi ziyanla yanaşı, narkotiklərdən əldə edilən gəlirlər sayəsində digər transmilli cinayətlərin, xüsusilə də terrorizmin maliyyələşməsinə və törədilməsinə yönəldilməsi üçün təhlükəlilik dərəcəsi daha da artır.[1]

ÜST, BMT və s. kimi beynəlxalq təşkilatlardan fərqli olaraq, İnterpol xüsusi olaraq cinayətkarlıq problemlərini araşdırmaq üçün yaradılmışdır və bu onun nizamnaməsinin 2-ci bəndində bu öz əksini tapmışdır.[2]

Şifahi və yazılı mənbələrdə uyuşdurucuların insan həyatına daxil olması tarixdə dəqiq göstərilməsə də, uyuşduruculardan min illər boyu müxtəlif məqsədlərlə istifadə edilmişdir. Bunu e.ə. yaşamış Roma, ərəb alimləri və təbiblərinin əsərlərindəki narkotik bitkilərlə bağlı qeydlərdə görmək mümkündür. Avropa və Asiyanın məskunlaşmış xalqlarının mifologiyasında da yağlı xaşxaş dozasından alınan tiryək preparatları əhval-ruhiyyəni qaldırmaq, ağrıları götürmək məqsədi ilə şəriətdə yayımlanmışdır.

Narkomaniya yunanca "naike" – donmaq, mat qalmaq və "maniya" – həzz almaq, kef çəkmək mənasını verir. Həqiqətdə isə narkomaniya – narkotiklərdən istifadə nəticəsində qısa müddətdə insanın ümumi vəziyyətinin fiziki və psixi əhval-ruhiyyəsinin narkotiklərdən kəskin asılılığına gətirib çıxaran xüsusi təhlükəli dünyəvi və çoxbəlalı bir xəstəlikdir.

Narkotik maddələrin qeyri-qanuni yayılmasına qarşı yönələn və beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən tədbirlər sırasında İnterpolun fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. İnterpolun bu sahədəki apardığı məqsədyönlü fəaliyyətini 1974-cü ildə təşkilatın tərkibində yaradılmış xüsusi qrup həyata keçirirdi. Yaradılandan bir ay sonra qrup şöbəyə çevrildi, əməkdaşların sayı ilə 3 dəfə artırıldı. Bu isə işin həcminin kəskin artması ilə bağlı idi. Belə ki, məsələn, əgər 1979-cu ildə şöbəyə narkotiklərlə bağlı 24.6 min məlumat daxil olmuşdursa, 1989-cu ildə belə məlumatların sayı artıq 53.2 milyon idi. Aydındır ki, onların hər birini operativ şəkildə işləmək və təhlil etmək lazım idi.

---

[1] Azərbaycanda narkotik vasitələrin, psixotrop maddələrin və onların preskursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə dövlətin daim diqqət mərkəzindədir // Azərbaycan, 2008, 1 iyul, №140 (5830).

[2] Родионов К.С. Интерпол: миф и действительность. Москва: 1982, с.70.

İnterpolun bu şöbəsinin fəaliyyəti əsasən dörd istiqamətdə aparılır: 1-ci istiqamət “əməliyyatda iştirak etmə” adlanır və müxtəlif ölkələrdən gələn sorğulara cavabların hazırlanmasında təklif və tövsiyələrin verilməsindən ibarətdir. Bu istiqamətdə şöbənin fəaliyyəti mahiyyət etibarı ilə konkret cinayətkar narkoqrupların fəaliyyətinin qabağının alınması və ya xəbərdaredici tədbirlər sisteminin işlənib hazırlanmasında İnterpolun üzvü olan ölkələrə köməkdən ibarət iş olduğundan, yəqin ki, belə bir ad özünü doğruldur.

Şöbənin 2-ci fəaliyyət istiqaməti “kəşfiyyat” və ya dəqiq ifadə etsək, narkobizneslə məşğul olan cinayətkar qurumların iştirakçılarının qaçaqmalçılığı, narkotiklərin topdan və pərakəndə satışını həyata keçirən şəxslərin həbs, saxlama, habelə narkotik və psixotrop maddələrin müsadirə hallarının onların ənənəvi əkilmə və istehsal yerlərinin, istehlakçılara gətirib çatdırılmasının yeni marşrutlarının aşkarı, bu zaman istifadə edilən hiylə, fənd və üsullar barədə ölkələrdən daxil olan məlumatların sistemli və əhatəli şəkildə analizindən ibarətdir.

3-cü istiqamət iştirakçı ölkələrin narkotiklərlə mübarizə məsələlərini həyata keçirən orqanlarında işləyən mütəxəssislərin təhlil və ixtisas səviyyəsinin artırılması üzrə kursların, seminarların təşkili və s. ilə bağlı işin aparılmasından ibarətdir. Şöbədə müsadirə edilmiş narkotik vasitələrin qeydiyyatı aparılır. Lakin bu qeydiyyat sisteminə yalnız “Beynəlxalq element” adlandırılan kateqoriyaya düşən müsadirələr haqqında məlumatlar daxil edilir: heroin və kokain üçün bu miqdar (norma) – 100 qram, kanabisdən alınan narkotiklər üçün 10 *kq*-dır. Psixotrop maddələr üçün isə belə minimumlar müəyyən edilməmişdir. Toplanmış məlumatlar ümumiləşdirilir, təhlil edilir, müxtəlif ölkələrdə və ümumən dünyada narkovəziyyət haqqında hesabat və arayışlar şəklində iştirakçı ölkələrə, Baş Assambleyanın sessiyalarına, BMT-nin narkotik vasitələr üzrə komissiyasına və Ümumdünya Səhiyyə təşkilatının narkotiklər üzrə komitəsinə göndərilir.

İnterpolun informasiya banklarında dünyanın 100-dən artıq ölkəsindən narkotiklərlə bağlı cinayətlər haqqında məlumatlar cəmləşmişdir. Burada bu və ya digər dərəcədə narkotiklərin qeyri- qanuni dövriyyəsi ilə bağlı olan şəxslər barədə kartoteka yaradılmışdır. Lakin bütün bunlara baxmayaraq, beynəlxalq miqyasda narkotiklərin satışı üzrə qeyri-qanuni əməliyyatların yalnız 15%-nin qarşısını almağa nail olunur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, İnterpol heç də müstəqil istintaq aparmır. Bu, beynəlxalq informasiya xidməti “Beynəlxalq Cinayətkarlıq” və cinayətkarların qeydiyyat və hesabı da daxil olmaqla, müxtəlif ölkələrin cinayət polisi orqanları ilə əməkdaşlığı formalaşdırır.

İnterpolda dünyanın bir çox ölkələrində narkotiklərin qeyri-qanuni dövriyyəsi, narkotiklərin və narkomaniyanın vəziyyəti və s. haqqında alın-

mış məlumatlar ümumiləşdirilir. Məsələn, 1990-cı ildə dünyanın 77 ölkəsi üzrə İnterpola daxil olan məlumatlara əsaslanaraq görmək olar ki, bu ildə 27 tondan artıq kokain (yarpaq şəklində), 7603,5 *kq* kokain pastası, 100,753 kq kokain tozu, inyeksiya üçün nəzərdə tutulmuş maye şəklində 11 litr kokain məhsulu, habelə böyük həcmdə kanabis məhsulları (1295 ton marixuana, 319 ton qatran şəklində maddə və 1 tondan artıq həşiş və s.) müsadirə edilmişdir.

Həmçinin il ərzində müxtəlif ölkələrdə 1 min 960 min hektar kannabis plantasiyası üzə çıxarılaraq məhv, 25.5 ton tiryək xaşxaşı, 5 tondan artıq morfin və 14 ton heroin müsadirə edilmişdir.

MDB ərazisində müsadirə edilmiş narkotiklər haqqında məlumatlar da ilk dəfə olaraq İnterpolun statistika hesabatlarına düşmüşdür. Hesabatdan bəlli olur ki, keçmiş SSRİ, indiki MDB ərazisində 1990-cı ildə 5.37 kq heroin, 147.2 kq tiryək xaşxaşı, xeyli miqdarda kanabis məhsulları (4267 kq həşiş qatranı və 88 kq tütün qarışığı şəklində narkotik maddə) müsadirə edilmiş, 3777 hektar kanabis plantasiyası məhv edilmişdir. Eyni zamanda müsadirə edilən narkotikərin real qeyri-qanuni dövriyyəsinin 10-15%-ni təşkil etdiyini nəzərə alsaq və bunu MDB ölkələrinə də şamil etsək, onda bu məkanda narkotiklərin qanunsuz istehsalı və ticarətin real miqyasını təsəvvür etmək o qədər də çətin deyil.

İnterpolun illik hesabatları – dünyada narkotiklərin qanunsuz dövriyyəsinin vəziyyəti, strukturu və dinamikası, narkotik tərkibli bitkilərin əkin sahələri, istehsal olunan narkotiklərin növləri üzrə həcmi, müsadirə olunmuş narkotiklərin miqdarı, narkotiklərlə bağlı cinayətlərə görə həbs olunmuş şəxslərin sayı, xüsusilə təhlükəli olan narkocinayətkarlar haqqında məlumatlar bu sahədə təşəkkül tapmış ümumi vəziyyət barədə informasiyadan ibarətdir. Bu informasiya İnterpolun üzvü olan ölkələrin təqdim etdiyi, habelə İnterpolun əməkdaşlarının etibarlı mənbələrdən aldıqları şifahi məlumatlara əsaslanır. İnterpolun tərtib etdiyi hesabatlarda il ərzində narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə bağlı baş verən dəyişikliklər, habelə narkomaniya və narkotizmlə mübarizədə müxtəlif ölkələrin apardıqları iş barədə məlumat verilir, gələcək əməkdaşlığın planları cızılır. Təəssüf ki, İnterpolun bütün üzvləri bu sahədə mövcud vəziyyət haqqında İnterpola məlumatlar təqdim etmirlər. Məsələn, İnterpolun 1990-cı ildə dünyadakı narkovəziyyət haqqında hesabatı 77 ölkə, yəni İnterpolun üzvlərinin 50%-nin göndərdiyi informasiya əsasında hazırlanmışdır.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə İnterpol iştirakçı ölkələrinin qüvvə və vəsaitləri ilə narkotik vasitələrin və psixotrop maddələrin "Qara bazar"a daxil olma kanallarını bağlamağa, narkotiklərin istehsalını satış bazarlarından ayırmağa, onların istehlakçılara çatdırılması-

nın bütün yollarında və keçid məntəqələrində daimi və etibarlı maneə və sədlər yaratmağa çalışır. Bu məqsədlə İnterpol tiryək xaşxaşının, kannabisin, koka kollarının kütləvi şəkildə qanunsuz becərildiyi və ya təbii şəraitdə bitdiyi ölkələrin və bu ölkələrin daxilindəki regionların qeydiyyatını aparır. Çəki və həcm etibarı ilə çox kiçik yüklərin dövlət sərhədlərindən, nəzarət gömrük məntəqələrindən gizli keçirilməsi üzrə ixtisaslaşmış narkotik qaçaqmalçıları çoxəsrlik təcrübə toplamış, hazırda isə müasir texnikanın nailiyyətlərindən bacarıqla istifadə edirlər. Bu isə qaçaqmalçıları yaxalamaq və narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə aparmaq işini olduqca çətinləşdirir və səmərəsiz edir. İnterpola son illərdə narkotiklərin daşınmasının ən hiyləgər və gözlənilməz üsulları barədə məlumatlar daxil olur.

İnterpolun əməkdaşları qaçaqmalçıların narkotiklərin gizlətmə və daşınması zamanı istifadə etdikləri ən incə kələkləri, fəndləri öyrənir və ölkələri narkotiklərin gizlədilməsi üçün istifadə edilən gizli saxlanc yerlər haqqında məlumatlandırırlar. Məsələn, İnterpol məlumatları göstərir ki, son illərdə narkotik qaçaqmalçılıqda diş pastasından, qeyri-adi saç düzümündən, əl-ayaq protezlərindən istifadə halları artmışdır. Qablaşdırılmış narkotikləri tortun içərisində, hermetik bağlı olan konserv bankalarında gizlətməklə keçirirlər. 80-ci illərin axırlarında gömrük yoxlaması zamanı ABŞ-a qayıdan musiqi qrupundan kiçik hissələrə bölünərək, iyin qarşısını almaqdan ötrü qatran sürtülmüş və sonradan isə musiqi alətlərinin içərisində yerləşdirilmiş 271 kq həşiş aşkar edilmişdir. Bir sıra hallarda valideynlər tərəfindən körpə uşaqların paltarlarında, oyuncaqlarında marixuana və digər narkotiklərin gizlədilməsi faktlarına da təsadüf edilmişdir.

Konkret olaraq Azərbaycana gəldikdə isə görərik ki, narkotik vasitələr respublikamıza gömrük məntəqələrindən müxtəlif üsulla keçirilməklə gətirilir. Məsələn, 1994-cü ildə İİR-in 2 vətəndaşından fabrik üsulu ilə qablaşdırılmış tomat pastası bankasından 1 kq 190 qram tiryək; 1995-ci ildə İİR-in 2 vətəndaşından idman ayaqqabılarının alt hissəsində yapışdırılmış 445 qram tiryək; 1996-cı ildə İİR istehsalı olan "Anata" konfet kağızına bükülmüş 22 kq 820 qram tiryək, 2000-ci ildə İİR-də istehsal olunan məişət qaz balonlarında 35 kq tiryək aşkar olunaraq götürülmüşdür.

İnterpolun Baş Katibliyi müntəzəm olaraq ölkələrə narkotiklərin daşınmasının yeni üsullar qaçaqmalçılar tərəfindən istifadə edilən və hiyləgərcəsinə düşünülmüş gizli saxlama yerləri, keçid məntəqələri və topdansatış bazaları haqqında məlumat verir. Bu məlumatlar yalnız polis işçiləri üçün nəzərdə tutulmuş "xidməti istifadə üçün" qrifi altında çıxan xüsusi nəşrlərdə müntəzəm çap edilir. Onlarda həmin narkotiklərin daşınmasında iştirak edən şəxslərin adları və əlamətləri göstərilir.

İnterpolun Baş Katibliyində narkotiklərin təmizlənməsi və onların ha-

zırlanması üzrə gizli "laboratoriyalar", təmizlənmə üsulları, habelə "qara bazar"da yenicə peyda olan naməlum narkotiklərin növləri, onların əsas xassə və parametrləri haqqında da məlumatlar toplanılır. İnterpolun ekspertləri tərəfindən hazırlanan illik hesabatlar əsasında narkotik vasitələrin hazırlanması, daşınması, ticarəti və istehlakı halları haqqında toplu cədvəllərdə (ölkə və regionlar üzrə bölgü ilə) hər bir ölkədə narkotiklərin qeyri-qanuni yayılmasının tam mənzərəsini almaq olar. Cədvəllər ümumən dünya üzrə və ayrı-ayrı ölkələrdə narkotiklərin yayılmasının analizi və meyillərinin üzə çıxarılmasında istifadə edilir. Belə cədvəllərin bir nüsxəsi də BMT-nin müvafiq qurumlarına göndərilir.

İnterpolda hər bir qitə üzrə narkotiklərin daşınma kanalları və marşrutları xəritələr şəklində tərtib olunmuşdur. Bu xəritələr daima korrektə edilir. Baş Katibliyin əməkdaşları, həmçinin narkotik tərkibli bitkilərin kütləvi əkilib-becərildiyi yerlər göstərilmiş xəritə hazırlamışlar. Bütün bu yerlər artıq xeyli vaxt ərzində narkotiklərin istehlakçılara çatdırıldığını, paylandığı yaxşı məlum olan bir neçə rayonda cəmləşmişdir. Narkotiklərin daşınmasının bu yolları içərisində cinayətkarlar tərəfindən daha üstünlük verilən marşrutlar da vardır.

Narkotik maddələrin qaçaqmalçılığının ən mühüm kanallarından biri də Albaniya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Türkiyə və Yuqoslaviya ərazilərindən keçən "Balkan marşrutu" adlandırılan marşrut sayılır. 1968-ci ilin iyununda Belqradda bu ölkələrin ekspert qrupunun müşavirəsi keçirilmişdir. Bu müşavirədə narkotiklərin qeyri-qanuni tranzit dövriyyəsinə qarşı mübarizədə qarşılıqlı əlaqəli fəaliyyətin aktivləşdirilməsi məsələləri müzakirə edilmişdir.[1] Aparılmış araşdırmalar nəticəsində məlum olur ki, artıq bu vasitələrin Avropaya daşınmasında mühüm rol oynayan ənənəvi "Balkan marşrutu" keçmiş Yuqoslaviya ərazisində baş verən siyasi və hərbi proseslər nəticəsində yaranmış çətinliklərlə bağlı öz tarixi əhəmiyyətini müəyyən dərəcədə itirmişdir. Ona görə də yeni daşınma yollarını axtarmaqda olan beynəlxalq narkobiznes üçün ərazimizin tranzit keçid məntəqəsinə çevrilməsi ehtimalı daha da reallaşır. Onu da qeyd edək ki, ölkəmiz geniş nəqliyyat şəbəkəsinə, o cümlədən, quru, hava və dəniz yolları xətlərinə malikdir. Hələ 1994-cü ildə BMT-nin müvafiq komissiyasının Dəməşqdə keçirilən iclasında məlum faktlara istinad edərək, güclü təsiredici narkotik vasitələrin "Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan" marşrutu ilə Türkiyəyə, oradan isə Avropaya daşınması göstərilmişdir.

Rusiya Federasiyasında hazırlanan müvafiq məruzələrdə də həmin ölkəyə qanunsuz daxil olan narkotik vasitələrin daşınması marşrutlarından biri

[1] Cabbarov F., Abdullayev Y. Narkomaniya və Narkotizm 2004-cü il. Bakı: 2004, s.176-178.

kimi, Azərbaycan ərazisindən istifadə edilməsi xüsusi olaraq vurğulanmışdır.[1]

Xeyli sayda narkotik xammal Marsel limanı və ölkənin cənub sərhəd məntəqələri vasitəsilə Fransadan keçir. İnterpolun məlumatına görə Fransanın cənub rayonlarında dövri olaraq gizli “Laboratoriyalar” meydana çıxır. Burada tiryək və onun növləri aşqarlardan (qarışıqdan) təmizlənir və heroinə çevrilir. Heroinin bir hissəsi Avropada yayılır, əsas kütləsi isə ABŞ və Kanadaya göndərilir.

Digər marşrut Myanma, Laos, Tailandın dağ sərhəd vilayətlərini əhatə edən və “qızıl üçbucaq” adlandırılan regiondan başlanır. Burada narkotik maddələr Myanma və Tailanddan keçərək Honkonqa gətirilir, daha sonra isə Yaponiya, Avstraliya və ABŞ-a göndərilir.

Amerika qitəsində öz marşrutları vardır: – bu marşrutlarla cənubdan şimala kokain, marixuana, şimaldan isə (Kanadadan) cənuba (ABŞ-a) Avropadan dolayı yolla gələn heroin, marixuana və həşiş gətirilir.[2]

Eyni zamanda istehsal regionlarından istehlak bazarlarına narkotiklərin daşınmasının ənənəvi marşrutları və kanallarından istifadə etməklə yanaşı, narkoişbazlar yeni nəqliyyat dəhlizləri (yolları) təşkil etməyə çalışırlar.

Hesab edirik ki, hər bir ölkənin suverenliyi və maraqlarını nəzərə almaqla cinayətkarlıqla mübarizə işində ölkələrin səylərinin birləşdirilməsi, şübhəsiz ki, zəruridir.

Narkotizm problemi digər ölkələrdə olduğu kimi, Azərbaycanda da aktualdır. Təəssüflə qeyd etmək lazımdır ki, qeyri-qanuni olaraq narkotik maddə qəbuletmə, narkomaniyaya qurşanma və bunun səbəbi və nəticəsi kimi qeyri-qanuni narkotik maddə “təklif etmə” halları Azərbaycanda da baş verir. Ölkədə qeyri-qanuni olaraq istehlak edilən narkotiklərin böyük bir hissəsi ölkə daxilində istehsal edilsə də, müəyyən bir hissəsi müxtəlif gizli kanallarla digər regionlardan və ölkələrdən gətirilir. Eyni zamanda praktikaya ölkədə qeyri-qanuni olaraq istehsal edilmiş narkotiklərin ölkədən çıxarılması və çıxarılmağa cəhd edilmə halları da məlumdur. Onu da qeyd edək ki, son zamanlar qeyri-qanuni narkotik tacirləri Cənubi, Qərbi və Mərkəzi Asiyadan Avropaya aparmaq üçün Qafqaz dövlətlərindən, o cümlədən Azərbaycanın ərazisindən tranzit ərazi kimi istifadə etməyə başlamışlar.[3]

Bütün bu hallarda ümumiyyətlə, narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə dövlətimizin qarşısında duran vəzifələrdəndir. Narkomanlığın və onunla bağlı cinayətkarlığın cinayətin inkişafına mənfi təsir göstərməsi bu təhlükəli təzahürə qarşı əsaslı sosial-hüquqi tədbirlərin həyata keçirilməsi zərurətini yaratmışdır.

---

[1] Həsənov Ə.E. Narkotizm: Meyillər və aradan qaldırma tədbirləri. Bakı: 1999, s. 14-16.
[2] Родионов К.С. Интерпол: Миф и действительность. Москва: 2004, s. 125.
[3] Доклад международного комитета над наркотиками за ООН, 1998, с. 56.

Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlər arasında əsas yeri 1996-cı ilin avqust ayında narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyasının yaradılması olmuşdur. Komissiya narkotiklərin üzərində nəzarət sahəsində dövlət siyasətinin həyata keçirilməsinə kömək edən kollegial orqandır. Onun əsas vəzifəsi – bu sahədə dövlət siyasətinin reallaşmasını təmin etmək və bunun üçün müvafiq tədbirlər işləyib hazırlamaq; narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə fəaliyyət proqramlarını işləyib hazırlamaq və onların yerinə yetirilməsini təmin etmək; narkotiklər üzərində nəzarət üzrə beynəlxalq əməkdaşlıq sahəsində tədbirlər işləyib hazırlamaq və hökumətlərarası və idarələrarası sazişlər əsasında onları həyata keçirmək; müəyyən olunmuş qaydalar çərçivəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda, müşavirələrdə və seminarlarda iştirak etmək və s.

Məhz bu komissiya tərəfindən "Azərbaycan respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi"nə qarşı mübarizə üzrə ümummilli Dövlət Proqramları işlənib hazırlanmış və qəbul edilmişdir. Bu proqramlarda narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi məsələləri də öz əksini tapmışdır. Dövlətimiz tərəfindən bu sahə ilə bağlı atılan daha bir addım – 1999-cu idə "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında Azərbaycan respublikası qanunu"nun qəbul edilməsi olmuşdur. Bu qanun narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə bağlı, cinayət fəaliyyətinin qarşısının alınmasını, həmin əməlləri törədən şəxslərin aşkar edilməsinin və cəzalandırılmasının hüquqi əsaslarını müəyyən edir. Bu qanunla AR-ın tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, bu zaman beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur (maddə 2, hissə 2). Eyni zamanda ölkədə narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə hüquq-mühafizə orqanlarını, onların maddi bazasını möhkəmləndirmək və bu sahədə onların fəaliyyətini daha effektləşdirmək məqsədilə də bir sıra addımlar atılmış və tədbirlər görülmüşdür.

Narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə bu tədbirlərin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Lakin qeyd etdiyimiz kimi, narkotizmin qeyri-qanuni dövriyyəsi transmilli xarakter almışdır. Həmçinin bu gün Dağlıq Qarabağ probleminin öz həllini tapmaması təkcə region üçün yox, həm də dünyanın gələcək inkişafının sağlam sütunlarının sarsıdılmasına yol açır. Nəzarətsiz zona kimi, siyasi leksikona daxil olmuş Dağlıq Qarabağda və işğal olunmuş ətraf rayonlarda narkotik vasitələrin becərilməsi ən

təhlükəli həddə çatıb. Bu zona həm də narkotiklərin tranzitində istifadə edilir. Narkotiklərdən əldə edilən gəlirlə erməni faşistləri olan terrorçular dövlət səviyyəsində maliyyələşdirilirlər. Təəssüflər olsun ki, dünya birliyi bunu görsə də, heç bir əməli addım atmır.

Həmçinin narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə qabaqcıl təcrübənin öyrənilməsi, beynəlxalq təşkilatların maliyyə, texniki və konsultativ yardımından istifadə və s. baxımından da beynəlxalq əməkdaşlığa böyük ehtiyac vardır.[1]

Məhz buna görə də, Azərbaycanın narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə beynəlxalq-hüquqi əməkdaşlığa qoşulması müvəqqəti və zəruri bir haldır.

İlk növbədə qeyd edək ki, Azərbaycan narkotiklər sahəsində hər üç konvensiyasının iştirakçısıdır.

Respublikamız 1992-ci ilin oktyabr ayında “Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə haqqında BMT kollegiyası”na (1988) və 1998-ci ilin dekabr ayında isə digər iki konvensiyaya – 1961-ci ildə qəbul edilmiş “Narkotik vasitələr haqqında vahid konvensiya”ya (onun düzəldilmiş olan variantına) və 1971-ci ildə qəbul edilmiş “Psixotrop maddələr haqqında konvensiya”ya qoşulmuşdur. Azərbaycan bir sıra dövlətlərlə qarşılıqlı hüquqi yardım haqqında, cinayətkarların verilməsi haqqında müqavilələr bağlamışdır. Cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında hökumətlərarası sazişlər imzalanmışdır. Bu müqavilələrin və sazişlərin müddəaları digər hallarla yanaşı, narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində də hüquq-mühafizə orqanlarının qarşılıqlı münasibətlərini nizama salır. İdarələrarası səviyyədə də, narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə məsələlərini nizamlayan sazişlər imzalanmışdır. Məsələn, 1993-cü ilin oktyabr ayının 21-də MDB çərçivəsində “narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə Daxili İşlər nazirləri arasında əməkdaşlıq haqqında sazişi” bağlanmışdır. Bu saziş Azərbaycan tərəfi də imzalamışdır.

Azərbaycan bir sıra beynəlxalq təşkilatların üzvü kimi, bu təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlıqda iştirak edir. Azərbaycan, o cümlədən narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə beynəlxalq təşkilatlarla, bu təsnifatların müvafiq orqanları ilə və bu təşkilatlar və orqanlar çərçivəsində digər dövlətlərlə əməkdaşlıq edir.

Azərbaycan narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə BMT-nin narkotik vasitələr üzrə komissiyası, narkotiklər üzərində nəzarət üzrə Beynəlxalq proqramı (BMTNBNP) və onun Orta Şərqdə narkotiklərin

[1] Məmmədov S. Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə. Bakı: 2004, s. 58-59.

qeyri-qanuni dövriyyəsi və bununla bağlı məsələ üzrə Yardımçı Komissiyası ilə, həmçinin bu problemlə mübarizənin müxtəlif məsələlərində BMT-nin digər qurumları ilə əməkdaşlıq edir. Bundan başqa, Azərbaycan GUAM-la iqtisadi əməkdaşlıq edir.

Respublikamızın özündə də, narkotizmin artma meyillərinin səbəblərindən biri kimi, qeyri-qanuni narkotiklərin Cənub-Qərbi və Mərkəzi Asiyadan Avropaya daşınmasında Azərbaycanın əsasən işğal olunmuş ərazilərindən tranzit kimi istifadə olunması halları narahatlıq doğurur. Azərbaycan bununla əlaqədar olaraq, BMT-yə və onun müvafiq orqanlarına müraciət etmişdir və BMT-nin İnkişaf Proqramı və BMT-nin Narkotiklərə Nəzarət üzrə Beynəlxalq proqramı (BMTNBNP) Azərbaycanda "Narkotiklərə nəzarət və institusional quruluşa çoxşaxəli yardım" layihəsi həyata keçirmək niyyətinə gəlmişlər.[1]

Layihə hələ ilk dəfə 1996-cı ilin avqust ayında BMT-nin Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Proqramın sabiq icraçı katibi Corcio Cakomellinin Azərbaycana səfəri zamanı və bu vaxta təsadüf edən Azərbaycan Respublikasında narkotiklərlə bağlı vəziyyət haqqında elmi-praktik konfransda müzakirə olunmuşdur. Müvafiq layihə üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi məqsədilə, milli mütəxəssislərdən ibarət İcra Katibliyi yaradılmışdır. Azərbaycan hökuməti Katibliyə müvafiq iş şəraiti yaratmış, layihə tərəfindən isə bu qurum müxtəlif avadanlıqlarla təchiz edilmişdir. Layihə ilk növbədə narkotiklərlə mübarizə sahəsində fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının əməliyyat imkanlarının beynəlxalq tələblərə uyğun olaraq yüksəldilməsinə yönəldilmişdir.

Azərbaycanın BMT-nin Narkotiklərə Nəzarət Üzrə Beynəlxalq Proqramının Yaxın və Orta Şərqdə narkotiklərin qeyri-qanuni dövriyyəsi və bununla bağlı məsələlər üzrə yardımçı Komissiyası ilə əməkdaşlığını xüsusi olaraq qeyd etmək lazımdır. Yardımçı Komissiyanın 32-ci sessiyası 1997-ci ilin fevral ayının 17-27-də Bakı şəhərində keçirilmişdir. Müvafiq Yardımçı Komissiyanın üzvü olan 20 dövlətdən müşahidəçi qismində, 9 dövlətdən və 7 beynəlxalq, 8 müşahidəçi təşkilatdan 120-dən çox nümayəndə iştirak edən bu sessiyada regiondakı narkotiklərlə bağlı vəziyyət ətraflı müzakirə olunmuş, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə regionun dövlətləri, həmçinin onların hüquq-mühafizə orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsi qarşılıqlı hüquqi yardım məsələlərinin daha operativ həll edilməsi, müvafiq orqanlar arasında məlumat mübadiləsinin aparılması, narkotiklərin hərəkəti

[1] Azərbaycan Respublikasında narkotik vəziyyət haqqında elmi-praktik konfrans. Bakı şəhəri, 1996, s.5.

üzərində beynəlxalq nəzarətin dürüst həyata keçirilməsi və s. ilə bağlı təkliflər irəli sürülmüşdür. Sessiyanın yekun sənədi kimi, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni becərilməsi, istehsalı, dövriyyəsi, bölüşdürülməsi və istifadəsi ilə mübarizədə regional əməkdaşlıq haqqında" Bakı sazişi qəbul edilmişdir. Bundan başqa, respublikanın sabiq Baş nazirinin müavini, Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Dövlət Komissiyasının sədri İzzət Rüstəmov sessiyanın sədri seçilmişdir. Sessiyada sabiq ölkə prezidenti, ulu öndər Heydər Əliyevin narkomaniyaya qarşı mübarizənin, o cümlədən regionda və Azərbaycanda qlobal əhəmiyyəti, son dərəcə təhlükəli bu sosial bəla ilə mübarizə problemlərinin kökünün kəsilməsində respublikanın dövlət və hüquq-mühafizə orqanlarının vəzifələrini işıqlandıran dərin məzmunlu çıxışı xüsusi diqqətlə dinlənildi.

Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə AR Dövlət Komissiyası sədrinin müavini cənab Ramil Usubovun təqdim etdiyi məruzəsi və Narkotiklər Üzrə Yardımçı Komissiyanın icraçı direktorunun nümayəndəsi S.Noyanın R.Kendalın, narkotiklər üzrə komissiyanın katibi Y.Myuronun, Azərbaycan Respublikası icra aparatının şöbə müdiri F.Ələsgərovun və başqalarının informasiyaları böyük maraqla dinlənilmişdir.

Problemlərin fəal və səmərəli müzakirəsində, diskussiyalarda Bəhreyn, Misir, Hindistan, İran, İordaniya, Küveyt, Səudiyyə Ərəbistanı, Türkiyə, Özbəkistan, Gürcüstan, Rusiya, ABŞ, Böyük Britaniya Krallığı və digər ölkələrin nümayəndələri iştirak etmişlər.

Sessiyanın iştirakçıları xüsusi narahatlıqla qeyd etdilər ki, narkotiklərin qanunsuz dövriyyəsi sahəsindəki qlobal dəyişikliklər regionda vəziyyətə mənfi təsir göstərir, müxtəlif ölkələrdə narkotiklərin becərilməsi, istehsalı, dövriyyəsi, yayılması və istehlakı ilə bağlı ofisin yaradılması təsirinin genişləndirilməsinin nəticələri hiss olunmaqdadır. Narkobiznesla bağlı cinayətkar fəaliyyət, ilk növbədə beynəlxalq terrorizm, separatizm və silah alveri təhlükəli miqyas almışdır, bəzi ölkələrin inkişaf yolundan uzaqlaşmasına, sosial-iqtisadi vəziyyətin qeyri-sabitliyinə, cəmiyyətin mənəvi və sosial dayaqlarının sarsıdılmasına səbəb ola bilər.

Sessiyada qeyd olundu ki, dövlət sərhədlərinin və ərazi bütövlüyünün toxunulmazlığının beynəlxalq prinsiplərinin narkotiklərin daşınmasının yeni marşrutlarının meydana gəlməsinə, mütəşəkkil cinayətkar silahlı qruplar tərəfindən narkotik vasitələrin işğal edilmiş ərazilər vasitəsilə böyük həcmdə daşınmasına, narkotiklərin istehsalına və tərkibində narkotik maddələr olan bitkilərin becərilməsinə gətirib çıxarır. Bununla əlaqədar, sessiyada çıxış edənlər narkotik vasitələrin və psixotrop preparatların, habelə bunların pre-

kursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə regionun dövlətlərinin və onların hüquq-mühafizə orqanlarının əməkdaşlığını möhkəmləndirmək, narkobiznesin və narkomaniyanın qarşısını almağa dair beynəlxalq tədbirlərin əlaqələndirilməsini yaxşılaşdırmaq, dövlətlərarası hüquqi yardım məsələlərini daha operativ həll etmək, gömrük sərhəd, tibb, maliyyə və hüquq mühafizə orqanları arasında informasiya mübadiləsi, narkotiklərin axınına dəqiq beynəlxalq nəzarət, narkotiklərlə məşğul olan işbazların təhvil verilməsi məsələlərini vaxtında həll etmək, narkotik vasitələrin daşınma marşrutlarında gömrük və sərhəd məntəqələrinin möhkəmləndirilməsi və s. məsələlər irəli sürülmüşdür.

Azərbaycan nümayəndə heyətinin üzvləri yeniyetmələrin və gənclərin narkomaniyaya cəlb olunmasının profilaktikasına, narkotiklərə qurşanmış şəxslərin anonim müalicəsi və reabilitasiyasına dair bir sıra konkret təkliflər verdilər, regionun dövlətlərinin narkotiklərlə bağlı cinayətlərdə təqsirləndirilən və axtarışda olan şəxslərə siyasi sığınacaq verilməsindən və onlara digər yardım göstərilməsindən imtina etməyə, milli sərhədlərin və ərazi bütövlüyünün hər hansı şəkildə pozulmasını beynəlxalq miqyasda pisləməyə çağırdılar.

Sessiyanın işçi qruplarında narkotiklərin dəniz yolu ilə qanunsuz daşınmasına və konteynerlərdə qaçaqmalçılıqla daşınmasına qarşı mübarizə, regionda əməkdaşlığın mexanizminin yaradılması və fəaliyyətinin prinsipləri haqqında, regionda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi, becərilməsi, emalı və istehsalı ilə məşğul olan cinayətkar təşkilatlar barədə rəy və informasiya mübadiləsi məsələləri də müzakirə olundu.

Azərbaycan nümayəndə heyətinin təklif etdiyi "Narkotik maddələrin və psixotrop maddələrin qanunsuz becərilməsi, istehsalı, dövriyyəsi, yayılması və istehlakına qarşı mübarizədə regional əməkdaşlıq haqqında Bakı sazişi" layihəsi ətraflı müzakirə olunduqdan sonra, sessiyanın iştirakçıları bu layihənin əsaslı, faydalı və mühüm olması qərarına gəldilər, nəticədə o, sessiyanın yekun sənədi kimi qəbul edildi. Bu sənədin BMT məclisinin 1998-ci ilin iyun ayında Nyu-Yorkda keçiriləcək "Narkotiklər üzrə beynəlxalq nəzarət məsələlərinə dair" xüsusi sessiyanın əsas sənədi kimi, BMT-nin üzvü olan bütün dövlətlər arasında yayılması qərara alındı.[1]

R.Kendal çıxışında qeyd etmişdir ki, ümumiyyətlə narkomaniyanın yayılma miqyası Azərbaycanda başqa ölkələrdəki kimi ciddi deyil. Hazırda Azərbaycan narkotik maddələrin satış bazarı deyil. Bu, mövcud durumda Azərbaycanın müəyyən mənada xoşbəxtliyidir. Lakin iqtisadiyyat dirçəldik-

---

[1] Narkotiklər üzrə Yardımcı Komissiyanın 32-ci sessiyası başa catmışdır // Azərbaycan, 1997, 25 fevral, №37(1558).

cə, ərazimizə giriş-çıxış artdıqca son nəticədə ölkəmiz satış bazarına da çevrilə bilər. Ona görə də yaranacaq vəziyyəti düzgün qiymətləndirib qabaqlayıcı tədbirlər görmək lazımdır.

Bundan başqa bir tarixi faktı da qeyd edək. 1996-cı ilin oktyabrın 23-29-da Türkiyənin Antalya şəhərində İnterpolun Baş Assambleyasının 65-ci sessiyası keçirildi. Orada qeyd edilən məsələlərlə yanaşı, Azərbaycanda İnterpolun MMB-nin modernləşdirilməsi də Baş Katibliyin 4-cü idarəsinin rəhbərliyi ilə müzakirə edildi.

Konfransda müzakirə edilən məsələlər əsasən, yaranmış vəziyyətə, yeni tendensiyalara, yeni daşınma marşrutlarına həsr edilmişdir. Qeyd olundu ki, ümumiyyətlə, beynəlxalq polis əməkdaşlığı və ilk növbədə narkotiklərlə bağlı sahədə əlaqələndirmə və kriminal xarakterli məlumatların çevik mübadiləsi olmadığı halda, müsbət nəticələrin qazanılması problemdir. Buna görə də, İnterpol çərçivəsində tətbiq edilən yeni formada narkotik vasitələrin və psixotrop maddələrin aşkar edilməsi və tutulması barədə məlumat mübadiləsi son dərəcə vacibdir. Həmin məlumatların təhlili əsasında yeni marşrutların, yeni gizlənmə üsullarının, belə qanunsuz əməllərdə əli olan təşkilatların müəyyən edilməsinə imkan yaranır və təhlilin nəticəsi təşkilatın üzvü olan ölkələrə yayılır. Son zamanlar terrorçu təşkilatlar da narkotiklərin becərilməsi, daşınması və yayılması ilə bilavasitə məşğul olur və bu əməliyyatlardan əldə olunan pul vəsaitləri silahların və partlayıcı maddələrin alınması, dinc əhaliyə qarşı tətbiq edilməsi üçün istifadə edilir. Məsələn, Türkiyədə fəaliyyət göstərən Kürd İşçi Partiyası (PKK) bunun üçün əyani sübutdur.[1]

Araşdırmalar nəticəsində məlum olmuş Azərbaycan Respublikasında İnterpolun MMB-nin məlumatı əsasında Narkotiklə bağlı bir neçə uğurlu əməliyyatı qeyd etmək vacibdir.

1997-ci ildə Türkmənistan Respublikasında Bakı şəhərindən ünvanlanmış konveyerdə 500 kq Əfqanıstan heroini aşkar edilmişdir.

1997-ci ildə MMB-nin əməkdaşlarının məlumatı əsasında, Bakı hava limanında Hindistandan Avropaya keçirmək məqsədi ilə 34000 ampul psixotrop maddəsi olan buprenofrin, 1997-ci ilin yanvar ayında Türkiyə hüquq-mühafizə orqanları tərəfindən Bakı-Türkiyə marşrut avtobusunda 480 kq Əfqanıstan dövlətinə keçirilməli olan heroin maddəsi aşkar edilmişdir.

1998-ci ildə Mütəşəkkil Cinayət qrupu tərəfindən Sürix-Bakı marşrutu üzrə saxta sertifikat düzəldilmiş, 76 kq 650 qr "Fenelin" psixotrop maddəsi aşkar edilmiş və cinayətkar tutulmuşdur. Bundan başqa 1999-cu ilin avqust ayında Türkiyə Respublikasında Bakı-Türkiyə refrijerator yükündə gizlədilmiş 515 kifayət qədər narkotik maddə müsadirə edilmişdir. Aparılmış araş-

[1] Türkiyənin Antalya şəhərində İnterpolun Baş Assambleyasının 65-ci sessiyası keçirilib // Mübariz keşikdə, 1996, 5 dekabr, №46(2314).

dırma nəticəsində məlum olmuşdur ki, bu yük Əfqanıstandan Türkmənistana, Azərbaycandan Türkiyəyə və Avropaya keçirilməli idi.

1990-cı illərin axırlarına Azərbaycan Səhiyyə Nazirliyinin məlumatına əsasən, 12.000 aktiv narkotik qəbul edən şəxs aşkar olunmuşdur ki, bu da ölkə əhalisinin 10.000 nəfərinə 1.5 nəfər deməkdir.[1]

Yuxarıdakılara əsasən belə qənaətə gəlmək olar ki, müstəqilliyin ilk dövrlərində, SSRİ dağıldıqdan sonra yiyəsiz qalan sərhədlər müəyyən qadağalar sisteminə belə əl-qol atmağa çalışanlara, asan yolla qazanc əldə etmək istəyənlərə böyük fürsət verdi. Dəniz, hava və quru sərhədlərindən maneəsiz şəkildə narkotik vasitələr və onların prekursorları daşınaraq yüksək gəlir gətirən sahəyə çevrildi. Ən çox da İran vasitəsilə qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin cənub bölgəmizdən daxil olması bu bölgənin gənclərinin müəyyən hissəsini öz ağuşuna asanlıqla ala bildi. Ölkədə siyasi sabitliyin olmaması, yuxarıda qeyd olunduğu kimi, Ermənistanın elan olunmamış müharibəsi, erməni faşistləri tərəfindən ərazimizin 20 faizinin işğal edilməsi və işğal olunmuş ərazilərimizdə narkotik maddələrin becərilməsinə və terroristlərin maliyyələşməsinə şərait yaratdı. Onu da qeyd etmək lazımdır ki, işğal olunmuş ərazilərimizin 120 km İranla həmsərhəddir və həmin ərazi erməni ordu birləşmələrinin nəzarəti altındadır. Ona görə də, narkotik vasitələr oradan xarici ölkələrə asanlıqla ötürülür.

Bu mənfi amillər çox şübhəsiz ki, bir çox dövlətlərin ürəyincə idi. Azərbaycan kimi təbii sərvətlərlə zəngin olan bir ölkəni asanlıqla ələ keçirməyin yollarından biri də, narkomaniya kimi bəlalarla onu üzbəüz qoymaq idi.

Narkomaniyanın yayıldığı sosial problemlərin qarşısını almaq üçün dövlətlərin mübarizə sistemi işləyir. Respublikada narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin yüksəldilməsi və bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi xüsusi diqqət mərkəzindədir. Ölkəmizdə bu aktual problemin qarşısını almaq məqsədilə Ulu öndər Heydər Əliyev hələ 26 avqust 1996-cı ildə "Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" fərman imzalamış, eyni zamanda 15 iyul 2000-ci il tarixli fərmanla 2000-2006-cı illədək narkomaniyanın yayılmasına, narkotik vasitələrin, psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə milli proqram qəbul edilmişdir. Bu proqramın tələblərindən irəli gələn məsələlərin həlli, eləcə də aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexa-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 1999-cu il üçün xidməti fəaliyyətinə dair arayışı.

nizminin həyata keçirilməsi məqsədilə Dövlət komissiyası yaradılmışdır.

Daha bir tarixi hadisəni qeyd etmək yerinə düşərdi.

1999-cu il 1-5 mart tarixində İqtisadi əməkdaşlıq təşkilatı (EKO) və BMT-nin Narkotiklərə Nəzarət Üzrə Beynəlxalq Proqramı (BMTNBNP) Tehran şəhərində “İqtisadi əməkdaşlıq regionunda narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlığa qarşı mübarizənin hüquqi cəhətləri” mövzusunda seminar keçirmişdir. Seminarın işində Azərbaycan Respublikası prokurorluğunun Daxili İşlər və Ədliyyə nazirliklərinin, Bakı şəhər məhkəməsinin və Bakı Gömrük idarəsinin məsul işçilərindən ibarət ekspertlər qrupu və Azərbaycan Respublikasında İnterpolun MMB-nin məsul işçiləri iştirak etmişlər.

İqtisadi əməkdaşlıq təşkilatının baş katibi Ö.Özər İranın Baş Prokuroru Möhtəlan, BMT-nin Narkotiklərə nəzarət üzrə beynəlxalq proqramının nümayəndəsi B.Sepoy bu tədbirin narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əhəmiyyətini qeyd etmişlər. Seminarı plenar iclasında narkotiklərə qarşı mübarizə problemləri ilə bağlı bir sıra məruzələr dinlənilmiş və fikir mübadiləsi aparılmışdır.

Azərbaycan nümayəndə heyəti seminarda fəal iştirak etmişdir. DİN Narkotiklərlə Mübarizə İdarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı R.Cahangirov bu sahədə respublikamızda görülən işlərdən, dövlətimizin başçısının bilavasitə diqqət və qayğısı ilə həyata keçirilən mühüm tədbirlərdən danışmışdır. [1]

Seminarın sonunda işçi qrupunun hesabatı dinlənilmiş, gündəlikdə duran məsələ ilə əlaqədar İƏT-in və MBT proqramının əməkdaşlığı məqsədəuyğun hesab edilərək, müvafiq tövsiyələr qəbul olunmuşdur.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivindən götürülmüş, MMB-nin əsas fəaliyyət istiqamətlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi sahəsində informasiya mübadiləsi əsasında olan faktları qeyd edək.

2000-ci il hesabat dövrü ərzində Respublika ərazisində narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olduğuna görə tutulmuş 30 nəfər İran, 1 nəfər Özbəkistan və 1 nəfər Azərbaycan vətəndaşı barədə MMB tərəfindən göndərilmiş məlumat əsasında həmin şəxslər beynəlxalq uçota alınmışlar. Onlardan 48.722 tiryək, 1.394 kq heroin, 2.850 kq marixuana müsadirə edilmişdir. Bundan başqa, mütəşəkkil CMİ-nin istintaq şöbəsi tərəfindən AR vətəndaşı İ. Tağıyevdən 2.85 kq qurudulmuş marixuana tutulması faktı üzrə cinayət işi qaldırılmış və istintaq zamanı müəyyən edilmişdir ki, o, marixuananı İran İslam vətəndaşı D.Haşimidən əldə etmişdir. bununla bağlı İnterpolun İİR-də MMB-na müvafiq sorğu göndərilmişdir.

---

[1] Tehranda narkotiklərlə mübarizə mövzusunda seminar müşavirə keçirildi // Mübariz keşikdə, 1999, 11 mart, №9(7777).

Azərbaycan Respublikasında İnterpolun MMB-nə daxil olmuş məlumat əsasında 22.05.2000 tarixdə DİN-in Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları ilə birgə keçirilən tədbir nəticəsində Azərbaycan vətəndaşı V.M.Məmmədovdan 140 qr heroin götürülmüş və V.M.Məmmədov barəsində toplanmış material Bakı şəhər Baş Polis İdarəsinin istintaq şöbəsinə göndərilmiş və orada fakt üzrə cinayət işi qaldırılmışdır.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin sabiq rəisi Ə.İbrahimov "Respublika" qəzetinə verdiyi müsahibələrin birində – Azərbaycanın çox zəngin intellektual potensialı və misilsiz xammal ehtiyatları, Avropadan Asiyaya gedən yolda əvəzedilməz coğrafi mövqeyi onun dünya birliyində sanballı yer tutmasına imkan vermişdir. Traseka proqramı çərçivəsində nəzərdə tutulan Avropa ilə Asiya arasındakı körpü, Böyük İpək yolunun bərpası ölkəmiz qarşısında intensiv inkişaf üfüqləri açır. İqtisadi yüksəlişin həlledici şərti hesab edilən investisiya qoyuluşu ildən-ilə artır. İndi Azərbaycanda yalnız neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə də xarici investisiya qoyuluşu xeyli artmışdır. Xarici investorlarla yanaşı, ölkəmiz beynəlxalq cinayətkar qrupların da diqqətini, sözsüz ki, cəlb edir. Narkotik vasitələr və psixotrop maddələrin qaçaqmalçılığı ilə məşğul olan cinayətkar qruplar Azərbaycan ərazisindən tranzit keçidi kimi istifadə etməyə cəhd edirlər. Bu cür hallarla mübarizə məqsədilə Heydər Əliyevin 15 iyun 2000-ci il tarixli 371 saylı fərmanı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə ümümmilli proqram"ın yerinə yetirilməsi istiqamətində DİN-in 2006-cı ilədək tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına uyğun olaraq, Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu bu sahədə ölkəmizə kriminal vəziyyətə müsbət təsir göstərə biləcək konkret amil və mövzularla bağlı, xarici dövlətlərin qabaqcıl iş təcrübələrinin öyrənilməsi və ölkəmizin müvafiq orqanlarının bu təcrübə ilə tanış edilməsi yönündə daimi fəaliyyət göstərir, İnterpolun kanalları ilə daxil olan kanalları və ölkəmizdə narkotiklərlə bağlı görülmüş işlərin təhlili göstərir ki, artıq ərazimiz beynəlxalq narkobiznesin diqqət mərkəzindədir. Son illər "Qızıl Aypara" dövlətlərindən (Pakistan, Əfqanıstan, İran) külli miqdarda narkotiklərin müxtəlif konteyner və nəqliyyat vasitələri ilə Qafqaz istiqamətində Qərbi Avropaya daşınması davam edir. Narkobiznesin Qərbi Avropaya daşınması Avropa ölkələrində böyük narahatlıq doğurduğundan bu cür hallarla mübarizə məqsədi ilə son vaxtlar bu sahədə bir sıra beynəlxalq tədbirlər həyata keçirilmişdir. 2000-ci ilin sentyabr ayında "Böyük İpək yolun-

[1] Azərbaycan Respublikasında İntrpolun MMB-nin cari arxivi. MMB-nin 2000-ci il üçün xidməti fəaliyyətinə dair arayışı, s. 7-8.

da baş verən narkotiklərlə bağlı cinayətkarlığa qarşı mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilmiş və həmin konfransda İnterpolun Milli Mərkəzi Bürosunun sabiq rəisi polis polkovniki Ədalət İbrahimov da iştirak etmişdir. Mərkəzi və Şərqi Avropa Şurasının üzvü olan digər ölkələrin və Orta Asiya dövlətlərinin hüquq-mühafizə orqanlarının rəhbər işçilərinin bu konfransda "Narkotiklərin qaçaqmalçılığı və qanunsuz dövriyyəsi" sahəsində əldə edilmiş təcrübə mübadiləsilə yanaşı, narkotiklərin "Qızıl Aypara" ölkələrindən İpək yolu ilə Avropaya daşınmasının qarşısının alınmasında birgə əməkdaşlığın birgə strategiyası hazırlandı. MMB-nin sabiq rəisi Ə. İbrahimov bildirmişdir ki, ölkəmiz keçid dövrünü yaşadığından iqtisadiyyatımızda həmin dövrün tələblərindən doğan bir sıra çətinliklər vardır. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal olunması, 1 milyondan çox vətəndaşımızın öz doğma yurd-yuvalarından didərgin düşməsi mövcud vəziyyəti daha da mürəkkəbləşdirmişdir. Odur ki, bu cür vəziyyətdən məharətlə yararlanan beynəlxalq cinayətkar qruplar tərəfindən ölkəmizin ayrı-ayrı vətəndaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə cəlb olunurlar. Təkcə 2000-ci il ərzində MMB-yə Türkiyədən 15, Rusiyadan 18 və Ukraynadan 3 nəfər Azərbaycan vətəndaşının qanunsuz narkotik dövriyyəsi ilə məşğul olduqları barədə məlumat daxil olmuşdur. 2000-ci il tarixində DİN-in İstintaq İdarəsində transmilli cinayətkar qrup tərəfindən külli miqdarda psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə daşınması ilə bağlı cinayət işinin istintaqı aparılmışdır. İstintaq nəticəsində müəyyən edilmişdir ki, 1998-ci ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi adından təqdim olunmuş saxta lisenziya ilə Berndən Bakı şəhərindəki apteklərin birinə 76,65 kq fenetin keçirilmiş, buradan isə Türkiyəyə aparılmışdır. Bu faktla bağlı İnterpolun Bakı və Ankarada Milli Mərkəzi Büroları və Baş Katiblik birgə bu istiqamətdə kompleks tədbirlər həyata keçirmişlər.

Təəssüflə qeyd etmək lazımdır ki, bu cinayət əməlində mütəşəkkil cinayət qrupunun tərkibində Azərbaycan vətəndaşları da iştirak etmişlər.[1]

MMB-nin 2001-ci ildəki fəaliyyət sahəsi olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəsinə nəzər saldıqda məlum olur ki, MMB narkotiklərin qanunsuz dövriyyəsi sahəsində İnformasiya mübadiləsinə xüsusi diqqət yetirmişdir. Respublika ərazisində narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olduğuna görə tutulmuş 36 nəfər xarici ölkə vətəndaşı barədə göndərdiyimiz məlumat əsasında həmin şəxslər beynəlxalq uçota alınmışlar.

AR DİN-in İstintaq İdarəsi tərəfindən transmilli cinayətkar qrupun külli miqdarda psixotrop vasitələrin qaçaqmalçılıq yolu ilə daşınması ilə əla-

[1] Rəcəbova M. İnterpol kimi və nəyi axtarır? // Respublika., 2001, 4 fevral, №28 (1065).

qədar olaraq qaldırılan cinayət işinin təhqiqatı ilə bağlı İnterpolun Türkiyədə və İsveçrədə MMB-nə sorğular göndərilmişdir.

Hesabat dövrü ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nə Türkiyədən 6, RF-dən 9, İİR-dən 3, BƏƏ-dən 6 nəfərin qanunsuz narkotik dövriyyəsi ilə məşğul olduqları barədə məlumat daxil olmuşdur. Həmin şəxslərdən 19 nəfəri Azərbaycan vətəndaşlarıdır.

İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 121 nəfər şəxs cinayət uçotundan yoxlanılmışdır.[1]

MMB-nin 2002-ci ildə narkotiklərə qarşı mübarizə sahəsindəki fəaliyyətini araşdırarkən məlum oldu ki, hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən və respublikanın hüquq-mühafizə orqanlarından narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 311 sənəd daxil olmuşdur. Respublika ərazisində narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olduğuna görə 15 nəfər xarici ölkə vətəndaşı barədə göndərilən məlumat əsasında, həmin şəxslər beynəlxalq uçota alınmışlar. Onlardan 11-i İİR, 2-si Gürcüstan, 1-i Ukrayna və 1-i Rusiya vətəndaşıdır. Həmin şəxslərdən 606,4 kq tiryək, 307 qr heroin, 1.350 kq marixuana və 2.239 kq həşiş müsadirə olunaraq götürülmüşdür.

2002-ci ilin hesabat dövrü ərzində MMB-yə RF-dən 11, Türkiyədən 16, İİR-dən 2, BƏƏ-dən 1 və Pakistandan 1 nəfərin qanunsuz narkotik dövriyyəsi ilə məşğul olduqları barədə məlumat daxil olmuşdur. Həmin şəxslərin hamısı Azərbaycan vətəndaşlarıdır. Onlardan 2.481 kq heroin, 1.964 kq həşiş, və 17,1 kq marixuana müsadirə edilərək götürülmüşdür. İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 213 nəfər şəxs kriminal uçotdan yoxlanılmışlar.[2]

Daha bir tarixi hadisəni qeyd edək. İnterpolun 3 oktyabr-4 noyabr 2001-ci ildə İtaliyanın Roma şəhərində İnterpolun Baş Assambleyasının 69-cu sessiyası keçirilmişdir. Sessiyada Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları və ümumiyyətlə 178 ölkənin nümayəndələri iştirak etmişlər. Müzakirə olunan aktual məsələlərdən biri də narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində qarşılıqlı polis əməkdaşlığının daha səmərəli aparılması olmuşdur. Qarşılıqlı əlaqələrin operativliyi baxımından, İnterpolun Baş Katibliyinin məlumat bazasına MMB-nin birbaşa çıxışına imkan verməsinin vacibliyi qeyd olunmuşdur. Baş Katibliyin nümayəndəsi

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2001-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 7-8.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2002-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 5-6.

öz çıxışında qeyd etmişdir ki, bir sıra Avropa dövlətlərində və müstəqillik əldə etmiş MDB ölkələrində heroin dövriyyəsi xeyli artıb. Əfqanıstan dünyanın ən çox narkotik istehsalçısı olmaqdadır. İranda narkotiklərin yük maşınları ilə daşınmasının qarşısını almaq üçün ciddi tədbirlər görülsə də, ölkə ərazisindən külli miqdarda heroin, morfi keçirilmişdir. Xəzər hövzəsində xeyli miqdarda narkotiklər müsadirə edilib. Qərbi Avropaya nəql edilən narkotiklərin 90 faizi Baltik marşrutu ilə daşınmışdır.

Bir məsələni də qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının Azərbaycan Respublikasında İnterpolun MMB-nə narkotiklərin qanunsuz dövriyyəsi barədə sorğularla müraciət etmələri üçün əsas narkotiklərin qanunsuz dövriyyəsi faktları əsasında qaldırılmış cinayət işlərinin operativ hesablarıdır. Bu zaman aşağıdakı şərtlərdə heç olmasa birinin olması vacibdir:

- Narkotiklərin Azərbaycan Respublikasının ərazisinə gətirilmə cəhdi zamanı müsadirə olunması;
- Narkotiklərin tranzit yolu ilə əcnəbi dövlətə keçirilməsi;
- Narkotiklərin əcnəbi dövlətlərdən gətirilməsi;
- Narkotiklərin başqa dövlətə keçirilmə təyinatı olması;
- Narkocinayətdə iştirak edən şəxslərin heç olmasa birinin əcnəbi vətəndaş olması;
- Narkotiklərin hazırlandığı və ya təkrar istehsal etdiyi şəxslər və laboratoriyaların aşkar edilməsi.

Narkotiklərin qanunsuz dövriyyəsi faktı haqqında məlumatların Azərbaycan Respublikasında İnterpolun MMB-si ilə ötürülməsinin nizamlanması üçün İnterpolun Baş Katibliyi tərəfindən işlənib hazırlanmış “Narkotiklərin qanunsuz dövriyyəsi haqqında” sorğu və ya müraciət formalarından (“ST-forma”, “ST2-forma”) istifadə olunur. Narkotiklərin qanunsuz dövriyyəsi haqqında məlumatlar 3 mərhələdə ötürülür:

1. Narkotiklərin aşkar edilməsindən və götürülməsindən sonra üç sutka ərzində MMB-yə “ST-xəbər” göndərilir.

“ST-xəbər” aşağıda qeyd olunan hallardan hər hansı biri olduqda göndərilir:

- 100 qr və daha çox heroin, tiryək, morfin və ya kokain götürülmüşdür;
- Şəxsi istehsal üçün nəzərdə tutulduğundan artıq istənilən həcmdə psixotrop maddə və ya amfetamin götürülmüşdür.

Sorğuda əcnəbi dövlətlərin polis orqanlarının qarşısında hansı sualların qoyulmasının zəruri olduğu konkret göstərilməlidir:

- Şəxsin kriminal qeydlər üzrə yoxlanılması;
- Şəxslərin eyniləşdirilməsi;

- Şəxslərin olduqları yerlərin müəyyənləşdirilməsi;
- Şəxslərin hazırlanan və ya artıq törədilmiş cinayətlərdə iştirak barədə məlumatların göndərilməsi.

2. Narkotiklərin aşkar edilməsi və ya götürülməsindən sonra, 30 sutka ərzində əgər istintaq zamanı əlavə məlumatlar əldə olunmazsa, iki hissədən (Avə B hissələri) ibarət "ST-forma" göndərilir.

"A" hissəsi narkotiklərin qanunsuz dövriyyəsi və götürülməsi faktına haqqında məlumatı əks etdirir. B hissəsi narkotiklərin qanunsuz dövriyyəsi və götürmə faktına aidiyyəti olan şəxslər haqqında məlumatı əks etdirir.

Əgər narkotiklərin qanunsuz dövriyyəsinə iki və daha çox şəxs cəlb olunmuşsa, "ST-forma"larının "B" hissəsi, hər hansı şəxs üçün ayrıca doldurmaqla, cinayətdə iştirak edən şəxslərin sayına bərabər olur. Hər bir "ST-forma"ya tutulmuş şəxsin fotoşəkli və daktiloskopik vərəqəsinin üç surəti və əgər varsa, şəxsiyyətini təsdiq edən sənədlərin surəti əlavə edilir.

Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları İnterpolun Baş Katibliyindən və İnterpolun xarici ölkələrdəki MMB-dən aşağıdakı məlumatları ala bilər:

- İş üzrə narkotiklərin qanunsuz dövriyyəsinə aidiyyəti olan şəxslər haqqında;
- Narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan cinayətkar birliklər haqqında;
- Narkotiklərin götürülməsi faktları haqqında;
- Qanunsuz dövriyyədə olan narkotik vasitələrin və ya psixotrop maddələrin əsas növləri haqqında;
- Narkotiklərin qeyri-qanuni istehsal üsulları, onların daha çox rast gəlinən qablaşdırma üsulları, onların aşkar edilmiş gizli laboratoriyaları haqqında;
- Göndərilmə kanalları və gizlədilmə üsulları haqqında;
- Narkotiklərin qanunsuz dövriyyəsilə mübarizə problemləri üzrə İnterpol xətti ilə keçirilən beynəlxalq konfranslar, simpoziumlar və digər görüşlərin materiallarını;
- Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında Baş Katiblik tərəfindən hazırlanan dövrü nəşrləri;
- Statistika və hüquqi tətbiqi fəaliyyətin xülasələrini (narkotiklərin aşkar edilməsi və götürülməsi tədbirlərinin təhlili, narkobizneslə mübarizədə yeni istiqamətlər, müxtəlif dövlətlərin ixtisaslaşdırılmış polis xidmətlərinin fəaliyyəti haqqında məlumatverici materiallar).[1]

[1] Məmmədova M. Azərbaycan Respublikasında İnterpolun MMB-nin narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə əlaqədar fəaliyyəti// Hüquqi dövlət və qanun, 2002, №1, s.45-47.

2003-cü ildə MMB-nun əsas fəaliyyət istiqaməti olan qanunsuz dövriyyəsi sahəsində informasiya mübadiləsinə xüsusi diqqət yetirmişdir. Belə ki, 2003-cü ilin hesabat dövrü ərzində MMB-yə İnterpolun üzvü olan ölkələrdən və respublikanın hüquq-mühafizə orqanlarından narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 134 sənəd daxil olmuşdur. Respublika ərazisində külli miqdarda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olduğuna görə tutulmuş 14 nəfər xarici ölkə vətəndaşı barədə göndərilmiş məlumat əsasında həmin şəxslər beynəlxalq uçota alınmışlar. Onlardan 12-si İran İslam Respublikası, 2-si Gürcüstan vətəndaşı olublar. Həmin şəxslərdən 190 kq heroin, 2,402 kq marixuana, 640 qr həşiş, 663 qr tiryək müsadirə olunaraq götürülmüşdür.

Eyni zamanda MMB-yə qanunsuz narkotik dövriyyəsi ilə məşğul olduqlarına görə RF-dən 6, Türkiyədən 4, Almaniyadan 3 və BƏƏ-dən 2 nəfər Azərbaycan vətəndaşı barəsində məlumat daxil olmuşdur. Onlardan 2 kq kokain, 721,7 qr heroin, 7,4 qr həşiş, 420 qr amfetamin, 72186 ədəd emfingen və 389 ədəd ekstayi həbləri müsadirə edilərək götürülmüşdür. Bu faktlar barədə DİN-in NMİ-yə və ƏSİİ-yə müvafiq məlumat verilmişdir.

İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 275 nəfər şəxs kriminal uçotdan yoxlanılmışdır.[1]

2004-cü ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən və respublikanın hüquq-mühafizə orqanlarından narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 256 sənəd daxil olmuşdur. MMB-yə qanunsuz narkotik dövriyyəsi ilə məşğul olduqlarına görə RF-dən 6, Tehrandan 5, BƏƏ-dən 3, Türkiyədən 3 Azərbaycan vətəndaşı haqqında məlumat daxil olmuşdur. İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında tutulmuş 9 İran İslam Respublikası, 2 Gürcüstan vətəndaşı barədə İnterpolun Baş Katibliyinə göndərilmiş "ST MESSAGE" formasında məlumata əsasən, onlar beynəlxalq uçota alınmışlar. Narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan 3 Azərbaycan və 9 İran vətəndaşının əl-barmaq izləri müvafiq qeydiyyatlara götürülməsi üçün İnterpolun Baş Katibliyinə göndərilmişdir.[2]

22 yanvar 2004-cü il tarixində Bakı şəhərində "Gülüstan" sarayında Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Azərbaycan Dövlət Gömrük Komitəsi ilə birgə təşkil etdiyi "Böyük İpək yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusuna həsr edilmiş bey-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2003-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s. 2, 4.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s.12.

nəlxalq konfrans keçirildi. Konfransda dünyanın bir sıra ölkələrinin məsul vəzifəli şəxsləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər.

Azərbaycan hökuməti adından çıxış edən Baş nazirin müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyasının sədri Əli Həsənov qeyd etdi ki, müasir dünyamızda bir çox hallarda terrorçuluq QİÇS və digər hallarda müşayiət olunan narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinin genişlənməsi XXI əsrdə insanlıq üçün qorxunc təhlükəyə çevrilib. Onun sözlərinə görə, qlobal təhlükə xarakteri almış narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı effektiv mübarizə aparılması bütün ölkələrin və beynəlxalq təşkilatların birgə fəaliyyəti nəticəsində mümkündür.

Konfransa sədrlik edən Əli Həsənov çıxışının sonunda Prezident İlham Əliyevin BMT-nin Narkotiklər və Cinayətkarlıq Üzrə İdarəsinin icraçı direktoru, BMT Baş katibinin müavini cənab Antonio Maria Kosta ilə görüşündə bildirdiyi "Azərbaycan bundan sonra da narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəsini davam etdirəcəkdir" fikrini xatırladaraq, tədbirin ölkələr arasında əməkdaşlıq səviyyəsinin yüksəldilməsinə öz bəhrəsini verəcəyinə əmin olduğunu bildirdi. [1]

Azərbaycan Respublikası Prezidentinin 28/06/2007-ci il tarixli 2271№-li sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin nə onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması üzrə mübarizə üzrə" proqramın (2007-ci 2012-ci illər), DİN-in tədbirlər planının 2-ci bəndinin yerinə yetirilməsi ilə əlaqədar, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomaniyanın yayılmasına qarşı mübarizə sahəsində qabaqcıl iş təcrübəsinin öyrənilməsi, narkotiklərlə mübarizə sahəsində istifadə olunan müasir texniki vasitələr, elmi-tədqiqat metodları, narkotiklərin yeni növləri və son dövrlərdə bu sahə üzrə qəbul edilmiş normativ hüquqi sənədlər barədə müvafiq məlumatların əldə olunması məqsədilə, digər ölkələrdə İnterpolun MMB-lərinə sorğular göndərilmiş və alınan cavablar DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinə təqdim olunmuşdur.

Bundan başqa, 26 və 27 avqust 2008-ci ildə Tehran şəhərində İnterpolun narkomaniyaya qarşı mübarizə ilə əlaqədar, "Namak" adlı proyektlə bağlı, Beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədilə, konfrans keçirilmişdir. Həmin tədbirdə "Namak" proyektinin iştirakçısı olan dövlətlərin nümayəndələri və İnterpolun Baş Katibliyinin əməkdaşları iştirak etmişlər. Tədbirdə "Namak" layihəsi üzrə (qanunsuz heroin dövriyyəsi ilə bağlı) işçi qrupunun görüşü keçirilib. Həmin tədbirdə Azərbaycan Respublikasını

[1] Ağaqızı Z. Narkomaniyaya qarşı mübarizədə dövlətimizin prioritet maraqlarına dair // Yeni Azərbaycan, 2004, 21 yanvar, №015(1785).

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili polis kapitanı F.Əliyev təmsil etmişdir.

2008-ci ilin hesabat dövrü ərzində ölkəmizə səfər etmiş BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin Mərkəzi Asiyadakı Regional Nümayəndəliyinin İnsan Alveri ilə Mübarizə üzrə regional layihəsinin əlaqələndiricisi H.Millerin, habelə Niderlandın Moskvadakı səfirliyinin attaşesi A.Noymülerin və Kanada Polisinin Moskvadakı əlaqələndirici zabiti A.Vibrayenskinin MDB rəhbərliyi ilə görüşü təşkil edilmişdir.[1]

2009-cu ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən və respublikanın hüquq-mühafizə orqanlarından narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 88 sənəd (RF-73, Almaniya-8, Ukrayna-5, Avstriya-1) daxil olmuş, sorğular əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər kriminal uçotdan yoxlanılmışlar. Narkotik vasitələrin nəqli yolları, gizlədilmə üsulları, onların yeni növləri barədə maraq kəsb edən məlumatlar isə DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinə və ərazi polis orqanlarına göndərilmişdir.[2]

2010-cu ildə İnterpolun üzvü olan ölkələr respublikaların hüquq-mühafizə orqanlarından narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 85 sənəd (RF-100, 63 nəfər Türkiyə, 2 AFR, 2 Ukrayna Respublikasından və yerli hüquq-mühafizə orqanlarından 41 nəfər barəsində 17 sorğu) daxil olmuşdur. Sorğular əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər kriminal uçotlardan yoxlanılmışlar.[3]

19 may 2011-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Alt işçi qrupunun növbəti iclası keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin rəis müavini, polis polkovniki İsmayıl Axundov və DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin şöbə rəisi, polkovnik Elman Kərimov təmsil etmişdir.

11-12 oktyabr və 13-14 oktyabr 2011-ci il tarixlərində Ukraynanın Kiyev şəhərində GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə Alt işçi qrupunun növbəti iclası keçirilmiş və bu tədbirdə ölkəmizi Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəis müavini, polis polkovniki İsmayıl Axundov, DİN-in Narkotiklərlə Mübarizə İdarəsinin şöbə rəisi, polis polkovniki Elmar Kərimov və

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2008-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 4,5,15.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s. 5,25.

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2010-cu ilin xidməti fəaliyyətinə dair arayışı, s. 5, 15.

DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşı Elman Bayramov təmsil etmişlər.

22-23 noyabr 2011-ci il tarixdə Ukraynanın Kiyev şəhərində GUAM-ın terrorçuluq mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi qrupunun, hüquqi statistika üzrə Alt işçi qrupunun növbəti iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəis müavini Z.Quliyev, DİN-in BƏSİİ-nin şöbə rəisi, polis polkovniki A.Abdullayev təmsil etmişlər.

MMB-nin əsas fəaliyyət istiqamətlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi sahəsində İnformasiya mübadiləsinə xüsusi diqqət yetirilmişdir. Hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən və respublikanın hüquq-mühafizə orqanlarından narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 63 sənəd daxil olmuşdur. İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğuları əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər kriminal uçotdan yoxlanılmışdır. Narkotik vasitələrin nəqli yolları gizlədilmə üsulları, onların yeni növləri barədə maraq kəsb edən məlumatlar isə DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinə və ərazi polis orqanlarına göndərilmişdir.[1]

Daha bir tarixi hadisəni qeyd edək. 17 oktyabr 2011-ci il tarixində Bakıda "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda iki günlük beynəlxalq konfrans keçirilmişdir. Konfransın açılışında Azərbaycan Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri F.Ələsgərov prezident İlham Əliyevin tədbir iştirakçılarına məktubunu oxumuşdur. Dünya Gömrük Təşkilatının (DGT) və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı, BMT-nin dəstəyi ilə keçirilən konfransda dünyanın 42 ölkəsinin müvafiq qurumlarının, 7 beynəlxalq təşkilatın 87-dən çox nümayəndəsi iştirak edirdi. Tədbirdə çıxış edən Baş nazirin müavini, narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov bildirmişdir ki, müstəqilliyin bərpasından ötən 20 il ərzində Azərbaycanda narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə həmişə diqqət mərkəzində olmuşdur.

Ə.Həsənov diqqətə çatdırmışdır ki, Azərbaycanda narkotiklərlə mübarizə sahəsində təkmilləşdirilmiş normativ hüquqi baza mövcuddur. Ölkəmiz BMT-nin narkotik vasitələr və psixotrop maddələrlə əlaqədar baza konvensiyalarına qoşulmuş, bu sahədə məsələləri tənzimləyən çoxsaylı milli qanunvericilik aktları qəbul olunmuşdur. Azərbaycan narkotiklərlə mübarizə sahə-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 5, 16.

sində qabaqcıl dünya təcrübəsinə əsaslanan kompleks tədbirləri davamlı olaraq sistemli şəkildə həyata keçirməyə çalışır.

Baş nazirin müavini vurğulamışdır ki, Əfqanıstandan gətirilən narkotik vasitələrin MDB ölkələrinə və Avropaya daşınmasında Azərbaycanın işğal altındakı ərazilərindən tranzit kimi istifadə olunur. Təəssüf ki, bu barədə beynəlxalq tədbirlərdə məsələ qaldırılsa da, nəticə yoxdur.

Dünya gömrük təşkilatının Baş katibi K.Mikuriya bildirmişdir ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə beynəlxalq əməkdaşlıq səviyyəsində aparılır. Azərbaycanın bu sahədə gördüyü işlər təqdirəlayiqdir. Belə ki, ölkədə müasir texnologiya və narkotiklərə qarşı təlim görmüş itlər vasitəsilə bu sahədə nailiyyət qazanılmışdır. BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin icraçı direktoru Y.Fedatov məlumat vermişdir ki, 2012-ci ildə becərilən opium sahəsi 123 min hektardan 131 min hektara qədər artmışdır. Azərbaycanın narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni dövlət səviyyəsinə qaldırmasını təqdirəlayiq hal hesab edən nazir, respublikanın BMT-nin müvafiq qurumları ilə əməkdaşlığını da yüksək qiymətləndirmişdir.

Konfransda narkotik vasitələrlə bağlı cari vəziyyət və bunun regiona təsiri, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə regional və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunmuşdur. Eyni zamanda BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin, Dünya Gömrük Təşkilatının 2010-cu il üçün illik hesabatı dinlənilmişdir.[1]

MMB-nin 2012-ci ildə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsindəki fəaliyyətinə diqqət yetirək.

2012-ci ildə MMB-nin hesabat dövrü ərzində DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsində müvafiq müraciətlərdən sonra, narkotiklərdən qanunsuz dövriyyə ilə mübarizə sahəsində müəyyən müasir üsulların öyrənilməsi üçün İnterpol kanallarından istifadə xahiş edilmişdir. Bununla bağlı bir sıra üzv dövlətlərdə (Türkiyə, Fransa, Avstriya, İsveçrə, Bolqarıstan və İsveç) İnterpolun MMB-ləri müvafiq sorğular göndərilmişdir.

17-18 yanvar 2012-ci il tarixdə Tehran şəhərində Cənub-Şərqi Asiya və Sakit okean hövzəsində metaminin qanunsuz dövriyyəsinə dair "AYS Trey əməliyyatı" üzrə işçi qrupun 3-cü toplantısı keçirilmiş və bu tədbirdə AR DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin inspektor-tərcüməçisi, polis baş leytenantı E.Orucov iştirak etmişdir.

5 aprel 2012-ci il tarixində AR DİN-də "Cinayətkarlığa qarşı mübarizədə əməliyyat axtarış fəaliyyətinin təşkili"nin və "Narkotik vasitələrin, psi-

[1] Bakıda "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda beynəlxalq konfrans işə başlamışdır // Azərbaycan, 2011, 18 oktyabr, №230 (5920).

xotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə" vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir. Həmin tədbirdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.

Cənab Ramil Usubov müzakirəyə çıxarılan hər bir məsələnin aktual olduğunu, Daxili İşlər orqanlarının fəaliyyəti ilə bağlı mühüm sahələri əhatə etdiyini bildirmişdir. O, əməliyyat-axtarış fəaliyyətinin təşkili ilə bağlı həyata keçirilən praktiki tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini, xüsusən də qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılmasında önəmli rolunu, bu sahədə işin nəticələrinin hər bir əməliyyatçının və rəhbər vəzifəli şəxsin peşəkarlığının əsas göstəriciləri olduğunu diqqətə çatdırmışdır. Eyni zamanda insanların hüquq və azadlıqlarının, həyat və sağlamlıqlarının, milli genefondun qorunmasında, eləcə də ağır cinayətlərin və əməliyyat şəraitinə neqativ təsirin qarşısının alınmasında, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı, ixtişaşlı mübarizənin başlıca şərtlərindən olmasını qeyd edən nazir, bu sahədə qarşıda mühüm vəzifələrin durduğunu, son illər işin daha səmərəli yerinə yetirildiyini bildirmişdir.[1]

17-25 aprel və 18-20 aprel 2012-ci il tarixlərdə Ukraynanın Kiyev şəhərində GUAM-ın Terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi qrupunun, müvafiq olaraq terrorçuluqla mübarizə üzrə Alt işçi qrupunun növbəti iclası keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin rəis müavini, polis polkovniki İsmayıl Axundov və DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin, xüsusilə Mühüm işlər üzrə baş əməliyyat müvəkkili, polis mayoru E.Məmmədli təmsil etmişlər.

MMB-nin əsas fəaliyyət istiqamətlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi sahəsində İnformasiya mübadiləsinə xüsusi diqqət yetirmişdir. 2012-ci ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələrdən və respublikanın hüquq-mühafizə orqanlarından narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 60 sənəd daxil olmuşdur. İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər kriminal uçotdan yoxlanılmışlar. Narkotik maddələrin nəqli yolları, gizlətmə üsulları, onların yeni növləri barədə maraq kəsb edən məlumatlar DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinə və ərazi polis orqanlarına göndərilmişdir.[2]

18 iyun 1912-ci ildə Bakıda "Narkotiksiz sağlam cəmiyyətə qlobal yanaşma" mövzusunda konfrans keçirilmişdir. Narkotiklərə Qarşı Milli Təbli-

---

[1] DİN-nin mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2012, 7 aprel, №12 (3031).

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2012-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 5, 8, 26.

ğat Ofisi İctimai Birliyi (NQMTOİB) tərəfindən keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komissiyasının üzvləri, Milli Məclisin deputatları, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun, beynəlxalq təşkilatların, hüquq-mühafizə orqanlarının, müvafiq qurumların və QHT-lərin nümayəndələri iştirak etmişlər. Konfransda NQMTOİB-in rəhbəri M.Əfəndiyev çıxış edərək bildirmişdir ki, BMT-nin baş hesabatlarına görə, bu gün dünyada təqribən 250 milyona yaxın insan narkotiklərdən bu və digər formada əziyyət çəkir. Bu, 15-64 yaş üzrə dünya əhalisinin təqribən 5 faizini təşkil edir.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu problem mövcuddur və ölkəmiz artıq 20 ilə yaxındır ki, beynəlxalq ictimaiyyət, aparıcı dünya dövlətləri ilə birgə problemin həlli yolunda ardıcıl və məqsədyönlü işlər həyata keçirməkdədir. Bu gün Azərbaycan hökuməti, xüsusən hüquq-mühafizə orqanları tərəfindən bu sahədə çox ciddi nəticələr əldə olunmuş və qeyri-qanuni dövriyyədən tonlarla narkotik maddələr çıxarılaraq məhv edilmişdir. Narkomanlıqla mübarizədə hökumətin gördüyü böyük işlərlə yanaşı, cəmiyyətin bütün təbəqələri, o cümlədən QHT-lər də fəallıq göstərməlidirlər. Ölkəmiz üçün ən vacib məqamlardan biri zərərin azaldılmasında ciddi nailiyyətlərin əldə olunmasıdır. Bunun üçün beynəlxalq təcrübədə tətbiq olunan ən vacib istiqamətlərdən sayılan maarifləndirmə, təbliğat, profilaktika işlərinin düzgün, səmərəli aparılması zəruridir.

Milli Məclisin Hüquq-siyasəti və dövlət quruculuq komitəsinin sədri Əli Hüseynov bildirmişdir ki, narkomaniyaya qarşı mübarizə davamlı, ardıcıl həyata keçirilməlidir. Bu həm dövlətin, həm vətəndaş cəmiyyətinin, həm də hər bir vətəndaşın işidir. Azərbaycanda narkomaniyaya qarşı mübarizə bütün sahələrdə heç vaxt kompaniya xarakteri daşımamış, bununla bağlı dövlətin çox aydın ifadə edilmiş siyasi iradəsi mövcud olmuşdur. Narkomaniya elə bir problemdir ki, mövcud şəraitə çox sürətlə uyğunlaşır. Bəzən hətta inkişaf etmiş sosial baxımdan, yaxşı duruma malik ölkələr belə, bu problemlə üzləşirlər. O, vurğulamışdır ki, Azərbaycanda təxminən 7-8 il bundan əvvəl narkomaniyaya qarşı mübarizə ilə bağlı həyata keçirilən islahatların yeni mərhələsi başlamışdır.

Rumıniyanın Azərbaycandakı səfiri D.K.Çeobano bildirmişdir ki, narkotik maddələr bütün dünyaya öz mənfi təsirini göstərir, ona görə də bu bəlaya qarşı qlobal şəkildə birgə mübarizə aparılmalıdır. Azərbaycanda narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri yüksək dəyərləndirən səfir ölkədə narkomanlıq və narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üçün kifayət qədər sanballı qanunvericilik bazasının olduğunu, dövlətimizin müvafiq beynəlxalq konvensiyalara qoşulduğunu diqqətə çatdırmışdır.

BMT-nin Narkotiklər Və Cinayətkarlıqla Mübarizə İdarəsinin beynəlxalq eksperti Platon Noyadze təmsil etdiyi qurumun hazırladığı 2012-ci il üçün narkotiklərə dair ümumdünya hesabatını təqdim etmişdir.

Sonra, Azərbaycanda ilk dəfə olaraq, narkotiklərə və onunla bağlı cinayətkarlığa qarşı mübarizə ilə bağlı internet səhifəsinin informasiya portalının təqdimatı olmuşdur. Bildirilmişdir ki, dünyada, o cümlədən Azərbaycanda informasiya texnologiyalarının sosial şəbəkələrinin sürətlə inkişafı mübarizə və məlumatlandırma metodlarına müasir yanaşmaları zəruri edir. Bu məqsədlə Azərbaycanda da yeni sayt və informasiya portalı hazırlanmışdır. Bu internet resursunda İKT texnologiyalarının imkanlarından istifadə etməklə yetişməkdə olan nəslə düzgün məlumatların çatdırılması, maarifləndirmə işləri həyata keçirməklə bir tərəfdən hökumətin hüquq-mühafizə orqanlarının apardıqları mübarizədə cinayətkar qrupların iflasına dair məlumatlar yer alacaq, digər tərəfdən elmi, sağlam həyata səsləyən maarifləndirmə xarakterli təbliğat materialları yerləşdiriləcəkdir.[1]

Azərbaycan Respublikasında İnterpolun əsas fəaliyyət istiqamətlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi sahəsində 2013-cü ilin hesabat dövrü ərzində İnterpolun üzvü olan ölkələr və respublikanın hüquq-mühafizə orqanlarına narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 20 sənəd daxil olmuşdur. İnterpolun üzvü olan ölkələrdən daxil olmuş sorğular əsasında narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər kriminal uçotlardan yoxlanılmışlar.[2]

Müstəqil Azərbaycan Respublikası narkotik maddələr qəbul edənlərə qarşı BMT və digər beynəlxalq təşkilatların qəbul etdikləri konvensiyalara, sazişlərə, müqavilələrə və digər hüquqi sənədlərə imza atmışdır.

Ölkəmiz bu “ağ ölümə” qarşı çoxsaylı proqram, qanun, fərman və sərəncamlar qəbul edib. Göstərilən hüquqi sənədlər respublikanın hüquq-mühafizə orqanları tərəfindən uğurla icra edilib və edilir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev çıxışlarında təəssüf hissi ilə bildirir ki, müharibə gedən zonalar narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadə olunur. 20 ildir ki, Azərbaycan analoji problemlərlə üzləşmişdir. Ermənistan terrorçuları tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində narkotik vasitələrin istehsalı və daşınması narkobiznesin inkişafına kömək edir ki, onlar bununla beynəlxalq terrorçuluğun maliyyələşdirilməsinə şərait yaradırlar. Bu cür təhlükəli cinayət əməlinin qarşısının alınması məqsədilə AR DİN-in nəzdində Narkomaniya ilə Mübarizə Baş İdarəsi yara-

[1] Narkotiksiz saglam cəmiyyətə qlobal yanaşma // Mübariz keşikdə, 2012, 26 iyun, №27 (3094).

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2013-cü ilin 6 ayı ərzində xidməti fəaliyyətinə dair arayışı, s.15.

dılmış və uğurla fəaliyyət göstərir. Bundan başqa, Azərbaycanda İnterpolun MMB-si əsas istiqamətlərindən biri olan narkomaniyaya qarşı qətiyyətlə mübarizə aparmış və hal-hazırda mübarizə aparır. Bu təşkilatın Baş Katibliyi ilə və İnterpolun üzvü olan digər ölkələrin MMB-ləri ilə sıx əməkdaşlıq edir.

Qazaxıstan DİN mətbuat xidmətinin məlumatına görə, Astanada MDB DİNŞ-in 41-ci iclası keçirilmişdir. İclasda cənab Ramil Usubov da iştirak etmişdir. Qazaxıstanın Daxili İşlər naziri K.Kasımov iclas iştirakçılarını salamlamış MDB ölkələri daxili işlər orqanları yanında Elmi Məsləhət Şurası haqqında əsasnamənin layihəsi müzakirə olunmuşdur.

"2014-2018-ci illərin cinayətkarlıqla birgə mübarizə üzrə dövlətlərarası proqramın və Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə əməkdaşlıq proqramı"nın layihəsi də nəzərdən keçirilmişdir. İclas çərçivəsində Azərbaycan və Rusiya DİN-ləri arasında "2014-2016-cı illər üçün əməkdaşlıq" haqqında protokol imzalanmışdır. Sənəddə qeyri-qanuni silahlı birləşmələrlə, terrorçuluq və digər ekstremist fəaliyyətlə mübarizə sahəsində, həmçinin nəqliyyat strukturu obyektlərinə birgə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Qazaxıstan prezidenti N.Nazarbayev MDB-nin daxili işlər nazirlərini qəbul etmişdir.[1]

Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində narkotiklərlə bağlı vəziyyəti əks etdirən "Dağlıq Qarabağda Narkotika" adlanan xüsusi kitabça hazırlanıb. (Bu barədə narkotiklərə qarşı milli tədqiqat ofisinin mətbuat xidmətindən məlumat verilib). Kitabın hazırlanmasında məqsəd beynəlxalq ictimaiyyətin diqqətini bir daha bu məsələyə yönəltməklə Dağlıq Qarabağı işğal altında saxlayan qüvvələrin bu istiqamətdə qanunsuz fəaliyyətinin nəinki regionda sülh və təhlükəsizliyin təmin olunmasına, eyni zamanda böyük dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlarla regional əməkdaşlığın inkişafına mənfi təsir göstərdiyini diqqətə çatdırmaqdan ibarətdir. Rus və ingilis dillərində çap olunan kitabçanın ölkəmizdə akkreditə olunmuş ölkənin təhlükəsizliyinə, beynəlxalq təşkilatlara, habelə Xarici İşlər Nazirliyi vasitəsilə Azərbaycanın digər dövlətlərdə səfirliklərinin köməkliyi ilə dünya birliyinə, beynəlxalq ictimaiyyətə çatdırılması nəzərdə tutulub.[2]

Daha bir tarixi hadisəni qeyd edək. 2014-cü il dekabrın 2-də Daxili İşlər Nazirliyində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə" və "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı, tanınması mümkün olmayan meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi" vəziyyətinə həsr olunmuş geniş

---

[1] Astanada MDB Daxili İşlər Nazirləri Şurasının iclası kecirilmişdir // Mübariz keşikdə, 2013, 12 sentyabr, №35(3150).

[2] Mübariz keşikdə, 2013, 29 avqust, №33(3148).

kollegiya iclası keçirilib. Cənab Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, insanların həyatının, sağlamlığının hüquq və azadlıqlarının etibarlı təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini, həmçinin göstərilən istiqamətlərdə fəaliyyətin təkmilləşdirilməsinin, Qanunvericilik aktlarının, o cümlədən dövlət proqramlarının tələblərinə uyğun qurulmasının, əməliyyat xidməti fəaliyyətdə qabaqcıl beynəlxalq təcrübənin tətbiqinin qarşıda duran əsas vəzifə olduğunu bildirib.

Qeyd olunub ki, cari ilin ötən dövründə daxili işlər orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər bütövlükdə qənaətbəxş olub, əldə edilmiş müsbət təmayüllər cari ilin on bir ayında da qorunub saxlanılıb, polisin əsas fəaliyyətlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması və təqsirləndirilən şəxslərin axtarışının təşkili üzrə də davamlı iş aparılır, bu sahədə görülən işlər kollegiya iclasında və əməliyyat müşavirəsində geniş müzakirə olunub, fəaliyyətin daha da yaxşılaşdırılması üçün yerlərə lazımi göstərişlər verilir, əməli köməklik göstərilir. Nazir son illər hər iki istiqamətdə işin daha səmərəli yerinə yetirilməsini, lakin əldə edilmiş nəticələrin reallığı tam əks etdirməsini, uğurlarla yanaşı ayrı-ayrı ərazi polis orqanlarının fəaliyyətində hələ də ciddi nöqsan və çatışmazlıqların mövcudluğunu diqqətə çatdırıb.

Gündəlikdəki birinci məsələ ilə bağlı Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov məruzə edib. O, bildirib ki, nazirlik tərəfindən respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin məqsədyönlü təşkilinə, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə böyük önəm verərək, davamlı tədbirlər görülür. Cari ilin 9 ayında respublikanın daxili işlər orqanları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 2445, o cümlədən satışı ilə bağlı 634 fakt aşkarlanıb, 106 nəfərdən ibarət 41 cinayətkar qrup və dəstə zərərsizləşdirilib.

Qanunsuz dövriyyədən 532 kiloqramdan çox narkotik vasitə, o cümlədən 90,7 kiloqram həşiş, 370 kiloqrama yaxın marixuana, 14,6 kiloqram heroin, 25 qram digər vasitələr götürülmüş, 44 qram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, ümumi çəkisi 212,5 ton olan narkotik tərkibli bitki yaşıl kütlə halında məhv edilib. Həmin hüquqazidd əməllərə görə 1824 şəxs cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Gündəlikdəki ikinci məsələ barədə məruzə ilə çıxış edən Baş Cinayət axtarış idarəsinin rəisi, polis general-mayoru E.Şəkinski ötən ilin müvafiq dövrü ilə müqayisədə tutulmuş şəxslərin sayının 6 faizdən çox olmaqla, ax-

tarışın nəticəsi 60,2 faiz, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə görə 34,1 faiz təşkil etdiyini bildirmişdir. İnsan alveri, soyğunçuluq, mənimsəmə və israfetmə cinayətlərinə görə axtarılanların tutulma göstəriciləri orta hesabla 7 faiz yüksəlmişdir. İnterpolun MMB-si tərəfindən beynəlxalq axtarışa verilmiş 68, bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 27 şəxsin yeri müəyyən olunmuşdur. İtkin düşmüş şəxslərin axtarışının həyata keçirilməsi istiqamətində də müəyyən işlər görülmüşdür. Ötən ilin 10 ayında itkin düşənlərin 70 faizinin yeri müəyyən edilmiş, habelə bir nəfərin cinayətin qurbanı olması faktı üzrə cinayət işi başlanmışdır.

Hər iki məruzə ətrafında çıxış edənlər görülmüş işlərdən, əldə olunmuş uğurlardan, eyni zamanda xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışmışlar.

İclasa yekun vuran nazir gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, eyni zamanda bəzi ərazi orqanlarında mövcud nöqsanların aradan qaldırılmasını, ilin sonunadək bu istiqamətdə əsaslı dönüş yaradılmasını tələb etmiş, konkret tapşırıq və tövsiyələrini vermişdir. O, narkotik vasitələrin qeyri-qanuni yolla respublikamıza gətirilməsinin qarşısının alınması, yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın gücləndirilməsi baxımından ərazi polis orqanları, aidiyyəti dövlət qurumlarının nümayəndələri və müvafiq sahənin mütəxəssisləri ilə birgə narkomanlığın cəmiyyətə və insanların sağlamlığına zərər doğurduğu fəsadları ayrı-ayrı əmək kollektivlərində, orta ixtisas və ali təhsil müəssisələrində maarifləndirmə tədbirlərinin keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Qeyd olunub ki, "ağ ölüm"ə qarşı səmərəli mübarizə yalnız kompleks şəkildə həyata keçirilən belə əməkdaşlıq sayəsində aparıla bilər.

Nazir əmin olduğunu bildirib ki, şəxsi heyət prezident İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcək, sabitliyin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, həmişə olduğu kimi, cari ili də yüksək göstəricilərlə başa vuracaqdır.[1]

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyət istiqamətlərindən biri də mütəşəkkil cinayətkarlığa qarşı mübarizə təşkil edir.**

1996-cı ildə RF-nin Sankt-Peterburq şəhərində MDB ölkələrində cinayətkarlıqla birlikdə mübarizə məsələləri üzrə Parlamentlərarası Assambleyanın iclasının keçirilməsində əsas məqsəd bu bəlaya qarşı mübarizə aparmağın yollarını müəyyənləşdirmək olmuşdu.

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2014, dekabr, №47(3211).

Keçmiş SSRİ-nin ərazisində müstəqil dövlətlərin yaranması vahid bir hüquqi məkanın və bütövlükdə hüquq-mühafizə sisteminin dağılmasına səbəb oldu. Keçid dövründə sosial gərginliyin, cəmiyyətdə uyğunsuzluğun və deformasiyanın artması cinayətkarlığın yüksəlməsinə, müəyyən təbəqələrin mənəviyyatının pozulmasına gətirib çıxardır. Cəmiyyətdəki ziddiyyətlər özünü daha qabarıq büruzə verdi. Bununla belə, keçmiş İttifaq respublikalarının suverenləşməsi vahid kriminal mənzərəni dağıtmadı. MDB ölkələrində cinayətkarlıq daha geniş transmilli xarakter və daha təhlükəli şəkil aldı. Terrorizm, rüşvətxorluq, narkobiznes, silah oğurluğu və silah alveri, fahişəlik, narkotik vasitələrin oğurlanması və satışı, maliyyə fırıldaqları, bank-kredit sistemində cinayətkarlıq və s. məhz mütəşəkkil cinayətkarlığın nəticələridir. Belə cinayətlərin əksəriyyəti bir neçə dövlətin ərazisində eyni vaxtda baş verir, bir çox hallarda orada müxtəlif ölkələrin vətəndaşları iştirak edirlər, beynəlxalq cinayətkar cəmiyyətlər yaranır. Bəzi hallarda MDB ölkələrində cinayətkarlıq siyasi dövlət problemi xarakteri almışdır. Şübhəsiz mütəşəkkil cinayətkarlıq heç nədən və bir gündə yaranmamışdır.

Yeni "nəslin" cinayətkar elementləri əvvəlki iqtisadi, sosial, siyasi və ideoloji səhvlərin nəticəsi kimi meydana gəlmişdir. Aydındır ki, cinayətkarlığa qarşı səmərəli və amansız mübarizə aparmaq ayrıca bir ölkədə qeyrimümkündür. Ona görə də MDB ölkələrinin hamısı bizi əhatə edən kriminal aləmə qarşı mübarizədə birləşmək qərarına gəldilər. Belə ki, 1993-cü il yanvarın 22-də Birlik ölkələri başçılarının "Mülki, ailə, cinayət işləri üzrə, hüquqi yardım göstərmək" barədə imzaladıqları sazişlər hüquq-mühafizə orqanlarının qarşılıqlı hərəkət etmələri üçün hüquqi əsas olmuşdur.

Mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizənin səmərəliliyini yüksəltmək işində MDB iştirakçıları olan dövlətlərin qəbul etdikləri mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizə proqramı və Müstəqil Dövlətlər Birliyi Ölkələri Şurası və hökumət başçıları tərəfindən 1993-cü il martın 12-də təsdiq edilən qərar mühüm əhəmiyyət kəsb edir.

MDB iştirakçıları olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları kriminal strukturlara qarşı səmərəli tədbirlər görülməsi zəruriyyəti ilə əlaqədar, 1995-ci il iyunun 1-də mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq barədə müqavilə imzalamışlar. Cinayətkarlığa qarşı mübarizədə MDB hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığını BMT-nin ixtisaslaşdırılmış təşkilatlar və digər beynəlxalq təşkilatlarla əlaqələrin həyata keçirilməsinə də müsbət şərait yaradır. [1]

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədilə keçirilən daha bir tarixi hadisəni qeyd edək.

22 yanvar 1998-ci ildə DİN-in MCQMİ-nin Mübarizə İdarəsində

[1] Rzalı R. Mütəşəkkil cinayətkarlıga qarı birgə mübarizə aparılmalıdır // Azərbaycan, 11 yanvar 1999, №7(1676).

1997-ci ilin yekunlarının müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirildi. Tədbiri giriş sözü ilə açan MCQMİ-nin sabiq rəisi S.Səfərov 1997-ci ildə mütəşəkkil cinayətkar qruplara, reketliyə, quldurluğa, soyğunçuluğa, qanunsuz silahlı qruplara və narkomaniyaya qarşı barışmaz mübarizə aparıldığını, il ərzində idarə əməkdaşlarının həyata keçirdikləri uğurlu əməliyyat tədbirləri nəticəsində cinayət törətmiş 86 nəfərin yaxalandığını, 11 cinayətkar qrupun zərərsizləşdirildiyini qeyd etmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısını almaq məqsədilə, idarə əməkdaşları tərəfindən bu istiqamətdə aparılan işin səviyyəsi daha da yüksəlmiş, nəticədə narkomaniya ilə bağlı 31 fakt aşkar edilmiş, 1 il ərzində qanunsuz saxlanılan 9 avtomat, 1 qumbara, 12 tapança, 34 qumbara, 7 min müxtəlif çaplı güllə aşkar edilərək götürülmüşdür.

Hesabat dövründə idarə əməkdaşları tərəfindən mənimsəmə, rüşvətxorluq və iqtisadi sahədə törədilən digər ağır cinayətlərə qarşı da məqsədyönlü mübarizə aparılıb.

Müşavirəyə yekun vuran cənab Ramil Usubov MCQMİ-nin işinə müsbət qiymət verdi.[1]

Bundan başqa, daha bir tarixi hadisəni qeyd edək. 25 mart 1999-cu il tarixdə Özbəkistan Respublikasının Daxili İşlər naziri general-polkovnik Z.Almatov Azərbaycan Respublikasında səfərdə olmuş, 26 mart 2009-cu il tarixində cənab Ramil Usubovun qəbulunda oldu. Cənab Ramil Usubov müstəqillik əldə etmiş hər iki gənc respublikanın həyatının bütün sahələri, eləcə də DİN-ləri arasında səmərəli işgüzar əlaqələrin daha da inkişaf etdirildiyini vurğulamışdır. Bildirilmişdir ki, bütün bunlar hər şeydən əvvəl iki ölkənin rəhbərlərinin – Heydər Əliyevin və İslam Kərimovun birgə yorulmaz səyləri nəticəsində mümkün olmuşdur. Nazir qonaqlara son illər Azərbaycanda sabitliyin yaradılıb qorunması, bu sahədə hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının həyata keçirdiyi tədbirlər eləcə də ölkədəki kriminogen durum barədə ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, bunların nəticəsində indi ölkədə ictimai təhlükə törədən, əhalini narahat edən, müstəqilliyimiz və dövlətçiliyimiz üçün qorxu törədə biləcək silahlı cinayətkar dəstələr yoxdur, belə niyyətə düşənlərin cavabını vermək üçün bütün imkanlar vardır.

Yaranmış sabitliyin təkcə ölkə əhalisinin deyil, həm də xarici vətəndaşların və iş adamlarının mənafeyinə xidmət etdiyini vurğulayan nazir, bu işdə MDB məkanında olan daxili işlər orqanları ilə, o cümlədən Özbəkistan DİN ilə əməkdaşlığın böyük təsiri olduğunu bildirmişdir. Onun fikrincə, iki ölkənin müvafiq orqanları arasında hələ öyrənilməmiş müsbət təcrübə, zən-

[1] Zahidov E. Mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizədə // Mübariz keşikdə, 1998, 29 yanvar, №4 (2368).

gin imkanlar vardır və bu potensialdan, xüsusilə də narkotik vasitələrin qanunsuz dövriyyəsinə, terrorizmə və mütəşəkkil cinayətkarlığın digər növlərinə qarşı mübarizədə hərtərəfli istifadə olunmalıdır.

Bütövlükdə Azərbaycan və Özbəkistan respublikalarının daxili işlər orqanları arasında əməkdaşlığın uğurlu perspektivləri olduğu xüsusi qeyd edilmişdir.[1]

26 yanvar 2005-ci ildə cənab Ramil Usubov Ukraynanın ölkəmizdəki səfiri A.Yurşenko ilə görüşmüşdür. O, səfirə ölkəmizdəki kriminogen durum, bugünkü ictimai-siyasi sabitliyin, dönməzliyin təmin olunması üçün ötən illər ərzində görülən işlər barədə danışmışdır, 1993-cü ildə zəngin dövlətçilik təcrübəsinə malik olan ulu öndərimiz Heydər Əliyevin xalqın təkidi, tələbi ilə hakimiyyətə qayıdışı, apardığı ardıcıl və məqsədyönlü siyasət Azərbaycanı demokratik inkişaf yoluna çıxartdı, cəmiyyət həyatında əsaslı dəyişikliklər baş verdi. Bir neçə ildir ki, ölkəmiz MDB məkanında əhalinin hər 100 min nəfərə düşən cinayətlərin sayına görə sonuncu yerlərdən birini tutur, yəni yüksək uğurlara nail olub.

Cənab Ramil Usubov xatırlatdı ki, Azərbaycan və Ukrayna DİN-in əməkdaşlığına dair ikitərəfli saziş mövcuddur, eyni zamanda MDB çərçivəsində qəbul edilmiş çoxtərəfli müqavilələrdə tərəfdaş olan hər iki ölkənin nazirləri, DİNŞ iclaslarında da fəal iştirak edir. QDİƏT və GUAM çərçivəsində məhsuldar iş birliyi davam etmişdir.

Görüş zamanı cənab Ramil Usubov son illər axtarışda olan və Ukrayna ərazisində gizlənmiş onlarla təhlükəli mütəşəkkil cinayətkarların yaxalanaraq Azərbaycana ekstradisiya olunmasını xüsusi minnətdarlıqla vurğulamışdır.[2]

Daha bir faktı – DİN-in MCQHBİ-nin sabiq rəisi cənab Mədət Quliyevin 24 iyul 2000-ci il tarixdə “Respublika” qəzetinə “Cinayətkarlığa aman yoxdur” başlığı altında verdiyi müsahibəni qeyd edək. O, müsahibəsində bildirirdi ki, DİN-in MCQHBİ-nin ölkə prezidentinin “Mütəşəkkil cinayətkarlığa qarşı mübarizəni gücləndirmək barədə” 9 avqust 1994-cü il tarixli fərmanı ilə yaradılmışdır, 1988-1993-cü illər ölkəmizdə hökm sürən özbaşınalıq nəticəsində kriminogen ünsürlər əl-qol açmış, öz qanunazidd əməllərini genişləndirmiş, mütəşəkkil cinayət faktları artmışdır. Məhz buna görə də yeni yaradılan idarəyə daxili işlər orqanlarının ən bacarıqlı, yüksək peşə keyfiyyətinə malik əməkdaşları göndərildi. Bu addımın nə qədər düzgün və səmərəli olduğu göz qabağındadır. Həmçinin respublikada cinayətkarlıq hallarının azalması DİN, MTN və respublika prokurorluğunun birgə fəaliyyətinin nəticəsidir.

---

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Azərbaycan, 1999, №68(9180).

[2] Azərbaycan Respublikasnın Daxili İşlər naziri Ramil Usubov Ukraynanın ölkəmizdəki yeni səfiri ilə görüşmüşdür // Azərbaycan, 2007, 27 yanvar, №18(3937).

Cənab Mədət Quliyev onu da qeyd etdi ki, cinayətkarlığa qarşı mübarizənin nəticələrinə görə, 10 il əvvəl dövlət müstəqilliyi qazanmış postsosialist ölkələri arasında Azərbaycan ən öncül yerlərdən birini tutur. Hazırda bizdə hər 100.000 nəfərə 200 cinayət hadisəsi düşür ki, bu da MDB-nin digər ölkələri ilə müqayisədə xeyli azdır. Cinayətlərin açılma faizi isə hətta dünyanın inkişaf etmiş ölkələrində olduğundan da yüksəkdir. 2001-ci ilin iyul ayında AB xətti ilə Bakıda mütəşəkkil cinayətkarlıq və terrorizmlə mübarizə məsələlərinə həsr edilmiş seminarda iştirak edən İngiltərə və Fransa polisləri öz ölkələrində cinayətkarlığın açılmalarına dair göstəriciləri bildirərkən bunun şahidi olduq.[1]

16 iyun 1911-ci il tarixində cənab Ramil Usubov Belçika Krallığının Azərbaycan Respublikasında səfiri L.Triyenslə görüşmüşdür. Görüş zamanı AR DİN bir çox Avropa dövlətlərinin DİN-ləri ilə səmərəli əməkdaşlıq etdiklərini xatırladan cənab Ramil Usubov, Belçika DİN ilə əməkdaşlığın hələlik beynəlxalq cinayət polisi təşkilatı İnterpol çərçivəsində həyata keçirildiyini, gələcəkdə ikitərəfli əlaqələrin qurulmasında Azərbaycan tərəfinin maraqlı olduğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə, son on ildə daxili işlər orqanlarının mindən çox əməkdaşı BMT, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların xətti ilə müxtəlif ölkələrdə, o cümlədən, ABŞ-da, Almaniya, Avstriya, Fransa, Macarıstan və bir sıra Avropa dövlətlərində, Türkiyə, Çin, Misir Ərəb Respublikasında təşkil olunmuş çoxsaylı forum, müşavirə, treninq, seminar, təlimlərdə iştirak etmişdir. Problemlərə toxunarkən mütəşəkkil cinayətkarlıq və onun əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin əsas diqqət mərkəzində olduğunu vurğulamışdır.[2]

26-27 aprel 2012-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi qrupunun iclası keçirilmişdir. Bu tədbirdə Azərbaycan Respublikasını MMB-nin xüsusilə mühüm işlər üzrə baş inspektoru, polis polkovnik-leytenantı R.Rəsulov təmsil etmişdir.[3]

4 dekabr 2013-cü ildə cənab Ramil Usubov İtaliyanın ölkəmizdə yeni təyin olunmuş səfiri C.Kutillo ilə görüşmüşdür. Səfirə DİN-in funksiya və fəaliyyət istiqamətləri, ötən əsrin 90-cı illərinin əvvəllərində respublikadakı gərgin ictimai-siyasi vəziyyət, həmin dövrdə Ermənistanın təcavüzü ilə kri-

---

[1] Rəcəbova M. Cinayətkarlığa aman yoxdur // Respublika, 2001, 24 iyul, №165(1202).
[2] DİN-nin mətbuat xidmətinin məlumatı // Azərbaycan, 2011, 17 iyun, №129(5819).
[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayış, s.9.

minogen durumun daha da ağırlaşdığı barədə məlumat verilmiş, vətəndaş müharibəsi arasında olan Azərbaycanın bu fəlakətdən xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan Heydər Əliyevin müdrik siyasəti və görülən qətiyyətli tədbirlər nəticəsində qurtulduğu, həmçinin 1996-cı ilin ortalarından başlayaraq sabitliyin bərqərar olduğu, əməliyyat şəraitinin tam nəzarətə götürüldüyü vurğulanmışdır.

Azərbaycan və İtaliya Dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərlər nəticəsində ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndiyini diqqətə çatdıran cənab Ramil Usubov, ötən il noyabrın əvvəllərində İnterpolun Baş Assambleyasının 81-ci sessiyasında iştirakını, orada Azərbaycan və İtaliya Respublikalarının DİN-ləri arasında əməkdaşlıq haqqında sazişin imzalanmasını məmnunluqla xatırlatmış, bu sənədin hər iki ölkənin analoji qurumları arasında əməkdaşlıq üçün yaxşı imkanlar açdığını bildirmişdir.

Daha sonra nazir ölkəmizin Avropaya inteqrasiya etdiyini, demokratik prinsiplərə söykənən, polisin fəaliyyətini tənzimləyən yeni qanunlar qəbul etdiyini, bu işdə bir sıra beynəlxalq təşkilatların, o cümlədən İtaliya mütəxəssislərinin böyük rolu olduğunu, bu qanunun icrasının mühüm əhəmiyyət kəsb etdiyini demişdir. Qeyd olunmuşdur ki, insan hüquqlarının qorunması ilə bağlı qanunvericiliyin və beynəlxalq hüquqi aktların müddəalarının daha dərindən öyrənilməsi məqsədilə Polis Akademiyasında İnsan hüquqları üzrə xüsusi kurs təşkil olunmuşdur. Əməkdaşların peşəkarlığının, dünya görüşünün artırılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində görülən işlər məqsədyönlü və sistemli şəkildə həyata keçirilir. Onlar müxtəlif xarici dövlətlərə təlimlər keçməyə göndərilir, təcrübəli beynəlxalq ekspertlərin iştirakı ilə ölkəmizdə seminarlar, treninqlər, kurslar təşkil olunur. Son 4 ildə yalnız insan hüquqlarına dair ölkəmizdə və xarici dövlətlərdə keçirilən bu növ tədbirlərdə 1500-ə yaxın əməkdaş iştirak etmişdir.

Nazir əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayının azalmasına görə, Azərbaycanın MDB və Şərqi Avropa məkanında öncül yerlərdən birini tutduğunu bildirmiş, cinayətkarlıqla mübarizədə qazanılmış uğurların, sabitliyin, dönməzliyin təmin edilməsinin nəinki ölkə vətəndaşlarının, eləcə də əcnəbilərin təhlükəsiz şəraitdə yaşayıb işləməsinə, iqtisadiyyatımıza külli miqdarda xarici sərmayə yatmasına imkan yaratdığını vurğulamışdır. General-polkovnik münaqişənin beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə ədalətli şəkildə həll prosesinə verdiyi dəstəyə görə, İtaliya tərəfinə minnətdarlığını bildirmişdir.[1]

---

[1] Azərbaycan cinayətin sayına görə MDB və Şərqi Avropa məkanında öncül yerlərdən biri-

2014-cü ilin iyul ayının 11-də ilin 1-ci yarısında DİN-in cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş geniş kollegiya iclası keçirilmişdir. Orada bildirilmişdir ki, mütəşəkkil cinayətkarlığa qarşı həyata keçirilən kompleks əməliyyat-axtarış tədbirlərilə 286 ağır və xüsusilə ağır cinayət törətmiş 114 cinayətkar qrup və dəstə zərərsizləşdirilmişdir, qeyri-leqal dövriyyədən ümumi məbləği 98 min manat olan 2267 ədəd əskinas, habelə istifadə müddəti ötmüş, tona yaxın tikinti materialı çıxarılmış, həmçinin qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 71 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir. Narkotika və insan alverinə qarşı mübarizə tədbirləri çərçivəsində 1743 cinayət müəyyən edilmiş, 90 nəfərdən ibarət 27 cinayətkar qrup və dəstə zərərsizləşdirilmiş, qanunsuz dövriyyədən 372 qram narkotik vasitə çıxarılmışdır. Xüsusi əməliyyat planı üzrə keçirilmiş tədbirlərlə ümumi çəkisi 11 ton olan çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilmişdir.[1]

Mütəşəkkil cinayətkarlığa qarşı aparılan mübarizə də sistemli xarakter daşıyıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 1893, o cümlədən 638 ağır və xüsusilə ağır cinayət törətmiş 2212 nəfəri birləşdirən 845 cinayətkar qrup zərərsizləşdirilib. Aşkarlanmış odlu silah saxlama və daşıma faktları da 23 faiz çox olmaqla, 167 şəxs cinayət məsuliyyətinə cəlb edilib, odlu silahlı cinayətlərin sayı sabit qalıb.

İclasa yekun vuran Daxili İşlər naziri, Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan prezidentinin hər bir dövlət qurumunda idarəetmənin təkmilləşdirilməsi barədə göstəriş verdiyini xatırladıb. Bu tələblərin yüksək səviyyədə icrasına nail olmaq üçün, ilk növbədə xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmin edilməsi kimi mühüm prinsiplər üzrə qurulmasının, insan hüquq və azadlıqlarının etibarlı qorunmasının, qanunçuluğun möhkəmləndirilməsinin, xalqa xidmət funksiyasının genişləndirilməsinin, müasir texnologiyaların tətbiqinin, şəxsi heyətin professional səviyyəsinin yüksəldilməsinin başlıca vəzifələr olaraq ardıcıllıqla həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

Transmilli mütəşəkkil cinayətlərdən olan narkotika və insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər də məqsədyönlü olub. Narkotiklərlə əlaqədar 2046 cinayət, o cümlədən satışı ilə bağlı 801 fakt aşkarlanıb, 150 nəfərdən ibarət 58 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz dövriyyədən 2013-cü illə müqayisədə 9 faiz çox, bütövlükdə 673 kiloqram narkotik vasitə çıxarılıb, həmçinin 16 faiz çox narkotikin qaçaqmalçılıq yolu

---

ni tutur // Azərbaycan, 2013, 5 dekabr, №268(6543).

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2014, 17 iyul, №27(3191).

ilə ölkəyə gətirilməsinin qarşısı alınıb. Qanunsuz kultivasiya edilən 212 tondan artıq çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib. İnsan alverinə qarşı Milli Fəaliyyət Planı əsasında davam etdirilən tədbirlərlə 21 faiz çox və ya 97 cinayət faktı müəyyənləşdirilərək 19 nəfərdən ibarət 9 cinayətkar qrup zərərsizləşdirilib.

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik Ramil Usubov daxili işlər orqanlarının şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi əmin edib ki, əməkdaşlar və hərbi qulluqçular bundan sonra da bütün qüvvələrini ölkədə ictimai asayişin yüksək səviyyədə qorunmasını təmin edərək, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, insan hüquq və azadlıqlarının, vətəndaşların qanuni mənafelərinin etibarlı təmin edilməsi ilə bağlı dövlət başçısının qarşıya qoyduğu tapşırıqları, tələb və tövsiyələri 2015-ci ildə də böyük məsuliyyət hissi ilə yerinə yetirəcək, vətənə, xalqa və dövlətə layiqincə xidmət edəcək.[1]

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin əsas fəaliyyət istiqamətlərindən biri olan mütəşəkkil cinayətkarlığın növlərindən birini də korrupsiyaya qarşı mübarizə təşkil edir.**

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasında 13 yanvar 2004-cü il tarixli 580-IIQ№li Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir.

Korrupsiya – vəzifəli şəxslərin öz strukturundan, təmsil etdiyi orqanın statuslarından, vəzifə səlahiyyətlərindən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və s. nemətlər, imtiyazlar və ya güzəştlər əldə edilməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.

Dünyanın mötəbər beynəlxalq təşkilatı olan BMT Baş Assambleyasının korrupsiya əleyhinə 31 oktyabr tarixli 57/169 №-li qəbul edilmiş Konvensiyası 4 fevral 2004-cü il tarixində ARMM tərəfindən müzakirə olunaraq ratifikasiya olunmuş və Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 30 sentyabr 2005-ci il tarixli 1003-IIQ №-li fərmanı ilə təsdiq edilmiş və qüvvəyə minmişdir. Həmin dövrdən mütəşəkkil cinayətkarlığın təhlükəli növlərindən olan korrupsiyaya qarşı Azərbaycan Respublikasının bütün hüquq-mühafizə, Daxili İşlər orqanları və onun bir strukturu olan Azərbaycan Respublikasında İnterpolun MMB-si qətiyyətli mübarizə aparır.

Beynəlxalq cinayətkarlığın təhlükəli növü olan korrupsiyaya qarşı mübarizə məqsədi ilə, BMT-nin Korrupsiya Əleyhinə Konvensiyası Baş As-

[1] DIN-nin mətbuat xidməti // Mübariz keşikdə, 2015, 29 yanvar, №4 (3217).

sambleyanın 2003-cü il 31 oktyabr tarixli 77/169№-li qətnaməsi ilə qəbul edilmiş preambulasında deyilir:

Bu konvensiyanın iştirakçısı olan dövlətlər

- Korrupsiya, demokratik institutları və dəyərləri, etik dəyərləri və ədaləti sarsıdaraq, davamlı inkişafına və hüququn aliliyinə xələl gətirərək;
- Cəmiyyətin sabitliyi və təhlükəsizliyi üçün doğurduğu problemlərin və təhdidlərin ciddiliyindən narahat olaraq;
- Həmçinin korrupsiya və cinayətkarlığın digər formaları, xüsusən mütəşəkkil cinayətkarlıq və iqtisadi cinayətkarlıq, o cümlədən pul;
- Vəsaitlərin yuyulması arasında əlaqələrdən narahat olmaq;
- Dövlətlərin resurslarının xeyli hissəsini təşkil edə bilən böyük həcmli aktivlərlə bağlı olan bu dövlətlərin siyasi sabitliyini və sabit inkişafını təhlükə altında qoyan korrupsiya hallarından narahat olmaq;
- Korrupsiya artıq lokal problem deyil bütün ölkələrin cəmiyyət və iqtisadiyyatına toxunan, buna görə də qarşısının alınması və əleyhinə mübarizə aparılması sahəsində beynəlxalq əməkdaşlığın müstəsna dərəcədə vacib əhəmiyyət kəsb etdiyi transmilli bir təzahür olmasına əmin olaraq;
- Korrupsiyanın səmərəli surətdə qarşısının alınması və ona qarşı mübarizə aparılması üçün ümuməhatəli və çoxşaxəli yanaşmanın zəruriliyinə inanaraq;
- Texniki yardımın mövcudluğunun, habelə potensialı artırmaq və institutlar yaratmaq yolu ilə, korrupsiyanın səmərəli surətdə qarşısının alınması və ona qarşı mübarizə aparılması sahəsində dövlətlərin imkanlarını genişləndirməyini qət edərək;
- Qanunsuz olaraq şəxsi var-dövlət əldə etməsinin demokratik təsisatlara, milli iqtisadiyyata və hüquq qaydalarına ziyan verə bilməsinə əmin olaraq;
- Qanunsuz əldə edilmiş aktivlərin beynəlxalq köçürmələrin daha səmərəli surətdə qarşısını almaq onları aşkarlamaq və dəf etmək, habelə aktivlərin geri qaytarılması üzrə tədbirlər görülməsi sahəsində beynəlxalq əməkdaşlığı möhkəmləndirmək xətti ilə çıxış etmək;
- Cinayət təhdidi, mülki və ya inzibati icraat gedişində əmlak hüquqlarının müəyyən edilməsi üçün düzgün hüquq tətbiqinin əsas prinsipləri təsdiq edilərək;
- Korrupsiyanın qarşısının alınması və aradan qaldırılmasının bütün dövlətlərin vəzifəsi olduğunu, bu sahədə öz səylərinin səmərəliliyini təmin etmək üçün dövlətlərin bir-biri ilə əməkdaşlıq etməli, habelə dövlət sektorunun xaricdə ayrı-ayrı şəxslərin və qrupların, məsələn

vətəndaş cəmiyyətinin, qeyri-hökumət təşkilatlarının icma bazasında fəaliyyət göstərən təşkilatların dəstəyinə və iştirakına güvənən olduğunu nəzərə alaraq;

- Həmçinin dövlət işlərinin və dövlət əmlakının düzgün idarə olunması, ədalət, mülkiyyət və qanun qarşısında bərabərlik prinsipləri;
- Vicdanlığın təmin olunması, korrupsiyanı istisna edən mədəniyyətin formalaşmasına imkan yaradılması zərurətini nəzərə alaraq;
- Cinayətkarlığın qarşısının alınması və cinayət mühakiməsi komissiyasının və BMT-nin Narkotiklər və Cinayətkarlıq Üzrə İdarəsinin korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə aparılması sahəsində gördüyü işlərə yüksək qiymət verərkən;
- Digər beynəlxalq və regional təşkilatların, məsələn Afrika İttifaqının, Avropa Birliyinin, Ərəb Dövlətləri Liqasının, Amerika Dövlətləri Təşkilatının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, AŞ-nin və Gömrük Əməkdaşlığı Şurasının (həmçinin Ümumdünya Gömrük Təşkilatı kimi tanınır) bu sahədə apardığı işlərə istinad edərək;
- Korrupsiyanın qarşısının alınması korrupsiyaya qarşı mübarizə sahəsində çoxtərəfli sənədlərə, o cümlədən Amerika Dövlətləri Təşkilatı tərəfindən 29 mart 1996-cı il tarixdə qəbul olunmuş "Korrupsiya ilə mübarizəyə dair" Amerika konvensiyasına, AB tərəfindən 26 may 1997-ci il tarixində qəbul olunmuş "Avropa Ittifaqının vəzifəli şəxsləri və AB-yə üzv dövlətlərin vəzifəli şəxsləri ilə bağlı korrupsiyaya qarşı mübarizəyə dair" konvensiya, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən 21 noyabr 1997-ci il tarixdə qəbul olunmuş "Beynəlxalq Kommersiya Əqdlərində xarici vəzifəli şəxslərin rüşvətlə ələ alınmasına qarşı mübarizəyə dair" Konvensiya;
- AŞ-nin Nazirlər Komitəsi tərəfindən 27 yanvar 1999-cu il tarixdə qəbul olunmuş "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və 4 noyabr 1999-cu il tarixdə qəbul olunmuş "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" konvensiyaları, Afrika İttifaqı dövlət və hökumət başçıları tərəfindən 12 iyul 2003-cü il tarixdə qəbul olunmuş "Korrupsiyanın qarşısının alınması və korrupsiyaya qarşı mübarizə haqqında" Afrika İttifaqı konvensiyasına rəğbət hissi ilə diqqət yetirərək;
- BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" konvensiyasının 29 sentyabr 2003-cü il tarixdə qüvvəyə minməsini alqışlayır;
- Aşağıdakılar barəsində razılığa gəlmişlər:

Bu Konvensiyanın məqsədləri aşağıdakılardır:

a) Korrupsiyanın qarşısını almaq və korrupsiyaya qarşı mübarizənin daha səmərəli və təsirli qurulması üçün tədbirlərin təşviq edilməsi və gücləndirilməsi;

b) Korrupsiyanın qarşısının alınması və korrupsiyaya qarşı mübarizə, habelə aktivlərin geri qaytarılması üçün tədbirlər görülməsi sahəsində beynəlxalq əməkdaşlığın və texniki yardım təşviq edilməsi, asanlaşdırılması və dəstəklənməsi;
c) Dövlət işlərinin və dövlət əmlakının idarə olunması zamanı vicdanlığın, məsuliyyətliyin və düzgün idarəçiliyin təşviq edilməsi.

Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyət növlərindən biri olan Korrupsiyaya qarşı mübarizəsi sahəsindəki tarixi xronoloji ardıcıllıqla qeyd etmək yerinə düşərdi.

5-6 noyabr 1998-ci il tarixində Avropa Şurasının Baş katibi Daniyev Tapsisin rəsmi dəvəti ilə, Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini, sabiq polis polkovniki (hal hazırda polis generalıdır) Oruc Zalovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində DİN-in Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin həmin dövrdə rəis müavini işləmiş R.Tağıyev və İnterpolun Azərbaycan Respublikasındakı MMB-nin əməkdaşı Əbdül Zərgərli daxildirlər.

5-6 noyabr 1998-ci il bu şəhərdə "Avropa Şurası tərəfindən Qanunun aliliyi prinsipi bərqərar olduğu dövlətlərdə mütəşəkkil cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə beynəlxalq polis əməkdaşlığı" mövzusunda yüksək səviyyəli müşavirə keçirilmişdir. Bu beynəlxalq tədbirin işində respublikamızdan başqa, bir sıra Avropa, o cümlədən MDB üzvü olan dövlətlərin daxili işlər nazirləri də iştirak etmişlər.[1]

Bundan başqa, 1999-cu ilin fevral ayının 24-26-da Vaşinqtonda ABŞ-ın vitse-prezidenti A.Qorun sədrliyi ilə ədliyyə, hüquq-mühafizə və təhlükəsizlik orqanlarında korrupsiya ilə mübarizəyə həsr edilmiş ümumdünya forumu keçirilmişdir. Forumda 90 dövlətin nümayəndələri BMT, ATƏT, Avropa Komissiyası, Avropa Şurası, Dünya Bankı, Ümumdünya Gömrük Təşkilatı, İnterpol və digər nüfuzlu beynəlxalq təşkilatları təmsil etmişlər.

Forumu ABŞ-ın dövlət katibi M.Olbrayt açmışdır. Sonra ABŞ-ın vitse-prezidenti A.Qor iştirakçıları salamlamış, forumun əhəmiyyətindən danışmışdır. Qeyd olunmuşdur ki, korrupsiya ayrılıqda heç bir ölkənin problemi deyil, bütövlükdə ümumbəşəri problemdir və bu sahədə bütün ölkələrin səylərinin birləşdirilməsini tələb edir.

Ümumdünya forumunda Azərbaycan Respublikasından Ə.Həsənova, Azərbaycan Respublikasının prezidentinin icra aparatının şöbə müdirləri Ş.Əliyev və F.Ələsgərov, Baş prokurorun sabiq müavini, hal-hazırda Ədliyyə naziri F.Məmmədov və DİN-in və Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları təmsil olunmuşlar.[2]

---

[1] Səfər. Beynəlxalq polis əməkdaşlığı yeni mərhələdə // Mübariz keşikdə, 1998, №41(2405).

[2] Korrupsiyaya qarşı mübarizəyə həsr olunub // Mübariz keşikdə, 4 mart 1999, №8(2421)].

24 və 28 sentyabr 2001-ci il tarixində İnterpolun Baş Assambleyasının Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən sessiyasında məqsəd Daxili İşlər orqanlarında qanunçuluğun möhkəmləndirilməsi və beynəlxalq cinayətkarlığın təhlükəli növlərindən olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi idi. Göstərdiyimiz bu tarixi sessiyada Azərbaycan Respublikasında İnterpolun MMB-nin rəhbərliyi iştirak etmişdir.[1]

Korrupsiyaya qarşı mübarizə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətinin hər iki mərhələsində əsas məsələlərdən biri olub. Sovet dövründə korrupsiyanın SSRİ miqyasında tüğyan etdiyi vaxtlarda Azərbaycana rəhbərlik edən Heydər Əliyev korrupsiyaya qarşı mübarizədə kompleks tədbirlər həyata keçirir, dövlət orqanlarında təmsil olunanlardan öz fəaliyyətlərində şəffaflıq prinsipinə riayət edilməsini tələb edir, korrupsiya ilə əlaqədar cinayət əməllərinin məsuliyyətə cəlb edilməsi üçün əlindən gələni əsirgəmir, eyni zamanda korrupsiyaya şərait yaradan halların baş verməməsi üçün profilaktik tədbirlər görürdü. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ulu öndərimiz yenə də korrupsiyaya qarşı mübarizə elan etdi. 1994-cü il 9 avqust tarixli “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında” prezident fərmanı ilə korrupsiya ilə mübarizə sahəsində ölkəni strateji kursunun əsasını müəyyənləşdirdi. 2000-ci il 8 iyunda imzaladığı “Azərbaycan Respublikasında Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair” fərmanı ilə korrupsiya ilə mübarizədə dövlətin dəyişməz və qətiyyətli mövqeyini nümayiş etdirdi. Bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyev hakimiyyətlə xalqın birliyini əks etdirən nadir idarəçilik məharəti ilə ölkədə sivil dövlət qurdu.

Daxildə aparılan tədbirlə yanaşı, ölkəmiz korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın vacibliyini əsas götürərək, BMT və Təşkilatının və AŞ konvensiyalarını, digər hüquqi sənədləri dəstəkləyir. Avropa Şurasının “Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında”, BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı”, konvensiyasını qəbul edib, “Korrupsiyaya qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyası”nı imzalayıb.

Azərbaycan Respublikası Prezidentinin “İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə” 1996-cı il 17 iyun, “Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında” 1999-cu il 7 yanvar, “Sahibkarlığın inkişafına

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2001-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 8.

mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr "Azərbaycan Respublikasında sosial iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli fərmanları iqtisadi inkişafa mane olan, ədalətsiz rəqabətə və kölgə iqtisadiyyatının yaranmasına, büdcə vəsaitlərinin qeyri-səmərəli istifadəsinə gətirib çıxaran korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə yönəldilib.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan İlham Əliyevin hakimiyyəti dövründə neqativ təhlükəli cinayət sayılan korrupsiyaya qarşı mübarizə məqsədi ilə, 2004-cü il mart ayının 3-də Azərbaycan Respublikası prezidenti "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunun tətbiq edilməsi barədə sərəncam imzalamış, 2004-cü il 3 sentyabr tarixli sərəncamı ilə 2004-2006-cı illəri əhatə edən Dövlət Proqramı qəbul edilmişdi.

Proqramın hazırlanmasında beynəlxalq təşkilatların təkliflərindən, habelə korrupsiyaya qarşı mübarizə sahəsində nailiyyətlər əldə etmiş dövlətlərin təcrübəsindən istifadə olunub. Dövlət proqramı bir daha təsdiq etdi ki, korrupsiyaya qarşı mübarizədə aydın şəkildə siyasi iradə nümayiş etdirməklə, hakimiyyət orqanları ilə ictimaiyyətin səylərini birləşdirməyə, ölkədə sosial-iqtisadi vəziyyətin xüsusiyyətləri və beynəlxalq təcrübə nəzərə alınmaqla, ümumbəşəri problem olan korrupsiyaya qarşı ardıcıl mübarizə aparmağa cəhd olunur. Bu proqramın qəbul edilməsindən sonra, 2004-cü il aprelin 21-də formalaşmış, korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyası yaradıldı.

Bir sözlə, korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramı beynəlxalq aləmdə terrorizmlə eyni səviyyədə ölçülən korrupsiyanın ölkəmizdə korrupsiyanın ləğvi istiqamətində mühüm baza oldu. Bir neçəsini xatırlamaq istəyirik: Hər bir dövlət məmurunun fəaliyyəti nəticəsindən asılı olacaqdır! Əsas göstəriciləri odur ki, əhali razı qalsın! Azərbaycanın bütün bölgələri inkişaf etdirilməlidir! Azərbaycan regionun zəngin və qüdrətli dövlətinə çevrilməlidir![1]

2004-cü il iyulun 28-29-da AR prezidentinin İcra Aparatı və ABŞ-ın ölkəmizdəki səfirliyi Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət proqramının layihəsinin müzakirəsi ilə bağlı "Dəyirmi masa" keçirilmişdir.

Dəyirmi masada Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının, Milli Məclisin, Nazirlər Kabinetinin, Baş Prokurorluğun. Ədliyyə və İqtisadi İnkişaf Nazirliklərinin "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət proqramı"nın layihəsinin təkmilləşdirilməsi üçün yaradılmış İşçi qrupunun nümayəndələri, xarici ölkələrin səfirlərinin, beynəlxalq təşkilatların, o cümlə-

[1] İsmayılov V. Azərbaycanın "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət proqramı" prezidentin bəyan etdiyi ideyaların yerinə yetirilməsinə təkan olacaqdır // Azərbaycan, 2004, 8 sentyabr, № 209 (3824).

dən BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Transparency International, ATƏT və Avropa Şurasının, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər.[1]

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 03 sentyabr 2004-cü il tarixdə imzaladığı fərman cinayətkarlığı, o cümlədən onun ən təhlükəli formalarından hesab edilən korrupsiya, rüşvətxorluq və digər vəzifə cinayətlərinin cəmiyyətdə ciddi sosial bəla kimi qəbul edilməsi və ona qarşı bütün üsul və vasitələrdən istifadə etməklə mübarizə aparılması zərurətindən irəli gəlib. Təsadüfi deyil ki, beynəlxalq aləmdə də korrupsiyanın xalqların sosial-iqtisadi və siyasi nüfuzuna əngəl olması ictimai-siyasi sabitliyə mənfi təsir göstərməsi, mütəşəkkil və iqtisadi cinayətkarlıqla bağlı olması, ictimai institutların legitimliyinin pozulması və digər mənfi hallara şərait yaradılması etiraf edilir. 2004-cu ilin noyabr ayının 30-da DİN-in müavini, polis general-leytenantı Ə.Ələkbərov Bakı ofisinin rəhbəri, səfir Mauristio Ravesi qəbul etmişdir. Ə.Ələkbərov ölkəmizin ikinci dəfə öz müstəqilliyini qazandıqdan sonra bir çox beynəlxalq təşkilatlar, həmçinin ATƏT ilə sıx əməkdaşlıq etdiyindən məmnunluq duyduğunu, bu təşkilatın, xüsusilə korrupsiya ilə mübarizə sahəsindəki təcrübənin öyrənilməsi istiqamətində qarşılıqlı faydalı əlaqələrin qurulmasının əhəmiyyətli olduğunu bildirmişdir. Bu gün dünyada aktual olan korrupsiya ilə bağlı tədbirlərin zəruriliyini qeyd edən general-leytenant Ə.Ələkbərov sonra demişdir: "Azərbaycanın dövlət strukturlarının bu sahədə kifayət qədər təcrübəsi var. Hələ respublikamız SSRİ tərkibində olarkən ölkə konstitusiyasında bu məsələ ilə əlaqədar xüsusi maddə vardı. "Korrupsiya ilə mübarizə ümummilli liderimiz Heydər Əliyevin əsas fəaliyyət istiqamətlərindən olub".[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2004-cü ilin hesabat dövrü tarixi ərzində Azərbaycan Respublikasının "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nın (2004-2006-cı illər) Daxili İşlər orqanlarında həyata keçirilməsinə dair 14/10/2004-cü il tarixdə təsdiq olunmuş Tədbirlər Planının icrası ilə əlaqədar, Peşə hazırlığı məsələlərində "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu, Korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramı (2004-2006-cı illər) və müvafiq tədbirlər planı MMB-nin şəxsi heyəti tərəfindən dərindən öyrənilmiş və görülən işlər barədə 28/12/2004-cü il tarixli 20/5198 №-li məktubla DİN-in Baş Təhlükəsizlik İnspeksiya İdarəsinə məlumat verilmişdir.[3]

---

[1] Korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramının layihəsinin müzakirəsi ilə bağlı "dəyirmi masa" kecirilmişdir // Azərbaycan, 2004, 31 iyul №176(3791).

[2] Korrupsiya üzrə mübarizə birgə səylər tələb edir // Mübariz keşikdə, 2004, 2 dekabr, №49 (2709).

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi, MMB-nin 2004-cü ilin xid-

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2005-ci ilin hesabat dövrü ərəfəsində Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramının (2004-2006-cı illər) daxili işlər orqanlarında həyata keçirilməsinə dair 14/10/2004-cü il tarixində təsdiq olunmuş tədbirlər planının icrası ilə əlaqədar peşə hazırlığı məsələlərində "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət proqramının (2004-2006-cı illər) və müvafiq tədbirlər planı" dərindən öyrənilmişdir. Görülən işlər barədə 28/12/2004-cü il tarixli 20/5198№-li və 05/07/2005-ci il tarixli 20/3022№-li məktubla DİN-nin Baş Təhlükəsizlik İnspeksiya İdarəsinə məlumat verilmişdir.[1]

Azərbaycan Respublikası prezidentinin 28/07/2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə, milli strategiyanın və onun həyata keçirilməsi ilə bağlı, Azərbaycan Respublikasında İnterpolun MMB-si Fəaliyyət Planının icrası ilə əlaqədar, korrupsiya sahəsində həyata keçirilən müxtəlif proqram və tədbirlər barədə məlumatların əldə olunması məqsədi ilə, müxtəlif ölkələrdə İnterpolun MMB-lərinə müraciət olunmuş və əldə olunan məlumatlar DİN-in Baş Təhlükəsizlik İnspeksiya İdarəsinə təqdim olunmuşdur. Eyni zamanda görülmüş işlər barədə ümumi arayışlar tərtib olunaraq 20/4099№-li 19/06/2009 tarixli məktublarla DİN-nin Baş Təşkilati İnspeksiya İdarəsinə təqdim olunmuşdur. Bu istiqamətdə fəaliyyət davam etdirilir.[2]

25-26 oktyabr 2010-cu il tarixində korrupsiyaya qarşı mübarizə məqsədi ilə Bakı şəhərində "Atropat" otelində təşkil olunmuş daha bir mühüm tədbiri qeyd edək. Bu toplantıda Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının, DİN-in və onun bir strukturu olan İnterpolun Azərbaycan Respublikasında MMB-nin və digər aidiyyəti qruplarının nümayəndələri də iştirak edirdilər.

Korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış rumıniyalı təmsilçi L.Stefan bildirdi ki, bu gün dünyada inkişaf səviyyəsindən asılı olmayaraq, korrupsiyanın meydan suladığı tanıdığımız və tanımadığımız ölkələr var. Korrupsiya bütün ölkənin inkişafına mənfi təsir edir və bu sahədə fəaliyyət göstərən təşkilatların işini kölgədə qoyur. Əsas diqqət qanunvericilik sahəsinə yönəldilmişdir. Həmçinin o, əlavə etdi ki, məlumat alma azadlığı ölkədə sağlam inkişafın şəffaf göstərici kimi xarakterizə olunur.

Daha sonra çıxış edən Henriette F.Schatz ölkədə qanunlara və digər qanun qüvvəli sənədlərə dəyişiklik etməzdən əvvəl onun ictimai müzakirəyə

---

məti fəaliyyətinə dair arayışı, s.4.

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2005-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.5.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009-cu ilin xidməti fəaliyyətinə dair arayış, s. 5,6.

çıxarılmasının vacibliyini qeyd etdi və müsbət nəticələrinin vətəndaş və dövlət arasında bağlılığa gətirib çıxaracağının təcrübədə öz təsdiqini tapdığını diqqətə çatdırdı. Korrupsiyanın qarşısının alınmasında ən fəal və səmərəli üsullardan biri də vəzifəli şəxslərin öz gəlirləri, daşınan və daşınmaz əmlakı haqqında deklarasiya təqdim etməsidir. Korrupsiyanın kökünü kəsmək çətin olsa da, onun nisbətən aradan qaldırılmasında əsas faktorlardan biri təəssübkeşliyin, səlahiyyətlərindən sui-istifadə etməyin aradan qaldırılmasıdır.[1]

7 fevral 2011-ci il tarixdə Azərbaycan Respublikası DİN-də Naziryanı əməliyyat müşavirəsi keçirilmiş, 2011-ci ilin yanvarın 29-da Daxili İşlər Nazirliyinin Korrupsiya ilə əlaqədar tədbirlər planının icrası ilə əlaqədar müzakirə edilmiş əməliyyat müşavirəsində vəzifə səlahiyyətlərindən sui-istifadə və korrupsiyaya şərait yaradan halların tam aradan qaldırılması, bu sahəyə nəzarətin gücləndirilməsi haqda konkret tapşırıqlar verilmişdir.[2]

Qeyd etmək istəyirəm ki, Korrupsiyaya qarşı mübarizə Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil etməklə, bu sahədə institutional və praktiki tədbirlər həyata keçirilir. Ölkə başçısı hüquq və ədalətə söykənən sivil cəmiyyət quruculuğunu uğurla davam etdirməklə korrupsiyaya qarşı mübarizə tədbirlərinin miqyasını daha da genişləndirmişdir.

Regionun aparıcı dövlətinə çevrilmiş və enerji təhlükəsizliyi sisteminə mühüm töhfələr verən Azərbaycan iqtisadiyyatı ildən-ilə inkişaf etmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Nazirlər Kabinetinin Sosial-iqtisadi inkişafına həsr edilmiş 2010-cu və ondan sonrakı iclaslarda və başqa tədbirlərdə rüşvətxorluğa və korrupsiyaya qarşı daha ciddi mübarizə aparılması barədə göstərişlər vermişdir.

2011-ci ilin yanvar ayının 27-də, Korrupsiyaya qarşı mübarizə üzrə komissiyanın sədri cənab Ramiz Mehdiyevin rəhbərliyi ilə keçirilmiş geniş yığıncaqda, müəyyənləşdirilmiş tədbirlərə müvafiq olaraq, bu neqativ təzahürlərə qarşı mübarizənin kəsəri daha da artırılmışdır. Ölkə başçısının siyasi iradəsinə uyğun olaraq, korrupsiyaya qarşı mübarizənin daha ciddi aparılması üçün 2011-ci ildə praktiki tədbirlər həyata keçirilmişdir.

Belə ki, Azərbaycan Respublikası prezidentinin 11 mart 2011-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasının Baş Prokurorluğu yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin ümumi say tərkibi 60 ştat vahidi artırılaraq 100 nəfərə çatdırılmış və eyni zamanda texniki işçilərin də sayında əhəmiyyətli dəyişikliklər edilmişdir. Həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin fəa-

[1] Korrupsiyaya qarşı mübarizə dünyanın diqqətindədir // Mübariz keşikdə, 2010, 28 oktyabr, №39 (3011).
[2] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2011, 20 iyun №23(3042).

liyyətinin səmərəli təşkili məqsədilə, maddi-texniki təminatın yaxşılaşdırılması ilə bağlı, zəruri tədbirlər görülməsi və idarə əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması məsələlərinin həll edilməsi barədə tapşırıqlar verilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyun 2011-ci il tarixli 89 saylı sərəncamı ilə idarə əməkdaşlarının maaşı əhəmiyyətli dərəcədə artırılmışdır.

18 mart 2011-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və "Prokurorluq haqqında" Azərbaycan Respublikası qanunlarına dəyişikliklər edilərək, Azərbaycan Respublikasının Baş Prokuroru Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmişdir.

Beynəlxalq təcrübəyə əsaslanaraq göstərmək olar ki, korrupsiya hüquqpozmalarına qarşı səmərəli mübarizə ixtisaslaşmış antikorrupsiya orqanlarının lazımi informasiyaların maneəsiz və vaxt itkisinə yol verilmədən əldə etməsi imkanı ilə sıx bağlıdır. Bu baxımdan Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resurslarına çıxış tədbirlərinin yaradılması cinayət təqibinin tezliyinə də öz müsbət təsirini göstərir.

Beynəlxalq təcrübəyə əsasən, ixtisaslaşmış antikorrupsiya qrupunun tərkibində "Əməliyyat" bölməsinin fəaliyyət göstərməsi bu kateqoriyadan olan cinayətlərin aşkar edilməsi işində mühüm rol oynayır.

Azərbaycan Respublikası Baş Prokurorluğu yanında yaradılmış Baş Korrupsiya İdarəsi bu neqativ cinayətkarlığa qarşı Azərbaycan Respublikasında İnterpolun MMB-si və digər Daxili İşlər və hüquq-mühafizə orqanları ilə informasiya mübadiləsi həyata keçirir.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 12 fevral 2011-ci il tarixdə keçirilən əməliyyat müşavirəsində "Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının 27/01/2011-ci il tarixdə keçirilmiş iclasında verilmiş tapşırıqların yerinə yetirilməsi ilə bağlı əlavə tədbirlərə dair" DİN-in 29/01/2011-ci il tarixli 9 №-li göstərişi şəxsi heyətə geniş şərh olunmuş və bu göstərişin tədbirlərinə müvafiq olaraq "Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə Üzrə Komissiyanın 27/01/2011-ci il tarixində keçirilmiş iclasında verilmiş tapşırıqların yerinə-yetirilməsi ilə tədbirlər planı" o cümlədən Azərbaycan Respublikası Prezidentinin 28/07/2007-ci il sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə milli strategiya və onun həyata keçirilməsi ilə bağlı fəaliyyət planının (2007-2011-ci illər) daxili işlər orqanlarında yerinə-yetirilməsinə dair" DİN-in 2011-ci il üçün 20/12/2010-cu il tarixli 2/356№-li tədbirlər planının icrası ciddi nəzarətə götürülmüş bu sahədə gö-

rülmüş işlər barədə arayışlar tərtib olunaraq 20/8978 №-li 17/12/2011-ci il tarixli məktublarda DİN-in Baş təşkilati inspeksiya idarəsinə təqdim olunmuşdur.

26-27 may 2011-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın Korrupsiya və çirkli pulların yuyulması üzrə işçi qrupunun növbəti iclası keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəis müavini polis polkovnik-leytenantı Z.Quliyev və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı A.Məmmədov təmsil etmişlər.

11-13 iyun 2011-ci il tarixində Fransanın Lion şəhərində "Qanunsuz vasitələrin aşkar olunmasına dair" korrupsiya ilə bağlı yaradılmış İnterpolun STAR layihəsi üzrə milli əlaqə zabitlərinin 2-ci görüşü keçirilmiş və bu tədbirdə ölkəmizi Azərbaycan Respublikası Prokurorluğu yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru, ədliyyə müşaviri E.Muradov və MMB-nin əməkdaşları təmsil etmişlər.[1]

20 iyun 2012-ci il tarixdə ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Korrupsiya ilə Mübarizə Alyansının "Korrupsiya əleyhinə mübarizə: innovasiyalar və yeni üfüqlər" mövzusunda 2-ci konfransı keçirilmişdir. Dünya Bankının təşkilatçılığı ilə iki ildən bir keçirilən tədbirdə dünyanın 130 ölkəsindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların və bir sıra beynəlxalq təşkilatların əməkdaşları iştirak etmişlər. Tədbirdə Azərbaycan Respublikasını Azərbaycan Respublikası prokurorluğunun Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin Preventiv tədbirlər və təhqiqat şöbəsinin rəisi V.Əliyev təmsil etmişdir.

Plenar iclas və sessiyalarla müşayiət olunan konfransda beynəlxalq əməkdaşlıq və korrupsiyaya qarşı mübarizədə yeni texnologiyaların tətbiqi mövzularında çıxışlar və təqdimatlar iştirakçıların diqqətinə çatdırılmışdır.

Tədbirin 2-ci günündə müasir texnologiyaların sərgisi nümayiş olunmuşdur. Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə təşkil olunmuş iclas və digər görüşlərdə V.Əliyev, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən kompleks tədbirlər, xüsusi ilə də korrupsiya ilə mübarizə sahəsində Dövlət Proqramının qəbulu və müvəffəqiyyətlə icrası, ölkəmizin korrupsiya ilə mübarizədə beynəlxalq nəzəriyyə və təcrübəni özündə əks etdirən konvensiyalara qoşulması və Milli Qanunvericiliyə İmplementasiya, bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı kimi, Baş Prokuror yanında

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 6, 12, 13.

Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin təşkili və fəaliyyətə başlaması, eyni zamanda idarə tərəfindən görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Tədbirin davamı olaraq Corc Vaşinqton Universitetinin “Hüquq” fakültəsinin “Cinayət yolu ilə əldə olunmuş aktivlərin qaytarılması” mövzusunda iki günlük təlim təşkil edilmişdir. Təlimdə həmin universitetin professorları J.Smitt və T.Lasicin mühazirələri böyük maraqla qarşılanmışdır. [1]

26-27 aprel 2012-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi qrupunun, korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi alt qrupun növbəti iclası keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikasını Azərbaycan Respublikasında İnterpolun MMB-nin XMİÜ üzrə baş inspektoru, polis polkovnik-leytenantı R.Rəsulov və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin baş əməliyyat müvəkkili, polis mayoru E.Mehdiyev təmsil etmişdir.[2]

15 yanvar 2013-cü il tarixdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, bu sahədə nəzarət və hesabat sisteminin səmərəsinin artırılması, eləcə də elektron xidmətinin tətbiq dairəsinin genişləndirilməsi, ictimai nəzarətin gücləndirilməsi və şəffaflığın təmin edilməsi barədə bütün dövlət qurumlarına qəti tapşırıqlar vermişdir.

Bununla əlaqədar, Azərbaycan Respublikasının Ədliyyə naziri F.Məmmədovun sədrliyi ilə, kollegiya iclası keçirilmişdir. İclasda qeyd olunmuşdur ki, dövlət başçısının tapşırıqlarına əsasən ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində mükəmməl qanunvericilik və institusional islahatlar aparılmış, Korrupsiyaya qarşı mübarizədə və Açıq Hökumətin təsvirinə dair Milli Fəaliyyət Planı təsdiq olunmuş, müasir informasiya kommunikasiya texnologiyaları tətbiq edilməklə dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, habelə vətəndaşların rahatlığının təmini məqsədilə yeni, şəffaf və innovativ tədbirlər, o cümlədən Asan Xidmət Mərkəzləri yaradılmışdır. [3]

Korrupsiyaya qarşı mübarizə məqsədi ilə daha bir beynəlxalq səviyyəli tarixi faktı qeyd edək.

---

[1] Azərbaycan Vaşinqtonda keçirilən beynəlxalq korrupsiya əleyhinə mübarizə alyansının ikinci konfransında təmsil olunmuşdur // Azərbaycan, 2012, 22 iyun, №136(6117).

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2012-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 8-9.

[3] Korrupsiyaya qarşı mübarizə diqqət mərkəzindədir // Azərbaycan, 2013, 2 fevral, №24 (6299).

Azərbaycan dünyada korrupsiyaya qarşı mübarizə aparan qurumları birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assambleyasının (İAACA) təşkilatlarından biri kimi, beynəlxalq antikorrupsiya əməkdaşlığına dəyərli töhfələr verir. Respublikamızın nümayəndəsi İAACA-nın vitse-prezidenti seçilərək qurumun işində fəal iştirak edir.

Azərbaycan Respublikasının Ədliyyə naziri F.Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti Hindistanda səfərdə olmuşdur. F.Məmmədov İAACA-nın vitse-prezidenti kimi 2013-cü ilin aprel ayının 8-dən 10-dək Assosiasiyanın İcraiyyə Komitəsinin Nyu-Dehlidə təşkil olunmuş iclasında iştirak etmişdir.

Tədbiri Hindistanın dövlət naziri V.Narayanasami açdıqdan sonra, İAACA-nın prezidenti, Çinin baş prokuroru Çao Çianminq çıxış etmişdir. İclasda korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığın və bu sosial bəla ilə qlobal səviyyədə mübarizənin gücləndirilməsi, antikorrupsiya orqanlarının fəaliyyətinin daha mükəmməl əlaqələndirilməsi üçün yeni mexanizmlərin tətbiqi, bu sahədə çevikliyin təmin olunması və digər aktual məsələlər müzakirə edilmişdir. Həmçinin Assosiasiyanın fəaliyyətinin səmərəliyinin artırılması üzrə tədbirlərə, o cümlədən ölkəmizin ekspertlərinin iştirakı ilə hazırlanmış İAACA-nın strateji proqramına baxılmışdır.

İAACA-nın vitse-prezidenti kimi, F.Məmmədov mühüm təşkilati məsələlərə dair əsas məruzəçi qismində çıxış etmişdir. İclasda konkret təkliflər irəli sürülmüş və qərarlar qəbul edilmişdir.

Yığıncaq çərçivəsində Hindistanın dövlət naziri V.Narayanasami, bu ölkənin əsas korrupsiya orqanı olan Mərkəzi Sayıqlıq Komissiyasının sədri P.Kumar, bir sıra digər dövlətlərin ədliyyə, prokurorluq və s. hüquq-mühafizə orqanlarının rəhbərləri ilə işgüzar görüşlər keçirilmişdir. Görüşlərdə ölkəmizdə keçirilən antikorrupsiya tədbirləri barədə ətraflı məlumat verilmiş, əməkdaşlığa dair faydalı fikir və təcrübə mübadiləsi aparılmışdır.

Çinin baş prokuroru, İAACA-nın prezidenti Ç.Çianminq ilə görüşdə iki ölkə arasında əlaqələrin ardıcıl inkişafı, hüquqi əməkdaşlığın genişləndirilməsi vurğulanmışdır. Çinin baş prokuroru dövlətimizin korrupsiya ilə mübarizəyə, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığa mühüm əhəmiyyət verməsini müsbət qiymətləndirərək, Azərbaycanın İAACA-nın inkişafına göstərdiyi dəstəyi və dəyərli töhfələri xüsusilə qeyd etmişdir.[1]

Azərbaycan Respublikasının Daxili İşlər orqanları və DİN-in strukturlarına aid olan Azərbaycan Respublikasında İnterpolun MMB-si korrupsiyaya qarşı qətiyyətli mübarizə aparmaqdadır.

[1] Azərbaycan beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirak edir // Azərbaycan, 2013, 11 aprel, №75(6350).

26 aprel 2013-cü il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə işçi alt qrupunun korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi alt qrupunun növbəti iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin baş inspektoru Z.Hüseynov və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməliyyat müvəkkili S.Abdullayev təmsil etmişlər.[1]

Nəticə olaraq göstərə bilərəm ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi çoxsahəli islahatlar kursu ötən 10 ildə respublika iqtisadiyyatında dinamik inkişafa zəmin yaratmış, hər bir vətəndaşın həyatında irəliləyişə səbəb olmuşdur. Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən mütərəqqi dəyişikliklər özünü ildən-ilə daha qabarıq şəkildə göstərməklə yanaşı, yüksələn xətt üzrə inkişaf etməkdədir. Regionun lider dövlətinə çevrilmiş Azərbaycan Respublikası inkişaf etmiş ölkələr sırasında öz yerini möhkəmləndirərək beynəlxalq nüfuzunu daha da artırmış, bəşəri norma və prinsiplərə əməl edən müstəqil, sivil, demokratik və hüquqi dövlət kimi imicini gücləndirmişdir. Ölkə həyatının bütün sahələrində əldə olunan uğurlar beynəlxalq təşkilatların hesabatlarında, nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında, eləcə də respublikamızın davamlı inkişaf yolunda olduğu xüsusi vurğulanır.

Prezident İlham Əliyev qətiyyətini və siyasi iradəsini bir daha nümayiş etdirərək ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha sistemli, genişmiqyaslı və səmərəli həyata keçirilməsinin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə edilməsi, əhalinin sosial rifahının yüksəldilməsinə yönəlmiş "korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq etmişdir. Əsas məqsədi korrupsiyaya qarşı mübarizəni vahid strategiya çərçivəsində qurmaq və bu sahədə görülən tədbirləri daha səmərəli surətdə davam etdirməkdən ibarət olan Milli Fəaliyyət Planı dövlət idarəçiliyində şəffaflığın artırılması, ərizə və şikayətlərə baxılması işinin, qanunvericilik bazasının, institusional mexanizmlərin, korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumların fəaliyyətinin təkmilləşdirilməsi, dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqinin genişləndirilməsi, beynəlxalq əməkdaşlığın, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsinə yönəldilmişdir.

Milli fəaliyyət planının qəbul edilməsi Azərbaycanın, beynəlxalq səviyyədə başlanan Açıq Hökumət Tərəfdaşlığına qoşulan ilk dövlətlərdən biri

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2013-cü ilin xid mə ti fəaliyyətinə dair arayışı, s. 8.

kimi, bu prinsiplərə sadiqliyini bir daha nümayiş etdirir. Açıq Hökumət Tərəfdaşlığının prinsiplərinə müvafiq olaraq, dövlət orqanları tərəfindən fəaliyyətləri barədə ictimaiyyətə geniş məlumatlar verilməsi, qərarların qəbulu prosesində vətəndaş cəmiyyətinin rolunun artırılması, elektron xidmətin genişləndirilməsi, əhaliyə təqdim olunan xidmətlərin keyfiyyətinin artırılması kimi mühüm elementləri özündə əks etdirən Milli Fəaliyyət Planı ilk növbədə idarəçilikdə şəffaflığı təmin edən bütün komponentləri özündə birləşdirməklə yanaşı, korrupsiyaya qarşı mübarizə işində də mühüm töhfə verməyə başlamışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə, məmurların ümdə vəzifəsi hesab etdiyi, vətəndaşlara dövrün tələblərinə müvafiq sivil xidmət göstərmək və yeni müasir, sosial yönümlü innovasiyaların tətbiqindən ibarət vətəndaşlara xidmət və sosial innovasiyalar üzrə Dövlət Agentliyinin və onun tərkibində "Asan xidmət" mərkəzlərinin yaradılması mühüm antikorrupsiya tədbirlərindən biridir. Dövlətlə vətəndaş arasında sıx təmas xətti olan bu qurum korrupsiyaya şərait yaradan halların aradan qaldırılması istiqamətində mühüm addım olmaqla, onun əsas hədəfi vətəndaş-məmur təmas nöqtələrinin minimuma endirilməsi, xidmətlərin keyfiyyətinin artırılması, icra müddətinin qısaldılması, vaxt itkisinin azaldılmasından ibarətdir. Artıq yeni dövlət qurumunun fəaliyyəti vətəndaşların daha çox və tez-tez müraciət etdiyi xidmət sahələri üzrə narazılıqların məmnunluqla əvəz olunmasına gətirib çıxarmışdır. Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "artıq bir Azərbaycan brendi"nə çevrilmişdir. Bu gün Azərbaycan standartları bir çox ölkələr üçün əsl nümunədir.

11 iyun 2014-cü ilin birinci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir. Həmin iclasın yekununda çıxış edən cənab Ramil Usubov hesabat dövründə əməliyyat-xidmət fəaliyyətinin ümumən qənaətbəxş olduğunu, qanunla müəyyən edilmiş vəzifələrin layiqincə yerinə-yetirildiyini, digər hüquq-mühafizə orqanları ilə birgə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin uğurla davam etdirildiyini, xalqa xidmət funksiyalarının və vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində fəaliyyətin daha səmərəli təşkilinin vacibliyini bildirmişdir.

İstənilən cəmiyyətdə hər hansı təriqətin əsasında dayanan başlıca şərtlərdən birinin məhz daxili sabitlik və təhlükəsizlik olduğuna dair möhtərəm dövlət başçısının fikirlərini kollegiya iştirakçılarının diqqətinə çatdıran cənab Ramil Usubov şəxsi heyətin fədakar əməyinin ölkə prezidenti İlham Əliyev tərəfindən növbəti dəfə yüksək qiymətləndirildiyini, peşə bayramları ərəfəsində Daxili İşlər orqanlarının və Daxili Qoşunların ümumilikdə 67

əməkdaşın Dövlət mükafatına təqdim olunduğunu qeyd etmişdir. Möhtərəm Prezidentin təşəbbüskarlığının şəxsi heyətin üzərinə daha böyük məsuliyyət qoyduğunu nəzərə çatdıran nazir, bu yüksək qayğıya cavab olaraq ictimai asayişin, insan hüquq və azadlıqlarının, vətəndaşların qanuni mənafelərinin daha etibarlı qorunmasının vacibliyini vurğulamış, xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqların qısa müddətdə və tam aradan qaldırılmasını tələb etmiş, bu istiqamətdə bir sıra tapşırıqlar vermişdir.

Korrupsiya və rüşvətxorluğa qarşı qətiyyətli mübarizə aparılmasını Azərbaycan Prezidentinin prinsipial mövqeyi kimi dəyərləndirən nazir, bu cür neqativ hallarla mübarizənin davamlı olmasının, tolerantlıq baxımından hər zaman nümunə olan respublikamızda dini radikalizm təzahürlərinin qarşısının alınmasında digər dövlət orqanlarının, ictimaiyyətin nümayəndələri ilə birgə yerlərdə ideoloji və maarifləndirici iş aparılmasının, cinayətlərin profilaktikasında və açılmasında veteran polis əməkdaşlarının imkanlarından geniş istifadə edilməsinin vacibliyi xüsusi qeyd etmişdir.

Daxili İşlər naziri əmin olduğunu bildirmişdir ki, şəxsi heyət cinayətkarlığa qarşı mübarizədə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində Cənab İlham Əliyevin qarşıya qoyduğu mühüm vəzifələrin, hüquq qaydalarının və qanunçuluğun möhkəmləndirilməsi, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqları bundan sonra da layiqincə yerinə yetirəcək, sabitliyin, əmin-amanlığın, dövlətin, hüquqi və fiziki şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcəkdir.[1]

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin fəaliyyət istiqamətlərindən olan mütəşəkkil cinayətkarlığın bir növünü də iqtisadi sahədə olan cinayətlər təşkil edir.**

İqtisadi cinayətkarlığa qarşı mübarizəni tarixi xronoloji ardıcıllıqla qeyd edək.

19 iyul 1999-cu il tarixində DİN-in əməliyyat müşavirəsində qeyd olunmuşdur ki, ölkə prezidenti Heydər Əliyevin qarşıya qoyduğu vəzifəyə uyğun olaraq, Daxili İşlər orqanlarının əməkdaşları ümumən cinayətkarlığa, o cümlədən ölkənin müdafiə və iqtisadi qüdrətinə ziyan vuran, islahatlara bu və ya digər şəkildə mane olan və əhali arasında narahatlıq yaradan cinayətlərə qarşı mübarizəni daha da gücləndiriblər. 1994-cü il 2 oktyabr dövlət çevrilişi cəhdinin fəal iştirakçılarından biri, çevriliş cəhdi puça çıxdıqdan sonra istintaqdan yayınaraq Rusiyanın Santa, Oryol və digər şəhərlərində gizlənən Yevlax rayon sakini, əvvəllər də məhkum olunmuş X.Aslanov yaxalanmış, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində ona məxsus olan bir ədəd

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2014, 17 iyul, №27(3191).

avtomat silah, 1 ədəd tank üçün gecəgörmə cihazı, 1 ədəd süngü bıçağı, bir xəncər və 326 ədəd müxtəlif çaplı güllələr polis əməkdaşları tərəfindən götürülmüşdür.[1]

İqtisadi cinayətkarlıqla bağlı daha bir faktı qeyd edək. AR MM-nin sabiq sədri R.Quliyev istər "Azərneft" İstehsalat Birliyinin rəhbəri olduğu, istərsə də sonrakı dövrlərdə yüksək vəzifə səlahiyyətlərindən sui-istifadə edərək özünə və yaxınlarına məxsus özəl şirkətlər vasitəsilə respublikamızın strateji neft məhsullarının talanmasına başçılıq etmiş və bu əməliyyat nəticəsində Azərbaycan dövlətinə, Azərbaycan vətəndaşlarına külli miqdarda maddi ziyan vurulmuşdur.

"Azərneftyağ" İB-də baş vermiş qanun pozuntuları ilə aparılan cinayət işlərinin ilkin istintaqı müəyyən etmişdir ki, keçmiş SSRİ Xarici İqtisadi Əlaqələr Nazirliyi tərəfindən verilmiş 1989-cu il 18 aprel tarixli şəhadətnaməyə əsasən, "Azərneftyağ" İB iqtisadi əməkdaşlığın iştirakçısı kimi, dövlət reyestrinə daxil olunmuş və ona istehsal etdiyi neft məhsullarının ixracına icazə verilmişdir. Faktiki isə, o dövrdə birliyə rəhbərlik edən R.Quliyevin özü tərəfindən yalnız şəxsi maddi maraqlarına cavab verəcək kontraktların bağlanmasına zəmin yaratmışdır.

Əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, ixrac əməliyyatlarını həyata keçirməyə razılığı R.Quliyev heç bir çətinlik çəkmədən əldə edə bilmişdir. Çünki R.Quliyev həmin dövrdə Moskva şəhərində yerləşən "Soyuznefteksport" xarici iqtisadi əlaqələr birliyinin baş direktoru Arturyanla, sonradan bu birliyin bazasında yaradılmış "Nafta" neft şirkətinin rəhbərləri A.Hansarovla və S.Mirzoyanla, bu şirkətin "Dalnafta" nümayəndəliyinin rəhbəri A.Olopsyanla yaxın münasibətdə olmuş və bir çox talançılıq əməliyyatlarını məhz belə şəxslərin vasitəçiliyi ilə reallaşdıra bilmişdir. Belə ki, "Azneft" İB Azərbaycan Respublikası Nazirlər Kabinetinin verdiyi şəhadətnamə, qeydiyyat vərəqələri və lisenziyalar əsasında 1990-cı ildən başlayaraq xarici ölkələrin, o cümlədən Böyük Britaniya, Yunanıstan, Avstriya, Kipr və s. müxtəlif firmaları ilə kontraktlar bağlayaraq neft məhsullarının ixracına başlamışdır.

R.Quliyevin birliyə rəhbərlik etdiyi dövrlərdə yuxarıda adları çəkilən ölkələrin firmaları ilə bağladığı kontraktların tədqiqi və araşdırılması göstərir ki, həmin kontraktların böyük əksəriyyəti ciddi qanun pozuntuları ilə imzalanmışdır. Belə ki, kontraktların əksəriyyətinin bufer xarakterli olmasına baxmayaraq, qarşı tərəfin, yəni xarici firmaların həmin kontrakta əsasən "Azərneftyağ"a verəcəyi məhsulun adı və miqdarı göstərilməmiş, bu kontrakt tam həcmdə yerinə yetirilmədiyi, göndərilmiş məhsulun dəyəri birliyə

[1] DİN-in mətbuat xidməti // Mübariz keşikdə, 1997, 28 avqust, №32(2349).

tam ödənilmədiyi halda, həmin firma ilə yenidən əlavə kontraktlar bağlanılmış, bəzən isə onların icra müddəti belə göstərilməmişdir.

Bir sözlə, strateji neft məhsullarının dövlət əmlakının talanmasına qabaqcadan R.Quliyevin özü tərəfindən əlverişli şərait yaradılmışdır. Müəyyən edilmişdir ki, R.Quliyevin təşkilatçılığı və onun himayədarlıq etdiyi şəxslərin iştirakı ilə milli sərvətimiz olan neft məhsullarının mütəşəkkil cinayət qrupu tərəfindən talanması nəticəsində Azərbaycan dövlətinə dəyən on milyonlarla ABŞ dolları məbləğində, yəni xüsusilə külli miqdarda maddi ziyan vurulmuşdur.

Aparılan əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində həmçinin müəyyən edilmişdir ki, Rəsul Quluyev nəinki "Azərneftyağ" istehsalat birliyinə rəhbərlik etdiyi müddətdə, hətta sonrakı dövrlərdə də tutduğu yüksək vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, özünə və yaxın adamlarına məxsus özəl şirkətlər vasitəsilə strateji neft məhsullarının talanmasına, bu sahədə yetişdirdiyi mütəşəkkil cinayətkar qruplara başçılığı davam etdirmişdir.[1]

İstintaq zamanı müəyyən edilmişdir ki, R.Quliyevin təsisçilərindən biri olduğu və himayəsindəki "Bakı-İnvest" Azərbaycan-Almaniya birgə müəssisəsi ilə "Azərneftyağ" İB arasında 1990-cı il sentyabrın 3-də 45 №li müqavilə bağlanmışdır. Müqavilənin şərtlərinə əsasən birgə müəssisə emal üçün zavoda neft qalıqları təhvil verməli, zavod onları qəbul edib emal etdikdən sonra hazır neft məhsullarını ixrac üçün birgə müəssisəyə qaytarmalı, müəssisə isə onları xarici bazarda satdıqdan sonra məhsulun dəyərinin 35 faizini valyuta ilə zavoda ödəməli idi.

Zavod 1991-1992-ci illərdə həmin müqavilə əsasında neft məhsullarını birgə müəssisədən alaraq emal etmiş, 275-069 ton müxtəlif növ məhsullarını ixrac üçün birgə müəssisəyə təhvil vermişdir. Birgə müəssisə neft məhsullarını xarici bazarda sataraq, 37.702.808 ABŞ doları məbləğində vəsait əldə etmişdir. Müqavilə şərtləri ilə bu vəsaitin 35 faizi, yəni 13.195.982 ABŞ dolları zavodun hesabına köçürülməli olduğu halda, həmin pul vəsaiti Rəsul Quliyevin tapşırığı ilə birgə müəssisənin Almaniyanın Drezden Bankında olan valyuta hesabına toplanmışdır. Bundan sonra onun yazılı və şifahi göstərişləri ilə bu vəsaitin yanlış 943.000 ABŞ dolları zavodun mənafeyinə istifadə olunmuşdur. Qalan 12.252.982 ABŞ dolları isə "Bakı-İnvest" birgə müəssisəsinin Drezden Bankındakı Valyuta hesabından xaricdə olan bir sıra şirkətlərin və ayrı-ayrı şəxslərin hesabına köçürülməklə talanmışdır.

O cümlədən 25 oktyabr 1991-ci il tarixdə 190.000 ABŞ dolları. Yunanıstanın zavodla heç bir əlaqəsi olmayan "Kontakt-Injetring" şirkətinə, 20

[1] Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Respublika Prokurorluğunun birgə məlumatı // Mübariz keşikdə qəz., 1998, 28 fevral, №8(2372).

avqust 1992-ci il tarixdə 630.000 ABŞ dolları isə İngiltərənin həmin dövrdə zavoda 7.200.000 ABŞ dolları məbləğində borcu olan "OBO LTD" şirkətinə köçürülmüşdür. 11 dekabr 1991-ci il tarixdə R.Quliyev Almaniyanın Adledopt şəhərinin "Drey-kroner Sand" otelindən şəxsən öz adından göndərdiyi telefaks vasitəsilə 2.500.000 ABŞ dollarını Türkiyənin zavodla heç bir əlaqəsi olmayan "Damla" şirkətinin hesabına köçürülməsi barədə "Bakı-İnvest" birgə müəssisəsinə sərəncam vermiş, müəssisə Belçikanın "Nafta-B" şirkətinin hesabından həmin məbləğdə valyutanı göstərilən ünvana köçürmüşdür.

Bundan başqa R.Quliyev "Azərneftyağ" istehsalat birliyinin baş direktoru işlədiyi dövrdə qulluq mövqeyindən sui-istifadə edərək müvafiq dövlət orqanlarında qeydiyyatdan keçirmədən 1992-ci ilin fevral ayında Moskva şəhəri Xalq Təhsili və Elm Həmkarlar Təşkilatları Assosiasiyası ilə qeyri-qanuni müqavilə bağlamışdır. Müqavilənin şərtlərinə görə, həmin assosiasiya zavoda avadanlıq, ehtiyat hissələri və reagent almaq üçün hər hansı xarici firma ilə müqavilə bağlamalı, bir ay müddətinə alınacaq məhsulların miqdarı, keyfiyyəti və çeşidi barədə ona əlavəni təqdim etməli idi. Rəsul Quliyevin imzası ilə elə həmin ay Bakı Neftayırma Zavodunun "Xarici İqtisadi Bank"dakı hesabından Assosiasiyanın hesabına 10 milyon ABŞ dolları köçürülmüşdür. Sonradan isə, heç bir xarici firma ilə müqavilə bağlamadan, həmin pul R.Quliyevin birbaşa tapşırığı ilə Rusiya Sahibkarlar Palatasının Moskva şəhərindəki "Neft-ximbankı" da olan hesabına keçirilmiş və talanmışdır. Beləliklə, R.Quliyevin başçılığı və birbaşa iştirakı ilə 45 milyon ABŞ dollarından artıq dövlət vəsaitinin mənimsənilib dağıdılması sübuta yetirilmişdir.

Lakin ən acınacaqlı hal budur ki, vaxtilə ölkəmizdə yaranmış hakimiyyət boşluğundan istifadə edərək, xalqın sərvəti hesabına var-dövlət əldə edən, indi isə qaçıb xarici ölkələrdə özünə havadarlar axtaran R.Quliyev və onun kimiləri Azərbaycanın bəzi üzdəniraq siyasətçilərini öz təsiri altına salaraq, onları ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına və vətəndaş qarşıdurmasına sövq etməyə çalışırlar.[1]

Azərbaycan Respublikasının Daxili İşlər orqanları və onun bir strukturu olan İnterpolun MMB-si, hüquq-mühafizə orqanları istər daxildən, istərsə də xaricdən ölkəmizin milli maraqlarına və Konstitusiyaya zidd olan hər cür əməllərin qarşısını bundan sonra da qətiyyətlə alacaq, sabitliyin pozulmasına imkan verməyəcək. İstər xalqın mülkiyyətini talayanlar və bu vəsaiti ölkəmizə qarşı düşmənçilik niyyəti ilə sərf edənlər, istərsə də bu qeyri-

---

[1] Daxili İşlər Nazirliyi və Respublika Prokurorluğu mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 1998, 28 may, №19(2383).

qanuni vəsaitlə dövlətçiliyimizə qarşı hər cür çirkin mübarizə vasitələrinə əl atanlar gec-tez öz layiqli cəzalarını alacaqlar.

Xalq malını talayan, iqtisadi cinayətlər törədən R.Quliyev hal-hazırda İnterpol xətti ilə beynəlxalq axtarışdadır.

Daha bir tarixi hadisəni qeyd edək. 1998-ci il oktyabr ayının 1-də "Azərbaycan" mehmanxanasında Avropa Şurası Hüquq Departamentinin təşəbbüsü ilə, respublika daxili işlər orqanlarının əməkdaşlarının iştirakı ilə seminar keçirilir. "Polisin fəaliyyətinin və polis təliminin cinayətkarlığın, ələlxüsus onun iqtisadi sahədə yeni formalarına uyğun təkmilləşdirilməsi" mövzusunda idi. Tədbirdə cənab Ramil Usubov və AŞ Hüquq Departamentinin baş məsləhətçisi K.Ceapomante iştirak etmişlər. K.Ceapomante bildirmişdir ki, bu sahədə əməkdaşlığın möhkəmləndirilməsi cinayətlərin transmilli xarakter aldığı, mütəşəkkil cinayətkar dəstələrin pul qazanmaq üçün daha yeni texnologiya, elmi üsullardan istifadə edərək bir neçə ölkədə fəaliyyət göstərdikləri vaxtda daha aktualdır. Bu sahədə yarandığı 5 ildə İnterpolun Azərbaycan Respublikasında MMB-si də diqqətəlayiq işlər görüb. İqtisadi cinayətkarlıq, korrupsiya və mütəşəkkil cinayətkarlığa qarşı təkcə ölkədaxili mübarizə heç bir nəticə verməz. Çox təhlükəli olan bu cinayət növləri beynəlxalq mübarizə tələb edir.

Sessiyada Azərbaycan Respublikasında İnterpolun MMB-nin sabiq rəis müavini, polis polkovniki Ə.Umayev çıxış edərək, İnterpolun yaranma tarixi və zəruri problemlərinə toxunaraq, İnternet sistemi və kompüterlərin satışının təşkilində qeydə alınan cinayətlər haqqında danışmış, bu cinayətlərin yaranma səbəbləri və nəticələri barədə seminar iştirakçılarına geniş məlumat vermişdi. [1]

Azərbaycan Respublikası interpolun MMB-nin cari arxiv materialları əsasında illər üzrə MMB-nin fəaliyyətinə nəzər salaq.

2000-ci il tarixi dövründə MMB-də onun cinayətkarlığa qarşı mübarizədə fəaliyyət istiqamətinin bir növü olan iqtisadi cinayətkarlıqla bağlı daxil olan sorğu və məlumatların alınması müşahidə edilir. Külli miqdarda dövlət əmlakını mənimsəmə faktı üzrə istintaq olunan cinayət işləri üzrə daxil olmuş istintaq tapşırıqları ilə əlaqədar müxtəlif ölkələrin İnterpolun MMB-na sorğular göndərilmişdir. İnterpolun Visbadendə MMB-dən daxil olmuş məlumatlarda Azərbaycan vətəndaşı F.Təhməzovdan 1271ədəd saxta 5 alman markası müsadirə edildiyi və faktla bağlı Almaniyanın Dassau şəhərinin prokurorluq orqanları tərəfindən təhqiqat aparıldığı bildirilmişdir. Faktla bağlı aparılan yoxlamalar nəticəsində müəyyən edilmişdir ki, F.Təhməzova 2860 ədəd saxta 5 alman markasını Azərbaycan vətəndaşları D. Teymurov,

[1] Babayev İ. Avropa Şurası ilə birgə mübarizə // Mübariz keşikdə, 1998, 2 oktyabr, №37 (2401).

R.Musayev, N.Sadıxov və S.Əliyev satmışlar. Fakt üzrə Nərimanov rayonu Polis Şöbəsinin 16-cı polis bölməsinə göndərilmişdir.

Bundan başqa, 06.03.2000-ci il tarixdə Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi əməkdaşları tərəfindən Azərbaycan vətəndaşı Ə.İsmayılovdan 1094 ədəd saxta 100 ABŞ dolları əskinasları aşkar edilmiş və faktla bağlı cinayət işi başlanmışdır. İstintaq zamanı müəyyən edilmişdir ki, o, həmin saxta pulları Türkiyənin Mersin şəhərində naməlum şəxslərdən almışdır. Bu barədə Türkiyə İnterpolunun MMB-sinə müvafiq sorğular göndərilmiş, təşkilatın Baş Katibliyi isə məlumatlandırılmışdır.

Dələduzluq yolu ilə vətəndaşların külli miqdarda əmlakını mənimsəmiş Livan vətəndaşı C.V.Şalhub barəsində Azərbaycan Respublikası DİN-in İstintaq İdarəsində qaldırılmış cinayət işi ilə bağlı, daxil olmuş istintaq tapşırığı əsasında, İnterpolun BƏƏ, İtaliya, İngiltərə, ABŞ, Livan və Ukraynada MMB-lərinə müvafiq sorğular göndərilmişdir. İngiltərədə İnterpolun MMB əməkdaşlarından alınan cavabda bildirilmişdir ki, C.Vahidin əlaqəli olduğu "Lantender" bankından 21 milyon ABŞ dollarının oğurlanması ilə bağlı cinayət işinin istintaqı aparılmışdır.[1]

2001-ci ildə MMB-nin iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsindəki fəaliyyətinə nəzər yetirdikdə məlum oldu ki, Aztelekom BM-in qanunsuz telefon danışıqları nəticəsində dövlətə külli miqdarda ziyan vurması ilə bağlı müraciəti əsasında araşdırmalar aparılmış, toplanmış material cinayət işi qaldırılması məqsədilə Bakı şəhəri Baş Polis İdarəsi İstintaq göndərilmişdir.

Vergilər Nazirliyində İbtidai Araşdırmalar İdarəsinin yanaşması ilə əlaqədar olaraq, İqtisadi sahədə cinayətkarlıqla bağlı daxil olan sorğu və məlumatların artması müşahidə olunur. Belə ki, həmin idarə tərəfindən "ABA" televiziya şirkətinin rəhbər işçi barədə aparılan cinayət işinin istintaqı ilə bağlı daxil olmuş istintaq tapşırıqlarında ABŞ-da, Yaponiyada, Panamada və Avstriyada İnterpolun MMB-lərinə "Azad sahibkarlıq 21-ci əsr" şirkətinin prezidenti M.Kərimov Poladxan barəsində aparılan cinayət işinin istintaqı ilə bağlı İnterpolun İran İslam Respublikasında MMB-na müvafiq sorğular göndərilmişdir. Daxil olmuş məlumatlar təşəbbüskarlara təqdim olunmuşdur.

Avstriya vətəndaşının "Rur və İmaq" birgə müəssisəsinə məxsus 100 min ABŞ dollarından çox vəsaitin bir qrup vəzifəli və fiziki şəxslər tərəfindən dizel-generator alınması adı altında saxta sənəd tərtib etməklə mənimsənilməsi ilə bağlı müraciət əsasında fakt üzrə toplanmış material öz proses-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2000-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 6,7.

sual həllini tapması üçün MMB tərəfindən Yasamal rayon prokurorluğuna göndərilmişdir.

Almaniyada İnterpolun MMB-dən və Azərbaycan Respublikası Vergilər Nazirliyinin İstintaq və İbtidai araşdırmalar Departamentindən "Fixsmer" Almaniya-Azərbaycan Birgə müəssisəsi barədə daxil olmuş sorğu ilə bağlı müvafiq araşdırmalar aparılaraq nəticələri barədə nazirliyin rəhbərliyinə məruzə olunmuş və təşəbbüskara məlumat verilmişdir. Hal-hazırda bu istiqamətdə iş davam etdirilir.

Digər tərəfdən, külli miqdarda dövlət əmlakını mənimsəmə faktı ilə istintaq olunan cinayət işi üzrə daxil olmuş istintaq tapşırıqları əsasında müxtəlif ölkələrin MMB-lərinə sorğular göndərilmişdir. Saxta pul və qiymətli kağızların, kredit kartlarının hazırlanması, cinayət yolu ilə əldə edilmiş "Çirkli" pulların "təmizlənməsi" barədə informasiyalar da məlumat bazasına salınmış, aktual əhəmiyyət kəsb edənlər isə DİN-in müvafiq xidmətlərinə və Respublika Milli Bankının İdarə Heyətinə göndərilmişdir.[1]

2002-ci ildə MMB-nin hesabat dövrü ərzində iqtisadi cinayətkarlıqla mübarizə ilə bağlı İnterpolun Baş Katibliyindən və üzv ölkələrdən -70, DİN-dən 12, MTN-dən 3, Respublika Prokurorluğundan 5 və Vergilər Nazirliyindən 2 tapşırıq daxil olmuşdur.

Bundan əlavə Respublikamızda İnterpolun MMB-dan və AR Vergilər Nazirliyinin İstintaq və İbtidai Araşdırmalar Departamentindən "Fixsemer" Azərbaycan-Almaniya birgə müəssisəsi barədə daxil olmuş sorğu ilə bağlı yazışmalar davam etdirilir.

AR DİN-in İstintaq və Mütəşəkkil Cinayətkarlıq İdarəsindən daxil olmuş tapşırıqlar əsasında dələduzluq yolu ilə vətəndaşların külli miqdarda şəxsi əmlakını mənimsəmiş Livan vətəndaşı C.Salhub barəsində BƏƏ-də, İtaliyada, Livanda, İngiltərədə, ABŞ-da və Ukraynada İnterpolun MMB-yə göndərilmiş sorğularla bağlı alınmış yeni cavablar təşəbbüskara təqdim olunmuşdur.

Vergilər Nazirliyinin İbtidai Araşdırmalar Departamentindən daxil olmuş müraciətdə Azərbaycanın "İnşaatçı" müəssisələrinin İİR-in "Kitabçı hakikat" şirkətinin 222 manat dəyərində elektrod məhlulu alması faktının qanuniliyinin araşdırılması məqsədilə, Tehranda İnterpolun MMB-yə müvafiq sorğular göndərilməsi xahiş olunurdu. Bununla əlaqədar, İİR-dən alınan cavabda bildirilir ki, yuxarıda göstərilən şirkət həqiqətən fəaliyyət göstərir və onun rəhbəri Kitabçı Hüseyin Əli oğlunun verdiyi izahata görə onun şirkəti heç vaxt Azərbaycanın hər hansı bir şirkətilə iş münasibətində olmamışdır. Alınan cavab dərhal Vergilər Nazirliyinin İbtidai Araşdırmalar Departamentinə təqdim olunmuşdur.

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nun 2001-ci ilin xidməti fəaliyyətinə dair arayış, s.7.

2003-cü ilin hesabat dövrü ərzində MMB-yə İqtisadi cinayətkarlıqla bağlı DİN-dən 3, prokurorluq orqanlarından 1, Vergilər Nazirliyindən 1 tapşırıq daxil olmuşdur. Bu tapşırıqlar əsasında İnterpolun üzvü olan ölkələrə müvafiq sorğular göndərilmiş, alınmış cavablar təşəbbüskarlara təqdim olunmuşdur.

AR DİN-in İstintaq və Təhqiqat İdarəsindən "Azərneftyağ" birliyinin vəzifəli şəxsləri tərəfindən külli miqdarda dövlət əmlakının talanması faktı üzrə cinayət işinin istintaqı ilə bağlı Macarıstanda İnterpolun MMB-yə sorğu göndərilmişdir.

AR DİN-in Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsindən dələduzluq faktı ilə bağlı bir neçə şirkət və şəxslər barədə daxil olmuş tapşırıq əsasında Kiprdə və Litvada İnterpolun MMB-lərinə sorğular göndərilmişdir. Kiprdən alınmış cavab təşəbbüskara təqdim olunmuşdur.

AR Vergilər Nazirliyinin İstintaq və İbtidai Araşdırmalar Departamentindən Azərbaycan Futbol Federasiyası Assosiasiyası barədə daxil olmuş tapşırıq ilə bağlı İnterpolun Almaniyada MMB-yə müvafiq sorğu göndərilmiş və alınmış cavab təşəbbüskara təqdim edilmişdir.[1]

2004-cü ilin hesabat dövrü ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-si iqtisadi cinayətkarlıqla mübarizə ilə bağlı respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş 3 istintaq tapşırığı əsasında (Prokurorluq orqanları 3, DİN-in İstintaq və Təhqiqat İdarəsi 3, Vergilər Nazirliyi 3) RF, İngiltərə, İtaliya, Almaniya, Sinqapur, ABŞ, Türkiyə, Bolqarıstan və İnterpolun üzvü olan digər ölkələrin MMB-lərinə sorğular göndərilmiş, alınmış cavab təşəbbüskarlara təqdim olunmuşdur. Bundan əlavə, İnterpolun üzvü olan ölkələrin MMB-dən daxil olmuş 67 sorğu əsasında, araşdırılması üçün, müəyyən firma və təşkilatların respublika ərazisində qeydiyyatda olub-olmaması barədə Ədliyyə Nazirliyinə 12, Vergilər Nazirliyinin İbtidai Araşdırmalar Departamentinə 16 sorğu göndərilmiş (kriminal qeydiyyat və s.), alınmış cavablar təşəbbüskarlara bildirilmişdir.[2]

2005-ci ilin hesabat dövrü ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-si iqtisadi cinayətkarlıqla mübarizə ilə bağlı respublikanın hüquq-mühafizə orqanlarından daxil olmuş 25 istintaq tapşırığı əsasında (Prokurorluq orqanları – 5, DİN-in İstintaq və Təhqiqat İdarəsi – 2, DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi – 1, Vergilər Nazirliyi – 3, MTN-2, digər hüquq-mühafizə orqanları – 12) İnterpolun üzvü olan ölkələrin MMB-lərinə sorğular göndərilmiş, alınmış cavablar təşəbbüskarlara təq-

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2003-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.3-4.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 11.

dim olunmuşdur. İnterpolun üzvü olan ölkələrin MMB-dən daxil olmuş 60 sorğu əsasında araşdırılması üçün müəyyən firma və təşkilatların respublika ərazisində qeydiyyatda olub-olmaması və digər məlumatların alınması barədə Vergilər Nazirliyinin İbtidai Araşdırmalar Departamentinə 9, digər təşkilatlara 51 sorğu göndərilmiş və alınmış cavablar təşəbbüskara göndərilmişdir[1]

DİN sistemində axtarış işinin təkmilləşdirilməsi, 31/07/2008-ci il tarixli 439 nömrəli əmrin icrası ilə əlaqədar, axtarış işinin təşkili, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələri, axtarışa elan edilmiş şəxslərin hansı subyekt tərəfindən axtarılması, axtarış işinin bir subyektdən digərinə həvalə olunması və digər məsələlərlə bağlı müxtəlif ölkələrin təcrübəsi barədə məlumat əldə etmək üçün bir sıra ölkələrdə İnterpolun MMB-lərinə müraciət olunmuş və əldə olunan məlumatlar müvafiq qurumlara təqdim edilmişdir.

8-10 sentyabr 2009-cu il tarixində Fransanın Lion şəhərində "Gizli iqtisadiyyat – 2009-cu il" mövzusunda Beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda Azərbaycan Respublikasını İnterpolun MMB-nin Təşkilati-analitik şöbəsinin inspektor tərcüməçisi, polis leytenantı E.Orucov təmsil etmişdir.[2]

5-8 aprel 2011-ci il tarixdə Polşa Respublikasının Varşava şəhərində "Pul, xüsusilə də Avronun saxtalaşdırılmasının alınması və onunla mübarizə üzrə" beynəlxalq tədbir keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı A.Məmmədov təmsil etmişdir.[3]

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin cinayətkarlığa qarşı fəaliyyət istiqamətlərindən birini də İnsan alverinə qarşı mübarizə təşkil edir.**

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi şəxsin azadlıq hüququnu tanıyır və bu hüquq yalnız qanunla nəzərdə tutulmuş qaydada tutma, həbsə alma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər. Həmçinin azadlıq hüququ qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəsin sərbəst hərəkət edə bilməsini, özünə yaşayış yeri seçə bilməsini, Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququnun olmasını nəzərdə tutur.

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2005-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 13.
[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 10.
[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s.9.

13 may 2013-cü il tarixli Qanuna əsasən, Azərbaycan Respublikası BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyanı tamamlayan insan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" 15 noyabr 2000-ci il tarixli protokoluna tərəf kimi qoyulmuşdur. Bundan sonra imzalanan "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 6 may 2004-cü il tarixli sərəncamı (birinci Milli Fəaliyyət Planı) 28 iyun 2005-ci il tarixində "İnsan Alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununun qəbul edilməsinə səbəb olmuş və beləliklə də, 30 sentyabr 2005-ci il tarixində insan alveri cinayət əməli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müstəqil cinayət növü kimi təsbiq edilmişdir.[1]

Azərbaycan Respublikası prezidentinin 6 may 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan Alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"na uyğun olaraq, 2004-cü ildə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin strukturunda İnsan Alverinə Qarşı Mübarizə İdarəsi yaradılmışdır.

Yarandığı gündən İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin əsas fəaliyyət istiqamətlərini, şəxsiyyətin şərəf və ləyaqətini alçaldan insan alverinin qarşısının alınmasını, onunla mübarizəni, insan alveri qurbanlarının müdafiəsini təmin edən, insan və vətəndaş hüquq və azadlıqlarını Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq müvafiq cinayətkar qəsdlərdən qoruyan, bu məqsədlərlə qanunvericiliklə müəyyən edilmiş qaydada təhqiqat orqanı funksiyasını yerinə yetirən və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən və ixtisaslaşmış struktur qurumdur. İdarə telefon yardım xətti, təhlükəsiz sığınacaq və əməkdaşlıq fəaliyyəti üzrə qeyri-hökumət əlaqə orqanıdır. İdarə insan alverinə qarşı mübarizə-əməliyyat-axtarış fəaliyyətini həyata keçirir və bu sahədə Daxili İşlər Nazirliyinin Struktur hissəsinə və ərazi polis orqanlarına əməli köməklik göstərir.[2]

Müstəqil, demokratik, hüquqi dövlət olan Azərbaycan Respublikasında insanların hüquq və azadlıqlarını məhdudlaşdıran insan alverinə qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu öz fəaliyyətini Azərbaycan Respublikası DİN-in bütün strukturları, ərazi polis orqanları, qeyri-hökumət təşkilatları, Beynəlxalq polis təşkilatları, İnterpolun Baş Katibliyi ilə sıx əlaqə şəraitində həyata keçirir.

---

[1] Qurbanov İ.Z. İnsan alveri şəxsin azadlıgı əleyhinə olan cinayət növü kimi. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bülleteni, 2011, №2, s.60-61.

[2] http:\\iaq.mi.qov.az

Faktlara nəzər salaq.

13 iyun 2004-cü il tarixdə cənab Ramil Usubov ATƏT-in Bakı ofisinin rəhbərinin müavini R.Sivordu, Beynəlxalq Miqrasiya Təşkilatının ölkəmizdəki nümayəndəliyinin başçısı Y.Van dr Talisi və səfirliyinin müavini S.Randatfonu onların xahişi ilə qəbul etmişdir. Görüşdə əsas məqsəd Azərbaycan Respublikası prezidentinin 2004-cü ilin 6 may tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə Üzrə Milli Fəaliyyət Planı " ilə bağlı fikir mübadiləsi aparmaq, eyni zamanda onun həyata keçirilməsi üçün birgə əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etmək olmuşdur. Qonaqları səmimi salamlayan Daxili İşlər naziri qeyd etmişdir ki, dünya ictimaiyyətini narahat edən beynəlxalq terrorçuluq, narkotiklərin və silahların qanunsuz dövriyyəsi kimi təhlükəli cinayət növləri ilə bir sırada duran insan alverinin qarşısının alınması ancaq beynəlxalq birliyin birgə səyləri nəticəsində mümkün ola bilər. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi ilk günlərdən bu təhlükəli cinayət növləri ilə mübarizə sahəsində müvafiq tədbirlər həyata keçirmiş və bu iş davam etdirilməkdədir. Belə ki, respublikamız 1996-cı ildə BMT-nin "Köləliyin ləğv edilməsi haqqında", "İnsan alveri və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarı ilə mübarizə haqqında" konvensiyalara, nəhayət 2003-ci ilin may ayında "Transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə haqqında" konvensiyaya və onun protokollarına qoşulmaqla bu cinayətlərlə mübarizədə qəti mövqedə olmasını bir daha sübut etmişdir. Azərbaycan Respublikasının "Cinayət Məcəlləsi"ndə bu məsələ ilə bağlı 10 maddə mövcuddur. Bundan başqa, ölkəmizdə bu cinayətin potensial subyektləri hesab edilən uşaq və qadınların hüquq və azadlıqlarının müdafiəsinə yönəldilmiş bir sıra hüquqi aktlar da qəbul edilmişdir. Son illərdə ölkəmizdə aparılan geniş miqyaslı islahatlar bir sıra sosial problemlərin aradan qaldırılmasına öz müsbət təsirini göstərmişdir. Buna baxmayaraq keçid dövründə mövcud problemlər, o cümlədən ərazimizin 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalı, bir milyondan artıq soydaşımızın öz doğma yurd-yuvasından didərgin düşməsi, sözsüz ki, kriminogen duruma mənfi təsir göstərməyə bilməzdi. Ərazinin əlverişli geosiyasi məkanda yerləşməsi beynəlxalq transmilli və mütəşəkkil cinayətkar qruplaşmaların diqqət mərkəzinə çevrilməsi ehtimalını daha da artırır. Bu isə öz növbəsində ölkənin hüquq-mühafizə orqanlarının qarşısına ciddi vəzifələr qoyur.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"na dair respublika prezidentinin 6 may 2004-cü il tarixli sərəncamının icrasını təmin etmək məqsədilə, DİN-in əmri ilə, məsul şəxslər Milli koordinator təyin olunmuşlar. Eyni zamanda nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin tərkibində İnsan Alverinə Qarşı Mübarizə İdarəsi yaradılmışdır.

Qonaqlar ümid etdiklərini bildirdilər ki, onların təmsil etdikləri təşkilatlar Azərbaycan hökumətinin diqqət mərkəzində olan Milli Fəaliyyət Planının həyata keçirilməsinə böyük dəstək verəcək və bu, respublikamızda transmilli mütəşəkkil cinayətlərin yeni təzahürü olan insan alveri ilə mübarizədə ciddi dönüş yaradacaqdır.[1]

26 avqust 2004-cü il tarixdə Bakı şəhərində "Hyatt Regency" otelində ATƏT-in Azərbaycan nümayəndəliyi Azərbaycan Respublikasının "İnsan alveri" probleminin qarşısının alınmasında mübarizə ilə bağlı, "Milli Fəaliyyət Proqramının həyata keçirilməsində Qeyri Hökumət Təşkilatlarının rolu və yeri" mövzusunda seminar keçirilir. Seminarın iştirakçıları Milli Fəaliyyət Proqramı ətrafında çıxışlar edirlər. ATƏT-in Bakı ofisinin nümayəndəsi R.Sivord qeyd etdi ki, respublikamız 2002-ci ildə BMT-nin "Palerma Protokolu"na qoşulub. Həmin ilin fevralında Yunanıstanda keçirilən görüşlər zamanı Azərbaycan tərəfi qarşılaşdığı problemlərin həllində fəallıq göstərdiyini bildirib və bir il keçməyib ki, ölkə prezidenti bu problemlə bağlı xüsusi sərəncam imzalayıb. R.Sivord Azərbaycanın problemin həlli ilə bağlı belə həssaslıq göstərən ilk dövlət olduğunu vurğulayıb. Sonra qeyd olundu ki, insan alveri sərhəd bilməyən biznesdir. Problemin ən ağrılı tərəfi isə odur ki, bu cinayətin qurbanları təkcə qadınlar yox, uşaqlar da olurlar.[2]

2006-cı il iyulun 21-də cənab Ramil Usubov Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktoru B.Makinini qəbul etmişdir. Qonağı səmimiyyətlə salamlayan Daxili İşlər naziri fəaliyyət istiqamətləri və kriminogen durumla bağlı qısa məlumat vermiş, müstəqilliyimizin ilk illərində bir tərəfdən Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğalını, digər tərəfdən səriştəsiz iqtidarın ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üzbəüz qoyduğunu, bütün bunların, kriminogen durumun nəzarətdən çıxdığını xatırlatmışdır. Qeyd olunmuşdur ki, yalnız xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan müdrik dövlət xadimi Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan bir dövlət kimi məhv olmaq təhlükəsindən qurtuldu. 1995-ci ilin sonunda cəmiyyət həyatının bütün sahələrində müsbət dəyişikliklər, köklü irəliləyişlər mərhələsi başlandı. 1997-2000-ci illərdə polisin fəaliyyətinin də təkmilləşdirilməsi üçün demokratik prinsiplərə söykənən yeni qanunlar qəbul edildi. Bununla həm də vətəndaşların konstitusion hüquqlarının qorunması təmin olundu və xarici investorların fəaliyyəti üçün münbit şərait yaradıldı.

Cənab Ramil Usubov cinayətkarlığa qarşı mübarizə sahəsində görülən işlərdən danışmış və transmilli mütəşəkkil cinayətkarlığa, bütün dünyanı narahat edən terrorizm və narkotik maddələrin qaçaqmalçılığına, qanunsuz

[1] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2004, 15 iyun 2004, №29 (2689).

[2] DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 2015, 15 iyun №30(2696).

miqrasiya və insan alverinə qarşı mübarizə sahəsində birgə mübarizənin vacibliyini vurğulamışdır.[1]

Transmilli mütəşəkkil cinayətkarlığa, onun ən təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizə respublikamızda hüquq-mühafizə fəaliyyətinin başlıca istiqamətlərindən biri olmuş və bu gün də olmaqla, göstərilən sahəyə dövlət və ya qeyri-hökumət təşkilatları, həmçinin mötəbər beynəlxalq qruplar və onların ölkəmizdəki təmsilçiləri səviyyəsində böyük diqqət yetirilir. Məhz həmin diqqətin nəticəsidir ki, Respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "YES" Azərbaycan təşkilatı "tərəfindən 2009-cu il sentyabrın 16-da "Atatürk" mərkəzində "İnsan alverinə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq mövzusunda" "Dəyirmi masa" təşkil olunmuşdur. Diqqətəlayiq faktdır ki, bu tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi və Miqrasiya Xidmətinin təmsilçiləri, Milli Məclisin deputatları, qeyri-hökumət təşkilatlarının rəhbərləri ilə yanaşı, ölkəmizdə işgüzar səfərdə olan Polşa Respublikasının keçmiş birinci xanımı İolanta Kvasnevskaya, Belçika senatının fəxri prezidenti, senator Ann Mari Lizen də iştirak etmişlər[2]

Ulu öndərimizin yorulmaz səyləri sonralar möhtərəm prezidentimiz İlham Əliyevin ali diqqət və qayğısı, DİN rəhbərliyinin gündəlik nəzarəti və tələbkarlığı sayəsində Daxili İşlər orqanlarının və beynəlxalq cinayətkarlığa qarşı mübarizə aparan Azərbaycan respublikamızda İnterpolun MMB-nin xidməti fəaliyyəti təkmilləşmiş, strukturu formalaşmış və dünya standartlarına cavab verə bilən səviyyəyə çatmışdır.

Ötən müddət barədə danışarkən bircə bunu demək kifayətdir ki, ən yaxşı, ən təqdirəlayiq olanı budur ki, İnsan Alverinə Qarşı Mübarizə İdarəsi öz xidməti fəaliyyətini ilbəil inkişaf etdirir, Avropa standartlarına surətlə inteqrasiya olunur, onun xidmətinə olan tələblər, ehtiyacın, diqqət və qayğının fonunda dəyərli nəticələr qazanır.

Ölkəmizdə insan alverinə qarşı mübarizəyə dövlət və DİN-in rəhbərliyi səviyyəsində göstərilən diqqət, xüsusilə cənab Ramil Usubovun bu sahəyə tələbkarlığı, beynəlxalq təcrübəyə uyğun və səmərəli qurmasına böyük imkanlar yaratmışdır.

İnsan alverinə qarşı mübarizə üzrə beynəlxalq səylərdə fəal iştirak edən Azərbaycan Respublikasında milli qanunvericilikdən, BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" konvensiyasından, onu tamamlayan protokoldan və məlum Brüssel Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsi yarandığı gündən indiyə qədər məqsədəuyğun şəkildə davam etdirilmişdir.

---

[1] Mətbuat xidməti // Mübariz keşikdə, 2006, 22 iyun, №25(2790).
[2] Mətbuat xidməti // Mübariz keşikdə, 2010, 14 oktyabr, №36(2957).

Azərbaycan Prezidentinin 6 may 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planın"da nəzərdə tutulmuş tədbirlər ardıcıllıqla həyata keçirilmiş, planın iştirakçısı olan Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə, Gənclər və İdman, Milli Təhlükəsizlik, Təhsil, Mədəniyyət və Turizm Nazirliklərinin, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük, Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitələrinin əməkdaşlarından ibarət yaradılmış işçi qrupu bu çoxşaxəli məsələlərin həllinə kompleks şəkildə yanaşmışdır. Ölkənin qanunvericilik bazasının beynəlxalq sənədlərə uyğunlaşdırılması üzrə tədbirlər çərçivəsində cari ilin fevral ayında "İnsan alveri qurbanlarının dərhal və maneəsiz xüsusi polis qurumuna təhvil verilməsi qaydaları" hazırlanaraq Nazirlər Kabinetinin 1 fevral 2008-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur.

Bununla bərabər, insan alveri ilə mübarizədə optimal strategiyanın işlənib hazırlanması, informasiya-analitik işin, kriminogen tədqiqatların, sərhəd nəzarətinin gücləndirilməsi, qeyri-hökumət və beynəlxalq təşkilatlarla birgə əhali arasında geniş maarifləndirmə işlərinin aparılması, qurbanların etibarlı hüquq və sosial müdafiəsinin, cəmiyyətə reinteqrasiyasının təmin olunması istiqamətində tədbirlər də həyata keçirilmişdir.

2008-ci il tarixi dövrü ərzində insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən 30-dək qeyri-hökumət təşkilatı və ictimai birliklərlə sıx əlaqədə iş aparılmış , insan alveri cinayətlərinin baş vermə səbəb və şəraitini araşdırmaq, əhalinin, yerli icra nümayəndələrinin və ərazi polis orqanları əməkdaşlarının maarifləndirilməsi, məqsədilə qeyri-hökumət təşkilatlarının iştirakı ilə respublikamızın 70 şəhər və rayonunda seminarlar keçirilmişdir.[1]

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 133 №-li sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)"nın həyata keçirilməsi ilə bağlı tədbirlər planının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə mexanizmi və qaydaları"nın təsdiq edilməsi barədə qərar qəbul etmişdir.

Azərbaycan Respublikasında İnterpolun MMB-si DİN-in bütün strukturları və İnsan Alverinə Qarşı Mübarizə İdarəsi ilə birgə fəaliyyət göstərir və Beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və inkişaf etdirilməsi sahəsində də çox ciddi işlər görür. Təyinat ölkələrindən olan BƏƏ, Pakistan, İraq və Türkiyə ilə mütəşəkkil cinayətkarlıqla mübarizədə hüquqi yardıma

[1] DİN-in mətbuat mətbuat xidməti. İnsan alverinə qarşı mübarizə: inkişafın yeni mərhələsi // Mübariz keşikdə, 2009, 22 yanvar, №3(2024).

dair müqavilə və sazişlər bağlamış və dövlətlərdən hər biri ilə ayrı-ayrılıqda fəal məlumat mübadiləsi aparmışdır. Eyni zamanda ABŞ, Avstriya, Bolqarıstan, Liviya, Rumıniya, Çin, Misir və s. ölkələrin aidiyyəti qurumları, habelə BMT, ATƏT, Avropa Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM, MDB, Beynəlxalq Miqrasiya Təşkilatı, İnterpolun üzvü olan 190 dövlətlə və İnterpolun Baş Katibliyi ilə əməkdaşlıq münasibətini səmərəli şəkildə davam etdirmişdir. Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları Almaniya, İtaliya, Polşa, Türkiyə, Rusiya Federasiyası, Gürcüstan, Qazaxıstan, Moldova və Ukraynada keçirilən seminar və konfranslarda təlim və treninqlərdə iştirak etmişlər.

Bunlardan bir neçəsini tarixi faktlarla qeyd etmək yerinə düşərdi.

İnsan alveri qurbanlarının bu növ cinayətlərlə mübarizə fəaliyyətini həyata keçirən xüsusi polis qurumlarına təhvil verilməsi qaydaları (normativ hüquqi-aktlar barədə məlumatların əldə olunması üçün DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin şifahi sorğusu ilə bağlı bir sıra ölkələrdə İnterpolun MMB-sinə müraciət olunmuşdur. Əldə olunan məlumatlar müvafiq idarəyə təqdim olunmuşdur.

2-19 yanvar 2009-cu il tarixdə Fransanın Lion şəhərində insanlıq əleyhinə cinayətlərlə bağlı 1-ci beynəlxalq seminar keçirilmiş, həmin seminar İnterpol xətti ilə olduğuna görə Azərbaycanda İnterpolun MMB əməkdaşları iştirak etmişlər.[1]

8 oktyabr 2010-cu il tarixdə Milli Məclisin növbəti iclası keçirildi. İclasda insan alverinə qarşı mübarizə üzrə Milli koordinator, Dİ nazirinin müavini Vilayət Eyvazovun məlumatı dinlənilmişdir. O, çıxışında Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə sahəsində görülmüş işlərə dair illik hesabatın təfərrüatlarına keçməzdən əvvəl, problemin həlli yönümündə dünyada gedən proseslərin ümumi mənzərəsini xatırlatmışdır. Bildirmişdir ki, bu, həm də beynəlxalq təcrübə ilə müqayisədə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin və konkret tədbirlərin daha obyektiv və gerçək dəyərləndirilməsi baxımından önəmlidir.

Beynəlxalq əməkdaşlığın səmərəliliyi baxımından ayrı-ayrı vaxtlarda BMT-nin Beynəlxalq Miqrasiya və Beynəlxalq Əmək Təşkilatının Azərbaycandakı nümayəndəliyinin, Amerika Hüquqlar Assosiasiyasının, İnterpolun Baş Katibliyinin, ABŞ-ın ölkəmizdəki səfirliyinin mütəxəssisləri və ekspertləri ilə görüşlər keçirilmiş, məsləhətləşmələr aparılmışdır.

Qarşılıqlı əlaqə çərçivəsində ölkəmizdə "İnsan alverinə qarşı mübarizə üzrə cavab mexanizmlərinin gücləndirilməsi", İnsan alveri qurbanları üçün sığınacaqlar və qaynar xəttin idarə olunması üzrə ölkə potensialının artırıl-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nun cari arxivi. MMB-nun 2009-cu ilin xidməti fəaliyyətinə dair arayış, s.8-9.

ması", "Azərbaycanda insan alverinin qarşısının alınmasında orta məktəb təhsilinin əhəmiyyəti", "Uşaqların insan alverinə məruz qalmasının qarşısının alınması" layihələri üzrə müzakirələr aparılmışdır. Uşaq baxımsızlığının profilaktikası istiqamətində də tədbirlər təşkil edilərək, internat məktəblərini bitirən 128 gənc və yeniyetmə üçün "İnsan alveri" mövzusunda seminar keçirilmişdir.[1]

8-9 iyun 2011-ci il tarixində Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM-ın insan alveri və qeyri-qanuni miqrasiya ilə mübarizə üzrə alt işçi qrupunun növbəti iclası keçirilmiş və bu tədbirdə Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin və Azərbaycanda İnterpolun MMB-nin əməkdaşları iştirak etmişlər. Həmin tədbirdə insan alveri ilə bağlı maraqlı müzakirələr aparılmış və məruzələr dinlənilmişdi.

1-2 noyabr 2011-ci il tarixdə Moldova Respublikasının Kişinyov şəhərində Cənubi Avropa Hüquq-Mühafizə Orqanları Mərkəzi – SESES-in İnsan Alveri və Qanunsuz Miqrasiya üzrə işçi qrupunun 18-ci iclası keçirilmiş və bu tədbirdə Azərbaycan Respublikasını İnterpolun MMB-nin inspektor tərcüməçisi, polis baş leytenantı Elnur Aslanov təmsil etmişdir.[2]

2011-ci il dekabr ayının 1-də Bakıda insan alveri qurumlarına yardım və sosial reinteqrasiya modelinin inkişafına aid dördüncü regional müşavirə keçirilmişdir. Müşavirədə ABŞ-ın Azərbaycandakı səfiri M.Brayza, DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin, Azərbaycan Respublikasında İnterpolun MMB-nin, Beynəlxalq Miqrasiya Təşkilatının əməkdaşları, Şərqi-Avropa, Cənub-Şərqi Avropa və Orta Asiya üzrə regional direktoru R.Held və digər şəxslər iştirak və çıxış etmişlər. Bildirmişlər ki, insan alveri ilə mübarizə vacib bir məsələdir. Azərbaycanda bu sahədə çox böyük işlər görülür, bir sıra layihələr həyata keçirilir. Azərbaycanda insan alveri ilə bağlı mükəmməl baza yaradılmışdır. Göstərilən müşavirədə qeyd olunmuşdur ki, 2010-cu ildə dünyada 33 min insan alveri qurbanı müəyyən edilmişdir.[3]

12 mart 2012-ci il tarixdə DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsində polis zabitləri üçün "İnsan alveri cinayətlərinin istintaqı" mövzusunda seminar keçirilmişdir. Seminarda çıxış edənlər ölkə prezidenti İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin yaradılmasından sonra, cinayətkarlığın bu növü ilə mübarizənin gücləndirilməsini, hətta region ölkələrində rast gəlinməyən bir çox tədbirlərin həyata keçirildiyini, buna misal olaraq insan alveri qurbanlarına sığınacaqların ya-

[1] Mətbuat xidməti // Mübariz keşikdə, 2010, 14 oktyabr.
[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2011-ci ilin xidməti fəaliyyətinə dair arayışı, s. 6.
[3] Mətbuat xidməti // Mübariz keşikdə, 2011, 8 dekabr.

radılmasını, onlara birdəfəlik pul müavinətlərinin ayrıldığını nəzərə çatdırmışlar.

Yuxarıda göstərilən tədbirdə iştirak edən ekspert Ştriz, dünyada insan alverinin hər il təxminən 9 milyard gəlir gətirdiyini və qurbanlar sırasında iqtisadi baxımdan zəif inkişaf etmiş ölkələrin vətəndaşlarının çoxluq təşkil etdiyini və hazırda dünyada 12.3 milyon şəxsin məcburi əməyin qurbanı olduğunu, 270 milyon uşağın məcburi əməkdən əziyyət çəkdiyini bildirmişdir.[1]

İnsan Alverinə Qarşı Mübarizə İdarəsində növbəti dövr üçün hazırlanmış “Azərbaycan Respublikasının insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2014-2018-ci illər)”layihəsinin icmal müzakirəsinə dair görüş keçirildi. Görüşdə idarənin məsul şəxsləri, insan alverinə qarşı mübarizə üzrə QHT koalisiyasının üzvlərinin və digər QHT-lərin nümayəndələri iştirak etmişlər.

Layihə haqqında geniş məlumat verən idarənin məsul şəxsləri bildirdilər ki, milli fəaliyyət planı şəxsiyyətin və cəmiyyətin insan alverinin istənilən formasından müdafiəsi, insan alveri səbəblərinin, insan alverinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması, şəxslərin insan alverinin qurbanlarına çevrilməsi riskinin azaldılması, habelə nəticələrinin aradan qaldırılması, insan alveri qurbanlarının və potensial qurbanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün zəruri şəraitin yaradılması, insan alveri qurbanlarının hüquqlarının bərpası və sosial reabilitasiyası, insan alverinə qarşı mübarizədə müvafiq qurbanların qarşılıqlı fəaliyyətinə imkan verən səmərəli sistemin təmin edilməsi və sair istiqamətlərdə tədricən nəzərdə tutur.[2]

3 aprel 2015-ci il tarixdə Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilmişdir. İclasda İnsan alverinə qarşı mübarizə üzrə milli koordinator, Daxili İşlər nazirinin müavini, polis general-leytenantı V.Eyvazov məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, müasir dövrün transmilli təhdidlərindən olan insan alverinin ictimai təhlükəliliyi, kriminal biznesin ən gərəkli növlərindən olması, şəxsiyyətin hüquq və azadlıqlarının kobud şəkildə pozulması baxımından bu sahədə əks tədbirlər 2014-cü ildə də ardıcıl davam etmişdir. BMT-nin ötən ilki hesabatına görə, hər üçdən biri uşaqlar olmaqla, 20 milyondan artıq şəxs insan alverinin qurbanına çevrilmişdir. Onların 53 faizi cinsi istismara, 40 faizi məcburi əməyə 7 faizi orqan transplantasiyasına və digər məqsədlərlə alqı-satqıya məruz qalır. Eyni zamanda son 3 ildə insan alveri ilə bağlı 25 mindən çox cinayət işinin istintaqının aparılması, 15 minə yaxın şəxsin məhkum edilməsi, 133 min qurbanın hüquqları-

---

[1] Mətbuat xidməti // Mübariz keşikdə, 2012, 15 mart, №91(3016).
[2] Mətbuat xidməti // Mübariz keşikdə, 2013, 24 oktyabr, №40 (3155).

nın bərpa olunması dünyada insan alverinin qarşısının alınması istiqamətində həyata keçirilən mühüm tədbirlər kimi qeyd edilir.

Hər bir şəxsin hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri elan etmiş Azərbaycan, beynəlxalq müqavilələri rəhbər tutaraq, insan alverinə qarşı mübarizədə qanunvericiliyin və onun tətbiqi praktikasının təkmilləşdirilməsi, aidiyyəti dövlət qurumlarının səmərəli qarşılıqlı fəaliyyətinin təmin olunması, maarifləndirmə tədbirlərini və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı yüksək səviyyədə təşkil etməkdə israrlı mövqeyini 2014-cü ildə ortaya qoymuşdur. 2014-2018-ci illər üzrə sayca üçüncü Milli Fəaliyyət Planı qəbul edilmişdir. Yeni fəaliyyət planının icrasına bütövlükdə 27 dövlət qurumu cəlb olunmuşdur.

Milli qanunvericiliyin, beynəlxalq konvensiyanın tələblərinin, aidiyyəti nazirlik, komitə və xidmətlərin rəy və təkliflərinin, eləcə də qeyri-hökumət təşkilatlarının tövsiyələrinin əksini tapdığı bu konseptual sənədin 2014-cü ili əhatə edən bütün tədbirlər həyata keçirilmiş, əlaqədar qanunvericilik aktları beynəlxalq müqavilələrə uyğunlaşdırılmışdır.

Qarşıda duran vəzifələrdən biri də insan alveri probleminin mahiyyəti və təhlükəli nəticələri, həmçinin cinayətlərdən müdafiənin inzibati və hüquqi prosedurları haqqında risk qrupuna aid sosial təbəqələrin məlumatlılığının artırılması olmuşdur.

İnsan alverinin və məcburi əməyin qurbanlarının müəyyən edilməsi və onlara yardım göstərilməsi sayəsində peşəkarlığın artırılması məqsədilə, Beynəlxalq Miqrasiya Təşkilatının, Avropa İttifaqının, Türkiyə Respublikası polis orqanlarının, ABŞ-ın Azərbaycandakı səfirliyinin, Ombudsman təsisatının dəstəyi ilə xüsusi polis qurumunun əməkdaşları 40-a yaxın seminar, konfrans və təlimdə iştirak etmişlər. Xüsusi polis qurumunun, eləcə də digər dövlət orqanlarının əməkdaşları beynəlxalq təşkilatların həyata keçirdikləri layihələr formasında Amerika Birləşmiş ştatlarında, Fransa, Avstriya, Polşa, Litva, Macarıstan, Bosniya və Herseqovina, Rusiya, Belarus və Ukraynada təcrübə mübadiləsinə, həmçinin təlimçi qismində tədris kurslarına cəlb edilmişlər.

Sosial və İqtisadi səbəblərin doğurduğu məcburi əməyin qarşısının alınması, onun qurbanlarının müəyyən edilməsi də əsas vəzifələrdən olmuşdur.

Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri və Dövlət Miqrasiya Xidməti tərəfindən paytaxtın və respublikanın ayrı-ayrı rayonlarında yerləşən tikinti sahələrində və istehsal müəssisələrində, əmək miqrasiyasında nəzarət çərçivəsində keçirilmiş tədbirlərdə 4 məcburi əmək cinayəti, 164 inzibati xəta aşkarlanmış, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 2543 əcnəbi deportasiya edilmişdir. Bundan əlavə, valideyn himayəsin-

dən kənarda qalmış uşaqların insan alverinin qurbanlarına, sui-istifadə obyektlərinə çevrilməsinin qabaqlanması tədbirlərinə də böyük önəm verilmişdir. Ərazi polis orqanlarının keçirdiyi reydlər zamanı küçə həyatına məruz qalan, o cümlədən dilənçilik edən və qeyri-qanuni qulluğa cəlb olunan 502 azyaşlı müəyyən edilmiş və aparılmış yoxlamalarla həmin uşaqların insan alverinin və məcburi əməyin qurbanı olması təsdiqlənmişdir.

Xüsusi qeyd edilməlidir ki, potensial qurbanların insan alveri riskindən müdafiəsində Heydər Əliyev fondunun böyük əməyi və töhfələri olmuşdur. Fond tərəfindən yetkinlik yaşına çatmış kimsəsiz qızlar üçün 50 nəfərlik 25 mənzilli bina tikilmiş, eləcə də valideyn himayəsindən məhrum olmuş və yaşayış yeri olmayan uşaq evlərinin məzunları üçün 120 mənzilli bina inşa edilərək istismara verilmişdir.

Ötən il həyata keçirilən əməliyyat-profilaktik tədbirlərlə 2013-cü illə müqayisədə 21 faiz çox və ya 97 insan alveri, 4 məcburi əmək, habelə insan alveri məqsədilə şəxsiyyəti təsdiq edən sənədlərin saxtalaşdırılması ilə bağlı 3 fakt aşkarlanmışdır. Bu əməllərə görə 26 nəfər (18 qadın, 8 kişi) cinayət məsuliyyətinə cəlb edilmiş, 9 mütəşəkkil dəstə və qrup zərərsizləşdirilmişdir. Müəyyən edilmiş 54 qurbandan (51 qadın, 3 kişi) 37-si Türkiyə Respublikasına, 8-i Rusiya Federasiyasına, 6-sı Birləşmiş Ərəb Əmirliyinə aparılmış, 3-ü əcnəbi ölkə daxilində istismara məruz qalmışdır. (Rusiya Federasiyasının 2, Çin Xalq Respublikasının 1 vətəndaşı. Qurbanlardan 38-i sığınacağa yerləşdirilərək hər birinə zəruri” yardımlar edilmiş, təhlükəsizliyi təmin olunmuşdur. Bütövlükdə 54 qurbana birdəfəlik müavinət verilmiş, 40-na fond tərəfindən maddi yardım göstərilmiş, 24-ü işlə təmin edilmişdir. 30 nəfər peşə kursuna göndərilmişdir. Həyata keçirilmiş profilaktik tədbirlərlə 34 qurban ailəsinə qayıtmış, 36 qurban qeyri-hökumət təşkilatlarının himayəsinə verilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan alveri qurbanları üçün Yardım Mərkəzi tərəfindən 28 qurbana hüquqi və psixoloji yardım, həmçinin Səhiyyə Nazirliyinin xüsusi müəssisələrində 43 qurbana tibbi xidmət göstərilmişdir. Sığınacağa yerləşdirilmiş qurbanların himayəsində olan 16 uşaq məktəbdənkənar təhsil proqramına cəlb edilmişdir.

İnsan alveri, əxlaqsızlıq yuvaları saxlama, xarici ölkələrdə işə və təhsilə düzəltmə halları, əcnəbilərlə nikahdan ortaya çıxan problemlər və sair məsələlərə dair “Qaynar xətt”ə gələn 13 mindən çox müraciətə baxılaraq, hər biri üzrə qanunvericiliyə uyğun tədbir görülmüşdür. Eyni zamanda, xarici dövlətlərdə işləməklə bağlı kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yayımlanan təkliflər araşdırılmışdır.

Artıq 10 ildən çoxdur ki, Azərbaycan beynəlxalq səviyyədə insan alverinə qarşı mübarizəyə öz töhfəsini verməkdədir. Milli maraqlar baxımın-

dan bu işə daim həssaslıqla yanaşılmış, qarşıda duran vəzifələr sistemli şəkildə yerinə yetirilmişdir. Həmin müddətdə həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində 681 insan alveri və məcburi əmək faktı aşkarlanmışdır. Bu cinayətlərə görə, 85 faizi (347-i) qadın və 15 faizi (61-i) kişi olmaqla, 408 nəfər cinayət məsuliyyətinə cəlb edilmiş, habelə 167 cinayətkar qrup və mütəşəkkil dəstə zərərsizləşdirilmişdir. Təhlil göstərir ki, müvafiq cinayətlər, əsasən aldatma yolu ilə, təsir imkanlarından və ya şəxsin köməksiz vəziyyətindən sui-istifadə etməklə törədilmişdir. Müəyyən edilmiş 583 qurbanın 90 faizi cinsi istismara, 10 faizi məcburi əməyə məruz qalmışdır. Onlardan 3,6 faizi (21-i) uşaq, 96,3% (562-si) yetkinlik yaşına çatmış şəxs olmuşdur. İnsan alveri və məcburi əmək faktları baxımından Azərbaycan əsasən, mənşə, bəzi hallarda təyinat ölkəsi olmaqla, qurbanların 94 faizi xarici dövlətlərə aparılmış, 6 faizi isə ölkə daxilində istismara məruz qalmışdır.[1]

Nəticə olaraq bildirirəm ki, ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi ilə transmilli mütəşəkkil cinayətkarlığın ən təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizə respublikamızda hüquq-mühafizə fəaliyyətinin başlıca istiqamətlərindən biri olmuş və bu gün də olmaqla, göstərilən sahəyə dövlət və qeyri-hökumət təşkilatları, həmçinin mötəbər beynəlxalq qurumlar və onların ölkəmizdəki təmsilçiləri səviyyəsində böyük diqqət yetirilir.

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin beynəlxalq cinayətkarlığa qarşı fəaliyyət istiqamətlərindən birini də mədəni irsimizin oğurlanmasına qarşı mübarizə təşkil edir.**

Bu beynəlxalq cinayətkarlıqla bağlı monoqrafiyanın 1-ci fəslində qeyd olunmuşdur. İndi isə onun Azərbaycanla bağlı hissəsinə diqqət yetirək.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları, hüquq-mühafizə orqanları xarici dövlətlərlə cinayətkarlıqla mübarizə aparmaq məqsədilə, informasiya mübadiləsini həyata keçirir, cinayətlərin qarşısının alınması və açılması məqsədilə, digər ölkələrin MMB-lərinə cinayətkarların, habelə şəxslərin əşya və sənədlərinin axtarışını təmin edir, bundan başqa çoxsaylı tədbirlər həyata keçirir. Yuxarıda bu barədə ətraflı qeyd olunduğu kimi, Azərbaycan Respublikasında İnterpolun MMB-nin əsas fəaliyyət istiqamətlərini əməliyyat-axtarış, terrorizm, narkomaniya, mütəşəkkil cinayətkarlıq, korrupsiya, iqtisadi cinayətkarlıq, insan alveri, kibercinayətkarlıqla və s. cinayətlərlə yanaşı, mədəni sərvətlərin oğurlanması və s. cinayətlər təşkil edir.

[1] Eyvazov V. Azərbaycan Beynəlxalq Səviyyədə İnsan alverinə qarşı mübarizəyə layiqli töhfəsini verir // Mübariz keşikdə, 2015, 9 aprel, №13(3226).

Azərbaycan Respublikasında İnterpolun MMB-si xarici dövlətlərdə oğurlanmış qiymətli mədəni sərvətlər (qiymətli incəsənət əsərləri) barədə alınmış məlumatları mərkəzləşdirilmiş qeydiyyata daxil etmək üçün DİN-ə göndərilir və müvafiq məlumat bazasına daxil edilir.

Məlumdur ki, müxtəlif tarixi dövrlərdən miras qalmış mədəni sərvətlərin yüksək dəyərə malik olması, onların qorunmasının düzgün təşkil edilməməsi bu sərvətlərin cinayətkar şəxslər və ya qruplar tərəfindən oğurlanmasına, bir çox hallarda isə müxtəlif yollarla xarici ölkələrə aparılmasına və satılmasına səbəb olur. Tarixi, elmi, mədəni dəyərlərə malik olan predmetlərin oğurlanması ilə bağlı cinayətlərin istintaqı və aparılan əməliyyat –axtarış tədbirləri zamanı predmetlərin xarici ölkələrə aparılması ehtimal olunduğu hallarda hüquq-mühafizə orqanları İnterpolun Milli Mərkəzi Bürolarına müraciət edirlər.

Oğurlanmış mədəni sərvətlərin, əntiq əşyaların, müxtəlif incəsənət əsərlərinin ölkənin hüdudlarından kənara çıxarıldığı barədə mülahizə irəli sürmək üçün kifayət qədər əsas olduqda, konkret mədəni sərvətlərin, incəsənət əsərlərinin kimə və hansı ölkəyə məxsus olmasını müəyyən etmək zərurəti yarandıqda və şübhəli şəraitdə müəyyən bir incəsənət əsəri aşkar olunduqda hər bir predmet üçün xüsusi forma doldurulur və sorğu ilə birlikdə İnterpolun həmin ölkədə MMB-yə göndərilir. Oğurlanmış və xarici ölkəyə oğurlanması ehtimal olunan mədəni sərvətlər, İnterpolun həmin ölkədəki MMB-si vasitəsilə beynəlxalq axtarışa elan olunur və İnterpolun Baş Katibliyində və müvafiq MMB-də axtarışda olan mədəni sərvətlər barəsində İnterpolun MMB-si vasitəsilə digər ölkələrə məlumat göndərilir.

Azərbaycan Respublikasında İnterpolun MMB fəaliyyət göstərdiyi ildən sonrakı müddət ərsində beynəlxalq cinayətkarlığın bütün növlərinə qarşı uğurla mübarizə aparmaqla yanaşı MMB fəaliyyət istiqamətlərindən olan mədəni irsə qarşı, yəni tarixi, elmi, ədəbi və mədəni dəyərə malik olan predmetlərin oğurlanması ilə bağlı mübarizə təşkil edir.

Azərbaycan Respublikasında İnterpolun MMB-si bu istiqamətdə öz işini İnterpolun nizamnaməsi, Baş Assambleyanın Qətnaməsi və Azərbaycan Respublikasının 10 aprel 1998-ci il tarixli “Mədəniyyət abidələrinin qorunması” haqqında Qanunu, 2000-ci il “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının Konstitusiyasının tələbləri əsasında qurur.

Azərbaycanın zəngin milli mədəniyyətinin qorunub saxlanılması dövlətimizin ən mühüm vəzifələrindən biridir. Mədəni sərvətlərin qorunub saxlanılması və istifadəsi problemləri ölkənin əsas qanununda tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.[1]

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2012, s.23.

1997-2001-ci illərdə Azərbaycan xalqının mədəni və təbii irsinin mühafizəsi, qorunub saxlanılması və bu irs əşyalarının oğurlanması və qaçaqmalçılıq yolu ilə daşınmasına qarşı mübarizənin gücləndirilməsi sahəsində geniş proqram qəbul edilmişdir. Həmin proqram çərçivəsində respublikada əsas beynəlxalq konvensiyalar ratifikasiya edilmiş, bir sıra qanunlar qəbul edilmişdir.

Yuxarıda qeyd edilən sənədlərdə Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş beynəlxalq normativ-hüquqi aktlar, o cümlədən Ümumdünya mədəni irsinin mühafizəsi, silahlı münaqişə olduğu halda mədəni dəyərlərin mühafizəsi, qanunsuz olaraq çıxarılmış mədəni dəyərlərin tutulub qaytarılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım məsələsini tənzimləyən konvensiyalar və sazişlər öz əksini tapmışdır. Bunun ən əhəmiyyətlisi "Mədəni sərvətlərin qanunsuz olaraq gətirilməsi, çıxarılması və onların üzərində mülkiyyət hüququnun başqalarına verilməsinin qadağan edilməsi və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında 14 noyabr 1970-ci il tarixli Paris Konvensiyası"dır. Bu Konvensiya Azərbaycan Respublikası MM tərəfindən ratifikasiya edilmişdir. Konvensiyada qeyd olunur ki, beynəlxalq əməkdaşlıq ölkələrinə məxsus olan mədəni dəyərlərin bu əməkdaşlıqla bağlı bütün təhlükələrdən mühafizəsini təmin etməyin ən təsirli vasitələrindən biridir. Konvensiyada müəyyən olunmuşdur ki, mədəni dəyərlərin üzv dövlətlər tərəfindən qəbul edilmiş qaydalar pozulmaqla gətirilməsi, çıxarılması və onların üzərində mülkiyyət hüququnun başqalarına verilməsi qanunsuz hesab edilir.[1]

Kriminogen vəziyyətin gərginliyi və terror təhlükəsinin artdığı müasir şəraitdə məlumatların ötürülməsi, izlənməsi və verilməsinin operativ hüquqi qaydasının təmin olunmasının vacib şərtidir.

Qeyd olunan məsələlərin həlli ən müasir texnologiyaların tətbiqini həyata keçirmədən, o cümlədən təkcə bir dövlətin deyil, həm də beynəlxalq səviyyədə bir neçə dövlətin hüquq-mühafizə orqanlarının strukturlarını vahid məlumat məkanı yaratmadan qeyri-mümkündür. Məhz bu baxımdan, İnterpolun polis kommunikasiya sistemi hüquq-mühafizə orqanlarının beynəlxalq əməkdaşlığı üçün təkmilləşdirilmiş xidmət vasitəsidir.

Qlobal telekommunikasiya sisteminin vəzifəsi İnterpolun Baş Katibliyinə polis xidməti və məlumat bazasına daxil olmaq üçün xüsusi istiqamət sayılmalıdır. Müvafiq sistem 7 gün – 27 saat fəaliyyət göstərir. Sistem İnterpolun 194 dövlətində hüquq-mühafizə orqanları əməkdaşlarının fəaliyyətini əlaqələndirməklə, cinayət törətmiş şəxslər və cinayətkar fəaliyyət barədə zəruri məlumat mübadiləsinin həyata keçirilməsini təmin edir. Qlobal tele-

[1] Mədəni irsin qorunmasına dair Normativ hüquqi aktlar toplusu. Bakı: 2001, s. 5, 6.

kommunikasiya sistemindən istifadə edən MMB-lər məlumat bazasına, başqa beynəlxalq cinayətlərlə yanaşı, oğurlanmış incəsənət əsərlərinin və mədəni sərvətlərin tapılması üçün imkan əldə edir.

Oğurlanmış incəsənət əsərləri ilə bağlı məlumat bazasında dünyanın istənilən oğurlanmış incəsənət əsərləri və mədəni irsə dair məlumatlar İnterpolun üzv dövlətləri tərəfindən verilmiş informasiya əsasında saxlanılır və zəruri olduğu təqdirdə yeniləşdirilir. Onu da qeyd etmək lazımdır ki, oğurlanmış incəsənət əsərlərinin axtarışı istiqamətində həyata keçirilən tədbirlərin inkişaf etdirilməsini statistik rəqəmlər də sübut etməkdədir. Belə ki, 2004-2010-cu illər ərzində oğurlanmış incəsənət əsərləri ilə bağlı məlumat bazasında yerləşdirilən axtarışın ümumi sayı artaraq 2004-cü ildə 261, 2007-ci ildə 4927, 2008-ci ildə isə 7187 təşkil etmişdir.[1]

Qeyd olunduğu kimi, cinayətin digər növləri ilə yanaşı, mədəni sərvətlərin, incəsənət əsərlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə də İnterpol müəyyən rola malikdir. Mədəni sərvətlərin və incəsənət əsərlərinin qanunsuz dövriyyəsi, o cümlədən oğurlanması faktları bütün dünya üzrə artmaqdadır. Bu vəziyyətdə İnterpol belə hesab edib ki, mədəni sərvətlər və incəsənət əsərlərinə dair Baş Katiblik tərəfindən beynəlxalq istiqamətləndirmələr nəşr olunsun və disk şəklində bütün üzv dövlətlərə yayımlansın. İnterpolun ilk belə istiqamətləndirməsi hələ 1947-ci ildə nəşr olunmuşdur. 1947-ci ildən başlayaraq nəşr olunan "E" seriyalı istiqamətləndirmələr maraqlı tərəfin sorğusu əsasında nəşr olunur. Bu seriyalı istiqamətləndirmələrin nəşr olunmasında əsas məqsəd oğurlanmış və şübhəli surətdə aşkar olunmuş mədəni sərvətlər, onların əlamətləri barədə müfəssəl məlumatların yayımlanmasından ibarətdir.

Onu da qeyd etmək lazımdır ki, tarixi dəyərə malik olmayan əşyaların oğurlanması və ya aşkar olunması ilə bağlı istiqamətləndirmələr də nəşr olunur.

"E" seriyalı istiqamətləndirmələri almış Milli Mərkəzi Bürolar:

1) Oğurlanmış və ya şübhəli şəkildə aşkar olunmuş mədəni sərvətlər haqqında məlumatları öz məlumat bazasına daxil edir;
2) Axtarışda olan predmetlərin və ya onun hər hansı bir hissəsinin (detalının) aşkar olunduğu bütün hallarda dərhal Baş Katibliyi və sorğu etmiş MMB-ni məlumatlandırır;
3) Müsadirə olunmuş və şübhəli şəkildə aşkar edilmiş hər hansı bir predmet (və ya onun hər hansı bir hissəsi) müəyyən bir oğurlanmış predmetə uyğunluq təşkil edirsə, bu barədə Baş Katibliyi və sorğu etmiş MMB-ləri məlumatlandırır.

---

[1] Quliyev Z.Z. İnterpolun qlobal telekominikasiya sisteminin cinayətkarlıqla mübarizədə hüquq-mübarizə orqanları üçün yaratdığı imkanlar // Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin məlumat bülleteni, 2012, №2, s. 29.

Hal-hazırda İnterpolun Baş Katibliyi xüsusi dəyərə malik olan oğurlanmış incəsənət əsərləri ilə bağlı "Xüsusi axtarışda olan incəsənət əsərləri" adı altında ildə iki dəfə xüsusi elanlar nəşr etdirir və hər bir elanda axtarışda olan 6 incəsənət əsəri barədə tam məlumat verilir. Bu elanlar bütün MMB-lərə göndərilir. MMB-lər isə öz növbəsində onları bütün aidiyyəti təşkilatlara çatdırırlar. Mətbuatda və digər kütləvi informasiya vasitələrində bu elanların yayılmasına xüsusi diqqət yetirilir.

İnterpolun Baş Assambleyasının 1995-ci il oktyabr ayında Pekin şəhərində keçirilən 64-cü sessiyasında Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları da iştirak etmişlər. Təşkilatın üzv dövlətlərinin ünvanına müxtəlif tövsiyələrlə çıxış etmişlər. Onların bir neçəsini qeyd edək:

- Xarici ölkələrdə oğurlanmış mədəni sərvətlərin qaytarılması, həmçinin digər ölkələrdə aşkar olunan oğurlanmış mədəni sərvətlərin qəbul edilməsi ilə bağlı digər ölkələrin qanunvericiliyi nəzərə alınaraq, daha münasib qanunvericiliyin qəbul edilməsinə maksimum səy göstərmək;
- Oğurlanmış mədəni sərvətlərin qaytarılması üzrə beynəlxalq qaydaların təkmilləşdirilməsi ilə bağlı digər beynəlxalq institutlar tərəfindən həyata keçirilən səyləri dəstəkləmək;
- Cinayət yolu ilə əldə olunmuş və hər hansı bir ölkədə aşkar edilmiş qiymətli əntiq əşyaların qanuni sahiblərinə qaytarılmasına yardım göstərmək;
- Bu istiqamətdəki fəaliyyətində polis, gömrük və maraqlı təşkilatlar arasında əməkdaşlığı gücləndirmək.

Qürurla qeyd etmək lazımdır ki, oğurlanmış və digər ölkələrdə aşkar edilmiş mədəni sərvətlərin qanuni sahibinə qaytarılmasında İnterpolun rolu kifayət qədər böyükdür. MMB-nin istiqamətləndirmələrin yayılma texnikası tədricən təkmilləşərək, əvvəlki vərəq şəklində deyil, indi, qeyd olunduğu kimi, disk şəklində yayımlanır. Həmin disklərdə ən son vaxtlarda oğurlanmış mədəni sərvətlər və incəsənət əsərlərinə polis və digər hüquq-mühafizə orqanları tərəfindən aparılan araşdırmalar və axtarışlar zamanı aşkar olunaraq mənbəyi və sahibi məlum olmayan mədəni sərvətlər və incəsənət əsərlərinə dair məlumatlar, habelə bu sərvətlərin və əsərlərin fotoşəkilləri toplanır.

Mədəni sərvətlərin və incəsənət əsərlərinin aşkar olunması hallarında ilk növbədə yerli hüquq-mühafizə orqanlarına məlumat verilməlidir. Yerli hüquq-mühafizə orqanları tərəfindən bu predmetlərin ölkə ərazisində axtarışı təşkil olunur və xüsusi qeydiyyatlara daxil edilir. Mənşəyi məlum olmayan predmetlər aşkar edildikdə isə, yerli orqanlar ilk növbədə bu predmetləri müvafiq qeydiyyatlardan yoxlamalı və onların ölkə ərazisində oğurlanıb-oğurlanmaması müəyyənləşdirilməlidir. Bu predmetlərin və onların sahiblə-

rinin ölkə ərazisində axtarışı heç bir nəticə vermədikdə yerli qurumlar onların İnterpol kanalları ilə beynəlxalq axtarışının təşkili üçün İnterpolun həmin ölkədəki MMB-lərinə müraciət etməlidirlər.[1]

Yuxarıdakı paraqraflarda qeyd olunduğu kimi, 1992-ci ildə İnterpolun Baş Assambleyasının Dakar şəhərində keçirilən 61-ci sessiyasında, Azərbaycanın bu təşkilata üzv qəbul edilməsi ilə, fəaliyyətə başlayan Azərbaycan Respublikasında İnterpolun MMB-si fəaliyyətinin ilk günlərindən digər cinayətlərlə yanaşı, mədəni sərvətlərin oğurlanması halları ilə mübarizədə Azərbaycanın hüquq-mühafizə orqanları ilə digər ölkələrin müvafiq orqanları arasında əməkdaşlığın həyata keçirilməsinə böyük yardım göstərir. Respublika ərazisində oğurlanmış və xarici ölkələrə aparılması ehtimal olunan, tarixi əhəmiyyət kəsb edən mədəni sərvətlər barəsində hüquq-mühafizə orqanlarından daxil olan məlumatlar MMB vasitəsilə digər ölkələrin müvafiq orqanlarına göndərilir, onlar beynəlxalq axtarışa elan olunur, zəruri hallarda bu predmetlər barəsində "E" seriyalı istiqamətləndirmələrin nəşr olunması üçün İnterpolun Baş Katibliyinə sorğular edir, həmçinin digər ölkələrdə oğurlanmış mədəni sərvətlər barəsində məlumatlar respublikanın hüquq-mühafizə orqanlarına çatdırılır, onlar barəsində ölkə ərazisində axtarış elan olunmasına şərait yaradılır. Bu predmetlər aşkar olunduğu hallarda isə sorğu edilmiş ölkələrə (İnterpolun bu ölkələrdəki MMB-lərinə) və İnterpolun Baş Katibliyinə bu barədə məlumat verilir.

Qeyd edim ki, MMB-də digər məlumat bazaları ilə yanaşı, oğurlanmış və axtarışda olan bütün mədəni sərvətlər barəsində məlumatlar bu məlumat bazasına daxil edilir. Mədəni sərvətlərin oğurlanması halları ilə bağlı məsələlərlə məşğul olmaq üçün MMB-də xüsusi zabitlər ayrılmışdır.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları tərəfindən müəyyən edilmiş bir neçə fakta nəzər yetirək.

Azərbaycan Respublikasında İnterpolun MMB-nun əməkdaşlarının peşəkarlığı nəticəsində 1993-cü ilin iyul ayında Rüstəm Mustafayev adına Dövlət İncəsənət Muzeyindən 274 incəsənət əsəri, Dürer, Kəraçi və Rembrant kimi dünya şöhrətli rəssamlar tərəfindən işlənmiş rəsm əsərlərinin və bir sıra Şərq miniatürlərinin oğurlanması ilə bağlı təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilmiş, İnterpolun Baş Katibliyi vasitəsilə 6 istiqamətləndirmə yayımlanmışdır. Vaşinqton, Visbaden və digər MMB-də aparılan birgə tədbirlər nəticəsində həmin oğurlanmış mədəni sərvətlərin yeri ABŞ-da müəyyən olunmuşdur. İstintaq tərəfindən cinayətdə əli olan bütün şəxslər müəyyən olunmuş və məsuliyyətə cəlb edilmişlər. 14 rəsm əsəri

[1] Qurbanov R.A. Xüsusi, tarixi, elmi, bədii və ya mədəni dəyəri olan əşyaların oğurlanmasına qarşı mübarizədə İnterolun rolu // Azərbaycan Respublikası DİN-in məlumat bülleteni, 2011, №2, s.56-57.

Azərbaycan Respublikası prezidentinin fərmanı ilə qanuni sahibinə – Almaniyanın Bremen Muzeyinə, 100-dən yuxarı eksponat isə respublikaya qaytarılmışdır.[1]

1997-ci ilin oktyabr ayının 15-dən 20-dək Azərbaycan Respublikasının Daxili İşlər naziri, MDB-yə üzv olan dövlətlərin DİNŞ sədri cənab Ramil Usubov Hindistanın paytaxtı Dehli şəhərində olmuş, tədbirin açılışında Hindistanın Baş naziri İnder Kumar Quçral, İnterpolun prezidenti Tosinori Kanemota və xarici ölkələrin səfirləri iştirak etmişlər. Nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun əməkdaşları iştirak etmiş, beynəlxalq cinayətkarlığa qarşı mübarizə məqsədilə ABŞ, Rusiya Federasiyası, Ukrayna, Gürcüstan, Moldova, Türkiyə, Avstriya, Polşa, Xorvatiya, Bəhreyn, Misir, Latviya, Hindistan və Qazaxıstanın nümayəndə heyəti ilə bir sıra işgüzar görüşlər keçirmişlər. ABŞ-ın nümayəndə heyəti ilə görüşdə Rüstəm Mustafayev adına incəsənət muzeyinə məxsus rəsm əsərlərinin Nyu-Yorkda aşkar edilməsi ilə bağlı istintaq hərəkətlərinin təşkili məsələlərinə toxunulmuş və bu barədə prinsipial razılıq əldə edilmişdir. İnterpolun Baş katibi cənab Raymond Kendalla görüşdə Azərbaycan Respublikasının beynəlxalq polis əməkdaşlığı sahəsində daha fəal rol oynaması üçün bütün imkanlardan istifadə ediləcəyinə zəmanət vermişdir.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nun əməkdaşları tərəfindən müəyyən edilmişdir ki, İİR vətəndaşı, Barsavad şəhərinin sakini, 1962-ci il təvəllüdlü M.İ.Müsəvi qaçaqmalçılıq yolu ilə, İİR Sadabab muzeyinə məxsus 2 ədəd qılıncı Azərbaycan Respublikasının vətəndaşı V.Məmmədova vermişdir. Məlum olmuşdur ki, İnterpolun üzvü olan 190 dövlətlərə qılıncların axtarışı barədə "E" seriyalı istiqamətləndirmə yayımlanmışdır. Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları İranlı həmkarlarının məsləhəti ilə, oğurlanmış əşya Azərbaycanın incəsənət muzeyinə verilmiş, bir müddətdən sonra İİR-də İnterpolun MMB-nə təhvil verilmişdir.[3]

2001-ci il tarixi dövründə Azərbaycan Respublikasında İnterpolun MMB-nin hesabat arayışından görünür ki, İnterpolun Baş Katibliyindən daxil olmuş Dünya ölkələrinin pasport nümunələri kataloqu Sərhəd Qoşunları Baş İdarəsinə və Dövlət Gömrük Komitəsinə göndərilmiş silsiləsindən "Av-

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nun cari arxivi. MMB-nun 2011-ci ilin xidməti fəaliyyətinə dair arayış, s.9.

[2] Azərbaycan Respublikası DİN-in mətbuat xidmətinin məlumatı // Azərbaycan, 1997, №230(1751).

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2000-ci il ərzində xidməti fəaliyyətinə dair arayışı, s. 6.

ropada qarətlər" adlanan yeni nəşr olunmuş cild barədə MTN, Dövlət Gömrük Komitəsi və Mədəniyyət Nazirliyi məlumatlandırılmışlar.

İnterpol çərçivəsində axtarışın təşkili üçün mövcud olan qaydalar barədə hüquq-mühafizə orqanları mütəmadi olaraq məlumatlandırılmışlar.

MMB-nin 2001-ci ilin hesabat dövrü ərzində DİN-in Baş Təhqiqat nə İstintaq İdarəsindən daxil olmuş tapşırıq əsasında Azərbaycan Tarixi muzeyindən oğurlanmış 56 ədəd xalça, 22 ədəd xalça məmulatı və 5 ədəd soyuq silahın beynəlxalq axtarışını təşkil etmək məqsədilə, yalnız 30 ədəd xalça barədə tam məlumat (ölçüləri, toxunma üsulları, rəngi və s.) toplanmış və "E" seriyalı istiqamətləndirmə buraxılması üçün Baş Katibliyə göndərilmişdir.

2001-ci ildə R.Mustafayev adına incəsənət muzeyindən oğurlanmış rəsm əsərlərinin axtarışı istiqamətində də tədbirlər davam etdirilmişdir. Qeyd etmək lazımdır ki, İnterpolun səyi nəticəsində bu rəsm əsərlərinin xeyli hissəsi respublikamıza, 12-si isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Almaniyanın Bremen muzeyinə qaytarılmışdır.[1]

2002-ci ilin hesabat dövrü ərzində oğurlanmış mədəni sərvətlərin və əntiq əşyaların axtarışı ilə bağlı, respublikanın hüquq-mühafizə orqanlarına və xarici həmkarlarımıza kömək məqsədilə, İnterpolun Baş Katibliyindən və üzv ölkələrdən daxil olmuş 134 ədəd incəsənət əsəri barədə 76 "E" seriyalı istiqamətləndirmə və teleks məlumatı xidməti istifadə üçün Dövlət Gömrük Komitəsinə göndərilmiş və MMB-nin məlumat bazasına salınmışdır.[2]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2004-cü ilin hesabat dövrü ərzində, MMB-nin təşəbbüsü ilə, İnterpolun Baş Katibliyi tərəfindən respublikamızdan oğurlanmış 103 ədəd mədəni sərvətlərlə bağlı "E" seriyalı istiqamətləndirmə nəşr olunmuş, Azərbaycan Tarix Muzeyindən oğurlanmış 30 ədəd tarixi dəyərli qədimi xalça haqqında məlumat İnterpolun müvafiq axtarış bazasına – ASF məlumat bazasına daxil edilmişdir. [3]

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 2011-ci ilin hesabat arayışından MMB İnterpola üzv ölkələrdə oğurlanmış mədəni sərvətlərə və valyuta saxtakarlığına dair statistik məlumatlar İnterpolun Baş Katibliyindən alınaraq müvafiq qurumlara təqdim olunmuşdur. Eyni zamanda ölkəmizdə bu sahə üzrə statistik məlumatlar müvafiq formada İnterpolun Baş Katibliyinə təqdim edilmişdir.

---

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-cü ilin xidməti fəaliyyətinə dair arayışı, s. 3,9.

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2002-ci ilin xidməti fəaliyyətinə dair arayış, s.19.

[3] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2004-cü ilin xidməti fəaliyyətinə dair arayış, s.13.

Bundan başqa bir faktı da qeyd etmək yerinə düşər. İşğalçı Ermənistan ordusu tərəfindən zəbt edilmiş ərazilərimizdə xalqımızın milli-mənəvi irsinin tərkib hissəsi olan mədəniyyət, tarixi və dini abidələri məhv edilmişdir. İşğal olunmuş ərazilərdə 500 tarixi-memarlıq abidələrinin və 100-dən artıq arxeoloji abidələrin, 100 mindən çox qiymətli mədəni eksponatı olan 22 muzeyin və 4 şəkil qalereyasının, 32 məscid, 44 kilsə, 21 tarixi sitayış yerləri, 13 qüllə, 22 kurqan, 8 körpü, 9 saray, dövlət qoruqları və yaşıllıqlar məhv edilmişdir.[1]

Beləliklə, beynəlxalq terrorizm, beynəlxalq sabitliyin ciddi pozulması, narkomaniya, narkotik maddələrin qanunsuz dövriyyəsi, ərazi bütövlüyünə qəsd, ərazi işğalı, insanlığa qarşı cinayətlər, mədəni irsimizin məhv edilməsi kimi beynəlxalq cinayətlər törədən Ermənistana qarşı ciddi tədbir görülməlidir! Dünyanın beynəlxalq təşkilatları, o cümlədən Beynəlxalq İnterpol beynəlxalq cinayətkarlığa qarşı mübarizə tədbirlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dərinləşməsinə təsir edən bütün təzahürləri nəzərə almalı və öz imkanları daxilində tədbirlər görməlidir.

Mədəni dəyərlərin qorunub saxlanılması problemləri kompleks xarakter daşıyır, buna görə də onları yalnız hüquq-mühafizə orqanlarının fəaliyyəti çərçivəsində həll etmək mümkün deyildir. Burada məsələlərin İdarələrarası və Dövlətlərarası səviyyədə həlli tələb olunur və yalnız qanunvericilikdə icra, maliyyə və s. sahələrdə fəaliyyətini uzlaşdırıb əlaqələndirilməsi yolu ilə mədəni dəyərlərə cinayətkar qəsblərin səviyyəsinin azaldılmasına nail olmaq olar.

**Azərbaycan Respublikasında MMB-nin fəaliyyətinin əsas istiqamətlərindən birini də insan hüquqlarının təmin edilməsi təşkil edir.**

Müasir dövrdə hər bir ölkənin beynəlxalq münasibətlər sisteminə qatılması, maraq və mənafelərin beynəlxalq hüququn verdiyi imkanlar hesabına təmin edilməsi, sivil birgə yaşayış normaları ilə tənzimlənən dünya siyasətində iştirakı ilk növbədə onun daxili siyasətindən, demokratik normalara insan hüquq və azadlıqlarına necə əməl etməsindən asılıdır. Avroatlantik məkanda inteqrasiya kursu keçmiş Azərbaycan da, qloballaşan dünyanın bərabərhüquqlu subyekti kimi, bu inteqrasiya maraqlarında uğurla işləyir və demokratik dəyərləri surətlə mənimsəyir.

İqtisadi sahədə keçid dövrünü başa vuran Azərbaycan üçün hazırda son dərəcə vacib məsələlərdən biri demokratikləşmə prosesini, siyasi və hüquqi islahatları cəmiyyətin inkişaf ahənginə uyğun daha da dərinləşdirmək, son dərəcədə qanunun aliliyini, insan hüquqlarının prioritetliyini bütün sə-

[1] "Terrorçuluqla mübarizə və insan hüquqları" mövzusunda seminar keçirilmişdi // Azərbaycan, 2005, 17 iyun, №163(4082).

viyyələrdə təmsil etməkdir. Dövlət başçısı İlham Əliyev məhz bu üsullardan çıxış edərək xüsusi vurğulayıb ki, respublikamızın dinamik inkişafını bazasına daxil olduğu indiki mərhələdə hüquqi islahatlara daha ciddi ehtiyac yaranmışdır.

Müasir dövrdə insan hüquqları beynəlxalq münasibətlərin başlıca meyarına çevrilmişdir. İnsanların bu və ya digər hüquqları böyük mübarizə yolu keçmişlər. İnsan hüquqları, onların genezisi sosial mədəni inkişafın əbədi problemlərindən biri olaraq qalmaqdadır. Bu problemlər mədəni, siyasi, hüquqi, etnik, fəlsəfi və dini fikirlərin diqqət mərkəzindədir. Hər bir dövlətin demokratik imici onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insanların hüquqlarının vəziyyətini müəyyən edir. Demokratiya və insan hüquqları bir-biri ilə bağlıdır, onların biri digərini şərtləndirir.

Yalnız cəmiyyətdə mövcud olan demokratik iqlim insan hüquqlarının qorunmasına real təminat verir, digər tərəfdən isə, əsas insan hüquq və azadlıqlarının qanunvericilikdə və real həyatda təmin edilməsi cəmiyyətin demokratik təfəkkürü və geniş inkişafı üçün həlledici amil rolunu oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə görə, insan hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın 26-cı maddəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Konstitusiyanın 71-ci maddəsində hüquq və azadlıqların müdafiəsi dövlətin bütün orqanlarına şamil edilən vəzifə kimi təsbit edilmişdir. Sözsüz ki, fərdlərin hüquqlarına real sahib ola bilməsi dövlətin bu mühüm funksiyalarını real həyata və hüquqların müdafiəsinin real mexanizminə malik olması ilə sıx bağlıdır. Unutmaq olmaz ki, vətəndaşların subyektiv hüquqlarını müəyyən edən, lakin lazımi müdafiəsini təmin etməyən hər hansı hüquq norması dekorativ xarakter daşıyır. Vətəndaşların hüquqlarının təminat sisteminin yaradılması hüquqi dövlət quruculuğunun vacib şərtlərindəndir.[1]

Dövlət hər kəsin hüquqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq cəmiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir. Geniş mənada insan hüquqlarının müdafiəsini, dövlətin daxili və beynəlxalq vasitələrini (mexanizmlərini) fərqləndirmək mümkündür. Sözsüz ki, bunlar öz-özlüyündə çoxşaxəli olmaqla yanaşı, həm də ehtiva etdiyi elementlər baxımından, daim inkişafdadır.

Yuxarıda göstərildiyi kimi, hüquq və azadlıqlarının müdafiəsi dövlətin

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2010, s.7, 10, 21.

bütün orqanlarına şamil edilən vəzifə kimi təsvir edilmişdir. Bu mənada qanunvericilik hakimiyyətinin insan hüquqlarının müdafiə və təmin edilməsi istiqamətindəki fəaliyyətin özünəməxsus istiqamətləri vardır.

Parlament ilk növbədə qanunların təmin edilməsi vasitəsilə insan və vətəndaş hüquq və azadlıqlarına aid olan konstitusiya normalarının konkretləşdirilməsini və inkişafını təmin edir.

Hüquq və azadlıqların inzibati hüquqi müdafiəsi formaları ilk növbədə icra hakimiyyəti sahəsində bu məqsədə yönəlmiş qanunvericilik təminatının mövcudluğunu tələb edir. İcra hakimiyyəti orqanları ilə münasibətdə vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi yalnız inzibati hüquqların deyil, həm də müvafiq dövlət orqanlarının vəzifələrinin qanunvericilikdə dəqiq müəyyənləşdirilməsini tələb edir.

İcra hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən edilmiş şikayətlərin inzibati qaydada Milli Vətəndaşların pozulmuş hüquq və azadlıqlarının müdafiəsinin ən geniş yayılmış vasitələrindən biridir. Vətəndaşların pozulmuş bu hüquqlarının operativ və səmərəli bərpa edilməsinə, onların dövlətin idarə olunmasında, ictimai xarakterli məsələlərin həllində iştirakına imkan verir. Cəmiyyətdə baş verən proseslər haqqında informasiya əldə edilməsinin mühüm mənbələrindən biri kimi çıxış edir. Bu, həm də insan hüquqlarının həyata keçirilməsində və qorunmasında əhəmiyyətli vasitədir.

Hüquq və azadlıqların müdafiəsinin məhkəmə təminatı ilə bağlı konstitusiyanın 60-cı maddəsində nəzərdə tutulmuşdur ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verir. Bu təminat dövlətin insan hüquqları ilə əlaqədar ən vacib öhdəliklərindən biridir. Çünki insan və vətəndaş hüquqi və azadlıqlarının birbaşa qüvvəsi ədalət mühakiməsinin həyata keçirilməsi ilə təmin olunur və onsuz səmərəli müdafiəni təsəvvür etmək mümkün deyil. Hüquq və azadlıqların məhkəmə müdafiəsinə verilən təminat yalnız vətəndaşların müvafiq şikayətlərlə məhkəməyə şikayət hüququnu ehtiva etmir. Həmin təminat həm də məhkəmə şikayətinə baxmaq, onun haqqında qanuni əsaslandırılmış ədalətli qərar çıxarmaq vəzifəsini də əhatə edir.

Hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququ əsasən qanun əsasında yaradılmış, müstəqillik və qərəzsizlik şəraitinə cavab verən, mübahisənin və ittihamın aspektlərinə dair qərar qəbul edə bilən kifayət qədər geniş səlahiyyətlərə malik olan və hər kəsin müraciət etmək hüququnun təmin etdiyi məhkəmələrin mövcudluğu nəzərdə tutulur.[1]

[1] Məmmədzadə V. Hüquq və azadlıqların bəzi məsələləri // "Hüquqi dövlət və qanun" jurnalı, 2006, №5, s. 31-32.

İnsan hüquq və azadlıqlarının müdafiə mexanizmlərindən birini də beynəlxalq hüquq normaları ilə müdafiə təşkil edir.

İnsan hüquqları problemlərinin ayrı-ayrı aspektlərinə kifayət qədər tədqiqatlar həsr edilməsinə baxmayaraq, hal-hazırda bu hüquq elminin aktual problemi olmaqdadır. İnsan hüquqları probleminin artıq bütövlükdə beynəlxalq hüququn tədqiqat obyektinə keçməsi, beynəlxaq cəmiyyətin qayğısına çevrilməsi və başqa sözlə desək, dövlətlərin insan hüquqları sahəsində öz üzərinə götürdükləri öhdəlikləri nəzərə alaraq, yeni normaların qəbul edilməsi ilə bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi xüsusi qeyd edilməlidir. Əgər söhbət insan hüquqlarının beynəlxalq müdafiəsindən, bu sahədə beynəlxalq əməkdaşlığından gedirsə, onda beynəlxalq və ölkədaxili hüququn, insan hüquqları üzrə beynəlxalq standartların və dövlətlərin daxili səlahiyyətlərinin qarşılıqlı əlaqəsi problemləri ortaya çıxır. Bu problemlərin xarakteri həmişə danılmazdır. Bütövlükdə dünyada gedən dəyişikliklər, beynəlxalq hüququn və insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın inkişafı bu problemlərin həllinə daimi yeniliklər gətirir.

Bütün sahələrdə olduğu kimi, insan hüquqları sahəsində də beynəlxalq hüququn milli qanunvericiliyin təkmilləşmiş faktoru kimi çıxış etməsi tam əsaslıdır. Bütövlükdə beynəlxalq hüquq milli hüquq sisteminin normal fəaliyyət göstərməsi və onların inteqrasiyası üçün əlverişli şərait yaradır və beynəlxalq hüquq olmadan milli hüquq sisteminin zənginləşdirilməsini təsəvvür etmək çətindir. Lakin qeyd edilənlər dövlətdaxili hüququn rolunu azaltmır. 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində insan hüquq və azadlıqlarının heç bir dövlətin daxili işi olmadığı, ümumbəşəri səviyyə daşıdığı əksini tapmış, ayrı-ayrı dövlətlərin bu sahədə görməli olduğu işlərin miqyası göstərilmişdir.

Beləliklə, əsas insan hüquqları: yaşamaq, azadlıq, bərabərlik, mülkiyyət, təhlükəsiz yaşamaq hüquqları demokratik ölkələrin başlıca məqsədi hesab olunmuşdur. Bu hüquqlar eyni zamanda müxtəlif iqtisadi, siyasi, dini sistemlərin ideologiyalarını birləşdirən əsas meyar sayılır. Ayrı-ayrı ölkələrin qanunvericiliyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əksini tapmış, mütərəqqi prinsiplərə uyğunlaşdırmaqla fundamental insan hüquq və azadlıqlarının maksimum təminatına şərait yaratmağa çalışır. Bundan başqa, dövlət öz hüquq sistemini elə qurmuşdur ki, özünün beynəlxalq öhdəliklərini yerinə yetirsin. Belə ki, dövlətin daxili qanunvericiliyə istinad etməsi onu beynəlxalq öhdəliklərdən azad etmir. Bununla əlaqədar müddəalar "Beynəlxalq müqavilələr hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasının 27-ci maddəsində də başlıca olaraq göstərilmişdir.

İnsan hüquqları sahəsində beynəlxalq sazişlərdə iştirak edən dövlətlər "Pasta sunt Servanda" prinsiplərinə uyğun olaraq, onları vicdanla yerinə ye-

tirməli və bu məqsədlə də beynəlxalq öhdəliklərin realizəsi üçün dövlətdaxili tədbirlər həyata keçirməlidir. Bütün dövlətlər insan hüquqları sahəsində beynəlxalq hüququn ümumi tanınmış prinsip və normalarına, o cümlədən dövlətin özünün bu sahədə beynəlxalq öhdəliklərinə əməl etməyə borcludur.

Hər bir dövlətin insan hüquqlarına hörmət və əməl etmək öhdəliyi isə, bilavasitə BMT nizamnaməsində ümumi formada göstərilmiş, 1975-ci il tarixində Helsinki yekun aktı ilə daha da öz dövlətdaxili qanunvericiliyini yaratmışdır, inkişaf etdirərək beynəlxalq hüququn əsas ümumiləşdirilmiş prinsiplərindən biri kimi çıxış etmiş əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsiplərindən irəli gəlir. Bu sahədə qəbul edilmiş kifayət qədər beynəlxalq sənədlər həmin prinsiplərin əhəmiyyətini daha da artırmışdır. Qəbul olunmuş beynəlxalq mühüm sənədlərdə insan hüquqlarının universallığı tanınmışdır. İnsan hüquqları hansı dövlətdə, hansı ərazidə yaşamasından asılı olmayaraq ictimai münasibətlərin iştirakçısı kimi, şəxsiyyət hüququdur. Beynəlxalq konvensiyalarda insan hüquqlarının ancaq vətəndaşa deyil, hər kəsə məxsusluğu daha geniş yayılmış və ancaq formalaşmış bir tendensiyadır.

Bir qayda olaraq dövlətin qarşısında duran əsas vəzifələrdən biri bütövlükdə bütün insan hüquq və azadlıqlarının təmini və müdafiəsidir. Bu, beynəlxalq cəmiyyət, o cümlədən beynəlxalq təşkilatlar qarşısında duran əsas vəzifələrdən biridir. Belə ki, BMT Nizamnaməsinin 1-ci maddəsinin üçüncü bəndində BMT-nin əsas məqsədlərindən biri kimi, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dil və ya dini mənsubiyyətinə fərq qoymadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq göstərilir. Bunlar BMT nizamnaməsinin 55-ci maddəsi ilə təsdiqlənir. Orada göstərilir ki, BMT irqinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verir.[1]

Müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası insan hüquqlarının müdafiəsi istiqamətində mühüm addımlar atmışdır. Belə ki, Azərbaycan Respublikası bir tərəfdən insan hüquqları sahəsində qəbul edilmiş əksər beynəlxalq müqavilələrə qoşulmuş, digər tərəfdən isə bu sahədə mövcud beynəlxalq standartlara uyğun olaraq öz dövlətdaxili qanunvericiliyini yaratmışdır. İnsan hüquqlarının qorunmasını dövlətin ali məqsədi hesab edən Azərbaycan Respublikası Konstitusiyasında beynəlxalq hüquq normalarını qəbul edən kifayət qədər normalar vardır. Konstitusiyanın 12-ci mad-

[1] Əliyev Ə. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Bakı: 2009, s.4-5.

dəsinin 2-ci hissəsində deyilir ki, bu konstitusiyada sadalanan insan hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun təsbit edilir.

İnsan hüquqları amili ulu öndər Heydər Əliyev fəaliyyətinin əsası olmuşdur ki, bu da bilavasitə onun rəhbərliyi və təşəbbüsü ilə kifayət qədər normativ hüquqi sənədlərin qəbul edilməsi ilə nəticələnmişdir.

Ulu öndər Heydər Əliyevin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. Bu fərman ölkədəki daxili ictimai-siyasi durumun sabitləşməsi və ümumi situasiyaya nəzarətin artırılması baxımından sanballı sənəd olmuşdur.[1]

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ümumxalq səsverməsi, referendum yolu ilə 12 noyabr 1995-ci il tarixdə Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsası olan Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi bu işdə əməli dönüş olmuşdur. Konstitusiya layihəsi üzrə komissiyaya rəhbərlik edən ulu öndər, əsas qanunda əksini tapmış bütün maddələrin məhz insan hüquq və azadlıqlarına maksimum cavab verməsi məqsədini ön plana çəkmişdir.

Bu zaman Heydər Əliyev tərəfindən insan hüquq və azadlıqları sahəsində qəbul edilmiş bir sıra sənədlər də xüsusi qeyd edilməlidir. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" 1997-ci il tarixli qanun, 22 fevral 1998-ci il tarixli fərman, "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 18 iyun 1998-ci il tarixli sərəncam və s.

Hal-hazırda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən dövlətdaxili sferada və beynəlxalq aləmdə, o cümlədən mühüm beynəlxalq təşkilatlarda uğurlu və ideal fəaliyyət dövlətimizin insan hüquqları istiqamətində də düzgün siyasətini bir daha sübut edir. Belə ki, dövlətimiz insan hüquqları sahəsində 200-dən çox beynəlxalq müqavilənin iştirakçısıdır.

Bu gün Azərbaycan Respublikası insan hüquqları müdafiəsinin beynəlxalq mexanizmləri ilə sıx əməkdaşlıq edir. Beynəlxalq sahədə yeni-yeni istiqamətlərdə əməkdaşlıq konsepsiyaları formaları formalaşdırmışdır. Bu baxımdan 21 oktyabr 2005-ci ildə qəbul edilmiş və 1 yanvar 2007-ci ildə qüvvəyə minmiş "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunu, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Mil-

[1] Süleymanov E. Azərbaycanda iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə tətbiqi. Bakı: Qanun, 2003, s.20-22.

li Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının prezidenti 28 dekabr 2006-cı il tarixli sərəncamının 1-ci bəndində Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə etmişdir ki, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqini təmin etsinlər. Eyni zamanda normativ hüquqi aktların müddəalarının beynəlxalq sənədlərə tam uyğunlaşdırılmasının da təmin edilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Daha sonra Azərbaycan Respublikasının prezidentinin 2006-cı il 19 yanvar tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişiklik və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası qanununun təsdiq edilməsi barədə fərmanının 6-cı bəndində Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikasının Apelyasiya Məhkəmələrinə tövsiyə edilmişdir ki, insan hüquqları üzrə Avropa məhkəməsinin prezident hüququnun öyrənilməsi işini təşkil etsinlər və onu məhkəmə təcrübəsində nəzərə alsınlar.

Beləliklə, Azərbaycan Respublikası nəinki beynəlxalq müqavilə və müddəaların, eyni zamanda prezident hüququnun da nəzərə alınması ilə insan hüquqlarının təminatında çox mühüm addımlar atmışdır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli fərmanı ilə hər il iyulun 18-i dövlətimizdə "İnsan hüquqları günü" kimi qeyd edilir. Bu isə dövləti özünün beynəlxalq cəmiyyət və əhali arasında öhdəliklərinə bir daha qayıtması və daimi xüsusi yanaşması deməkdir.[1]

18 mart 2009-cu il tarixdə keçirilmiş referendum insan hüquqlarının təminatında yeni mərhələnin başlanğıcını qoymuşdur. Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi ilk növbədə insan hüquqlarının daha real təminatının əsası olan hüquqi dövlət, sosial dövlət münasibətlərini meydana gətirmiş, Azərbaycan dövlətinin sosial dövlət kimi möhkəmlənməsini, dövlətimizin özünün vətəndaşları qarşısında daha ciddi öhdəlik götürməsinin qanunvericilik əsaslarını müəyyən etmişdir.

Konstitusiyaya edilən əlavə və dəyişikliklər Azərbaycan Respublikasında dövlət quruculuğunun yeni mərhələsinin başlanğıcını bildirmiş, insan hüquqları və azadlıqlarının daha real və səmərəli təmininə şərait yaratmış, dövlət hakimiyyət orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə və daha da təkmilləşməsinə, dövlətimizin beynəlxalq cəmiyyətə daha sürətli inteqrasiyanın konstitusion əsaslarının inkişafına gətirib çıxarmışdır.

Dövlət başçısı İlham Əliyevin 2011-ci il sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramı" gələcəyə baxış inkişaf konsepsiyasının hazırlanması istiqamətin-

[1] Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə fəaliyyət planının tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı: 2007, s. 38.

də də mühüm addımdır. Bu sənəd insan hüquqlarının müdafiəsinin Azərbaycan üçün strateji əhəmiyyətli məsələ olduğunu bir daha təsdiqləyir. Altı fəsil və 75 bənddən ibarət Milli Fəaliyyət proqramı normativ hüquqi bazanın təkmilləşdirilməsi, əhalinin müxtəlif qurumlarının hüquqlarının müdafiəsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq, milli fəaliyyət proqramının həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinq və qiymətləndirmə kimi vəzifələrin həlli istiqamətində mühüm tədbirləri özündə ehtiva edir.

Milli Fəaliyyət proqramında insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət konsepsiyası müxtəlif istiqamətlər üzrə müəyyən olunmuş, həmçinin həyata keçiriləcək tədbirlərin icrası, əlaqələndirilməsi monitorinqi və qiymətləndirmə mexanizmi göstərilmişdir. Proqramda respublikada insan hüquq və azadlıqlarının müdafiəsi sisteminin daha da inkişaf etdirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının daha səmərəli təmini istiqamətində konkret vəzifələrin icrası nəzərdə tutulmuşdur. Belə ki, sənəddə qanunvericilik aktları qəbul olunarkən insan hüquqları meyarının rəhbər tutulması, Azərbaycan Respublikasının insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulması prosesinin davam etdirilməsi, yeni qanunvericilik aktlarının qəbulu, korrupsiya ilə mübarizə insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulması prosesinin davam etdirilməsi, yeni qanunvericilik aktlarının qəbulu, korrupsiya ilə mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, əhaliyə göstərilən elektron xidmətin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bu sənəddə bu tədbirlərin vətəndaş cəmiyyətləri institutları və media ilə sıx əməkdaşlıq müstəvisində həyata keçirilməsinin vacibliyi önə çəkilir.

Milli Fəaliyyət proqramında əsasən gələcəkdə insan hüquqları sahəsində maarifləndirmə, elmi-analitik tədbirlərin davam etdirilməsi, beynəlxalq təşkilatların, o cümlədən BMT-nin insan hüquqları sahəsində ixtisaslaşan qurumlarının qaçqınlar üzrə Ali Komissarlığı, YUNESKO, UNİCEF, Dünya bankı, Avropa şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar ilə birgə əməkdaşlıq proqramının həyata keçirilməsi planlaşdırılmışdır.

Milli Fəaliyyət proqramının hazırlanması zamanı müxtəlif beynəlxalq təşkilatlarla birgə həyata keçirilən əməkdaşlıq proqramları, müxtəlif sənədlərə aid qanunvericiliyin islahatı prosesi, BMT-nin insan hüquqları üzrə Ali Komissarlığının milli fəaliyyət planının hazırlanmasına dair bələdçi kitabı, habelə insan hüquqları üzrə Avropa məhkəməsinin Prezident hüquqları nəzərə alınmışdır. Proqramda eyni zamanda insan hüquqları sahəsində beynəlxalq öhdəliklərin davamlı implementasiyası üçün dövlət orqanlarına konkret tapşırıqlar verilmişdir.[1]

[1] Polisin fəaliyyətində insan hüquqlarına riayət olunması // Azərbaycan, 1998, 18 dekabr 287(2339).

Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra hüquqi, demokratik dövlət quruculuğu yolunda bir sıra mühüm nailiyyətlər əldə etmişdir. cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü dəyişikliklərə gətirib çıxaran bu proses bu gün də eyni qətiyyət və ardıcıllıqla davam etdirilir. Aparılan məhkəmə hüquq və dövlət idarəetmə islahatları demokratikləşmə prosesinin aktuallığının bariz nümunəsidir.

Ümumiyyətlə, cəmiyyət həyatında müşahidə olunan fundamental dəyişikliklər hüquqi, siyasi islahatların dərinləşməsini, inkişaf etmiş qabaqcıl Avropa dövlətlərinin mütərəqqi, demokratik ənənələrinin mənimsənilməsinə xidmət edən fəal siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxarır.

AMEA-nın İnsan Hüquqları İnstitutu ölkəmizdə hüquqi maarifləndirmə sahəsində müxtəlif tədbirlər həyata keçirir. Avropa Şurasının İnsan hüquqlarının Baş Direktorluğu institutun "Polis və insan hüquqları" layihəsini həyata keçirmək təşəbbüsünü bəyənmişdir. Layihə çərçivəsində "İnsan hüquqları və polis əməli tədris vəsaiti", "Polisin işi və insan hüquqları Avropa kontekstində", "İnsan hüquqları və polis: diskussiyaları necə aparmalı", "İnsan hüquqları və onların beynəlxalq hüquqla qorunması" metodik dərs vəsaitləri qısa müddətdə tərcümə edilərək işlənib hazırlanmışdır.

Bu, elmi tədqiqat layihəsinin rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə İnstitutun sabiq direktoru, siyasi elmlər doktoru R.Mustafayev və "Dirçəliş XXI əsr" jurnalının yaradıcı qrupunun tərcüməsi əsasında hazırlanmışdır. Bu dərs vəsaiti Avropa Şurası Baş Direktorluğu tərəfindən təsdiq olunmuş təşəbbüsə əsasən, "İnsan hüquqları və polis əməli" tədris vəsaiti əsasında hazırlanmışdır.[1]

Hal-hazırda bu vəsaitdən dərslik kimi DİN-in Polis Akademiyasında tədrisdə istifadə olunur. Bundan başqa, Azərbaycan Daxili İşlər orqanlarının və Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları bu vəsaitdən istifadə edirlər.

Yuxarıda qeyd olunan mənbənin əhəmiyyəti polis işçilərinə dərs deyən müəllimləri insan hüquqlarının tipik problemləri sahəsində konkret misallara və işlərin öyrənilməsinə əsasən insan hüquqları Avropa Konvensiyasının və insan hüquqları üzrə digər standartların praktik öyrənilməsi prosesində istifadə edilə bilən tədris materialları ilə təmin etməkdən ibarətdir.

Yaxşı polis təcrübəsi üçün kitabçaya əlavə olan bu dərs vəsaiti həmin kitabın istifadə olunduğu kurslarda iştirak edən polis zabitləri üçün mənbə kimi nəzərdə tutulmuşdur. Həm dərs vəsaiti, həm də kitabçanın müəllifi Es-

[1] Mustafayev R. Avropa Şurası məkanında əyani tədris vəsaiti // "Dircəliş" jurnalı. Bakı: 2002, №51, s.22-23.

seus Universiteti İnsan hüquqları mərkəzinin əməkdaşı, Birləşmiş Krallıqda polisin keçmiş baş zabiti R.Kraşodur.

1999-cu il dekabrın 15-də Bakıda "Həyat park" mehmanxanasında AŞ-nin və Respublika DİN-in "Polis və insan hüquqları 1997-2000-ci il" proqramı çərçivəsində birlikdə keçirdiyi "Polisin fəaliyyətində insan hüquqlarına riayət olunması" mövzusunda seminar öz işinə başlamışdır. Seminarı Daxili İşlər nazirinin müavini, polis general-mayoru Ə.Ələsgərov açaraq demişdir ki, bundan əvvəl AŞ-nin respublikamızın hüquq-mühafizə orqanları ilə birgə keçirdiyi seminarların nəticələri ölkənin Daxili İşlər orqanları üçün səmərəli olmuş, bir sıra problemlərin həllində xarici ölkələrin müvafiq qurumlarının və beynəlxalq polis təşkilatlarının təcrübəsindən istifadə etməyə, əməkdaşların xidməti fəaliyyətini təkmilləşdirməyə imkan yaratmışdır.

Nazir müavini AŞ-nın seminarda iştirak edən nümayəndələrinə müraciətlə demişdir ki, ölkəmizdə qanunun aliliyi prinsipləri həyata keçirilir, vətəndaşların hüquq mədəniyyəti və sosial fəallığı yüksəlir, ictimai münasibətlərin tənzimlənməsinin hüquqi mexanizmləri təkmilləşdirilir. Cinayət qanunvericiliyinin humanistləşdirilməsi insan hüquq və azadlıqlarının qorunması ilə bağlı ümumbəşəri dəyərlərə istiqamətlənən hüquqi islahatlar həyata keçirilir.

Göstərilən bu tarixi seminarda AŞ-nin "Polis və insan hüquqları 1997-2000-ci il" proqramının meneceri A.Bezenberq "Polis fəaliyyətinin təşkilində insan hüquqları ilə əlaqədar əsas tələblər" mövzusunda məruzə etdi. Qonaq dedi ki, hər bir polis işçisi öz ölkəsinin qanunlarını, adət və ənənələrini bilməli və fəaliyyətində bunlara əsaslanmalıdır. Polis əməkdaşları insan hüquqları və azadlıqları haqqında konvensiyaların tələblərinə dəqiq riayət etməyi öyrənməlidirlər[1]

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən 2004-cü il iyun ayının 30-da respublika daxili işlər orqanlarının təqdirəlayiq fəaliyyətinə, şəxsi heyətin hüquqi, demokratik dövlət quruculuğu sahəsində xüsusi xidmətlərinə verilən yüksək qiymətin əyani təzahürü olaraq, bir sıra fərman verilmiş, o cümlədən "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət proqramı (2004-2008-ci illər)" və Azərbaycan Respublikası prezidentinin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə fəaliyyət proqramı təsdiq edilmişdir ki, bununla bağlı nəzərdə tutulan bütün tədbirləri Azərbaycan Respublikasının Daxili İşlər orqanları və Azərbaycan Respublikasında İnterpolun MMB-si İnsan hüquqları ilə bağlı bütün tədbirləri həyata keçirir.[2]

---

[1] Polisin fəaliyyətində insan hüquqlarına riayət olunması // Azərbaycan, 1998, 18 dekabr, №287(2399).

[2] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2007-ci ilin ara-

Azərbaycan Respublikasında İnterpolun MMB-si 2008-2009-cu illərdə Azərbaycan Respublikası prezidentinin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında 28/12/2006-cı il tarixli tədbirlər planının icrası ilə bağlı, "DİN-nin İnsan hüquqlarının müdafiəsi üzrə komissiyasının yaradılması barədə" DİN-in 05.02.2007-ci il tarixli 53 nömrəli əmri verilmişdir ki, yuxarıda göstərilən normativ sənədlərin icrasını təmin etmişlər. Azərbaycan Respublikasında İnterpolun MMB-si insan hüquqlarının müdafiəsi ilə bağlı görülmüş işlər barədə arayışlar tərtib etmiş, 20/2589№-li 02/04/2009-cu il tarixli, 20/4969№-li 07/07/2009-cu il tarixli, 20/7411№-li 30/09/2009-cu il tarixli, 20/4969№-li 01/07/2009-cu il tarixli məktublarla DİN-in Daxili Təhlükəsizlik İdarəsinə təqdim olunmuşdur. [1]

4 mart 2010-cu il tarixində cənab Ramil Usubov ölkəmizdə səfərdə olan AŞ-nin İnsan Hüquqları üzrə komissarı T.Hamarberqi qəbul etmişdir. DİN ilə AŞ arasında sıx və işgüzar əməkdaşlıq əlaqələrinin yaranmasından danışan nazir qeyd etmişdir ki, bu əlaqələr çərçivəsində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində görülən işlər və həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət daşıyır.

Polis fəaliyyətində insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ön plana çəkildi. Bununla yanaşı, Avropa ekspertləri tərəfindən DİN-in Polis Akademiyasında təhsilin tərkibinə dair "Azərbaycan Respublikasında polis kadrlarının hazırlanmasının qiymətləndirilməsi" mövzusunda hazırlanan məruzə-hesabata əsasən, təqdim edilən tövsiyələr nəzərə alınaraq, insan hüquqlarının qorunması ilə bağlı, qanunvericiliyin və beynəlxalq hüquqi aktların müddəalarının daha dərindən öyrənilməsi məqsədilə, Polis Akademiyasında "İnsan hüquqları" üzrə xüsusi kurs təşkil olunmuş, eyni məqsədlə ingilis dilinin tədrisi daha da genişlənmişdir.

Qeyd olunmuşdur ki, AŞ-nin "polis və insan hüquqları" proqramı çərçivəsində hazırlanmış, "İşgəncələrə qarşı Komitə haqqında nə bilirsiniz" adlı 15 sualı əhatə edən kitabça tərcümə edilərək, tədris prosesində əyani vəsait kimi istifadə olunur. "Polis etikası haqqında "Avropa məcəlləsində təsvir olunmuş və Avropa Şurasının ekspertlərinin fəal iştirakı və tövsiyələri əsasında "Daxili işlər orqanları əməkdaşlarının etik davranış kodeksi" hazırlanmışdır.

Nazir bildirmişdir ki, prezident İlham Əliyevin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 28 dekabr 2006-cı il tarixli sərəncamından irəli gələn və-

---

yış hesabatı, s.6.

[1] Azərbaycan Respublikasında İnterpolun MMB-nin cari arxivi. MMB-nin 2009-cu ilin xidməti fəaliyyətinə dair arayış, s.7.

zifələrin icrası ilə əlaqədar, insan hüquqlarının təmin olunması sahəsində beynəlxalq təşkilatlarla bir sıra zəruri işlər görülmüşdür. Bundan əlavə, 1997-ci ildən başlayaraq Avropa Şurasının "Polis və insan hüquqları proqramı", "Qanunun aliliyinin möhkəmləndirilməsi üzrə əməkdaşlıq proqramı" və "İnsan hüquqlarına riayət edilməsi mədəniyyəti proqramı" çərçivəsində müxtəlif mövzular üzrə seminarlar keçirilmişdir. Ümumiyyətlə, insan hüquqlarına riayət olunması, polisin gündəlik işində demokratik dəyərlərin möhkəmləndirilməsi yollarının öyrənilməsi problemlərinə həsr edilmiş seminarlar, elmi-praktik konfranslar müntəzəm olaraq keçirilir.

Cənab Ramil Usubov onu da qeyd etmişdir ki, DİN bu uğurlara nail olmaqla bərabər, polis əməkdaşları tərəfindən törədilən hər cür neqativ təzahürlərə qarşı mübarizə sahəsində öz işini böyük əzmlə davam etdirir və belə fakt üzrə qanunla müəyyən edilmiş ən ciddi tədbirlərin görülməsində maraqlıdır.[1]

Onu da qeyd edək ki, müasir beynəlxalq münasibətlər sistemində beynəlxalq sülh və təhlükəsizliyin, insan hüquqlarının, dövlətlərarası və beynəlxalq münasibətlərin pozulmasına səbəb olan bu qlobal problemlərin, ilk növbədə beynəlxalq terrorizm, separatizm, dini ekstremizm, sürətlə silahlanma kimi problemlərin müzakirəsi və bu problemlərə qarşı mübarizə zərurəti getdikcə daha geniş xarakter almağa başlayıb. Azərbaycanla İnterpol arasında əməkdaşlıq dinamik şəkildə inkişaf edir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan, digər nüfuzlu beynəlxalq təşkilatlarla yanaşı, tamhüquqlu üzv kimi, İnterpolla da əlaqələrini uğurla davam etdirir. DİN ilə İnterpol arasında cinayətkarlıqla mübarizənin müxtəlif sahələri üzrə əməkdaşlıq dinamik inkişaf edib. Xüsusilə cinayətkarlığa qarşı mübarizə sahəsində və insan hüquqlarının daha etibarlı qorunmasına xidmət edən qanunvericilik aktları üzrə Azərbaycanla İnterpol arasında, yuxarıda qeyd etdiyim kimi, digər mühüm tədbirlər görülüb. Ölkəmiz məhkəmə hüquq sisteminin müasirləşməsi istiqamətində imzalanan mütərəqqi qanunvericilik aktları qəbul edib, bu islahat çərçivəsində hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün zəruri normativ-hüquqi baza yaradılıb, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülüb. Azərbaycanla İnterpol arasında cinayətkarlığa qarşı mübarizə və cinayət törətmiş şəxslərin tutularaq məsuliyyətə cəlb olunması, birgə konkret əməkdaşlıq tədbirlərinin həyata keçirilməsi, o cümlədən təcrübə və məlumat mübadiləsinə dair müvafiq əməli tədbirlərin bundan sonra da davam etdirilməsinə dair razılıq əldə edilib.[2]

[1] Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Tomas Kommarverdi qəbul etmişdir. DİN-in mətbuat xidmətinin məlumatı // Mübariz keşikdə, 11 mart 2010, №10(2981).

[2] http://www.bizimyol.info/36356.html

Demokratik, hüquqi dövlətin aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsasların möhkəmləndirilməsi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu istiqamətdə növbəti addımlardan biri də ölkə prezidenti tərəfindən 27 dekabr 2011-ci il tarixdə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət proqramının qəbul olunmasıdır.

**Azərbaycan Respublikasında İnterpolun MMB-nin əsas fəaliyyət istiqamətlərindən birini də Azərbaycan Respublikasının milli təhlükəsizliyinin qorunması təşkil edir**.

2007-ci il mayın 23-də, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası qəbul edildi. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası girişdən, 4 hissədən və yekun müddəalardan ibarətdir.

Azərbaycan Respublikasının milli maraqları və Azərbaycan Respublikasının milli maraqlarına təhdidlər aşağıdakılardan ibarətdir.

1. Təhlükəsizlik mühiti;
2. Azərbaycan Respublikasının milli maraqları;
3. Azərbaycan Respublikasının milli maraqlarına təhdidlər;
4. Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi;
5. Ərazi bütövlüyü və konstitusiya əleyhinə qəsdlər;
6. Qanunun aliliyinə riayət olunması, ictimai asayişin qorunması və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət;
7. Separatçılıq, etnik, siyasi və dini ekstremizm;
8. Terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;
9. Regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq;
10. Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət;
11. Xarici, siyasi, hərbi və ya iqtisadi asılılıq;
12. Iqtisadi qeyri-sabitlik;
13. Peşəkar insan ehtiyatlarının çatışmazlığı;
14. Regional hərbiləşdirmə;
15. Ekoloji problemlər.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri aşağıdakılardır.

1. Təhlükəsizliyin xarici siyasət vasitəsilə təmin edilməsi;
2. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması;
3. Avropa və avroanalitik strukturun inteqrasiyası;
4. Beynəlxalq təhlükəsizliyə töhfə;
5. Beynəlxalq təşkilatlarla əməkdaşlıq;

6. Regional əməkdaşlıq və ikitərəfli münasibətlər;
7. Region ölkələri ilə əməkdaşlıq;
8. Qeyri-region ölkələri ilə əməkdaşlıq;
9. Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi;
10. Təhlükəsizliyin daxili siyasət vasitəsilə təmin edilməsi;
11. Demokratiyanın möhkəmləndirilməsi;
12. Milli və dini tolerantlıq mühitinin qorunması;
13. Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması;
14. İqtisadi və sosial inkişaf;
15. Daxili təhlükəsizliyin möhkəmləndirilməsi;
16. Sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi;
17. Miqrasiya siyasəti;
18. Enerji təhlükəsizliyi siyasəti;
19. Nəqliyyat təhlükəsizliyi siyasəti;
20. Fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi;
21. İnformasiya təhlükəsizliyi siyasəti.[1]

Azərbaycan Respublikasında İnterpolun MMB-si başqa fəaliyyət istiqamətləri ilə bərabər, Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları, Daxili İşlər orqanları, İnterpolun Baş Katibliyi və İnterpolun üzvü olan ölkələrlə əlaqəli surətdə fəaliyyət göstərir. Büronun Milli Təhlükəsizlik Konsepsiyası ilə bağlı icra etdiyi cari arxiv materiallarına əsasən bir neçə faktı qeyd edək.

Azərbaycan Respublikasında müstəqil dövlətçiliyin qorunması ən mühüm amillərdən biridir. Azərbaycan Respublikasında İnterpolun MMB-nin başqa fəaliyyət istiqamətləri kimi, bu istiqamətdə də inkişaf dinamikası artmaqdadır.

[1] Shate on facebookshateon twitter8hareon emaiemore sharing services.

# NƏTİCƏ

Monoqrafiyada Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyəti tarixinin öyrənilməsi aşağıdakı ümumiləşdirilmiş nəticələr çıxarmağa imkan verir.

İlk növbədə qeyd etmək lazımdır ki, İnterpolun və onun Azərbaycan MMB-nin fəaliyyət tarixinin tədqiqi problemi indiyədək Azərbaycan Tarix elmində ayrıca tədqiqat obyekti kimi öyrənilmədiyindən onun araşdırılması elmi və praktik əhəmiyyət daşıyır.

Monoqrafiyanın I fəslində İnterpolun yaranmasının və fəaliyyətinin tarixi aspektlərinin və vacib şərtlərin araşdırılmasından belə bir qənaət hasil olur ki, elmi-texniki tərəqqinin və sənayeləşmənin müasir mərhələsində cinayətlərin törədilmə texnikasının mükəmməlliyi, müasir cinayətkarlığın geniş miqyas alması və mütəşəkkilliyinin artması, beynəlxalq terrorizm, separatizm, insan alveri, dini ekstremizm, cinayətkarlığın "beynəlmiləlləşməsi" və s. onunla mübarizə tədbirlərinin dövlətlərin birgə səyi əsasında həyata keçirilməsini zəruri etmişdir. Bu isə İnterpolun yaradılmasını, cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq təşkilatların rolunun vacibliyini ön plana çəkmişdir.

Beləliklə, ilk beynəlxalq polis təşkilatının yaranması XIX əsrin II yarısına təsadüf etmişdir.

İnterpolla bağlı materialların elmi təhlili göstərir ki, İnterpol çərçivəsində müxtəlif ölkələrin polis orqanlarının cinayətkarlıqla mübarizədə əməkdaşlığı və onların hərəkətlərinin koordinasiyası mexanizmi formalaşmışdır. Beynəlxalq təşkilatlardan biri olan İnterpolun digər beynəlxalq qurumlardan fərqi ondadır ki, o, cinayətkarlıqla mübarizədə müxtəlif ölkələrin polis idarələri arasında əməkdaşlığı təmin edir, cinayətkarlıqla mübarizənin effektliyini artırmaq üçün müxtəlif ölkələrin hüquq-mühafizə orqanları arasında peşəkar əlaqələrin genişləndirilməsinə imkan verir. Faktların təhlili də göstərir ki, bu əlaqələrin İnterpol sistemində həyata keçirilməsi məqsədəuyğundur.

Araşdırmalar müasir dövrdə cinayətkarlıqla mübarizədə İnterpolun rolunun artdığını və bu təşkilat çərçivəsində əməkdaşlığı inkişaf etdirməyin zəruriliyini göstərir. Dövlətlərə tövsiyə olunur ki, öz ərazilərində İnterpol çərçivəsində beynəlxalq əməkdaşlıq ideyalarının yaranmasına şərait yarat-

sınlar. Hüquq-mühafizə orqanlarının əməkdaşları İnterpolun imkanları prinsipləri və İnterpol sistemi çərçivəsində iş metodları haqqında məlumatlandırılsınlar.

Tarixi – müqayisəli təhlil əsasında müəyyən edilmişdir ki, cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlıq, o cümlədən İnterpol çərçivəsində əməkdaşlıq müstəqillik qazanmış respublikamız üçün də xüsusi əhəmiyyət kəsb edir. Xarici ölkələrlə əlaqələr genişlənmişdir və cinayət törətmiş şəxslərin cəzadan gizlənmək imkanları xeyli artmışdır. Həmçinin cinayətkarlıqla mübarizə işində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə məqsədəuyğundur. Belə bir şəraitdə hüquq-mühafizə orqanlarının köməyinə İnterpol çatır. Azərbaycanın ümummilli lideri Heydər Əliyev beynəlxalq cinayətkarlığa qarşı mübarizə işini daha da gücləndirmək məqsədilə, Azərbaycanın İnterpolla əməkdaşlığının daha da möhkəmləndirilməsinin vacibliyini vurğulamışdır. Belə ki, bu təşkilatın gördüyü işlərə hər bir dövlətin, onun hüquq-mühafizə orqanlarının böyük ehtiyacı vardır.

Azərbaycan Respublikasında İnterpolun MMB-nin 20 ildən artıq fəaliyyət göstərdiyi tarixə nəzər saldıqda məlum olur ki, ölkəmiz 1992-ci ildə İnterpol-a üzv olaraq xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə birbaşa əməkdaşlıq əlaqələrinin təməlini qoymuş, İnterpolun AR MMB-si İnterpolun Baş Katibliyi ilə müntəzəm əlaqələr yaratmış, ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimiz İnterpolun üzvü olan ölkələrlə cinayətkarlığa qarşı mübarizədə fəal rol oynamışdır. Azərbaycan Respublikası digər beynəlxalq qurumlarla yanaşı, beynəlxalq İnterpol çərçivəsində keçirilən tədbirlərdə və layihələrdə aktiv iştirak etmişdir. Bunun nəticəsi olaraq, ölkəmiz artıq bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edir. 1997-ci il fevral ayının 16-da BMT-nin narkotiklər üzərində nəzarət komitəsinin, Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsinə nəzarət üzrə yardımçı komissiyanın Bakıda keçirilən 32-ci sessiyasında iştirak etmək üçün respublikamıza rəsmi səfərə gəlmiş İnterpolun Baş katibi R.Kendal Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə görüşmüşdü. Dövlətimizin başçısı cənab R.Kendalın rəhbərlik etdiyi beynəlxalq təşkilatın dünyada, o cümlədən Azərbaycanda məşhur olduğunu nəzərə çatdırmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq aləmə göstərdiyi təsirdən söhbət açan R.Kendal bu münaqişənin aradan qaldırılmasına İnterpolun xüsusi maraq göstərdiyini vurğulamış və həmçinin, İnterpol əməkdaşlarının Azərbaycanda əlaqələrindən çox razı qaldığını bildirmişdir.

Araşdırmalar göstərir ki, 2003-cü il ərzində İnterpolun Baş Katibliyinin tövsiyəsi əsasında respublikamız bir sıra qanunlar qəbul etmişdir. Eyni zamanda İnterpolun Baş katibi R.Nobl Bakıda səfərdə olmuş və nazir cənab

Ramil Usubovla, Baş prokuror Z.Qaralovla, Ədliyyə naziri F.Məmmədovla görüş keçirmişdir. MMB-nin şəxsi heyəti ilə görüş zamanı R.Nobl Büronun fəaliyyətini yüksək qiymətləndirmiş və bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparmışdır.

Qeyd etmək lazımdır ki, 1 may 2003-cü il, 6 oktyabr 2011-ci il, 22 noyabr 2011-ci il, 23 may 2012-ci il və 7 sentyabr 2012-ci il tarixlərində İnterpolun Baş katibinin Azərbaycana səfəri və DİN-in rəhbərliyi ilə görüşü zamanı beynəlxalq təhlükəsizliyin təmin olunması və Dünya hüquq-mühafizə ictimaiyyətinin bu məsələyə diqqətinin yönəldilməsi, habelə İnterpolun "Təhlükəsiz Dünya Naminə Fondu"nun tətbiqi üçün Bakıda mədəni tədbirlərin keçirilməsi təklif olunmuşdur. DİN-in rəhbərliyi tərəfindən buna razılıq verilmişdir. Bütün bu qeyd olunanlar isə ölkəmizin getdikcə dünyada və regionda artan rolundan xəbər verir.

İnterpolun Azərbaycan MMB-nin fəaliyyətə başladığı vaxtdan bu günədək bu beynəlxalq qurumun üzvü olan aşağıdakı dövlətlərlə əməkdaşlıq etmişdir: Türkiyə, Kanada, Makedoniya, Qazaxıstan, Belarus, Bolqarıstan, Bosniya Herseqovina, Hindistan, Rusiya Federasiyası, Finlandiya, Çex Respublikası, Çin, Sloveniya, Gürcüstan, Moldova, Avstraliya, ABŞ, Polşa, Norveç, Bəhreyn, Misir, Latviya, Yunanıstan və s. AR İnterpolun MMB-nin əməkdaşları İnterpolun üzvü olan dövlətlərin MMB əməkdaşları ilə xaricdə cinayət törətmiş Azərbaycan Respublikası vətəndaşlarının ekstradisiya olunmasında və beynəlxalq cinayətkarlığın bütün növləri ilə mübarizədə fəal iştirak etmişlər.

Azərbaycan Respublikası dünya dövlətləri ilə çoxtərəfli və ikitərəfli müqavilələr və sazişlər bağlamışdır ki, bu da cinayətkarlıqla mübarizədə münbit şərait yaratmışdır.

Tədqiqata cəlb olunmuş faktiki materiallar Azərbaycan Respublikası hökumətinin fəaliyyətində DİO-nun və onun tərkib hissəsi olan İnterpolun AR MMB-nin əməkdaşlarının peşəkarlıq fəaliyyətinin yüksəldilməsinə mühüm yer verdiyini göstərir. Ölkə prezidentinin və DİN-in rəhbərliyi tərəfindən təhsil müəssisələrinin fəaliyyətinə göstərilən diqqət və qayğı, onun maddi-texniki bazasının zənginləşməsi və Avropa standartlarına müvafiq quruculuq işlərinin aparılması nəticəsində Polis Akademiyasının beynəlxalq aləmə inteqrasiyasının belə sürəti təhsil ocağımızın yaxın gələcəkdə Avropa Polis təhsilini tədqiq etmək prosesinə və hətta dünyanın Polis Təhsil Müəssisələri ilə rəqabət aparmağına şərait yaradacaqdır. Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının peşəkar və əsl beynəlxalq standartlara cavab verən polis əməkdaşı olmasına şərait yaradacaq.

Polis Akademiyası barədə faktiki materialların araşdırılmasından məlum olmuşdur ki, Azərbaycan Respublikası DİN-in 5 dekabr 2001-ci il tarix-

li əmri ilə Polis Akademiyasının nəzdində Daxili İşlər orqanlarında “İdarəetmənin təşkili və ixtisasartırma” fakültəsi yaradılmış, 2003-cü ildən dinləyicilərin qəbuluna başlanmışdır. Qeyd etmək lazımdır ki, onların buradakı təhsil müddəti DİN-in aidiyyəti əmrinin tələblərinə müvafiq planlaşdırılır. İxtisasartırma kurslarına DİO-nun əməkdaşları ilə yanaşı, Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun əməkdaşları da cəlb olunurlar və öz peşəkarlıq fəaliyyətlərini yüksəldirlər.

Bundan əlavə, İnterpolun MMB-nin əməkdaşları İnterpolun Baş Katibliyi və İnterpolun üzvlüyünə daxil olan ölkələrin və beynəlxalq təşkilatların çərçivəsində təşkil olunan təlim kurslarına cəlb olunurlar. Bütün bu qeyd etdiklərimiz Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının peşəkarlıq fəaliyyətinin yüksəldilməsindən xəbər verir ki, bu da cinayətkarlığa qarşı mübarizənin daha da effektli aparılmasına şərait yaradır.

MMB – İnterpolun beynəlxalq cinayətkarlığa qarşı mübarizə istiqamətləri olan beynəlxalq terrorizm və narkotik vasitələrinin qanunsuz dövriyyəsinə qarşı, mədəni sərvətlərin və avtonəqliyyat vasitələrinin oğurlanmasına, insan alverinə qarşı mübarizə, kiber cinayətkarlıqla, mütəşəkkil və iqtisadi cinayətkarlıqla, hava nəqliyyatı ilə bağlı cinayətlərlə, həmçinin iqtisadi cinayətkarlıq ilə bağlı bütün layihələrdə fəal iştirak edir, dəyərli fikir mübadiləsi aparır və öz təkliflərini verir ki, bu da beynəlxalq cinayətkarlığa qarşı mübarizənin yüksək keyfiyyətindən xəbər verir.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin məqsədyönlü və ardıcıl siyasəti nəticəsində bərqərar olmuş möhkəm dövlət intizamı, qanuna söykənən iş prinsipi, hüquq-mühafizə orqanlarının səmərəli fəaliyyəti, xalqın polisə olan etimadı və dəstəyi ölkədə cinayətkarlıqla, onun bütün təzahürləri ilə mübarizənin yüksək səviyyədə davam etdirilməsinə, sabitliyin gələcəkdə də uğurla qorunmasına imkan verir. Dövlətimizin əsas dayaqlarından olan Daxili İşlər orqanları ölkədə aparılan quruculuq işlərində də fəaliyyət göstərərək, dövlətin hüquqi və fiziki şəxslərinin mənafelərinin və mülkiyyətinin hüquqa zidd əməllərdən qorunması, insanların sərbəst yaşayıb-işləməsi üçün lazımi şəraitin yaradılması istiqamətində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Bu gün Azərbaycan polisi inkişaf və yeniləşmə mərhələsini yaşayır, polis orqanları fəaliyyətinin təkmilləşməsi, iş keyfiyyətinin, əməkdaşların peşə hazırlığının və bilik səviyyəsinin artırılması və şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində lazımi tədbirlər görülür.

Dövlət başçısının və DİN rəhbərliyinin diqqət və qayğısı Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşlarının da ruh yüksəkliyinə səbəb olmuş və xidməti vəzifələrinin layiqincə yerinə yetirilməsinə böyük təsir göstərmişdir. Məsələn, 2007-ci və 2008-ci illərdə İnterpolun Baş Katib-

liyindən, İnterpolun üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından və digər təşkilatlardan 177 nəfər, o cümlədən 166 nəfər təqsirləndirilən və 11 nəfər itkin düşmüş şəxs barədə axtarış tapşırıqları daxil olmuşdur. 2007-ci ildə isə 64 nəfər, 2008-ci ildə 53 nəfər təqsirləndirilən şəxsin yeri İnterpol kanalları ilə müəyyən olunmuşdur. Yerləri müəyyən olunmuş şəxslərdən 4 nəfəri Azərbaycana deportasiya və 2 nəfəri ekstradisiya olunmuşdur. 2008-ci il üçün Azərbaycanda İnterpolun MMB-nin icraatında respublikanın hüquq-mühafizə orqanlarının tapşırığı əsasında 400 nəfər təqsirləndirilən şəxsin axtarışı ilə bağlı materiallar vardır (2007-ci ilin yekunu üzrə 341 nəfər olmuşdur. Onların 300 nəfəri Azərbaycan, 12 nəfəri MDB, 19 nəfəri isə digər xarici ölkələrin vətəndaşlarıdır).

Fəaliyyət göstərdiyi tarixi dövr ərzində Azərbaycan Respublikası İnterpolun MMB-si öz xidməti fəaliyyətini Azərbaycan Respublikası Konstitusiyası və digər qanunları, bir sıra qanunvericilik aktları, DİN-in Əsasnaməsi və normativ sənədləri, İnterpolun Baş Katibliyinin tövsiyələri əsasında qurmuşdur. Azərbaycan Respublikası DİN-in əsas “Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi, ümumi cinayətkarlığa qarşı mübarizədə polis əməkdaşlığının həyata keçirilməsi istiqamətində fəaliyyət göstərir. Bu tarixi dövr ərzində İnterpolun Baş Katibliyindən, təşkilatın üzvü olan ölkələrin MMB-dən, respublikanın hüquq-mühafizə orqanlarından, müxtəlif qurumlardan və vətəndaşlardan çoxsaylı sənədlər daxil olmuş və icraata qəbul edilərək, müvəffəqiyyətlə icra olunmuşdur.

Beləliklə, İnterpol sistemində əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin prioritet sahəsi və əsas istiqamətlərindən biri olmuşdur. ABŞ, Avstriya, Bolqarıstan, Liviya, Rumıniya, Çin, Misir və s. ölkələrin aidiyyəti qurumları, habelə BMT, ATƏT, AŞ, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat GUAM, MDB, Beynəlxalq Miqrasiya Təşkilatı, İnterpolun üzvü olan 190 dövlətlə və İnterpolun Baş Katibliyi ilə əməkdaşlıq münasibətini səmərəli şəkildə davam etdirir. Azərbaycan Respublikasında İnterpolun MMB-nin əməkdaşları Almaniya, İtaliya, Polşa, Türkiyə, Rusiya Federasiyası, Gürcüstan, Qazaxıstan, Moldova və Ukraynada keçirilən seminar və konfranslarda təlim və treninqlərdə iştirak edirlər.

Eyni zamanda qeyd etməliyik ki, ərazi bütövlüyünə qəsd edilmiş Azərbaycan Respublikası erməni terrorizmindən əziyyət çəkir. Təəssüflər olsun ki, Dağlıq Qarabağ və ətraf rayonlarda azərbaycanlılara qarşı vəhşiliklər etmiş erməni qəsbkarlarına və cinayətkarlarına qarşı mübarizədə İnterpolun potensialından kifayət qədər istifadə edilməmişdir. Ona görə də dünyanın beynəlxalq təşkilatları, o cümlədən İnterpol beynəlxalq cinayətkarlığa qarşı mübarizə tədbirlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dərinləşməsinə təsir edən bütün təzahürləri nəzərə almalı və öz im-

kanları daxilində tədbirlər görməlidir. Eləcə də, beynəlxalq terrorizm, beynəlxalq sabitliyin ciddi pozulması, narkomaniya, narkotik maddələrin qanunsuz dövriyyəsi, ərazi bütövlüyünə qəsd, ərazi işğalı, insanlığa qarşı cinayətlər və mədəni irsimizin məhv edilməsi kimi beynəlxalq cinayətlər törədən Ermənistana qarşı ciddi addımlar atılmalıdır.

Bu gün də Azərbaycanla İnterpol arasında əlaqələr günü-gündən genişlənir. İnanırıq ki, bu əməkdaşlığın gedişində Azərbaycan da beynəlxalq cinayətkarlığa qarşı mübarizədə öz töhfəsini verəcəkdir.

İnterpolun Azərbaycan MMB-nin fəaliyyətini daha da yüksəltmək və effektli etdirmək üçün bəzi praktiki tövsiyələri irəli sürmək olar:

- İnterpolun Azərbaycan MMB-nin fəaliyyətinin gündən-günə təkmilləşməsi, daha yüksək nəticələr əldə edilməsi üçün əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə ehtiyac vardır;
- Azərbaycan Respublikasının beynəlxalq polis əməkdaşlığı sahəsində daha fəal rol oynaması üçün bütün imkanlardan, o cümlədən müasir texnologiyanın ən son nailiyyətlərindən istifadə etmək məqsədəuyğun olardı;
- Mütəşəkkil cinayətkarlığa və digər ağır növ cinayətlərə qarşı mübarizəni əlaqələndirmə Bürosu, eyni zamanda İnterpol çərçivəsində daha da fəallaşmalıdır;
- Cinayət işlərinin təhqiqi və açılması, həmçinin bir sıra materialların yoxlanılması üçün sıx informasiya mübadiləsinə ehtiyac vardır;
- Digər ölkələrdəki İnterpolun MMB-lərinin imkan və əlaqələrindən istifadə etməklə Azərbaycan Respublikasının DİN sistemində qabaqcıl dünya dövlətlərinin təcrübəsinin tətbiqinə nail olmaq olar;
- Xocalı soyqırımında iştirak etmiş Z.Balayan, Ermənistanın sabiq prezidenti R.Koçaryan, indiki prezidenti S.Sarkisyan və digər erməni canilərinin cəzalandırılmasına nail olmaq üçün digər ölkələrdəki İnterpolun MMB-lərinin imkan və əlaqələrindən istifadə etmək faydalı olar;
- Məlumat mübadiləsini təkmilləşdirməklə terrorizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlıq və korrupsiyaya qarşı mübarizəni daha yüksək səviyyəyə çatdırmaq olar.

# İXTİSARLARIN

## SİYAHISI

| | |
|---|---|
| Aİ | Avropa İttifaqı |
| APKA | Avropa Polis Kollecləri Assosiasiyası |
| ASEANPOL | Asiya ölkələrinin beynəlxalq polis təşkilatı |
| AŞ | Avropa Şurası |
| Avropol | Avropa Polis Təşkilatı |
| BCAİ | Baş Cinayət Axtarış İdarəsi |
| BƏİ | Beynəlxalq Əməkdaşlıq İdarəsi |
| BƏSİİ | DİN-in Baş Əməliyyat Statistika İnformasiya İdarəsi |
| BMCMİ | Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi |
| BMT TQK | BMT çərçivəsində Terrorçuluğa Qarşı Komitə |
| BMT TŞ | Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası |
| BMTNBNP | BMT-nin Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Proqramı |
| BNMİ | Baş Narkotiklərlə Mübarizə İdarəsi |
| BPA | Beynəlxalq Polis Asossasiayası |
| CEPOL | Avropa Polis Kollecləri |
| CİCAD | Amerika dövlətləri təşkilatı çərçivəsində Narkotiklərə Nəzarət təşkilatı |
| DİN NMBİ | DİN-in Narkotiklərlə Mübarizə Baş İdarəsi |
| DİNŞ | MDB iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirlikləri Şurası |
| ECPAT | Asiya ölkələrində Fahişəliklə bağlı məsələlər üzrə Beynəlxalq Abolisionistlər Federasiyası |
| ƏÖL | Ərəb Ölkələri Liqası |
| FOPAK | Mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə qrup |
| GUAM | Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat |
| İAQMİ | İnsan Alverinə Qarşı Mübarizə İdarəsi |
| İBSA | Bank Təhlükəsizliyi Beynəlxalq Assosiasiyası |

| | |
|---|---|
| ICAID | İnterpolun Məlumatlar Bazası |
| İCAO | Mülki Aviasiyanın Beynəlxalq Təşkilatı |
| İƏT | İqtisadi Əməkdaşlıq Təşkilatı |
| İMQ | İstifadəçilərin Məşvərətçi Qrupu |
| İnterpol | Beynəlxalq Cinayət Polisi Təşkilatı |
| QATT | Beynəlxalq Ticarət Təşkilatı |
| QFP | Qlobal Fəaliyyət Planı |
| MAQATE | Beynəlxalq Atom Enerjisi Agentliyi |
| MCQMƏB | Mütəşəkkil cinayətkarlığa qarşı mübarizə üzrə əlaqələndirmə bürosu |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| MMB | Milli Mərkəzi Büro |
| NQMTOİB | Narkotiklərə Qarşı Milli Təbliğat Ofisi İctimai Birliyi |
| NPO | Qeyri-hökumət təşkilatları |
| SARPCCO | Polis rəhbərlərinin əməkdaşlığı üzrə Cənubi Afrika Ərazi Təşkilatı |
| SESES | Cəcubi Avropa hüquq-mühafizə orqanları mərkəzi |
| UNİCRİ | BMT-nin Regionlararası Cinayət və Ədliyyə Araşdırmaları İnstitutu |
| UNİCRİ | Regionlararası cinayət və Ədliyyə Araşdırmaları İnstitutu |
| ÜGT | Ümumdünya Gömrük Təşkilatı |
| WCO | Ümumdünya Gömrük Təşkilatı |
| YARİKS | MMB-nin Beynəlxalq Araşdırmalar Mərkəzi |
| YUNDKP | BMT-nin narkotik vasitələrə nəzarət üzrə beynəlxalq proqramı |

# ƏLAVƏLƏR

## Beynəlxalq

## Cinayət Polisi Təşkilatı İnterpolun Nizamnaməsi [79 a]

### Ümumi müddəalar

**Maddə 1.** “Beynəlxalq Cinayət Polisi Komissiyası” adlandırılan təşkilat bundan sonra “Beynəlxalq Cinayət Polisi Təşkilatı (İnterpol) adlanacaq. Təşkilat Fransada yerləşir.

**Maddə 2.** Onun məqsədləri aşağıdakılardır:

a) Ümumdünya İnsan hüquqları Bəyannaməsi ruhunda və ölkələrin qüvvədə olan qanunvericilikləri çərçivəsində bütün cinayət polisi orqanlarının geniş qarşılıqlı əməkdaşlığını təmin və inkişaf etdirmək;

b) Ümumi cinayətkarlığın qarşısını almağa və onunla mübarizəyə müvəffəqiyyətlə yardım göstərə bilən təşkilatlar yaratmaq və inkişaf etdirmək.

**Maddə 3**. Təşkilatın siyasi, hərbi, dini və ya irqi xarakterli hər hansı müdaxiləsi, yaxud fəaliyyəti qəti qadağandır.

**Maddə 4.** Hər bir ölkə, funksiyası təşkilatın fəaliyyəti dairəsi ilə üst-üstə düşən istənilən polis orqanına təşkilatın üzvü qismində çıxış etmək səlahiyyəti verə bilər.

Səlahiyyətli hökumət orqanının üzvlüyə qəbul edilməsi barədə xahiş Baş Katibə göndərilir.

Təşkilata üzv qəbul etmə barədə qərarı ⅔ səs çoxluğu ilə Baş Assambleya çıxarır.

**Strukturu və Təşkili:**

**Maddə 5.** Beynəlxalq Cinayət Polisi Təşkilatına – İnterpola aşağıdakılar daxildir:

- Baş Assambleya;
- İcraiyyə Komitəsi;
- Baş Katiblik;
- Milli Mərkəzi Büro;
- Müşavirlər.

**Baş Assambleya:**

**Maddə 6.** Baş Assambleya təşkilatın ali orqanı olmaqla, təşkilat üzv-

lərinin təyin etdiyi nümayəndələrdən ibarətdir.

**Maddə 7**. Təşkilatın hər bir üzvü orada bir və ya bir neçə nümayəndə ilə təmsil oluna bilər. Lakin hər bir ölkənin nümayəndəliyinin bu ölkənin səlahiyyətli hökumət orqanı tərəfindən təyin edilən yalnız bir rəhbəri olmalıdır.

Təşkilatın xüsusi xarakterə malik olduğunu nəzərə alaraq, onun üzvləri öz nümayəndəliklərinin tərkibinə aşağıdakıları daxil etməyə səy göstərməlidirlər:

a) Polis funksiyalarını həyata keçirən orqanların rəhbər vəzifəli şəxsləri;
b) Funksional öhdəlikləri təşkilatın fəaliyyəti ilə bağlı olan vəzifəli şəxsləri;
c) İclasların gündəliyinə daxil edilmiş məsələlər üzrə mütəxəssisləri.

**Maddə 8.** Baş Assambleyanın funksiyalarına aşağıdakılar daxildir:

a) Bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək;
b) Fəaliyyət prinsiplərini müəyyən etmək və təşkilatın bu Nizamnaməsinin 2-ci maddəsində göstərilən məqsədlərin yerinə yetirilməsinə kömək göstərməli olan ümumi tədbirləri işləyib hazırlamaq;
c) Baş katibin növbəti il üçün təklif etdiyi ümumi iş planını nəzərdən keçirmək və təsdiq etmək;
d) Tətbiqini zəruri saydığı digər qaydaları müəyyən etmək;
e) Nizamnamədə nəzərdə tutulmuş funksiyaları yerinə yetirəcək şəxsləri seçmək;
f) Təşkilatın səlahiyyətinə aid məsələlər üzrə qərarlar qəbul etmək və onun üzvlərinə tövsiyələr vermək;
g) Təşkilatın maliyyə siyasətini müəyyən etmək;
h) Digər təşkilatlarla razılaşmaları nəzərdən keçirmək və təsdiq etmək.

**Maddə 9.** Təşkilatın üzvləri Baş Assambleyanın qərarlarını yerinə yetirmək üçün öz səlahiyyətləri çərçivəsində və öz öhdəliklərinə uyğun olaraq, bütün mümkün tədbirləri həyata keçirirlər.

**Maddə 10.** Baş Assambleyanın sessiyaları hər il keçirilir. İcraiyyə Komitəsinin və ya Təşkilat üzvləri çoxluğunun xahişi ilə fövqəladə sessiya keçirilə bilər.

**Maddə 11.** Baş Assambleya öz sessiyalarının gedişində konkret məsələləri öyrənmək üçün xüsusi komitələr yarada bilər.

**Maddə 12**. Hər bir sessiyanın yekun iclasında Baş Assambleya növbəti sessiyasının keçiriləcəyi yeri müəyyən edir. Baş Katiblə məsləhətləşmələr keçirildikdən sonra dəvət edən ölkə ilə Təşkilatın Prezidenti arasında razılaşma əsasında növbəti sessiyanın keçiriləcəyi vaxt müəyyən olunur.

**Maddə 13.** Baş Assambleyada səs hüququna hər bir ölkənin yalnız bir nümayəndəsi malikdir.

**Maddə 14.** Qəbul edilməsi üçün Nizamnaməyə əsasən, ⅔ səs çoxluğu tələb edilən hallar istisna olunmaqla, qərarlara aid səs çoxluğu ilə qəbul olunur.

**İcraiyyə komitəsi**

**Maddə 15.** İcraiyyə Komitəsi Təşkilatın Prezidentindən, üç Vitse-Prezidentdən və 9 nümayəndədən ibarətdir.

İcraiyyə Komitəsinin on üç üzvü ədalətli coğrafi nümayəndəlik prinsipinə uyğun olaraq müxtəlif dövlətləri təmsil etməlidirlər.

**Maddə 16.** Baş Assambleya öz nümayəndələri arasında Təşkilatın Prezidentini və üç Vitse-Prezidentini seçir.

Prezident ⅔ səs çoxluğu ilə seçilir. Belə çoxluq olmazsa, təkrar səsvermədə səslərin adi çoxluğu kifayət sayılır.

Prezident və Vitse-Prezidentlər ayrı-ayrı qitələri təmsil etməlidirlər.

**Maddə 17.** Prezident 4 il müddətinə seçilir. Vitse-Prezidentlər 3 il müddətinə seçilir. Səlahiyyət müddəti başa çatdıqdan sonra onlar təkrarən həmin vəzifəyə və İcraiyyə Komitəsində nümayəndəliyə seçilə bilməzlər.

Prezidentin seçilməsi nəticəsində 15-ci maddənin (2-ci bənd) və ya 16-cı maddənin (3-cü bənd) tələbləri yerinə yetirilmədiyi halda, dörd qitənin hər birinin prezident səviyyəsində təmsil olunması məqsədi ilə, Dördüncü Vitse-Prezident seçilir.

Bu halda İcraiyyə Komitəsi müvəqqəti olaraq 14 üzvdən təşkil olunur. 15-16-cı maddələrin tələblərini yerinə yetirməyə imkan verən şərait yarandıqda həmin müvəqqəti müddət başa çatır.

**Maddə 18.** Təşkilatın prezidenti:

a) Baş Assambleyanın və İcraiyyə Komitəsinin sessiyalarında sədrlik edir və müzakirələrə rəhbərlik edir;
b) Təşkilatın fəaliyyətinin Baş Assambleyanın və İcraiyyə Komitəsinin qərarlarına uyğun olmasına nəzarət edir;
c) Təşkilatın Baş Katibi ilə mümkün olduğu qədər daimi birbaşa əlaqə saxlayır.

**Maddə 19.** İcraiyyə Komitəsinə doqquz nümayəndə Baş Assambleya tərəfindən 3 il müddətinə seçilir. Səlahiyyət müddəti bitdikdə onlar dərhal təkrarən həmin vəzifəyə seçilə bilərlər.

**Maddə 20.** Təşkilat Prezidentin təklifi ilə İcraiyyə Komitəsi ildə bir dəfədən az olmayaraq iclasa toplanır.

**Maddə 21**. İcraiyyə Komitəsinin bütün üzvləri öz funksiyalarını həya-

ta keçirərkən öz ölkələrinin deyil, təşkilatın nümayəndələri kimi hərəkət edirlər.

**Maddə 22**. İcraiyyə Komitəsi:

a) Baş Assambleyanın qərarlarının icrasına nəzarət edir;
b) Baş Assambleyanın sessiyalarının gündəliyini hazırlayır;
c) Məqsədəuyğun saydığı iş planlarını və təklifləri Baş Assambleyaya təqdim edir;
d) Baş Katibin fəaliyyətinə nəzarət edir;
e) Assambleyanın ona verdiyi bütün səlahiyyətlərdən istifadə edir.

**Maddə 23**. İcraiyyə Komitəsinin üzvlərindən biri istefa verdikdə və ya öldükdə Baş Assambleya onun yerinə səlahiyyət müddəti sələfinin qalan səlahiyyət müddəti ərzində qüvvədə olan başqa nümayəndə seçir. İcraiyyə Komitəsinə seçilmiş şəxsin mandatı hüquqi qüvvəsini itirdikdə, o, təşkilatın nümayəndəsi sayılmır.

**Maddə 24.** İcraiyyə Komitəsinin üzvləri öz funksiyalarını onların səlahiyyət müddətinin başa çatdığı ildə keçirilən Baş Assambleyanın sessiyasının qurtarmasınadək yerinə yetirirlər.

**Baş Katiblik**

**Maddə 25**. Baş Katiblik Təşkilatın daimi fəaliyyət göstərən xidmətlərini təşkil edir.

**Maddə 26.** Baş Katiblik:

a) Baş Assambleyanın və İcraiyyə Komitəsinin qərarlarını həyata keçirir;
b) Ümumi cinayətkarlığa qarşı beynəlxalq mübarizə mərkəzi kimi fəaliyyət göstərir;
c) İxtisaslaşdırılmış və informasiya mərkəzi kimi fəaliyyət göstərir;
d) Təşkilatın fəaliyyətinə səmərəli inzibati rəhbərliyi təmin edir;
e) Milli və beynəlxalq orqanlarla əlaqə saxlayır, cinayətkarların aşkar edilməsinə aid məsələlər üzrə isə bu əlaqəni Milli Mərkəzi Büro vasitəsilə həyata keçirir;
f) Zəruri nəşrləri hazırlayır;
g) Baş Assambleyanın sessiyalarında, İcraiyyə Komitəsinin və Təşkilatın hər hansı digər orqanının iclaslarında işçi katiblik vəzifəsini öz üzərinə götürür;
h) Növbəti ilə iş planının layihələrini hazırlayır, baxılması və təsdiqi üçün onları Baş Assambleyaya təqdim edir;
i) Təşkilatın Prezidenti ilə mümkün qədər birbaşa və daimi əlaqə saxlayır.

**Maddə 27.** Baş Katiblik Baş katibdən, təşkilatın işini təmin edən mütəxəssislərdən və inzibati heyətdən ibarətdir.

**Maddə 28.** Baş Katibin namizədliyi İcraiyyə Komitəsi tərəfindən irəli sürülür və Baş Assambleya tərəfindən 5 il müddətinə təsdiq edilir. Onun səlahiyyətləri növbəti müddətlərə də uzadıla bilər, lakin 65 yaşa çatdıqda bu vəzifəni tərk etməlidir. Əgər o, bu yaş həddinə səlahiyyət müddəti ərzində çatarsa, öz funksiyalarının icrasını səlahiyyət müddəti başa çatanadək davam etdirə bilər.

Baş Katib polisin fəaliyyəti məsələlərində lazımi səlahiyyətlərə malik şəxslər arasından seçilir.

Baş Katibi tutduğu vəzifədən kənarlaşdırmağı İcraiyyə Komitəsi Baş Assambleyanın iclasında müstəsna hallarda təklif edə bilər.

**Maddə 29.** Baş Katib Baş Assambleyanın və İcraiyyə Komitəsinin direktivlərinə uyğun olaraq, heyəti işə götürür və idarə edir, büdcə vəsaitləri üzərində sərəncam verir, daimi xidmət fəaliyyətlərinin işini təşkil edir və istiqamətləndirir.

O, İcraiyyə Komitəsinə və ya Baş Assambleyaya Təşkilatın işi ilə bağlı təklif və layihələr təqdim edir.

O, İcraiyyə Komitəsi və Baş Assambleya qarşısında məsuldur.

Baş Katib Baş Assambleyanın, İcraiyyə Komitəsinin və onların tabeçiliyində olan bütün digər orqanların diskussiyalarında iştirak hüququna malikdir.

Baş Katib öz vəzifələrini icra edərkən hər hansı müəyyən ölkəni deyil, bütövlükdə Təşkilatı təmsil edir.

**Maddə 30**. Baş Katib və onun heyəti öz vəzifələrini yerinə yetirərkən, hər hansı hökumətin və ya Təşkilatdan kənar başqa orqanların təlimatlarını sorğu etməməli və onlara əsaslanmamalıdır. Onlar öz beynəlxalq missiyalarının yerinə yetirilməsinə mane ola biləcək hər hansı hərəkətdən çəkinməlidirlər.

Təşkilatın hər bir üzvü Baş Katibin və onun heyətinin yerinə yetirdiyi məsələlərin müstəsna beynəlxalq xarakterinə öz tərəfindən hörmətlə yanaşmalı və onların öz vəzifələrini yerinə yetirmələrinə təsir göstərməkdən çəkinməlidir.

Təşkilatın bütün üzvləri öz vəzifələrini yerinə yetirən Baş Katibi və onun heyətini dəstəkləmək üçün bütün imkanlardan istifadə etməlidir.

**Milli Mərkəzi Büro**

**Maddə 31.** Təşkilat qarşısına qoyulmuş məqsədləri yerinə yetirərkən onun fəaliyyətində vicdanla iştirak etmək üçün öz ölkələrinin qanunvericili-

yi çərçivəsində bütün imkanlardan istifadə edən üzvlərinin daimi fəal əməkdaşlığına əsaslanır.

**Maddə 32.** Yuxarıda göstərilən əməkdaşlığı təmin etmək məqsədilə, hər bir ölkə Milli Mərkəzi Büro qismində olacaq orqanı göstərməlidir. O:

a) ölkədə müxtəlif orqanlarla;
b) digər ölkələrdə Milli Mərkəzi Büro kimi fəaliyyət göstərən orqanlarla;
c) Təşkilatın Baş Katibliyi ilə əlaqəni həyata keçirir.

**Maddə 33**. 32-ci maddənin normaları hər hansı ölkədə tətbiq edilə bilmədikdə və ya əməkdaşlığı səmərəli surətdə mərkəzləşdirməyə imkan vermədikdə Baş Katiblik bu ölkələrlə birlikdə əməkdaşlığın alternativ üsullarını müəyyən edir.

**Müşavirlər**

**Maddə 34.** Təşkilat müşavirlərlə elmi məsələlər üzrə məsləhətləşə bilər.

**Maddə 35**. Müşavirlər yalnız məsləhətçi funksiyasını icra edirlər.

**Maddə 36.** Müşavirlər İcraiyyə Komitəsi tərəfindən 3 il müddətinə təyin olunurlar. Onların təyin olunması Baş Assambleyaya bu barədə məlumat çatdırıldıqda qəti sayılır.

Müşavirlər Təşkilatı maraqlandıran fəaliyyət sahələrində beynəlxalq səviyyədə tanınan şəxslərdən seçilir.

**Maddə 37.** Müşavir öz vəzifəsindən Baş Assambleyanın qərarı əsasında kənarlaşdırıla bilər.

**Büdcə və vəsaitlər**

**Maddə 38.** Təşkilatın vəsaitləri:

a) Təşkilat üzvlərinin üzvlük haqlarından;
b) Qəbulu İcraiyyə Komitəsi tərəfindən bəyənilməli olan hədiyyələr, ianələr, subsidiyalar, dotasiyalar və digər mənbələrdən əmələ gəlir.

**Maddə 39.** Baş Katibin təqdim etdiyi smeta əsasında Baş Assambleya Təşkilat Üzvlərinin maliyyə iştirakının prinsipini və Təşkilatın illik maksimum xərclərini müəyyən edir.

**Maddə 40.** Təşkilatın büdcə layihəsi Baş Katib tərəfindən tərtib olunur və təsdiq olunmaq üçün İcraiyyə Komitəsinə təqdim edilir.

O, Baş Assambleya tərəfindən qəbul edildikdən sonra qüvvəyə minir.

Baş Assambleya büdcəni təsdiq edə bilmədikdə İcraiyyə Komitəsi keçən ilin ümumi büdcəsi çərçivəsində hərəkət etmək barədə zəruri sərəncam-

lar verir.

**Başqa təşkilatlarla münasibətlər**

**Maddə 41.** Məqsədəuyğun olacaq bütün hallarda və bu Nizamnamə ilə qoyulmuş məqsəd və vəzifələri nəzərə almaqla, Təşkilat başqa beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatları ilə münasibətlər yaradacaq və əməkdaşlıq edəcək.

Beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatları ilə razılaşmalar Baş Assambleya tərəfindən təsdiq edildikdən sonra etibarlı sayılır.

Təşkilat beynəlxalq qeyri-hökumət, milli hökumət və ya milli qeyri-hökumət təşkilatları ilə öz səlahiyyətləri çərçivəsində məsləhətləşə bilər.

Baş Assambleyanın razılığı ilə İcraiyyə Komitəsi, təcili hallarda isə, həmçinin, Baş Katib başqa Beynəlxalq İdarələrin və ya təşkilatların vəzifələrini yaxud beynəlxalq razılaşmaların icrası üzrə səlahiyyətləri və vəzifələri çərçivəsində öz üzərinə götürə bilər.

**Bu Nizamnamənin tətbiqi, dəyişdirilməsi və təsviri**

**Maddə 42.** Bu Nizamnaməyə dəyişikliklər ya Təşkilat üzvünün, ya da İcraiyyə Komitəsinin təklifi ilə edilə bilər.

Bu Nizamnaməyə dəyişikliklər edilməsi barədə təklif Baş Assambleyada baxılmağa təqdim edilməzdən ən azı 3 ay əvvəl Baş Katib tərəfindən Təşkilat üzvlərinə göndərilməlidir.

Bu Nizamnaməyə dəyişikliklərin edilməsinə dair bütün qərarlar Təşkilat üzvlərinin ⅔ səs çoxluğu ilə qəbul olunur.

**Maddə 43.** Bu Nizamnamənin fransız, ingilis və ispan dillərində olan mətnləri eyni əhəmiyyət kəsb edir.

**Maddə 44.** Bu Nizamnamənin tətbiq edilmə qaydası Baş Məclisin ⅔ səs çoxluğu ilə qəbul etdiyi ümumi qaydalar və əlavələrlə müəyyən olunur.

**Müvəqqəti müddəalar**

**Maddə 45.** Əlavədə sadalanan ölkələri təmsil edən bütün orqanlar Nizamnaməni qəbul etməkdən imtinalarını səlahiyyətli hökumət orqanları vasitəsilə bildirmirlərsə, Təşkilatın üzvləri sayılırlar. Belə bildiriş bu Nizamnamənin qüvvəyə mindiyi tarixdən 6 ay ərzində edilməlidir.

**Maddə 46.** İlk seçkilərdə püşkatma vasitəsilə səlahiyyət müddəti bir il olan Vitse-Prezident müəyyən edilir.

İcraiyyə Komitəsinə ilk seçkilərdə yenə də püşkatma vasitəsilə səlahiyyət müddəti bir il olan iki nümayəndə və səlahiyyət müddəti iki il olan iki nümayəndə müəyyən edilir.

**Maddə 46.** Baş Assambleya Beynəlxalq Cinayət Polisi Komissiyasında uzun müddət ərzində nöqsansız qulluq etmiş şəxsləri Beynəlxalq Cinayət Polisi Təşkilatında tutduğu vəzifələrə uyğun olan fəxri titullarla təltif edə bilər.

**Maddə 48.** Keçmiş Beynəlxalq Cinayət Polisi Komissiyasının bütün mülkiyyəti Beynəlxalq Cinayət Polisi Təşkilatına verilir.

**Maddə 49.** Bu Nizamnamədə aşağıdakı ifadələr qəbul olunmuşdur:

"Təşkilat" – Beynəlxalq Cinayət Polisi Təşkilatı;

"Nizamnamə" – Beynəlxalq Cinayət Polisi Təşkilatının Nizamnaməsi;

"Baş Katib" – Beynəlxalq Cinayət Polisi Təşkilatının Baş Katibi;

"Komitə" – Beynəlxalq Cinayət Polisi Təşkilatının İcraiyyə Komitəsi;

"Assambleya" və ya "Baş Assambleya" – Təşkilatın Baş Assambleyası;

"Üzv" (tək halda) və ya "Üzvlər" (cəm halda) 4-cü maddədə təyin edildiyi kimi, Beynəlxalq Cinayət Polisi Təşkilatının Üzvü və ya Üzvləri;

"Nümayəndə" (tək halda) və ya "Nümayəndələr"(cəm halda) – 7-ci maddədə nəzərdə tutulduğu kimi, ölkə nümayəndəliyinin təmsilçisi və ya təmsilçiləri;

"İcraiyyə Komitəsinin Nümayəndəsi" (tək halda) və ya "İcraiyyə Komitəsinin Nümayəndələri" (cəm halda) – İcraiyyə Komitəsinə seçilən şəxs və ya şəxslər.

**Maddə 50.** Bu Nizamnamə 13 iyun 1956-cı il tarixdən qüvvəyə minir.

### Beynəlxalq cinayət polisi təşkilatının (İnterpolun) üzv ölkələrinin siyahısı [289]

Avstraliya (1948); Avstriya (1923; 1948); Azərbaycan (1992); Albaniya (1991); Əlcəzair (1963); Anqola (1982); Andorra (1987); Antiqua və Barbuda (1986); Argentina (1947); Ermənistan (1992); Aruba (1987); Əfqanıstan (2002); Baham adaları (1973); Banqladeş (1976); Barbados (1981); Bəhreyn (1972); Belarus (1993); Beliz (1987); Belçika (1923; 1946); Benin (1961); Bolqarıstan (1989); Boliviya (1963); Bosniya və Herseqovina (1992); Botsvana (1980); Braziliya (1953; 1986); Bruney-Darussalam (1984); Burkina-Faso (1961); Burundi (1970); keçmiş Yuqoslaviya Respublikası Makedoniya (1993); Macarıstan (1923; 1946; 1981); Venesuela (1948); Vyetnam (1991); Qabon (1961); Haiti (1965); Qayana (1968); Qambiya (1986); Qana (1958); Qvatemala (1949); Qvineya (1961); Qvineya Bisau (1992); Almaniya (1923; 1952); Honduras (1974); Qrenada (1986); Yunanıstan (1923; 1946); Gürcüstan (1993); Danaya (1923; 1946); Konqo De-

mokratik Respublikası (1963); Cibuti (1980); Dominika (1981); Dominika Respublikası (1953); Misir (1923; 1946); Zambiya (1966); Zimbabve (1980); İsrail (1949); Hindistan (1949); İndoneziya (1952); İordaniya (1955); İraq (1967); İran (1923; 1946); İrlandiya (1931; 1947); İslandiya (1971); İspaniya (1926; 1951); İtaliya (1923; 1947); Yəmən (1976); Kabo-Verde (1989); Qazaxıstan (1992); Kamboca (1956); Kamerun (1961); Kanada (1961); Katar (1947); Keniya (1968); Kipr (1962); Çin (1984); Kolumbiya (1947; 1954); Komor adaları (1998); Konqo (1961); Kosta-Rika (1954); Kot-d'İvuar (1961); Kuba (1952); Küveyt (1965); Qırğızıstan (1996); Laos Xalq Demokratik Respublikası (1957); Latviya (1992); Lesoto (1971); Liberiya (1957); Livan (1949); Liviya Ərəb Cəmahiriyyəsi (1954); Litva (1991); Lixtenşteyn (1960); Lüksemburq (1937; 1946); Mavrikiyə (1969); Mavritaniya (1962); Madaqaskar (1961); Malavi (1966); Malayziya (1961); Mali (1969); Maldiv adaları (1984); Malta (1972); Mədinə (1957); Marşall adaları (1990); Meksika (1954); Mozambik (1989); Monako (1950); Monqolustan (1991); Myanma (1954); Namibiya (1992); Nauru (1971); Nepal (1967); Niger (1964); Nigeriya (1960); Niderland Antil adaları (1935; 1949); Niderland (1923; 1946); Nikaraqua (1965); Yeni Zelandiya (1954); Norveç (1931;1946); Tanzaniya Birləşmiş Respublikası (1962); Birləşmiş Ərəb Əmirlikləri (1973); Oman (1972); Pakistan (1952); Panama (1958); Papuas Yeni Qvineya (1976); Paraqvay (1977); Peru (1962); Polşa (1923; 1946; 1990); Portuqaliya (1924; 1946); Koreya Respublikası (1964); Moldova Respublikası (1994); Rusiya Federasiyası (1990); Ruanda (1974); Rumıniya (1923; 1973); Salvador (1993); San-lome və Prinsipi (1988); Səudiyyə Ərəbistanı (1955); Svazilend (1975); Seyşel adaları (1977); Seneqal (1961); Sent-Vinsent və Qrenadanı (1985); Sent-kito və Nevis (1987); Sent-Lyusiya (1983); Serbiya və Çernoqoriya (2001); Sinqapur (1968); Suriya Ərəb Respublikası (1953); Slovakiya (1993); Sloveniya (1992); Böyük Britaniya və Şimalı İrlandiya Birləşmiş Krallığı (1928; 1946); Amerika Birləşmiş Ştatları (1938; 1947); Somali (1975); Sudan (1956); Surinam (1953); Surra-leone (1962); Tailand (1951); Timor-leyti (2002); Toqo (1960); Tonqa (1979); Trinidad və Tobaqo (1964); Tunis (1957); Türkiyə (1930; 1946); Uqanda 91966); Özbəkistan (1994); Ukrayna (1992); Uruqvay (1955); Fici (1971); Filippin (1952); Finlandiya (1928; 19470); Fransa (1923; 1946); Xorvatiya (1992); Mərkəzi Afrika Respublikası (1965); Çad (1962); Çexiya Respublikası (1993); Çili (1946); İsveçrə (1923; 1946); İsveç (1923; 1946); Şri-Lanka (1950); Ekvador (1936; 1947; 1962); Ekvatorial Qvineya (1980); Eritreya (1992); Efiopiya (1958); Cənubi Afrika (1993); Yamayka (1963); Yaponiya (1953).

**Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpola üzv ölkələrin ümumi siyahısı**

| № | Yeri | Tarixi | № | Yeri | Tarixi |
|---|---|---|---|---|---|
| 1. | Avstraliya | 1948 | 31. | Bosniya və Her-seqovina | 1992 |
| 2. | Avstriya | 1923 | 32. | Botsvana | 1980 |
| 3. | Azərbaycan | 1992 | 33. | Braziliya | 1983 |
| 4. | Albaniya | 1991 | 34. | Bruney | 1984 |
| 5. | Əlcəzair | 1963 | 35. | Burkina-Faso | 1961 |
| 6. | Anqola | 1982 | 36. | Burunli | 1970 |
| 7. | Antiqua-Barbuda | 1986 | 37. | Butan | 2005 |
| 8. | Argentina | 1947 | 38. | Vatikan | 2008 |
| 9. | Ermənistan | 1992 | 39. | Böyük Britaniya | 1928 |
| 10. | Aruba | 1987 | 40. | Macarıstan | 1923,1946, 1981 |
| 11. | Əfqanıstan | 2002 | 41. | Venesuela | 1948 |
| 12. | Baqam adaları | 1972 | 42. | Şərqi Timor | 2002 |
| 13. | Banqladeş | 1976 | 43. | Vyetnam | 1991 |
| 14. | Barbados | 1981 | 44. | Qabon | 1961 |
| 15. | Bəhreyn | 1972 | 45. | Haiti | 1965 |
| 16. | Belarus | 1993 | 46. | Hayana | 1968 |
| 17. | Beliz | 1987 | 47. | Qambiya | 1986 |
| 18. | Belçika | 1923 | 48. | Qana | 1958 |
| 19. | Benin | 1961 | 49. | Qvatemala | 1949 |
| 20. | Bolqariya | 1989 | 50. | Qvineya | 1961 |
| 21. | Boliviya | 1963 | 51. | Qvineya-bisau | 1992 |
| 22. | Almaniya | 1923 | 52. | İspaniya | 1926, 1951 |
| 23. | Honduras | 1974 | 53. | İtaliya | 1923, 1947 |
| 24. | Qrenada | 1986 | 54. | Yəmən | 1976 |
| 25. | Yunanıstan | 1923 | 55. | Kabo-Verde | 1989 |
| 26. | Gürcüstan | 1993 | 56. | Qazaxıstan | 1992 |
| 27. | Danimarka | 1923, 1946 | 57. | Kamboca | 1961 |
| 28. | Cibuti | 1980 | 58. | Kamerun | 1961 |
| 29. | Dominika | 1981 | 59. | Kanada | 1961 |
| 30. | Dominikan Res-publikası | 1953 | 60. | Qətər | 1947 |

| № | Yeri | Tarixi | № | Yeri | Tarixi |
|---|---|---|---|---|---|
| 61. | Misir | 1923, 1946 | 87. | Keniya | 1968 |
| 62. | Zambiya | 1966 | 88. | Kipr | 1962 |
| 63. | Zimbabve | 1980 | 89. | Qırğızstan | 1996 |
| 64. | İsrail | 1949 | 90. | Çin Xalq Respublikası | 1984 |
| 65. | Hindistan | 1949 | 91. | Kolumbiya | 1947, 1954 |
| 66. | İndoneziya | 1952 | 92. | Komor Adaları | 1998 |
| 67. | İordaniya | 1955 | 93. | Konqo Demokratik Respublikası | |
| 68. | İraq | 1967 | 94. | Konqo Respublikası | 1961 |
| 69. | İran | 1923, 1946 | 95. | Koreya Respublikası | 1964 |
| 70. | İrlandiya | 1935,1947 | 96. | Kosto-Rika | 1954 |
| 71. | İslandiya | 1971 | 97. | Kot-d,vuar | 1961 |
| 72. | Kuba | 1952 | 98. | Monako | 1950 |
| 73. | Küveyt | 1965 | 99. | Monqolustan | 1991 |
| 74. | Kurasavo | | 100. | Mozambik | 1989 |
| 75. | Laos | 1957 | 101. | Myamo | 1954 |
| 76. | Latviya | 1992 | 102. | Namibiya | 1992 |
| 77. | Lesoto | 1971 | 103. | Nauru | 1971 |
| 78. | Liberiya | 1957 | 104. | Nepal | 1967 |
| 79. | Livan | 1949 | 105. | Niger | 1964 |
| 80. | Liviya | 1954 | 106. | Nigeriya | 1960 |
| 81. | Litva | 1991 | 107. | Niderland | 1923, 1946 |
| 82. | Lixtenşteyn | 1969 | 108. | Nikaraqua | 1965 |
| 83. | Lüksemburq | 1937,1946 | 109. | Yeni Zelandiya | 1954 |
| 84. | Mavriki | 1969 | 110. | Norveç | 1931, 1946 |
| 85. | Mavritaniya | 1962 | 111. | Birləşmiş Ərəb Əmirlikləri | 1973 |
| 86. | Madaqaskar | 1961 | 112. | Oman | 1972 |

| № | Yeri | Tarixi | № | Yeri | Tarixi |
|---|---|---|---|---|---|
| 113 | Makedoniya Respublikası | 1993 | 137. | Pakistan | 1952 |
| 114 | Malavi | 1966 | 138. | Panama | 1958 |
| 115 | Malaziya | 1961 | 139. | Papua-yeni Qvineya | 1976 |
| 116 | Mali | 1969 | 140. | Paraqvay | 1977 |
| 117 | Maldiva | 1984 | 141. | Peru | 1962 |
| 118 | Malta | 1972 | 142. | Polşa | 1923, 1946, 1990 |
| 119 | Mərakeş | | 143. | Portuqaliya | 1924, 1946 |
| 120 | Marşalov Adaları | 1990 | 144. | Rusiya Federasiyası | 1990 |
| 121 | Meksika | 1954 | 145. | Ruanda | 1974 |
| 122 | Moldaviya | 1994 | 146. | Rumıniya | 1923, 1973 |
| 123 | Salvador | 1993 | 147. | Toqo | 1960 |
| 124 | Samoa | | 148. | Tonqa | 1979 |
| 125 | San-Marino | 2006 | 149. | Trinidad və Tobaqo | 1964 |
| 126 | San-Tome və Prinsini | 1988 | 150. | Tunis | 1957 |
| 127 | Səudiyyə Ərəbistanı | 1955 | 151. | Türkmənistan | 2005 |
| 128 | Svazilend | 1975 | 152. | Türkiyə | 1930, 1946 |
| 129 | Seyşel Adaları | 1977 | 153. | Uqanda | 1966 |
| 130 | Seneqal | 1961 | 154. | Özbəkistan | 1994 |
| 131 | Sent-Vinsent və Qrenadinlər | 1985 | 155. | Ukrayna | 1992 |
| 132 | Sent-kis və Nevis | 1987 | 156. | Uruqvay | 1955 |
| 133 | Sent-Lyusiya | 1983 | 157. | Fici | 1971 |
| 134 | Serbiya | 2001 | 158. | Filippin | 1952 |
| 135 | Sinqapur | 1968 | 159. | Finlandiya | 1928, 1947 |
| 136 | Sin-Marten | | 160. | Fransa | 1923, 1946 |

| № | Yeri | Tarixi | № | Yeri | Tarixi |
|---|---|---|---|---|---|
| 161 | Suriya | 1953 | 178. | Çad | 1967 |
| 162 | Slovakiya | 1993 | 179. | Çernoqoriya | 2006 |
| 163 | Sloveniya | 1992 | 180. | Çexiya Respublikası | 1993 |
| 164 | Amerika Birləşmiş Ştatları | 1938-1947 | 181. | Çili | 1946 |
| 165 | Somali | 1975 | 182. | İsveçrə | 1923,1946 |
| 166 | Sudan | 1956 | 183. | İsveç | 1923,1946 |
| 167 | Surinam | 1953 | 184. | Şri-Lanka | 1950 |
| 168 | Syerra-Leone | 1962 | 185. | Ekvador | 1936, 1947 |
| 169 | Tacikistan | 2004 | 186. | Ekvator Qvineyası | 1980 |
| 170 | Tailand | 1951 | 187. | Cənubi Sudan | 2011 |
| 171 | Tanzaniya | 1962 | 188. | Yamayka | 1953 |
| 172 | Eritreya | 1992 | 189. | İslandiya | 1971 |
| 173 | Estoniya | 1992 | 190. | Yaponiya | 1953 |
| 174 | Efiopiya | 1958 | 191. | Kiribati | 2018 |
| 175 | Cənubi Afrika Respublikası | 1993 | 192. | Vanuatu | 2018 |
| 176 | Xorvatiya | 1992 | 193. | | |
| 177 | Mərkəzi Afrika Respublikası | 1965 | 194. | | |

**Beynəlxalq Cinayət Polisi Təşkilatı – İnterpolun Baş Assambleyasının hər il keçirilən sessiyaları**

| № | Yeri | İli | № | Yeri | İli |
|---|---|---|---|---|---|
| 1 | Vyana | 1923 | 34 | Rio-de-Janeyro | 1965 |
| 2 | Berlin-Vyana | 1924 | 35 | Bern | 1966 |
| 3 | Berlin | 1926 | 36 | Kioto | 1967 |
| 4 | Amsterdam | 1927 | 37 | Tehran | 1968 |
| 5 | Antverpen-Bern | 1928 | 38 | Meksika | 1969 |
| 6 | Vyana | 1930 | 39 | Brüssel | 1970 |
| 7 | Antverpen | 1930 | 40 | Ottava | 1971 |
| 8 | Paris | 1931 | 41 | Frankfurt | 1972 |
| 9 | Roma | 1932 | 42 | Vyana | 1973 |
| 10 | Vyana | 1934 | 43 | Kann | 1974 |
| 11 | Kopenhagen | 1935 | 44 | Buenos-Ayres | 1975 |
| 12 | Belqrad | 1936 | 45 | Akkra | 1976 |
| 13 | London | 1937 | 46 | Stokholm | 1977 |
| 14 | Buxarest | 1938 | 47 | Panama-Siti | 1978 |
| 15 | Brüssel | 1946 | 48 | Nayrobi | 1979 |
| 16 | Paris | 1947 | 49 | Manila | 1980 |
| 17 | Praqa | 1948 | 50 | Nitsşe | 1981 |
| 18 | Bern | 1949 | 51 | Torremolinos | 1982 |
| 19 | Haaqa | 1950 | 52 | Kann | 1983 |
| 20 | Lissabon | 1951 | 53 | Kirxbern | 1984 |
| 21 | Stokholm | 1952 | 54 | Vaşinqton | 1985 |
| 22 | Oslo | 1953 | 55 | Belqrad | 1986 |
| 23 | Roma | 1954 | 56 | Niçşe | 1987 |
| 24 | İstanbul | 1955 | 57 | Banqkok | 1988 |
| 25 | Vyana | 1956 | 58 | Lion | 1989 |
| 26 | Lissabon | 1957 | 59 | Ottava | 1990 |
| 27 | London | 1958 | 60 | Punta-del-Este | 1991 |
| 28 | Paris | 1959 | 61 | Dakar | 1992 |
| 29 | Vaşinqton | 1960 | 62 | Aruba | 1993 |
| 30 | Kopenhagen | 1961 | 63 | Roma | 1994 |
| 31 | Madrid | 1962 | 64 | Pekin | 1995 |
| 32 | Helsinki | 1963 | 65 | Antalya | 1996 |
| 33 | Karakas | 1964 | 66 | Nyu-Dehli | 1997 |

| № | Yeri | İli | № | Yeri | İli |
|---|---|---|---|---|---|
| 67 | Qahirə | 1998 | 76 | Mərakeş | 2007 |
| 68 | Seul | 1999 | 77 | Sankt-Peterburq | 2008 |
| 69 | Rodos | 2000 | 78 | Sinqapur | 2009 |
| 70 | Budapeşt | 2001 | 79 | Doxa | 2010 |
| 71 | Yanude | 2002 | 80 | Hanoy | 2011 |
| 72 | Benidorm | 2003 | 81 | Roma | 1012 |
| 73 | Kankun | 2004 | 82 | Kartaxene | 2013 |
| 74 | Berlin | 2005 | 83 | Monoqoa | 2014 |
| 75 | Rio-de Janeyro | 2006 | | | |

## BEYNƏLXALQ CİNAYƏT POLİSİ TƏŞKİLATI – İNTERPOL [289]



## İNTERPOLUN AZƏRBAYCANDA MİLLİ MƏRKƏZİ BÜROSUNUN STRUKTURU [18]



## AZƏRBAYCAN RESPUBLİKASINDA İNTERPOLUN MİLLİ MƏRKƏZİ BÜROSUNUN QARŞILIQLI ƏLAQƏSİ [18]






***Nəticə:*** Qeyd olunduğu kimi, cinayətkarlıqla beynəlxalq mübarizədə bilavasitə praktik fəaliyyət göstərən İnterpol çərçivəsində dövlətlərin əməkdaşlığı Milli Mərkəzi Bürolar vasitəsilə həyata keçirilir.

## AZƏRBAYCAN RESPUBLİKASINDA İNTERPOLUN MİLLİ MƏRKƏZİ BÜROSUNUN STRUKTURUNUN I SXEMİ [48]




**Qeyd:** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 140 saylı 27 mart 1995-ci il tarixli əmri ilə, Azərbaycan Respublikasında İnterpolun Əsasnaməsi tətbiq edilmişdir.




**Qeyd:** MMB-nin yuxarıda göstərilən və hal-hazırda fəaliyyət göstərən strukturu Azərbaycan Respublikası DİN-in 1 aprel 2003-cü tarixli 131 saylı əmri ilə, maliyyə hissəsi isə DİN-in 28 fevral 2012-ci il tarixli Ə-125-007-12 saylı əmri ilə tənzimlənir. Göstərilən əmrlə maliyyə hissəsi mühasibatlıqla əvəz olunmuşdur.

# CİNAYƏTKARLIQLA MÜBARİZƏDƏ BEYNƏLXALQ HƏMRƏYLİK [48, s.181-214]

| Beynəlxalq hüququn əsasları | | | |
|---|---|---|---|
| Dövlətlərarası razılaşma | | | Beynəlxalq təşkilatların fəaliyyətləri |
| Univer-sal konven-siyalar | Regio-nal konven-siyalar | Cinayət işlərində hüquqi yardım üzrə ikitərəfli razılaşma | BMT-nın sistemində: cinayətkarlığın qarşısını alma və ədalət məhkəməsi komissiyası və onun konqresi, cinayət-karlığın ayrı-ayrı növləriylə mübarizədə beynəlxalq və xüsusi komitələr, İnterpol və başqa qeyri-hökumət və ictimai təşkilatlar. |

| Cinayət məsuliyyətinin təyini | |
|---|---|
| **Beynəlxalq cinayətlər üzrə** | **Beynəlxalq Baş cinayət axtarışı cinayətləri üzrə** |
| ***Dünyaya qarşı:*** təcavüzkar müharibələrin planlaşdırılması, hazırlığı və yaxud həyata keçirilməsi. ***İnsanlığa qarşı:*** əhaliyə qarşı göstərilən ölüm, güllələmə, sürgün və başqa qəddarlıqlar və yaxud vətən-daşların təqib edilməsi və s. ***İnsanlara qarşı:*** genosid, irqçilik, müstəmləkəçilik və s. | ***Beynəlxalq əlaqələrin asayişinə qarşı:*** terrorçuluq, girov, muzdlu və başqaları. ***Dövlətin iqtisadi və sosial inkişafına ziyan gətirən:*** Saxta pul, qaçaqçılıq, ətraf mühitə qarşı hərəkət və başqaları. ***İnsanın şəxsi hüquqlarına qarşı qəsd edən:*** köləlik, insan alveri, pornoqrafiyanın yayılması və başqaları. ***Dənizdə edilən:*** gəmilərin toqquşması, maddi kömək göstərməmək. |

## MƏHKUM OLUNMUŞ ŞƏXSLƏRİN VERİLMƏSİ
**(Azadlıqdan məhrum olunmuş şəxslərin vətəndaşı olduğu ölkədə cəzasının çəkilməsi üçün verilməsi konvensiyasına əsasən)**

Məhkum olunmuş şəxslərin verilməsi:

- Yeri mövcuddur
  - Hökmün qanuna mindiyi andan sonra
  - Konvensiya iştirakçısı olan ölkələrin razılığı əldə olduğu zaman
- Yerinə yetirilmir
  - Əgər, olkənin vətəndaşlıq qanunvericiliyinə görə, məhkum olunmuş şəxsın mövcud hərəkəti cinayət sayılmırsa
  - Əgər, məhkum öz ölkəsində mövcud hərəkətinə görə, cəzasını çəkmiş və ya bəraət qazanmış və yaxud iş bağlanmışdır
  - Əgər, məhkum olunmuş şəxsin olkəsində müddətin bitiyinə və yaxud başqa əsaslara görə, cəzanın icrası mümkün deyilsə
  - Əgər, hökmün çıxarıldığı yerdə məhkumun daimi yaşayış yeri mövcuddursa
  - Əgər, baxılan konvensiyada verilmə şərtlərində razılıq əldə edilməmişsə

## İNTERPOLUN BEYNƏLXALQ AXTARIŞI

**Cinayətkarların axtarışı**

- **Adi axtarış**
  *"Qırmızı göstəriş"* tutulma tələbi ilə İnterpolun üzvü olan bütün ölkələrə göndərilir
- **3 ay müddətinə təcili axtarış**
  Tutulma haqqında tələb radio və teleqraf vasitəsilə həmin ərazinin bütün ölkələrinə və yaxud bir neçə dövlətlərə göndərilir

**Cinayətkarların və şübhəli şəxslərin davranışlarını müşahidə etmək üçün onların axtarışı**

- **Adi axtarış**
  ***"Yaşıl göstəriş"*** davranışı müşahidə və səlahiyyətli orqanlara məlumat vermə tələbi ilə
- **Qarışıq axtarış**
  ***"Qırmızı və Yaşıl göstəriş",*** birlikdə, bir ölkədə tutmaq, digər ölkədə müşahidə tələbi ilə

**Itkin düşənlərin axtarışı**

- ***" Göy göstəriş"*** axtarış tələbi ilə İnterpolun üzvü olan bütün ölkələrə göndərilir, bundan əlavə itkin düşmüş şəxslərin kartotekası istifadə olunur
- ***"Qara göstəriş"*** meyitin şəklə görə tanınması tələbi ilə İnterpolun üzvü olan bütün ölkələrə göndərilir. Bundan başqa, tanınmamış meyitin kartotekası istifadə olunur

**Oğurlanmış qiymətli əşyaların axtarışı**

- Oğurlanmış əşyaların şəkillərilə xüsusi buraxılmış büllütenlərdən, həmçinin xüsusi kartotekalardan və EBM-in verilənlər bankından istifadə

## HÜQUQ POZUCUSUNUN TƏSLİMİ



**BEYNƏLXALQ HÜQUQ POZUNTUSUNUN NÖVLƏRİ**

Beynəlxalq hüquq pozuntusu

| Beynəlxalq cinayət | Beynəlxalq xarakterli cinayət | Beynəlxalq deliktlər |
|---|---|---|

**Beynəlxalq cinayətlərin beynəlxalq xarakterli cinayətlərdən fərqi**

| Ölçülərin həddi | Beynəlxalq cinayət | Beynəlxalq xarakterli cinayət |
|---|---|---|
| Subyekt | Dövlət, onların məsul şəxsləri, dövlət mexanizmini cinayətkar məqsədlər üçün istifadə edənlər, həmçinin sıravi icraçılar | Fiziki şəxslər |
| Obyekt | Beynəlxalq sülh və təhlükəsizlik, bütün insanlığın marağı | Bir və ya bir neçə dövlətlərin maraqları |
| Məsuliyyət | Beynəlxalq hüquq və cinayəti axtaran idarə subyekti kimi dövlətin məsuliyyəti | Şəxsi cinayət məsuliyyəti |
| Yurisdiksiya (tabelik) | Beynəlxalq və dövlətdaxili | Dövlətdaxili |

## CİNAYƏT İŞLƏRİNDƏ HÜQUQİ KÖMƏK

**Cinayət işləri üzrə hüquqi kömək** – Beynəlxalq müqavilələrin müddəalarına müvafiq olaraq, xarici dövlətlərin Ədliyyə idarələrinin verdiyi sorğu əsasında, dövlət hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən prosessual fəaliyyətdir.

Hüquqi köməyin əhatəsi

- Sənədlərin təqdimi
- Ünvan və başqa məlumatların müəyyən edilməsi
- Axtarış təqibinin həyata keçirilməsi
- Şəxslərin axtarışı (məsuliyyətə cəlb etmək, təslimin təmin edilməsi və ya hökmün icra edilməsi üçün)
- Təslim etmək üçün şəxslərin həbs edilməsi
- Hüquq pozucusunun təslimi
- Axtarış, zəbt etmə, müsadirə, həbsin aparılması
- Ekpertizanın aparılması
- Əşyaların təhvil verilməsi
- Şahidlərin, ziyançəkənlərin, ekspertlərin və başqa proses iştirakçılarının istintaqı
- Müttəhimlərin, şahidlərin, ziyançəkənlərin, ekspertlərin və proseslə əlaqəsi olan başqa şəxslərin çağırılması
- Ittihamnamə və mühakimə olunma şəhadətnaməsi haqqında bildiriş
- Hüquq məsələləri haqqında informasiya mübadiləsi
- Azadlıqdan məhrum edilmiş şəxslərin vətəndaşı olduğu ölkəyə cəzasının çəkilməsi üçün təhvil verilməsi
- Xarici dövlət məhkəməsi tərəfindən çıxarılmış hökmün RF tərəfindən tanınması


RUSİYA FEDERASİYASINDA
İNTERPOLUN MMB-nın STRUKTURU
MMB-nun rəisi
Katiblik
Rəsi müavini
Rəis müavini (o, şöbə rəisi deyil)
Informasiyanın analizi və emalı
İnformasiyanın operativ surətdə emalı
Analitik informasiya şöbəsi
Baş axtarış cinayətləri və beynəlxalq axtarış şöbəsi
Mühit və müəyyənləşdirilən cinayətlər şöbəsi
Şəxsiyyətə və beynəlxalq axtarışa qarşı cinayətlər şöbəsi
Redaksiya-nəşr qrupu
Texniki təminat şöbəsi
Avtomatlaşdırılmış sistemlər şöbəsi
Telerabitə qrupu

## CİNAYƏTKARLARIN TƏHVİLİ

**Hüquqi əsaslar**

- Ayrı-ayrı beynəlxalq cinayətlərə qarşı mübarizə üzrə beynəlxalq razılaşmalar;
- cinayət işləri üzrə ektradisiya və hüquqi kömək haqqında ikitərəfli razılaşma;
- milli qanunvericiik normaları;
- qarşılıq prinsipləri;

**Təhvil vermə şərtləri**

- Edilən əməl təhvil haqqında müqavilədə nəzərdə tutulmuşdur;
- hər iki ölkənin cinayət qanunvericiliyinə görə, edilən əməl bir il və daha çox müddətdə azadlıqdan məhrum edilməklə cəzalandırılır;
- təhvil verilən şəxs ancaq məlum cəzaya görə ittiham olunacaq;
- əgər, təhvil verən ölkənin qanununda nəzərdə tutulmayıbsa, "ölüm cəzası" tətbiq edilməyəcək.

**Təhvilə aid deyil**

- Xüsusi vətəndaşlar;
- Xüsusi və ya siyasi cinayət işləri üzrə;
- Cinayət təhvil vermə xahişi ilə müraciət olunan ölkədə baş veribsə;
- Məhkəmə tərəfindən bəraət qazanmış, sığınacaq hüququ almış və ya etdiyi əmələ görə cəzasını çəkmiş şəxslərə;
- Müddətin bitiyinə görə cinayət işinin bitməsi və s.

**Təhvilin qaydaları**

- Təhvil haqqında göndəriş;
- cinayətkarı həbs etmək, diplomatik kanallar vasitəsilə danışıqlar aparmaq;
- xərclərin ödənilməsi şərtilə müəyyən qayda əsasında cinayətkarın təhvili.

*Cədvəl 1.*

**Xaricdə cinayət törətmiş, İnterpol xətti ilə axtarışda olan Azərbaycan Respublikası vətəndaşları**

| **İllər** | **1993** | **1994** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi:** | 57 | 112 | 179 | 123 | | | | |
| Qadınlar | 9 | 17 | 28 | 16 | | | | |
| Məhkum olunmuşlar | 4 | 8 | 2 | 4 | | | | |
| 16 yaşa qədər | - | - | 1 | - | | | | |
| 16-21 yaş | 4 | 4 | 11 | 6 | | | | |
| 21-31 yaş | 25 | 45 | 72 | 59 | | | | |
| 31-51 yaş | 27 | 52 | 86 | 44 | | | | |
| 51-dən yuxarı | 1 | 3 | 5 | 1 | | | | |
| Təyin olunma-mışdır | - | 8 | 4 | 13 | | | | |

**Xaricdə cinayət törətmiş, İnterpol xətti ilə axtarışda olan Azərbaycan Respublikası vətəndaşları (cinayətin növünə və ölkəsinə görə)**

| İllər / Növü | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|---|
| Oğurluq | 3 | 20 | 13 | 8 | | | | |
| Narkotik | 29 | 20 | 6 | 13 | | | | |
| Saxta əskinas | 2 | 4 | - | 4 | | | | |
| Ölüm | 2 | 10 | 13 | 15 | | | | |
| Silah | 1 | - | - | 9 | | | | |
| Qaçaqmal | 5 | 15 | 52 | - | | | | |
| Fahişəlik | - | 4 | 16 | 5 | | | | |
| Etiraz | 15 | 39 | 79 | 69 | | | | |

| İllər / Ölkələr | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 42 | 55 | 115 | 26 | | | | |
| İran | 1 | - | 7 | 3 | | | | |
| Rusiya | 3 | 23 | 29 | 36 | | | | |
| Ukrayna | - | 1 | 5 | 2 | | | | |
| Estoniya | 2 | - | 2 | - | | | | |
| Belarusiya | - | 3 | - | - | | | | |
| Polşa | - | 3 | - | - | | | | |
| Macarıstan | 2 | - | - | - | | | | |
| İsveçrə | 1 | - | - | - | | | | |
| İsrail | 1 | - | - | - | | | | |
| Almaniya | 1 | - | - | - | | | | |

**İnterpol xətti ilə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının təşəbbüsü ilə axtarışda olan Azərbaycan Respublikası vətəndaşları**

| İllər<br>Cinayət | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi:** | 2 | 20 | 17 | 34 | | | | |
| Ölüm | 1 | 2 | 4 | 4 | | | | |
| İnsan oğurluğu | 1 | 3 | 4 | 4 | | | | |
| Oğurluq | - | 6 | - | 6 | | | | |
| Silahlanma | - | 1 | 2 | 3 | | | | |
| Qaçaqmalçılıq | - | 1 | - | - | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Rusiya Dövləti Baş Axtarış İdarəsi,<br>Daxili İşlər Nazirliyi | - | - | 1 | - | | | | |
| | - | - | - | 1 | | | | |
| | 1 | - | 2 | - | | | | |
| | - | - | 1 | - | | | | |
| Nizami Rayon Polis İdarəsi | - | 1 | 1 | - | | | | |
| Nəsimi Rayon Polis İdarəsi | - | 5 | 1 | - | | | | |
| Səbail Rayon Polis İdarəsi | - | 2 | - | - | | | | |
| Xətai Rayon Polis İdarəsi | - | 1 | - | - | | | | |
| Tovuz Rayon Polis İdarəsi | 1 | - | - | - | | | | |
| Respublika Prokurorluğu | - | 2 | - | 5 | | | | |
| Astara Prokurorluğu | - | - | - | 3 | | | | |
| Cəlilabad Prokurorluğu | - | - | - | 2 | | | | |
| Füzuli Prokurorluğu | - | - | - | 1 | | | | |
| Başqa Hüquq mühafizə orqanları | - | 9 | 11 | 22 | | | | |

## Azərbaycan Respublikası vətəndaşları olmayan İnterpol xətti ilə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının təşəbbüsü ilə axtarışda olan vətəndaşlar

| **İllər**<br>**Cinayətlər** | **1993** | **1994** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi:** | 1 | 1 | 5 | 6 | | | | |
| İnsan oğurluğu | - | - | 1 | - | | | | |
| Oğurluq | - | 1 | - | 1 | | | | |
| Silah | - | - | - | 2 | | | | |
| Qacaqmalçılıq | - | - | 1 | - | | | | |
| İlaxır | 1 | - | 3 | 3 | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Nizami Rayon Polis İdarəsi | 1 | - | - | - | | | | |
| Qaradağ Rayon Polis İdarəsi | - | - | 1 | - | | | | |
| Başqa – Hüquq-mühafizə orqanları | - | 1 | 4 | 6 | | | | |

## 2007-2008-ci illərdə Azərbaycan Respublikasında İnterpolun MMB-nin xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli

| № | Göstəricilər | 2007 | 2008 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 7970 | 7636 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 8786 | 8606 |
| 3 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslər barəsində icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 396 | 460 |
| 4 | Respublika hüquq-mühafizə orqanlarından daxil olmuş axtarış tapşırıqları elanında İnterpol kanalları ilə beynəlxalq axtarış elan olunmuş təqsirləndirilən və itkin düşmüş şəxslərin sayı | 85 | 159 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarılan və İnterpolun üzvü olan ölkələrdə yeri müəyyən edilmiş şəxslərin sayı<br>O cümlədən;<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>İtkin düşmüş şəxslərlə bağlı | 29<br><br>28<br>1 | 55<br><br>53<br>2 |
| 6 | İnterpolun üzvü olan ölkələrdə axtarılan və yerləri respublika ərazisində müəyyən edilmiş şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərin sayı<br>İtkin düşmüş şəxslərin sayı | 17<br><br>16<br>1 | 20<br><br>19<br>1 |
| 7 | Nəşr edilmiş istiqamətləndirmələrin sayı: | 37 | 192 |
| | Qırmızı (təqsirləndirilən şəxslər) | 27 | 174 |
| | Sarı (itkin düşənlər) | 9 | 15 |
| | Qara (tanınmamış meyitlər) | 7 | 3 |
| 8 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 50936 | 57635 |
| 9 | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 48 | 30 |

**2008-2009-cu illər ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər illər | 2008 | 2009 |
|---|---|---|---|
| 1. | MMB-yə daxil olan sənədlərin sayı | 7636 | 7860 |
| 2. | MMB tərəfindən göndərilən sənədlərin sayı | 8606 | 9987 |
| 3. | Tərcümə olunan sənədlərin sayı | 5514 | 6696 |
| 4. | Təqsirləndirilən və itkin düşən şəxslərlə bağlı Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslər barədə icraatda olan ümumi axtarış sənədlərinin sayı | 460 | 554 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 400 | 497 |
| | Itkin düşən şəxslərlə bağlı | 60 | 57 |
| 5. | İl ərzində Beynəlxalq axtarışda olan şəxslərin sayı | 148 | 170 |
| 6. | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İnterpolun üzvü olan ölkələrdə yerləri müəyyən edilmiş şəxslərin sayı | 55 | 68 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 53 | 67 |
| | Itkin düşən şəxslərlə bağlı | 2 | 1 |
| 7. | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən edilmiş şəxslərin sayı | 20 | 26 |
| 8. | Nəşr edilmiş istiqamətləndirilmələrin sayı | 20 | 26 |
| | O cümlədən: | | |
| | Qırmızı (təqsirləndirilən şəxslər) | 174 | 184 |
| | Sarı (itkin düşmüş şəxslər) | 15 | 11 |
| | Qara (tanınmamış şəxslər) | 3 | 1 |
| 9. | Eyniləşdirilməsi ilə bağlı olan, İnterpola üzv olan ölkələrdən daxil olan sorğular əsasında yoxlanılan şəxslərin sayı | 788 | 931 |
| 10. | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 57635 | 41250 |
| 11. | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 30 | 25 |
| 12. | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 6 | 14 |

**2007-2008-ci ilin I yarımilliyi ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2007 | 2008 |
|---|---|---|---|
| 1. | MMB-yə daxil olan sənədlərin sayı | 4023 | 3806 |
| 2. | MMB tərəfindən göndərilən sənədlərin sayı | 4375 | 4179 |
| 3. | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı, respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərin icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 369 | 457 |
| 4. | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı İnterpolun üzvü olan ölkənin hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərin icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 311 | 195 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı itkin düşən şəxslərlə bağlı | 2 | 4 |
| 5. | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı MMB-dən daxil olmuş axtarış tapşırıqlarının sayı | 57 | 85 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 51 | 75 |
| | Itkin düşən şəxslərlə bağlı | 6 | 10 |
| 6. | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı İnterpolun üzvü olan ölkələrdən daxil olan axtarış tapşırıqlarının sayı | 222 | 71 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | | |
| | Itkin düşən şəxslərlə bağlı | | |
| | sənədlərin sayı | 216 | 66 |
| 7. | Respublika-hüquq mühafizə orqanları tərəfindən axtarışda olan və İnterpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı | 17 | 32 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 17 | 31 |
| | Itkin düşən şəxslərlə bağlı | 1 | 1 |
| 8. | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı | 13 | 17 |

| № | Göstəricilər / illər | 2007 | 2008 |
|---|---|---|---|
| | O cümlədən:<br>Təqsirləndirilən şəxslərin sayı<br>İtkin düşən şəxslərin sayı | <br>12<br>1 | <br>16<br>1 |
| 9. | Azərbaycan Respublikasından ekstradisiya olunmuş şəxslərin sayı | 4 | 3 |
| 10. | Azərbaycan Respublikasından deportasiya edilmiş şəxslərin sayı | 2 | - |
| 11. | Nəşr edilmiş istiqamətləndirmələrin sayı<br>O cümlədən:<br>Qırmızı (təqsirləndirilən şəxslər)<br>Sarı (itkin düşmüş şəxslər)<br>Qara (tanınmamış şəxslər) | 20-<br><br>14<br>6 | 83-<br><br>71<br>9 |
| 12. | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 22656 | 26485 |
| 13. | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 21 | 21 |

**2007-2008-ci ilin I rübü ərzində**
**Azərbaycan Respublikasında İnterpolun MMB-nun**
**xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2007 | 2008 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 3 | 4 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 1713 | 1768 |
| 3 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərin icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 343 | 438 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 304 | 379 |
| | Itkin düşən şəxslərlə bağlı | 39 | 59 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı İnterpolun üzvü olan ölkənin hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərin icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 247 | 180 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | | |
| | Itkin düşən şəxslərlə bağlı | | |
| 5 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanlarından daxil olmuş axtarış tapşırıqlarının sayı | 29 | 55 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 29 | 48 |
| | Itkin düşən şəxslərlə bağlı | - | 7 |
| 6 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı İnterpolun üzvü olan ölkələrdən daxil olan axtarış tapşırıqlarının sayı | 106 | 33 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 104 | 33 |
| | Itkin düşən şəxslərlə bağlı | 2 | - |
| 7 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı | 10 | 18 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 10 | 17 |
| | Itkin düşən şəxslərlə bağlı | - | 1 |

| № | Göstəricilər / illər | 2007 | 2008 |
|---|---|---|---|
| 8 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı | 6 | 9 |
| 9 | Azərbaycan Respublikasından ekstradisiya olunmuş şəxslərin sayı | - | - |
| 10 | Nəşr edilmiş istiqamətləndirilmələrin sayı<br>O cümlədən:<br>Qırmızı (təqsirləndirilən şəxslər)<br>Sarı (itkin düşmüş şəxslər)<br>Qara (tanınmamış şəxslər) | -<br><br>11<br>4<br>- | -<br><br>66<br>44<br>- |
| 11 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 10244 | 11177 |
| 12 | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 10 | `10 |

**2008-2009-cu illər ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nun xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2008 | 2009 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 7636 | 7860 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 8606 | 9987 |
| 3 | Tərcümə olunan sənədlərin sayı<br>O cümlədən:<br>Daxil olan<br>Göndərilən | 5514<br><br>2243<br>3271 | 6696<br><br>3012<br>3684 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı Respublika Hüquq Mühafizə Orqanları tərəfindən axtarışda olan şəxslər barədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 460<br><br>400<br>60 | 554<br><br>497<br>57 |
| 5 | İl ərzində Beynəlxalq Axtarışa elan olunmuş şəxslərin sayı | 145 | 170 |
| 6 | Respublika Hüquq Mühafizə Orqanları tərəfindən axtarışda olan və İnterpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı | 55 | 65 |
| | O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | <br>53<br>2 | <br>67<br>1 |
| 7 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri Respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 20<br><br>19<br>1 | 26<br><br>23<br>3 |
| 8 | Nəşr edilmiş istiqamətləndirilmələrin sayı<br>O cümlədən<br>Qırmızı (təqsirləndirilən şəxslər)<br>Sarı (itkin düşmüş şəxslər)<br>Qara (tanınmamış şəxslər) | 192<br><br>174<br>3<br>- | 196<br><br>184<br>1<br>- |
| 9 | Eyniləşdirilməsi ilə bağlı olan İnterpola üzv olan ölkələrdən daxil olan sorğular əsasında yoxlanılan | 788 | 931 |

| № | Göstəricilər illər | 2008 | 2009 |
|---|---|---|---|
| | şəxslərin sayı | | |
| 10 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 57635 | 41250 |
| 11 | Respublikada müəyyən edilmiş axtarışda olan avto-nəqliyyat vasitələrinin sayı | 30 | 25 |
| 12 | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 6 | 11 |

**2008-2009-cu illərin 9 ayı ərzində
Azərbaycan Respublikasında İnterpolun MMB-nun
xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2008 | 2009 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 5739 | 5861 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 6476 | 7450 |
| 3 | Tərcümə olunan sənədlərin sayı<br>O cümlədən:<br>Daxil olan<br>Göndərilən | 4202<br><br>1751<br>2451 | 5149<br><br>2241<br>2908 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslər barədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 457<br><br>396<br>61 | 510<br><br>451<br>59 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 36<br><br>36<br>- | 48<br><br>47<br>1 |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 20<br><br>19<br>1 | 25<br><br>22<br>3 |
| 7 | Nəşr edilmiş istiqamətləndirmələrin sayı<br>O cümlədən:<br>Qırmızı (təqsirləndirilən şəxslər)<br>Sarı (itkin düşmüş şəxslər)<br>Qara (tanınmamış şəxslər) | 144<br><br>129<br>12<br>3 | 153<br><br>143<br>10<br>- |
| 8 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 45255 | 31942 |

| № | Göstəricilər / illər | 2008 | 2009 |
|---|---|---|---|
| 9 | Respublikada müəyyən edilmiş axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 28 | 24 |
| 10 | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 3 | 10 |

**2008-2009-cu illərin I rübü ərzində
Azərbaycan Respublikasında İnterpolun MMB-nun
xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2008 | 2009 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 1768 | 2031 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 1951 | 2546 |
| 3 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslər barədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 438<br><br>379<br>59 | 1147<br><br>389<br>58 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən daxil olmuş axtarış tapşırıqlarının sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 51<br><br>44<br>7 | 20<br><br>18<br>2 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 17<br><br>17<br>- | 20<br><br>20<br>- |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 9<br><br>9<br>- | 10<br><br>10<br>- |
| 7 | Nəşr edilmiş istiqamətləndirmələrin sayı<br>Qara (tanınmamış şəxslər<br>O cümlədən:<br>Qırmızı (təqsirləndirilən şəxslər) | <br>71<br>66<br>4 | <br>46<br>40<br>6 |

| № | Göstəricilər / illər | 2008 | 2009 |
|---|---|---|---|
| | Sarı (itkin düşmüş şəxslər) | 1 | - |
| 8 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 11177 | 10369 |
| 9 | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 10 | 12 |

**2009-2010-cu illərin 6 ayı ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2009 | 2010 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 4557 | 4696 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 4987 | 5713 |
| 3 | Tərcümə olunan sənədlərin sayı<br>O cümlədən:<br>Daxil olan<br>Göndərilən | 3348<br><br>1506<br>1842 | 3925<br><br>1772<br>2153 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslər barədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 472<br><br>412<br>60 | 647<br><br>595<br>52 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 38<br><br>38<br>- | 45<br><br>45<br>- |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 19<br><br>17<br>2 | 22<br><br>21<br>1 |
| 7 | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 8 | 10 |
| 8 | Respublikadan ekstradisiya və deportasiya olunan şəxslərin sayı | - | 4 |
| 9 | Nəşr edilmiş istiqamətləndirmələrin sayı<br>O cümlədən:<br>Qırmızı (təqsirləndirilən şəxslər)<br>Sarı (itkin düşmüş şəxslər) | 111<br><br>101<br>10 | 171<br><br>169<br>2 |

| № | Göstəricilər / illər | 2009 | 2010 |
|---|---|---|---|
| | Qara (tanınmamış şəxslər) | - | - |
| 10 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 21723 | 16575 |
| 11 | Respublikada müəyyən edilmiş axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 22 | 8 |

## 2009-2010-cu illərin 9 ayı ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli

| № | Göstəricilər / illər | 2009 | 2010 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 5861 | 6699 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 7450 | 7981 |
| 3 | Tərcümə olunan sənədlərin sayı | 5149 | 5287 |
| | O cümlədən: | | |
| | Daxil olan | 2251 | 2389 |
| | Göndərilən | 2908 | 2898 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslər barədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 510 | 640 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 451 | 591 |
| | Itkin düşən şəxslərlə bağlı | 59 | 49 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı | 48 | 58 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 47 | 58 |
| | Itkin düşən şəxslərlə bağlı | 1 | - |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı | 25 | 58 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 22 | 25 |
| | Itkin düşən şəxslərlə bağlı | 3 | - |
| 7 | Nəşr edilmiş istiqamətləndirmələrin sayı | 153 | 197 |
| | O cümlədən: | | |
| | Qırmızı (təqsirləndirilən şəxslər) | 143 | 195 |
| | Sarı (itkin düşmüş şəxslər) | 10 | 2 |
| | Qara (tanınmamış şəxslər) | - | - |
| 8 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 31942 | 27616 |
| 9 | Respublikada müəyyən edilmiş, axtarışda olan | 24 | 14 |

| № | Göstəricilər illər | 2009 | 2010 |
|---|---|---|---|
| | avtonəqliyyat vasitələrinin sayı | | |
| 10 | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 10 | 17 |
| 11 | Respublikadan ekstradisiya və deportasiya olunan şəxslərin sayı | - | 5 |

**2009-2010-cu illərin I rübü ərzində**
**Azərbaycan Respublikasında İnterpolun MMB-nin**
**xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2009 | 2010 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 2031 | 2255 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 2546 | 2686 |
| 3 | Tərcümə olunan sənədlərin sayı | 1704 | 1889 |
| | O cümlədən: | | |
| | Daxil olan | 738 | 842 |
| | Göndərilən | 936 | 1047 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərbarədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 449 | 645 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 389 | 589 |
| | Itkin düşən şəxslərlə bağlı | 60 | 56 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı | 20 | 23 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 20 | 23 |
| | Itkin düşən şəxslərlə bağlı | - | - |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı | 10 | 313 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 10 | 12 |
| | Itkin düşən şəxslərlə bağlı | - | 1 |
| 7 | Nəşr edilmiş istiqamətləndirilmələrin sayı | 46 | 125 |
| | O cümlədən: | | |
| | Qırmızı (təqsirləndirilən şəxslər) | | |
| | Sarı (itkin düşmüş şəxslər) | 40 | 125 |
| | Qara (tanınmamış şəxslər) | 6 | - |
| 8 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 10369 | 7115 |

| № | Göstəricilər / illər | 2009 | 2010 |
|---|---|---|---|
| 9 | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 12 | 2 |
| 10 | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | - | - |

**2010-2011-ci illər ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2010 | 2011 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 8653 | 7596 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 10468 | 9375 |
| 3 | Tərcümə olunan sənədlərin sayı | 7498 | 5714 |
| | O cümlədən: | | |
| | Daxil olan | 3261 | 2422 |
| | Göndərilən | 4237 | 3292 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərbarədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı | 619 | 592 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 570 | 545 |
| | Itkin düşən şəxslərlə bağlı | 49 | 47 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı | 70 | 72 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 70 | 70 |
| | Itkin düşən şəxslərlə bağlı | - | 2 |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı | 25 | 29 |
| | O cümlədən: | | |
| | Təqsirləndirilən şəxslərlə bağlı | 26 | 17 |
| | Itkin düşən şəxslərlə bağlı | 2 | 2 |
| 7 | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 14 | 17 |
| 8 | Respublikadan ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 5 | 3 |
| 9 | Nəşr edilmiş istiqamətləndirmələrin sayı | 217 | 51 |
| | O cümlədən: | 214 | 46 |
| | Qırmızı (təqsirləndirilən şəxslər) | 3 | 4 |

| № | Göstəricilər / illər | 2010 | 2011 |
|---|---|---|---|
| | Sarı (itkin düşmüş şəxslər)<br>Qara (tanınmamış şəxslər) | - | - |
| 10 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 37896 | 51521 |
| 11 | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | ? | ? |

**2010-2011-ci illərin 9 ayı ərzində Azərbaycan Respublikasında İnterpolun MMB-nin xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2010 | 2011 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 6699 | 5685 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 7981 | 7182 |
| 3 | Tərcümə olunan sənədlərin sayı<br>O cümlədən:<br>Daxil olan<br>Göndərilən | 5284<br><br>2389<br>2895 | 4207<br><br>1801<br>2406 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərbarədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 640<br><br>591<br>49 | 593<br><br>549<br>44 |
| 5 | Respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 58<br><br>58<br>- | 66<br><br>64<br>- |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 26<br><br>25<br>1 | 28<br><br>26<br>2 |
| 7 | Respublikaya ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 17 | 15 |
| 8 | Respublikadan ekstradisiya və deportasiya olunan şəxslərin sayı | 5 | - |
| 9 | Nəşr edilmiş istiqamətləndirilmələrin sayı<br>O cümlədən:<br>Qırmızı (təqsirləndirilən şəxslər)<br>Sarı (itkin düşmüş şəxslər) | 197<br>195<br>2<br>- | 40<br>36<br>4<br>- |

| № | Göstəricilər / illər | 2010 | 2011 |
|---|---|---|---|
| | Qara (tanınmamış şəxslər) | | |
| 10 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 27616 | 35761 |
| 11 | Respublikada müəyyən edilmiş, axtarışda olan avtonəqliyyat vasitələrinin sayı | 14 | 19 |

**2010-2011-ci illərin I rübü ərzində
Azərbaycan Respublikasında İnterpolun MMB-nin
xidməti fəaliyyəti üzrə əsas göstəricilərin müqayisəli cədvəli**

| № | Göstəricilər / illər | 2010 | 2011 |
|---|---|---|---|
| 1 | MMB-yə daxil olan sənədlərin sayı | 2012 | 1778 |
| 2 | MMB tərəfindən göndərilən sənədlərin sayı | 2588 | 2590 |
| 3 | Tərcümə olunan sənədlərin sayı<br>O cümlədən:<br>Daxil olan<br>Göndərilən | 1842<br><br>799<br>1043 | 1790<br><br>682<br>1024 |
| 4 | Təqsirləndirilən və itkin düşmüş şəxslərlə bağlı respublika hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxslərbarədə icraatda olan ümumi axtarış tapşırıqlarının sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 645<br><br>589<br>56 | 617<br><br>569<br>48 |
| 5 | Respublika Hüquq Mühafizə Orqanları tərəfindən axtarışda olan və İntrpolun üzvü olan ölkələrdə yerləri müəyyən olunan şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 23<br><br>23<br>- | 23<br><br>23<br>- |
| 6 | İnterpolun üzvü olan ölkələr tərəfindən axtarılan və yerləri respublika ərazisində müəyyən olunmuş şəxslərin sayı<br>O cümlədən:<br>Təqsirləndirilən şəxslərlə bağlı<br>Itkin düşən şəxslərlə bağlı | 13<br>12<br>1 | 15<br>13<br>2 |
| 7 | Nəşr edilmiş istiqamətləndirilmələrin sayı<br>O cümlədən:<br>Qırmızı (təqsirləndirilən şəxslər)<br>Sarı (itkin düşmüş şəxslər)<br>Qara (tanınmamış şəxslər) | 125<br><br>125<br>- | 26<br><br>25<br>- |
| 8 | Daxil olan sorğular əsasında İnterpol kanalları ilə yoxlanılan avtonəqliyyat vasitələrinin sayı | 7115 | 8065 |
| 9 | Respublikda müəyyən edilmiş, axtarışda olan av- | 3 | 8 |

| | | | |
|---|---|---|---|
| | tonəqliyyat vasitələrinin sayı | | |
| 10 | Respublikaya ekstradisiya olunan şəxslərin sayı | 7 | 10 |
| 11 | Respublikadan ekstradisiya olunan şəxslərin sayı | - | 2 |

# BIBLIOQRAFIYA

**Azərbaycan dilində**

1. Aslanov E.Z. İnterpol və BMT-nin TŞ tərəfindən birgə nəşr olunan xüsusi istiqamətləndirmələr. Azərbaycan Respublikası DİN-in məlumat bülleteni. Bakı, 2010, № 4, 110 s.
1. Aslanov E.Z. İnterpolun yaranması və inkişafı: tarixi şərait və mövcud zərurət // femida.az, 10 may 15 th. 2012//4 comments.
2. Azərbaycan Respublikası Daxili İşlər nazirinin 2002-ci il tarixli 325 saylı əmri.
3. Azərbaycan Respublikası DİN Polis Akademiyası İnterpolun və onun Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu fəaliyyəti ilə bağlı bəzi normativ hüquqi aktlar, sorğular, icmal arayışlar və istiqamətlənmələr məcmuəsi. Bakı, 2003.
4. Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Fəaliyyət Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı. Bakı, 2007, 56 s.
5. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun cari arxivi. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun 1999, 2000, 2001, 2002, 2003, 2004, 2005, 2006, 2007, 2008, 2009, 2010, 2011, 2012, 2013-cü illər üzrə xidməti fəaliyyətinə dair arayışları.
6. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun Azərbaycan Respublikası Daxili İşlər nazirinin 27 mart 1995-ci il tarixdə 140 nömrəli əmri ilə təsdiq edilmiş Əsasnaməsi, 6 s., (rus dilində)
7. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun Əsasnaməsi. Bakı, 2003, 4 s.
8. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun Texniki-təminat şöbəsinin 2000, 2001, 2002, 2003, 2004, 2005, 2006, 2007, 2008, 2009, 2011, 2012-ci illər üzrə xidməti fəaliyyətinə dair arayış. MMB-nin cari arxivi.
9. Azərbaycan Respublikasında İnterpolun MMB-nin Təşkilati-analitik şöbəsinin 2000, 2001, 2002, 2003, 2004, 2005, 2008, 2009, 2010, 2011, 2012, 2013 – cü illər üzrə xidməti fəaliyyətinə dair arayışlar.
10. Azərbaycan Respublikasında İnterpolun MMB-nin Ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsinin 2001, 2002, 2003, 2004, 2005, 2006, 2007,

2008, 2009, 2010, 2011, 2012, 2013-cü illər üçün illik xidməti fəaliyyətinə dair arayışlar.

11. Azərbaycan Respublikasında "Narkotik vəziyyət" haqqında elmi-praktik konfrans. Bakı, 1996, 250 s.
12. Azərbaycan Respublikasının Daxili İşlər naziri cənab Ramil Usubovun BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və bununla bağlı problemlər üzrə yardımçı komissiyanın 32-ci sessiyasındakı çıxışı. "Mübariz keşikdə" qəzeti, Bakı, 20 fevral 1997.
13. Azərbaycan Respublikasının Daxili İşlər Nazirinin 2001-ci il tarixli 46/xiü saylı göstərişi.
14. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2010.
15. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2012, 92 s.
16. Babayev H.A. İnterpolun fəaliyyətinin hüquqi və təşkilati aspektləri // Hüquqi dövlət və qanun. Bakı, 2002, № 1, 80-85 s.
17. Babayev H.A. İnterpolun fəaliyyətinin təşkilati aspektləri // Qanunçuluq. Bakı, 2002, № 9, 70 s.
18. Behbudov T. Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1990-cı illər). Bakı: Elm, 1958, 350 s.
19. Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun Nizamnaməsi. Bakı: 1956.
20. Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm. Bakı, Çaşıoğlu, 2004, 324 s.
21. DİN-in mətbuat xidməti insan alverinə qarşı mübarizə: inkişafın yeni mərhələsi. Bakı, 22 yanvar 2009.
22. Elbrus Ş. Azərbaycan polisi (1-ci kitab). Bakı: Dünya, 1997, 284 s.
23. Eyvazov Vilayət. Azərbaycan Beynəlxalq Səviyyədə İnsan alverinə qarşı mübarizəyə layiqli töhfəsini verir // Mübariz keşikdə, 2015, 9 aprel, №13(3226).
24. Əliyev B.Ə. Terrorizmə qarşı mübarizədə İnterpolun rolu. Qanun, № 91-92, 2001.
25. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Bakı: Avropa Hüquqşünasları Asossiasiyası, 2009, 489 s.
26. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 483 s.
27. Əfəndiyev E.M. Huquqi yardım barədə Minsk konvensiyası. İnterpolun nizamnaməsi. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2000, 52 s.
28. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab (iyun 1993 – may 1994). Bakı: Azərnəşr, 1997, 608 s.
29. Əliyev Ş. İnsan hüquqları sahəsində beynəlxalq müqavilələr. Azərbaycan Respublikası DİN-in məlumat bülleteni, №2/2012-ci il, 111 s.

30. Əməliyyat-axtarış fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu -www. Din.gov.az.
31. Əziz B. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2014, 240 s.
32. Məmmədov T.D. Heydər Əliyevin dövlət quruculuğu və Azərbaycan Respublikasında Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun Milli Mərkəzi Bürosunun tarixi fəaliyyəti // Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri. 59-cu cild, Bakı, 2016, s. 87-99.
33. Həsənov A. Beynəlxalq terrorizm. Bakı: 2003, 508 s.
34. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərnəşr, 2005, 752 s.
35. Hüseynli İ. Azərbaycana fədakar və layiqli xidmət nümunəsi // Azərbaycan, 2016, 1 iyul.
36. Hüseynli İxtiyar. Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik respublikamızın müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir // Azərbaycan, 2007, 8 sentyabr, №201[4717].
37. Hüseynli İ., Mustafayev S. Azərbaycan polisinin yubileyi. Bakı: Apostol, 2008.
38. Hüseynli İ. Sabitliyin və inkişafın keşiyində // Azərbaycan, 2015, 1 iyul.
39. İnterpolun Azərbaycan Respublikasında Milli Mərkəzi Bürosunun cari arxivi. 2004, 2005, 2008, 2009, 2010, 2011, 2012-ci illərin illik və 2013-cü ilin 6 aylıq MMB-nin hesabat arayışı.
40. İnterpolun Baş Assambleyasının harada və hansı tarixdə keçirilməsinin siyahısı. Bakı, 28 fevral 2014.
41. İnterpolun üzvlüyünə qəbul olmuş dövlətlərin siyahısı. Bakı, 28 fevral 2014.
42. Quliyev Z.Z. İnterpolun qlobal telekominikasiya sisteminin cinayətkarlıqla mübarizədə hüquq orqanları üçün yaratdığı imkanlar // Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin məlumat bülleteni, 2012, №2.
43. Qurbanlı A. Azərbaycan polisinin yubileyi. Bakı: Apostol, 2008, 296 s.
44. Qurbanov İ.Z. İnsan alveri probleminin qiymətləndirilməsi. Azərbaycan DİN-in məlumat bülleteni. Bakı, 2012, №2, 111 s.
45. Qurbanov İ.Z. İnsan alveri şəxsin azadlığı əleyhinə olan cinayət növü kimi, Azərbaycan Respublikası DİN-in bülleteni. Bakı, 2011, №2, 75 s.
46. Qurbanov R.A. Məqalənin adı Xüsusi, tarixi, elmi, bədii və ya mədəni dəyəri olan əşyaların oğurlanmasına qarşı mübarizədə İnterpolun rolu // Azərbaycan Respublikası Daxili İşlər Nazirliyini məlumat bülleteni, 2011, №2, s.56-57.
47. Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c., Bakı, Lider, 2004, s. 439.

48. Mehdiyev N.A. Abutalıbov İ.B. Beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlığın əsas aspektləri. Bakı: 2007, Nurlan, 216 s.
49. Mədəni irsin qorunmasına dair Normativ hüquqi aktlar toplusu. Bakı: 2001, 240 s.
50. Məlikov Ə. Avropa Şurasının ekspertləri əlaqələrin inkişafından razıdırlar. // Mübariz keşikdə, 2007, 31 mart, № 20 (2838).
51. Məmmədov S. Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə. Bakı, 2004, 200 s.
52. Məmmədov T.D. Azərbaycan Daxili İşlər orqanlarının və Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyət tarixindən. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2012, № 3, s.171-176.
53. Məmmədov T.D. Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu və İnterpolun Azərbaycan Milli Mərkəzi Bürosunun beynəlxalq cinayətkarlığa qarşı mübarizədə iştirakı / Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidir. Beynəlxalq elmi konfransın materialları (xüsusi buraxılış). Bakı, 2011, 38 c. s.463-468.
54. Məmmədov T.D. Azərbaycanda İnterpol əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi üzrə tədrisə qoyulan əsas tələblər və onların icrasının xüsusiyyətləri / Ümummilli Lider Heydər Əliyevin 90 illik ildönümünə həsr olunmuş "Müasir təhsilin aktual problemləri" mövzusunda Respublika elmi-praktik konfransın materialları. Bakı, 5 may 2013, s.87-91.
55. Məmmədov T.D. Azərbaycan polisinin qəhrəmanlıq tarixindən və Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun tarixindən // Pedaqoji Universitetin Xəbərləri. Bakı, 2012, №4, s.120-127.
56. Məmmədov T.D. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturları və onun tərkib hissəsi olan Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun insan alverinə qarşı mübarizəsinin tarixi aspektləri // Tarix və onun problemləri. Bakı, 2013, № 4, s. 248-254.
57. Məmmədov T.D. Azərbaycan Respublikasında Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun Milli Mərkəzi Bürosunun tarixi fəaliyyəti / Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. Bakı, 2013, №1, s.156-161.
58. Məmmədov T.D. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu mədəni irsimizin oğurlanmasına qarşı mübarizə aparır / Müasir ictimai birlik VII beynəlxalq türk mədəniyyəti, incəsənəti, mədəni irqin mühafizəsi simpoziumu. Bakı, 2013, s.72-73.
59. Məmmədov T.D. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun narkomaniyaya qarşı mübarizəsi və təhsil müəssisələrində

buna qarşı keçirilən profilaktik tədbirlər / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi konfransının materialları. Bakı, 19-20 dekabr 2013, 1-ci cild, s.365-368.
60. Məmmədov T.D. Azərbaycan Respublikasında Interpolun MMB-si Beynəlxalq cinayətkarlıq olan terrorizmə qarşı mübarizədə /Azərbaycan Respublikasının Təhsil Nazirliyi, aspirantların və gənc tədqiqatçıların XIII respublika elmi konfransının materialları. 2009, s.98-101.
61. Məmmədov T.D. Azərbaycan Respublikasında Türkiyə Cümhuriyyətində İnterpolun Milli Mərkəzi Bürosunun cinayətkarlığa qarşı birgə mübarizəsinin tarixi aspektləri / Türkiyə Cümhuriyyətinin elan olunmasının 90 illiyi münasibəti ilə Qafqaz Universiteti və AMEA-nın Şərqşünaslıq İnstitutu tərəfindən təşkil olunmuş beynəlxalq elmi konfrans.Bakı, 28 oktyabr 2013, s.108-112.
62. Məmmədov.T.D. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu erməni faşistlərinə qarşı mübarizədə / "Ermənilərin soyqırım siyasəti bəşəriyyətə qarşı cinayətdir". Beynəlxalq elmi konfransın materialları. Sumqayıt, 2015, s.349-352.
63. Məmmədov T.D. Beynəlxalq polis təşkilatı İnterpol və Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyəti // Tarix və onun problemləri Bakı, 2012, №4, s.184-191.
64. Məmmədov T.D. Beynəlxalq Polis Təşkilatı İnterpol və Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun cinayətkarlığın beynəlxalq axtarışda fəaliyyəti // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Humanitar və təbiət elmləri seriyası. Gəncə, 2013, №2, s.138-147.
65. Məmmədov T.D. Davamlı insan inkişafı və Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyəti // Pedaqoji Universitetin Xəbərləri, №5, Bakı 2011, s.187-191.
66. Məmmədov T.D. Davamlı insan inkişafı və insan təhlükəsizliyinin təmin olunmasında Azərbaycan Respublikasının İnterpol sistemində fəaliyyəti. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Lənkəran Dövlət Universiteti, davamlı inkişaf və idarəetmə modelləri: nəzəriyyə və praktika. Beynəlxalq konfransın tezisləri. 23-25 dekabr 2011-ci il, s.91-92.
67. Məmmədov T.D. Davamlı insan inkişafı və qloballaşmada İnterpolun rolu / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illik ildönümünə həsr olunmuş V beynəlxalq elmi konfransın materialları. Bakı, 05-07 may 2014, s.457-459.
68. Məmmədov T.D. Davamlı insan inkişafında ekoloji təhlükəsizlik və İnterpolun Azərbaycan Milli Mərkəzi Bürosunun fəaliyyəti / Azərbaycan Respublikası Təhsil Nazirliyi, SDU, AMEA problemləri institutu, Ekolo-

giya və həyat fəaliyyətinin mühazirələri, VII beynəlxalq elmi konfrans materialları. SDU-50. Sumqayıt, 27-29 iyun 2012, s. 233-239.
69. Məmmədov T.D. Erməni terrorunun hədəfi və Azərbaycanda İnterpolun ona qarşı mübarizəsi / AMEA, İnsan hüquqları institutunun 15 illiyinə həsr olunmuş "Soyqırım və terror erməni ideyalarının əsas amilləri kimi" beynəlxalq konfransın tezisləri toplusu. Bakı, 2013, s.130-133.
70. Məmmədov T.D. İnterpol və Azərbaycanda İnterpolun Milli Mərkəzi Bürosunun beynəlxalq cinayətkarlığa qarşı mübarizəsi / "Azərbaycanın dövlətçilik tarixi" respublika elmi konfransının materialları. SDU-50. Sumqayıt, 2012 may, s. 85-89.
71. Məmmədov T.D. İnterpolun Azərbaycan Milli Mərkəzi Bürosunun fəaliyyətində informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin zəruriliyi / Azərbaycan Respublikası Təhsil Nazirliyi, aspirantların və gənc tədqiqatçıların XI Respublika Elmi konfransının materialları. Bakı, 2006, s.131-133.
72. Məmmədov T.D. Interpolun Beynəlxalq cinayətkarlığa qarşı mübarizə amalı və Ermənistanın təşəbbüskarlığı // Tarix və onun problemləri. Nəzəri-elmi metodik jurnal. Bakı, 2010, №4, s.191-195.
73. Məmmədov T.D. İnterpolun cinayətkarlıqla mübarizəsi və Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı beynəlxalq iqtisadi cinayətlərdən / Ümummilli lider Heydər Əliyevin 90 illik ildönümünə həsr olunmuş "Azərbaycanın sosial-iqtisadi inkişafının aktual problemləri" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2013, s. 301-307.
74. Məmmədov T.D. İnterpolun inkişaf tarixi və Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyət istiqamətləri // Azərbaycan Milli Elmlər Akademiyasının məruzələri.Bakı,Elm,2014,s.45-50.
75. Məmmədov T.D. İnterpolun yaranmasının tarixi, Azərbaycanın İnterpolun üzvlüyünə daxil olması / Azərbaycan Respublikasının Təhsil Nazirliyi, aspirant və gənc tədqiqatçıların X Respublika Elmi konfransının materialları. Bakı, 2005, s.93-95.
76. Məmmədov T.D. Qafqaz Albaniyası və işğal olunmuş ərazilərdə mədəni irsin qorunmasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyəti / NATO-nun yeni strateji konsepsiyası və Cənubi Qafqazda təhlükəsizlik çağırışları. Beynəlxalq konfransın məruzə və tezisləri. Bakı, 2014, s.124-126.
77. Məmmədov T.D. Müstəqil Azərbaycan Respublikası Beynəlxalq cinayət polisi təşkilatı İnterpolun üzvü kimi / NATO-nun Yeni strateji konsepsiyası və Cənubi Qafqazda Təhlükəsizlik çağırışları, AMEA-nın İnsan Hüquqları İnstitutu, Beynəlxalq konfransın məruzə və tezislər toplusu. Ba-

kı, 2013, s..124-126.
78. Məmmədov T.D. Sağlam ekoloji mühitin qorunması bioterrorçuluqla mübarizədə İnterpolun rolu / "Ekologiya və həyat fəaliyyətinin mühafizəsi" üzrə "Sənaye ili"nə həsr olunmuş VIII ənənəvi Beynəlxalq elmi konfransın materialları. Sumqayıt, 03 dekabr 2014, s.193-197.
79. Məmmədov T.D. Təhsil islahatlarının həyata keçirilməsinə Azərbaycan Respublikasının Daxili İşlər orqanlarının və Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun narkomaniyaya qarşı mübarizəsi şərait yaradır // Pedaqoji Universitetin Xəbərləri. Humanitar elmlər seriyası, s.322-327.
80. Məmmədov T.D. Ümummilli liderimiz Heydər Əliyevin hüquqi dövlət quruculuğu və Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyəti / Azərbaycan Respublikası Təhsil Nazirliyi, SDU, Ümumilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycançılıq" Respublika elmi konfransının materialları. Sumqayıt, 2013, s.80-88.
81. Məmmədov T.D. Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində Daxili İşlər orqanlarının və Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rolu / Ümumilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV beynəlxalq elmi konfrans materialları. 01-04 may 2013. Bakı, 2013, s.377-379.
82. Məmmədov T.D. Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpolun və Azərbaycan Respublikasının Milli Mərkəzi Bürosunun mədəni irsimizin oğurlanmasına qarşı mübarizə tarixi // Pedaqoji Universitetin Xəbərləri. Bakı, 2014, № 3, s. 111-116.
83. Məmmədova M. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə İnterpolun fəaliyyəti // Hüquqi dövlət və Qanun. Bakı, 2001, №4, s.80.
84. Mərkəzi Amerikada 800 milyon dollarlıq narkotik müsadirə edildi // Azərbaycan, 2013, 5 iyul, №144 (6419).
85. Məsimov Ə. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 72 nömrəli 9 fevral 1993-cü tarixli qərarı. Azərbaycan Respublikasının Beynəlxalq Cinayət Polisi Təşkilatı İnterpola daxil olması haqqında Nazirlər Kabinetinin qərarı. IV kitab. Bakı: 1998. 788 s.
86. Narkotizm meyillər və aradan qaldırılma tədbirləri. Bakı: OSCAR, 1999.
87. Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları. Bakı: Azərbaycan, 2003, s.256.
88. Serj Sərkisyan Xocalı haqqında nəyi etiraf edib? – Fakt /http://www.medianews.az/2015/02/26/
89. Seyran Ohanyan, Serj Sarkisyan və Robert Koçaryan Xocalı soyqırımına

görə cavab verməlidirlər // Azərbaycan, 2 aprel 2016
90. Süleymanov E. Azərbaycan iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə tətbiqi. Bakı: Qanun, 2003, 250 s.
91. Təmirov H. Uğurları ilə fəxr etdiyimiz təhsil ocagı–Polis Akademiyası // Mübariz keşikdə, 2010, 16 oktyabr, №6 (3073).
92. Usubov R. Asayişin və sabitliyin leşiyində // Azərbaycan, 2011, 20 oktyabr, №232[5922].
93. Usubov Ramil. Cinayətkarlıqla mübarizədə qarşılıqlı fəaliyyət // Azərbaycan, 1997, 30 dekabr, №287 (1808).
94. Zahidov E. Cinayətkarlıqla mübarizənin əsası məktəbdə qoyulur // Mübariz keşikdə, 2006, 14 dekabr, № 51 (2816).

## Rus dilində

95. Антипов С.П. Участие органов внутренных дел Росии в розыске лиц, подлежащих экстрадиции. Москва: 1997, с. 250.
96. Багирова И.С. Политические партии и оганизации Азербайджана в начале XX века. Баку: Элм, 1997, 250 с.
97. Бельсон Р.М. Международная организация уголовной полиции – Интерпол. Москва: 1981, 450 с.
98. Бельсон Р.М. Интерпол в борьбе с уголовной преступностью. Москва: Наука, 1989, 210 с.
99. Бреслер Ф. Интерпол. Москва: Центрополиграф, 1996, 260 с.
100. Волеводз А.Г. Международные правоохранительные организации. Москва: Проспект, 2011, 250 с.
101. Вородин С.В., Лячов У.Г. Международное сотрудничество государств в борьбе с преступностью. Ленинград: 1978, 450 с.
102. Галенская Л.Н. Международная борьба с преступностью. Москва: Международные отношения, 1972, 141 с.
103. Галенская Л.Н. Проблемы сотрудничества государств в борьбе с преступностью. Москва: 1978, 240 с.
104. Гасымов Н. Организация и тактика международного розыска в системе Интерпола. Москва: 1997, 255 с.
105. Годунов И.В. Противодействие организованной преступности: Москва: 2003, с.540.
106. Голугина М. Информационное обеспечение организации противодействия торговле людьми по каналом Интерпола. Москва: 2008, 350 с.
107. Дайцман И. Интерпол всемирная система борьбы с преступностью. Москва: 2003, Рипол классик, 450 с.

108. Доклад международного комитета по контролью над наркотиками за 1997 год – ООН. 1988, ст. 150.
109. Ежегодный доклад Международного агентства по атомной энергии (МАГАТЭ) за 2000 год.https://www.iaea.org/sites/default /files/ar 2000_rus.pdf, s.110
110. Зайцева Е.С., Деятельность Интерпола по противодействию терроризму как вклад в укрепление международного правопорядка. Москва: 2008, с.550.
111. Казанцев С. Борьба с международной преступностью. Москва: 2006, 380 с.
112. Карпец И.И. Преступление международного характера Москва: 1979, 450 с.
113. Карташкин В.А. Право человека: Международная защита в условиях глобализации. Москва: Норма, 2009, 2889.
114. Царицева В.Д. Фальшивые деньги (Фальшивомонетичество). Москва: 2002, 384 с.
115. Левитанов В.Г. Национальное Центральное бюро Интерпола. Минск: 2002, 237 с.
116. Ляхов У.Г., Попов А.В. Терроризм: национальный, региональный и международный контроль. Москва, 1999, 550 с.
117. Мамедов Т.Д. Интерпол международная организация уголовной полиции// Гилея. Науковый вестник. Киев, 2012, выпуск 64 (№ 9), с.164-169.
118. Мамедов Т.Д.Интерпол в борьбе с незаконным оборотом наркотических веществ. Москва: 2012, №1 (43), с.233-239.
119. Мамедов Т.Д. История Интерпола и Азербайджан // Казахский Национальный Педагогический Университет имени Абая. Алматы, 2012, №1 (32), с.57-65.
120. Мамедов Т.Д. Борьба с наркоманией на осуществление новых реформ в образовании / İnnovasiya təhsilin keyfiyyəti və inkişaf, 2-ci beynəlxalq elmi konfransın materialları. Bakı, 7-9 iyul 2012.
121. Мамедов Т.Д. Сотрудничество Интерпола с другими международными организациями в борьбе с международной преступностью / Культура как основной потенциал формирования позитивного имиджа Кавказа. Материалы международной научно-практической конференции. 14-16 ноября 2013 г. ст.71-76.
122. Международная конвенция по борьбе с подделкой денежных знаков от 20.04.1992 года//тарант: справ.система. 85 с.
123. Мехтиев Н.А. Правовые формы международного сотрудничества государств в борьбе с уголовной преступностью. Баку, Текнур,

2004, 250 с.
124. Мостовин Н.В. Деятельность Интерпола и Европола в сфере с фальшивомонетчеством / ИП, Сибирская ассоциация консуль-тантов, 2 ноября, 2011, 60 с.
125. Нешатаева Т.Н. Международные организации и право. Новые тен-денции в международно-правовом регулировании. Москва: 1998, с.272.
126. ОБСУ Станбульский документ. Станбуль: 1999, 35 с.
127. Овчинский В. С. Интерпол в вопросах и ответах т: Инфра. Москва: 2008, с. 368.
128. Овчинский В.С. Интерпол инфор. М.: 2001, 35 с.
129. Овчинский В.С. Интерпол против терроризма. Москва: 2008, 807 с.
130. Повышев В.Д. Борьба с киберпреступностью и кибертерроризмом. Томский Государственный Университет, Томск: 2011, 250 с.
131. Пржевальский В.В. Франц Лист и его основные воззрения на преступление и наказание. Санкт-Петербург: 1995.
132. Резолюция 1617 (2005), принятая Советом Безопасности на его 5244-м заседании 29 июля 2005 года /http://www.cbr.ru/today/anti_ legalisation/un/ 1617.pdf
133. Резолюции и решения Совета Безопасности за 1999 год /http://daccess-dds-ny.un.org/doc/UNDOC/GEN/ N00/449/41/IMG/ N0044941. Pdf.,s.166
134. Родионов К.С. Вчера, сегодня, завтра. Москва: Международные отношения. 1990, 217 с.
135. Родионов К.С. Интерпол: миф и действительность. Москва: 2004, 380 с.
136. Родионов К.С. Право и международные отношения. Интерпол и Европол. Москва, 2006.
137. Родионов К.С. Международная организация уголовной полиции (Интерпол). Москва: 1979, 156 с.
138. Родионов К.С. Миф и действительность. Москва: Международные отношения, 1986, 230 с.
139. Родионов К.С. Интерпол: миф и действительность. Москва: 1982, 350 с.
140. Родионов К.С. Интерпол: год нашего участия //Международная жизнь. Москва, 1991, №12, с.75.
141. Самарин В.И. Интерпол. Международная организация уголовной полиции. СПб.:Питер, 2003, 202 с.
142. Севдималыев Р.М. Международный терроризм глобальная пробле-ма современности. Баку: 2004, 308 с.

143. Севдималыев Р.М. Международный терроризм и политика-правовые проблемы борьбы с ним. Баку: 2011, 502 с.
144. Современные тенденции борьбы с фальшивамонетичеством, режим доступно // http//www.kesinq.ru
145. Тихоня В.Г. и Серокурова С.А. Формы сотрудничества государств в борьбе международной преступностью. Москва: 2006, 85 с.
146. Торвалд Ю. Сто лет криминалистики и развития. Москва: 1987 г., 450 с.
147. Участие Интерпола в борьбе скибер терроризмом // Российский следователь. Москва: 2007, 250 с.
148. Фелороб В.Н. Организация объединенных наций, другие международные организации и их роль в XXI веке. Москва: Логос, 2007, 944 с.
149. Шестакова К. Международная конференция Тюменская Совет Безопасности доклад эксперта борьба с торговлей людьми. Тюменский Государственный Университет, 2012, 20 с.
150. Шибаева Е. А., Поточный М. Правовые вопросы структуры и деятельности международных организаций. Москва:1980, 500 с.
151. Щтиглиц А. Исследование о выдаце преступников. Санкт-Петербург: 1982, 203 с.
152. Ялышев С.А., Самошина О.А. Интерпол в борьбе с организованной преступностью. Санкт-Петербург: Санкт- Петербургский Институт, 2009, 250 с.

**İngilis dilində**

153. Alper B., Boren Y. Crime International Agenda Lexington Mass. 1975, 450 st.
154. Beesusanna F. Lood Drugq-a. Zosing Batt Le//U.S newsand World Report-1985, march 25.
155. Bresler F. İnterpol. London: Stevenson, 1992, 370 s.
156. ICPO – Interpol. General information. Lyons: General information. Lyons: Seneral Reference Department, 1995, 90 s.
157. International Criminal Police Reviejew. Paris: 1978, № 323.
158. Jeschke Y. İnterpol Wachrichten-kriminalistik. Hamburg: 1972, Heft. I.
159. Jesckhe Y. Interpol zwischen 1933-1945// Kriminalistik(Hamburq): 1971-heft 3.
160. Michael Fooner. Interpol: Issues in world arime and international criminal justice and public sataty. 1989, 235 p.
161. Nepote Jean. International Police Cooperation. // ICPR – 1973 – № 267
162. Raguidean G., Martinez H. Levoldes dart// Revue ta police Nationale.

Paris: 1984, № 376, s 38.
163. Roy Aiain. İnterpol. Aus den Akten der international criminal policei- München: 1971, 230 s.
164. Rydzek T. Krodzieze dobt kultury w police // ptobl emy kriminalistiki. 1980.
165. Srelaff W. Interpol-Europol//kriminalistik. 1974, 305 s.
166. U.Nesdoc. Unesco. Org // images /0011/ 001158/ 115849e. pdf

**Alman dilində**

167. Die polizzeli. (Kaln)1988 st. 350.
168. Heindi R. Der internationale polize kogress in Wien-Lefpzigig: 64 52.
169. Hochenbichcr E. 45 jahre İnterpol//Kriminalsitik. 1968-heftıo.

**Dövri mətbuat**

**Azərbaycan dilində**

170. "Azərbaycan" qəzeti.
171. "Ədliyyə" qəzeti.
172. "Mübariz keşikdə" qəzeti.
173. "Yeni Azərbaycan" qəzeti.
174. "Respublika" qəzeti.
175. "Xalq qəzeti"

**Rus dilində**

176. Газ."Баку".
177. Газ. "Бакинский рабочий".
178. Газ. "Эхо".

**İnternet resursları**

179. http://old.Nationaldensc.ru/283/308/index.shtml?id=2256/
180. http://www.Civilidenttification.info/mnenieprotivdetskogo porno.htm.
181. http://www.Inf/crime.arial-areas/terrorism/fusion-tasion-task-torse
182. http://www.miq. gov. A 3.
183. http://www.crime-research.ru/news/19.09.2005/22.02.
184. http://www.unmuitimedia.org/radio/Russian/archives/68782/
185. http:İnterpol.int%%20
186. http://iaqmi.gov.az
187. http://omsk/proekty generalnogo sekretariata interpola/

188. http://www://www.kelami
189. http://arhange/85.int.ua/publ/21-1-0-1
190. http://mvd.ru/news
191. http://mvd.ru/news 21 mart 2004
192. http://news.qazeta.KZ
193. http://nregion.com/news 2007
194. http://region.com/news.
195. http://ria.ru/trend/interpol st/petersburq 07102008/#ixzz2kh 30ge fw
196. http://www.carice.org/index.php/ru/qlavnayastranica/
197. http://www.cisatc.org
198. http://www.ekrats/com/ru/international
199. http://www.interpol.inf/crime/arcas/terrorizm?Fusion.Tasion-task-tase
200. http://www.izvestia.2005
201. http://www.Pravda.ru/society/how/defendrights/24-11-2011/1099833-interpol-0.
202. http://www.topj-com/wews
203. www.İslandia.is/-ipa/whats ipa.htme
204. http:interpol.int/%20
205. www.interpol.ins/.../S.G.Kalkan Iran 2008 052
206. www.interpol.mvd.ru
207. www.mia.gov.az
208. www.milli:az. 24 may 2012.
209. www.trend.az
210. www.trend.az 2006

# MÜNDƏRİCAT

**ÖN SÖZ** ........................................................................ 3

**GİRİŞ** ........................................................................ 6

**I FƏSİL. İnterpol: dünəni, bu günü və sabahı** .................................... 14
1.1. İnterpolun meydana gəlməsinin hüquqi-tarixi aspektləri ..... 14
1.2. İnterpolun strukturu, vəzifələri, funksiyaları və başlıca fəaliyyət metodları ........................................................ 37
1.3. İnterpol beynəlxalq təşkilatlar çərçivəsində ..................... 129

**II FƏSİL. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyəti** ........................................................ 152
2.1. İnterpolun Azərbaycan Respublikası Milli Mərkəzi Bürosunun yaranması və fəaliyyətinin əsas istiqamətləri .. 152
2.2. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun strukturu və kadr təminatı ............................ 251
2.3. Azərbaycan Respublikasının Milli Mərkəzi Bürosunun beynəlxalq cinayətkarlığa qarşı mübarizəsi ...................... 290

**NƏTİCƏ** ........................................................................ 448

**İXTİSARLARIN SİYAHISI** ........................................................ 454

**ƏLAVƏLƏR** ...................................................................... 456

**BİBLİOQRAFİYA** ................................................................ 514

***Məmmədov Tohid Dilən oğlu***

***Azərbaycan Respublikasının Beynəlxalq Cinayət Polisi Təşkilatı və onun "İnterpol" sistemində fəaliyyəti***

Kompüter yığımı: Aygün Hacıyeva
Kompüter dizaynı: Səbinə Məmmədova

Yığılmağa verilmişdir: – 5 oktyabr 2019
Çapa imzalanmışdır: – 11 mart 2020

Sifariş: № 42
Formatı: 60/84 – $^{1}/_{16}$. Həcmi: 33 ç.v. Tirajı: 500
Qarnitur «Times New Roman»

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
Müəssisənin direktoru professor **N.B.Məmmədli**
Tel. 497-16-32; 427-44-61; 417-41-89; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev küç., 8-ci döngə, ev 4